# AZƏRBAYCAN PROKURORLUĞU

Elmi-praktiki jurnal




№ 4
2025

www.genprosecutor.gov.az



**“Bütün aparıcı beynəlxalq təşkilatlarda ölkəmizin münaqişə ilə bağlı mövqeyi üstünlük təşkil edirdi. Bir çox qərar və qətnamələr bizim Zəfərimizin hüquqi və siyasi əsasını təşkil edirdi. Biz güclü iqtisadiyyat qurmuşduq. Əgər bunu etməsəydik, bizim maliyyə imkanlarımız çox məhdud idi. Biz iqtisadi müstəqillik qazanmışdıq və bu gün Azərbaycan iqtisadi cəhətdən heç bir ölkədən asılı deyil. Bu, bizə daha böyük siyasi güc verirdi. Biz müstəqil siyasət aparan ölkə idik. Bu amillər digər amillərlə bərabər bizi şanlı Zəfərə yaxınlaşdırırdı”.**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Fazil Həsənəliyev

**Redaksiya heyətinin üzvləri:**
Tural Aslanov
Natiq Hüseynov
Aynur Osmanova
Səbuhi Alıyev
Elnur Musayev
Vüqar Əliyev
Natiq Abdullayev
Asəf Sarıkişiyev
Elmir Süleymanov

**Məsul katib:**
Fərizə Mirzəyeva

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu,
Süleyman Sani Axundov küçəsi 160.

**Telefon:** 361 14 26
**www.genprosecutor.gov.az**

***Elmi-praktiki jurnalın 4-cü nömrəsi***

***Oktyabr - Dekabr (2025-ci il)***

"Media haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbəəsində səhifələnmiş və 350 nüsxə kağız, 150 nüsxə elektron daşıyıcıda çap edilmişdir.

*Jurnalın çapına məsul:* Rövşən Abdullayev
*Texniki heyət:* Samir Vahidov, Səttar Əliyev

Çapa imzalanmışdır: 11.02.2026
60x84 1/8 formatda 302 səhifə həcmdədir.

© "Azərbaycan Prokurorluğu", 2026

# MÜNDƏRİCAT

## ÖLKƏDƏ

**5 Prezident İlham Əliyevin Danimarkaya səfəri**
5 İlham Əliyev Danimarkaya işgüzar səfərə gəlib
5 İlham Əliyev Kopenhagendə ziyafətdə iştirak edib
6 Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış mərasimi keçirilib
7 İlham Əliyevin Kopenhagendə Ermənistanın Baş naziri Nikol Paşinyan ilə görüşü olub
8 Kopenhagendə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti və Avropa Komissiyasının Prezidenti ilə görüşü olub
9 İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış plenar sessiyasında iştirak edib
10 İlham Əliyevin Kopenhagendə İtaliya Nazirlər Şurasının Sədri ilə görüşü olub
10 İlham Əliyevin Kopenhagendə Ukrayna Prezidenti ilə görüşü olub
11 İlham Əliyevin Kopenhagendə Fransa Prezidenti ilə görüşü olub
**12 Qəbələdə 12-ci Zirvə Görüşü**
12 İlham Əliyev Qəbələdə Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədrini qəbul edib
13 İlham Əliyev Qəbələdə Türk Dövlətləri Təşkilatının Baş katibini qəbul edib
14 İlham Əliyev Qəbələdə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti ilə görüşüb
15 İlham Əliyev Qəbələdə Macarıstanın Baş naziri ilə görüşüb
16 İlham Əliyev Qəbələdə Türkmənistan Xalq Məsləhətinin Sədri ilə görüşüb
17 İlham Əliyev Qəbələdə TDT-nin Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşılayıb
19 Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib
27 Türkmənistan tərəfindən Füzulidə tikiləcək məscidin onlayn formatda təməli qoyulub
28 Qəbələdə TDT-nin Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi nahar verilib
29 İlham Əliyevin Tacikistana səfəri
29 Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub
32 İlham Əliyev Düşənbədə MDB dövlət başçılarının qeyri-rəsmi şam yeməyində iştirak edib
32 Düşənbədə Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistan Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olub
33 İlham Əliyev Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxış edib
34 Düşənbədə MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib
35 İlham Əliyev Düşənbədə MDB dövlət başçılarının şərəfinə təşkil olunan rəsmi qəbulda iştirak edib
**36 Ölkə başçımızın Misirə səfəri**
36 İlham Əliyev Yaxın Şərq Sülh Sammitində iştirak edib
39 İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib
40 İlham Əliyev Estoniyanın xarici işlər nazirini qəbul edib
**41 İlham Əliyevin Sabirabad, İmişli, Cəbrayıl və Zəngilana səfəri**
41 İlham Əliyev Sabirabadda aqrokimyəvi vasitələrin istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olub
42 İlham Əliyev Sabirabadda pambıq emalı zavodunun fəaliyyəti ilə tanış olub
43 İlham Əliyev İmişlidə "Promalt" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) arpa emalı müəssisəsinin açılışında iştirak edib
44 İlham Əliyev Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin açılışında iştirak edib
46 İlham Əliyev Cəbrayıl şəhər məscidinin təməlini qoyub
47 İlham Əliyev Zəngilanın Məmmədbəyli və Ağalı kəndlərinin sakinlərinə mənzillərin açarlarını təqdim edib
49 İlham Əliyev Rumıniya Parlamenti Senatının sədrini qəbul edib
50 Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağı keçirilib
**55 Vətən müharibəsində Qələbənin beşinci ildönümü**
55 İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər
56 Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəhidlər xiyabanını ziyarət ediblər
57 İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Zəfər abidəsini ziyarət edib və Zəfər muzeyinin açılışında iştirak ediblər
61 Bakıda Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad keçirilib
73 Azərbaycan Prezidentinin, Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin üçtərəfli görüşü olub
**74 İlham Əliyevin Özbəkistana səfəri**
74 İlham Əliyevin Özbəkistan Prezidenti ilə təkbətək görüşü olub
75 İlham Əliyev Daşkənddə İslam Sivilizasiyası Mərkəzi ilə tanış olub
77 İlham Əliyev Daşkənddə "Gələcəyin İrsi" Beynəlxalq Mükafatının təqdimat mərasimində iştirak edib
78 İlham Əliyev Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə çıxış edib
82 İlham Əliyev NATO nümayəndə heyətini qəbul edib
83 İlham Əliyev Asiya İnkişaf Bankının nümayəndə heyətini qəbul edib
84 İlham Əliyev dərman preparatları istehsalı müəssisəsinin açılışında iştirak edib
85 İlham Əliyev Birləşmiş Krallığın müdafiə üzrə dövlət nazirini qəbul edib
86 İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin bir sıra şirkətlərinin rəhbərlərini qəbul edib
87 İlham Əliyev "Global Infrastructure Partners" şirkətinin baş icraçı direktorunu qəbul edib
**88 İlham Əliyevin Slovakiyaya rəsmi səfəri**
89 İlham Əliyevin Bratislavada rəsmi qarşılanma mərasimi olub
91 İlham Əliyevin Slovakiya Prezidenti ilə geniş tərkibdə görüşü olub
93 Azərbaycan və Slovakiya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər
95 Azərbaycan və Slovakiya prezidentləri Bratislavada "Azadlıq Qapısı" abidəsini ziyarət ediblər
96 Azərbaycan və Slovakiya prezidentləri Bratislavada Devin qəsrində olublar
97 İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib
100 İlham Əliyevin Slovakiya Milli Şurasının sədri ilə təkbətək və geniş tərkibdə görüşləri olub
101 İlham Əliyevin Slovakiyanın Baş naziri ilə təkbətək görüşü olub
102 İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər
**104 İlham Əliyevin Ağdam, Xocalı və Xankəndiyə səfəri**
104 İlham Əliyev Xankəndinin Kərkicahan qəsəbəsində olub və buraya köçən sakinlərlə görüşüb
106 İlham Əliyev Xankəndi şəhərinin Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəbin binasının əsaslı təmirdən sonra açılışında iştirak edib
107 İlham Əliyev Xankəndidə Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməlini qoyub
108 İlham Əliyev Xocalı rayonunun Ballıca kəndində "Accurate Az" MMC-nin ofis mebelləri və mebel aksesuarlarının istehsalı müəssisəsinin açılışında iştirak edib
109 İlham Əliyev Ağdamda metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında iştirak edib
110 İlham Əliyev Xankəndi şəhərində Zəfər parkının açılışında iştirak edib
112 K.B.Əliyevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

## PROKURORLUQDA

114 Prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü münasibətilə tədbir keçirilib
116 Baş prokuror Səudiyyə Ərəbistanı Krallığında işgüzar səfərdə olmuşdur
118 Baş Prokurorluğun xarici ölkələr və beynəlxalq təşkilatlarla çoxşaxəli əməkdaşlığı inkişaf edir
120 Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Braziliyaya səfərə gedib
122 Baş prokuror beynəlxalq tərəfdaşlarla hüquq sahəsində əməkdaşlıq perspektivlərini müzakirə edib
123 Zəngilanda "Zəfərin beş ili: Dövlətçilik və hüququn qələbəsi" mövzusunda konfrans keçirilib
126 Baş Prokurorluqda Zəfər gününə həsr olunmuş tədbir keçirilib
128 Baş prokuror Rumıniyada işgüzar səfərdə olmuşdur
130 Baş prokuror Amerikaya işgüzar səfər edib
132 Baş prokuror ABŞ-da bir sıra görüşlər keçirib
133 Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib
135 Baş Prokurorluqda Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunan tədbir keçirilib
137 Prokurorluq əməkdaşları anım günü ilə bağlı Fəxri Xiyabanı ziyarət edib
**138 Baş prokuror Qətərdə işgüzar səfərdə olmuşdur**
139 Baş prokurorun rəhbərlik etdiyi nümayəndə heyəti beynəlxalq tədbirdə iştirak edir
140 Baş prokuror xarici həmkarları ilə görüşlər keçirib
142 Baş prokurorun rəhbərlik etdiyi nümayəndə heyəti beynəlxalq tədbirdə iştirak etmişdir
143 Binəqədi rayon prokurorluğunun yeni inzibati binası istifadəyə verilib
145 Prokurorluq əməkdaşları "Gülçöhrə və Əsgər" tamaşasını izləyiblər
146 Baş Prokurorluqda Kollegiya iclası keçirilib
148 Baş prokurorun yerlərdə qəbulları

## BEYNƏLXALQ ƏLAQƏLƏR

151 Müstəqil Dövlətlər Birliyi (MDB) İştirakçı Dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının (BPƏŞ) 35-ci yubiley iclası keçirilib

# MÜNDƏRİCAT


**153** Baş Prokurorluğun nümayəndə heyəti Özbəkistan Respublikasında işgüzar səfərdə olub
**154** Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Özbəkistan Respublikasının Ədalət Akademiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb
**155** Baş Prokurorluğun nümayəndəsi Niderlandda kibercinayətkarlıqla mübarizə ilə bağlı tədbirdə iştirak edib
**156** Baş Prokurorluğun əməkdaşları beynəlxalq tədbirdə iştirak ediblər
**157** Baş Prokurorluğun nümayəndəsi beynəlxalq tədbirdə iştirak edib
**158** Baş Prokurorluğun nümayəndəsi Honqkonqda keçirilən beynəlxalq antikorrupsiya proqramında iştirak edib
**159** Avstriyanın paytaxtı Vyana şəhərində Beynəlxalq Antikorrupsiya Akademiyasının üzv dövlətlərin Assambleyasının 14-cü sessiyası keçirilib
**160** Baş Prokurorluğun nümayəndəsi "Geiger" işçi qrupunun iclasında iştirak edib
**161** Baş Prokurorluğun nümayəndələri Buxarest şəhərində beynəlxalq tədbirdə iştirak edib
**162** Baş Prokurorluğun nümayəndəsi Avropa Şurasının iclaslarında iştirak edib
**162** Baş Prokurorluğun əməkdaşları rəqəmsal kriminalistika və digər aktual mövzulara həsr edilmiş beynəlxalq tədbirdə iştirak edib
**163** Baş Prokurorluğun əməkdaşı beynəlxalq təlimdə iştirak edib
**164** Elektron Prokurorluq İnformasiya Sistemi (EPİS) beynəlxalq mükafata layiq görülüb
**165** Azərbaycan nümayəndə heyəti Özbəkistanda keçirilən beynəlxalq konfransda iştirak edib
**166** Baş Prokurorluğun idarə rəisi beynəlxalq konfransda iştirak edib
**167** Baş Prokurorluğun nümayəndəsi beynəlxalq forumda iştirak edib
**168** Azərbaycan Respublikasının Baş Prokurorluğu korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təsisatların idarəetmə orqanlarında təmsilçiliyini davam etdirir
**169** Türk Ədliyyə Təlim Şəbəkəsinə üzv ölkələrin nümayəndələri ilə Baş Prokurorluqda görüş keçirilib


## PROKURORLUQDA


**171** Heydər Məmmədov: Prokurorluq orqanlarında son illər müasir məzmunlu islahatlar davam etməkdədir
**171** Baş prokurorun müavini beynəlxalq təşkilatın direktorunu qəbul edib
**173** Baş Prokurorluqda "Şahid Dindirmə Müsabiqəsi"nin təlim mərhələsi keçirilib
**174** Baş Prokurorluqda "Şahid Dindirmə Müsabiqəsi"nin final mərhələsi keçirilib
**175** "Konstitusiya və Dövlət Suverenliyi: Hüquqi Aspektlər və Çağırışlar" mövzusunda Baş Prokurorluq tərəfindən regional konfrans Xaçmazda keçirilib
**177** Baş Prokurorluq tərəfindən təhsil işçiləri üçün "Antikorrupsiya davranış modelinin formalaşdırılması" mövzusunda təlim keçirilib
**178** Baş Prokurorluqda mülki müdafiə üzrə tədbir keçirilmişdir
**178** Baş Prokurorluq tərəfindən Mərkəzi Bank işçiləri üçün maarifləndirici təlim keçirilib
**179** Yetkinlik yaşına çatmayanlarla psixoloji davranış qaydaları ilə bağlı Baş Prokurorluqda təlim keçirilib
**179** Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə ilə bağlı təlim keçirilib
**180** Baş Prokurorluqda Zəfər Gününün 5-ci ildönümünə həsr olunmuş tədbir keçirilib
**181** Baş Prokurorluqda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin əməkdaşları üçün antikorrupsiya mövzusunda təlim keçirilib
**182** Medianın İnkişafı Agentliyinin əməkdaşları üçün antikorrupsiya mövzusunda təlim keçirilib
**183** Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları üçün antikorrupsiya təlimi keçirilib
**183** Konstitusiya və Suverenlik İli çərçivəsində Gəncədə ətraf mühitin mühafizəsinə həsr olunmuş elmi-praktiki konfrans keçirilib
**185** "Konstitusiya və Suverenlik İli" çərçivəsində Lənkəranda ətraf mühitin mühafizəsinə həsr olunmuş elmi-praktiki konfrans keçirilib
**186** Korrupsiyaya qarşı mübarizə üzrə maarifləndirmə" mövzusunda təlim keçirilib
**187** "İKT sahəsində biliklərinin artırılması və rəqəmsal məkanda risklərin müəyyən edilməsi" mövzusunda təlim keçirilib
**188** Baş Prokurorluq tərəfindən Mingəçevirdə "Hüquqi Dövlət və Suverenlik: Konstitusion Yanaşma" mövzusunda regional konfrans keçirilib
**190** Hakim vəzifəsinə təyin edilmiş prokurorluq işçiləri ilə Baş Prokurorluqda görüş keçirilib
**191** Bakı Dövlət Universitetinin magistratura pilləsi üzrə təhsil alan tələbələri Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olub
**192** Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən antikorrupsiya təlimi keçirilib
**192** Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində ADA Universitetinin tələbələrinin iştirakı ilə maarifləndirici görüş keçirilib
**193** Azərbaycan Respublikasının Prokurorluğu tərəfindən korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi ilə bağlı maarifləndirici tədbirlər davam etdirilir
**194** Hərbi prokuror kursantlara görüşüb
**195** Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri hospitalları ziyarət edib
**195** Hərbi Prokurorluqda milli prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümünə həsr olunmuş tədbir keçirilib
**197** Hərbi Prokurorluqda Zəfər gününə həsr olunmuş tədbir keçirilib
**197** Hərbi Prokurorluq Daxili Qoşunlarda "Elm və innovasiyanın çağdaş hərbi gücün əsaslarından birinə çevrilməsi" mövzusunda dəyirmi masa keçirib
**198** Hərbi Prokurorluqda Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunan tədbir keçirilib
**199** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən Muxtar Respublikanın mərkəzi icra hakimiyyəti orqanlarında, ali və orta-ixtisas təhsili müəssisələrində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda tədbirlər keçirilib
**200** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilakçılığı ilə "Ətraf mühitin mühafizəsinin elmi və hüquqi əsasları" mövzusunda maarifləndirici tədbirlər keçirilib
**200** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən tabe prokurorluqlarda insan hüquqlarının müdafiəsindən irəli gələn öhdəliklərin icrası sahəsində prokurorluq orqanlarının vəzifələri mövzusunda seminar keçirilib
**201** Noyabr ayının 7-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi Zəfər abidəsini ziyarət edib
**201** Naxçıvan Muxtar Respublikasının tabe prokurorluqlarında "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin Etik Davranış Kodeksi"nin tələbləri öyrənilib
**202** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi Ulu Öndər Heydər Əliyevin xatirəsini yad edib
**203** Xaçmaz Rayon Prokurorluğunda "Açıq Qapı" günü keçirilib
**204** Xaçmazda "Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun rolu" mövzusunda seminar keçirilib
**205** Prokurorluq əməkdaşları "Zəfər Günü"nün 5-ci ildönümü ilə bağlı Gəncə Memorial Kompleksini ziyarət ediblər
**206** Mingəçevir şəhər prokurorluğunda "Açıq Qapı" günü keçirilib
**207** Mingəçevirdə "Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun rolu" mövzusunda seminar təşkil olunub


## PROKURORLUQ VƏ CƏMİYYƏT


**208** Mətbuat xidmətinin məlumatı
**214** *Fazil Həsənəliyev* – Cinayət məsuliyyətindən azad etmə cinayətə görə dövlətin şəxsi mühakimə etməkdən və ona cəza tətbiq etməkdən imtina etməsidir
**223** *Səbuhi Şahverdiyev* – Azərbaycan süni intellekt ideyalarına əsaslanan yeni inkişaf mərhələsinə keçid ərəfəsində
**228** *Sərdar İmanov* – Vətəndaşların ölkə ərazisindən çıxışına və girişinə qadağa qoyulması ilə bağlı hüquq tətbiqetmədə yaranan problemlər və onların həlli istiqamətləri
**234** *Müşfiq Şıxəliyev* – İnsan alveri qurbanlarının müdafiəsi ilə bağlı xüsusi yanaşmalar
**237** *Faiq Səfərov* – Beynəlxalq hüququn və beynəlxalq adət hüququnun "pacta sunt servanda" prinsipi


## GƏNC HÜQUQŞÜNASLARIN MƏQALƏLƏRİ


**240** *Cavidan Babayev* – Prokurorluğun cəmiyyətdə rolu


## XARİCİ HƏMKARLARIN TƏCRÜBƏSİ


**244** *Каримберди Ганибаев* – Законодательство Республики Узбекистан по борьбе с экологическими правонарушениями
**247** *Г.Г. Нубаева, К.М. Сердалинов – Совершенствование института примирения сторон на стадии досудебного разбирательства в уголовном процессе Казахстана*


## PROKURORLUĞUN VETERANLARI


**255** Veteran prokurorluq işçisi təbrik edilib
**255** "Azərbaycan Respublikası Prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçiləri" İctimai Birliyi üzvlərinin "8 Noyabr - Zəfər Günü" ilə bağlı bəyanat
**256** Prokurorluğun veteranı Hüseynxan Məmmədovun müsahibəsi


## HÜQUQİ AKTLAR


**261** Qanunvericiliyə dəyişikliklər

# Prezident İlham Əliyevin Danimarkaya səfəri



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirak etmək üçün bu ölkəyə işgüzar səfərə gəlib.

Kopenhagen şəhərinin beynəlxalq aeroportunda Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı rəsmi şəxslər qarşılayıblar.

# İlham Əliyev Kopenhagendə ziyafətdə iştirak edib





Oktyabrın 1-də Kopenhagendə Danimarka Kralı X Frederik və Kraliçası Meri Elizabetin adından ziyafət verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.



# Kopenhagendə “Avropa Siyasi Birliyi”nin 7-ci Zirvə toplantısının açılış mərasimi keçirilib



Oktyabrın 2-də Danimarkanın paytaxtı Kopenhagen şəhərində “Avropa Siyasi Birliyi”nin 7-ci Zirvə toplantısının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Danimarkanın Baş naziri Mette Frederiksen Azərbaycan Prezidenti İlham Əliyevi, Zirvə toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını qarşıladı.

Qeyd edək ki, “Avropa Siyasi Birliyi”nin 7-ci Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirlər.

Plenar iclaslarda və ondan sonra keçiriləcək dəyirmi masalarda Avropadakı ümumi təhlükəsizlik vəziyyəti, Rusiya-Ukrayna müharibəsi, iqtisadi təhlükəsizlik, miqrasiya, ənənəvi və hibrid təhlükələr kimi mövzular müzakirə olunur.

“Avropa Siyasi Birliyi” təhlükəsizlik, iqtisadi sabitlik, demokratik idarəetmə kimi sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələr arasında siyasi-iqtisadi koordinasiyanı təşviq etməyə yönəlmiş hökumətlərarası platformadır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.

# İlham Əliyevin Kopenhagendə Ermənistanın Baş naziri Nikol Paşinyan ilə görüşü olub



Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşü olub.

Görüşdə tərəflər ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə keçirilmiş Vaşinqton Sülh Sammitində əldə olunan razılaşmaların əhəmiyyətini vurğulayıblar. Onlar Ermənistan və Azərbaycan arasında sülhün daha da möhkəmləndirilməsi istiqamətində səy göstərməyə hazır olduqlarını bir daha təsdiq ediblər.

Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri regionda nəqliyyat kommunikasiyalarının faydalarını vurğulayıb, Azərbaycan ərazisində infrastrukturun inkişafı ilə bağlı cari işlərin gedişatı və Ermənistan ərazisində TRIPP layihəsini müzakirə edib, Vaşinqton Bəyannaməsinin icrası ilə bağlı fikir mübadiləsi aparıblar.

Tərəflər bu xüsusda ATƏT-in Minsk prosesinin və onunla əlaqəli strukturların ləğv olunması ilə bağlı yekdilliklə qəbul edilmiş qərarı alqışlayıblar.

Görüşdə tərəflər etimad quruculuğu tədbirlərinin bundan sonra da həyata keçirilməsinin vacibliyini vurğulayıb və təmasları davam etdirmək barədə razılığa gəliblər.

# Kopenhagendə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti və Avropa Komissiyasının Prezidenti ilə görüşü olub





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 2-də Kopenhagendə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşü olub.

Görüşdə Antonio Koşta və Ursula Fon der Lyayen dövlətimizin başçısını Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbrik etdilər, bunun regionda davamlı sülhün təmin olunmasına xidmət edəcəyinə ümidvarlıqlarını bildirdilər. Antonio Koşta və Ursula Fon der Lyayen sülhün dəstəklənməsi üçün bundan sonra da səylərini davam etdirəcəklərini bildirdilər. Onlar, həmçinin regionda nəqliyyat bağlantılarının inkişafının Avropa İttifaqı üçün mühüm istiqamət olduğunu dedilər.

Görüşdə Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı rola toxunuldu, 2022-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair əldə edilmiş razılaşmaya uyğun olaraq Azərbaycanın Avropanın qaz bazarına ixracının həcminin artdığı bildirildi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi və sülh gündəliyi ilə bağlı nailiyyətlərin bütün region, o cümlədən Ermənistan və Azərbaycan üçün tarixi əhəmiyyət kəsb etdiyini dedi. Prezident İlham Əliyev həm Ermənistanın, həm də Azərbaycanın artıq sülh şəraitində yaşamağa uyğunlaşdıqlarını qeyd etdi və ölkəmizin sülh gündəliyinin irəli aparılması üçün səyləri davam etdirəcəyini vurğuladı.

Prezident İlham Əliyev hazırda Avropanın 10, o cümlədən Avropa İttifaqının 8 üzv dövlətinin Azərbaycan qazını aldığını bildirdi və bunun Avropa İttifaqının enerji təhlükəsizliyinə mühüm töhfə olduğunu dedi.

Dövlətimizin başçısı Azərbaycanın Orta Dəhlizin inkişafında oynadığı rolu qeyd edərək, ölkəmizdə nəqliyyat-logistika infrastrukturunun inkişaf etdirilməsi istiqamətində görülən işlərdən danışdı və hazırda Mərkəzi Asiyadan Azərbaycan ərazisindən nəqliyyat daşımalarının həcminin artdığını bildirdi.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin inkişaf etdirilməsi və yeni səviyyəyə qaldırılması üçün yaxşı imkanların olduğu vurğulandı.

# İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış plenar sessiyasında iştirak edib




Oktyabrın 2-də Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış plenar sessiyası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Sonra tədbirin iştirakçıları birgə foto çəkdiriblər.





# İlham Əliyevin Kopenhagendə İtaliya Nazirlər Şurasının Sədri ilə görüşü olub



Oktyabrın 2-də Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşü olub.

Görüşdə Azərbaycanla İtaliya arasında münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyi bildirildi və bu xüsusda bir neçə gün əvvəl İtaliya Prezidentinin Azərbaycana uğurlu rəsmi səfəri, səfər çərçivəsində Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışı qeyd olundu.

Söhbət zamanı Azərbaycan ilə İtaliyanın enerji sahəsində uğurlu əməkdaşlığına toxunuldu, ölkəmizin İtaliyanın enerji təhlükəsizliyinə töhfəsi vurğulandı. Ölkələrimiz arasında investisiyalar, mədəniyyət, humanitar və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu.

# İlham Əliyevin Kopenhagendə Ukrayna Prezidenti ilə görüşü olub







Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub.

Ukrayna Prezidenti Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə bağlı Vaşinqtonda əldə olunmuş nəticələr münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev sülh gündəliyinin irəliyə aparılması istiqamətində atılmış addımların tarixi əhəmiyyət kəsb etdiyini dedi. Dövlətimizin başçısı regionda davamlı sülhün təmin olunması üçün Azərbaycanın bundan sonra da səylərini davam etdirəcəyini vurğuladı.

Görüşdə Azərbaycanın Ukraynaya humanitar dəstəyi, xüsusilə də ukraynalı uşaqlara göstərilən diqqət və qayğı qeyd olundu. Ukrayna tərəfi buna görə təşəkkürünü bildirdi.

Söhbət zamanı iki ölkə arasında enerji sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

## İlham Əliyev Kopenhagendə Niderlandın Baş naziri ilə görüşüb




Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Niderland Krallığının Baş naziri Dik Sxof ilə görüşü olub.

Niderlandın Baş naziri Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin irəliyə aparılması ilə bağlı Vaşinqtonda əldə olunmuş nəticələrlə əlaqədar dövlətimizin başçısına təbriklərini çatdıraraq, bunun mühüm əhəmiyyət daşıdığını vurğuladı.

Prezident İlham Əliyev də öz növbəsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Ermənistanla Azərbaycan arasında imzalanmış Vaşinqton Bəyannaməsinin və Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına dair sənədin regional sülh baxımından əhəmiyyətinə toxundu, iki ölkə arasında artıq sülhün mövcud olduğunu qeyd etdi.

Görüşdə Niderland şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyi vurğulandı, bunun gəmiçilik, limanların qurulması, elektrik sənayesi, kənd təsərrüfatı, şəhərsalma və digər sahələri əhatə etdiyi qeyd olundu.

Söhbət zamanı Azərbaycanla Niderland arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.

Niderlandın Baş naziri ölkəmizdə COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı və həmin tədbir çərçivəsində beynəlxalq iqlim gündəliyi ilə əlaqədar ciddi nəticələrin əldə olunduğunu qeyd etdi.

## İlham Əliyevin Kopenhagendə Fransa Prezidenti ilə görüşü olub




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 2-də Kopenhagendə Fransa Respublikasının Prezidenti Emmanuel Makron ilə görüşü olub.

Fransa Prezidenti Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyi ilə əlaqədar nəticələr münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Vaşinqtonda əldə olunmuş nəticələrin regional sülh gündəliyinin irəli aparılması üçün tarixi əhəmiyyət kəsb etdiyini vurğuladı. Dövlətimizin başçısı hazırda sülh gündəliyinin irəliyə aparılması üçün müxtəlif istiqamətlər üzrə qarşılıqlı fəaliyyətin həyata keçirildiyini qeyd etdi.

Görüşdə Azərbaycanla Fransa arasında əlaqələrin mövcud vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Qəbələdə 12-ci Zirvə Görüşü

## İlham Əliyev Qəbələdə Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımı qəbul edib.

Söhbət zamanı dövlətimizin başçısının Binəli Yıldırımla görüşləri, həmçinin onun ölkəmizə səfərləri məmnunluqla xatırlandı.

Qonaq Türk Dövlətləri Təşkilatının fəaliyyətinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək vurğuladı ki, Təşkilatın Ağsaqqallar Şurası bundan sonra da Türk dövlətləri arasında əməkdaşlığın inkişafı prosesinə öz töhfəsini verməyə davam edəcək.

Görüşdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün əhəmiyyətinə toxunuldu, ölkəmizdə təşkil edilmiş digər beynəlxalq tədbirlər kimi, bu sammitin də yüksək səviyyədə keçiriləcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı Azərbaycan və Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə daha da genişlənməsi qeyd edildi.



# İlham Əliyev Qəbələdə Türk Dövlətləri Təşkilatının Baş katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.

Söhbət zamanı dövlətimizin başçısı ilə qonağın görüşləri məmnunluqla xatırlandı.

Baş katib Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə bağlı Amerika Birləşmiş Ştatları Prezidenti Donald Trampın şahidliyi ilə Vaşinqtonda əldə olunmuş nəticələr münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkür etdi.

Kubanıçbek Ömüralıyev Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunun daha da artması, üzv və müşahidəçi ölkələr arasında əməkdaşlığın gücləndirilməsi işinə Azərbaycanın verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Görüşdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçiriləcək 12-ci Zirvə Görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna həsr olunduğu vurğulanaraq, tədbir çərçivəsində təşkilatın gündəliyində duran aktual məsələlərin müzakirə ediləcəyi bildirildi.

Dövlətimizin başçısı bu Zirvə Görüşünün Türk dünyasında dostluq, həmrəylik və tərəfdaşlığın möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Söhbət zamanı ölkəmizlə təşkilat arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.



# İlham Əliyev Qəbələdə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ilə görüşüb.

Ersin Tatar Prezident İlham Əliyevlə ölkəmizdə və beynəlxalq tədbirlər çərçivəsində görüşlərini, həmçinin Şuşada Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə toplantısında iştirakını məmnunluqla xatırladı, Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev ölkəmiz tərəfindən Şimali Kipr Türk Cümhuriyyətinə dəstəyin bundan sonra da davam etdiriləcəyini dedi.

Qonaq Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin irəliyə aparılması istiqamətində Vaşinqtonda Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə əldə edilmiş nəticələrlə bağlı təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qatılmasının önəmi qeyd edildi.

Qəbələdə keçirilən Zirvə Görüşünün TDT çərçivəsində ölkələrarası tərəfdaşlığın daha da genişlənməsində rolu vurğulandı.

Görüşdə bir sıra sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu.



# İlham Əliyev Qəbələdə Macarıstanın Baş naziri ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Macarıstanın Baş naziri Viktor Orban ilə görüşüb.

Macarıstanın Baş naziri Azərbaycana əvvəlki səfərlərinin, həmçinin Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə Görüşündə iştirakının önəminə toxundu.

Söhbət zamanı bu ilin mayında Budapeştdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə Görüşü məmnunluqla xatırlandı.

Azərbaycanla Macarıstan arasında əlaqələrin mövcud vəziyyəti yüksək qiymətləndirildi. Bu xüsusda enerji, investisiyalar, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu. Macar şirkətlərinin Cəbrayıl rayonunun Soltanlı kəndinin tikintisində iştirakı vurğulandı.



# İlham Əliyev Qəbələdə Türkmənistan Xalq Məsləhətinin Sədri ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Qəbələdə Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşüb.

Qurbanqulu Berdiməhəmmədov Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmənistan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Söhbət zamanı Azərbaycan Prezidentinin Türkmənistan Xalq Məsləhətinin Sədri ilə görüşləri, həmçinin onun bu ilin iyulunda ölkəmizə səfəri məmnunluqla xatırlandı.

Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçiriləcək 12-ci Zirvə Görüşünün əhəmiyyətinə toxunuldu, bu sammitin türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsi və xalqlararası əlaqələrin daha da inkişaf etdirilməsində rolu vurğulandı.

Görüşdə qardaşlıq, mehriban qonşuluq və əməkdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-Türkmənistan dövlətlərarası əlaqələrinin hazırkı səviyyəsi yüksək qiymətləndirildi, xalqlarımızı dərin qardaşlıq ənənələrinin birləşdirdiyi qeyd olundu. Siyasi, iqtisadi, nəqliyyat, energetika, parlamentlərarası, humanitar, mədəni, təhsil və digər sahələrdə əlaqələrimizin uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimizin beynəlxalq təşkilatlarda səmərəli əməkdaşlığına toxunuldu.

Azərbaycan Prezidenti və Türkmənistan Xalq Məsləhətinin Sədri əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar.



## İlham Əliyev Qəbələdə TDT-nin Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşılayıb









Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşılayıb.

Dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.






TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ
DÖVLƏT BAŞÇILARI ŞURASININ 12-ci ZİRVƏ GÖRÜŞÜ
12th MEETING OF THE COUNCIL OF HEADS OF STATE
OF THE ORGANIZATION OF TURKIC STATES

## Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib



Oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev Zirvə Görüşündə iştirak ediblər.

Prezident İlham Əliyev Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşıladı, birgə foto çəkdirildi.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı




- Hörmətli dövlət və hökumət başçıları.

Əziz dostlar.

Azərbaycanın qədim şəhəri olan Qəbələyə xoş gəlmisiniz. Qəbələ geniş coğrafiyanı əhatə edən, eramızdan əvvəl IV əsrdə əsası qoyulmuş və eramızın VIII əsrinə qədər mövcud olmuş Qafqaz Albaniyasının paytaxtı idi.

İlk növbədə, Türk Dövlətləri Təşkilatına (TDT) uğurla sədrlik etmiş Qırğız Respublikasına təşəkkürümü bildirirəm.

Bu gün Türk Dövlətləri Təşkilatı, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilatımızın beynəlxalq səviyyədə nüfuzunun artması məmnunluq doğurur. Ortaq tarixi və etnik köklərimiz, müştərək milli-mənəvi dəyərlərimiz bizi bir ailə kimi birləşdirir.




Ölkəmiz təşkilatın işinə dəstək məqsədilə Katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində ianə köçürmüşdür.

Daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial TDT-ni qlobal arenada vacib aktora çevirir.

Sevindirici haldır ki, Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşləri ilə yanaşı, qeyri-rəsmi Zirvə görüşlərinin keçirilməsi artıq ənənəyə çevrilib. Ötən il ilk dəfə Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə Görüşü və bu il Budapeştdə baş tutmuş görüşümüz mühüm qərarlarla yadda qalmışdır.

Hörmətli həmkarlar, bu gün sülh və təhlükəsizlik hər bir ölkənin inkişafı üçün əsas amildir.

Təşkilatımızın təməl sənədi olan Naxçıvan Sazişində sülhün qorunması və təhlükəsizlik əsas məqsəd və vəzifələr sırasında yer alıb. Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda, ötən il Şuşada qeyri-rəsmi Zirvə Görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinə və bugünkü Zirvə Görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna uyğun olaraq, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir.

Məlumdur ki, təhlükəsizlik təmin edilmədən inkişaf mümkün deyil. Beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulduğu dövrdə ölkələrimiz arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq çox önəmli amillərdən biridir. Bu çərçivədə müttəfiqimiz olan Türkiyə ilə dərin əməkdaşlıq mövcuddur. Yalnız son bir ildə Türkiyə ilə birgə 25-dən artıq ikitərəfli və çoxmillətli hərbi təlimlər keçirilmişdir.

Ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif edirəm.

Bugünkü dünyada hərbi güc hər bir ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün əsas amilidir.

2020-ci il 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz, həmçinin 2023-cü ildə qətiyyətli antiterror tədbirləri nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu. Bununla da ölkəmizin ərazi bütövlüyü və əzəli torpaqlarımız üzərində suverenliyi bərpa olundu. Bu tarixi nailiyyət yalnız Azərbaycanın milli iradəsinin və əzmkar mübarizəsinin təntənəsi deyil, eyni

zamanda, bölgədə ədalətin, sülhün və sabitliyin bərqərar olunmasına mühüm töhfədir.

İki ay əvvəl Vaşinqtonda, Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması Cənubi Qafqazı sülh məkanına çevirəcək. Vaşinqton Zirvəsi çərçivəsində, eyni zamanda, ATƏT-in Minsk qrupunun və əlaqədar strukturların bağlanması üçün edilmiş birgə müraciətə uyğun olaraq, sentyabrın 1-də ATƏT tərəfindən qəbul edilmiş qərarla keçmiş münaqişənin bu qalıqları da aradan qaldırıldı.

Beləliklə, atdığımız addımlar Azərbaycanın irəli sürdüyü sülh gündəliyini bir daha təsdiq etdi.

Biz Ermənistan işğalını heç vaxt unutmayacağıq. Şəhidlərimizin əziz xatirəsini həmişə qəlbimizdə saxlayacağıq. Onların qanını biz döyüş meydanında aldıq. İşğalçını əzəli torpaqlarımızdan qovduq, Zəfər çaldıq və eyni zamanda, ədalətli sülhə nail olduq.

Əziz dostlar, nəqliyyat və kommunikasiya əlaqələri Türk Dövlətləri Təşkilatı çərçivəsində strateji əhəmiyyətə malikdir. Türk dünyasının nəqliyyat, kommunikasiya, tranzit və digər istiqamətlərdə potensialından istifadə məqsədilə görülən işlər qlobal əhəmiyyətli layihələrin icrasına gətirib çıxarıb.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır. Ölkəmiz Türkiyə ilə Mərkəzi Asiya arasında coğrafi, iqtisadi, nəqliyyat və digər sahələrdə körpü rolunu oynayır.

2022-ci ildən bəri Orta Dəhlizlə yükdaşımalar təqribən 90 faiz artıb. Dəhliz boyu tranzit müddətləri əhəmiyyətli dərəcədə azalıb. Xəzərin ən böyük ticarət donanması, yaxın illərdə gücü ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirib.

Bu çərçivədə Vaşinqton Zirvəsinin digər mühüm nəticələrindən biri də Zəngəzur dəhlizinin açılmasıdır. Zəngəzur dəhlizi həm Orta Dəhliz, həm də Şimal-Cənub Dəhlizi çərçivəsində yeni nəqliyyat arteriyası və ikinci marşrut kimi mühüm əhəmiyyət kəsb edir.

Sülh, regional bağlantılar və iqtisadi inkişafla əlaqəli olan digər mühüm istiqamət enerji təhlükəsizliyidir. Ölkəmiz bu məqsədlərin qlobal səviyyədə təmin edilməsində fəal rol oynayır. Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində özünü etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqləyib.

Şaxələndirilmiş neft və qaz kəmərləri vasitəsilə Xəzər regionunun beynəlxalq bazarlara birləşdirilməsində strateji rol oynayırıq. Hazırda biz 14 ölkəyə təbii qaz ixrac edirik. Coğrafi əhatəsinə görə boru kəmərləri ilə təbii qaz ixrac edən ölkələr sırasında Azərbaycan birinci yerdədir.

Azərbaycan, həmçinin Günəş, külək və su elektrik enerjisi kimi bərpaolunan enerji mənbələrinə böyük sərmayələr cəlb edir. 2030-cu ilə qədər enerji istehsalımızın təxminən 40 faizi bərpaolunan mənbələr hesabına təmin ediləcək.

Hazırda biz Orta Asiya, Azərbaycan, Türkiyə, Avropa yaşıl enerji dəhlizi üzərində işləyirik.

TDT-yə üzv ölkələrlə Azərbaycan bir çox önəmli sərmayə layihələrini icra edib. Bu günə qədər qardaş ölkələrin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox vəsait qoyulub. Bunun əsas hissəsi Türkiyə iqtisadiyyatına qoyulmuş sərmayədir. Bununla bərabər, Azərbaycan Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla birgə sərmayə fondları yaradıb. Bu fondlar vasitəsilə bir çox layihələr icra ediləcək.

Ümumilikdə, atılan addımlar Türk dünyası daxilində iqtisadi inteqrasiyanın, enerji və nəqliyyat sahəsində dost və qardaş ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsinə və regionumuzun dayanıqlı inkişafına xidmət edir.

Qeyd etdiyim kimi, ortaq tarixi və etnik köklərimiz, dillərimiz bizi bir ailə kimi birləşdirir. Burada 1926-cı ildə Bakıda təşkil edilmiş birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətini vurğulamaq istərdim.

Gələn il birinci Türkoloji Qurultayın keçirilməsinin 100 illik yubileyinin Türk Dövlətləri Təşkilatı çərçivəsində təntənəli şəkildə təşkil olunmasını təklif edirəm.

Əminəm ki, Zirvə Görüşümüz qəbul edəcəyimiz qərarlarla Türk Dövlətləri Təşkilatının mövqeyini daha da gücləndirəcək, xalqlarımızın rifahına və təhlükəsizliyinə əlavə töhfə verəcəkdir.

Çıxışımın sonunda Qarabağın və Şərqi Zəngəzurun bərpasına dəstək üçün qardaş ölkələrə bir daha təşəkkürümü bildirirəm. Füzulidə Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, Ağdamda Manas adına məktəb artıq fəaliyyətdədir. Bu, özbək, qazax, qırğız qardaşlarımızın hədiyyəsidir. Macar qardaşlarımızın hədiyyəsi Cəbrayılda tikilən məktəbdir. Türkmən qardaşlarımızın hədiyyəsi – bu gün təməli qoyulan Füzuli məscididir. Qardaş Türkiyənin şirkətləri bir çox tunellər, körpülər, yollar inşa edir. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq.

Sağ olun.

***

Zirvə Görüşü digər dövlət və hökumət başçılarının çıxışları ilə davam edib.



Göstərilən qonaqpərvərliyə və yüksək təşkilatçılığa görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına təşəkkür edən **Qırğız Respublikasının Prezidenti Sadır Japarov dedi:** "Cənab Baş katib, hörmətli dövlət başçıları. Əvvəlcə mən İlham Heydər oğlu Əliyevə və qardaş Azərbaycan xalqına göstərilən qonaqpərvərliyə və bu görüşün keçirilməsinə görə təşəkkür edirəm. Qəbələ iki min illik tarixə malik qədim bir şəhərdir və bizim burada yığışmağımız heç də təsadüfi deyil. Oktyabrın 3-də 16 illiyi tamam olan Naxçıvan Sazişi olduqca vacib bir sənəddir. Bu qısa dövr ərzində təşkilatımız dinamik şəkildə inkişaf edib və regional səviyyədə nüfuzunu gücləndirib".

Qırğızıstan Prezidenti ölkəsinin hər zaman sülhün, sabitliyin və mehriban qonşuluğun tərəfdarı olduğunu vurğulayaraq bildirib: "Biz Azərbaycan Respublikasının Prezidenti ilə Ermənistanın Baş naziri arasında imzalanmış Birgə Bəyannaməni alqışlayırıq. Bu, hər iki ölkənin siyasi rəhbərliyinin iradəsini göstərir və bunun sayəsində Cənubi Qafqazda davamlı sülh, təhlükəsizlik və etimad qurulacaq. Bu sahədə Zati-aliləri İlham Heydər oğlu Əliyevin məhz sülh prosesinə olan töhfəsini xüsusi qeyd etmək istəyirəm".

Prezident Sadır Japarov 2026-cı ildə Dünya Köçəri Oyunlarının ölkəsində keçiriləcəyini vurğuladı və Zirvə Görüşünün iştirakçılarını fəxri qonaq qismində həmin Oyunlara dəvət etdi.

"Bu Zirvə Görüşü çərçivəsində Qırğız Respublikası təşkilata sədrliyini başa çatdırır və onu qardaş Azərbaycana ötürür. Əminəm ki, Azərbaycanın sədrliyi çərçivəsində təşkilat öz inkişafını davam etdirəcək və beynəlxalq müstəvidə nüfuzunu daha da artıracaq. Eyni zamanda, türk xalqlarının firavanlığına yönəlmiş bütün təşəbbüslər inkişaf edəcək", – deyə Sadır Japarov bildirib.

***



Türkdilli xalqlar arasında birliyin və əməkdaşlığın gücləndirilməsinin strateji əhəmiyyətini vurğulayan **Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev** Azərbaycan Prezidenti İlham Əliyevə qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkür etdi. Qazaxıstan Prezidenti Azərbaycan ilə Ermənistan arasında sülh istiqamətində imzalanmış Birgə Bəyannaməni tarixi addım adlandıraraq dedi: "Mən Azərbaycan ilə

Ermənistan arasında sülhlə bağlı Birgə Bəyannamənin imzalanmasını təqdir etmək istəyirəm və inanıram ki, bu, 30 il davam edən münaqişənin həllində mühüm tarixi addım olacaq. Bu gün mövcud geosiyasi vəziyyətin fonunda türk dövlətləri arasındakı birlik çox vacibdir. Əziz qardaşlar, məşhur Azərbaycan şairi Bəxtiyar Vahabzadə vaxtilə qeyd etmişdir ki, "Türkün türklə ədavətə haqqı yoxdur". Bizim ağsaqqalların dedikləri bu kimi sözləri çox yüksək tutmalı və türk dövlətlərini bir araya gətirməkdə əlimizdən gələni etməliyik. Növbəti sədrlik bizim azərbaycanlı qardaşlarımıza keçir. Bu işdə Prezident İlham Əliyevə təşəkkür edir və uğurlar diləyirəm".

Kasım-Jomart Tokayev Qazaxıstan, Azərbaycan və Özbəkistan arasında yaradılmış yaşıl enerji dəhlizini Türk dünyasında uğurlu əməkdaşlığın nümunəsi kimi qiymətləndirib.

***




**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan** çıxışında türk xalqlarının mədəni irsini qorumaqla yanaşı, süni intellekt texnologiyalarını da fəal şəkildə inkişaf etdirəcək böyük türk dili modelinin tətbiqinin vacibliyindən danışıb. O, həmçinin ölkəsinin Cənubi Qafqazda baş verənləri izlədiyini, bölgədə sülhə və sabitliyə töhfə verəcək addımların əhəmiyyətini vurğulayaraq deyib: "Azərbaycan ilə Ermənistan arasında avqustun 8-də imzalanan Birgə Bəyannaməni bu baxımdan xeyirli addım olaraq görür, davamının gəlməsini arzulayırıq. Bu gün bir daha türk dövlətləri olaraq aramızdakı həmrəylik, qarşılıqlı hörmət və qardaşlıq ruhu ilə gələcəyə əmin addımlarla irəlilədiyimizi göstərdik. Biz böyük Türk dünyasını daha da gücləndirərək övladlarımıza miras qoyacağıq. Bir azdan imzalayacağımız Qəbələ Bəyannaməsinin və qəbul edəcəyimiz qərarların Türk dünyası başda olmaqla, bütün dost və qardaş ölkələrə xeyirli olmasını diləyir, Azərbaycana və dəyərli qardaşım hörmətli Əliyevə mükəmməl ev sahibliyi üçün yenidən təşəkkürümü çatdırır, Türk Dövlətləri Təşkilatının üzvü olan dost və qardaş ölkələrin xalqlarına ən səmimi sevgilərimi göndərirəm".

***




Türk dövlətləri arasında iqtisadiyyat, ticarət, nəqliyyat əlaqələrinin inkişafı istiqamətində atılan addımların əhəmiyyətini qeyd edən **Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev** Azərbaycanla Ermənistan arasında sülh danışıqları prosesinə toxunaraq bildirdi: "Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə yüksəksəviyyəli təşkilatçılığa və qonaqpərvərliyə görə təşəkkür edirəm. Sizin təşəbbüslərininiz sayəsində biz son illərdə Azərbaycanın müxtəlif guşələrini ziyarət etmişik. Bu gün biz gözəl Qarabağın inkişafının, Şuşa, Xankəndi və Ağdam şəhərlərində həyata keçirilən işlərin şahidiyik. Biz Sizin yaxın dostlarınız kimi bu inkişafa olduqca sevinirik. Heç bir mübaliğəsiz demək olar ki, Ermənistanla imzaladığınız sülhlə bağlı Birgə Bəyannamə məhz Sizin siyasi iradəniz sayəsində mümkün olmuşdur və bu, türk dövlətlərinin birgə nailiyyətidir. Bu Bəyannamə ilə iqtisadiyyat, ticarət, nəqliyyat və humanitar sahələrdə də geniş əməkdaşlıq imkanları açılır".

***



**Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov** hazırda dünyadakı vəziyyət fonunda ölkələrimiz arasında əməkdaşlığın, sülhün, sabitliyin və etimadın gücləndirilməsinin vacibliyini vurğulayaraq qeyd etdi: “İlk növbədə, mən əziz qardaşım, Zati-aliləri İlham Heydər oğlu Əliyevə bu tədbirdə iştirak etmək üçün dəvətinə və mənə göstərilmiş səmimi qonaqpərvərliyə görə təşəkkür edirəm.

Türk Dövlətləri Təşkilatı birgə tarixə, mədəniyyətə, irsə və dilə malik qardaş xalqları bir araya gətirir. Təşkilatın əsas hədəfi həmrəyliyi, dostluğu və qardaşlığı gücləndirmək, regional və beynəlxalq səviyyədə birgə fəaliyyəti təşviq etməkdir”.

***




**Macarıstanın Baş naziri Viktor Orban** çıxışında türk dövlətləri arasında bəşəri dəyərlərin qorunduğu, sabitliyin və qarşılıqlı inamın hökm sürdüyü bir mühiti müşahidə etməsindən məmnunluğunu bildirdi, dövlətimizin başçısının həyata keçirdiyi bərpaolunan enerji layihələrini, sülhə və əməkdaşlığa verdiyi önəmi vurğuladı. “Hörmətli cənab Prezident, Sizin heyrətamiz nailiyyətləriniz, iqtisadiyyatın inkişafı, bərpaolunan enerji resursları və bu sahəyə qoyulan sərmayə onun sübutudur ki, Mərkəzi Asiya regionu və bu region Avropa İttifaqının “qızıl ehtiyatı”dır. Cənab Prezident Əliyevə təşəkkür edirəm ki, Azərbaycanın ən mühüm qaz yatağında macar şirkətinin iştirakı üçün şərait yaratdı. Bu, bizim üçün çox mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, Prezident Əliyevi və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, biz təkcə dost deyilik, biz strateji tərəfdaşıq”, - deyə Baş nazir əlavə edib.

***



Azərbaycanın qədim tarixi şəhəri olan Qəbələdə keçirilən Zirvə Görüşünə dəvətə görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına dərindən təşəkkür etdiyini bildirən **Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar** dedi ki, bu Zirvə Görüşünün ortaq tariximizə qızıl hərflərlə yazılmış Qarabağ Zəfərinin beşinci ildönümünə təsadüf etməsi mühüm məna daşıyır. “Qardaş Azərbaycanın qətiyyəti, cəsarəti və haqlı mübarizəsi ilə qazandığı bu Qələbə yalnız ərazilərinin işğaldan azad edilməsi deyil, ədalətin və milli qətiyyətin zəfəridir. Bu, böyük Türk dünyasının ortaq zəfəridir. Qarabağ Zəfəri bizə bir daha göstərdi ki, Türk dünyası birlikdə olanda hər çətinliyin öhdəsindən gəlmək mümkündür. Həmrəy şəkildə fəaliyyət göstərən türk dövlətləri yalnız öz təhlükəsizliyini deyil, regionda sülhün, sabitliyin və rifahın ən güclü təminatçısıdır. Şimali Kipr Türk Cümhuriyyəti olaraq biz Azərbaycanın haqlı mübarizəsində hər zaman yanında olduq və



bundan sonra da olacağıq. Biz eyni coğrafiyanın, eyni mədəniyyətin, eyni kökdən başlanan ortaq tarixin mirasçılarıyıq. Biz bu gün yalnız bir araya gəlmirik, eyni zamanda, ortaq gələcəyimizi birlikdə formalaşdırırıq. Bu mühüm Zirvə Görüşündə bizi səmimi qonaqpərvərliklə qarşılayan Azərbaycan Prezidenti, Qarabağ fatehi cənab İlham Əliyevə bir daha təşəkkürümü bildirmək istəyirəm", – deyə E.Tatar bildirdi.

***



**Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev** çıxışında qeyd etdi ki, qədim Qəbələ şəhərində bir araya gəlmək, xüsusilə də Azərbaycan ilə Ermənistan arasında sülhün nizamlanması ilə bağlı Birgə Bəyannamənin imzalanmasından sonra toplaşmaq çox mühüm rəmzi məna daşıyır. O dedi: "Hörmətli dövlət və hökumət başçıları, Vaşinqtonda Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Zəngəzur dəhlizinin təmin edilməsi tarixi əhəmiyyətə malikdir və bu, Türk dünyasını geosiyasi səviyyədə gücləndirəcək. Zəngəzur dəhlizinin açılması qədim İpək Yolunun bərpası ilə yanaşı, bizim ölkələr üçün yeni iqtisadi və tranzit imkanları yaradacaq. Çin, Qırğızıstan, Özbəkistan dəmir yolu layihəsi istismara verildikdən sonra Orta Dəhlizin strateji əhəmiyyəti daha da artacaq".

"Bu gün Türk Dövlətləri Təşkilatı mühüm regional təşkilata çevrilir", - deyən Baş katib Türk Universitetlər Birliyinin Daimi Katibliyinin və xüsusi proqram fondunun təsis edildiyini bildirdi və qeyd etdi ki, Azərbaycanın ianə etdiyi 2 milyon ABŞ dollarının bir hissəsi məhz bu layihənin maliyyələşdirilməsinə yönəldiləcək.

Azərbaycanın təşkilata sədrliyinin əməkdaşlığın dərinləşdirilməsi, iqtisadi əlaqələrin gücləndirilməsi və qarşılıqlı tərəfdaşlığın inkişafında uğurlu olacağına əminliyini bildirən Kubanıçbek Ömüralıyev dedi: "Bu gün tərəfinizdən qeyd edilən vacib fikirlər və irəli sürülmüş təkliflər Qəbələ Bəyannaməsinə

və bizim Katibliyin fəaliyyət planına daxil ediləcək. Tədbirin yüksək səviyyədə təşkilinə və səmimi qonaqpərvərliyə görə Zati-aliləri cənab İlham Əliyevə bir daha təşəkkür edirəm”.

***

Zirvə Görüşünə yekun vuran **Prezident İlham Əliyev** dedi:

– Hörmətli həmkarlar.

Əziz dostlar.

Bugünkü müzakirələrə verdiyiniz dəyərli töhfələr üçün hər birinizə təşəkkür edirəm. Səsləndirilən bəyanatlar və fikirlər Türk Dövlətləri Təşkilatının gələcək fəaliyyəti üçün əhəmiyyətli istiqamətləri müəyyən edir.

Təşkilatımızın Katibliyinə və Ağsaqqallar Şurasına ümumi işimizə verdikləri töhfəyə görə təşəkkürümü bildirirəm. Əminəm ki, bugünkü Zirvə Görüşü dostluğumuzu, qardaşlığımızı daha da gücləndirəcək.

Sağ olun!

***

Sonra Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə Görüşünün Bəyannaməsinin imzalanması mərasimi oldu.

***



Daha sonra çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Əziz dostlar.

Əziz qardaşım, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov iyul ayında Qarabağa səfəri zamanı Füzulidə Türkmənistan tərəfindən məscidin tikintisini təklif edib. Biz bu hədiyyəyə görə qardaş Türkmənistana təşəkkür edirik.

Bu Zirvə Görüşü çərçivəsində məscidin təməlqoyma mərasimi nəzərdə tutulub.

İndi bütün qardaş ölkələrin rəhbərlərini təməlqoyma mərasiminə dəvət edirəm.

***

Sonra məscidin təməlqoyma mərasimi keçirildi.

## Türkmənistan tərəfindən Füzulidə tikiləcək məscidin onlayn formatda təməli qoyulub




Oktyabrın 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov və Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak edən digər dövlət və hökumət başçıları Türkmənistan tərəfindən Füzulidə tikiləcək məscidin onlayn formatda təməlini qoyublar.





Türkmənistan tərəfindən Füzulidə inşa ediləcək məscid kompleksinin ümumi ərazisi 1 hektardan çox olacaq. Məscid binasında hər biri 40 metr olmaqla 2 minarə inşa ediləcək. Əsas günbəzin hündürlüyü isə 30 metr təşkil edəcək. Burada eyni vaxtda 500 nəfər ibadət edə biləcək.

Qeyd edək ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası istiqamətində Azərbaycan dövlətinin gördüyü işlərə TDT-yə üzv və müşahidəçi ölkələr də öz töhfələrini verir. Belə ki, Türkmənistan tərəfindən Füzulidə məscidin tikintisi ilə yanaşı, bu rayonda Özbəkistan tərəfindən Mirzə Uluqbəy adına məktəbin, Qazaxıstan tərəfindən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin, Ağdamda Qırğızıstan tərəfindən Manas adına məktəbin tikilib istifadəyə verilməsi, Macarıstan tərəfindən Cəbrayılda məktəb binasının tikilməsi, Türkiyə şirkətlərinin bir çox tunel, körpü və yolların inşasında iştirakı bunun əyani göstəricisidir.



## Qəbələdə TDT-nin Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi nahar verilib

Oktyabrın 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türk Dövlətləri Təşkilatının (TDT) 12-ci Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi nahar verilib.







# İlham Əliyevin Tacikistana səfəri





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun dəvəti ilə MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün oktyabrın 9-da Düşənbəyə səfərə gəlib.

Düşənbə Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin sədri Rüstəm Emoməli və digər rəsmi şəxslər qarşıladılar.

## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub



Oktyabrın 9-da Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub.



Görüşdə çıxış edən **Prezident Vladimir Putin** dedi:

– Hörmətli İlham Heydər oğlu.

Bu yaxınlarda biz – doğrudur, Pekində hər halda qısa da olsa görüşdük. Buna qədər bir neçə dəfə telefonla danışmışıq.

Görüşümüzə daha həssas mövzu – bizim hava məkanında baş verən aviasiya faciəsi ilə başlamaq istərdim. Artıq həmin vaxt bizim aramızda birinci telefon danışığı əsnasında mən faciənin məhz Rusiya səmasında baş verdiyinə görə üzr istədim, həm də həlak olanların ailələrinə ən səmimi başsağlığı verdim. İstərdim ki, bütün bunları təkrar edim, yenidən söyləyim və qeyd edim, biz sözsüz ki, razılaşdığımız kimi, istintaqa hər cür kömək göstəririk.

İstintaq başa çatmaq üzrədir və indi ümumilikdə bu faciənin, bu qəzanın səbəbləri barədə danışmaq olar. O, bir neçə amillə əlaqədardır.

Birincisi ondan ibarətdir ki, səmada Ukraynanın pilotsuz uçuş aparatı vardı. Biz faciə günü gecə Rusiya Federasiyasının sərhədini keçən üç belə pilotsuz aparatı eyni vaxtda izləyirdik.

İkinci səbəb Rusiyanın hava müdafiə sisteminin özündə texniki nasazlığın olmasından ibarətdir. Buraxılan iki raket birbaşa təyyarəyə dəyməyib, – əgər bu baş versəydi, təyyarə yerindəcə məhv olardı, - raketlər partlayıb, ola bilər ki, bu, bir neçə metr məsafədə, təqribən 10 metrlik məsafədə özünü məhv etmək olub. Ona görə də təyyarə zədələnib, amma əsas məsələ odur ki, məhvedici döyüş elementləri ilə deyil, yaqin raketin parçalarının özü ilə. Məhz bu səbəbdən pilot hadisəni quş sürüsü ilə toqquşma kimi qiymətləndirib, bu barədə rusiyalı dispetçerlərə məlumat verib, bütün bunlar “qara qutular”da qeyd olunub. Həmçinin ona təklif olunub ki, - bu da “qara qutular”da var, yaxşı eşidilir, - Mahaçqalaya eniş etsin, amma o, qalxdığı aeroporta qayıtmaqla bağlı qərar qəbul edib, sonra isə Qazaxıstana uçub. Bununla belə, fakt faktlığında qalır.

Faciənin səbəblərini indi Sizə təqdim etdim. Bütün bunlar baş verənlərin texniki xarakteristikasının dəqiq analizindən və “qara qutular”ın nəticələrinin saniyəbəsaniyə yoxlanılmasından sonra sənədlərdə öz əksini tapıb.

Biz Sizinlə bu mövzunu sonradan müzakirə etdik. Sözsüz ki, belə hallarda, bu cür faciəli vəziyyətlərdə tələb olunduğu kimi, Rusiya tərəfindən kompensasiya üzrə hər şey ediləcək və bütün vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət veriləcək.

Əlbəttə, bu faciə ilə bağlı ailələrin dəstəklənməsinə, onlara mənəvi dəstək verilməsinə yönəlmiş bütün sözlər belə hallarda əsas problemi həll etmir – faciə nəticəsində həlak olmuş insanları həyata qaytarmaq mümkün deyil.

Amma bizim borcumuz, bir daha təkrar edirəm, biz Sizinlə əvvəldən baş verənlərə obyektiv qiymət vermək və əsl səbəbləri üzə çıxarmaq barədə razılaşmışdıq. Ancaq bu, müəyyən vaxt tələb edir. Qəti nöqtəni qoymaq üçün yəqin ki, hələ bir az vaxt tələb olunacaq. Amma ümumilikdə, mən Sizə əsasən elə bu görüşümüz ərəfəsində - dünən, srağagün aldığım məlumatları çatdırdım. Hətta düzünü desək, bu gün gecə Moskvaya zəng etdim və əlavə hər hansı detalların olduğunu soruşdum. Demək olar ki, Sizə mənə məlum olanların hamısını danışdım. Bu, birinci hissədir.

İkincisi. Qeyd etmək istərdim ki, buna baxmayaraq, bizim maraqlarımız, qarşılıqlı maraqlarımız bir çox sahələrdə üst-üstə düşür və çox yaxındır. Əlbəttə, hər şeydən əvvəl bu, iqtisadi-ticari əlaqələrə aiddir. Bu faciə ilə əlaqədar indi danışdığım bütün nüanslara, onunla əlaqədar hansısa məsələlərə baxmayaraq, iqtisadi-ticari əlaqələr inkişaf edib və uğurla inkişaf edir. Keçən il ticarət dövriyyəsində təqribən 6 faiz, bu il isə 16 faizdən çox artım olub. Bu, çox yaxşı göstəricidir.

Sizin bu mövzuya diqqətiniz sayəsində bizim humanitar əlaqələrimiz həmişə yüksək səviyyədə olub. Ancaq biz indi bu barədə hələ danışacağıq. Birincisi, bununla bağlı Sizə minnətdarıq, ikincisi, əlbəttə, özümüz də hər şeyi edəcəyik ki, bu dinamika qorunub saxlanılsın.

Təbii ki, bizim XİN-lər regionda vəziyyətlə bağlı, ümumilikdə beynəlxalq arenada şəraitlə əlaqədar həmişə bir-biri ilə çox sıx fəaliyyət göstərib. Ümidvaram ki, bu əməkdaşlıq, sadəcə, bərpa olunmayacaq, həm də bizim münasibətlərimizin, müttəfiqliyimizin ruhunda davam edəcək. Biz bunu heç vaxt unutmuruq, o qədər də uzaq olmayan keçmişdə imzalanan müqaviləni xatırlayırıq və öz tərəfimizdən hər şeyi edəcəyik ki, onun bütün əsas müddəaları həyata keçirilsin.

Sizə təşəkkür edirəm.

***

Sonra çıxış edən **Prezident İlham Əliyev** dedi:

– Vladimir Vladimiroviç, çox sağ olun.

Əvvəlcə görüşə görə Sizə təşəkkürümü bildirmək istərdim. Siz qeyd etdiyiniz kimi, biz Pekində Sizinlə qısaca görüşdük, həmçinin elə iki gün əvvəl doğum gününüzlə əlaqədar Sizə zəng etdim. Fürsətdən istifadə edərək, Sizi bir daha təbrik etmək və Sizə, yaxınlarınıza, dost Rusiya xalqına ən xoş arzularımı çatdırmaq istərdim.

Əlbəttə, Azərbaycan Hava Yollarının təyyarəsinin keçən ilin dekabrında qəzaya uğraması ilə bağlı faciə haqqında ətraflı informasiyaya görə xüsusilə təşəkkür edirəm. Biz Sizinlə dərhal təmasa keçdik. Xatırlayırsınızsa, bu faciəli gündə mən Sankt-Peterburqda görüşə uçurdum və mənə məlumat verildikdə təyyarədən dərhal Sizə zəng etdim və bir-birimizə başsağlığı verdik. Həmçinin Sizdən MDB-nin qeyri-rəsmi sammitində iştirak edən həmkarlarımıza da obyektiv səbəblərdən bu tədbirdə iştirak edə bilməyəcəyimi çatdırmağınızı xahiş etdim.

Eyni zamanda, bu vəziyyəti nəzarətdə saxladığınıza görə Sizə təşəkkür etmək istərdim. Sizinlə dəfələrlə fikir mübadiləsi aparmışıq, həmçinin komandalarımızın üzvləri daim təmasdadırlar. Siz şəxsən istintaqın gedişinə nəzarət edirsiniz və bizim heç bir şübhəmiz olmayıb ki, o, bütün məsələləri obyektiv araşdıracaq. Ona görə də bizim görüşümüzdə məhz bu məsələyə aydınlıq gətirməyi zəruri hesab etdiyiniz üçün Sizə bir daha minnətdarlığımı ifadə etmək istərdim.

Siz qeyd etdiyiniz kimi, bu il təkcə iqtisadi-ticari münasibətlər deyil, həm də bütün istiqamətlər üzrə əlaqələr uğurla inkişaf edir, əmtəə dövriyyəsinin artımında yaxşı dinamika mövcuddur. Həmçinin bütün başqa istiqamətlər üzrə heç bir yerdə hər hansı gecikmə və yaxud geriləmə olmayıb. Əksinə, Sizinlə təsdiq etdiyimiz yol xəritələri uğurla həyata keçirilir.

Həmçinin bu yaxınlarda Rusiya-Azərbaycan Hökumətlərarası Komissiyasının iclası keçirilib, həmsədrlər təkcə iqtisadi-ticari deyil, bütün məsələlərin geniş spektrini ətraflı müzakirə ediblər.

Əlbəttə, bu gün gündəliyi bir daha nəzərdən keçirmək üçün yaxşı imkandır. O, kifayət qədər geniş və müsbətdir. Beləliklə, bu informasiyaya görə bir daha təşəkkür edirəm və əminəm ki, bu gün cəmiyyətlərimizə göndərdiyiniz mesajlar da müsbət qarşılanacaq.

**Prezident Vladimir Putin:** Sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

## İlham Əliyev Düşənbədə MDB dövlət başçılarının qeyri-rəsmi şam yeməyində iştirak edib

Oktyabrın 9-da Düşənbədə MDB dövlət başçılarının qeyri-rəsmi şam yeməyi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.



## Düşənbədə Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistan Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olub

Oktyabrın 10-da Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olub.

Söhbət zamanı iki ölkənin dövlət başçılarının Azərbaycanda və Tacikistanda, həmçinin beynəlxalq tədbirlər çərçivəsində görüşləri məmnunluqla xatırlandı, yüksəksəviyyəli qarşılıqlı səfərlərin müxtəlif sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi işinə verdiyi töhfəyə toxunuldu.

MDB Dövlət Başçıları Şurasının Düşənbədə keçirilən iclasının aktual məsələlərin müzakirəsinə yaxşı imkan yaratdığı qeyd edildi.

Görüşdə Azərbaycan və Tacikistan prezidentləri əlaqələrimizin uğurla inkişaf etdiyini vurğuladılar və əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi apardılar.





# İlham Əliyev Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxış edib



Oktyabrın 10-da Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**




– Hörmətli Emoməli Şərifoviç.

Hörmətli həmkarlar.

Əvvəlcə qonaqpərvərliyə, tədbirimizin yüksək səviyyədə təşkilinə görə Tacikistan Prezidenti hörmətli Emoməli Şərifoviç Rəhmona təşəkkürümü bildirmək istərdim.

Qardaş Tacikistan xalqını Prezidentin rəhbərliyi ilə əldə olunmuş uğurlar və nailiyyətlər münasibətilə təbrik etmək istərdim.

Düşənbədə dəfələrlə olarkən ölkənin paytaxtının necə sürətlə inkişaf etdiyini, yeni binaların tikildiyini görürəm. Bütün bunlar bizi dost kimi çox sevindirir. Şəhərsalma sahəsində uğurlar münasibətilə təbrik edirəm və Düşənbənin ildən-ilə gözəlləşdiyinə şadam.

Bu gün, həmçinin Tacikistan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin ardıcıl inkişafını qeyd etmək istərdim. Onlar qardaşlıq, dostluq, qarşılıqlı dəstəyə əsaslanır və böyük inkişaf potensialına malikdir.

Bugünkü iclasda humanitar sahədə əməkdaşlığın möhkəmləndirilməsi məsələlərinə toxunmaq istərdim. Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhərinin bu il MDB-nin mədəniyyət paytaxtı kimi namizədliyini dəstəklədiklərinə görə MDB dövlət başçılarına təşəkkürümü bildirirəm. Bu ilin iyununda Laçında “MDB-nin mədəniyyət paytaxtı İli”nin açılış mərasimi keçirildi, Azərbaycanın bu qədim torpağının tarixi, mədəni irsi haqqında məlumat verildi. Tədbirin qonaqları Laçının Ermənistanın 30 illik işğalından azad ediləndən sonra sürətli dirçəlişinin əyani şəkildə şahidi oldular. Tamamilə dağıdılmış şəhər bir neçə il ərzində ən gözəl və yaşayış üçün rahat şəhərlərdən birinə çevrilib.

Birliyin həyatında daha bir mühüm hadisə sentyabrın 28-dən oktyabrın 8-dək qədim Gəncə şəhərində - XII əsrin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin vətənində keçirilən III MDB Oyunları oldu. Gəncə ilə yanaşı, Azərbaycanın daha altı şəhərində - Qəbələ, Göygöl, Yevlax, Mingəçevir, Xankəndi, Şəkidə 13 ölkədən – həm MDB üzvləri olan, həm də qonaq ölkələrdən 1600-dən çox idmançı qəbul edildi. Bu qəbildən tədbirlər MDB məkanında və onun hüdudlarından kənarda dostluğu, əməkdaşlığı möhkəmləndirir, bərabərhüquqlu, qarşılıqlı maraqlara və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin güclənməsinə kömək edir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident Emoməli Rəhmon:** İlham Heydər oğlu, sağ olun.

# Düşənbədə MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib



Oktyabrın 10-da Düşənbədə MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Tədbirdə Tacikistan Prezidenti Emoməli Rəhmon, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, Müstəqil Dövlətlər Birliyinin (MDB) Baş katibi Sergey Lebedev və Birliyin MDB İnsan hüquqları komissiyasının sədri, Rusiyanın insan hüquqları üzrə müvəkkili Tatyana Moskalkova çıxış ediblər.

Sonra tədbirin yekun sənədləri imzalanıb.

İclasda Tacikistan Prezidenti Emoməli Rəhmona "Humanitar əməkdaşlığın inkişafında xidmətlərə görə" medalı təqdim olunub.



# İlham Əliyev Düşənbədə MDB dövlət başçılarının şərəfinə təşkil olunan rəsmi qəbulda iştirak edib



Oktyabrın 10-da Düşənbədə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun adından MDB dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.



# Ölkə başçımızın Misirə səfəri



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün oktyabrın 12-də Misirə işgüzar səfərə gəlib.

Şarm əl-Şeyx şəhərinin beynəlxalq aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Misirin gənclər və idman naziri Əşrəf Subhi və digər rəsmi şəxslər qarşıladılar.

## İlham Əliyev Yaxın Şərq Sülh Sammitində iştirak edib






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün Misirdə işgüzar səfərdə olub.

Dövlətimizin başçısı oktyabrın 13-də Sammitin keçirildiyi Şarm əl-Şeyx şəhərindəki Beynəlxalq Konqres Mərkəzinə gəldi.

Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi dövlətimizin başçısını qarşıladı, sonra birgə foto çəkdirildi.

Daha sonra Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp dövlətimizin başçısını salamladı.

Azərbaycan və ABŞ prezidentləri birgə foto çəkdirdilər.

Sonra Yaxın Şərq Sülh Sammitinin iştirakçıları birgə foto çəkdirdilər.






Sammitdə Prezident Donald Tramp Azərbaycan və Ermənistan liderlərinin Vaşinqton görüşünə toxunaraq dedi: "Budur, mən bu yaxınlarda bu şəxs üçün müharibəni bitirdim. Azərbaycan, işimi bəyəndinizmi? Bəs Sizin həmkarınız haradadır? Budur, buradadır. Siz ikiniz artıq yola gedirsiniz, elə deyilmi? Onlar 32 il müharibə etdilər, biz isə bir saata bu məsələni həll etdik, elədirmi? İndi onlar yola gedirlər, bu yaxşıdır, düşünürəm ki, bu əladır.

***



Sonra sülh sazişinin imzalanması mərasimi oldu.



***

İmzalanma mərasimindən sonra bəyanatla çıxış edərkən ABŞ Prezidenti Donald Tramp Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlərə toxunaraq bildirdi: “Burada Ermənistan və Azərbaycan var. Biz bu müharibəni bitirdik. Mənim onlarla görüşüm Oval ofisdə baş tutdu. Onlar 31 il vuruşdular, ağlasığmaz bir rəqəmdir. Oval ofisdə bir-birinə əks tərəfdə əyləşmişdilər. Bir saatdan sonra işimiz bitəndə hər ikisi bir-birini qucaqlayırdı. İndi də onlar dostdurlar və çox gözəl anlaşırlar. Ona görə də hər ikinizə təşəkkür etmək istəyirəm. Bu, həqiqətən inanılmazdır. Çox sağ olun”.



# İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də ATƏT-in fəaliyyətdə olan sədri, Finlandiya Respublikasının xarici işlər naziri Elina Valtonenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qəbula görə təşəkkürünü bildirən Elina Valtonen, ilk növbədə, Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubbun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Stubba çatdırmağı xahiş etdi.

Söhbət zamanı dövlətimizin başçısı ilə Finlandiya Prezidentinin görüşləri, həmçinin Bakıda keçirilmiş COP29 tədbirində Finlandiyanın ən yüksək səviyyədə iştirakı məmnunluqla xatırlandı.

Elina Valtonen Vaşinqtonda Azərbaycanla Ermənistan arasında əldə olunmuş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik edərək, bunun ATƏT məkanında sülh və sabitliyin bərpası, həmçinin regional əməkdaşlıq baxımından önəmini qeyd etdi.

Qonaq Azərbaycan və Ermənistanın müraciəti əsasında ATƏT-in Minsk prosesinin və onunla əlaqəli strukturların fəaliyyətinin 2025-ci il dekabrın 1-dək ləğv ediləcəyini bildirdi.

Dövlətimizin başçısı vurğuladı ki, Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşmalar sülh gündəliyinin irəli aparılmasına şərait yaratdı.

Prezident İlham Əliyev Vaşinqtonda Ermənistanın icrası ilə bağlı üzərinə öhdəlik götürdüyü TRIPP layihəsinin regional əməkdaşlıq baxımından önəminə toxundu, onun bütün bölgə üçün faydalı olacağını dedi.

Söhbət zamanı ölkəmizlə ATƏT arasında əməkdaşlıq məsələləri müzakirə olundu, Azərbaycan-Finlandiya ikitərəfli əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.







# İlham Əliyev Estoniyanın xarici işlər nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Estoniya Respublikasının xarici işlər naziri Marqus Tsahknanı qəbul edib.

Estoniyanın xarici işlər naziri Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə olunmuş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi, bu məsələdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi rolunu vurğuladı. Vaşinqton görüşündəki razılaşmaların tarixi əhəmiyyət daşıdığını deyən Prezident İlham Əliyev Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında nəqliyyat bağlantısının açılmasının önəminə toxundu.

Estoniyanın xarici işlər naziri Ermənistanın Qazaxıstandan idxal etdiyi taxılın Azərbaycan ərazisindən tranzit yolu ilə daşınmasına ölkəmiz tərəfindən icazə verilməsinin Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində mühüm addım olduğunu vurğuladı.



Nazir ölkəmizə geniş tərkibdə biznes nümayəndə heyəti ilə gəldiyini və Bakıda biznes-forumun keçirildiyini dedi, bu cür tədbirlərin ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafına təkan verəcəyinə ümidvarlığını bildirdi.

Qonaq Estoniyanın Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrini dəstəklədiyini qeyd edərək, hazırda Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin inkişafındakı müsbət dinamikanın məmnunluq doğurduğunu dedi.

Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə Tirana və Kopenhagendə görüşlərini məmnunluqla xatırladı, ölkəmizlə Avropa İttifaqı arasında enerji, nəqliyyat bağlantıları və digər sahələrdə əməkdaşlıq üçün yeni perspektivlərin açıldığını qeyd etdi.

Qonaq COP29-un Azərbaycanda uğurla keçirilməsi münasibətilə də təbriklərini çatdıraraq, bu tədbirdə beynəlxalq iqlim gündəliyi ilə bağlı ciddi nəticələrin əldə edildiyini vurğuladı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# İlham Əliyevin Sabirabad, İmişli, Cəbrayıl və Zəngilana səfəri

## İlham Əliyev Sabirabadda aqrokimyəvi vasitələrin istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Sabirabad Sənaye Məhəlləsində "Humix" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) aqrokimyəvi vasitələrin istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olub.

Əvvəlcə iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına Sabirabad Sənaye Məhəlləsi barədə məlumat verdi.

Qeyd edək ki, ölkədə sənaye məhəllələrinin yaradılması Azərbaycan Respublikası Prezidentinin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü ildə imzaladığı Fərmanla müəyyən edilib. Sənaye məhəlləsinin yaradılmasında məqsəd sənaye və xidmət sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarların inkişafı üçün əlverişli şəraitin təmin edilməsi və əhalinin istehsal və xidmət sahəsində məşğulluğunun artırılmasıdır. Sabirabad Sənaye Məhəlləsi dövlətimizin başçısının 2017-ci ildə imzaladığı Sərəncamla yaradılıb. Məhəllənin ümumi ərazisi 20,3 hektardır. Məhəllə sahibkarlıq subyektlərinin fəaliyyət göstərməsi üçün zəruri infrastrukturla təmin olunub. İndiyədək burada 8 rezident qeydiyyatdan keçib və fəaliyyətə başlayıb. Ümumilikdə sənaye məhəlləsində 100-dən çox iş yeri yaradılıb. Rezidentlər tərəfindən sənaye məhəlləsinə 10 milyon manatdan çox investisiya qoyulub.

"Humix" MMC ilə tanışlıq zamanı bildirildi ki, müəssisəyə 2021-ci ildə Sabirabad Sənaye Məhəlləsinin rezidenti statusu verilib. Müəssisədə orqanik mineral (toz), kimyəvi (maye və toz) və qranul gübrələr istehsal olunur. Türkiyə, Çin və yerli texnologiya əsasında fəaliyyət göstərən müəssisənin illik istehsal gücü 18 min ton gübrə təşkil edir. Burada istehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldilməklə yanaşı, ixrac da ediləcək. Müəssisədə 16 nəfər daimi işlə təmin olunub.




Qeyd edək ki, investisiya məbləği 1,45 milyon manat olan müəssisəyə İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 497 min manat güzəştli kredit ayrılıb, investisiya təşviqi sənədi verilib.

# İlham Əliyev Sabirabadda pambıq emalı zavodunun fəaliyyəti ilə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Sabirabad Sənaye Məhəlləsində "Taşobası" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) pambıq emalı zavodunun fəaliyyəti ilə tanış olub.

2023-cü ildə Sabirabad Sənaye Məhəlləsinin rezidenti kimi qeydiyyata alınan "Taşobası" MMC-nin pambıq emalı zavodunda Türkiyə, Almaniya və İtaliya texnologiyalarının tətbiqi ilə mahlıc və texniki çiyid istehsal olunur.

Zavodun layihə dəyəri 3,3 milyon manatdır. Müəssisə ildə 8 min ton mahlıc, 10 min ton texniki çiyid istehsalı gücünə malikdir. İstehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsinə və ixraca yönəldilir. İndiyədək istehsal edilən məhsulun dəyəri 2,6 milyon manat olan hissəsi satılıb ki, bunun da 2,2 milyon manatı ixracın payına düşür. Zavodda xammal kimi Neftçala, Salyan, Sabirabad və Saatlı rayonlarında yetişdirilən pambıqdan istifadə olunur. Bu isə öz növbəsində pambıq sahələrində 300 nəfərin mövsümi işlə təmin olunmasına şərait yaradır. Ümumilikdə zavodda 80 nəfərlik iş yeri yaradılıb.



# İlham Əliyev İmişlidə “Promalt” Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) arpa emalı müəssisəsinin açılışında iştirak edib






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də İmişlidə “Promalt” Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) arpa emalı müəssisəsinin açılışında iştirak edib.

Müəssisədə pivə istehsalında əsas xammal hesab olunan arpanın xüsusi proseslərdən keçərək mayalanma və fermentasiya üçün hazır vəziyyətə gətirilməsi ilə əldə edilən məhsul – malt istehsal olunacaq. İsveçrənin “Bühler GmbH” şirkətinin müasir texnologiyası əsasında hazırlanmış avadanlıqla təchiz olunan və emal prosesi tam avtomatlaşdırılan müəssisədə ildə 11 min ton arpa istehsal ediləcək.

Müəssisənin investisiya dəyəri 33,2 milyon manatdır.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu, “Azərşəkər” MMC və “Azərsun Holdinq” MMC-nin tərəfdaşlığı əsasında həyata keçirilən layihəyə dövlətin investisiya təşviqi mexanizmi çərçivəsində vergi və gömrük güzəştləri ilə dəstək göstərilib. “Carlsberg Azerbaijan” pivə zavoduna da xammal satışı həyata keçirən müəssisə Cənubi Qafqazda pivəlik arpa səmənisinin emalı üzrə ixtisaslaşmış ilk müasir istehsal obyektidir. Layihə regionda aqrar-sənaye inteqrasiyasını gücləndirməklə yanaşı, texnoloji modernləşmə, daxili bazarın dayanıqlı xammal təminatı, istehsalın lokallaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Burada 47 nəfər işlə təmin olunacaq.

# İlham Əliyev Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin açılışında iştirak edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin açılışında iştirak edib.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına Horovlu kəndində görülən işlər barədə məlumat verdi.

Xatırladaq ki, Horovlu kəndi 1993-cü ildə Ermənistan tərəfindən işğal edilmişdi. 2020-ci il oktyabrın 4-də Azərbaycan Ordusu kəndi işğaldan azad edib.

Bu kəndin təməlini Prezident İlham Əliyev 2023-cü ilin mayında qoyub. Dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva ötən ilin oktyabrında Horovluda fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olublar.

Ümumi sahəsi 248 hektar olan Horovlu kəndində 334 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi – su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Evlərin üzərində Qarabağ xalçalarının ornamentləri həkk edilib. Kənddaxili yollara asfalt döşənib.

Birinci mərhələdə 94 hektar ərazidə 334 fərdi evin, 624 şagird yerlik məktəb binasının, 220 yerlik körpələr evi-uşaq bağçasının, ikimərtəbəli inzibati binanın, bazar kompleksinin, çoxfunksiyalı iaşə obyektlərinin, tibb məntəqəsinin və idman-sağlamlıq mərkəzinin tikintisi həyata keçirilib.

Kənddə tarixən istifadə olunmuş, işğal dövründə dağıdılmış "Əsgər", "Şığı", "Orta", "Gülqasım" və "Xəlifə" kəhrizləri bərpa edilib. Horovlunun su təminatının bir hissəsi məhz bu kəhrizlər hesabına təmin olunacaq.

Qeyd edək ki, burada inşa olunmuş körpələr evi-uşaq bağçasında balacaların rahatlığının təmin olunmasına xüsusi diqqət yetirilib. Bağçada yeməkxana, oyun və musiqi otaqları balacaların ixtiyarına veriləcək. Bundan başqa, binada inzibati, kompüter və metodika otaqları yaradılıb. Bağçanın ərazisində uşaqların asudə vaxtlarını maraqlı keçirmələri üçün də şərait yaradılıb.

Horovluda müasir tam orta məktəb binası da tikilib. Məktəb binasında tədrisin yüksək səviyyədə aparılması üçün geniş imkanlar mövcuddur. Təhsil ocağının sinif otaqları lazımi dərs vəsaiti və avadanlıqla təchiz olunub. Burada 26 sinif otağı, kimya, fizika, biologiya və informatika, musiqi, rəsm, hərbi hazırlıq otaqları, 4 laboratoriya, kitabxana şagirdlərin ixtiyarına veriləcək. Binada 180 yerlik akt zalı, qapalı idman zalı və yeməkxana da yaradılıb. Məktəbin ərazisində açıq idman meydançası da mövcuddur.

Horovlu kəndində 4,4 hektar ərazidə park kompleksi də inşa olunub. Burada uşaqlar üçün oyun zonası, idman sahəsi, basketbol meydançası, masaüstü oyunlar üçün zona, söhbətgahlar yaradılıb. Eyni zamanda, Bayraq meydanından bazar kompleksinə qədər gəzinti yolları salınıb. 3,1 hektar yaşıllıq ərazisində zeytun, çinar və Eldar şamı ağacları əkilib. Torpaq işləri zamanı aşkarlanmış təbii qayalar parka daşınaraq landşaft dizaynının bir hissəsi kimi istifadə olunub. Ərazidə "Əsgər" kəhrizinin su anbarı əsaslı təmir edilib, dekorativ landşaft yaradılıb. Həmçinin parkın ərazisində işğal zamanı dağıdılmış 4 bina tarixi yaddaşın qorunması, həmin dövrün izlərini və reallıqlarını gələcək nəsillərə çatdırmaq üçün əyani sübut kimi saxlanılıb.







Bundan başqa, kənddə ikimərtəbəli inzibati bina inşa edilib. Binada operativ idarəetmənin və qərarların səmərəli qəbulunun təmin edilməsi məqsədilə müasir situasiya mərkəzi yaradılıb. Mərkəzdə kəndin idarəetməsində Coğrafi İnformasiya Sisteminin (CİS) tətbiqi də nəzərdə tutulur. Kəndin Baş planının CİS platformasına inteqrasiya edilməsi yaşayış məntəqəsinin səmərəli planlaşdırılmasına və idarə edilməsinə imkan verəcək. Bütün torpaq sahələri, tikililər, yollar, su, enerji, qaz, rabitə xətləri bu platformada koordinatlarla yerləşdirilib. Platforma dizayn və tikinti proseslərini izləməyə, dəyişiklikləri xəritəyə tətbiq etməyə, müxtəlif situasiyalara uyğun qərar qəbul etməyə, üçölçülü (3D) bina modelləri, real vaxtda kamera məlumatlarına çıxış imkanları olduğundan mövcud vəziyyəti həm xəritədə, həm də sistem üzərində birbaşa müşahidə etməyə imkan yaradır. Dövlət və özəl qurumlarla inteqrasiya, məlumat mübadiləsi, hesabatlılıq və vizual təqdimatlar baxımından platformanın istifadəsi müasir idarəetmədə innovativ həll hesab olunur.

Cəbrayıl rayonunun Horovlu kəndində yaradılmış şəraitlə tanış olan dövlətimizin başçısı kəndə köçən sakinlərlə görüşdü, onlara mənzillərin açarlarını təqdim etdi.

# İlham Əliyev Cəbrayıl şəhər məscidinin təməlini qoyub




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Cəbrayıl şəhər məscidinin təməlini qoyub.

"PMD Projects" şirkətinin direktoru Nəriman Topçibaşev dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, məscidin ümumi sahəsi 1530 kvadratmetrdən çox olacaq. Burada eyni vaxtda 615 nəfər ibadət edə biləcək. İkimərtəbəli məscid binasında eyni anda kişilərin və qadınların ibadət etmələri üçün şərait olacaq. Məsciddə icma zalı, avtomobil dayanacağı, söhbətgah yaradılacaq. Məscidin minarələrinin hündürlüyü 34,2 metr, günbəzin hündürlüyü isə 22,6 metr olacaq.

Qeyd edək ki, işğaldan əvvəl Cəbrayıl rayonunda 5 məscid, 40-dan çox ziyarətgah, 20-dən artıq tarixi-memarlıq abidəsi olub. İşğal dövründə digər ərazilərimizdə olduğu kimi, bu rayondakı tarixi-dini abidələrimiz ermənilər tərəfindən məhv edilib. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra Qarabağın və Şərqi-Zəngəzurun tarixi-dini və mədəni abidələrinin bərpası, yenilərinin inşası istiqamətində Azərbaycan dövləti tərəfindən mühüm işlər görülüb. Bu xüsusda 2017-ci ildə Cocuq Mərcanlı kəndində inşa edilən, Şuşa məscidinin bənzəri olan məscidi qeyd etmək olar.

# İlham Əliyev Zəngilanın Məmmədbəyli və Ağalı kəndlərinin sakinlərinə mənzillərin açarlarını təqdim edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Zəngilan rayonunun Məmmədbəyli və Ağalı kəndlərinin sakinləri ilə görüşüb.

Dövlətimizin başçısı kəndlərə köçən sakinlərə mənzillərin açarlarını təqdim edib.

**Prezident İlham Əliyev dedi:** Salaməleyküm.

**Sakinlər:** Xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Siz də xoş gəlmisiniz. Salam, xoş gördük.

**Sakinlər:** Allah Sizi var eləsin, cənab Prezidentimiz. Allah canınızı sağ eləsin.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Qadın sakin:** Sizi hamımız çox istəyirik.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun.

Bu gün Ağalı və Məmmədbəyli kəndlərinin sakinləri üçün çox sevincli bir gündür. Ağalı kəndində əlavə 100 ailə yerləşəcək. Ağalının hüdudları demək olar ki, daha da böyük olur. Məmmədbəyli kəndində isə 180 ailə üçün gözəl evlər, yaraşıqlı binalar inşa edilib. Mən bilirəm ki, siz bu gün buraya gəlmisiniz. Hələ demək olar ki, yerləşməmisiniz. Ancaq əlbəttə ki, gələn günlər ərzində burada tam yerləşib öz doğma dədə-baba torpağında rahat, firavan həyat yaşayacaqsınız. Sizi bu münasibətlə ürəkdən təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun.



**Prezident İlham Əliyev:** Xoş gəlmisiniz doğma vətəninizə. Bu gün doğrudan da çox gözəl bir gündür. Bu gün "Böyük Qayıdış"ın növbəti mərhələsidir. Bilirsiniz ki, biz "Böyük Qayıdış" Proqramının başlanğıcını da Zəngilan rayonunda qoyduq. Birinci kənd – Ağalı kəndində artıq üç il yarımdır ki, insanlar yaşayır və çox gözəl şərait yaradılmışdır və gözəl də saxlanılır. Mən indi Ağalının içi ilə keçdim və yeni binalarla tanış olarkən gördüm ki, bütün həyətyanı sahələr sanki gözəl bir bağa çevrilib. Biz buranı keçmiş köçkünlərə təhvil verəndə qupquru bir yer idi. Necə ki, indi Məmmədbəyli kəndində də hələ ki, o qədər də çox ağac yoxdur. Ancaq illər keçdikcə vətəndaşlar özləri qurub-yaradırlar, əkib-becərirlər. Dövlət nə lazımdırsa edib, sizi gözəl şəraitlə təmin edib və əminəm ki, siz burada rahat yaşayacaqsınız. Siz buna layiqsiniz.

**Sakinlər:** Sizin sayənizdə, Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Uzun illər ərzində ağır şəraitdə yaşamısınız. Köçkün həyatı çox ağır həyatdır. Ancaq artıq o günlər arxada qaldı. Beş ilə yaxındır ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib və azad olunmuş bütün torpaqlarda geniş quruculuq işləri gedir, o cümlədən Zəngilan rayonunda. Yenə də deyirəm, birinci "Böyük Qayıdış" Proqramını biz Zəngilan rayonundan başlamışdıq. Bu gün Zəngilan şəhərində də birinci yaşayış kompleksinin tikintisi demək olar ki, yekunlaşır. Digər binaların tikintisi, məktəb, xəstəxana. Zəngilan məscidi tikilmişdir, gözəl bir memarlıq əsəridir. Konqres Mərkəzi, Zəngilan Beynəlxalq Hava Limanı. Yəni, bura, bu bölgə çox önəmli nəqliyyat mərkəzlərindən birinə çevriləcək. Həm Zəngəzur dəhlizi, həm Araz dəhlizi buradan keçəcək. Ona görə bu rayonun, bu bölgənin çox gözəl gələcəyi olacaq. Necə ki, bütün Qarabağın, Şərqi Zəngəzurun gələcəyi çox parlaq olacaq. Bugünkü reallıq - qurduğumuz şəhərlər və kəndlər bunu göstərir.

Ermənilər viran qoyub bizim dədə-baba torpaqlarımızı, biz isə qurub-yaradan xalqıq. Biz düşməni torpaqlarımızdan qovmuşuq. İndi də doğma torpağımızda qurub-yaradırıq, şərait yaradırıq, binalar, məscidlər tikirik, tarixi abidələri bərpa edirik. Yəni, biz - bu torpaqların sahibləri qayıtmışıq və burada əbədi yaşayacağıq. Mən sizə də xoşbəxt həyat arzulayıram. Bir daha sizi təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun.

***

Sonra açarların təqdim edilməsi mərasimi oldu.

***

Sonra xatirə fotoları çəkdirildi.



# İlham Əliyev Rumıniya Parlamenti Senatının sədrini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Rumıniya Parlamenti Senatının sədri Mirça Abrudeanı qəbul edib.

Qonaq Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması, bu xüsusda Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə bəyannamənin imzalanması, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanması münasibətilə dövlətimizin başçısını təbrik etdi, bunun bütün regionda sülhün təmin olunmasına və inkişafa xidmət edəcəyinə ümidvarlığını bildirdi.





Mirça Abrudean bu gün Bakıda Milli Məclisin xətti ilə keçirilən Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş beynəlxalq parlament konfransında iştirakdan məmnunluğunu ifadə etdi, bu tədbirin yüksək səviyyədə təşkil olunduğunu dedi.

Azərbaycan ilə Rumıniyanın dost və tərəfdaş ölkələr olduğunu vurğulayan qonaq əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanların mövcudluğunu vurğuladı. Senatın sədri ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin, həmçinin beynəlxalq parlament təsisatlarında əməkdaşlığın önəmini qeyd etdi.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı məsələdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi roluna toxundu, bu istiqamətdə əldə olunmuş nailiyyətlərin bütün region üçün tarixi əhəmiyyət kəsb etdiyini dedi.

Söhbət zamanı Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstanın iştirakı ilə Buxarestdə imzalanmış Qara dənizinin dibi ilə elektrik kabel xəttinin tikilməsi layihəsi üzrə Sazişin önəmi vurğulandı, bunun ölkəmizin və Mərkəzi Asiya regionu dövlətlərinin bərpaolunan enerji resurslarının Avropa bazarlarına çıxarılması baxımından əhəmiyyətinə toxunuldu.

Görüşdə Azərbaycanla Rumıniya arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağı keçirilib



Noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaq keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Əvvəlcə dövlətimizin başçısı Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin üzvləri və Akademiyanın 80 illik yubiley yığıncağında iştirak edən xarici qonaqlarla görüşdü.

Sonra Prezident İlham Əliyev tədbirdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

– Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Hörmətli alimlər.

Mən sizi Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm, Akademiyanın gələcək fəaliyyətinə uğurlar arzulayıram. Əminəm ki, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan alimləri bundan sonra da ölkəmizin uğurlu inkişafına öz töhfələrini verəcəklər.

Akademiya 80 il ərzində böyük yol keçmişdir, Azərbaycanda elmin inkişafında aparıcı rol oynamışdır. Bu illər ərzində biz müxtəlif ictimai-siyasi quruluşlarda yaşasaq da, Azərbaycan hər zaman öz elminin inkişafına böyük diqqət yetirirdi. Sirr deyil ki, Ulu Öndər Heydər Əliyev hər zaman Azərbaycan alimlərini dəstəkləmək üçün öz səylərini əsirgəmirdi. Hələ ötən əsrin 70-ci illərində onun rəhbərliyi ilə Akademiyanın fəaliyyəti təkmilləşdi, bir neçə yeni elmi-tədqiqat institutu yaradıldı, elmin inkişafına böyük vəsait ayrılırdı. Faktiki olaraq bu siyasət müstəqillik illərində də davam etdirilirdi. Ulu Öndərin təşəbbüsü ilə keçən əsrin 70-ci illərindən başlayaraq yüz minlərlə Azərbaycan gənci o vaxt Sovet İttifaqının aparıcı ali məktəblərinə göndərilmişdir və beləliklə, ölkəmizdə intellektual potensial daha da güclənmişdir. Eyni siyasəti biz müstəqillik illərində də aparırıq. Bu gün də on minlərlə Azərbaycan gənci artıq dünyanın aparıcı ali məktəblərinə ezam olunur. Onların böyük əksəriyyəti oxuyub Vətənə qayıdırlar və beləliklə, ölkəmizin inkişafına öz dəyərli töhfələrini verirlər.

Müstəqilliyin ilk illəri çox ağır idi, faciəvi idi. O vaxt məhz Heydər Əliyevin qətiyyəti, iradəsi, xalqa olan bağlılığı bizi böyük bəlalardan qurtara bilmişdir. O da çox böyük göstəricidir ki, onun hakimiyyətə qayıdışından sonra Azərbaycan ziyalıları ilə, Azərbaycan ictimaiyyəti ilə ilk görüşü məhz 1993-cü ildə Milli Elmlər Akademiyasında olmuşdur. Beləliklə, o, bir daha müstəqil Azərbaycanın, yəni, yeniləşən Azərbaycanın prioritetlərini açıq şəkildə bəyan etmişdir. Düzdür, o vaxt bizim maliyyə imkanlarımız çox məhdud

idi, demək olar ki, yox idi, xəzinə boş idi. Azərbaycan böyük humanitar fəlakətlə üz-üzə idi. Bir milyondan çox qaçqın və məcburi köçkün, torpaqlarımızın işğal altına düşməsi və çox böyük iqtisadi, maliyyə çətinlikləri. Amma buna baxmayaraq, yenə də Akademiyanın işinə, Akademiyanın qorunmasına, alimlərin fəaliyyəti üçün vəsait ayrılırdı.

Təbii ki, illər keçdikcə, Azərbaycan inkişaf etdikcə bu vəsait daha böyük həcmdə ayrılır. Son on il ərzində Azərbaycan elminə ayrılan vəsait iki dəfədən çox artmışdır. Mənim prezidentlik dövrümdə də bu istiqamətdə, yəni, Azərbaycan elminin inkişafına göstərilən diqqət Ulu Öndərin siyasətinə uyğun şəkildə aparıldı. Bir çox addımlar atıldı. Akademiyanın maddi-texniki bazası möhkəmləndirilmişdir və burada yerləşən, bu akademiya şəhərciyində yerləşən binaların təmiri aparıldı. Buraya, elmə aidiyyəti olmayan, akademiyanın bəzi binalarını zəbt etmiş qurumlar buradan çıxarıldı. Yeni böyük elmi kitabxana inşa edilmişdir. Milli Ensiklopediya üçün yeni bina inşa edilmişdir. Elmi-tədqiqat institutlarının, dediyim kimi, təmiri və avadanlıqlarla təchizi təmin edilmişdir. Elm Fondu hələ 2009-cu ildə yaradılmışdır. O vaxt bu Fondun yaradılmasının əsas məqsədi Azərbaycan alimlərinə maddi dəstək vermək, elmin inkişafına qrantlar çərçivəsində təkan vermək idi. Elmin inkişafı üzrə Milli Strategiya qəbul edilmişdir. "Elm haqqında" Qanun qəbul edilmişdir, Dövlət Proqramı qəbul edilmişdir. Yəni, görülmüş bütün işləri sadalamaq üçün çox vaxt lazımdır. Sadəcə olaraq, bunu bildirməliyəm ki, bütün başqa sahələrdə olduğu kimi, bu istiqamətdə də Heydər Əliyev siyasəti davam edir, yaşayır, yeni formalarla zənginləşir.

Mən 10 il bundan əvvəl - Akademiyanın 70 illiyində bax bu salonda alimlər qarşısında çıxış etmişdim və çalışırdım ki, bu 10 il ərzində ölkə qarşısında duran bütün başqa vəzifələrlə yanaşı, elmin inkişafına da öz dəstəyimi göstərim. Bu gün bəzi fikirlərimi sizinlə bölüşmək istəyirəm. Çünki son 10 il ərzində həm dünyada, həm Azərbaycanda köklü dəyişikliklər baş vermişdir. Dünya iqtisadiyyatı tamamilə dəyişmiş, dünyada gedən siyasi proseslər, müharibələr, hərbi toqquşmalar, beynəlxalq hüququn pozulması, mövcud olan qaydaların tamamilə aradan qaldırılması göz önündədir. Azərbaycana gəldikdə, son 10 il bizim üçün inkişaf və zəfərlərlə zəngin illər olmuşdur. Əsas vəzifə – torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası, suverenliyimizin bərpası layiqincə təmin edilmişdir. Bu gün Azərbaycan bütün suveren torpaqlara sahibdir. Bizim ərazimizdə işğalçı qüvvələr yoxdur. Bizim ərazimizdə xarici hərbi birləşmələr yoxdur. Bu gün biz bu torpaqlarda qurub-yaradırıq. Biz bir neçə gündən sonra şanlı Zəfərimizin beşinci ildönümünü qeyd edəcəyik. Son beş il ərzində dünyada bir çox yerlərdə müharibələr, toqquşmalar, münaqişələr baş verirdi və hər şey müqayisə ilə ölçülür. Bunu da alimlər yaxşı bilir. Deyə bilərəm ki, bizim qədər parlaq, tam və mütləq Qələbə qazanan ikinci ölkə olmamışdır.

Azərbaycan tamamilə yeni vəziyyətdə yaşayır və əlbəttə ki, öz addımlarımızı dəyişən dünyada gedən proseslərə həm uyğunlaşdırmalıyıq, həm də ki, bir çox təşəbbüslər irəli sürməliyik. Ona görə təbii ki, illər keçdikcə qarşıda duran vəzifələr də dəyişir. Ona görə bugünkü inkişafla bağlı, inkişafın gələcək istiqamətləri ilə bağlı əlbəttə ki, prioritetlər əvvəlki dövrdən fərqlənir. Bu gün sirr deyil ki, hər bir ölkənin inkişafını, eyni zamanda, təhlükəsizliyini o ölkənin texnoloji imkanları şərtləndirir. Bu gün biz bunu iqtisadi inkişafda görürük, yeni texnologiyaların tətbiqində görürük, yeni müharibələrdə görürük. Ona görə texnoloji inkişaf bizim üçün əsas prioritet olmalıdır və əlbəttə, burada Azərbaycan alimlərinin üzərinə böyük vəzifə düşür. Təbii ki, Azərbaycan dövlətinin üzərinə böyük vəzifə düşür ki, biz bu texnoloji inkişafı bütün sahələrdə tətbiq edək və beləliklə, bizim inkişafımız dayanıqlı olsun.

Artıq hər kəs görür və bilir ki, hər bir ölkənin inkişafını təbii resurslar yox, məhz cəmiyyətin intellektual potensialı, texnoloji inkişaf, elmin inkişafı müəyyən edir. Yəni, təbii resurslar bizim üçün sadəcə olaraq bir vasitədir, bir imkandır ki, biz təbii resursların ixracından əldə etdiyimiz vəsaiti insan kapitalına yönəldək, texnoloji inkişafa yönəldək ki, gələcəkdə bizim inkişafımız dayanıqlı olsun. Hər kəs yaxşı bilir ki, təbii sərvətlər tükənən sərvətlərdir, gec-tez tükənəcək. Tükənməz sərvət isə intellektual potensialdır, amma o halda əgər buna sərmayə qoyularsa. O sərmayəni dövlət qoymalıdır. Ölkənin elm ictimaiyyəti, alimlər bu istiqamətdə öz səylərini göstərməlidirlər. Ona görə bu gün əsas vəzifələrdən biri texnoloji inkişafdır.

Süni intellekt. On il bundan əvvəl bu barədə heç kim heç nə danışmırdı. Bu gün artıq bu, ölkələrin gələcək inkişafının ayrılmaz hissəsidir. Biz burada geri qalmamalıyıq. Ona görə dövlət lazımi addımları atır. Biz hər zaman əsas aparıcı xəttin, yəni, "mainstream"in, əgər belə demək mümkündürsə, arxasınca gedirik və geri qalmamalıyıq. Ona görə Azərbaycanda süni intellektin həm inkişafı, həm də həyatda, iqtisadiyyatda, texnoloji inkişafda tətbiqi bu gün reallıqdır və əlbəttə ki, biz burada Azərbaycan alimlərinin fəal iştirakını gözləyirik.

Bu istiqamətdə aparılan digər islahatlar nəticəsində əldə edilmiş uğurlar rəqəmsallaşma ilə bağlıdır. Biz rəqəmsallaşmanı ölkəmizdə geniş miqyasda tətbiq edirik və bunun faydasını görürük. Yəni, bəlkə də geniş ictimaiyyət bunu yaxından izləmir. Ancaq biz görürük ki, rəqəmsallaşma olan sahələrdə artıq işin keyfiyyətinin əmsalı da artır, səmərə də artır və nəticə etibarilə daha gözəl nəticələr hasil edilir. Ona görə təsadüfi deyil ki, artıq bir müddət bundan əvvəl bizim hökumət strukturunda nazirliyə "Rəqəmsal

İnkişaf və Nəqliyyat Nazirliyi" adı verilmişdir və bu istiqamətdə də addımlar atılır. Azərbaycan alimlərini burada yenə də fəal olmağa dəvət edirəm.

Digər vacib məsələ kibertəhlükəsizliklə bağlıdır. İndi dünyada kiberhücumlar geniş vüsət alıb. Azərbaycan da bu hücumlara bu il məruz qalmışdır və Kibertəhlükəsizlik Mərkəzinin yaradılması vaxtında atılmış addımdır. Biz beynəlxalq tərəfdaşlarla, bu sahədə böyük təcrübəyə malik olan şirkətlərlə çox geniş proqramlar üzərində işləyirik ki, özümüzü maksimum dərəcədə qoruya bilək, müdafiə edə bilək. Çünki kibertəhlükəsizlik, yəni, virtual təhlükəsizlik deyil. Bu, hər bir ölkənin fiziki təhlükəsizliyidir. Bu gün həm müharibələrin, deməli, aparılma qaydaları dəyişir, təhlükələrin mənbələri dəyişir və dünya dəyişir. Ona görə bu sahəyə əgər lazımi diqqət göstərilməsə, heç bir başqa müdafiə imkanı bizi böyük problemlərdən qoruya bilməz. Ona görə kibertəhlükəsizliklə bağlı həm dövlət, həm Azərbaycanın elm ictimaiyyəti birgə işləməlidir. Əlbəttə ki, eyni zamanda, bizə qarşı kiberhücumlar təşkil edən ölkələr, ya tərəflər, ya qurumlar cəzasız qalmamalıdır. Biz həm özümüzü müdafiə etməliyik, həm də ki, bizə zərər vermək istəyənlərə də layiqli cavab verməliyik.

Bu gün bildiyiniz kimi, Azərbaycanda hərbi sənaye sürətlə inkişaf edir və artıq uzun illər ərzində bu sahəyə böyük vəsait ayrılır, bu sahədə fəaliyyət göstərən şirkətlərin fəaliyyəti təkmilləşir. Eyni zamanda, bu yaxınlarda biz bu sahəni özəl sektor üçün də açmışıq. Çünki bu istiqamətdə ən böyük uğurlar əldə etmiş ölkələrdə hərbi təyinatlı məhsullar məhz özəl şirkətlər tərəfindən istehsal olunur. Ona görə biz də burada lisenziyaları verməklə özəl sektoru cəlb etmişik. Eyni zamanda, mənim tərəfimdən də onlara çağırış olub və bu gün özəl şirkətlər artıq hərbi təyinatlı məhsulların istehsalı ilə məşğul olmağa başlamışlar. Deyə bilərəm ki, hələlik bu proses icra mərhələsindədir, amma yəqin ki, yaxın gələcəkdə bir çox Azərbaycan şirkətləri artıq dünya səviyyəli keyfiyyətli hərbi təyinatlı məhsullar istehsal edəcəklər. Eyni zamanda, dövlət xətti ilə bu istiqamətdə işlər aparılır və biz öz hərbi imkanlarımızı artıq böyük dərəcədə yerli istehsal hesabına genişləndiririk, öz tələbatımızı böyük dərəcədə ödəyirik. Artıq bir çox ölkələrə hərbi təyinatlı məhsul ixrac edirik və qarşıya vəzifə qoyulub ki, həm daxili tələbatı ödəmək, həm də ixrac etmək üçün bizdə bu istiqamətdə çox ciddi sənaye klasteri yaradılsın. Çünki bu, çox gəlirli sahədir və nəzərə alsaq ki, bu gün dünyanın bütün yerlərində müharibələr alovlanır, dayanmır, əfsuslar olsun ki, hərbi təyinatlı məhsullara bundan sonra da ehtiyac olacaq. Ona görə bu istiqamətdə bu gün biz çox fəal işləyirik. Yenə də deyirəm, biz təbii ki, dövlət və özəl şirkətlərimizi, eyni zamanda, Azərbaycan alimlərini bu istiqamətə dəvət edirik.

Bizim şanlı Vətən müharibəmiz. Bildiyiniz kimi, onun hər bir mərhələsi, hər bir günü öyrənilir, öyrənilib və bir çox beynəlxalq hərbi ali məktəblərində də tədqiq edilir. O cümlədən pilotsuz uçuş aparatlarının tətbiqi. Müharibədə məhz birinci biz bunu tətbiq etmişik. Bu gün müasir müharibələri bunsuz təsəvvür etmək mümkün deyil. Yəni, bunun təməlini biz qoymuşuq və bu gün bu istiqamətdə Azərbaycanda çox böyük işlər görülür. Biz bu məhsulları həm xarici bazarlardan tədarük edirik, eyni zamanda, özümüz də bir çox növdən ibarət pilotsuz uçuş aparatlarını istehsal etməyə başlamışıq və bunu davam etdirəcəyik. Burada da təbii ki, Azərbaycan elmi ictimaiyyəti üçün çox böyük fəaliyyət meydançası yaradılır.

Mən bütövlükdə bildirmək istəyirəm ki, elm iqtisadiyyatla, sənaye ilə sıx bağlı olmalıdır. Burada bu kürsüdən dövlət strukturlarına da göstəriş vermək istəyirəm ki, Azərbaycan alimləri ilə daha sıx işləsinlər.

Çünki bu gün bizim elmimizin praktik nəticələri olmalıdır. Təkcə elmi əsərlərdə yox, həyatda və iqtisadiyyatın sürətli inkişafını nəzərə alaraq, əlbəttə ki, burada əlaqələndirmə, uzlaşma yüksək səviyyədə olmalıdır. Əminəm ki, bu sözlərdən sonra bizim dövlət qurumlarımız Azərbaycan alimləri ilə daha fəal işləyəcəklər.

Bizim iqtisadi göstəricilərimiz çox müsbətdir. Düzdür, ümumi daxili məhsul çox artmır. Bunun da əsas səbəbi neft hasilatının obyektiv səbəblərə görə aşağı düşməsidir. Ancaq bu gün iqtisadiyyatımızın aparıcı təkanverici qüvvəsi qeyri-neft sektordur. Bu, bizim ümumi iqtisadiyyatımızın əksəriyyətini təşkil edir. Bu gün dünyanın aparıcı reytinq agentlikləri - iki aparıcı beynəlxalq reytinq agentliyi bizim kredit reytinqimizi qaldırıb və bunu investisiya reytinqinə uyğun səviyyədə artırıb. Bu, əlbəttə ki, ölkəmizdə gedən iqtisadi islahatların təzahürüdür. Çünki bu gün bizim iqtisadiyyat sağlam iqtisadiyyatdır. Biz heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq siyasi müstəqilliyi də gücləndirir. Bizim xarici borcumuz çox aşağı səviyyədədir. Sirr deyil ki, bir çox inkişaf etmiş ölkələrdə xarici borc o ölkələrin ümumi daxili məhsulunun yüz faizini, bəlkə də daha çox təşkil edir. Bizdə isə bu, cəmi 6 faizdən bir qədər çoxdur. Bizim valyuta ehtiyatlarımız ildən-ilə artır və bu il də əhəmiyyətli dərəcədə artıb, 80 milyard dolları ötüb. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 16 dəfə çoxdur. Biz əgər istəsək, xarici borcumuzu bir neçə ay ərzində sıfırlaya bilərik. Yəni, bu göstəriciyə görə Azərbaycan bu gün dünya miqyasında aparıcı yerlərdədir. Əlbəttə ki, iqtisadi və maliyyə dayanıqlılığı bizə imkan verir ki, böyük investisiya layihələrini icra edək. Təbiidir ki, bu gün əsas investisiya layihələrinin istiqaməti Qarabağ və Şərqi Zəngəzurdur. Azad edilmiş bu torpaqlarda da dünyada misli görülməmiş işlər görülür. Yəni, Azərbaycan ictimaiyyəti müntəzəm olaraq bu barədə məlumatlandırılır və bir çox vətəndaşlarımız artıq

azad edilmiş torpaqlara gediblər. Dəfələrlə orada olublar və gedən inkişafı öz gözləri ilə görürlər. Yəni, bizim güclü iqtisadiyyatımız bizə həm əminlik verir, həm də azad edilmiş torpaqların tezliklə bərpa edilməsinə imkan verir. Güclü hərbi potensialı yaratmaq üçün imkan verir. Çünki yenə də demək istəyirəm ki, bu gün dünyada qaydalar tamamilə dəyişib. Beynəlxalq təşkilatlar, yəni, onların bir çoxu iflic vəziyyətindədir. Onların qərarları icra edilmir. Necə ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi 30 il icra edilməmişdir. Əgər biz öz torpaqlarımızı hərbi yolla azad etməsəydik, hələ bundan sonra 100 il də icra edilməyəcəkdi. Beynəlxalq təşkilatların nüfuzu böyük dərəcədə aşağı düşüb. Bu gün güc amili dünyada aparıcı amildir. Yəni, bugünkü dünya budur və belə olan halda təhlükəsizlik, müdafiə potensialı, hərbi güc əsas məsələdir. Əlbəttə ki, güclü iqtisadiyyat, maliyyə resursları olmadan bunu əldə etmək mümkün olmayacaq.

Bu gün yeni sahələr arasında əsas yerdə bərpaolunan enerji növlərinin yaradılmasıdır. Burada da Azərbaycan ön sıralardadır. Bu gün Azərbaycanda icra edilən bərpaolunan enerji layihələri çox genişmiqyaslıdır. Təkcə Qarabağda və Şərqi Zəngəzurda son 5 il ərzində 30-dan çox su elektrik stansiyası inşa edilmişdir. Onların toplam generasiya gücü 300 meqavatdan çoxdur. Günəş və külək elektrik stansiyalarının inşası gedir. Bu yaxınlarda Cəbrayıl rayonunda 100 meqavatlıq iki stansiyanın təməli qoyuldu. O stansiyaların yanında 240 meqavat gücündə üçüncü Günəş elektrik stansiyası inşa edilir. Bütövlükdə 2030-cu ilə qədər Günəş, külək və su elektrik stansiyalarının generasiya gücü 6 min meqavata çatmalıdır. Bu, böyük bir sənaye sahəsidir, sənayenin inkişafının növbəti istiqamətidir. Azərbaycan alimlərini burada da fəal olmağa dəvət edirəm.

Geoloji kəşfiyyat işləri xüsusilə Qarabağda və Şərqi Zəngəzurda çox böyük əhəmiyyət kəsb edir. Çünki bu ərazi sovet vaxtında lazımınca tədqiq edilməmişdir və tədqiq edilsə idi belə, yenə də ovaxtkı texnologiyalarla onları tam öyrənmək mümkün deyildi. Yəni, bu gün müasir texnologiyalarla peykdən tədqiqat, zondlama aparılır. Təbii resurslar, o cümlədən qeyri-ənənəvi neft yataqlarının aşkarlanması bir çox hallarda fiziki, yəni, əraziyə girmədən müəyyən edilir. Ona görə mənim göstərişimlə artıq bir neçə aydır ki, Qarabağda və Şərqi Zəngəzurda böyük geoloji işlər aparılır. Azərbaycan alimlərini bu işlərə dəvət edirəm, dövlət strukturlarına da göstəriş verirəm. Hesab edirəm ki, yaxın bir neçə ay ərzində bizə çox yaxşı xəbərlər gələcək. Bizim çox zəngin təbii resurslarımız var – qızıl, gümüş, mis yataqları, polimetal yataqlar. Onların aşkarlanması, kəşfiyyatı, işlənməsi bizə böyük xeyir gətirəcək, Qarabağ və Şərqi Zəngəzur regionlarımızda iş yerlərinin böyük sayda yaradılmasına gətirib çıxaracaqdır.

Təbii ki, Qarabağ və Şərqi Zəngəzur haqqında danışdıqda Azərbaycan tarixi haqqında da danışmalıyıq. Bizim zəngin tariximiz əfsuslar olsun ki, Ermənistan tərəfindən, erməni diasporu tərəfindən uzun illər ərzində təhrif edilmişdir və bu istiqamətdə bizə qarşı aparılan təbliğat bu gün də dayanmır. Ona görə bunun qabağına biz öz həqiqətlərimizi qoymalıyıq. Bu barədə mən 10 il bundan əvvəl Akademiyanın 70 illiyində danışmışam. Bu gün də bu barədə danışmaq istəyirəm ki, biz öz tariximizi tədqiq və təbliğ etməliyik. Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər. Bilməlidirlər ki, Azərbaycan xalqının tarixi, dövlətçilik tariximiz, xalqımızın qurub-yaratma qabiliyyəti çoxəsrlidir. Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır. Təkcə onu demək kifayətdir ki, bizim hüdudlarımızın o tayında hər istiqamət üzrə Azərbaycan əhalisi yaşayır. Ermənistanda da yaşayıb, amma oradan qovulub. Amma əminəm ki, yenə də yaşayacaq. Çünki biz bu gün bütün qonşu ölkələrlə sərhədlərimizin o tayında görürük ki, orada Azərbaycan əhalisi öz əzəli tarixi torpaqlarında yaşayır və yaşadıqları ölkələrdə ləyaqətli vətəndaşlar kimi yaşayırlar. Azərbaycanlılar heç vaxt separatizm xəstəliyinə düçar olmamışlar. Bizim xalqımız yaşadığı ölkələrin dövlətçiliyinə töhfə verib və bu gün heç bir ölkədə azərbaycanlılar heç bir dövlət üçün, heç bir başqa xalq üçün problem yaratmır və yaratmayacaq. Ona görə azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır. Mən bunu artıq bir müddət bundan əvvəl demişəm. Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq. Bunu etmək üçün, əlbəttə ki, əsas vəzifə dövlətin üzərinə düşür. İctimai təşkilatlar və eyni zamanda, Azərbaycan alimləri, mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıb. Onların sayı daha çox olmalıdır. Həm elmi əsərlər, sərgilər, təqdimatlar, tarixi xəritələrin dərc edilməsi. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. O xəritələrdə Sevan gölü adlı göl yoxdur. O xəritələrdə Göyçə gölüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb. O xəritələri biz tərtib etməmişik ki, kimsə desin biz burada saxtakarlıq eləyirik. Bunu çar Rusiyası edib. Həmin o çar Rusiyası ki, vaxtilə erməniləri İrandan və Şərqi Anadoludan gətirərək bizim Qarabağ torpağında yerləşdirib ki, burada etnik və dini tərkib dəyişsin. Yəni, bu xəritələr tamamilə tarixi həqiqətə əsaslanan xəritələrdir. Ona görə biz bunu təbliğ etməliyik, tədqiq etməliyik. Daha çox elmi əsərlər, daha çox hətta kiçikhəcmli bukletlər hazırlanmalıdır ki, həm Azərbaycan gəncləri öz tarixini yaxından bilsinlər,



həm dünya ictimaiyyəti bilsin və eyni zamanda, indiki Ermənistana bizim qayıdışımız da tamamilə məntiqli və ədalətli səslənsin. Ona görə Azərbaycan tarixi ilə bağlı bax, bu istiqamətdə əlbəttə ki, əlavə addımlara ehtiyac var. Bütövlükdə müstəqil Azərbaycan dövlətinin tarixi ilə bağlı sanballı elmi əsərlərə də böyük ehtiyac var. Artıq 30 ildən çoxdur ki, biz müstəqil dövlət kimi yaşayırıq və Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində Azərbaycan bugünkü qədər güclü olmamışdır. Ona görə müstəqil Azərbaycanın tarixini tədqiq edən, təbliğ edən bir çox əsərlərə ehtiyac var.

On il bundan əvvəl mən bu kürsüdən, eyni zamanda, Azərbaycan dili haqqında danışmışdım, öz narahatlığımı ifadə etmişdim. Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram. Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Ancaq təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları bizik – müstəqil Azərbaycan dövləti. Mən azərbaycanlıların yaşadıqları müxtəlif bölgələrdə vəziyyətlə müntəzəm surətdə tanış oluram, diqqətdə saxlayıram, lazımi tədbirlər görürəm. Görürəm ki, bəzi yerlərdə bizim ədəbi dilimiz digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirilir. Daha çox məişət dili kimi istifadə olunur, xarici kəlmələrlə dolu olur. Ona görə biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik. Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Bizim dilimiz qədimdir. Yenə də deyirəm, 50 milyondan çox insan üçün Ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir.

Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Yenə də deyirəm, 10 il bundan əvvəl mən bu məsələni qaldırmışdım. Çünki bu, məni narahat edirdi. On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya bilək. Amma yenə də oradan-buradan eşidirəm, – həm televiziyalarda, həm yazılı mediada, həm bəzi insanların çıxışlarında, – buna heç bir gərək yoxdur. Yəni, biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər. Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm. Azərbaycan alimlərindən də bax, bu məsələyə də öz münasibətini və dəstəyini göstərmək çağırışını edirəm.

Qeyd etdiyim kimi, bir neçə gündən sonra biz tarixi Zəfərimizin beş illiyini qeyd edəcəyik. Hərbi parad təşkil ediləcək. Beş il əvvəl, 2020-ci ilin dekabrında Zəfər paradı keçirilmişdir. 2023-cü ildə Xankəndidə hərbi parad keçirilmişdir ki, Azərbaycanın suverenliyi tam bərpa edilmişdir. Bir neçə gündən sonra Azadlıq meydanında hərbi paradın keçirilməsi böyük hadisədir, qürurverici hadisədir. Azərbaycan xalqı bu Şanlı Zəfərlə bundan sonra əbədi fəxr edəcək.

Mən sizi, bütün Azərbaycan xalqını həm Milli Elmlər Akademiyasının 80 illiyi münasibətilə, həm də qarşıdan gələn Zəfər Günü və Bayraq Günü münasibətilə təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

# Vətən müharibəsində Qələbənin beşinci ildönümü

## İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyaraq xatirəsini ehtiramla andı.

Sonra birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin xatirəsini yad etdi.

Dövlətimizin başçısı və birinci xanım Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olundu.







# Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəhidlər xiyabanını ziyarət ediblər





8 noyabr 2025-ci il tarixdə Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad etdilər.

Dövlətimizin başçısı “Əbədi məşəl” abidəsinin önünə əklil qoydu.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vətən müharibəsində Qələbəmizə həsr olunmuş Hərbi parada hazırlaşan paytaxt Bakının mənzərəsini seyr etdilər.

## İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Zəfər abidəsini ziyarət edib və Zəfər muzeyinin açılışında iştirak ediblər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Zəfər abidəsini ziyarət edib və Zəfər muzeyinin açılışında iştirak ediblər.

Prezident İlham Əliyev Zəfər abidəsinin önünə əklil qoydu, şəhidlərin xatirəsini ehtiramla andı.

Birinci xanım Mehriban Əliyeva abidənin önünə gül dəstələri düzdü.

Sonra dövlətimizin başçısı və birinci xanım Zəfər muzeyinin açılışında iştirak etdilər.

Zəfər muzeyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci ilin dekabrında "Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında" Sərəncamından irəli gələrək Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı şanlı Zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılıb.

Muzeyin ekspozisiyası beynəlxalq təcrübə və dünyada mövcud muzey konsepsiyaları əsas götürülməklə, həmçinin ən son texnologiyalar tətbiq edilməklə işlənilib. Burada 8 ekspozisiya zalı yaradılıb: "Qarabağ və Şərqi Zəngəzur. Əsrlərin hekayəsi", "Ermənistan–Azərbaycan münaqişəsi. Tarixə baxış", "44 günlük Vətən müharibəsi. "Dəmir yumruq" əməliyyatı", "Şanlı Zəfər. Şuşanın azad olunması", "Qəhrəmanlar yolu", "Qarabağ Azərbaycandır!", "Dövlət suverenliyinin bərpası. 20.09.2023", "Qarabağ və Şərqi Zəngəzur. Dirçəliş".

Təqdim olunan faktlar, foto və videomateriallar, interaktiv nümayişlər və xüsusi olaraq bu muzey üçün hazırlanmış eksponatlar, maketlər münaqişə haqqında həqiqətləri, 44 günlük Vətən müharibəsinin gedişi, şanlı Zəfər nəticəsində dövlət suverenliyinin bərpa olunması barədə məlumatları ziyarətçiyə dolğun çatdırmaqla yanaşı, həm də bu hadisələri hər bir kəsə yenidən yaşadır.

Muzeyin girişində tarixi Qələbənin rəmzinə çevrilmiş "Dəmir yumruq" instalyasiyası və Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin çıxışından fikirlər əks olunur. Muzeyi əhatə edən divarda 44 günlük Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın adı ehtiram əlaməti kimi həkk edilib. Divarboyu axan su daimi həyat mənbəyi kimi şəhidlərimizin qəhrəmanlıqları ilə ölümsüzlüyə qovuşduqlarını, hər zaman qəlbimizdə yaşadıqlarını simvolizə edir. Muzeyin ekspozisiya zallarında isə Qarabağda Vətən müharibəsinədək və Zəfər Günündən sonra həlak olmuş şəhidlərimizin adları var.



Muzeyin **“Qarabağ və Şərqi Zəngəzur. Əsrlərin hekayəsi”** adlı birinci zalında Azərbaycanın mədəniyyət beşiyi olan Qarabağın təbii gözəlliyi, tarixi memarlıq baxımından zənginliyi təqdim edilir. Zalın divarındakı kitab instalyasiyalarında Ümummilli Lider Heydər Əliyevin bölgənin sosial-iqtisadi inkişafına verdiyi töhfələrə dair geniş məlumatlar var.

Zalın mərkəzində yerləşən interaktiv kitablar isə Qarabağın təbiəti, ədəbi irsi, musiqisi və xalq sənəti ilə yaxından tanış olmağa imkan yaradır. Eyni zamanda, ziyarətçilərə Qarabağın dövlətçilik, hərb, ədəbiyyat və incəsənət sahələrində iz qoymuş görkəmli şəxsiyyətlərinə dair məlumatlar çatdırılır.

Zəfər muzeyinin **“Ermənistan–Azərbaycan münaqişəsi. Tarixə baxış”** zalı Qarabağ münaqişəsinin ağrılı və unudulmaz səhifələrini əks etdirir. Burada münaqişənin xronologiyası, Ulu Öndərin və dövlətimizin başçısının apardıqları ardıcıl siyasət nəticəsində torpaqlarımızın işğaldan azad olunması, sülh prosesi barədə məlumatlar yer alıb. Zalda qaçqınlar və məcburi köçkünlər, münaqişə qurbanları, eləcə də işğal dövründə ermənilər tərəfindən dağıdılmış abidələr, məscidlər və milli irsə vurulan ziyan haqqında geniş məlumat təqdim olunur.

Qarabağda işğal dövründə dağıdılmış binaların, yerlə-yeksan edilmiş yaşayış yerlərinin taleyinə həsr olunan instalyasiya – viran qalmış ev və bu evin qalıqları altından baş qaldıran ağac isə həyatın yenidən dirçəlişinin rəmzidir.

**“44 günlük Vətən müharibəsi. “Dəmir yumruq” əməliyyatı”** adlı üçüncü zal Azərbaycan torpaqlarının azadlığı uğrunda aparılan qəhrəmanlıq mübarizəsini əks etdirir. Zalın mərkəzindəki LED monitorlar süni intellektlə hazırlanmış videomateriallarla ziyarətçini 44 günlük döyüşlərin mərkəzinə aparır. Monitorlarda döyüş əməliyyatları, hərbi nailiyyətlər və Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə qarşı hərbi hücumları ilə bağlı materiallar təqdim olunur. Holoqrafik ekranlar isə müasir hərbi texnikanı 3D formatda nümayiş etdirir. İnteraktiv xəritələr işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən hərbi əməliyyatların mərhələlərini ardıcıllıqla göstərir. Bu zalda tarixi Qələbənin qazanılmasında müstəsna xidmətləri olan Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin qoşun növlərinin bayraqları, eyni zamanda, Silahlı Qüvvələrin xüsusi təyinatlılarının maketləri var. Həmçinin burada Azərbaycan Prezidentinin Vətən müharibəsi və Zəfərlə bağlı bir sıra fərman və sərəncamları nümayiş olunur.

**“Şanlı Zəfər. Şuşanın azad olunması”** adlı dördüncü zalda Azərbaycanın hərb tarixində xüsusi yer tutan, misilsiz taktiki bacarıqla həyata keçirilmiş əməliyyatı təqdim olunur. Vətən müharibəsi zamanı xüsusi təyinatlı döyüşçülər ağır artilleriyasız Şuşanı azad edərək böyük qəhrəmanlıq göstəriblər. Zalın mərkəzindəki Şuşa maketi döyüş meydanını əks etdirir, interaktiv monitorlar isə əməliyyatın gedişini və əsas taktiki məqamları ardıcıl izləməyə imkan






qəhrəmanlara təqdim olunan orden və medalların nümunələri sərgilənir. Dəhlizi xatırladan "Qəhrəmanlar yolu" ziyarətçiləri xalqın birliyi və qələbə sevincini simvolizə edən növbəti zala aparır.

Növbəti zal isə **"Qarabağ Azərbaycandır!"** adlanır və xalqımız üçün milli bayrama çevrilən Zəfər Gününü, ümumxalq sevincini əks etdirir. Zalın mərkəzində Vətən müharibəsində şanlı Zəfərin və Qarabağın dirçəlişinin rəmzinə çevrilmiş Xarıbülbülün Murano şüşəsindən hazırlanmış instalyasiyası yerləşir. Parlaq işıqlar və rənglər zala bayram ab-havası bəxş edir, vizual effektlər sevinc və qürur hissini gücləndirir. Böyük ekranlarda 30 illik həsrətə son qoyan Zəfərin yaşatdığı qürurverici və sevinc dolu anlar nümayiş olunur.

yaradır. Digər monitorda şəhərin müharibə dövründə dağıdılmış abidələri təqdim edilir. Ekranda şanlı Zəfər yolunun emosional gedişi nümayiş olunur. Bu zal Şuşanın azadlığını, Azərbaycan əsgərlərinin rəşadətini və qəhrəmanlığını əks etdirir.

Azərbaycan əsgər və zabitlərinin igidliyinə, fədakarlığına və yenilməz iradəsinə həsr olunan **"Qəhrəmanlar yolu"** zalı isə ziyarətçilərə torpaqların azadlığı uğrunda aparılan mübarizənin ruhunu hiss etdirir. Burada Vətən müharibəsində iştirak etmiş

**"Dövlət suverenliyinin bərpası. 20.09.2023"** adlı yeddinci zal Azərbaycanın suverenliyinin bərpasına həsr olunub. Xəritə instalyasiyasında Qarabağın və Şərqi Zəngəzurun tam azad edildiyi, Azərbaycan tarixində yeni bir dövrün başlandığı nümayiş olunur.




Muzeyin sonuncu **"Qarabağ və Şərqi Zəngəzur. Dirçəliş"** adlı zalı isə Qarabağın bərpasına və gələcək inkişafına həsr olunub. Zalın mərkəzindəki instalyasiyada qəhrəman şəhidlərimizin övladlarının səsi ilə Qarabağın parlaq gələcəyinə dair mesajlar verilir. İşıqlı üç keçid – bərpa, ekoturizm və inkişaf mövzularını əks etdirərək bölgənin yenidən qurulmasına yönəlmiş fəaliyyəti göstərir. Hər keçiddə mədəniyyət, təhsil və infrastruktur layihələrinin maketləri təqdim olunur. İnteraktiv ekranlar Qarabağın təbii gözəlliyini və davam edən bərpa prosesini canlandırır. Bu məkan Qarabağın dirçəlişini, dayanıqlı inkişafını və gələcəyinə olan inamı ifadə edir.

Ekspozisiya zalının çıxışındakı "Danışan fotolar" adlı bölmədə isə Zəfərin hekayəsini və ruhunu əks etdirən fotolar yer alıb. Burada qonaqlar üçün xatirə kitabı da yerləşdirilib.

Muzeydə, eyni zamanda, Auditorium zalı, kitabxana və kafe yaradılıb. Auditorium zalında seminar və konfransların, müxtəlif ictimai tədbirlərin təşkili nəzərdə tutulur. Muzeyin kitabxanasında Azərbaycan tarixinə, mədəni irsinə, artıq keçmişdə qalan Ermənistan-Azərbaycan münaqişəsinə, eləcə də Qarabağın bərpasına və inkişafına dair kitablar, araşdırma materialları təqdim olunur. Gələcəkdə hər bir şəhidimiz barədə toplanmış materialların, eləcə də Vətən müharibəsi qəhrəmanları haqqında sənədli filmlərin muzeyin bazasına yerləşdirilməsi nəzərdə tutulur.

Zəfər muzeyi, muzeyi əhatə edən Zəfər parkı, parkın girişindəki Zəfər tağı Azərbaycan tarixinə həkk olunmuş 44 günlük Vətən müharibəsini, şanlı Qələbəmizi, qəhrəman şəhidlərimizin əziz xatirəsini yaşadır, buraya gələn hər bir ziyarətçinin yaddaşında qürurverici bu tarix yenidən canlanır.

Zəfər muzeyi noyabrın 9-dan ziyarətçilər üçün açıqdır.









## Bakıda Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad keçirilib









Noyabrın 8-də Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif paradda iştirak ediblər.

Azərbaycanın, Türkiyənin və Pakistanın Dövlət himnləri səsləndirildi.



Ümummilli Lider Heydər Əliyevin və qəhrəman şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı paradda çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı



– Əziz hərbçilər.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Mən Sizi və bütün Azərbaycan xalqını şanlı Zəfərimizin beşinci ildönümü münasibətilə ürəkdən təbrik edirəm. Mənim dəvətimi qəbul edən qardaş ölkələrin rəhbərlərini, nümayəndə heyətlərini səmimiyyətlə salamlayıram.

Bu gün bizim paradda Əziz qardaşım, Türkiyə Cümhuriyyətinin cümhurbaşqanı hörmətli Rəcəb Tayyib Ərdoğan iştirak edir. Əziz qardaşım İkinci Qarabağ müharibəsinin ilk saatlarından başlayaraq Azərbaycana, Azərbaycan xalqına, Azərbaycan Ordusuna öz dəstəyini göstərirdi. Onun verdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verirdi, bizi ruhlandırırdı. Qardaş Türkiyə xalqı hörmətli Prezident Ərdoğanın liderliyi ilə Azərbaycana müntəzəm olaraq dəstək göstərmişdir. Müharibə zamanı onun "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır!" deməsi bütün dünyaya çox ciddi mesaj idi. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq.

Müharibədən və şanlı Zəfərimizdən bir il sonra tarixi Şuşa şəhərində Türkiyə və Azərbaycan prezidentləri Şuşa Bəyannaməsini imzalayaraq bizim əlaqələrimizi ən yüksək zirvəyə - müttəfiqlik səviyyəsinə qaldırmışlar. Bu gün bizim Hərbi paradda Türkiyə hərbçilərinin iştirakı birliyimizin növbəti təzahürüdür.

Beş il bundan əvvəl Zəfər paradında da əziz qardaşım Rəcəb Tayyib Ərdoğan bizimlə bərabər idi. Bu gün isə bizimlə bərabər digər əziz qardaşım iştirak edir. Qardaş Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif bizim qonağımızdır. Pakistan dövləti və xalqı 44 günlük Vətən müharibəsi zamanı Azərbaycana dəstək və həmrəylik göstərmişdir. Bu gün ilk dəfə olaraq Azadlıq meydanında Pakistan hərbçiləri də bizimlə bərabər iştirak edirlər. Bu, üç ölkənin – Azərbaycan, Türkiyə, Pakistan xalqlarının, ordularının birliyinin təzahürüdür.

Dost ölkələrdən gəlmiş bütün qonaqları salamlayıram və onların bu gün bizimlə bərabər olmaları bir daha birliyimizi, həmrəyliyimizi, qarşılıqlı dəstəyi əyani şəkildə göstərir.

1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın təxminən 20 faizi işğal altına düşmüşdü. Bir milyon Azərbaycan vətəndaşı qaçqın, köç-

kün vəziyyətinə salınmışdır. Xalqımıza qarşı hərbi cinayətlər törədilmişdir. Xocalı soyqırımı törədilmişdir, etnik təmizləmə siyasəti aparılırdı. Bu, bizim iradəmizi sındırmadı. Azərbaycan heç vaxt işğalla barışmaq fikrində deyildi. Biz sülh danışıqlarını apararkən, eyni zamanda, bəyan edirdik ki, əgər bu danışıqlar nəticə verməsə, Azərbaycan istənilən yollarla, o cümlədən hərbi yolla öz tarixi, əzəli torpaqlarını azad edəcək.

Uzun müddət davam edən danışıqların nəticəsi sıfır olmuşdur. Onun da əsas səbəbi o idi ki, Ermənistan öz xoşu ilə bir qarış torpağı azad etmək fikrində deyildi. Ermənistanın arxasında duran bəzi dövlətlər isə onlara siyasi, iqtisadi və hərbi dəstək göstərərək onlarla həmrəy idi. Onların fikri əzəli Qarabağ torpağımızı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək idi. Bizim isə siyasətimiz ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa etməkdən ibarət idi. Hələ 2003-cü ildə ilk dəfə Azərbaycan Prezidenti vəzifəsinə seçiləndə mən bəyan etmişdim ki, nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. Biz güc toplayırdıq və aydan-aya, ildən-ilə gücümüz artırdı. Biz beynəlxalq arenada öz səsimizi ucalda bildik. Bütün aparıcı beynəlxalq təşkilatlarda ölkəmizin münaqişə ilə bağlı mövqeyi üstünlük təşkil edirdi. Bir çox qərar və qətnamələr bizim Zəfərimizin hüquqi və siyasi əsasını təşkil edirdi. Biz güclü iqtisadiyyat qurmuşduq. Əgər bunu etməsəydik, bizim maliyyə imkanlarımız çox məhdud idi. Biz iqtisadi müstəqillik qazanmışdıq və bu gün Azərbaycan iqtisadi cəhətdən heç bir ölkədən asılı deyil. Bu, bizə daha böyük siyasi güc verirdi. Biz müstəqil siyasət aparan ölkə idik. Bu amillər digər amillərlə bərabər bizi şanlı Zəfərə yaxınlaşdırırdı.

Azərbaycanda ictimai-siyasi sabitlik tam bərqərar olmuşdur. Vətəndaş həmrəyliyi, vətəndaş birliyi, xalq-iqtidar birliyi əsas amillərdən biridir. Biz gənc nəsli vətənpərvərlik ruhunda, Vətənə sevgi ruhunda tərbiyə etmişik və bizim gənclərimiz 44 gün ərzində öz sinələrini qabağa verərək, güllə altına gedərək tarixi torpaqlarımızı işğalçılardan azad etdilər. Vətənpərvərlik, mənəvi keyfiyyətlərimiz şanlı Zəfərimizin əsas amillərindən biridir.

Biz enerji və nəqliyyat layihələrini uğurla həyata keçirərək bir çox ölkələr, böyük coğrafiya üçün əvəzolunmaz ölkəyə çevrildik. Bütün bu amillərlə bərabər, ordu quruculuğu hər zaman prioritet məsələ olaraq qalırdı. Biz güclü ordu, güclü Silahlı Qüvvələr yaratmışıq. Ordumuzun döyüş qabiliyyətini artırmışıq, ordumuzu ən müasir silahlarla, texnika ilə təchiz etmişik. Bütün bu və digər amillər bizim Qələbəmizi, şanlı Zəfərimizi şərtləndirmişdir.

Ermənistan isə düzgün nəticə çıxara bilməmişdir və İkinci Qarabağ müharibəsi ərəfəsində daha da azğınlaşmışdı, bizə qarşı yeni ərazi iddiaları ilə çıxış etməyə başlamışdı. Onlar bizi yeni müharibə ilə hədələyirdilər. Hətta deyirdilər ki, onlar yeni torpaqlar uğrunda yeni müharibə aparacaqlar və Azərbaycanı tam işğal edəcəklər. Deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq. Deyirdilər ki, onlar Bakıda çay içəcəklər. Əslində, onların bu arzuları həyata keçdi. Onları biz gerçəkləşdirdik. Onların tankları bu gün Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Erməni hərbi cinayətkarları bu gün Bakıda məhkəmə qarşısında cavab verirlər və istintaq təcridxanasında Azərbaycan çayını içirlər.

44 gün ərzində bizim şanlı Silahlı Qüvvələrimiz hər gün irəli gedirdi, bir gün bir addım geriyə atmamışdır. Böyük peşəkarlıq, rəşadət, qəhrəmanlıq və fədakarlıq göstərmişdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz bütün dünyaya güclü dövlət və müzəffər xalq kimi özümüzü göstərmişik. Bunu döyüş meydanında sübut etmişik. 44 gün ərzində döyüş meydanında 300-dən çox şəhər və kənd düşmənlərdən azad edildi. Biz düşməni qova-qova irəliyə gedirdik və azad edilmiş hər şəhər və kənd, orada qaldırılan Azərbaycan Bayrağı bizim Ordumuzu, xalqımızı daha da ruhlandırırdı. Nəhayət noyabrın 8-də “alınmaz qala” sayılan Şuşa şəhəri erməni işğalçılarından azad edilmişdir. Bizim şanlı Zəfər yürüşümüz 27 sentyabrdan 8 noyabra qədər uğurla davam edirdi. Biz dağlardan, çaylardan, dərələrdən keçərək, sıldırım qayalara dırmaşaraq şanlı Zəfərə doğru gedirdik. Şuşanın düz beş il bundan əvvəl azad edilməsi Ermənistan ordusunun belini qırdı və ondan sonra onlar təslim oldular. Ondan bir gün sonra - noyabrın 9-dan 10-na keçən gecə Ermənistan rəsmən təslim olaraq kapitulyasiya aktına imza atdı. Beləliklə, ərazi bütövlüyümüzü, tarixi ədaləti, beynəlxalq hüququ və milli ləyaqətimizi biz özümüz bərpa etdik.

Bu gün isə Qarabağ və Şərqi Zəngəzur dirçəlir. Bu gün “Böyük Qayıdış” Proqramı icra edilir. Məktəblər, xəstəxanalar, sənaye müəssisələri, elektrik stansiyaları, su anbarları, evlər tikilir. Artıq 60 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, çalışır və təhsil alır. Bütün bu tarixi nailiyyətlərlə bağlı bir daha əziz xalqımı təbrik edirəm. Biz bu beş ili qürur hissi ilə yaşamışıq. Əminəm ki, bundan sonra Azərbaycan xalqı qəhrəman, müzəffər xalq kimi, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaqdır. Biz - bu torpaqların sahibləri Qarabağa, Şərqi Zəngəzura qayıtmışıq və bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan Bayrağı bu torpaqlarda əbədi dalğalanacaqdır.

Mən bütün Azərbaycan xalqını şanlı Zəfərimiz münasibətilə bir daha ürəkdən təbrik edirəm, Azərbaycan xalqına cansağlığı, yeni uğurlar arzulayıram. Qarabağ Azərbaycandır!

***

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

## Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı



– Əziz Qardaşım, Prezident cənab İlham Əliyev.

Pakistanın Baş naziri cənab Şahbaz Şərif.

Azərbaycan Silahlı Qüvvələrinin qəhrəman şəxsi heyəti.

Azərbaycanlı qardaşlarım.

Sizləri ən səmimi hisslərimlə, hörmət və sevgi ilə salamlayıram.

Zəfər Günümüzün beşinci ildönümündə sizinlə bərabər olmaqdan böyük xoşbəxtlik duyuram. İlham Əliyev qardaşıma zərif dəvətinə görə təşəkkürlərimi bildirirəm. Sizlərə Türkiyədəki qardaşlarınızın salamlarını gətirdim. Sizlərə 86 milyonun ən səmimi sevgilərini gətirdim.

Bu qürur günümüzdə inanıram ki, hazırda Türk Dövlətləri Təşkilatındakı qardaşlarımız da bizimlə eyni coşqunu yaşayır. Zəfərimiz mübarək olsun! Allah Azərbaycanı və Türk dünyasını neçə belə Zəfərlərə qovuşdursun! Azərbaycanın sevincini bölüşən Pakistanın Baş naziri Şahbaz qardaşım başda olmaqla bu gün aramızda olan dost ölkələrdən bütün təmsilçilərə təşəkkür edirəm.

Qardaşlarım, bu gün hamımız birlikdə otuzillik işğala son qoyan möhtəşəm və misilsiz bir Zəfərin beşinci ildönümünü qeyd edirik. Vətən müharibəsində həlak olan bütün şəhidlərimizi – Azərbaycanın igid övladlarını bir daha rəhmətlə yad edirəm. Rəbbim şəhidlərimizin ruhlarını şad, məkanlarını, inşallah, cənnət etsin.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Məmməd Araz Azərbaycan türkünün Vətən eşqini belə təsvir edirdi:

**Bu gün gərək**
**Hər anımız Vətən! – desin!**
**Qılıncımız, qalxanımız**
**Vətən! – desin**
**Ölənlərin əvəzinə**
**Qalanımız Vətən! – desin.**
**Vətən! – desin**
**Qəlbimizin hər duyğusu,**
**hər vurğusu**
**Vətən! – desin.**
**Fərqi yoxdur, harda olaq,**
**Zamanımız, məkanımız**
**Vətən! – desin.**

Ürəkləri hər dəfə Vətən deyə döyünən qəhrəman qazilərimizə minnətdarlıq hisslərimi ifadə edir, “Uca Allah onlardan razı olsun!” deyirəm. Həyatları bahasına apardıqları qəhrəmanlıq mübarizəsi ilə otuzillik işğala son qoyan Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətini bir daha təbrik edirəm. Həmçinin bu böyük Zəfərin memarı və lideri olan İlham Əliyev qardaşımı səmimi-qəlbdən təbrik edir, uğurlarının daimi olmasını diləyirəm.

İstəyirəm biləsiniz ki, Qarabağın azadlığa qovuşması təkcə Azərbaycan üçün deyil, Türk dünyası üçün də böyük bir qürur mənbəyidir. Azərbaycan Ordusunun Qarabağ torpağında atdığı hər addım, istiqlal və şərəf uğrunda tökülən hər damla qan Türk dünyasının tarixində şərəf nişanəsi olaraq ortaq tariximizə qızıl hərflərlə yazılmışdır.

Bu gün burada Azərbaycan əsgəri Türkiyədən gələn əsgər qardaşları ilə çiyin-çiyinə, yan-yanadırlar. Əsgərlərimizə baxdıqca “Bir millət, iki dövlət” şüarının nə demək olduğunu hamımız görə bilirik. Şəhidlərimizin bir-birinə qarışan qanlarının üzərində yüksələn Azadlıq Bayrağı Qarabağın dörd bir yanında şanla, şərəflə, qürurla dalğalanır.

Bilirsiniz ki, əslən qarabağlı olan böyük bir şairimizi 45 gün əvvəl haqq dünyasına yola saldıq. Mərhum Yavuz Bülent Bakiler Qarabağ həsrətini bu misralarla dilə gətirmişdi:

**Torpağına bayraqlarla girə bilərəm,**
**Qara sevdalılar kimi həsrətəm Qarabağa.**
**Uğrunda ölə bilərəm.**
**Bir gün bitərsə hər şey Qarabağı görmədən.**
**İstəmərəm orkestr, böyük əklillər.**
**Allahım, ruhuma bir az sükun ver.**
**Üstümə oxunmuş bir ovuc müqəddəs**
**Qarabağ torpağından sərpilsə yetər.**

İllərlə şairlər Qarabağ üçün həsrət dolu belə şeirlər yazmışlar. İlham qardaşımın qətiyyətli liderliyi ilə Azərbaycan Ordusu Qarabağı işğaldan azad edərək könüllərdəki 30 illik bu yanğını da söndürdü. Allaha şükürlər olsun, bu gün Laçından Şuşaya, Zəngilandan Xankəndiyə, Xocalıdan Füzuliyə qədər Qarabağın hər qarışında əmin-amanlıq, inkişaf, sülh, rifah və azadlıq var. İnşallah, bu sülh və təhlükəsizlik mühiti daha da güclənməkdə davam edəcək.

Əziz dostlarım, hörmətli qonaqlar, Qarabağ Zəfəri vicdanları qanadan böyük bir ədalətsizliyə son qoymaqla qalmadı. Eyni zamanda, bölgəmizdə yeni bir dövrün qapılarını açdı. Vətən müharibəsi Asiyada və

Avropadakı geosiyasi balansı da dəyişdi. Biz nə kin saxlayarıq, nə də keçmişdəki zülmlərin yenidən yaşanmasına izn verərik. Beləliklə, bu Zəfəri bir son olaraq deyil, Qafqazda davamlı sülhə gedən yolun məhək daşı olaraq görürük. Qafqazda sülhün bərqərar olmasının Asiyadan Avropaya qədər bütün bölgənin rifahına xidmət edəcəyi qənaətindəyik. Bunu da burada xüsusilə vurğulamaq istəyirəm ki, biz davamlı sülh məsələsində son dərəcə ümidvarıq, nikbinik. İlham Əliyev qardaşımın davamlı sülhün bərqərar olması üçün göstərdiyi səmimi fəaliyyəti təqdir edirik. Ermənistanın Baş naziri cənab Paşinyanın da bu yolda atdığı cəsur addımları məmnunluqla izləyirik. İnşallah, bu möhtəşəm Zəfər hər iki liderin konstruktiv mövqeyi ilə bölgədə əmin-amanlığı və sülhü bərqərar edəcək davamlı bir müqavilə ilə nəticələnəcək.

Türkiyə olaraq bu məsələdə üzərimizə nə düşürsə, inşallah, bunu etməkdə davam edəcəyik. Hazırkı nöqtədə Can Azərbaycanın həm bölgəsində, həm də kənarda əldə etdiyi irəliləyişlərdən böyük qürur duyuruq. Aramızdakı müstəsna əlaqələr konkret strateji layihələrlə hər gün daha da güclənir. Xatırlayırsınız, “Əsrin müqaviləsi”, “Azəri-Çıraq-Günəşli” başda olmaqla, Bakı-Tbilisi-Ceyhan xam neft boru kəməri, “Şahdəniz” və TANAP ilə taclandırdığımız əməkdaşlığımızı son olaraq İğdır-Naxçıvan təbii qaz boru kəmərinin istismara verilməsi ilə daha da möhkəmləndirdik. İndi bu əməkdaşlığımızı daha da inkişaf etdirmək və miqyasını genişləndirmək üçün səy göstəririk.

Qafqazda yaradılacaq yeni marşrutların nəqliyyat və enerji tədarükü imkanlarının artırmasını gözləyirik. Xəzərdən keçən Şərq-Qərb Orta Dəhlizini bölgədəki bütün qardaşlarımızın faydasına xidmət edəcək şəkildə sərmayələrlə inkişaf etdirməliyik. Bilavasitə Bakı-Tbilisi-Qars dəmir yolu xəttini ən səmərəli şəkildə istifadə etmək üçün Azərbaycanla birlikdə irəliyə doğru daha çox addımlar atacağımıza inanıram.

Əziz qardaşlarım, Azərbaycan Qarabağ başda olmaqla bölgənin bərpasında və yenidən qurulması, xalqın təhlükəsiz şəkildə geri qayıtması, yox edilən mədəni və dini mirasın bərpası üçün böyük səylər göstərir. Qarabağa İlham qardaşımla birlikdə, həmçinin Pakistanın Baş naziri Şahbaz Şərifin də bir qismində iştirak etdiyi səfərlərimiz oldu. Zəfərdən sonra Qarabağın bütün ərazisində yaşanan inkişaf və investisiya səfərbərliyinə bilavasitə şahid oldum. Hava limanlarını, yolları, körpüləri, tunelləri, dəmir yollarını, evləri, yüksələn binaları, kənd təsərrüfatı və nəqliyyat layihələrini yerində gördüm. İlham qardaşımın liderliyi ilə Can Azərbaycanın nələrə qadir olduğuna yaxından şahid oldum. Bir daha “Maşallah!”, “Bərəkallah!” deyirəm. Təbii ki, bizim gördüklərimiz, sadəcə, bir başlanğıcdır. İnşallah, bunların davamı da gələcəkdir. Qarabağ möhtəşəm gözəlliyi ilə bölgənin yenidən parlayan ulduzu olacaq. Bu prosesdə biz də Azərbaycana hər cür lazımi dəstəyi verəcəyik.

Can Azərbaycan ilə ikitərəfli əlaqələrimizlə yanaşı, Türk Dövlətləri Təşkilatı çərçivəsindəki birlik və həmrəyliyimizi də davam etdiririk. Ailə məclisimizin bütün üzvlərinin ən yüksək səviyyədə iştirakı ilə oktyabr ayında Qəbələdə 12-ci Zirvə Görüşümüzü keçirdik. Zirvə Görüşündə çağırışını etdiyim 15 Dekabr – Dünya Türk Dili Günü qərarının da UNESCO nəzdində həyata keçməsindən məmnunluq duyuram. Təşkilata sədrliyi dövründə Azərbaycan ilə həmrəyliyimiz, inşallah, daha geniş vüsət qazanacaq. İndidən Can Azərbaycana fəaliyyətində uğurlar diləyirəm. Azərbaycanın sarsılmaz dəstəyi ilə Şimali Kipr Türk Respublikasının Türk dünyası içərisindəki mövqeyinin güclənməsini arzu edirəm.

“Rəbbim yar və yardımçınız olsun!” deyirəm. Bu düşüncələrlə Vətən müharibəsində al qanları ilə torpağı sulayan əziz şəhidlərimizi rəhmətlə yad edir, qazilərimizə təşəkkürlərimi bildirirəm.

Eynilə, 1918-ci ildə Bakını işğaldan azad edən Qafqaz İslam Ordusunun bütün şəhidlərini, xüsusən şöhrəti ilə ün salmış şəhid Ənvər Paşanı və qardaşı Nuri Killigil Paşanı bir daha ehtiramla yad edirəm. Fürsətdən istifadə edərək 9 Noyabr – Dövlət Bayrağı Gününüzü də ürəkdən təbrik edirəm. Hamınızı ən səmimi hisslərimlə salamlayıram. Sağ olun, var olun, Allaha əmanət olun!

***

Daha sonra Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif çıxış etdi.

## Baş nazir Məhəmməd Şahbaz Şərifin çıxışı

– Mənim əziz qardaşım, Prezident Ilham Əliyev.

Mənim əziz qardaşım, Prezident Rəcəb Tayyib Ərdoğan.

Əziz qardaşım, Birləşmiş Ərəb Əmirliklərinin Şeyx həzrətləri Əl Məktum.

Azərbaycan Silahlı Qüvvələrinin qəhrəman şəxsi heyəti.

Azərbaycanlı qardaş və bacılar.

Hörmətli rəsmilər, xanımlar və cənablar.

Salaməleyküm, günortanız xeyir olsun.

Əziz qardaşım Prezident İlham Əliyevə belə bir sevinc dolu münasibətlə mənə etdiyi nəzakətli dəvətə, mənə və nümayəndə heyətimə göstərdiyi səmimi qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Pakistan xalqının səmimi salamlarını azərbaycanlı qardaş və bacılarına çatdırıram. 44 günlük Vətən müharibəsində əldə edilmiş şanlı Qələbənin beşinci ildönümünü qeyd edirik.

Xanımlar və cənablar, Pakistan, Azərbaycan və Türkiyə – ürəkləri bir döyünən üç qardaş bu gün burada çiyin-çiyinə dayanaraq, belə möhtəşəm tədbiri birlikdə, hamılıqla qeyd edirlər.

Azərbaycanlı və türk qardaşların arxasınca marşla gedən müzəffər Silahlı Qüvvələrimizi görmək, əlhəmdülillah, hər il güclənən möhkəm dostluğumuzun gözəl rəmzi olan "JF-17 İldırım" qırıcı təyyarələrin gurultulu səsinə qərq olan səmanı seyr etmək nə dərəcədə fəxarət və duyğulandıran mənzərədir.

Xanımlar və cənablar, bu il avqustun 14-də Hindistanla dördgünlük mübarizədə tarixi zəfərimizi – Maarka-e-Haqqı qeyd etmək məqsədilə sürəkli alqışlarla İslamabadda Pakistanın Silahlı Qüvvələri ilə birlikdə fərəh hissi ilə marş altında keçən Azərbaycan və Türkiyənin hərbi kontingentləri yadıma düşür. Bu gün ürəyim fəxarət hissi ilə dolur.

Xanımlar və cənablar, çünki mən böyük həvəslə və vətənpərvərlik eşqi ilə möhtəşəm hadisəni qeyd edən güclü Azərbaycan xalqını burada görürəm. Uşaqlıq xatirələrim göz önünə gəlir. O zaman, mərhum atam 1947-ci ildə Pakistanın yaranması ilə nəticələnmiş ulu babalarımızın tarixini mənə söylədi. Bu gün sizin təbəssümlü simanızı və sevinc dolu gözlərinizi gördükdə uşaqlığın o əziz xatirələri bir daha qəlbimdə canlanır.

Xanımlar və cənablar, azadlıq mübarizəmizdə işıq saçan mayakımız, milli şairimiz Allama Məhəmməd İqbal şeirində yazırdı:

"Birlik qarşısında dayanır nə qılınc, nə strategiya!

İnamın alovu zəifləyəndə isə bu birliyin bütün telləri titrəyir!".

Mən bu misraları indi ingilis dilində söyləyirəm. İqbal öz tarixi şeirində bu misraları bu cür yazmışdır. Bu cür dəyərli misralar bizə xatırladır ki, azadlığı yalnız güclə qazanmırlar. Onu təmin edən qətiyyətli inam və bağlılıqdır, çünki onlar qəhrəman mücadiləsinə həvəs verir.

Xanımlar və cənablar, beş il əvvəl Azərbaycanın cəsur oğulları əziz qardaşım Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən rəhbərliyi ilə tarixi mübarizəyə qalxdılar. Bütün dünya təəccüblə onun şahidi oldu ki, Azərbaycanın cəsur Silahlı Qüvvələri öz ata-baba yurdlarının tacı olan Qarabağı azad etdi. Torpaqların azadlığı uğrunda bütün mübarizə dövründə Pakistan qardaş Azərbaycanın yanında bir qaya kimi dayandı. Bundan sonra da belə olacaq.

Hörmətli qonaqlar, Azərbaycanın Qarabağdakı Qələbəsi suverenlik və öz müqəddəratı uğrunda vuruşan bütün xalqlar üçün, o cümlədən Qəzzanın cəsur və güclü xalqı və Hindistanın qeyri-qanuni işğal etdiyi Cəmmu və Kəşmir xalqı üçün ədalətin möhtəşəm təntənəsi, ümid yeri oldu.



Bu ilin mayında Hindistanla dördgünlük mübarizə zamanı bütün dünya Azərbaycan ilə Türkiyənin böyük xalqlarının və qətiyyətli rəhbərlərinin Pakistanın yanında dayandığının şahidi oldu. Feldmarşal Səyid Asim Munirin dinamik və qorxmaz rəhbərliyi ilə Pakistanın olduqca peşəkar Silahlı Qüvvələri düşmənin burnunu ovdu, düşməni şoka və qorxuya salan sərrast və çox tutarlı hərbi zərbələr endirdi.

Hava Qüvvələri Marşalı Zahir Bəbir Sidhunun bacarıqlı komandanlığı altında Vətənin müdafiəsi üçün səmaya qalxan və hər zaman ayıq-sayıq olan şahinlərimiz düşmənin çox müasir yeddi təyyarəsini ildırım sürəti ilə sıradan çıxartdılar.

Əslində, Pakistan azərbaycanlı və türkiyəli qardaşları kimi, sülhə çalışır, lakin heç kəsdə şübhə belə qoymur ki, kimsə qarşımıza çıxsın, suverenliyimizə hücum çəksin, yaxud ərazi bütövlüyümüzü şübhə altına alsın.

Xanımlar və cənablar, bu gün keçmişimizi xatırlamaqla bərabər, gələcəyimizə də böyük ümid və arzularla baxırıq. Məcburi köçkün ailələrin Qarabağa, öz yurdlarına qayıdışını görmək çox ilhamlandırıcıdır. Əziz qardaşım cənab Prezident, bu, Sizin Azərbaycan xalqının rifahı və tərəqqisinə olan güclü şəxsi sadiqliyinizin böyük rəmzidir.

Qarabağın incisi Şuşada, Xankəndidə, Füzulidə, Laçında və azad edilmiş Qarabağın bütün ərazilərində yenidənqurmanın bu cür inanılmaz sürəti tam fenomenal xarakter daşıyır. Həmçinin inkişafın ən uğurlu modellərindən biri bu gün Türkiyədə görünür və onun memarı əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğandan başqa kim ola bilər?! Bütün qonaqlarla yanaşı, bu gözəl mərasimdə Türkiyəni müasir, aparıcı, strateji və iqtisadi gücə çevirən onun uzaqgörən rəhbərinə böyük iftixarla baxdığımı qeyd etməliyəm.

Xanımlar və cənablar, əsl qələbə təkcə döyüş meydanında deyil, eləcə də sülh və anlaşma körpülərinin salınmasındadır.

Əziz qardaşım Prezident İlham Əliyev, Azərbaycan ilə Ermənistan arasında ləyaqət və qarşılıqlı hörmətə əsaslanan sülhə aparan çətin yolda Azərbaycanı istiqamətləndirərək, Sizin müdrik rəhbərliyiniz mənə böyük təəssürat bağışlayır.

Qarabağda möhtəşəm hərbi Qələbəni qazandıqdan sonra, cənab Prezident, Siz indi də bacarıqlı diplomatiyanız sayəsində sülhü qazandınız. Burada mən həmin sülh üçün uğur gətirmiş nümunəvi rəhbərlik keyfiyyətlərinə görə ABŞ Prezidenti Donald Trampa təşəkkürümü bildirməliyəm. Məhz Prezident Trampın qətiyyətli və həlledici rəhbərliyi ilə Pakistanla Hindistan arasında atəşkəs əldə olundu, əsas müharibəyə imkan verilmədi və milyonlarla insanın həyatını xilas edərək Cənubi Asiyada sülh bərpa olundu.

Xanımlar və cənablar, sülhə olan ümumi qətiyyətimiz bu yaxınlarda Əfqanıstanla olan hadisələrdə sınaqdan keçdi. Mən əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğana verdiyi böyük töhfəyə görə təşəkkürümü bildirmək istəyirəm. Bu, Qətər dövlətinin iştirakı ilə baş tutdu. Bu, həm çətin, həm də asan anlarda çiyin-çiyinə dayanan ölkələrimiz arasında güclü, sınaqdan keçmiş qardaşlıq əlaqələrinin əsl təzahürüdür.

Xanımlar və cənablar, bu gün Zəfəri qeyd etdiyimiz bir vaxtda, biz, həmçinin şəhidləri yad etməliyik. Azərbaycan torpaqlarının azadlığı uğrunda mübarizə aparmış şəhidlərə Allah rəhmət eləsin. Onların cəsarəti, qüvvəsi və verdiyi qurbanlar xalqımızın tarixində və yaddaşında qalan fəsli yazdı. Bu gün cəsur oğul və qızlarımızın qanı və canı sayəsində azad olmuş zəngin Qarabağ torpaqlarında gözəl xarıbülbül yenə çiçək açır və sülh ümidi gətirir.

Qoy, Uca Allah tərəqqi və firavanlıq dolu gələcəyə doğru qətiyyətlə addımlayan böyük xalqlarımıza qüvvə versin.

Yaşasın Pakistan-Azərbaycan dostluğu!

Yaşasın Pakistan, Azərbaycan və Türkiyə dostluğu!

Sağ olun.

***



Dövlət başçılarının çıxışlarından sonra Hərbi parad başladı.

Hərbi parada müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi, “Zəfər” və “Qarabağ” ordenli general-polkovnik Kərim Vəliyev komandanlıq edib.

Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət Bayrağı altında tribunaya doğru irəlilədi. Dövlət Bayrağının ardınca Azərbaycan Ordusunun və hərbi əməliyyatlarda xüsusilə fərqlənən birləşmələrin Döyüş bayraqları “Vətənə xidmətə görə” ordenli general-mayor Vüqar Əliverdiyevin başçılığı ilə Azadlıq meydanına gətirildi.

Sonra Xüsusi Təyinatlı Qüvvələrin parad heyətləri tribuna qarşısından keçdilər. Parad heyətlərinə Vətən Müharibəsi Qəhrəmanı general-mayor Ələkbər Cahangirov rəhbərlik edirdi.

Ardınca "Qarabağ" ordenli polkovnik Zamiq Əmirov, "Azərbaycan Bayrağı” ordenli polkovniklər Çingiz Əliyev, Mərdan Musayev və Vətən Müharibəsi Qəhrəmanı polkovnik İlqar Orucovun başçılıq etdikləri parad heyətləri tribunanın önündən keçdilər.

Hərbi paradda Türkiyə Respublikası Silahlı Qüvvələrinin hərbçiləri də iştirak etdilər. İki kolondan ibarət parad heyətinə polkovnik-leytenant Uğur Alan rəhbərlik edirdi.

İlk dəfə olaraq paytaxt Bakının Azadlıq meydanında Pakistan İslam Respublikası Ordusunun mayoru Saqib Alamın başçılıq etdiyi parad heyəti mətin addımlarla tribunanın qarşısından keçdi.

Quru Qoşunların bayrağı altında ordu korpuslarının tribuna önündən keçən parad heyətlərinə müdafiə nazirinin müavini - Quru Qoşunları Komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-polkovnik Hikmət Mirzəyev rəhbərlik edirdi.



Daha sonra "Qarabağ" ordenli polkovnik Teymur Məmmədovun başçılığı ilə Birinci Ordu korpusunun, "Rəşadət" ordenli general-mayor Vilayət Quliyevin rəhbərliyi ilə İkinci Ordu korpusunun, "Azərbaycan Bayrağı" ordenli general-mayor Bilal Çompuzovun başçılığı ilə Üçüncü Ordu korpusunun, "Vətənə xidmətə görə" ordenli general-mayor İdris Məhərrəmovun rəhbərliyi ilə Dördüncü Ordu korpusunun, "Zəfər" ordenli general-mayor Akif Pirverdiyevin başçılığı ilə Beşinci Ordu korpusunun, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Kənan Seyidovun rəhbərliyi ilə Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları tribuna qarşısından keçdilər.





"Azərbaycan Bayrağı" ordenli general-mayor Anar Hüseynovun

başçılığı ilə Hərbi Hava Qüvvələrinin parad heyəti, "Vətənə xidmətə görə" ordenli polkovnik Adəm Hüseynovun rəhbərlik etdiyi İnsansız Sistem Qoşunlarının parad heyəti, "Hərbi Xidmətlərə görə" medallı Hərbi Dəniz Qüvvələri komandanı kontr-admiral Şahin Məmmədovun başçılıq etdiyi Azərbaycan Hərbi Dəniz Qüvvələrinin parad heyəti, Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Xaliq İbrahimovun rəhbərliyi ilə dəniz piyadalarından ibarət parad heyəti, "Vətənə xidmətə görə" ordenli 2-ci dərəcəli kapitan Sirac Siracovun başçılıq etdiyi dəniz xüsusi təyinatlılarından ibarət parad heyəti, "Vətənə xidmətə görə" ordenli polkovnik Aqil Cəbrayılovun rəhbərlik etdiyi Raket və Artilleriya Qoşunlarının parad heyəti Azadlıq meydanına daxil oldular.

Müdafiə Nazirliyi Hərbi Polisinin hərbi qulluqçuları "Vətənə xidmətə görə" ordenli general-mayor Elgün Əliyevin, Dövlət Sərhəd Xidmətinin 2 kolondan ibarət parad heyəti Vətən Müharibəsi Qəhrəmanı" general-leytenant İlham Mehdiyevin, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Xüsusi Təyinatlı bölmələrinin 2 kolondan ibarət hərbi qulluqçuları "Vətənə xidmətə görə" ordenli general-mayor Tofiq Hüseynovun rəhbərliyi ilə mətin addımlarla tribunanın önündən keçdilər.

Sonra Xarici Kəşfiyyat Xidmətinin "Yarasa" və Dövlət Təhlükəsizliyi Xidmətinin "Qartal" xüsusi təyinatlılarından ibarət parad heyətləri tribunanın qarşısından addımladılar. Dövlət Təhlükəsizliyi Xidmətinin parad heyətinə "Qarabağ" ordenli general-mayor Cabir Cəfərov başçılıq edirdi.

Dövlət Mühafizə Xidmətinin "Hərbi xidmətlərə görə" medallı














polkovnik-leytenantı Eldar Quliyevin rəhbərlik etdiyi Milli Qvardiyanın parad heyəti, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin "Şücaətə görə" medallı polkovniki Orxan Novruzovun başçılıq etdiyi parad heyəti, Fövqəladə Hallar Nazirliyinin "Hərbi xidmətlərə görə" medallı polkovniki Xaliq Hüseynovun rəhbərlik etdiyi parad heyəti, Milli Müdafiə Universitetinin "Hərbi xidmətlərə görə" medallı rektoru general-mayor Gündüz Əbdülovun başçılıq etdiyi parad heyəti, Heydər Əliyev adına Hərbi İnstitutun "Qarabağ" ordenli general-mayoru Ümidvar Quliyevin rəhbərlik etdiyi parad heyəti, Bakı Hərbi Kollecinin "Vətən uğrunda" medallı polkovniki İntiqam Mirzəyevin başçılıq etdiyi parad heyəti, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanovun rəhbərlik etdiyi parad heyəti tribunanın önündən keçdilər.

***

Ardınca Hərbi Dəniz Qüvvələrinin və Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin döyüş gəmiləri və katerləri Hərbi parad üçün Xəzər dənizinin sahil sularında yüksək döyüş hazırlığı nümayiş etdirdi.

Daha sonra hərbi texnikaların keçidi oldu.

Bundan sonra xüsusi təyinatlı avtomobil texnikası və silah sistemləri kolonu Azadlıq meydanına daxil oldu. Kolona "Vətən uğrunda" medalı ilə təltif edilmiş general-mayor Eldəniz Yəhyayev başçılıq edirdi.

Azadlıq meydanından keçid edən, üzərində 12,7 millimetrlik NSV pulemyotları, tankəleyhinə idarəolunan "SPIKE-ER", 120 millimetrlik "SPEAR" minaatanlar quraşdırılan "SandCat-Stormer" zirehli idarəetmə, çevik hərəkət avtomobilləri, silahlanmaya yeni qəbul edilmiş Milli Müdafiə Sənayesinin məhsulu "VAŞAQ" xüsusi əməliyyat nəqliyyat vasitələri, "COBRA-II" zirehli tibbi təxliyə avtomobilləri, "SKİF" raket kompleksi, "BTR-82A" zirehli transportyorları, "PDM-3" Piyadaların Döyüş Maşınları, "T-72M1" və "T-90S" tankları Azərbaycan Ordusunun hərbi qüdrətini nümayiş etdirdi.

Daha sonra Azadlıq meydanında Hava Hücumundan Müdafiə silahları sistemləri kolonunun keçidi oldu. Kolona "Vətən uğrunda" medalı ilə təltif olunmuş general-mayor Zaur Yusifli başçılıq edirdi. Tribuna önündən



"S-125 TM", "BUK-MB", "BUK-MB2K", "İLDIRIM-8", "S-300 FAVORİT" və "TOR-2M" zenit-raket komplekslərinin keçidi oldu. Ardınca silahlanmaya yeni qəbul edilmiş Yerli Müdafiə Sənayesinin məhsulu "VİKİNQ" hava hədəflərinə qarşı çoxfunksiyalı mobil döyüş kompleksi, təkmilləşdirilmiş "Şilka" özüyeriyən zenit qurğusu və "HQ-9" uzaqmənzilli zenit-raket kompleksi nümayiş olundu.

Sonra İnsansız Sistem Qoşunları tərəfindən Ordumuzun pilotsuz uçuş aparatları və digər insansız vasitələri təqdim edildi. Kolona "Azərbaycan Bayrağı" ordenli general-mayor İlqar Qafarov başçılıq edirdi. Azadlıq meydanına üzərində "Orbiter-1KM" zərbə pilotsuz uçuş aparatları, "Orbiter-2", "Orbiter-3" və "Orbiter-4" kəşfiyyat pilotsuz uçuş aparatları, "Aerostar" taktiki-kəşfiyyat pilotsuz uçuş aparatları, "Bayraktar-TB2" silahlı kəşfiyyat pilotsuz uçuş aparatı, silahlanmaya yeni qəbul edilmiş "Hero-120", "Sky Striker" sərbəst uçan döyüş sursatları, "Orbiter-5" taktiki-kəşfiyyat pilotsuz uçuş aparatları, "Harop" zərbə pilotsuz uçuş aparatları, "Hermes-450" taktiki-kəşfiyyat pilotsuz uçuş aparatı yerləşdirilmiş "Marauder" və "Matador" tipli minaəleyhinə zirehli nəqliyyat vasitələri daxil oldu.

Ardınca Azadlıq meydanına artilleriya silahları sistemlərinin kolonu daxil oldu. Kolona "Zəfər" ordenli general-leytenant Ağamir Sultanov başçılıq edirdi. Meydanda 120 millimetrlik "Vena" özüyeriyən minaatan qurğusu və artilleriya qurğuları - 122 millimetrlik "Qvozdika", 152 millimetrlik "Akasiya", 152 millimetrlik "MSTA-S", 203 millimetrlik "Pion", həmçinin 220 millimetrlik "TOS-1A" ağır odsaçan, tankəleyhinə "Xrizantema-S" kompleksləri, "DANA" özüyeriyən artilleriya sistemi, 155 millimetrlik uzaqmənzilli "NORA" və 155 millimetrlik uzaqmənzilli "DİTA" özüyeriyən artilleriya sistemləri, 122 millimetrlik RM-70/85 yaylım atəşli reaktiv sistemi, silahlanmaya yeni qəbul edilmiş PULS üzərində 122 millimetrlik "ACCULAR" idarəolunan yaylım atəşli reaktiv sistemi, 160 millimetrlik "QRAD-LAR" yaylım atəşli reaktiv sistemi, silahlanmaya yeni qəbul edilmiş PULS üzərindən buraxılan SkyStriker BLOK-4 sərbəst uçan döyüş sursatları sistemi, "Qasırğa" taktiki raket kompleksi, 300 millimetrlik uzaqmənzilli TRG-300 taktiki raket sistemi, 300 millimetrlik iriçaplı "Smerç" yaylım atəşli reaktiv sistemi, 306 millimetrlik "Ekstra" taktiki raket kompleksi, 306 millimetrlik "Polonez" əməliyyat taktiki raket kompleksi, silahlanmaya yeni qəbul edilmiş PULS üzərində 370 millimetrlik yüksəkdəqiqlikli "Predator Hawk" əməliyyat taktiki raket kompleksi, beşinci nəsil İCEBREAKER qanadlı raket kompleksi və "LORA" əməliyyat-taktiki raket sistemlərinin keçidi oldu.

***

Bundan sonra Azadlıq meydanı üzərində Azərbaycan və Türkiyə pilotlarının iştirakı ilə Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu oldu. "Akıncı" pilotsuz uçuş aparatı Bakı səmasında, Azadlıq meydanı üzərində 900-1500 metr hündürlükdə dövrə vuraraq çəkilişlər apardı.





Azərbaycan, Türkiyə və Pakistan respublikalarının Dövlət bayraqlarını daşıyan "Mİ-17" döyüş-nəqliyyat helikopterləri üçlüyünə Vətən Müharibəsi qəhrəmanları – Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə və polkovnik Rəşad Nadirov başçılıq edirdi. "Qarabağ" ordenli general-mayor Zaur Rüstəmovun başçılığı ilə "Mİ-17" helikopteri isə Ümummilli Lider Heydər Əliyevin portretini nümayiş etdirdi.

Paytaxt səmasında təntənəli aviasiya nümayişləri davam etdi. Əvvəlcə polkovnik-leytenant Ziya Əliyevin başçılıq etdiyi uzaqmənzilli hava-yer tipli raketlərlə təchiz olunmuş "Mİ-17" döyüş-nəqliyyat helikopterləri beşliyi klin düzülüşündə Azadlıq meydanının üzərindən keçdi. Növbəti mərhələdə "Mİ-17" döyüş-nəqliyyat helikopterlərinin beşliyi klin düzülüşündə uçaraq tamaşaçılara heyranedici anlar yaşatdı. Bu beşliyə "Vətənə xidmətə görə" ordenli polkovnik-leytenant Sabit Hüseynov rəhbərlik edirdi.

Daha sonra polkovnik-leytenant Aslan Ramazanovun başçılığı ilə "MFİ-17" təlim təyyarələrinin beşliyi səmada dövrə vurdu. Ardınca "L-39" təlim təyyarələrinin beşliyi klin düzülüşündə nümayişini davam etdirdi. Qrupun rəhbəri "Vətənə xidmətə görə" ordenli polkovnik Əliyar Əsgərov idi. "İL-76" hərbi-nəqliyyat və silahlanmaya yeni qəbul edilmiş "C-27J" yük təyyarələrindən ibarət üçlüyü polkovnik-leytenant Zəfər Fərhadov, "Rəşadət" ordenli polkovnik Ruslan Ələkbərov və "Qarabağ" ordenli polkovnik Vüqar Salahov idarə etdilər. Silahlanmaya yeni daxil olan "JF-17" çoxməqsədli qırıcı təyyarələrinin beşliyi də klin düzülüşündə nümayişini davam etdirdi. Qrupa "Vətənə xidmətə görə" ordenli polkovnik Novruz Tahirov başçılıq edirdi. Türkiyə Hərbi Hava Qüvvələrini təmsil edən "F-16" çoxməqsədli qırıcı təyyarələr beşliyi Bakı səmasında peşəkar uçuş nümayiş etdirdi. Beşliyə Albay Nevzat Oflamaz başçılıq edirdi. Təkmilləşdirilmiş "SU-25-Laçın" hücum təyyarələri beşliyinin başçısı "Qarabağ" ordenli general-mayor Həsən Əlövsədov, 2-ci pilotu isə "Vətənə xidmətə görə" ordenli polkovnik Anar Həsənov idi. Sonuncu - Azərbaycan Respublikasının Dövlət Bayrağının rənglərini paytaxt səmasında canlandıran "SU-25" hücum təyyarələri qrupuna "Vətənə xidmətə görə" ordenli polkovnik Ruslan Məmmədrzayev başçılıq edirdi.

Bununla da Vətən müharibəsində qazanılan Qələbənin 5-ci ildönümünə həsr olunmuş Hərbi parad başa çatdı.

## Azərbaycan Prezidentinin, Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin üçtərəfli görüşü olub





Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin üçtərəfli görüşü olub.

Görüşdə Türkiyə Prezidenti və Pakistanın Baş naziri Vətən müharibəsində Qələbənin 5-ci ildönümü münasibətilə dövlətimizin başçısını bir daha təbrik edib, Bakıda keçirilən hərbi paradın yüksək səviyyədə təşkil olunduğunu vurğulayıblar.

Söhbət zamanı Azərbaycanın, Türkiyənin və Pakistanın daim bir-birinin yanında olduqları qeyd edilib, ölkələrimiz arasında siyasi, iqtisadi, hərbi, mədəni-humanitar və digər sahələrdə əməkdaşlığın daha da inkişaf etdiyi bildirilib.

Liderlər Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli formatının perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

# İlham Əliyevin Özbəkistana səfəri



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirak etmək üçün noyabrın 15-də Özbəkistana səfərə gəlib.

Daşkənd Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşıladılar.

## İlham Əliyevin Özbəkistan Prezidenti ilə təkbətək görüşü olub



Noyabrın 15-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə təkbətək görüşü olub.

Görüşdə Azərbaycanla Özbəkistan arasında müttəfiqliyə və strateji tərəfdaşlığa əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi bildirildi.

Prezident İlham Əliyevin Özbəkistana, Prezident Şavkat Mirziyoyevin isə ölkəmizə mütəmadi səfərlərinin əlaqələrimizin inkişafında rolu vurğulandı.

Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın son dövrlərdə daha da genişləndiyi məmnunluqla qeyd edilərək, bu xüsusda dövlətimizin başçısının Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirakının önəminə toxunuldu.

Söhbət zamanı dövlət başçıları ölkələrimiz arasında əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar.

# İlham Əliyev Daşkənddə İslam Sivilizasiyası Mərkəzi ilə tanış olub





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Daşkənddə İslam Sivilizasiyası Mərkəzi ilə tanış olub.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Qərarı ilə təsis edilən İslam Sivilizasiyası Mərkəzinin təməli 2018-ci ildə qoyulub. Layihənin həyata keçirilməsində yüzlərlə alim, ekspert, həmçinin dini və ictimai xadim iştirak edib. Səmərqənd şəhərinin qədim memarlıq abidələri üslubunda hazırlanmış mərkəz 10 hektardan



çox ərazini əhatə edir. Binada 65 metr hündürlüyündə günbəz inşa olunub. Mərkəzə tədqiqat, nadir əlyazmaların milli reyestrinin aparılması, əlyazmalar fondu, kitabxana və arxivlər, nəşriyyat şöbələri və digər şöbələr daxildir.

Buradakı sərgi qalereyasında müxtəlif tarixi dövrlərə aid əşyalar və əsərlər təqdim olunur, əcdadların yaradıcılıq potensialı müasir texnologiyalar və rəqəmsal cihazların köməyi ilə nümayiş etdirilir.

Mərkəzin binasında, həmçinin 100 min əlyazma və bir milyondan çox kitab daxil olmaqla,




nəhəng kitabxana və İslam Sivilizasiyası Mərkəzinin elmi şöbəsi, beynəlxalq təşkilatların ofisləri yerləşir. Mərkəzin muzey ekspozisiyası "İslamdan əvvəl sivilizasiyalar", "Birinci İntibah dövrü", "İkinci İntibah dövrü", "XX əsrdə Özbəkistan", "Yeni Özbəkistan – Üçüncü İntibahın əsası" və "Müqəddəs Quran" adlı zallardan ibarətdir.

Ekspozisiyanın mərkəzində yerləşən "Müqəddəs Quran" zalında müsəlman dünyasının mənəvi incisi – "Osman Quranı" saxlanılır. Zalda Samanilər, Qaraxanlılar, Xarəzmşahlar, Teymurilər və digər sülalələr dövründə yazılmış "Quran"ın əlyazma nüsxələri, həmçinin onların özbək dilinə tərcümələri təqdim olunur. Mərkəzdə dini-maarifləndirici və innovativ media layihələri reallaşdırılıb.

Holoqrafiya, qurğular və proyeksiya texnologiyalarının köməyi ilə "Zaman divarı" nəhəng multimedia panelində müxtəlif dövrlərin ən mühüm tarixi mərhələləri, böyük kəşflər və görkəmli şəxsiyyətlər barədə məlumat verilir. Bu Mərkəz UNESCO və ICESCO da daxil olmaqla, bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri qurub.

# İlham Əliyev Daşkənddə "Gələcəyin İrsi" Beynəlxalq Mükafatının təqdimat mərasimində iştirak edib



Noyabrın 15-də Daşkənddə "Gələcəyin İrsi" Beynəlxalq Mükafatının təntənəli təqdimat mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.
Qeyd edək ki, Azərbaycandan bu mükafata Xalq artisti Alim Qasımov layiq görülüb.





# İlham Əliyev Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə çıxış edib









Noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Konqres Mərkəzinə gəldi.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev dövlətimizin başçısını qarşıladı.

Tədbirin iştirakçıları birgə foto çəkdirdilər.

Görüşdə çıxış edən Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev qardaş xalqlar üçün tarixi bir gün yaşandığını vurğulayaraq dedi: “Biz Azərbaycan Respublikasının tamhüquqlu iştirakçı qismində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına qoşulmasına dair prinsipial qərarlar qəbul edirik. Biz Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında güclü bir körpü quracağıq və vahid əməkdaşlıq məkanının formalaşmasına yol açacağıq. Bu, sözsüz ki, hər iki regionun strateji qarşılıqlı əlaqəsini və dayanıqlılığını gücləndirəcək. Bu vacib qərarı qəbul etdiklərinə görə bütün həmkarlarıma səmimi-qəlbdən təşəkkürümü bildirmək və Məşvərət görüşlərinə tamhüquqlu iştirakçı qismində qoşulması münasibətilə İlham Heydər oğlunu təbrik etmək istəyirəm”.

Şavkat Mirziyoyev bildirdi ki, həmrəyliyin gücləndirilməsi və birgə inkişafa can atmaq Mərkəzi Asiyanın beynəlxalq mövqeyinin möhkəmlənməsinə və qlobal rolunun artırılmasına töhfə verir. “Mərkəzi Asiya +” formatlarının qarşılıqlı fəaliyyəti güclənib. Region nüfuzlu beynəlxalq platformalarda vahid mövqedən çıxış edir. Şübhəsiz ki, Azərbaycanın bizim formata qoşulması ilə regionumuzun qlobal miqyasda səsi daha əhəmiyyətli olacaq”, - deyə Özbəkistan Prezidenti vurğuladı.



"Bu gün Azərbaycanın tamhüquqlu iştirakçı qismində bizim formata qoşulmasına dair tarixi qərar qəbul etdik". Bu fikri isə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev söylədi. O, Azərbaycanın bu yeni formatda regional əməkdaşlığın möhkəmləndirilməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə etdi.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov da ölkəsinin Azərbaycanın tamhüquqlu üzv qismində Məşvərət görüşləri formatına qoşulması təşəbbüsünü dəstəklədiyini vurğulayaraq qeyd etdi: "Qardaş Azərbaycanın iştirakı ilə formatımızın genişləndirilməsi Mərkəzi Asiyanın qarşısında xüsusilə beynəlxalq tranzit, logistika və energetika sahələrində yeni imkanlar, geniş əməkdaşlıq üfüqləri açacaq. Bu gün əminliklə deyə bilərik ki, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinin formatı baş tutub. Bu format öz səmərəliliyini sübut edib, təkcə regionumuzda mövcud problemlərin müzakirə olunduğu deyil, həm də yeni təşəbbüslərin və təkliflərin fəal şəkildə irəli sürüldüyü real, özünəməxsus yeganə platformaya çevrilib".

"Bu gün regionun yeni nəqliyyat arteriyasının meydana çıxmasının şahidi oluruq", - deyən Sadır Japarov əlavə etdi ki, strateji cəhətdən mühüm Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun tikintisi logistikanı birləşdirməklə yanaşı, həm də formatını genişləndirəcək, ölkələrimizə Asiya və Avropanın çox böyük bazarlarına ən qısa yolu açacaq. Bu kontekstdə Zəngəzur dəhlizinin tikintisi layihəsi Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun məntiqi və strateji davamı kimi görünür.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon da ölkəmizi Məşvərət görüşlərinə qoşulması münasibətilə təbrik edərək dedi: "Hörmətli İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinə qoşulması münasibətilə təbrik edirəm. Sevindirici haldır ki, məkanımız beynəlxalq və regional proseslərin mühüm iştirakçısının timsalında öz əhəmiyyətini inamla artırır. Bu, balanslaşdırılıb və region ölkələrinin artan maraqlarının inkişafına səyləri nümayiş etdirir".

Tədbirdə çıxış edən Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov dövlətimizin başçısına Azərbaycanın tamhüquqlu iştirakçı qismində Məşvərət görüşlərinə qoşulması münasibətilə təbriklərini çatdırdı.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev dedi: "İndi isə icazənizlə, söz Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevə verilir. Buyurun, İlham Heydər oğlu".

Prezident İlham Əliyev tədbirdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı



– Hörmətli Şavkat Miromonoviç.
Hörmətli dövlət başçıları.
Əziz dostlar.

İlk növbədə Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyevə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşünə dəvətə görə dərin minnətdarlığımı bildirirəm. Özbəkistan tərəfinə ənənəvi qonaqpərvərliyinə görə təşəkkür edirəm.

Özbəkistan qardaşım Şavkat Miromonoviç Mirziyoyevin müdrik rəhbərliyi ilə inkişaf və quruculuq yolunda inamla irəliləyir. Onun güclü beynəlxalq nüfuzu, səmərəli iqtisadi islahatları, sənaye, nəqliyyat və kənd təsərrüfatı sahələrində həyata keçirdiyi irimiqyaslı layihələr Özbəkistanı regionda lider mövqeyə yüksəldib. Prezidentin gündəlik qayğısı sayəsində Özbəkistan dünyanın aparıcı idman dövlətləri sırasında yer alıb. Bu yaxınlarda keçirilən Yay Olimpiya Oyunları bunu əyani şəkildə nümayiş etdirdi. Şavkat Miromonoviç müdrik dövlət xadimi olmaqla yanaşı, həm də Özbəkistan-Azərbaycan əlaqələrinin inkişafına mühüm töhfə vermiş insandır. O, konkret fəaliyyətinə, xalqımıza xoş münasibətinə görə Azərbaycanda sevilir və hörmətlə qarşılanır. Uzaqgörən siyasi xadim Şavkat Miromonoviç Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında daha sıx əməkdaşlığa ehtiyac olduğunu aydın görür. Şavkat Miromonoviç, hər şeyə görə Sizə bir daha sağ olun deyirəm.

Dünən biz İslam Sivilizasiyası Mərkəzini ziyarət etdik. Özbəkistan Prezidentinin təşəbbüsü ilə yaradılan bu Mərkəz Özbəkistan Prezidentinin ölkənin zəngin mədəni irsinə sadiqliyinin daha bir göstəricisidir. Bəzi ölkələrdə dinimizə qarşı hücumların artdığı bir şəraitdə islamofobiya sistemli xarakter alır. İslam Sivilizasiyası Mərkəzinin açılması bütün dünyaya göstərir ki, İslam quruculuq, dözümlülük, dostluq və qardaşlıq dinidir. İslam aləminin görkəmli nümayəndələri dünya elminə, mədəniyyətinə böyük töhfə veriblər və İslam Sivilizasiyası Mərkəzi bunu əyani şəkildə nümayiş etdirir. Əminəm ki, möhtəşəm və nadir ekspozisiyaları olan Daşkənddəki İslam Sivilizasiyası Mərkəzi bütün İslam dünyası üçün qürur mənbəyinə çevriləcək.

Hörmətli həmkarlar, Azərbaycan artıq üçüncü dəfədir ki, Mərkəzi Asiya sammitlərində iştirak edir. 2023-cü ildə Tacikistan Prezidenti hörmətli Emoməli Şaripoviç Rəhmonun, 2024-cü ildə isə Qazaxıstan Prezidenti hörmətli Kasım-Jomart Kemeleviç Tokayevin dəvəti ilə sammitlərin işində iştirak etdim.

Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakter daşıyır. Bizi çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəylik birləşdirir. Biz bu əlaqələri nəinki qoruyub saxlamışıq, həm də onlara strateji tərəfdaşlıq xarakterinə malik olan yeni dinamika bəxş etmişik.

Son illər yüksəksəviyyəli qarşılıqlı səfərlər müntəzəm xarakter alıb. Son üç ildə mən Mərkəzi Asiya ölkələrində 14 dəfə səfərdə olmuşam. Bu müddət ərzində həmkarlarım ölkəmizə 23 dəfə səfər ediblər.

Azərbaycan Mərkəzi Asiya ölkələri ilə müttəfiqlik və strateji tərəfdaşlıq, o cümlədən birgə investisiya fondlarının yaradılması haqqında müqavilə və bəyannamələr imzalayıb. Mütəmadi olaraq keçirilən mədəniyyət günləri, sərgilər, konsertlər xalqlarımızı daha da yaxınlaşdırır, bizim yaxınlığımızı, dostluğumuza verdiyimiz dəyəri nümayiş etdirir.

Azərbaycan Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur.

Biz müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir, bir-birimizin təşəbbüslərini dəstəkləyir, qlobal və regional problemlərin həllində ümumi yanaşmalar işləyib hazırlayırıq.

Ölkəmiz öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi üzrə genişmiqyaslı işlərə başlayıb. Biz bu məsələdə Mərkəzi Asiya ölkələrinin Azərbaycana göstərdiyi qardaş dəstəyini yüksək qiymətləndiririk.

Xüsusilə qeyd edək ki, artıq Füzuli şəhərində Mirzə Uluqbəy adına məktəb və Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzi, Ağdamda isə Manas məktəbi fəaliyyət göstərir. Bu, özbək, qazax və qırğız qardaşlarımızın hədiyyələridir.

Bu ilin oktyabrında Füzulidə Türkmənistanın qardaşlıq dəstəyinin rəmzinə çevriləcək məscidin təməli qoyulub. Bütün bunlar qardaşlığımızın və həmrəyliyimizin sübutu kimi qədirbilən Azərbaycan xalqının yaddaşında qalacaqdır.

Bu gün Azərbaycan və Mərkəzi Asiya Şərqlə Qərb, Şimalla Cənub arasında birləşdirici bənd və körpüdür.

Orta Dəhlizin inkişafı ölkələrimiz üçün strateji əhəmiyyət kəsb edir. Nəqliyyat və logistika infrastrukturunun müasirləşdirilməsi, gömrük prosedurlarının sinxronlaşdırılması və rəqəmsallaşdırılması üzrə birgə səylər yükdaşımaların həcminin artırılması, iqtisadi dayanıqlılığın gücləndirilməsi və beynəlxalq bazarlarda əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar açır.

Son üç ildə Orta Dəhliz üzrə Azərbaycandan keçən yükdaşımalar 90 faiz artıb. Dəhliz boyu gediş vaxtları xeyli azaldılıb.

Yaxın illərdə buraxılış qabiliyyəti ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, doqquz beynəlxalq hava limanı, regionun ən böyük yük aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat qovşağına çevirmişdir.

Əminəm ki, Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş razılaşmalar beynəlxalq daşımalar üçün tranzit imkanlarının genişləndirilməsinə töhfə verəcək. Azərbaycanda Zəngəzur dəhlizinin tikintisi başa çatmaq üzrədir. İlkin mərhələdə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik bu dəmir yolu Orta Dəhlizin əsas arteriyasına çevriləcək. Həmçinin Zəngəzur dəhlizinin bir hissəsi olacaq avtomagistralın tikintisi də başa çatmaq üzrədir.

Rəqəmsal rabitə sahəsində əməkdaşlığımız böyük potensiala malikdir. "Rəqəmsal İpək Yolu" layihəsinə Xəzər dənizinin dibi ilə fiber-optik kabel şəbəkəsinin çəkilməsi planları daxildir.

Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsi qlobal bazarlara elektrik enerjisinin birgə ixracı üçün böyük perspektivlər açır.

Sonda Azərbaycanın Mərkəzi Asiya ölkələrinin əməkdaşlıq formatına qoşulması ilə bağlı qərara görə hörmətli həmkarlarıma təşəkkür etmək istəyirəm. Bu qərar münasibətlərimizin dostluq və qardaşlıq xarakterini bir daha təsdiqləyir, həmçinin geniş coğrafi məkanda əməkdaşlığın və qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə xidmət edəcəkdir. Eyni zamanda, bizim formatımızda sədrliyi qəbul etdiyinə görə qardaş Türkmənistanı təbrik etmək istəyirəm.

Diqqətinizə görə sağ olun.

***

Qardaş Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinə qatılması münasibətilə dövlətimizin başçısını bir daha təbrik edən Prezident Şavkat Mirziyoyev bildirdi: "Bu, həqiqətən də bizim üçün böyük tarixi hadisədir. Özbək xalqı və Özbəkistanda aparılan islahatlar barədə dediyiniz sözlərə görə bir daha Sizə təşəkkür edirik. Çox sağ olun ki, Siz İslam sivilizasiyası barədə söz açdınız. Həqiqətən də Siz dediyiniz kimi, bu, bizim daha da təşviq etməli olduğumuz amildir. Bu Mərkəz bizim ümumi nailiyyətimizdir. Düşünürəm ki, bu, gələcəkdə bizim müvafiq istiqamətdə birgə tədbirlər görməyimizə kömək olacaq. Bir daha Sizə təşəkkür edirəm. Dolğun çıxış üçün və bizim ümumi əməkdaşlığımızın genişlənməsi ilə bağlı təşəbbüslərinizə görə Sizə minnətdarlığımı bildirirəm".

***

Daha sonra BMT-nin Baş katibi Antonio Quterreşin görüş iştirakçılarına məktubu oxundu.

Tədbirdə Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu iştirakı haqqında qəbul edilən Qərar və digər sənədlər imzalandı.

# İlham Əliyev NATO nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da NATO nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə Türkiyə, Yunanıstan, Macarıstan, Monteneqro, Niderland, Şimali Makedoniya, Norveç, Slovakiya, Sloveniya, İsveç, Çex, Portuqaliya, İspaniyanın NATO-dakı daimi nümayəndələri, həmçinin ABŞ və Fransanın NATO-dakı daimi nümayəndələrinin müavinləri daxildir.

NATO nümayəndə heyətinin Prezident İlham Əliyev tərəfindən qəbul olunmasının əhəmiyyətini vurğulayan Türkiyənin alyansdakı daimi nümayəndəsi Basat Öztürk dövlətimizin başçısının NATO mənzil-qərargahına səfərlərini məmnunluqla xatırladı.

O, Azərbaycanın hazırkı inkişafının təməlinin Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu deyərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün sahələrdə daha da gücləndiyini vurğuladı.

Qonaqlar Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdılar.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd etdi və əldə olunmuş razılaşmaların regionun inkişafı üçün geniş imkanlar açdığını dedi.

Prezident İlham Əliyev də öz növbəsində NATO mənzil-qərargahına səfərlərini xatırladaraq qeyd etdi ki, Əfqanıstandakı əməliyyatlara dəstək Azərbaycan-NATO əməkdaşlığının vacib hissəsi olsa da, ölkəmizlə alyans arasında regional inkişaf, enerji təhlükəsizliyi və digər istiqamətlər üzrə əməkdaşlıq da gündəmdədir.

Dövlətimizin başçısı Azərbaycan Ordusunun NATO standartlarına uyğunlaşdırıldığını və bu çərçivədə Türkiyə ordusu ilə sıx əməkdaşlığı vurğuladı. Bu xüsusda ölkəmizlə alyans arasında əlaqələrin genişləndirilməsinin roluna toxundu.

Prezident İlham Əliyev Azərbaycanın ötən əsrin əvvəllərində müstəqilliyini qazandıqdan bəri əsas məqsədimizə çatdığımızı – torpaqlarımızın işğaldan azad olunduğunu vurğulayaraq qeyd etdi ki, ordumuzun müasirləşdirilməsi prosesi bundan sonra da davam edəcək.

Dövlətimizin başçısı NATO nümayəndə heyətinin ölkəmizə səfərinin uğurlu olacağına ümidvarlığını bildirdi.

Söhbət zamanı Azərbaycanın NATO-nun dəyərli tərəfdaşı olduğu vurğulandı, Silahlı Qüvvələrimizin Əfqanıstanda "Qətiyyətli dəstək" əməliyyatlarındakı xidmətləri, bu xüsusda ölkəmizin regional nəqliyyat və logistika mərkəzi kimi töhfələri yüksək qiymətləndirildi, sülhməramlılarımızın Əfqanıstanı sonuncu tərk edən hərbi qulluqçular olduğu qeyd edildi.

Azərbaycanın alyans üzvləri ilə sıx dostluq və strateji tərəfdaşlıq əlaqələrinə toxunuldu, NATO-nun “Sülh naminə tərəfdaşlıq” Proqramı çərçivəsində ölkəmizin 1994-cü ildən alyansın proqramlarında fəal iştirak etdiyi bildirildi.

Görüşdə Azərbaycan-NATO əməkdaşlığının perspektivləri müzakirə olundu, regional və qlobal məsələlərə dair fikir mübadiləsi aparıldı.

# İlham Əliyev Asiya İnkişaf Bankının nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Asiya İnkişaf Bankının prezidenti Masato Kandanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında səmərəli əməkdaşlığa toxunuldu, birgə layihələrin uğurlu icrası qeyd edildi. 1999-cu ildən indiyədək Asiya İnkişaf Bankı tərəfindən nəqliyyat, su təchizatı, enerji, maliyyə, təhsil, səhiyyə və digər sahələri əhatə edən 145 kredit, qrant, investisiya və texniki yardım layihələri üzrə Azərbaycana 5,5 milyard dollar dəyərində maliyyə dəstəyinin göstərildiyi vurğulandı.





Asiya İnkişaf Bankının Azərbaycan dövləti ilə yanaşı, özəl sektorla da uğurlu əməkdaşlıq etdiyi qeyd olundu. Bu xüsusda neft-qaz, elektrik enerjisi, yol, dəmir yolu, kənd təsərrüfatı, su təchizatı, çirkab suların axıdılması və digər istiqamətlərdə icra olunan birgə layihələrə toxunuldu.

Söhbət zamanı Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlərin regionun nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi üçün də böyük imkanlar yaratdığı diqqətə çatdırıldı.

Görüşdə Mərkəzi Asiya-Azərbaycan-Avropa marşrutu üzrə bağlantıların önəmi qeyd edildi. Həmçinin ölkəmizlə bank arasında yeni layihələrə toxunuldu, bu xüsusda dəmir yolu, metro şəbəkəsinin genişləndirilməsi və su təchizatı ilə bağlı əməkdaşlıq məsələləri müzakirə olundu.

# İlham Əliyev dərman preparatları istehsalı müəssisəsinin açılışında iştirak edib







22 noyabr 2025-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Abşeron rayonunun Hökməli qəsəbəsində "Scandens Pharmaceutical Industries Ltd" MMC-nin dərman preparatları istehsalı müəssisəsinin açılışında iştirak edib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov və baş direktor Kamran Həsənov dövlətimizin başçısına müəssisə barədə məlumat verdilər.

Beynəlxalq standartlara uyğun layihələndirilən müəssisə Almaniya, İsveçrə və İtaliyanın qabaqcıl texnologiya və avadanlıqları ilə təchiz olunub. İl ərzində müəssisədə antibiotiklər, diabetologiya, hepatologiya, kardiologiya, andrologiya, allerqologiya və qastroenterologiya sahələrinə aid təxminən 800 milyon ədəd tablet və kapsul dərman preparatı istehsal olunacaq. İstehsal olunan məhsullar həm daxili bazara çıxarılacaq, həm də gələcəkdə ixrac ediləcək. Müəssisədə 120 iş yeri yaradılıb.

Dəyəri 74 milyon manat olan layihə özəl investisiya hesabına həyata keçirilib. Şirkət İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş investisiya təşviqi sənədi hesabına idxal olunan avadanlıqlara görə 6,5 milyon manat güzəşt əldə edib.

Müəssisənin fəaliyyətə başlaması Azərbaycanın əczaçılıq sənayesində yeni inkişaf mərhələsi kimi qiymətləndirilir. Burada xammaldan hazır məhsula qədər dərman preparatlarının istehsalının bütün mərhələləri həyata keçiriləcək. Yeni müəssisə ölkəmizdə əczaçılıq sənayesinin inkişafına və yerli istehsalın güclənməsinə töhfə verəcək. Yerli və beynəlxalq tələblərə cavab verən rəqabətqabiliyyətli məhsulların istehsalı ölkəmizin ixrac imkanlarını da genişləndirəcək.

Müəssisə, eyni zamanda, əczaçılıq sahəsində peşəkar kadrların hazırlanması və əməli bacarıqların inkişafı üçün baza rolunu oynayacaq. "Scandens Pharmaceutical Industries Ltd" MMC, Azərbaycan Tibb Universiteti, Macarıstanın Peç Universiteti və "Panon Pharma" şirkəti arasında imzalanmış dördtərəfli Memorandum çərçivəsində burada əczaçı və qeyri-əczaçı ixtisasları üzrə qısa və uzunmüddətli təlim və təcrübə proqramlarının həyata keçirilməsi nəzərdə tutulub.

Prezident İlham Əliyev müəssisəni işə saldı.

Müəssisənin damında ümumi gücü 450 kVt/saat olan 710 ədəd Günəş paneli quraşdırılıb ki, enerji sərfiyyatının təxminən 40 faizi bu panellər vasitəsilə ödənəcək.

# İlham Əliyev Birləşmiş Krallığın müdafiə üzrə dövlət nazirini qəbul edib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının müdafiə üzrə dövlət naziri Lord Vernon Koakeri qəbul edib.

Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu bildirən qonaq, ilk növbədə, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin salamlarını dövlətimizin başçısına çatdırdı.

Lord Vernon Koaker ölkələrimiz arasında dostluq və etimada əsaslanan münasibətləri qeyd edərək əlaqələrimizin strateji tərəfdaşlıq müstəvisində inkişaf etdirilməsində maraqlı olduqlarını vurğuladı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Kir Starmerin COP29-da iştirakını və onunla görüşünü məmnunluqla xatırladı.

İkitərəfli münasibətlərimizin zəngin tarixinin olduğunu deyən dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın enerji sektorundan başladığını və daha sonra bir çox sahələri əhatə etdiyini vurğuladı. Prezident İlham Əliyev ticarət, investisiya və digər sahələrdə əməkdaşlığı daha da genişləndirmək üçün yaxşı imkanların olduğunu dedi. Dövlətimizin başçısı hazırda ölkələrimiz arasında müdafiə sənayesi sahəsində əməkdaşlıqla bağlı yeni səhifənin açılmasına toxunaraq, bunu qarşılıqlı etimadın göstəricisi kimi qiymətləndirdi.

Qonaq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəli aparılması istiqamətində bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş nəticələr münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirərək, bütün bunların tarixi əhəmiyyət daşıdığını vurğuladı və bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi roluna toxundu. Dövlətimizin başçısı sülh gündəliyinin təşəbbüskarının məhz Azərbaycan olduğunu dedi və onun irəli aparılması üçün ölkəmizin bundan sonra da səylərini davam etdirəcəyini vurğuladı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin bir sıra şirkətlərinin rəhbərlərini qəbul edib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) “2PointZero” şirkətinin sədri Şeyx Zayed bin Hamdan bin Zayed Əl Nəhyanı, “International Holding Company”nin baş icraçı və idarəedici direktoru Seyid Basar Şuebi, həmçinin “International Resources Holding” şirkətinin baş icraçı direktoru Əli Alraşdini qəbul edib.

“2PointZero” şirkətinin sədri Şeyx Zayed bin Hamdan bin Zayed Əl Nəhyan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Qonaq qeyd etdi ki, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Azərbaycanla bütün sahələrdə əməkdaşlığı genişləndirmək istiqamətində tapşırıq verib. O, əlaqələrimizin inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu deyərək, Azərbaycanla BƏƏ arasında uzunmüddətli uğurlu tərəfdaşlığın qurulduğunu vurğuladı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın bu ilin sentyabrında Azərbaycana, Qarabağa səfərini, həmçinin onunla ölkəmizdə və Birləşmiş Ərəb Əmirliklərində keçirdiyi görüşləri məmnunluqla xatırladı.

Əlaqələrimizin strateji tərəfdaşlıq müstəvisinə qalxdığını deyən dövlətimizin başçısı siyasi münasibətlərimizin yüksək səviyyədə olduğunu vurğuladı, müxtəlif sahələrdə əməkdaşlığımızın genişləndiyini qeyd etdi, ölkələrimiz arasında qarşılıqlı dəstəyi yüksək qiymətləndirdi.

Bərpaolunan enerji sahəsində BƏƏ-nin Azərbaycanın strateji tərəfdaşı olduğunu deyən Prezident İlham Əliyev bu istiqamətdə imzalanmış sənədləri qeyd edərək, əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın mövcudluğunu vurğuladı. Dövlətimizin başçısı Azərbaycan-BƏƏ əməkdaşlığının daha geniş region üçün mühüm əhəmiyyət kəsb etdiyini dedi.

Söhbət zamanı siyasi, iqtisadi-ticari, neft-qaz və digər istiqamətlərdə ikitərəfli əlaqələrimizin inkişafı vurğulandı.

Enerji infrastrukturu, bərpaolunan enerji, investisiyalar, informasiya texnologiyaları, mədən sənayesi və digər sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

# İlham Əliyev "Global Infrastructure Partners" şirkətinin baş icraçı direktorunu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də qlobal infrastruktur investisiya idarəetmə şirkəti "Global Infrastructure Partners"in (GIP) təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesini qəbul edib.

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) ilə "Global Infrastructure Partners" şirkəti arasında formalaşan tərəfdaşlığı yüksək qiymətləndirərək, Fondun şirkətlə birgə "Italo" sürətli dəmir yolu operatoru və London Qatvik hava limanı üzrə həyata keçirdiyi investisiyaların uğurlu əməkdaşlıq nümunələri olduğunu dedi. Ölkəmizin uzunmüddətli inkişaf strategiyasına toxunan dövlətimizin başçısı bu xüsusda "Global Infrastructure Partners" ilə tərəfdaşlığın əhəmiyyətini vurğuladı.

Adebayo Oqunlesi ARDNF ilə əməkdaşlığın səmərəli nəticələr verdiyini deyərək, şirkətin idarə etdiyi fondlara yatırdığı sərmayələrin iki qurum arasında etibarlı tərəfdaşlıq modeli formalaşdırdığını bildirdi.

Qonaq rəhbərlik etdiyi şirkətin hava limanlarının, logistika və nəqliyyat dəhlizlərinin optimallaşdırılması, enerji, o cümlədən bərpaolunan enerji üzrə beynəlxalq təcrübəyə malik olduğunu vurğulayaraq, enerji keçidi, nəqliyyat və rəqəmsal infrastruktur sahələrində Azərbaycanla əməkdaşlıqda marağını ifadə edib.

Görüşdə şirkətin müxtəlif infrastruktur istiqamətlərində həyata keçirdiyi layihələr, qlobal enerji keçidi fonunda formalaşan yeni tendensiyalarla bağlı fikir mübadiləsi aparıldı, süni intellekt texnologiyalarının tətbiqi üzrə beynəlxalq təşəbbüslərdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Qeyd edək ki, 2006-cı ildə yaradılan və 2024-cü ildə dünyanın ən böyük fəal idarəetmə şirkəti olan "BlackRock" tərəfindən satın alınan "Global Infrastructure Partners" hazırda təxminən 189 milyard ABŞ dolları məbləğində aktivləri idarə edir. "BlackRock" isə hazırda təxminən 14 trilyon ABŞ dollarına yaxın həcmdə aktivləri idarə etməklə, qlobal investisiya bazarında aparıcı mövqeyini qoruyur.

# İlham Əliyevin Slovakiyaya rəsmi səfəri



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Slovakiya Respublikasına rəsmi səfərə gəlib.

Bratislava şəhərinin Milan Ştefanik adına Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Slovakiya Respublikası Prezidenti Aparatının rəhbəri Peter Vodraşka və digər rəsmi şəxslər qarşıladılar.



# İlham Əliyevin Bratislavada rəsmi qarşılanma mərasimi olub







Dekabrın 8-də Slovakiyanın paytaxtı Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.

Prezident Sarayında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycanın və Slovakiyanın Dövlət himnləri səsləndirildi.





Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycanın nümayəndə heyətinin üzvləri Prezident Peter Pelleqriniyə, Slovakiyanın nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim edildi.

Dövlət başçıları birgə foto çəkdirdilər.

Prezident İlham Əliyev xatirə kitabını imzaladı.



# İlham Əliyevin Slovakiya Prezidenti ilə geniş tərkibdə görüşü olub



Dekabrın 8-də Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə geniş tərkibdə görüşü olub.

Görüşdə çıxış edən **Slovakiya Prezidenti Peter Pelleqrini** dedi:

– Hörmətli cənab Prezident və Azərbaycanın nümayəndə heyəti.

Sizi Slovakiyada, Bratislavada qəbul etmək böyük şərəfdir. Slovakiyaya səfər etmək qərarınız bizi çox şərəfləndirdi. Bu, Slovakiya Respublikasının tarixində Azərbaycan Prezidentinin ilk rəsmi səfəridir. Hətta 20 il əvvəl Slovakiyaya səfər etməyinizə baxmayaraq, o, rəsmi səfər deyildi. Ola bilsin, o, konfrans və ya digər tədbir ilə bağlı idi. Mən çox minnətdaram ki, Siz hökumət üzvlərindən ibarət bu cür geniştərkibli nümayəndə heyəti ilə gəlmisiniz. Çünki fikrimizcə, bu səfər güclü siqnal verməlidir: əlaqələrimiz sadəcə dostluq əlaqələri deyil, onların hələ də böyük inkişaf potensialı var. Biz çox sahələri nəzərdən keçirəcəyik. Təkbətək görüşdə çox səmimi müzakirəyə görə minnətdaram və bunu həqiqətən yüksək dəyərləndirirəm. Ümidvaram ki, ikitərəfli nahar və Bratislava Qəsrində dövlət ziyafəti zamanı bizim gündəliyə baxmaq üçün xeyli imkanımız olacaq.

Bir daha qeyd edim ki, Siz dostlarınızın yanına gəlmisiniz. Biz Sizi, ölkənizi özümüzə dost hesab edirik, çünki Sizinlə dəfələrlə görüşmək imkanımız olub. Çox məmnunam ki, Baş nazir qismində səfərim zamanı Sizinlə görüşdüyüm vaxtda biz münasibətlərimizi gücləndirmək qərarına gəldik. Belə fikrə gəldik ki, Bakıda səfirliyimizi açsaq əla olar. Hökumət olaraq, biz həmin qərarı qəbul etdik. Siz də eyni qərar qəbul etdiniz. Çox şadam ki, hazırda masa arxasında səfirlər də əyləşib - biri Bratislavadan, digəri Bakıdan. Düşünürəm ki, bu addım çox faydalı oldu. Biz, həmçinin ölkələrimiz arasında Komissiyanı yaratmaq qərarına gəldik. Sonuncu iclas 2024-cü ildə keçirilib. Növbəti iclas 2026-cı ildə nəzərdə tutulur. Bir sözlə, işlər gedir.

Əlbəttə, mən hökumət üzvlərinin çoxsaylı səfərlərini də qeyd etməliyəm. Təkcə Prezident və Baş nazirlərin səfərləri deyil, digər səfərlər də olub. Çox məmnunam ki, müdafiə naziri mənə səfərinin uğurla keçdiyini bildirdi. O, həmçinin parada dəvət olundu. Mühüm milli gün qeyd edildi. O, mənə söylədi ki, onun sahəsi ilə bağlı əla görüşləri baş tutdu, çünki onun özü çox fəal nazirdir. Potensial böyükdür.

İqtisadiyyat naziri də buradadır. Bu, bizim üçün indiki anda çox vacib mövzudur, çünki enerji təchizatına



gəldikdə, Slovakiya hazırda olduqca ağır vəziyyətə düşüb. Görürük ki, uzun perspektivdə Azərbaycan həll variantının bir hissəsi ola bilər. Avropa İttifaqı Rusiya qazının Slovakiyaya idxalını tam qadağan etmək qərarına gəlib. Onlar bu qərarı 27 üzv adından qəbul ediblər. Müddət çox qısadır. Şirkətlərimizin rəhbərləri də buradadır. Çox şadam ki, Siz SOCAR-ın prezidentini də nümayəndə heyətinə daxil etmisiniz. Çox konkret söhbət apara bilərik. Azərbaycan enerji təchizatının şaxələndirilməsində rol oynaya bilər, çünki cənab Prezident, hazırda biz boru kəmərinin sonundayıq. Əslində, Qərbi Avropa istiqamətində biz hər zaman əvvəldə olmuşuq. İndi isə boru kəmərinin sonundayıq. Təsəvvür edə bilərsiniz bu, nəyin bahasına başa gəlir. Bir daha, cənab Prezident, xoş gəlmisiniz. Sizi burada qəbul etmək bizim üçün və bütün slovak xalqı üçün böyük şərəfdir.

***

Sonra **Azərbaycan Prezidenti İlham Əliyev** çıxış edərək dedi:

– Təşəkkür edirəm. Xoş sözlərə görə çox sağ olun, cənab Prezident. Dəvətə və qonaqpərvərliyə görə minnətdaram. Çox şadam ki, biz Bratislavada görüşürük. İlk öncə Bakıdakı görüşümüz xatirimdədir. COP29 konfransında iştirak etdiyinizə görə Sizə bir daha öz təşəkkürümü bildirirəm. Sizinlə xeyli söhbət etmək imkanımız oldu. Siz Baş nazir kimi səfərinizi və səfirliyin açılmasını xatırlatdınız. Əslində, biz ikimiz Slovakiya ilə Azərbaycan arasında münasibətlərin fəal fazasını başlatdıq. Əlaqələr bu gün artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Ötən il biz əlaqələrimizi ən yüksək səviyyəyə qaldırmış Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni imzaladıq. Həmçinin biz Baş nazirin müavini və müdafiə naziri cənab Kalinyakın ötən ay hərbi paradımızda iştirak etdiyinə görə çox minnətdarıq. Biz bunu aramızda güclü dostluq əlaməti hesab edirik. Son illər ərzində münasibətlərimiz yüksək dərəcədə inkişaf edib və bir çox sahələri əhatə edir.

Siz energetikanı qeyd etdiniz. Ötən il biz Slovakiyaya qaz təchizatına başladıq. İstənilən lazımi vaxtda davam etdirməyə hazırıq. Müdafiə və müdafiə sənayesi sahəsində əməkdaşlığımızın gələcəkdə böyük potensialı var. Artıq vacib işlər görülüb, amma daha çox işlər də görülməlidir. Qarabağın yenidən qurulmasında fəal iştirak edən slovak şirkətlərinə dəstəyinə görə minnətdarıq.

***

Slovakiya Prezidenti dövlətimizin başçısını Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş tarixi nailiyyət münasibətilə təbrik etdi.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı dost ölkə kimi Slovakiya şirkətlərinin işğaldan azad edilmiş Ağdam rayonunun Baş Qərvənd kəndinin “ağıllı kənd” konsepsiyası əsasında yenidən qurulmasında iştirakı məmnunluqla qeyd olundu, Azərbaycanla Slovakiya arasında enerji, nəqliyyat, müdafiə sənayesi sahələrində uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Slovakiyanın ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin inkişafını dəstəklədiyi qeyd edildi.

Dövlətimizin başçısı Slovakiya Prezidentini Azərbaycana rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

# Azərbaycan və Slovakiya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

Dekabrın 8-də Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Slovakiya Prezidenti bəyanatla çıxış etdi.



## Prezident Peter Pelleqrininin bəyanatı

– Xanımlar və cənablar, mən çox şadam ki, bu gün Slovakiyada, Prezident Sarayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi salamlayıram.

Cənab Prezident, mən şadam ki, Siz mənim dəvətimi qəbul etmisiniz. Bu, Azərbaycan Prezidentinin Slovakiyaya tarixdə ilk rəsmi səfəridir. Bu, bizim qarşılıqlı marağımızı ən yüksək səviyyədə təsdiq edir. Biz strateji tərəfdaşlıq qurmaq və onu inkişaf etdirmək niyyətindəyik. Biz cənab Prezidentlə geniş tərkibdə və təkbətək formatda geniş müzakirələr apardıq. Biz keçmişdə dəfələrlə görüşmüşük. Hər zaman olduğu kimi, görüşümüz səmimi və açıq şəkildə həyata keçirilmişdir. Çünki bizim ölkələrimiz dost ölkələrdir və bizim münasibətlərimiz hər zaman yaxşı səviyyədə olub.

Slovakiya Azərbaycanı yerləşdiyi regionda strateji əhəmiyyətə malik tərəfdaş hesab edir. Azərbaycan Cənubi Qafqazın ən böyük iqtisadiyyatıdır. O, Asiya və Avropa ilə kəsişmədə yerləşir və zəngin enerji resurslarına malikdir. Mən çox şadam ki, bizim ticarət dövriyyəmiz artmaqdadır. Burada ciddi artım var. Biz bu gün də qeyd etdik ki, burada hələ də istifadə edilməmiş potensial var.

Ötən il iki ölkə arasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamə imzalanmışdır və bu da bizim münasibətlərimizi daha yüksək səviyyəyə qaldırmışdır. Bizim qarşılıqlı maraq kəsb edən bütün sahələr üzrə əməkdaşlığımız yüksək səviyyəyə qaldırıla bilər. Biz gələcəkdə Slovakiya ilə Azərbaycan arasında daha sıx əməkdaşlıq edəcəyik – müdafiə sənayesi, müasir texnologiyalar, tələbə mübadiləsi, turizm, mədəniyyət və digər sahələrdə.

Mən slovak xalqı adından cənab Prezidenti və Azərbaycan Respublikasını təbrik etmək istərdim. Çünki uzun illərdən sonra Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsi paraflanmışdır. Bilirsiniz ki, bu müqavilə Ağ Evdə Prezident Donald Trampın iştirakı ilə imzalanmışdır. Azərbaycan bu gün sülh şəraitində yaşayır və onun vətəndaşları, cəmiyyət diqqəti ölkənin inkişaf etdirilməsinə yönəldib. Artıq diqqət postmüharibə dövrünə yönəldilib.

Azərbaycan Slovakiyada aparıcı rol oynaya bilər. Söhbət bizim enerji təchizatının şaxələndirilməsindən gedir. Biz, əlbəttə, bilməliyik ki, uzunmüddətli perspektivdə Azərbaycan bizim üçün strateji tərəfdaş ola bilər. Bizim heyətlər danışıqları davam etdirəcəklər ki, bu, Slovakiya üçün də məqbul bir anlaşma olsun və biz də Azərbaycanın resurslarından istifadə edə bilək.

Müdafiə sənayesi çox vacib sahədir. Biz bu sahəni artıq inkişaf etdiririk. Biz, sadəcə olaraq, Azərbaycana silah satmaq niyyətində deyilik. Bildiyiniz kimi, bu sahə Slovakiyada çox inkişaf edib. Biz özüyeriyən artilleriya qurğuları, sursat və digər məhsullar sahəsində də böyük təcrübəyə malikik. Biz Azərbaycanla texnologiya ötürülməsi, Azərbaycanın maliyyəsindən istifadə edilməsi və birgə istehsalın üzərində işləyə və birlikdə istehsal etdiyimiz məhsulları üçüncü ölkələrə sata bilərik.

Mən şadam ki, bizim Baş nazirin müavini və müdafiə naziri cənab Kalinakın səfəri zamanı da Azərbaycan tərəfi avtomatik artilleriya sistemlərinin alışı ilə maraqlanıb və artıq niyyətini bildirib. Əminəm ki, bu silah növləri də Azərbaycan Silahlı Qüvvələrini gücləndirəcəkdir.

Birgə müəssisələr, birgə şirkətlər, texnologiya ötürülməsi, yəni, biz bu sahədə daha da sıx çalışmaq əzmindəyik və əlbəttə ki, digər sahələr də ola bilər. Bildiyiniz kimi, slovak şirkəti Qarabağ bölgəsində “ağıllı kənd” inşa edir. Eyni zamanda, bizim ixracidxal bankımız da müxtəlif layihələri maliyyələşdirməyə hazırdır.

Sonda onu da qeyd etmək istərdim ki, Azərbaycan və Slovakiya dost ölkələrdir. Bizim aramızda daha sıx əlaqələr ola bilər. Şadam ki, Macarıstanın "Wizz Air" şirkəti fəal şəkildə bizim ölkələri birləşdirir, uçuşları artırır. Artıq Bratislava Hava Limanından da Bakıya birbaşa uçuşlar açıla bilər. Çünki bu, dinamik inkişaf edən iki regiondur və bu da bizim müzakirə mövzumuz olmuşdur.

Cənab Prezident, bir daha Sizi Bratislavada salamlayıram. Əminəm ki, Sizin rəsmi səfəriniz bizim əməkdaşlığımızda yeni, mühüm bir mərhələnin başlanğıcı olacaq. Mən çox şadam ki, biz tezliklə Sizinlə yenidən görüşəcəyik. Mənim dəvətimi qəbul etdiyinizə görə bir daha təşəkkür edirəm. Əlbəttə ki, biz Bakıda görüşmüşük, ancaq rəsmi olaraq Slovakiya Prezidenti Azərbaycanda səfərdə olmamışdır.

Bir daha cənab Prezident, xoş gəlmisiniz Slovakiyaya.

***

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı



– Hörmətli cənab Prezident.

Əziz dostlar.

İlk növbədə, cənab Prezident, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Mənim Slovakiyaya rəsmi səfərim əminəm ki, iki ölkə arasındakı əlaqələrə çox müsbət təsir göstərəcəkdir.

Siz qeyd etdiyiniz kimi, bu, Azərbaycan Prezidentinin Slovakiyaya ilk rəsmi səfəridir. Əlbəttə ki, səfər zamanı həm təkbətək formatda, həm nümayəndə heyətlərinin iştirakı ilə apardığımız danışıqlar bir daha onu göstərir ki, Slovakiya və Azərbaycan, sözün əsl mənasında, dost ölkələrdir və strateji tərəfdaşlardır.

Qeyd etdiyiniz kimi, keçən il Slovakiya və Azərbaycan Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalamışlar. Bu, əlaqələrimizi ən yüksək səviyyəyə qaldıran bir sənəddir və o sənədin imzalanmasından sonra biz bütün istiqamətlər üzrə çox fəal əməkdaşlığı görürük.

Siz artıq bizim ikitərəfli gündəliyimizlə bağlı geniş məlumat verdiniz. Sadəcə olaraq, əlavə etmək istərdim ki, qeyd etdiyiniz bütün istiqamətlər üzrə bizim müştərək komandalarımız fəal işləyir. Birgə iqtisadi işçi qrup öz fəaliyyətini genişləndirir. Ənənəvi əməkdaşlıq sahəsi olan energetika üzrə konkret layihələr icra edilir. Keçən il ilk dəfə olaraq Azərbaycan qazı Slovakiyaya təchiz edilmişdir və Slovakiyanın ehtiyacları olan səviyyədə, istənilən həcmdə Azərbaycan enerji resurslarını təmin edə bilər.

Onu da bildirməliyəm ki, bizim zəngin qaz yataqlarımız bu gün imkan verir ki, dünyanın bir çox ölkələrinə təbii qazı ixrac edək. Azərbaycan qazını almış ölkələrin sayı 14-ə çatıb. Biz boru kəmərləri ilə ixrac edilən qazın təchizatçı ölkəsi olaraq birinci yerdəyik. Yeni qaz yataqlarının işlənməsi nəticəsində əlavə resurslar əldə ediləcək və təbii ki, həm Slovakiyaya, həm də onun qonşularına Azərbaycan qazının təchizatı daha da böyük həcmdə mümkün olacaqdır.

Hazırda bizim ümumi qaz ixracımız 25 milyard kubmetr səviyyəsindədir, bunun da yarısı Avropa ölkələrinə nəql edilir. Bu gün Avropa İttifaqına üzv 8 ölkə Azərbaycan qazını alaraq öz enerji təhlükəsizliyini təmin etmiş olur.

Bizim digər perspektivli əməkdaşlıq sahəsi haqqında Siz artıq dediniz, bu da müdafiə sənayesi sahəsidir. Biz bu sahədə əməkdaşlığı sənayenin inkişafı nöqteyi-nəzərindən görürük. Biz müharibə aparmaq fikrində deyilik. Yəni, bizim üçün müharibələr artıq keçmişdə qalır və sadəcə olaraq, burada bir sinergiyanın yaradılması üçün Slovakiya texnologiyaları ilə Azərbaycan maliyyə imkanlarını birləşdirərək yeni məhsulların istehsalı dünya bazarları üçün də maraqlı ola bilər. Həm də ki, bu, texnoloji inkişafın da bir qolu olaraq bizə böyük faydalar verəcəkdir. Biz bu istiqamətdə konkret layihələr üzərində çalışırıq.

Düz bir ay əvvəl – noyabrın 8-də biz azadlıq müharibəsində Qələbənin beşinci ildönümünü qeyd etmişdik və fəxri qonaqlar arasında Slovakiyanın Baş nazirinin müavini və müdafiə nazirini görmək xüsusi məmnunluq yaratmışdır. Buna görə biz Slovakiya dövlətinə və hökumətinə minnətdarıq. Bu kimi jestlər bir daha onu göstərir ki, biz, sözün əsl mənasında, dost ölkələrik. Müvafiq hökumət nümayəndələri bütün istiqamətlər üzrə təlimatları alıb ki, gələcək illərdə əməkdaşlığı daha da yüksək səviyyəyə qaldıraq.

Sizin rəhbərliyinizlə Slovakiyanın uğurlu inkişafı bizi çox məmnun edir. Ölkənizdə sabitlik, iqtisadi inkişaf hökm sürür. Slovakiya çox güclü sənaye potensialına malikdir. Xüsusilə Sizə rəğbət qazandıran odur ki, Slovakiya müstəqil xarici siyasət aparır. Bəzi hallarda buna görə müəyyən çətinliklərlə də üzləşirsiniz. Ancaq bu, Sizi yolunuzdan döndərmir və bizim bölgəmizdə Sizin ölkənizə və rəhbərliyə çox böyük hörmət mövcuddur.

Azərbaycan isə öz xarici siyasət prioritetlərini çoxdan müəyyən edib. Biz, eyni zamanda, bu gün Şərqlə Qərb arasında müəyyən bir körpü rolunu oynayırıq. İnfrastruktura, bağlantılara, nəqliyyat sektoruna qoyduğumuz sərmayə bu gün imkan verir ki, Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin önəmli parçasına çevrilsin. Biz Orta Dəhliz layihəsində fəal iştirak edirik. Orta Asiyanı Avropa ilə birləşdirən ən etibarlı və ən təhlükəsiz marşrut Azərbaycan ərazisindən keçir.

Gələcək illərdə bağlantılar və nəqliyyat sahəsinə əlavə vəsait qoyaraq biz öz imkanlarımızı genişləndirəcəyik. Hesab edirəm ki, biz Slovakiya ilə Azərbaycan arasındakı əlaqələrin inkişafında bu sahəni də diqqətdən kənarda qoymamalıyıq. Çünki bunun çox böyük potensialı vardır.

Eyni zamanda, bu gün biz informasiya texnologiyaları, data mərkəzlərinin yaradılması haqqında danışmışıq. Burada Azərbaycanın üstünlüyü ondadır ki, bizdə kifayət qədər böyük enerji potensialı var. Bu gün Azərbaycanda istifadə olunmayan enerji potensialı təxminən 2 giqavata bərabərdir və növbəti beş il ərzində bu, 8 giqavata çatdırılacaq. Təbii ki, süni intellekt və data mərkəzlərinin fəaliyyəti üçün enerji mənbəyi əsas amillərdən biridir. Əlbəttə ki, iqlim də burada önəmli amildir. Baxmayaraq, biz Cənub ölkəsiyik, amma bizim çox soyuq bölgələrimiz də var ki, orada ilin böyük hissəsində şaxtalı hava şəraiti mövcuddur. Ona görə beynəlxalq data mərkəzləri habı kimi biz öz rolumuzu görürük və Slovakiya şirkətləri ilə bu istiqamətdə çalışmaq fikrindəyik.

Cənab Prezident, qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Fürsətdən istifadə edərək, Sizi Azərbaycana rəsmi səfərə dəvət etmək istəyirəm. Siz Azərbaycanda dəfələrlə olmusunuz, ancaq Prezident kimi rəsmi səfərdə hələ ki, olmamısınız. Əgər vaxtınız olarsa, gələn il biz Sizi Azərbaycanda qarşılamağa hazırıq və çox məmnun olarıq. Bir daha çox sağ olun.

## Azərbaycan və Slovakiya prezidentləri Bratislavada “Azadlıq Qapısı” abidəsini ziyarət ediblər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini dekabrın 8-də Bratislavada “Azadlıq Qapısı” abidəsini ziyarət ediblər.

Əvvəlcə Azərbaycanın və Slovakiyanın Dövlət himnləri səsləndirildi.

Prezident İlham Əliyev və Prezident Peter Pelleqrini abidənin önünə əklil qoydular.

Qeyd edək ki, bu abidə 1948-1989-cu illərdə keçmiş Çexoslovakiyadan qaçmağa çalışan zaman həlak olanların xatirəsinə həsr edilib.





# Azərbaycan və Slovakiya prezidentləri Bratislavada Devin qəsrində olublar



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini dekabrın 8-də Bratislavada Devin qəsrində olublar.

Dövlətimizin başçısına Morava və Dunay çaylarının qovuşduğu məkanda yerləşən qədim qəsr barədə məlumat verildi.

Bildirildi ki, Slovakiyanın rəmzlərindən biri olan Devin qəsri bu ölkənin milli mədəniyyət abidələri siyahısına daxildir. Yazılı mənbələrdə Devin adına ilk dəfə 864-cü ilə təsadüf edən salnamələrdə rast gəlinir. Qəsr 822-907-ci illərdə mövcud olmuş Böyük Moraviyanın tarixində mühüm rol oynayıb. XIII əsrdə Devin macarların kral və sərhəd qalası olub. 1809-cu ildə Napoleonun ordusu qalanı minalayaraq partladıb. 1896-cı ildə qalanın dağılmasının rəmzi olaraq burada abidə ucaldılıb. Birinci Dünya müharibəsindən sonra qala qalıqlarının üzərində olan dağ massivində ilk mağaralar aşkarlanıb. Ərazidə ümumilikdə fasilələrlə bir əsrdən artıqdır ki, arxeoloji araşdırmalar aparılıb. Minilliklər boyunca Devin qalası qədim insanların məskəni, eyni zamanda, tacirlər və döyüşçülər üçün toplanış yeri olub.





# İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib



Dekabrın 8-də Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin adından rəsmi ziyafət verilib.

Dövlət başçıları ziyafətdə çıxış ediblər.

## Prezident Peter Pelleqrininin çıxışı



– Cənab Prezident, əziz İlham.

Hökumət nümayəndələri, xanımlar və cənablar, əziz dostlar.

Cənab Prezident, bu gün Sizi mötəbər nümayəndə heyətinizlə birlikdə Bratislava qəsrində salamlamaq mənim üçün böyük şərəfdir.

Mənim Sizin ölkənizə bir neçə dəfə səfər etmək imkanım olub. Həmişə doğma ölkəmizə ölkəniz haqqında güclü təəssüratlarla qayıtmışam. Ölkəniz minilliklər boyu özündə müdriklik, cəsarət və gözəlliyi əks etdirib. O, alov rəmzini təcəssüm etdirir. Bu, təkcə Abşeronun əbədi yanan alovu deyil. Bu, mehribanlıq, qətiyyət, mətanət və fəxarət alovudur. Sizin zəngin tarixiniz musiqidə yazılıb, lakin onu həm də Qobustan qayalarında görmək olar. Ötən il bu möhtəşəm yeri ziyarət etmək mənə nəsib oldu. Siz, cənab Prezident, ölkənizin gələcəyini ambisiya, innovasiya və inamla qurursunuz. Bratislavaya geri dönərkən mən də sizə yaxın olduğumuzu hiss etdim.

Coğrafi məsafənin bizi ayırdığına baxmayaraq, ilk baxışdan iki ölkə bir-birinə göründüyündən daha yaxındır. Əsrlər boyu Azərbaycan sivilizasiyaların qovuşuğunda yerləşmiş və bir-birindən uzaqda olan ölkələri tarixi ticarət yolları ilə birləşdirmişdir. Xalqınız digər millətlərə hörmət bəsləmək və dialoq qurmaq xüsusiyyəti ilə seçilir.

Slovakiya hazırda BMT və NATO-da dərin köklər salaraq tarixən güclər arasında toqquşmaların, rəqabətin şahidi olmuşdur və indi Avropanı Şərqlə birləşdirən regionda bir hab rolunu oynayır. Bütün hallarda biz dialoqun, diplomatiyanın, sülhün və beynəlxalq hüquqa hörmətin tərəfdarıyıq. Biz səmimi, açıqqəlbli, qonaqpərvər və ənənələri sevən bir xalqıq. Biz dostluğa, mehribanlığa və digər humanist keyfiyyətlərə hörmət göstərməyə sadiqik.

Ola bilsin məhz buna görə və həm də şəxsi təmaslarımız vasitəsilə illər boyunca qurduğumuz Slovakiya-Azərbaycan tərəfdaşlığı təbii bir tərəfdaşlıq kimi görünür və istənilən ab-havada daimi xarakter daşıyır. Biz həmişə sizin ərazi bütövlüyünüzə və münaqişənin davamlı, sülh yolu ilə həllinə dəstək göstərmişik. Avqustda imzalanmış razılaşma "sülhə nail olmaq mümkündür" kimi güclü mesaj verən böyük bir nailiyyətdir. Bu da dünyanın digər yerlərində bizlər üçün bir ilham mənbəyi olmalıdır. Enerji təchizatımız təhlükə altında olduqda biz Sizə müraciət edə bilərik.

Ötən il Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni imzaladıqda biz münasibətlərimizə yeni enerji ilə təkan verdik. Sizin Bratislavaya ilk rəsmi səfəriniz bu münasibətlərin gücünü əks etdirir. Bu gün apardığımız müzakirələrin nəticələri onu göstərir ki, biz münasibətlərə diqqət yetirsək və onları daha da inkişaf etdirsək bunun bəhrəsini görərik. Biz bunu xüsusilə enerji, iqtisadiyyat və müdafiə sektorlarında görürük. Mübaliğəsiz deyə bilərəm ki, biz münasibətlərimizin yeni fəslinə qədəm qoyuruq. Biz bu sektorlarda əməkdaşlığın daha da genişləndirilməsi üçün geniş imkanlar görürük və onlardan kənarda üzümüzə yeni fürsətlər açılır.

Ümidvaram ki, yeni imkanlar və əlaqələr, yeni iqtisadi imkanlar kəşf edə və turizm, mədəniyyət, yaxud idman sahəsində əməkdaşlıq vasitəsilə xalqlarımız arasında əlaqələr yarada bilərik.

Cənab Prezident, xanımlar və cənablar, biz etimad üzərində güclü, qarşılıqlı tərəfdaşlıq qurmuşuq.

Sağ olun.

## Prezident İlham Əliyevin çıxışı



– Hörmətli cənab Prezident, əziz qonaqlar.

İlk növbədə, cənab Prezident, Slovakiyaya rəsmi səfərə dəvət etdiyinizə görə Sizə bir daha təşəkkürümü bildirirəm. Qonaqpərvərliyinizə və dostluğunuza görə minnətdaram. Biz uzun müddətdir ki, bir-birimizi tanıyırıq, dəfələrlə görüşmüşük. Lakin bu, xüsusi statusa malik rəsmi səfərdir. Səfər böyük hörmətə və rəğbətə layiq, həqiqi dost olan ölkəyə həyata keçirilir. Ölkələrimiz kifayət qədər bir-birindən uzaqda yerləşsə də, Siz xalqlarımız arasında oxşarlığı qeyd etdiniz. Bu fikirlərinizə tam şərik çıxıram.

Aramızda çox oxşarlıqlar mövcuddur. Əsrlər boyu böyük imperiyaların tərkibində olmuşuq. Biz sosialist blokun dövlətləri hesab edilən ölkələrdə yaşamışıq. Müstəqil deyildik. Müstəqilliyimizin çox məhdud hüdudları olub. Demək olar ki, eyni vaxtda - 1990-cı illərin əvvəllərində əsl müstəqil ölkələr olduq. O vaxt müstəqilliyi və bütün təsisatları, həmçinin gələcəyimizi sıfırdan qurmalı idik. İndi isə 30 ildən bir qədər artıq müddətdə Slovakiyanın əldə etdiyi tərəqqiyə nəzər salsaq görərik ki, həmin irəliləyiş xalqınızın güclü iradəsi, tarixiniz, mədəniyyətiniz və milli mənsubiyyətiniz sayəsində əldə olunub. Bu gün böyük təəssürat bağışlayan qədim Qəsrdə birgə olduğumuz zaman mən bir daha enerjili, müqavimətli və müstəqil siyasət yürütməkdə bacarıqlı olmağınızın mənbəyini gördüm.

Əsrlər boyu milli mənsubiyyətinizi qoruyub saxlaya bilmisiniz, baxmayaraq ki, bu, asan deyildi. Çox millətlər tarix boyu assimilyasiyaya uğrayıb. Bir çox millətlər dövləti qurmaq, dövlətçiliyi qoruyub saxlamaq bacarığını əldən buraxdılar. Lakin Siz bu vəzifənin öhdəsindən gəldiniz. Bu gün Slovakiya adambaşına düşən ümumi daxili məhsula, sənayenin inkişafına, insan kapitalına və yaşayış standartlarına görə aparıcı ölkələrdən biridir. Ölkəniz uğur qazanmaq, öz milli mənsubiyyətini, ləyaqətini qoruyub saxlamaq və dostluq qurmaq istəyən ölkələr üçün örnək ola bilər. Biz Azərbaycanda Slovakiyanı olduqca sülhsevər, dostluğu və imkanları yaradan, dostluğu dəyərləndirən ölkə kimi görürük. Bütün bunlar aramızdakı münasibəti əks etdirir.



Cənab Prezident, biz bu gün təsisat inkişafı səviyyəsinə yüksəlmiş əməkdaşlığın, faktiki olaraq, çərçivəsini Sizinlə birgə yaratdıq.

Siz ötən il imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni qeyd etdiniz. Həqiqətən biz münasibətləri mümkün qədər ən yüksək səviyyəyə qaldırdıq. Bu gün görüşlər və müzakirələr zamanı, eləcə də tarixi yerləri ziyarət edərkən biz nailiyyətləri bir daha gördük. Çox böyük potensialın şahidi olduq. Əldə olunmuş bu cür əməkdaşlıq daha güclü körpüləri salmaq imkanını yaradacaq, nəinki ikitərəfli gündəlik əsasında işləmək və işi davam etdirmək, o cümlədən qonşular üçün imkanları yaradacaq. Aramızda çox dayanıqlı bağlantılar qurulacaq. Energetika infrastrukturu artıq bizi bir-birimizə bağlayır.

Biz tərəfdaşlığımızın müxtəlif sahələrində fəal çalışırıq və əminəm ki, rəsmi səfərim işbirliyimizə əlavə təkan verəcək. Biz Slovakiyada dostları, mehribanlığı, hörməti görürük və Sizin xalqınıza, hökumətinizə, Slovakiya dövlətinə eyni hisslər bəsləyirik. Mən, cənab Prezident, tərəfdaşlığımıza verdiyiniz bütün töhfələrinizə görə təşəkkürümü bildirmək istəyirəm. Mən Sizi Prezident kimi rəsmi səfərə dəvət etmək istərdim. Siz həm Baş nazir, həm Parlament spikeri kimi bizə səfər etmisiniz, lakin Prezidentin rəsmi səfərinin, əlbəttə ki, xüsusi statusu var. Ümid edirəm, Sizi gələn il Azərbaycanda görəcəyəm.

Mən, həmçinin Qarabağın yenidən qurulmasına verdiyiniz dəstəyə görə Sizə və Slovakiyadakı dostlarımıza minnətdaram. Hazırda tikilən "Ağıllı kənd" Slovakiyanın azad olunmuş ərazilərdə əldə etdiyi uğurun rəmzinə çevriləcək. 851 ev və 10 yaşayış binasından, eləcə də məktəb, uşaq bağçası və tibbi mərkəzdən ibarət kənd nailiyyətlərinizin və əbədi dostluğumuzun təzahürü olacaq. İşğaldan azad edilmiş ərazilərin bərpası bu gün Azərbaycanın bir nömrəli hədəfidir. Slovakiya nəinki bu işlərdə, o cümlədən minalardan təmizləmədə bizə yardım edir.

Slovakiyadan aldığımız xüsusi avadanlıq insan həyatını xilas etməyə, sağlamlığı qorumağa imkan yaradır. Əfsuslar ki, 2020-ci ildə İkinci Qarabağ müharibəsi bitdikdən sonra 400-dən artıq insan minalara görə öz həyatını itirib, yaxud ciddi yaralanıb. Sizdən aldığımız avadanlıq həqiqətən insan həyatını qoruyur.

Qonaqpərvərliyinizə görə bir daha minnətdaram.

# İlham Əliyevin Slovakiya Milli Şurasının sədri ilə təkbətək və geniş tərkibdə görüşləri olub






Dekabrın 9-da Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Milli Şurasının sədri Rixard Raşi ilə təkbətək və geniş tərkibdə görüşləri olub.

Slovakiya Milli Şurasının sədri dövlətimizin başçısını qarşıladı.

Azərbaycan Prezidenti xatirə kitabını imzaladı.

Əvvəlcə Prezident İlham Əliyevin Slovakiya Respublikasının Milli Şurasının sədri Rixard Raşi ilə təkbətək görüşü oldu.

Sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş oldu.

Slovakiya Milli Şurasının sədri dövlətimizin başçısını Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması və tarixi normallaşdırma sənədi ilə əlaqədar təbrik etdi.

İki ölkənin parlamentləri arasında mövcud əlaqələrdən məmnunluğunu bildirən Rixard Raşi Azərbaycana, Qarabağa səfərini xatırladı, işğaldan azad edilmiş Ağdamın Baş Qərvənd kəndinin yenidən qurulmasında Slovakiya şirkətlərinin iştirakını ölkələrimiz arasında dostluğun nümunəsi kimi qiymətləndirdi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Azərbaycanla Slovakiya arasında keçən il strateji tərəfdaşlıq sənədinin imzalandığını və əlaqələrimizin bu zəmində inkişafını vurğuladı.

Görüşdə Azərbaycanla Slovakiya arasında parlament diplomatiyasının əhəmiyyətinə toxunuldu, beynəlxalq parlamentlərarası təsisatlar çərçivəsində ölkələrimizin parlament təsisatları xətti ilə əməkdaşlıq məsələləri nəzərdən keçirildi.

Söhbət zamanı enerji, müdafiə sənayesi, humanitar, idman, birbaşa aviareyslər, turizm və digər sahələrdə əməkdaşlıq üçün böyük imkanların olduğu qeyd edildi.



# İlham Əliyevin Slovakiyanın Baş naziri ilə təkbətək görüşü olub



Dekabrın 9-da Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə təkbətək görüşü olub.

Söhbət zamanı Azərbaycan-Slovakiya strateji tərəfdaşlıq əlaqələrinin inkişafından məmnunluq bildirildi. Ötən il Baş nazir Robert Fitsonun ölkəmizə, hazırda isə Azərbaycan Prezidentinin Slovakiyaya rəsmi səfərlərinin ikitərəfli münasibətlərimizin genişləndirilməsinə böyük töhfə verəcəyinə əminlik vurğulandı.

Siyasi əlaqələrimizin yüksək səviyyədə olduğu qeyd edilərək, digər istiqamətlər üzrə də əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların mövcudluğu bildirildi.

Robert Fitso Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı əldə edilmiş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı regional sülhün təmin olunması istiqamətində Azərbaycanın bundan sonra da səylərini davam etdirəcəyini vurğuladı.

Görüşdə işğaldan azad edilmiş torpaqlarımızda Slovakiya şirkətlərinin layihələrdə iştirakı məmnunluqla qeyd olundu, ölkələrimiz arasında əməkdaşlığın inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər





Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 22 il ötür.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andılar, məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

***

Azərbaycanın dövlətçilik tarixində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xidmətləri bütöv bir epoxanı özündə ehtiva edir. Onun dahiyanə siyasi uzaqgörənliyi, dövlət quruculuğu sahəsində atdığı addımlar, müstəqil Azərbaycanın inkişaf strategiyasının əsasını təşkil edən qərarları xalqımızın yaddaşında silinməz iz





buraxıb. Ulu Öndərin hakimiyyəti illərində ölkəmizin sabitliyə qovuşması, iqtisadiyyatın dirçəldilməsi, ordu quruculuğunun möhkəmləndirilməsi Azərbaycanın gələcək yüksəlişini təmin edən əsas dayaqlara çevrildi.

Xalqımız ağır və taleyüklü dönəmlərdə Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyasını dərin minnətdarlıqla xatırlayır. Məhz onun rəhbərliyi illərində Azərbaycan qarşılaşdığı təhlükələrdən xilas oldu, milli özünüdərk gücləndi, müstəqilliyimizin əbədiliyi üçün möhkəm təməllər qoyuldu. Hər il dekabrın 12-də və mayın 10-da minlərlə insanın Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət etməsi xalqın dahi övladının xatirəsinə əbədi ehtiramının və sədaqətinin bariz ifadəsidir.

Ulu Öndər Heydər Əliyevin ən böyük arzularından biri Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Qarabağın azad edilməsi idi. Onun bu arzusu illər sonra öz layiqli davamçısı tərəfindən həyata keçirildi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi və əzmkarlığı nəticəsində Ordumuz tarixi Zəfər qazandı, ölkəmizin ərazi bütövlüyü, suverenliyi bərpa olundu, üçrəngli Bayrağımız işğaldan azad edilmiş şəhər və kəndlərimizdə ucaldıldı.

Bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın gücünü, həmçinin gələcəyə olan inamını əks etdirir. Azad olunan torpaqlarda yeni həyatın başlanması Ümummilli Lider Heydər Əliyevin dövlətçilik ideyalarının davamlılığının və uğurla həyata keçirilməsinin göstəricisidir.

Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf yolu bu gün də ölkəmizin siyasi və iqtisadi tərəqqisinin əsasını təşkil edir. Prezident İlham Əliyevin apardığı siyasət Azərbaycanın beynəlxalq arenada nüfuzunu artırıb, ölkəmizi bölgədə mühüm tərəfdaş və güclü dövlətə çevirib. Dövlətimizin milli maraqlarının qətiyyətlə müdafiə olunması, təhlükəsizlik və inkişaf strategiyasının ardıcıl şəkildə davam etdirilməsi dahi Heydər Əliyev ideyalarının yaşayaraq inkişaf etdiyini göstərir.

Qəti şəkildə demək olar ki, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevin ideyalarına daim sadiq olacaq, onun müəyyənləşdirdiyi inkişaf yolu ölkəmizi daha böyük uğurlara doğru aparmaqda davam edəcək.





# İlham Əliyevin Ağdam, Xocalı və Xankəndiyə səfəri

## İlham Əliyev Xankəndinin Kərkicahan qəsəbəsində olub və buraya köçən sakinlərlə görüşüb





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində olub.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına qəsəbədə görülmüş işlər barədə məlumat verdi.

Təmir işlərinə bu ilin may ayında başlanılmış qəsəbədə hazırda 33 yaşayış binası və 1037 fərdi ev mövcuddur. Onlardan 247-si yararsız, 790-ı isə qismən yararlıdır. Bu ilin sonunadək 40, 2026-cı ildə isə 280 evin təmiri nəzərdə tutulur. Artıq 30 evdə təmir işləri başa çatdırılıb. İlkin mərhələdə 30 ailə olmaqla, ümumilikdə 115 sakin müvəqqəti məskunlaşdıqları şəhər və rayonlardan qəsəbəyə - öz dədə-baba yurdlarına qayıdıb.

Qəsəbədə bir sıra sosial infrastruktur layihələri də icra olunub. Fərdi evlərin yerləşdiyi ərazidə su, elektrik və qaz xətləri yoxlanılıb, 2 kilometr yeraltı optik kabel, 510 metr elektrik xətti çəkilib, işıq dirəkləri quraşdırılıb, küçə işıqlandırılması təmin olunub, daxili yollar asfaltlanıb. Eyni zamanda, 60 çarpayılıq 1 nömrəli körpələr evi-uşaq bağçası və 624 şagird yerlik tam orta məktəbdə əsaslı təmir işləri aparılıb.

Qeyd edək ki, Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də bu qəsəbədə olub.

Dəniz səviyyəsindən 1130 metr hündürlükdə yerləşən və ümumi sahəsi 234 hektar olan Kərkicahan Xankəndi şəhər ərazi vahidində qəsəbədir. 1960-cı illərdə keçmiş vilayətin millətçi erməni rəhbər orqanları qəsəbənin adını yaşayış məntəqələrinin rəsmi siyahısından çıxararaq Xankəndi şəhərinə birləşdirmişdilər. 1991-ci ilin sonunda işğal olunan Kərkicahan 1992-ci ildə ermənilər tərəfindən yandırılmışdı. İşğaldan əvvəl qəsəbədə 355 ailə olmaqla 1796 nəfər azərbaycanlı yaşayırdı. Hazırda qeydiyyatda 674 ailə olmaqla, ümumilikdə 2531 sakin var. Qəsəbə 2023-cü ildə Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Sonra dövlətimizin başçısı Xankəndi şəhəri Kərkicahan qəsəbə sakini Yadigar Əsədovanın evində oldu və söhbət etdi.






**Gənc qadın:** Xoş gəlmisiniz, cənab Prezident. Həmişə Siz gələsiniz bizim Vətənə, elimizə, obamıza – Kərkicahan qəsəbəsinə.

**Prezident İlham Əliyev:** Siz də xoş gəlmisiniz.

**Yaşlı qadın:** Xoş gəlmisən, xoş gəlmisən.

**Prezident İlham Əliyev:** Sağ ol, necəsiniz?

**Yaşlı qadın:** Sağlığın, başına dönüm.

**Prezident İlham Əliyev:** Siz də xoş gəlmisiniz doğma Vətənə.

**Yaşlı qadın:** Səni Allah saxlasın.

**Prezident İlham Əliyev:** Sağ ol.

**Yaşlı qadın:** Sən ki Azərbaycan millətini öz Vətəninə gətirdin, çox sağ ol.

**Prezident İlham Əliyev:** Sağ ol. İndi necə yaşayırsınız burada, rahat yaşayırsınız?

**Yaşlı qadın:** Rahat, qəşəng. Allah Sizə dəyməsin. Dünya durduqca durasınız.

**Prezident İlham Əliyev:** Sağ ol. Ev də gözəldir.

**Yaşlı qadın:** Gözəldir, qəşəngdir.

**Prezident İlham Əliyev:** İşğal dövründə harada yaşamısınız?

**Yaşlı qadın:** Gəncədə. Köçüb Gəncəyə getmişdik. Balaca yataqxanalar var idi.

**Prezident İlham Əliyev:** Yataqxanada?

**Yaşlı qadın:** Bəli. Biri orada, biri burada, bir-birinə qarışıq. Çox sağ olun, indi gözəl evlər vermisiniz.

**Prezident İlham Əliyev:** 34 ildən sonra.

**Yaşlı qadın:** Hə, 34 ildən sonra Kərkicahan qəsəbəsinə gəlmişik. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Təbrik edirəm sizi. Xoşbəxt yaşayın. Allah cansağlığı versin, uzun ömür versin. Hər şey təmirli və yüksək səviyyədədir.

**Yaşlı qadın:** Sağ ol, başına dönüm.

**Gənc qadın:** Çox gözəl nəticədir, cənab Prezident. Elimizə, obamıza yığışdıq, şükür. Allah Sizi Prezidentlikdən əskik eləməsin. Həmişə var olun. Kərkicahan qəsəbəsinə də xoş gəlmisiniz. Evimizin ilk qonağı Siz oldunuz, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun, bir daha təbrik edirəm sizi. Rahat yaşayın doğma torpaqda.

**Yaşlı qadın:** Allah Sizin canınızı sağ eləsin, Sizə dəyməsin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Gənc qadın:** Fürsətdən istifadə edərək Sizin qarşıdan gələn Yeni ilinizi təbrik edirəm.




**Prezident İlham Əliyev:** Sizi də təbrik edirəm. Bala neçə aylıqdır?

**Gənc qadın:** 13 günlükdür.

**Prezident İlham Əliyev:** 13 günlük? Maşallah.

**Gənc qadın:** Kərkicahana ilk köçənin balası.

**Prezident İlham Əliyev:** Gəncədə doğulub?

**Gənc qadın:** Bəli.

**Prezident İlham Əliyev:** Təbrik edirəm bir daha.

**Gənc qadın:** Çox sağ olun.

## İlham Əliyev Xankəndi şəhərinin Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəbin binasının əsaslı təmirdən sonra açılışında iştirak edib






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəbin binasının əsaslı təmirdən sonra açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdi.

Bildirildi ki, 624 şagird yerlik məktəbin binasında əsaslı təmir işləri yüksək səviyyədə və qısa müddətdə həyata keçirilib. Burada ümumilikdə 17 sinif otağı, laboratoriyalar, STEAM, informatika, hərbi hazırlıq, biologiya, kimya, fizika, texnologiya, dərnək, məktəbəqədər hazırlıq otaqları, kitabxana, oxu, idman və akt zalları, yeməkxana müəllim və şagirdlərin ixtiyarına veriləcək. Binadakı otaqların hamısı zəruri tədris vəsaiti ilə təchiz edilib. Bundan başqa, məktəbin həyətyanı sahəsində açıq idman meydançası da yaradılıb. Bir sözlə, burada təlim-tədrisin yüksək səviyyədə həyata keçirilməsi üçün hərtərəfli imkanlar mövcuddur.

Qeyd edək ki, müasir təhsil infrastrukturunun yaradılması işğaldan azad edilmiş ərazilərimizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı yenidənqurma işlərinin vacib istiqamətlərindən biridir. Azad edilmiş torpaqlarımızda təhsil ocaqlarının müasir layihələr əsasında inşası, onların zəruri tədris avadanlığı ilə təchizi, fənn kabinetlərinin, laboratoriyaların, idman infrastrukturunun yaradılması bu müəssisələrdə çalışan müəllimlərin və təhsil alan şagirdlərin hərtərəfli şəraitlə təmin olunmalarına hədəflənib. Bütün bunlar, eyni zamanda, müəllimlərin və şagirdlərin doğma yurdlarına qayıdışını sürətləndirir, həmçinin işğaldan azad olunmuş torpaqlarımızda sosial həyatın canlanmasına töhfə verir.

## İlham Əliyev Xankəndidə Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməlini qoyub




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməlini qoyub.



Dövlətimizin başçısına binada yaradılacaq şərait barədə məlumat verildi.

Qeyd edək ki, Qarabağ Universitetinin Mühəndislik fakültəsi müasir texnoloji çağırışlara cavab verən, innovasiya və tətbiqyönümlü mühəndis kadrların hazırlanmasını hədəfləyən əsas akademik struktur bölmələrdən biridir. Fakültədə hazırda 19 professor-müəllim, inzibati və texniki heyət üzvü fəaliyyət göstərir. Burada ümumilikdə 314 tələbə təhsil alır.

Fakültədə bakalavriat səviyyəsində elektrik və elektronika, inşaat, mexatronika və robototexnika, logistika və nəqliyyat texnologiyaları, kompüter mühəndisliyi, data analitika və riyaziyyat daxil olmaqla 7 ixtisas üzrə kadr hazırlığı həyata keçirilir. Gələcəkdə mühəndislik istiqaməti üzrə yeni ixtisasların açılması nəzərdə tutulur.

Yeni binanın müasir standartlara uyğun inşa edilərək qısa müddətdə istifadəyə verilməsi planlaşdırılır. Tədris binası keyfiyyətli kadr hazırlığını təmin edən, tələbələrin nəzəri bilik və praktiki bacarıqlarının inkişafına, həmçinin innovativ fəaliyyətlərinin genişləndirilməsinə xidmət edən auditoriyalar, laboratoriyalar, kitabxana, elmi-tədqiqat və innovasiya məkanları ilə təchiz olunacaq.

Layihənin icrası mühəndislik təhsilinin inkişafına mühüm töhfə verməklə yanaşı, müasir akademik məzmunun və innovativ tədris metodlarının tətbiqini təşviq edən, tələbələrin hərtərəfli inkişafını dəstəkləyən qabaqcıl ali təhsil mühitinin formalaşdırılmasına xidmət göstərəcək.

## İlham Əliyev Xocalı rayonunun Ballıca kəndində “Accurate Az” MMC-nin ofis mebelləri və mebel aksesuarlarının istehsalı müəssisəsinin açılışında iştirak edib






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xocalı rayonunun Ballıca kəndində “Accurate Az” MMC-nin ofis mebelləri və mebel aksesuarlarının istehsalı müəssisəsinin açılışında iştirak edib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov və “Accurate Az” MMC-nin təsisçisi İlkin Abuşov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdilər.

Bildirildi ki, müəssisə Türkiyə, İsveçrə, Almaniya, İtaliya, Çin və Yaponiyanın qabaqcıl texnologiya və avadanlıqları ilə təchiz olunub. Burada ildə 20 çeşiddə 240 min ədəd ofis mebeli və 4 milyon ədəd mebel aksesuarı istehsal ediləcək. Məhsulların 60 faizi ixraca, 40 faizi daxili bazara yönəldiləcək. Xammaldan hazır məhsula qədər ofis mebeli istehsalının bütün mərhələləri müəssisədə həyata keçiriləcək. Layihənin ümumi dəyəri 20 milyon manat təşkil edir ki, bunun reallaşdırılması üçün İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 7 milyon manat güzəştli kredit verilib. Müəssisə, həmçinin işğaldan azad edilmiş ərazilərdə sahibkarlar üçün tətbiq olunan güzəşt və stimullardan yararlanıb.

Müəssisənin fəaliyyətə başlaması Qarabağda mebel istehsalı sahəsinin formalaşmasına, yerli istehsalın genişlənməsi və ixrac potensialının artırılmasına, həmçinin işğaldan azad olunmuş ərazilərdə əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə töhfə verəcək. Hazırda burada 80 nəfər üçün daimi iş yeri yaradılıb, növbəti mərhələlərdə isə 450 daimi iş yerinin yaradılması planlaşdırılır.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə dayanıqlı məskunlaşmanın, özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların cəlbi və əlverişli biznes mühitinin formalaşdırılması dövlətin əsas strateji hədəflərindən biri kimi müəyyənləşdirilib. Bu məqsədlə həmin ərazilərdə fəaliyyət göstərən hüquqi və fiziki şəxslər 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətinə mənfəət, gəlir, əmlak, torpaq və sadələşdirilmiş vergilərdən azaddırlar. Həmçinin bu ərazilərdə rezidentlər tərəfindən iqtisadi fəaliyyət sahələri üzrə idxal olunan texnika, texnoloji avadanlıq və qurğular, xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən 10 il müddətinə ƏDV və gömrük rüsumundan azaddır. Bütün bu tədbirlər sahibkarlığın, sənaye və iqtisadiyyatın inkişafını, həmçinin əhalinin məşğulluğunun artırılmasını təmin edir.

## İlham Əliyev Ağdamda metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Ağdam Sənaye Parkında "Construction" MMC-nin metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında iştirak edib.

"Construction" MMC-nin təsisçisi Nurlan Abbasov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, Sənaye Parkının 1 hektarlıq ərazisində yerləşən müəssisədə istehsal Çin texnologiyası əsasında qurulub. Zavodun metal elektrik dirəkləri üzrə illik istehsal gücü 7 min 200 ton təşkil edir. Məhsullar həm daxili bazarın tələbatını ödəyəcək, həm də ixrac ediləcək. İnvestisiya həcmi 2,96 milyon manat olan müəssisədə 32 daimi iş yeri yaradılıb. Qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 1,2 milyon manat zəmanətli kredit ayrılıb. Bununla yanaşı, müəssisə sənaye parkının rezidentlərinə verilən bütün vergi və gömrük güzəştlərindən yararlanıb. Həmçinin texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı təxminən 443 min manat dəyərində ƏDV və gömrük rüsumlarına güzəşt əldə olunub.

Qeyd edək ki, dövlətimizin başçısının 2021-ci ildə imzaladığı Fərmana əsasən, 190 hektar ərazidə yaradılan Ağdam Sənaye Parkının məqsədi işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişafı, sahibkarlığın dəstəklənməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Sənaye Parkının prioritet istiqamətləri tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət, süd, yem, gübrə istehsalının və emalının, xidmət sahələrinin, soyuducu kameraların təşkilidir.

Sahibkarlıq fəaliyyətinin inkişafı üçün burada dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb. Parkda ümumi investisiyalarının həcmi 312 milyon manatdan çox olan 32 sahibkarlıq subyektinə rezidentlik, 5 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Artıq investorlar tərəfindən Sənaye Parkına 142 milyon manat sərmayə yatırılıb, 970-ə yaxın daimi iş yeri yaradılıb. İşlə təmin edilənlərin çoxu Ağdam və ətraf rayonların sakinləridir. Sənaye Parkının rezidentləri tərəfindən istehsal olunmuş 945 milyon manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 39,5 milyon manatlıq hissəsi ixrac edilib.



## İlham Əliyev Xankəndi şəhərində Zəfər parkının açılışında iştirak edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Xankəndi şəhərində Zəfər parkının açılışında iştirak ediblər.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına və birinci xanıma parkda yaradılmış şərait barədə məlumat verdi.

Ümumi sahəsi 9 hektar olan Zəfər parkının təməli bu ilin fevralında Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısı iyulda burada görülən işlərlə tanış olub.

Bildirilib ki, parkın girişindən Zəfər tağına doğru 44 pilləkən salınıb. Onların mərkəzi hissəsində quraşdırılmış lövhələr üzərində müharibənin gedişi barədə məlumatlar, o cümlədən azad olunmuş yaşayış məntəqələrinin adları yazılıb. Eyni zamanda, 2023-cü ildə keçirilmiş antiterror əməliyyatının nəticələrini əks etdirən məlumatlar da lövhələrdə qeyd olunub.

Zəfər tağının hündürlüyü Vətən müharibəsi günlərinin sayına görə rəmzi olaraq 44 metr təşkil edir. Bina 10 mərtəbədən və terrasdan ibarətdir. Terrasda Zəfər Günü ilə bağlı 8 rəqəmini simvolizə edən konstruksiya inşa olunub. Doqquzuncu mərtəbədə "Zəfər qalereyası" sərgi-nümayiş zalı yaradılıb.








Parkın ərazisində genişmiqyaslı abadlıq və quruculuq işləri həyata keçirilib, fəvvarələr yaradılıb, işıqlandırma və musiqilərin səsləndirilməsi üçün sistemlər quraşdırılıb. İnşaat işləri zamanı mövcud ağacların qorunmasına xüsusi diqqət yetirilib. Ümumilikdə parka 500-dən çox ağac və 11 mindən artıq kol və gül əkilib.

Qeyd edək ki, Xankəndi şəhərində Zəfər parkının yaradılması bir neçə mühüm əhəmiyyət daşıyır. İlk növbədə, bu layihə Azərbaycan xalqının tarixi ədalətin bərpası və öz ərazi bütövlüyünün qorunması uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını və 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni əks etdirir. Eyni zamanda, park Xankəndi sakinlərinin və qonaqların asudə vaxtlarının səmərəli təşkilinə xidmət edəcək. Bundan başqa, belə istirahət məkanlarının yaradılması işğaldan azad olunmuş ərazilərdə görülən genişmiqyaslı bərpa-quruculuq işlərinin uğurla davam etdiyini göstərir.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## K.B.Əliyevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının prokurorluq orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə **Kamran Bayram oğlu Əliyev** 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 noyabr 2025-ci il

# AZƏRBAYCAN RESPUBLİKASININ PROKURORLUĞU



# Prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü münasibətilə tədbir keçirilib





Milli prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü münasibətilə Baş Prokurorluğun rəhbərliyi oktyabrın 1-də Fəxri xiyabana gələrək, Ulu öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyub.

Həmçinin, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva, tanınmış dövlət xadimi Əziz Əliyev və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üzərinə gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn prokurorluğun kollektivi Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinə dərin ehtiramlarını bildirib, "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Daha sonra Baş Prokurorluğun inzibati binasında 1 oktyabr - Azərbaycan Respublikası Prokurorluğunun yaradılmasının 107-ci ildönümü münasibətilə tədbir keçirilib.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən və Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra Baş prokuror Kamran Əliyev prokurorluq orqanlarında çalışan bütün əməkdaşları, veteranları, onların ailə üzvlərini peşə bayramı münasibətilə təbrik edib.

Çıxış zamanı Baş prokuror Kamran Əliyev ölkəmizin ictimai-siyasi həyatında son dövrdə baş verən mühüm hadisələrdən bəhs edib. Qeyd olunub ki, dövlət başçısı cənab İlham Əliyevin ABŞ-yə tarixi səfəri çərçivəsində Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin 2025-ci il avqustun 8-də Ağ Evdə paraflanması Azərbaycan Prezidentinin hərbi uğurlarından sonra növbəti siyasi nailiyyəti və qələbəsidir. Həmçinin 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə Amerika Birləşmiş Ştatları Prezidenti tərəfindən Prezident İlham Əliyevlə görüş çərçivəsində sərəncam imzalanması dövlətimizin başçısının diplomatik sahədə əsas uğurlarından biridir

Bundan başqa, vurğulandı ki, Prezident İlham Əliyevin cari il sentyabrın 25-də BMT Baş Assambleyasının 80-ci sessiyasında 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın qarşısında açılan yeni mərhələni və bu mərhələnin regionda yaratdığı siyasi, iqtisadi və təhlükəsizlik reallıqlarını dünya ictimaiyyətinə çatdırdığı tarixi çıxışı, eləcə də ölkə başçısının regional və qlobal əhəmiyyətli təşəbbüsləri Azərbaycanın beynəlxalq nüfuzunun, suverenlik və ərazi bütövlüyünün tam bərqərar edilməsinin bariz göstəricisidir.

Baş prokuror bildirib ki, prokurorluq orqanlarının yaranmasının 107-ci ildönümü Vətən müharibəsində möhtəşəm Zəfərimizin 5 illiyi ilə eyni dövrə təsadüf edir. Məhz Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi, xalq-ordu birliyi nəticəsində dövlətimizin ərazi bütövlüyü bərpa edilib, işğaldan azad olunmuş torpaqlarda geniş bərpa-quruculuq işləri aparılır.

Kamran Əliyev 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsinin mühüm tarixi hadisə olduğunu vurğulayaraq, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Konstitusiyanın dövlətimizin müstəqilliyinin, hüquqi və dünyəvi dövlət quruculuğunun

möhkəm təməli olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, məhz bu hüquqi əsaslar üzərində prokurorluğun müasir statusu və səlahiyyətləri müəyyən edilib.

Çıxış zamanı ölkəmizin ev sahibliyi etdiyi mötəbər beynəlxalq tədbirlərin təkcə Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmlənməsinə deyil, eyni zamanda regionların sosial-iqtisadi inkişafına verdiyi mühüm töhfələr xüsusi vurğulanıb.

Baş prokuror dövlətimizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın həyata keçirdiyi humanitar təşəbbüslərin, təhsil, mədəniyyət və sosial sahələrdə gördüyü genişmiqyaslı işlərin ölkəmizin beynəlxalq nüfuzunun möhkəmlənməsində mühüm rol oynadığını xüsusi qeyd edərək bu sahədə əldə olunmuş nailiyyətlərdən danışıb, prokurorluq orqanlarının da dünya miqyasında nüfuzlu tərəfdaşlıqlarını daha da möhkəmləndirəcəyini diqqətə çatdırıb.

Baş prokuror prokurorluq orqanlarında son illərdə həyata keçirilmiş struktur dəyişiklikləri, şəffaf kadr siyasəti, maddi-texniki bazanın gücləndirilməsi, "Elektron Prokurorluq" İnformasiya Sisteminin tam şəkildə bütün prokurorluq orqanlarında tətbiqi, işğaldan azad edilmiş ərazilərdə prokurorluq orqanlarının fəaliyyətinin bərpası istiqamətində görülən işlər barədə ətraflı məlumat verib. Qeyd olunub ki, prokurorluq işçilərinin 93 faizdən çoxu məhz müsabiqə yolu ilə seçilmiş gənc, peşəkar kadrlardan ibarətdir.

Çıxışın sonunda əminliklə qeyd olunub ki, hər bir prokurorluq əməkdaşı bundan sonra da fəaliyyətini insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına, ictimai-siyasi sabitliyin təmin edilməsinə və qanunçuluğun möhkəmləndirilməsinə həsr edəcək, dövlət başçısı tərəfindən göstərilən yüksək etimadı doğrultmaq üçün bütün bilik və bacarığını səfərbər edəcəkdir.

Daha sonra xidməti fəaliyyətlərində fərqləndiklərinə görə mükafatlandırılmış prokurorluq əməkdaşlarının təltif olunması, prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü münasibətilə ali təhsil müəssisələrinin tələbə və kursantları arasında təşkil olunmuş interaktiv istintaq kvestinin, "Azərbaycan Respublikasının Konstitusiyası və Dövlət Suverenliyi" mövzusunda keçirilmiş hüquq viktorinasının qaliblərinin, eləcə də prokurorluq əməkdaşları və veteranları arasında keçirilmiş şahmat turnirinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.





Tədbir zamanı çıxış edən prokurorluğun veteranları Ələmdar Məmmədov və Mircavan Kazımov prokurorluq orqanlarının şərəfli inkişaf yolundan bəhs edərək, dövlətimizin başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə həyata keçirilən genişmiqyaslı islahatların prokurorluq orqanlarının fəaliyyətinə də müsbət təsir göstərdiyini vurğulayıblar. Veteranlar, onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək, bu münasibəti prokurorluq ailəsinə verilən dəyərin bariz nümunəsi kimi qeyd edib, əməkdaşları peşə bayramı münasibətilə təbrik ediblər.

İştirakçılar Azərbaycanda prokurorluq orqanlarının yaranma tarixindən müasir dövrədək keçdiyi inkişaf mərhələlərini, ölkəmizdə qanunun aliliyinin təmin olunması və ədalətin bərqərar edilməsində oynadığı mühüm rolu əhatəli şəkildə əks etdirən, Azərbaycan Prokurorluğunun peşə bayramı və 107 illiyinə həsr olunmuş videoçarxa baxıblar.

Tədbirin yekununda Baş Prokuror bir daha əməkdaşları təbrik edərək onlara peşəkar fəaliyyətlərində uğurlar arzu edib.

# Baş prokuror Səudiyyə Ərəbistanı Krallığında işgüzar səfərdə olmuşdur



Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 8-də Səudiyyə Ərəbistanı Krallığının Nəzarət və Korrupsiyaya Qarşı Mübarizə qurumunun (Nazaha) rəhbəri Mazin İbrahim Əl-Kahmusun dəvəti ilə Ciddə şəhərində təşkil olunan beynəlxalq konfransda iştirak etmək məqsədilə Səudiyyə Ərəbistanı Krallığında işgüzar səfərə getmişdir.

İşgüzar səfər zamanı Baş prokuror Nazaha qurumunun rəhbəri Mazin İbrahim Əl-Kahmus ilə ikitərəfli görüş keçirmişdir.

Görüşdə Mazin İbrahim Əl-Kahmus dövlətlərimiz arasında bütün sahələrdə daim inkişaf edən tərəfdaşlıq münasibətlərindən, eləcə də ölkələrimizin hüquq-mühafizə orqanları arasında yüksək səviyyəli əlaqələrin daha da inkişaf etməsindən məmnunluq ifadə etmişdir.

Göstərilən qonaqpərvərliyə və səmimi qəbula görə Baş prokuror minnətdarlığını bildirərək, Səudiyyə Ərəbistanı Krallığının aidiyyəti səlahiyyətli orqanları ilə və beynəlxalq təşkilatlar çərçivəsində cinayətkarlıqla mübarizə sahəsində, xüsusilə də Nazaha ilə cinayət yolu ilə əldə edilmiş əmlakın bərpası sahəsində ikitərəfli əməkdaşlığın daha da artacağına əminliyini ifadə etmişdir.



Səfər çərçivəsində Baş prokuror Kamran Əliyev, həmçinin, Somali Ədliyyə və konstitusional işlər naziri  Hasan Moallim Mahmud Şeyx Əli ilə ikitərəfli görüş keçirmişdir.

Görüş zamanı Baş prokuror Somali prezidenti cənab Hasan Şeyx Mahmudun 12 fevral 2025-ci il tarixli Azərbaycana səfəri, prezident İlham Əliyevlə görüşü və bu səfər çərçivəsində bağlanmış sazişləri vurğulayaraq, dövlət başçıları arasında olan yüksək səviyyəli əlaqələrin qurumlararası əməkdaşlığın daha da inkişaf etməsinə təkan verməsini bildirmişdir.

Çıxış edən Hasan Moallim Mahmud Şeyx Əli Azərbaycan və Somali arasında artan ikitərəfli əməkdaşlığın cinayətkarlıqla mübarizə, cinayət işləri üzrəçqarşılıqlı hüquqi yardım sahəsində birgə səylərə də töhfə verdiyini qeyd etmişdir.

Bundan başqa, səfər çərçivəsində Baş prokuror Kamran Əliyev Qətər Dövlətinin Baş prokuroru İssa bin Səad əl-Cufali əl-Nuaimi ilə ikitərəfli görüş keçirmişdir.

Görüşdə Baş prokuror iki ölkə arasında dostluq əlaqələrinin inkişafından və qurumlararası əməkdaşlığın güclənməsindən məmnunluğunu ifadə etmişdir. Qətər Dövlətinin Baş prokuroru İssa bin Səad əl-Cufali əl-Nuaimi həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyini qeyd edərək, iki dövlətin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əmin olduğunu bildirmişdir.

Görüşlərdə Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Şahin Abdullayev də iştirak etmişdir.

# Baş Prokurorluğun xarici ölkələr və beynəlxalq təşkilatlarla çoxşaxəli əməkdaşlığı inkişaf edir







Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri çərçivəsində Baş prokuror Səudiyyə Ərəbistanı Krallığının Nəzarət və Korrupsiyaya Qarşı Mübarizə qurumunun (Nazaha) dəstəyi ilə təşkil edilmiş Yaxın Şərq və Şimali Afrika regionu (MENA) üzrə cinayət yolu ilə əldə edilmiş əmlakın bərpası sahəsində fəaliyyət göstərən qurumların Şəbəkəsinin təsis konfransında iştirak etmişdir.

30-dan artıq yurisdiksiyanı təmsil edən 200-dən artıq nümayəndənin qatıldığı tədbir zamanı çıxış edən Baş prokuror mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qətiyyətlə həyata keçirilən ardıcıl tədbirləri, o cümlədən qanunvericilik bazasının təkmilləşdirilməsini, hüquq-mühafizə sistemində aparılmış genişmiqyaslı islahatları, cinayətkarlığın bütün növ və formalarına, mütəşəkkil cinayətkarlığın təhlükələrinə qarşı görülmüş işləri xüsusi vurğulamış, qeyd etmişdir ki, cinayət yolu ilə əldə edilmiş əmlaklar ölkələrin maliyyə sisteminin sabitliyinə ciddi təhlükə törədir və təhdidə qarşı mübarizədə qlobal səylərin birləşdirilməsi vacibdir.

Baş prokuror eyni zamanda bu istiqamətdə prokurorluq orqanları tərəfindən həyata keçirilmiş tədbirlər barədə də konfrans iştirakçılarını məlumatlandırmışdır.

Səfər zamanı Baş prokuror tərəfindən xarici həmkarlarla ikitərəfli görüşlər də keçirilmişdir.

BMT-nin Baş katibinin müavini, Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru və Vyana ofisinin rəhbəri xanım Qada Vali ilə keçirilmiş ikitərəfli görüşdə ölkəmizlə qurum arasında həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində münasibətlərin yüksək səviyyədə olması qeyd edilərək birgə



əməkdaşlıq formasında həyata keçirilmiş tədbirlər, o cümlədən ötən ilin 15 noyabr tarixində COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyinin həmsədrliyi ilə keçirilmiş "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyanın, cari ilin may ayında Bakı şəhərində BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan qurumların qlobal əməliyyat şəbəkəsinin (GlobE) 6-cı iclasının yüksək səviyyədə təşkili xatırlanıb və buna görə ev sahibi kimi ölkəmizə təşəkkür bildirilib.

Həmçinin qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi və ikitərəfli əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, tərəflər gələcəkdə birgə həyata keçirilməsi nəzərdə tutulan digər layihələr barədə fikir mübadiləsi aparıblar.

Misir Ərəb Respublikasının Baş prokuroru Şevki Fethi Ayadla keçirilmiş görüş zamanı ölkələrimiz arasında mövcud dostluq və qardaşlıq münasibətləri qeyd edilmiş, hüquqi əməkdaşlıq və təcrübə mübadiləsi sahəsində konkret təkliflər müzakirə edilmişdir.

Bəhreyn Krallığının Baş prokuroru Ali Fadl Al-Buainain ilə görüş zamanı qurumlar arasında uzunmüddətli və məhsuldar əməkdaşlıq əlaqələri xatırlanmış, həmçinin regional layihələr çərçivəsində yeni təşəbbüslər ətrafında fikir mübadiləsi aparılmışdır.

İraq Respublikasının Baş prokuroru Nacm Abdullah Əhmədlə görüşdə iki ölkənin prokurorluq orqanları arasında əlaqələrin qurulması, qarşılıqlı əməkdaşlığın perspektiv sahələri qeyd edilmişdir.

Bundan əlavə, Mərakeş Krallığının Korrupsiyaya qarşı mübarizə üzrə milli idarəsinin rəhbəri Məhəmməd Benalilou və Pakistan İslam Respublikasının ixtisaslaşmış korrupsiyaya qarşı mübarizə qurumu olan Milli Hesabatlılıq Bürosunun sədri Nazir Əhməd Butt ilə də ikitərəfli görüşlər keçirilmişdir.

Görüşlərdə ölkələrimiz arasında yüksək səviyyəli münasibətlər, hüquq mühafizə orqanlarının əməkdaşlığı, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin davam etdirilməsi məsələləri müzakirə olunmuşdur.

Tərəflər, həmçinin, transsərhəd cinayətkarlıq və digər çağırışlarla mübarizədə birgə fəaliyyətin gücləndirilməsinin vacibliyini vurğulamışlar.

İkitərəfli görüşlər zamanı cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım, ekstradisiya, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, korrupsiya cinayətləri və qarşılıqlı maraq doğuran digər mövzular ətrafında da səmərəli fikir mübadiləsi aparılmışdır.

Qeyd edək ki, görüşlərdə Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Şahin Abdullayev də iştirak etmişdir.

# Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Braziliyaya səfərə gedib






22 oktyabr 2025-ci ildə Belem şəhərində COP30 çərçivəsində "Prokurorluq orqanlarının iqlim idarəçiliyində rolu" adlı beynəlxalq plenar iclas öz işinə başlamışdır.

Tədbirin açılış mərasimində çıxış edən Braziliya Federativ Respublikasının Baş prokuroru Paulo Qonet iqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə, xüsusilə prokurorluq orqanlarının artan rolunu vurğulayıb, bu sahədə beynəlxalq əməkdaşlığın əhəmiyyətini qeyd etmişdir.

Paulo Qonet, həmçinin, Azərbaycan Respublikasına COP29-a uğurla ev sahibliyi etdiyinə görə və bu beynəlxalq konfrans çərçivəsində Mavi zonada Azərbaycan Prokurorluğu tərəfindən təşkil olunan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli beynəlxalq tədbirə görə xüsusi təşəkkürünü ifadə etmişdir.

Plenar iclasda çıxış edən Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi və rəhbərliyi ilə ölkəmizdə iqlim dəyişikliyi ilə mübarizə istiqamətində həyata keçirilən tədbirlər, ətraf mühitin mühafizəsi sahəsində görülən çoxşaxəli işlər, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi və bu prosesdə prokurorluq orqanlarının fəal rolu barədə ətraflı məlumat vermişdir.

Çıxış zamanı dövlətimizin başçısının 25 sentyabr 2025-ci il tarixində Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında səsləndirdiyi Xəzər dənizinin ekoloji vəziyyəti ilə bağlı fikirlərə toxunularaq, Xəzər dənizində ətraf mühitə zərər vuran cinayətlərə qarşı mübarizədə regional səylərin birləşdirilməsinin vacibliyi vurğulanmışdır.

Baş prokuror, həmçinin, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (BMTNCİ), Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) və İslam Əmək-





daşlıq Təşkilatı (İƏT) kimi beynəlxalq qurumlarla sıx əməkdaşlığın həyata keçirildiyini bildirmişdir.

Qeyd etmişdir ki, 2024-cü ilin 15 noyabrında COP29 çərçivəsində Azərbaycan Prokurorluğunun təşkilatçılığı ilə "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda yüksək səviyyəli beynəlxalq tədbir keçirilib və tədbirdə 200-dən çox xarici və yerli nümayəndə iştirak edib.

Tədbir çərçivəsində "Belem Bəyannaməsi" qəbul edilmişdir.

Bəyannamədə prokurorluq orqanlarının ətraf mühitin qorunması, iqlim ədalətinin təmin olunması və bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi ilə bağlı vəzifələri əksini tapmışdır.

Plenar iclasdan sonra Baş prokuror Braziliyanın aparıcı televiziya kanallarına müsahibə vermişdir.

Müsahibə zamanı Azərbaycan Prokurorluğunun iqlim cinayətləri ilə mübarizə sahəsində topladığı təcrübə, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və təcrübə mübadiləsinin vacibliyi, həm ölkələr, həm də prokurorluq orqanları arasında sıx əlaqələrin və etimad mühitinin mövcud olması, eləcə də ölkə rəhbərlikləri səviyyəsində əməkdaşlığın yüksək səviyyədə qurulması vurğulanmışdır

Bundan başqa, Baş prokuror COP29 çərçivəsində Azərbaycan Prokurorluğu tərəfindən təşkil olunan yüksək səviyyəli beynəlxalq tədbirin sonunda qəbul olunan "Baku Call to Action" sənədini xatırladaraq, həm bu təşəbbüsün, həm də "Belem Bəyannaməsi"nin qlobal miqyasda iqlim ədalətinin təmininə və ekoloji cinayətlərə qarşı birgə səylərin artırılmasına mühüm töhfə verdiyini qeyd etmişdir.

# Baş prokuror beynəlxalq tərəfdaşlarla hüquq sahəsində əməkdaşlıq perspektivlərini müzakirə edib








Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Braziliya Federativ Respublikasına rəsmi səfər edib.

Səfər çərçivəsində Baş prokuror Kamran Əliyev Braziliya, İspaniya və Portuqaliya Baş prokurorları ilə ikitərəfli görüşlər keçirib.

Braziliya Federativ Respublikasının Baş prokuroru Paulo Qonet ilə keçirilmiş görüşdə ölkələrimiz arasında yüksək səviyyəli münasibətlər, hüquq-mühafizə orqanları arasında əməkdaşlığın möhkəmləndirilməsi, cinayətkarlıqla mübarizə, ətraf mühitin mühafizəsi, iqlim cinayətlərinə qarşı birgə fəaliyyətin gücləndirilməsi, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin davam etdirilməsi və cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya sorğularının icra vəziyyəti müzakirə olunub.

Görüşdə, həmçinin, Baş prokuror AZAL təyyarəsinin qəzaya uğraması ilə bağlı cinayət işinin istintaqı çərçivəsində göstərilmiş səmərəli əməkdaşlığa görə qarşı tərəfə təşəkkür edib.

Portuqaliya Respublikasının Baş prokuroru Amadeu Quera ilə keçirilmiş görüşdə Baş prokuror Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində ölkədə korrupsiyaya qarşı sistemli mübarizənin aparıldığını qeyd edib və bu sahədə Portuqaliyanın müsbət təcrübəsinin öyrənilməsi və tətbiqinə maraqlı olduqlarını bildirib.

Öz növbəsində Baş prokuror Amadeu Quera Ministério Público (İctimai Prokurorluq) və MENAC (Korrupsiyaya Qarşı Milli Mexanizm) barədə məlumat verərək, ikitərəfli əlaqələrin inkişaf etdirilməsinin və cinayətlərin bütün təzahürlərinə qarşı birgə səylərin artırılmasının vacibliyini vurğulayaraq, qeyd olunan sahələr üzrə Azərbaycanın müsbət təcrübəsinin öyrənilməsinə maraq göstərib.

İspaniya Krallığının Baş prokuroru Alvaro Qarsia Ortiz ilə keçirilmiş görüşdə cinayətkarlıqla mübarizə, ətraf mühitin mühafizəsi, iqlim cinayətlərinə qarşı birgə fəaliyyətin gücləndirilməsi, eləcə də konkret cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya sorğularının icra vəziyyəti müzakirə edilib.

Səfər çərçivəsində Çin, Rusiya, Paraqvay və digər ölkələrin nümayəndə heyətləri ilə də görüşlər keçirilib.

Qarşılıqlı anlayış və etimad əsasında keçirilən görüşlər zamanı tərəflər qurumlararası əməkdaşlığın gələcək inkişafı və genişləndirilməsini müzakirə ediblər.

Görüşlərdə Azərbaycan Respublikasının Braziliya Federativ Respublikasında fövqəladə və səlahiyyətli səfirinin müşaviri Rafiq Rüstəmov da iştirak edib.

# Zəngilanda "Zəfərin beş ili: Dövlətçilik və hüququn qələbəsi" mövzusunda konfrans keçirilib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş tarixi Zəfərin beşinci ildönümü münasibətilə Baş Prokurorluq tərəfindən noyabrın 5-də Zəngilan Konqres Mərkəzində "Zəfərin beş ili: Dövlətçilik və hüququn qələbəsi" mövzusunda konfrans təşkil olunub.



İştirakçılar Ulu Öndər Heydər Əliyevin Zəngilan rayonunun Ağalı kəndində ucaldılmış büstünü və Zəngilan şəhərində yerləşən Şəhidlər Xiyabanını ziyarət edərək gül dəstələri qoyublar, Ulu Öndərin və şəhidlərimizin əziz xatirəsini ehtiramla yad ediblər.

Konfransdan əvvəl Ümummilli Lider Heydər Əliyevin, eləcə də Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılmış mübarizələrdə şəhid olmuş qəhrəman əsgər və zabitlərimizin, mülki vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Baş prokuror Kamran Əliyev tədbiri giriş sözü ilə açaraq Zəfərin beşinci ildönümünün dərin mənəvi və tarixi əhəmiyyətindən danışıb. O, Azərbaycan xalqının bu möhtəşəm Qələbəni Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi milli dövlətçilik kursuna, Prezident İlham Əliyevin müdrik və qətiyyətli siyasətinə, eləcə də xalq–ordu birliyinə borclu olduğunu vurğulayıb. Baş prokuror bildirib ki, 44 günlük Vətən müharibəsi Azərbaycanın dövlətçilik tarixində dönüş nöqtəsi olmaqla, beynəlxalq hüququn və ədalətin qələbəsini təmin edib. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun misilsiz qəhrəmanlığı nəticəsində ərazi bütövlüyümüz bərpa olunub, dövlət suverenliyi tam təmin edilib.

Kamran Əliyev həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Vətən müharibəsi və sonrakı bərpa–quruculuq dövründə göstərdiyi humanitar və mənəvi liderlik fəaliyyətini qeyd edib. O, Birinci vitse-prezidentin qayğısı sayəsində şəhid ailələrinə, qazilərə və müharibədən zərər çəkmiş insanlara göstərilən dəstəyin dövlətimizin sosial ədalət siyasətinin bariz nümunəsi olduğunu bildirib.

Baş prokuror çıxışında işğaldan azad edilmiş ərazilərdə prokurorluq orqanlarının fəaliyyətinin təşkili, hüquqi sistemin bərpası və qanunçuluğun təmin olunması istiqamətində görülən işlərdən danışıb, bu sahədə qarşıda duran prioritet vəzifələri diqqətə çatdırıb.

Zəngilan, Qubadlı və Cəbrayıl rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev çıxışında dövlət başçısının rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı

bərpa və yenidənqurma işlərinin aparıldığını, qısa müddətdə müasir infrastrukturun qurulduğunu qeyd edib. O, Zəngilan rayonunda keçirilən bu kimi tədbirlərin dövlətçiliyimizin möhkəmlənməsinə və Zəfərin ideoloji dəyərinin gənc nəslə ötürülməsinə xidmət etdiyini vurğulayıb.





Azərbaycan Respublikasının Hərbi prokuroru, Baş prokurorun müavini Bəhruz Əhmədov Vətən müharibəsi dövründə və ondan sonrakı mərhələdə hərbi prokurorluq orqanlarının həyata keçirdiyi hüquqi nəzarət tədbirlərindən danışıb, dövlətin müdafiə qabiliyyətinin və hərbi intizamın qorunmasında prokurorluğun mühüm rolunu qeyd edib.





Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Daxili Təhlükəsizlik və Təhqiqat Baş İdarəsinin rəisi Azər İbrahimov hərbi sahədə şəffaflıq və qanunçuluğun təmin edilməsi istiqamətində görülən tədbirləri, həmçinin Baş Prokurorluqla əməkdaşlığın əhəmiyyətini diqqətə çatdırıb.

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Qubadlı Əlahiddə Sərhəd Diviziyasının komandiri Azad Abdullayev sərhəd təhlükəsizliyinin təminində əldə olunan uğurları, azad edilmiş sərhəd bölgələrində yaradılan yeni infrastruktur və xidmət şəraitini iştirakçılara təqdim edib.

Milli Məclisin deputatı Ceyhun Məmmədov çıxışında Azərbaycan Zəfərinin həm siyasi, həm mənəvi, həm də hüquqi qələbə olduğunu vurğulayıb və ölkəmizin regionda sülhün və sabitliyin təminatçısına çevrildiyini qeyd edib.

Zəngilan rayon prokuroru Qibləli Kərimov isə rayonun azad edilməsindən sonra prokurorluq orqanlarının fəaliyyətinin təşkili, hüquq-mühafizə strukturları ilə koordinasiya və qanunçuluğun təmin olunması istiqamətində görülən işlər barədə məlumat verib.

Konfrans çərçivəsində Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Nigar Qələndərli tərəfindən "Qarabağ Azərbaycandır!" kitabının II cildinin təqdimatı keçirilib. Təqdimatda iştirakçılara məlumat verilib ki, kitabın yeni nəşri Vətən müharibəsi dövründə və sonrakı bərpa mərhələsində hüquq-mühafizə orqanlarının fəaliyyətini, ədalətin bərpası istiqamətində görülmüş işləri və beynəlxalq hüququn tətbiqi məsələlərini əhatəli şəkildə təqdim edir. Kitabda həmçinin işğaldan azad edilmiş ərazilərdə dövlətçilik, hüquq və təhlükəsizlik sahəsində həyata keçirilmiş tədbirlər, müharibə zamanı və sonrasında prokurorluq orqanlarının həyata keçirdiyi hüquqi nəzarət tədbirləri barədə geniş məlumatlar yer alıb. Təqdimat zamanı tədbir iştirakçılarının bir qisminə kitab nüsxələri hədiyyə olunub və Zəfərin ideoloji və tarixi əhəmiyyəti geniş auditoriyaya çatdırılıb.

Konfrans çərçivəsində Zəfərin beşinci ildönümünə həsr olunmuş videoçarx nümayiş etdirilib, səmərəli müzakirələr aparılıb.

Müzakirələr zamanı Milli Aviasiya Akademiyasının İqtisadiyyat və Hüquq fakültəsinin dekanı, hüquq elmləri doktoru, professor Ayxan Rüstəmzadə, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı, hüquq üzrə fəlsəfə doktoru Zaur Əliyev, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının professoru, hüquq elmləri doktoru Namiq Əliyev, Vəkillər Kollegiyası Tədris Mərkəzinin direktoru, hüquq elmləri doktoru, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ üzrə UNESCO kafedrasının professoru Əmir Əliyev, Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının prorektoru, hüquq üzrə fəlsəfə doktoru Elçin Xələfov, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Fəlsəfə-hüquqi təlimlər və suverenlik şöbəsinin müdiri, hüquq elmləri doktoru, professor Habil Qurbanov, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü İlhamə Həsənova, Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Cinayət prosesi kafedrasının rəisi, hüquq üzrə fəlsəfə doktoru Səyyad Ağayev, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin rəis müavini, iqtisad üzrə fəlsəfə doktoru, hüquq elmləri doktoru Mirəli Kazımov, eləcə də Qarabağ Universitetinin birinci kurs tələbəsi Ayan Əliyeva öz qeydlərini bildirib və konfransın əhəmiyyəti barədə fikirlərini bölüşüblər.

Xatirə fotoşəkli çəkildikdən sonra işğaldan azad edilmiş bölgələrin yenidən qurulması, yaşıl bərpa və davamlı inkişaf istiqamətində həyata keçirilən layihələrə dəstək məqsədilə Zəngilan şəhərində ağacəkmə aksiyası keçirilib.

Aksiya çərçivəsində hər ağacın torpağa əkilməsi Azərbaycanın milli birliyi, müstəqilliyi və tarixi Zəfərin simvolu kimi qiymətləndirilib, həm rəmzi, həm də ekoloji əhəmiyyət daşıyıb.



# Baş Prokurorluqda Zəfər gününə həsr olunmuş tədbir keçirilib







7 noyabr 2025-ci il tarixdə Azərbaycan Respublikasının Baş Prokurorluğunda "Vətən Müharibəsi"ndəki qələbənin beşinci ildönümü, "8 Noyabr Zəfər Günü" münasibətilə Vətən Müharibəsi iştirakçıları ilə görüş keçirilmişdir.

Görüş zamanı Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Daha sonra çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyev əldə edilmiş zəfərə görə möhtərəm cənab prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və rəşadətli Azərbaycan Ordusuna dərin minnətdarlığını ifadə edərək, torpaqlarımızın və ərazi bütövlüyümüzün bərpası uğrunda canlarından keçmiş şəhidlərimizin ruhlarına öz dərin ehtiramını bildirib, qazilərimizə Allahdan şəfa diləyərək, bu zəfərin əhəmiyyəti barədə tədbir iştirakçılarına məlumat vermiş,, müharibə dövründə prokurorluq orqanlarının əməkdaşlarının xidməti fəaliyyətlərinə toxunmuşdur.

Eyni zamanda Baş prokuror tərəfindən vurğulanmışdır ki, 2020-ci ildən sonrakı dövrdə prokurorluq orqanlarına keçirilmiş qəbul imtahanlarında iştirak edərək müvəffəqiyyət əldə etmiş 21 nəfər "Vətən Müharibəsi" iştirakçısı daimi qulluğa qəbul olunmuşdur.

Bundan sonra "Vətən Müharibəsi" dövründə xidməti vəzifələrini yüksək səviyyədə yerinə yetirmiş prokurorluq əməkdaşlarından Şirvan şəhər prokuroru Kamal Talıbovun, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kriminalistika şöbəsinin böyük prokuroru Tural Nuriyevin, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin pro-



kuroru Ozal Həsənovun, o cümlədən ön cəbhədəki döyüşlərdə iştirak etmiş Gəncə şəhər prokurorluğunun böyük müstəntiqi İlkin Şıxməmmədovun, Bakı şəhəri Suraxanı rayon prokurorluğunun müstəntiqi Elvin Quliyevin çıxışları dinlənilib.

Tədbirin sonunda 8 Noyabr-Zəfər Gününə həsr olunmuş videoçarx nümayiş etdirilib, xatirə şəkili çəkilib.



# Baş prokuror Rumıniyada işgüzar səfərdə olmuşdur






Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Rumıniyalı həmkarı Aleks Florentanın dəvəti ilə noyabrın 23-də Buxarest şəhərində işgüzar səfərdə olmuşdur.

Əvvəlcə nümayəndə heyəti Buxarest şəhərində Tey Parkında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsini ziyarət edərək önünə əklil qoyub və Ulu Öndərin xatirəsini dərin ehtiramla yad edib.

Bundan sonra Rumıniyanın Baş Prokurorluğunda görüş keçirilib.

Baş prokuror Kamran Əliyev qarşı tərəfə dəvətə görə təşəkkürünü bildirərək qeyd edib ki, Rumıniya istər siyasi, istərsə də iqtisadi sahədə Azərbaycanın əsas tərəfdaşlarından biridir və ötən müddət ərzində ölkələrimiz arasında qarşılıqlı əlaqələr dövlət başçılarının siyasi iradəsi və səyləri nəticəsində daha da inkişaf edərək strateji xarakter alıb.

Daha sonra 2024-cü ilin oktyabr ayında iki ölkənin prokurorluqları arasında imzalanmış Anlaşma Memorandumu qeyd edilərək cinayətkarlığın müxtəlif formalarına, o cümlədən korrupsiyaya qarşı mübarizə,







ekstradisiya və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahələrində praktiki əməkdaşlıq məsələləri, həmçinin, qarşılıqlı təlim səfərlərinin təşkili və təcrübə mübadiləsi ətrafında da fikir mübadiləsi aparılıb.

Görüşdə Aleks Florenta qurumlararası tərəfdaşlıq münasibətlərinin yüksələn xətt üzrə inkişafından məmnunluğunu ifadə edərək, ötən il ərzində Azərbaycana etdiyi işgüzar səfərin xüsusilə yaddaqlan olmasını qeyd edib.

Səfər çərçivəsində nümayəndə heyəti ilə Rumıniyanın Ədliyyə naziri Radu Marinesku arasında da ikitərəfli görüş keçirilib.

Görüşdə ölkələr arasında müxtəlif sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları arasında dinamik inkişaf edən əlaqələrdən məmnunluq ifadə olunub.

Tərəflər hüquqi sahədə əməkdaşlığın genişləndirilməsi, beynəlxalq və regional təşkilatlar çərçivəsində, eləcə də ölkələrimizin hüquq mühafizə orqanları arasında əməkdaşlığın hüquqi bazası ətrafında fikir mübadiləsi aparıblar.

Bundan sonra nümayəndə heyəti Rumıniya Parlamentinin Senatının sədr müavini Robert Cazancuiclə görüşüb.

Senat sədrinin müavini qeyd edib ki, Rumıniya ilə Azərbaycan arasındakı əlaqələr qarşılıqlı etimad və səmimi dostluq prinsiplərinə əsaslanır. Bu çərçivədə dövlət başçılarının qarşılıqlı səfərləri, həmçinin parlamentlərarası əlaqələrin yüksək dinamikası vurğulanıb.

Baş prokuror yüksək qonaqpərvərliyə və səmimi qəbula görə təşəkkürünü ifadə edərək bildirib ki, enerji, nəqliyyat və rəqəmsal texnologiyalar sahələrində birgə layihələrin icrası ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin əyani sübutudur.

Görüşlərdə Azərbaycan Respublikasının Rumıniyadakı fövqəladə və səlahiyyətli səfiri Qüdsi Osmanov da iştirak edib.

Səfər çərçivəsində, həmçinin Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizin Rumıniyadakı səfirliyini ziyarət edərək səfirliyin heyəti ilə görüşərək iş şəraiti ilə maraqlanıb.



# Baş prokuror Amerikaya işgüzar səfər edib








Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 2-də Birləşmiş Millətlər Təşkilatının Baş Qərargahında keçirilən "Korrupsiyanın ölçülməsinin təkmilləşdirilməsi məqsədilə məlumatların səmərəli istifadə olunması" mövzusunda İkinci Qlobal Konfransda iştirak məqsədilə Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində rəsmi səfərdə olub.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), BMT-nin İnkişaf Proqramı (UNDP) və Beynəlxalq Antikorrupsiya Akademiyasının (İACA) birgə təşkilatçılığı ilə keçirilən tədbirdə əsas məqsəd korrupsiyaya qarşı mübarizə fəaliyyətinin effektivliyinin dəyərləndirilməsi üçün alternativ meyarların və yeni metodologiyanın işlənib hazırlanması və müzakirəsi olub.

30 yaxın ölkənin nümayəndə heyətlərinin, həmçinin müxtəlif beynəlxalq və regional təşkilatların çox sayda təmsilçiləri və ekspertlərinin iştirak etdiyi tədbirin Yüksək Səviyyəli Seqmentində çıxış edən Baş prokuror qeyd edib ki, müasir dövrün əsas bəlalarından olan korrupsiyaya qarşı mübarizənin təsirliliyini təmin etmək üçün

onun miqyasının müəyyən edilməsi, başqa sözlə, ölçülməsi ilkin şərtdir. Lakin bu fəaliyyət sabit, qərəzsiz və obyektiv meyarlara söykənməlidir. Bu sahədə mövcud cari indekslərin bir qismi subyektiv yanaşmalar səbəbindən, eləcə də metodoloji nöqsanlardan qaynaqlanaraq reallığı tam və düzgün əks etdirmir. Odur ki, ölkəmizin ekspertlərinin də yaxından iştirakı ilə hazırlanan yeni metodologiyanın bu boşluğu dolduracağına inanırıq.



Tədbir çərçivəsində Baş prokuror və BMT-nin Qanunun Aliliyi və Təhlükəsizlik İnstitutları Ofisinin rəhbəri Faisal Shahkar arasında ikitərəfli görüş keçirilib.

Görüş zamanı qurumlar arasında əməkdaşlığın perspektivləri, o cümlədən kadrların peşəkar hazırlığı, cinayətkarlığın müxtəlif formalarına qarşı mübarizə təcrübəsinin mübadiləsi müzakirə edilib, həmçinin Azərbaycan tərəfindən irəli sürülən konkret layihələrin dəstəkləndiyi bildirilib.

Bundan əlavə, konfrans çərçivəsində Baş prokurorla Beynəlxalq Antikorrupsiya Akademiyasının cari dekanı Drago Kos arasında ikitərəfli görüş keçirilib.

Drago Kos Azərbaycan Prokurorluğunun Akademiyaya göstərdiyi hərtərəfli dəstəyə görə təşəkkürünü ifadə edib. Öz növbəsində Kamran Əliyev Akademiyanın fəaliyyəti dövründə 20-ə yaxın prokurorluq əməkdaşının qurumun magistr proqramlarının məzunu olduğunu, quruma göstərilən mütəmadi maliyyə töhfəsi ilə yanaşı, Azərbaycan Prokurorluğunun 1 nümayəndəsinin hazırda Akademiyanın İdarəetmə Şurasında təmsil edildiyini, həmçinin 1 prokurorluq əməkdaşının qurumun Katibliyinə ezam olunduğunu qeyd edib.

Bundan əlavə, görüşdə tərəflər arasında əməkdaşlığın genişləndirilməsi və müxtəlif birgə tədbirlərin təşkili imkanları müzakirə edilib.

Tədbir çərçivəsində, həmçinin Baş prokurorla Səudiyyə Ərəbistanı, Mərakeş və digər ölkələrdən olan tərəfdaşlar arasında görüşlər keçirilərək qarşılıqlı maraq kəsb edən mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Görüşlərdə Azərbaycan Respublukasının BMT yanında daimi nümayəndəsi Tofiq Musayev də iştirak edib.

Səfər müddətində Baş prokuror, həmçinin ölkəmizin BMT yanında daimi nümayəndəliyini ziyarət edərək, nümayəndəliyin heyətilə tanış olub, əməkdaşların fəaliyyəti ilə maraqlanıb.



# Baş prokuror ABŞ-da bir sıra görüşlər keçirib







Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti ABŞ-da rəsmi səfər çərçivəsində Baş prokuror Vaşinqton şəhərində ABŞ Baş Prokurorluğu, Federal Təhqiqatlar Bürosu və ABŞ Dövlət Departamentinin yüksək vəzifəli rəsmiləri ilə görüşlər keçirib.

Görüşlərdə qarşılıqlı maraq doğuran müxtəlif mövzular və hüquqi sahədə Azərbaycan-ABŞ əməkdaşlığı ilə bağlı gələcək perspektivlər müzakirə olunub.

# Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib







Dekabrın 9-da Konstitusiya və Suverenlik İli çərçivəsində Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib.

Açılış nitqi ilə çıxış edən Şuranın sədri, Baş prokuror Kamran Əliyev bildirib ki, Konstitusiya dövlətimizin suverenliyini, idarəçilik sisteminin sabitliyini və cəmiyyətin hüquqi inkişaf prinsiplərini müəyyən edən əsas sənəddir.

Vurğulanıb ki, müasir Azərbaycan dövlətinin möhkəm təməli dünya şöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin formalaşdırdığı dövlətçilik fəlsəfəsi üzərində qurulub. Ulu öndərin müəyyən etdiyi dövlətçilik xəttini bu gün yüksək səviyyədə və böyük siyasi iradə ilə davam etdirən möhtərəm cənab Prezident İlham Əliyevdir. Ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində dövlət suverenliyimizin möhkəmləndirilməsi, qanunçuluğun təmin olunması, idarəçiliyin təkmilləşdirilməsi və Azərbaycanın beynəlxalq mövqelərinin gücləndirilməsi istiqamətində əhəmiyyətli nəticələr əldə olunub.

Çıxışda, həmçinin, qeyd olunub ki, birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr cəmiyyətin hüquqi maarifləndirilməsi, milli-mənəvi dəyərlərin qorunması və sosial rifahın yüksəldilməsi baxımından xüsusilə əhəmiyyət kəsb edir.

İclasda Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov "Azərbaycan Konstitusiyasında dövlət suverenliyi prinsipinin hüquqi əsasları", Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı Zaur Əliyev "Azərbaycan Respublikasının Konstitusiyası və insan hüquqları", Milli Məclisin deputatı Kamal Cəfərov "Korrupsiyanın qarşısının alınmasında Azərbaycan modeli", Konstitusiya Məhkəməsinin Cinayət və inzibati hüquq şöbəsinin müdiri, prokurorluğun veteranı Tahir Kazımov "Cinayət Məcəlləsinin 178-ci maddəsinə dəyişikliklərin edilməsinin zərurəti", Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü İlhamə Həsənova "Dövlət hesabına müdafiənin həyata keçirilməsi zamanı mövcud problemlər", Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Fazil Həsənəliyev isə "Cinayət










təqibi üzrə icraatın dayandırılmasının aktual problemləri” mövzusunda çıxış ediblər. Hər bir çıxış ətrafında Şura üzvlərinin təklifləri dinlənilib və müzakirələr aparılıb.

Tədbir zamanı prokurorluğun elmi-tədqiqat və metodiki fəaliyyətinə dair yeni nəşrlər və elektron resurslar da təqdim olunub.

Belə ki, Elm-Tədris Mərkəzinin rəis müavini Səbuhi Şahverdiyev “Prokurorluq orqlarının peşə hazırlığı, elmi-tədqiqat və metodiki iş sahəsində ölkədaxili əməkdaşlıq təcrübəsi” adlı vəsaiti, Mərkəzin şöbə rəisi Nigar Qələndərli “Prokuror nəzarəti və prosessual rəhbərlik təcrübəsi” jurnalını, Mərkəzin şöbə prokuroru Fərizə Mirzəyeva “Qlobal ədalətə doğru: Beynəlxalq Prokurorlar Assosiasiyası və Azərbaycan Prokurorluğu” kitabını, Baş Prokurorluğun idarə prokuroru Mahmud Mehdiyev “Kriptovalyutanın aşkarlanması, izlənməsi və müsadirəsi”, Mərkəzin şöbə prokuroru Rəşad Qasımov isə mənimsəmə və qulluq mənafeyi əleyhinə cinayətlər üzrə metodiki vəsaiti təqdim edib, eləcə də Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova Elektron Prokurorluq İnformasiya Sistemində yaradılmış (EPİS) “Hüquqi müzakirələr və təkliflər forumu” modulunun funksionallığı barədə məlumat verib.

İclas çərçivəsində 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” münasibətilə ali təhsil müəssisələri arasında keçirilən “Azərbaycan Respublikasının Konstitusiyası və Dövlət Suverenliyi” adlı hüquq viktorinasında “Nominasiyalar” üzrə fərqlənmiş tələbələrin mükafatlandırılması mərasimi təşkil edilib və qaliblərə mükafatlar Baş prokuror Kamran Əliyev tərəfindən təqdim olunub.



Tədbirin sonunda Şuranın sədri, Baş prokuror Kamran Əliyev Konstitusiyanın dövlət suverenliyinin təmin edilməsində rolu, hüquqi dövlət quruculuğu sahəsində aparılan islahatların əhəmiyyəti və hüquq-mühafizə orqanlarının fəaliyyətində əsas istiqamətlərin daim diqqət mərkəzində saxlanılmasının əhəmiyyətini vurğulayıb.

# Baş Prokurorluqda Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunan tədbir keçirilib






Dekabrın 11-də Baş Prokurorluqda müstəqil və müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.

Əvvəlcə Baş Prokurorluğun rəhbərliyi Ümummilli liderin büstünü ziyarət edərək önünə gül dəstələri qoyub, dünya şöhrətli siyasi xadimin əziz xatirəsini ehtiramla yad edib.

Tədbirin açılışında Ulu Öndər Heydər Əliyev və şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla anılıb və Dövlət Himni səsləndirilib.

Tədbirdə Ulu Öndərin müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında oynadığı tarixi rol, onun siyasi uzaqgörənliyi və yaratdığı möhkəm idarəçilik ənənələri geniş şəkildə diqqətə çatdırılıb.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev bildirib ki, 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi Heydər Əliyevin dövlət quruculuğundakı misilsiz xidmətlərinin məntiqi davamı olmaqla, onun dövlətçilik irsinə dərin ehtiramın göstəricisidir.

Baş prokuror qeyd edib ki, Heydər Əliyevin həm sovet dövründə Respublikamızı böyük inkişaf yoluna



çıxarması, həm 20 Yanvar faciəsi zamanı xalqın hüquqlarını cəsarətlə müdafiə etməsi, həm də 1993-cü ildə ölkəyə rəhbərliyə qayıdaraq siyasi xaosu aradan qaldırması müasir Azərbaycanın taleyində həlledici rol oynayıb.

Bildirilib ki, Ulu Öndərin rəhbərliyi ilə əldə edilən 1994-cü il atəşkəsi, "Əsrin müqaviləsi"nin imzalanması, qlobal enerji və infrastruktur layihələrinin həyata keçirilməsi, eləcə də hüquq sistemində aparılan islahatlar Azərbaycanın dayanıqlı və güclü dövlətə çevrilməsi üçün möhkəm baza yaratmışdır.

Çıxış zamanı vurğulanıb ki, Azərbaycanın 1995-ci ildə qəbul edilmiş Konstitusiyasının hazırlanması və qəbul olunması Ümummilli Lider Heydər Əliyevin tarixi dövlətçilik xidmətlərinin ən mühüm mərhələlərindən biridir. Onun rəhbərliyi ilə formalaşdırılmış bu əsas qanun müstəqil dövlətçiliyimizin siyasi-hüquqi sütununu yaradaraq demokratik idarəetmə modelinin, insan hüquq və azadlıqlarının təminatının, habelə hakimiyyət qolları arasında tarazlığın hüquqi çərçivəsini müəyyən edib.

Baş prokuror qeyd edib ki, bu gün ölkədə hüququn aliliyinin təmin olunması və institusional islahatların uğurla həyata keçirilməsi məhz Heydər Əliyevin müəllifi olduğu Konstitusiyanın verdiyi möhkəm hüquqi baza üzərində qurulub.

Diqqətə çatdırılıb ki, dahi liderin dövlətçilik fəlsəfəsi bu gün möhtərəm Prezident İlham Əliyev tərəfindən Birinci vitse-prezident Mehriban Əliyevanın da yaxından iştirakı ilə yeni mərhələdə uğurla davam etdirilir.

Belə ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Qələbə, azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq prosesi və dövlətimizin beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə artması məhz Ulu Öndərin müəyyən etdiyi strateji kursun məntiqi nəticəsidir.

Qeyd olunanlarla yanaşı tədbirdə diqqətə çatdırılıb ki, Heydər Əliyev irsi prokurorluq orqanlarının fəaliyyətində daim əsas istiqamət kimi rəhbər tutulur və hüququn aliliyinin təmin olunması istiqamətində ardıcıl işlər həyata keçirilir.

Tədbirdə həmçinin Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin rəisi Sahib İsmayılov "Ümummilli Liderin konstitusiya quruculuğu irsi, müstəqil və suveren Azərbaycan modeli" mövzusunda çıxış edib,

Sonda "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC tərəfindən hazırlanmış və Ümummilli liderin xatirəsinə həsr olunmuş "Xalqın Adamı: Xalqını zülmətdən işığa çıxaran böyük xilaskar" sənədli filmə baxılıb.

# Prokurorluq əməkdaşları anım günü ilə bağlı Fəxri Xiyabanı ziyarət edib









Müstəqil və müasir Azərbaycan dövlətinin qurucusu və memarı, dünya şöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə bağlı Baş prokuror Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları dekabrın 12-də Fəxri xiyabanı ziyarət ediblər.

Ulu Öndərin məzarı önünə gül dəstələri qoyulub, əziz xatirəsi dərin ehtiramla yad edilib.

Həmçinin, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva, tanınmış dövlət xadimi Əziz Əliyev və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üzərinə gül dəstələri düzülüb.

# Baş prokuror Qətərdə işgüzar səfərdə olmuşdur





Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 14-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində rəsmi səfərdə olmuşdur.

Səfər çərçivəsində Baş prokuror qlobal korrupsiyaya qarşı mübarizədə mükəmməllik mükafatının təqdimetmə mərasimində iştirak etmişdir.

Tədbirdə Qətər Dövlətinin əmiri Şeyx Təmim bin Həməd Al Təni, BMT-nin və Qətər Dövlətinin yüksək səviyyəli rəsmiləri, müxtəlif ölkələrin nümayəndə heyətləri və beynəlxalq ekspertlər iştirak ediblər.

Məlumat üçün qeyd edilməlidir ki, 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlığa qarşı İdarəsinin (UNODC) dəstəyi ilə təsis edilən mükafatın məqsədi korrupsiyaya qarşı mübarizənin vacibliyini təbliğ, BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Konvensiyasının implementasiyasını təşviq və bu sahədə nailiyyətləri ictimaiyyətə təqdim etməkdir.

Tədbir çərçivəsində Baş prokuror Qətər Dövlətinin Qanunun Aliliyi və Korrupsiyaya qarşı Mübarizə Mərkəzinin (ROLACC) sədri və qeyd edilən mükafatın Himayəçilər Şurasının sədri Ali Al Marri arasında görüş keçirmişdir.





Görüşdə ölkələrimiz arasında siyasi rəhbərliklər səviyyəsində dostluq münasibətlərindən qaynaqlanan yüksək dinamika ilə inkişaf edən qarşılıqlı əlaqələr vurğulanıb və korrupsiyaya qarşı mübarizə sahəsində təcrübə mübadiləsinin vacibliyi qeyd edilmiş, həmçinin birgə layihələr müzakirə olunmuşdur.

Səfər çərçivəsində Baş prokuror, həmçinin, BMT Baş katibinin terrorçuluqla mübarizə üzrə müavini Alexander Zuyevlə görüşdə tərəflər arasında qarşılıqlı maraq kəsb edən bir sıra məsələlər üzrə müzakirələr aparmışdır. Bundan başqa, Azərbaycanın terrorçuluqla, korrupsiyaya qarşı mübarizə ilə bağlı bir sıra təşəbbüslərinin BMT tərəfindən dəstəkləndiyi bildirilmişdir.

Görüşlərdə ölkəmizin Qətər Dövlətindəki fövqəladə və səlahiyyətli səfiri Adış Məmmədov da iştirak etmişdir.

Səfər çərçivəsində Baş prokuror Kamran Əliyev, həmçinin ölkəmizin Qətər Dövlətindəki səfirliyini ziyarət etmiş, səfirlik əməkdaşları ilə görüşmüşdür.

# Baş prokurorun rəhbərlik etdiyi nümayəndə heyəti beynəlxalq tədbirdə iştirak etmişdir









Dekabrın 15-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Konvensiyasına Tərəf Dövlətlərin 11-ci Assambleyası öz işinə başlamışdır.

130-dan artıq dövlətin rəsmi heyətlərinin və çoxsaylı beynəlxalq və regional təşkilatların nümayəndələrinin təmsil olunduğu tədbirdə Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikası Baş Prokurorluğunun məsul əməkdaşlarından ibarət geniş tərkibli nümayəndə heyəti iştirak etmişdir.

Tədbirin ilk hissəsində Assambleyanın fəaliyyətinin təşkili ilə əlaqədar məsələlər müzakirə edilmiş, Assambleyanın yeni sədri və müavinləri seçilmişdir. Keçirilmiş səsvermə nəticəsində Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri, BMT-nin Vyana şəhərindəki bölməsi, ATƏT və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Rövşən Sadıqbəyli Konvensiyaya Tərəf Dövlətlərin 11-ci Assambleyası sədrinin Şərqi Avropa regionu üzrə müavini seçilmişdir.

Assambleyanın ilk günündə Plenar iclasda çıxış edən Baş prokuror Kamran Əliyev qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli siyasi iradəsi əsasında ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əsaslı islahatlar həyata keçirilmişdir. Bundan sonra o, ötən Assambleyadan keçən müddət ərzində qəbul edilmiş yeni qanunvericilik aktları barədə məlumat vermişdir. O həmçinin qeyd etmişdir ki, informasiya texnologiyalarının inkişafı korrupsiya və əlaqəli cinayətlərdən də yan keçməmişdir.

Belə ki, cinayətkarlığın ənənəvi formaları ilə yanaşı, qabaqcıl texnologiyalardan istifadə etməklə törədilən və mürəkkəbliyi ilə fərqlənən cinayətlərin də artım tendensiyası müşahidə edilir və bu sahədə ölkəmizin hüquq mühafizə orqanları tərəfindən görülmüş tədbirlər barədə də məlumat vermişdir.

Baş prokuror həmçinin qeyd etmişdir ki, ölkəmiz bir sıra beynəlxalq və regional təşəbbüslərin aktiv iştirakçısı olmaqla yanaşı, qlobal tədbirlərin keçirildiyi mərkəzə də çevrilməkdədir.

Bakı şəhəri cari ilin may ayında BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Hüquq-Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE) 6-cı Plenar iclasına ev sahibliyi etmiş, 90-dan artıq ölkənin 300-dən yuxarı nümayəndəsinin qatıldığı tədbirdə Şəbəkənin fəaliyyətinə töhfə verən bir sıra vacib sənədlər qəbul olunmuşdur.

Növbəti ildə isə Bakı şəhəri İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Korrupsiyaya qarşı Mübarizə Qurumlarının 3-cü iclasına ev sahibliyi edəcəkdir.

Bundan əlavə, Baş prokuror korrupsiyaya qarşı mübarizə fəaliyyətinin özünün rastlaşdığı çətinliklər, o cümlədən korrupsiyanın miqyasının və ona qarşı mübarizə fəaliyyətinin effektivliyinin dəyərləndirilməsi ilə bağlı praktiki boşluqları qeyd edərək ölkəmizin ekspertlərinin də yaxından iştirakı ilə BMT-nin dəstəyi ilə hazırlanmış yeni metodologiyanın aktuallığını vurğulamışdır.

Sessiya öz fəaliyyətini dekabr ayının 19-dək davam etdirmiş və tədbir çərçivəsində bir sıra görüşlər keçirilmişdir.

Assambleyanın sessiyasında həmçinin ölkəmizin Qətər Dövlətindəki fövqəladə və səlahiyyətli səfiri Adış Məmmədov da iştirak etmişdir.

# Baş prokuror xarici həmkarları ilə görüşlər keçirib










Dekabrın 17-də Baş prokuror Kamran Əliyevin Qatar Dövlətinə səfəri çərçivəsində Qatar Dövlətinin Baş prokuroru İssa bin Saad Al Nuaiminin dəvəti ilə nümayəndə heyəti Qatar Dövlətinin Baş Prokurorluğunda görüş keçirib.

Qonaqları səmimi salamlayan Qatar Dövlətinin Baş prokuroru qurumlar arasında yüksək səviyyəli işgüzar münasibətlərin ölkələrimizin siyasi rəhbərlikləri arasında formalaşmış dostluq münasibətlərindən qaynaqlandığını qeyd edib. Ölkəmizə səfərini xatırlayan ev sahibi ona göstərilmiş xüsusi diqqəti minnətdarlıqla xatırladığını bildirib.

Baş prokuror yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirərək hər iki ölkənin prokurorluqları arasında formalaşmış səmərəli əməkdaşlıqdan məmnunluq ifadə edib.

Bununla yanaşı, daha öncə imzalanmış Anlaşma Memorandumunun icrası ilə bağlı konkret tədbirlər, həmçinin digər istiqamətlərdə əməkdaşlıq perspektivləri müzakirə edilib. Baş prokuror həmkarını ölkəmizə səfərə dəvət edib.

Tədbir çərçivəsində bir sıra beynəlxalq təşkilatların və ölkələrin nümayəndələri ilə ikitərəfli görüşlər keçirilib.

Qətər Dövlətinin İnzibati Nəzarət və Şəffaflıq Qurumunun rəhbəri Hamad bin Nasser Al Misnad ilə görüşdə Baş prokuror Kamran Əliyev həmkarını BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Konvensiyasına

Tərəf Dövlətlərin 11-ci Assambleyasının sədri seçilməsi münasibətilə təbrik edib, nümayəndə heyətimizə göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkür edərək qurumlar arasında yüksələn xətt üzrə inkişaf edən münasibətlərin olmasını qeyd edib.

Cari ildə ölkəmizə səfərinin xüsusilə yaddaqalan olmasını xatırladan ev sahibi, iki ölkənin qurumları arasında təcrübə mübadiləsinin vacibliyini qeyd etmişdir. Bununla yanaşı, birgə fəaliyyətlə bağlı Azərbaycan tərəfinin təşəbbüslərinin dəstəkləndiyi ifadə edilib.

Baş prokuror Kamran Əliyevlə BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin cari direktoru John Brandolino arasında görüşdə qurumlar arasında faydalı əməkdaşlıq əlaqələrinin qurulması və bir sıra birgə layihələrin uğurla icrası vurğulanmışdır. Azərbaycan Prokurorluğunun qurumun fəaliyyətində aktiv iştirakına görə təşəkkür edən Brandolino, ölkəmizin irəli sürülmüş digər təşəbbüslərinin də BMT tərəfindən dəstəkləndiyini ifadə etmişdir.

Bundan başqa, Baş prokuror İran İslam Respublikasının Ədliyyə naziri Əmin Hüseyn Rəhimi ilə ikitərəfli görüş keçirib

Görüşdə dövlət başçıları arasında formalaşmış dost münasibətlərinin ölkələrimizin bütün sahələrdə ikitərəfli əməkdaşlığını yeni mərhələyə qaldırması vurğulanıb, hüquq mühafizə, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım, cinayət törətmiş şəxslərin və məhkumların verilməsi sahəsində qarşılıqlı əməkdaşlıqla bağlı konkret məsələlər müzakirə edilib.

Baş prokurorla Beynəlxalq Antikorrupsiya Akademiyasının cari dekanı Drago Kos arasında ikitərəfli görüşdə Azərbaycanın Akademiyaya göstərdiyi hərtərəfli dəstəyə görə təşəkkür ifadə edilməklə tərəflər arasında əməkdaşlığın genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsi müzakirə edilib.

Tədbir müddətində, həmçinin Baş prokuror Kamran Əliyev Litva Xüsusi İstintaq Xidmətinin direktoru Linas Pernavas, Uqanda Dövlət Prokurorluq Xidmətinin direktoru Lino Anguzu, Moldovanın cari Baş prokuroru Aleksandru Makedon və digər nümayəndə heyətləri arasında ikitrəfli görüşlər keçirərək əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparıb.






# Baş prokurorun rəhbərlik etdiyi nümayəndə heyəti beynəlxalq tədbirdə iştirak etmişdir








Dekabrın 18-də Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Qətər Dövlətinin paytaxtı Doha şəhərində BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Konvensiyasına Tərəf Dövlətlərin 11-ci Assambleyası çərçivəsində BMT-nin Korrupsiyaya qarşı Mübarizə aparan hüquq mühafizə orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE) Panel müzakirələrinə qatılıb. Tədbirdə Şəbəkənin rəhbərliyi Azərbaycanın qurumun fəaliyyətinə verdiyi mühüm töhfəyə görə təşəkkür edib.

Baş prokuror çıxış edərək bildirib ki, ölkəmiz korrupsiyaya qarşı mübarizə sahəsində BMT və digər beynəlxalq təşkilatların layihələrinin aktiv iştirakçısı olmaqla xarici tərəfdaşlarla əməkdaşlığa mühüm əhəmiyyət verir. Qlobal Əməliyyat Şəbəkəsinin cari ilin may ayında Bakı şəhərində baş tutmuş 6-cı Plenar Sessiyası xüsusilə məhsuldar olub.

Belə ki, 90-dan artıq ölkənin 300-dən yuxarı nümayəndəsinin bir araya gəldiyi görüşlərdə təsisatın fəaliyyəti üçün təməl təşkil edən Şəbəkə üzvləri arasında məlumat mübadiləsinin Nümunəvi Razılaşması və Aparıcı Göstərişlər məhz Bakıdakı müzakirələr nəticəsində qəbul edilib.

Bununla yanaşı, Assambleyanın Plenar iclasına paralel olaraq Azərbaycan Respublikasının Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi (UNODC) və Yaşıl İqlim Fondunun birgə təşkilatçılığı ilə ətraf mühitin qorunması ilə bağlı müxtəlif məsuliyyət tədbirlərinə həsr edilmiş xüsusi sessiya keçirilib.

Sessiyada çıxış edən Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev ölkəmizin prokurorluq orqanları tərəfindən ətraf mühitin mühafizəsi ilə əlaqədar qanunvericiliyin tələblərinin pozulmasının qarşısının alınmasına yönəlmiş preventiv tədbirlər, eləcə də pozuntu hallarına görə tətbiq edilən məsuliyyət tədbirləri barədə geniş məlumat verib, iştirakçıların suallarını cavablandırıb.

Assambleyanın Plenar iclasının növbəti günündə səsvermələr nəticəsində Assambleya sədrinin Şərqi Avropa regionu üzrə müavini seçilmiş Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri, BMT-nin Vyana şəhərindəki bölməsi, ATƏT və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Rövşən Sadıqbəyli sədrlik edib.

Plenar sessiyada iştirakçı ölkələrin nümayəndə heyətlərinin korrupsiyaya qarşı mübarizə üzrə milli səviyyədə həyata keçirilmiş tədbirlərlə bağlı hesabat məruzələri dinlənilmişdir.

# Binəqədi rayon prokurorluğunun yeni inzibati binası istifadəyə verilib





Dekabrın 23-də Binəqədi rayon prokurorluğunun yeni inzibati binasının açılış mərasimi keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və digər rəsmi şəxslər iştirak etmişlər.

Əvvəlcə mərasim iştirakçıları binanın foyesində yerləşən Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq dünya şöhrətli siyasi xadimin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Məlumat verilib ki, istifadəyə verilən yeni inzibati bina prokurorluq əməkdaşlarının peşəkar fəaliyyətinin daha səmərəli təşkili, iş proseslərinin effektivliyinin artırılması və vətəndaşlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə müasir standartlara tam cavab verən infrastrukturla təmin olunub.

Binada əməkdaşların rahat və funksional iş şəraiti üçün bütün zəruri texniki avadanlıqlarla təchiz olunmuş xidməti otaqlar, vətəndaşların qəbulu üçün xüsusi hissə, konfrans və iclas zalları yaradılıb.

Eyni zamanda, bina enerji səmərəliliyi və təhlükəsizlik baxımından da ən son tələblərə uyğun layihələndirilib.

Əlavə olaraq qeyd olunub ki, yeni binada "Elektron Prokurorluq" informasiya sistemi də tam şəkildə tətbiq olunub. Bu sistem vasitəsilə sənəd dövriyyəsi rəqəmsal müstəvidə həyata keçirilir, işin çevikliyi və şəffaflığı artırılır.








İnzibati bina ilə tanışlıqdan sonra yeni binanın akt zalında iclas keçirilib.

Açılış nitqində Baş prokuror Kamran Əliyev bildirib ki, müasir və çevik prokurorluq sisteminin formalaşdırılması Azərbaycanın hüquqi dövlət quruculuğunun əsas prioritetlərindən biridir. Bu istiqamətdə atılan ardıcıl və məqsədyönlü addımlar Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə əsası qoyulan dövlətçilik strategiyasının mühüm tərkib hissəsini təşkil edib. Məhz həmin yol hazırda Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək, hüquq-mühafizə orqanlarının, o cümlədən prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi, insan resurslarının inkişafı və fəaliyyətin şəffaflığının təmin olunması sahəsində mühüm nailiyyətlər əldə olunub.

Baş prokuror yeni inzibati binanın açılışı münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə prokurorluq əməkdaşları adından dərin təşəkkürünü bildirərək vurğulayıb ki, ölkə başçısının rəhbərliyi, daim göstərdiyi diqqət və qayğı nəticəsində prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün tələblərinə uyğun təşkili, maddi-texniki bazanın gücləndirilməsi, o cümlədən əməkdaşlar üçün yaradılan hərtərəfli iş şəraiti peşəkarlığın, iş potensialı və səmərəliliyin artırılmasına, habelə vətəndaş məmnunluğunun təmin olunmasında mühüm irəliləyişlərə səbəb olacaq.

Baş prokuror çıxışında, həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan olunmasının ölkədə müasir infrastrukturun formalaşdırılması, şəhər mühitinin keyfiyyətinin yüksəldilməsi və dövlət qurumlarının fəaliyyətində funksionallıqla estetik tələblərin vəhdətinin təmin olunması baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib. Kamran Əliyev vurğulayıb ki, Binəqədi rayon prokurorluğunun yeni inzibati binası da bu strateji yanaşmanın bariz nümunəsi olmaqla, müasir memarlıq həlləri, funksional planlaşdırma və vətəndaş yönümlü xidmət prinsiplərini özündə birləşdirir. O bildirib ki, bu cür layihələr hüquq-mühafizə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması ilə yanaşı, şəhərsalma siyasətinin tələblərinə uyğun davamlı və müasir iş mühitinin yaradılmasına xidmət edir.

Baş prokuror yeni inzibati binanın istifadəyə verilməsi münasibətilə prokurorluq əməkdaşlarını təbrik edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Çıxışında onu da bildirib ki, yaradılan müasir iş şəraiti prokurorluq əməkdaşlarından daha böyük məsuliyyət, yüksək peşəkarlıq və qanunçuluğa sadiqlik tələb edir.

Kamran Əliyev prokurorluq əməkdaşlarını daim öz üzərində çalışmağa, bilik və bacarıqlarını təkmilləşdirməyə, eləcə də fəaliyyətlərini dövlətçiliyə sədaqət, dürüstlük və obyektivlik prinsipləri əsasında qurmağa çağırıb.

Bundan başqa tədbir iştirakçıları yeni inzibati binanın yanında yerləşən parkda ağaclar əkiblər.

Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

# Prokurorluq əməkdaşları "Gülçöhrə və Əsgər" tamaşasını izləyiblər

Dekabrın 23-də Azərbaycan Respublikasının Baş prokuroru, Baş Prokurorluğun rəhbərliyi, prokurorluq əməkdaşları və prokurorluğun veteranları Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Xalq yazıçısı Kamal Abdullanın eyniadlı pyesinin motivləri əsasında səhnələşdirilən "Gülçöhrə və Əsgər" tamaşasını izləyiblər.

Tədbir çərçivəsində milli mədəni irsimizin təbliği, klassik Azərbaycan musiqi və teatr sənətinin inkişafına dəstək göstərilməsi, həmçinin prokurorluq əməkdaşlarının mədəni həyatının zənginləşdirilməsi məqsədi daşıyan bu cür tədbirlərin əhəmiyyəti vurğulanıb.

Tədbiri, həmçinin, Kamal Abdulla və digər incəsənət xadimləri də izləyib.











# Baş Prokurorluqda Kollegiya iclası keçirilib



Dekabrın 26-da Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyət istiqamətləri üzrə  cari il ərzində görülmüş işlər, qarşıda duran vəzifələr və işin təşkilinə dair məsələlərə həsr olunmuş Kollegiya iclası keçirilib.

Kollegiya iclasında Giriş nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev cari ilin xalqımız, o cümlədən hüquq ictimaiyyəti üçün əlamətdar hadisələrlə zəngin bir il olduğunu bildirib.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilməsinin Konstitusiyanın qəbulunun 30 və Vətən müharibəsində qazanılmış Qələbənin 5 illiyinə təsadüf etməsi ona xüsusi mənəvi mahiyyət qatmışdır. Bildirilib ki, bu ilin qeyd olunması ümummilli lider Heydər Əliyevin dövlətçilik irsinə ehtiramın ifadəsi olmaqla, Ulu Öndərin rəhbərliyi ilə 1995-ci ildə qəbul edilmiş Konstitusiya əsasında dövlət suverenliyi, qanunun aliliyi və insan hüquq və azadlıqlarının təmin edilməsi, eləcə də Azərbaycanın hüquqi dövlət kimi formalaşmasını əks etdirir.

Çıxış zamanı həmçinin vurğulanıb ki, Ulu Öndərin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dövlət idarəçiliyinin təkmilləşdirilməsi, hüquqi islahatların dərinləşdirilməsi, vətəndaşların sosial rifahının yüksəldilməsi və Azərbaycanın beynəlxalq nüfuzunun daha da möhkəmləndirilməsi istiqamətində mühüm nailiyyətlər əldə olunmuş, bu sahədə  Birinci vitse-prezident Mehriban xanım Əliyeva da yaxından iştirak etmiş, bu siyasətin məntiqi davamı olaraq işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri yüksək sürətlə davam etdirilir.

Eyni zamanda qeyd edilib ki, Prezident İlham Əliyevin uğurlu xarici siyasət kursu mürəkkəb qlobal proseslər fonunda Azərbaycanın beynəlxalq mövqelərini gücləndirmiş, xüsusilə ABŞ və Çin Xalq Respublikası ilə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsinə imkan yaradıb. Vurğulanıb ki, bu uğurlu xarici siyasət ölkədə siyasi sabitliyin möhkəmlənməsi və daxili inkişaf üçün əlverişli şəraitin formalaşmasını təmin etmişdir.

Prokurorluq orqanlarının fəaliyyətinə toxunarkən Kamran Əliyev tərəfindən ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Azərbaycan prokurorluğunun rolu qeyd edilməklə, prokurorluğun

əsas fəaliyyət istiqamətləri üzrə görülən işlər və statistik göstəricilər kollegiya üzvlərinin diqqətinə çatdırılıb, ümumən qeydə alınmış cinayətlərin sayında azalmanın müşahidə edildiyi, bu nailiyyətlərin əldə olunmasında digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə həyata keçirilən preventiv, operativ və istintaq tədbirlərinin effektivliyi vurğulanıb.







Eyni zamanda, prokurorluq orqanlarının vətəndaşların hüquqlarının qorunması, qanunun aliliyinin təmin edilməsi və ictimai təhlükəsizliyin möhkəmləndirilməsi sahəsində davamlı və sistemli fəaliyyət göstərdiyi diqqətə çatdırılıb.

Həmçinin çıxışda Baş prokuror qeyd edib ki, 2025-ci ilin prokurorluq orqanlarının fəaliyyəti baxımından mühüm beynəlxalq hadisələrlə yadda qalmışdır. Bu çərçivədə Baş Prokurorluğun təşkilatçılığı ilə bir sıra beynəlxalq tədbirlər konfranslar keçirilib.

İclasda həmçinin Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"na əlavə və dəyişikliklərin edilməsi, həmçinin "Prokurorluq orqanlarının 2026-cı ildə ictimaiyyətin maarifləndirilməsinə dair Yol Xəritəsi" layihəsinin müzakirəsi və təsdiqi məsələsi ilə bağlı Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanov, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq icrası həvalə olunmuş vəzifələrə təyinatlara razılıq verilməsi ilə bağlı Kadrlar idarəsinin rəisi Natiq Hüseynov məruzələrlə çıxış ediblər.

Aparılmış müzakirələr ətrafında Kollegiya üzvləri çıxış edərək təkliflərini bildirib, sonda bir sıra məsələlər üzrə Kollegiyanın qərarı qəbul olunub.

İclasa yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikası Prokurorluğu orqanlarının bundan sonrakı fəaliyyəti zamanı da dövlət və xalqımızın mənafeyi naminə qanunla üzərinə qoyulmuş vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

# Baş prokurorun yerlərdə qəbulları

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

## SƏBAİL RAYONU



Oktyabrın 3-də Baş prokuror Kamran Əliyev Bakı şəhəri Səbail rayon prokurorluğunun inzibati binasında Səbail rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 48 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.



## GƏNCƏ ŞƏHƏRİ



Oktyabrın 17-də Baş prokuror Kamran Əliyev Gəncə şəhər prokurorluğunun inzibati binasında Gəncə şəhər, Göygöl, Samux, Kəlbəcər rayonları və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.




Daha sonra Baş prokuror Gəncə Memorial Kompleksini ziyarət edib, 44 günlük Vətən müharibəsi zamanı Ermənistanın raket hücumlarının qurbanı olmuş insanların əziz xatirəsini yad edib, abidə önünə gül dəstələri qoyub.



Qəbulda iştirak etmiş 73 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.



## ABŞERON RAYONU







Noyabrın 4-də Baş prokuror Kamran Əliyev Abşeron rayon prokurorluğunun inzibati binasında Abşeron, Zəngilan rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 37 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## SUMQAYIT ŞƏHƏRİ







Dekabrın 5-də Baş prokuror Kamran Əliyev Sumqayıt şəhər prokurorluğunun inzibati binasında Sumqayıt şəhər, Qubadlı rayon və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 33 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

**Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.**

# Müstəqil Dövlətlər Birliyi (MDB) İştirakçı Dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının (BPƏŞ) 35-ci yubiley iclası keçirilib



Oktyabrın 21-də Düşənbə şəhərində Müstəqil Dövlətlər Birliyi (MDB) İştirakçı Dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının (BPƏŞ) 35-ci yubiley iclası keçirilib.

MDB prokurorluq orqanlarının rəhbər şəxsərinin iştirak etdiyi iclasda ölkəmizi Azərbaycan Respublikasının Baş prokurorun birinci müavini Elçin Məmmədovun rəhbərlik etdiyi, Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev, Azərbaycan Respublikası Baş prokurorunun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi Teymur Qarayev, Kriminalistika və İnformasiya texnologiyaları idarəsinin rəisi Talıb Cəfərov və Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəis müavini Babək Zakirzadədən ibarət nümayəndə heyəti təmsil edib.

Baş prokurorunun birinci müavini tədbirdə “Azərbaycan Respublikasında ekoloji təhlükəsizliyin təmin olunmasında prokurroluğun rolu: təcrübə və prioritetlər” mövzusunda çıxış edib.

Vurğulanıb ki, Prezident İlham Əliyev tərəfindən ümummilli lider Heydər Əliyevin bütün sahələrdə olduğu kimi ekoloji təhlükəsizliyin qorunması və möhkəmləndirilməsinə dair siyasəti də uğurla davam etdirirlərək bu sahə beynəlxalq səviyyəyə qaldırılıb. COP29-un Bakıda keçirilməsinin Azərbaycanın qlobal ekoloji proseslərdə fəal rolunu nümayiş etdirməsi də çıxışda qeyd olunub.

Həmçinin, çıxış zamanı Baş Prokurorluq tərəfindən yaradılmış ECOLEAD platformasının ekoloji cinayətlərlə mübarizə və təbiətə vurulan ziyanın bərpasındakı rolundan bəhs olunub.

Bundan başqa, tədbir çərçivəsində Müstəqil Dövlətlər Birliyi (MDB) İştirakçı Dövlətlərinin Baş Pro-










kurorlarının Əlaqələndirmə Şurasının (BPƏŞ) 35-ci yubiley iclasında iştirak edən nümayəndə heyətlərinin rəhbərləri Tacikistan Respublikasının prezidenti Emomali Rahmon tərəfindən qəbul edilib.

Səfər zamanı Elçin Məmmədovla Tacikistanın Baş prokuroru Habibullo Vohidzoda ilə görüşüb.

Görüşdə Azərbaycan və Tacikistan arasında dostluq və qarşılıqlı etimada əsaslanan münasibətlərin tarixi köklərə və ümumi dəyərlərə söykənməsi qeyd olunub.

Bundan əlavə, nümayəndə heyətinin üzvü Babək Zakirzadə səfər çərçivəsində Tacikistan Slavyan universitetinin Hüquq fakültəsinin tələbələrinə “ Azərbaycan Prokurorluğu: Konstitusion statusu və fəaliyyət istiqamətləri” mövzusunda mühazirə deyib.

Mühazirədə tələbələrə Azərbaycan Prokurorluğunun tarixi, konstitusion statusu və müasir fəaliyyəti barədə məlumat verilib.

# Baş Prokurorluğun nümayəndə heyəti Özbəkistan Respublikasında işgüzar səfərdə olub






2025-ci il 1–5 oktyabr tarixlərində Azərbaycan Respublikasının Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin rəisi Fazil Həsənəliyev, rəis müavini Səbuhi Şahverdiyev və şöbə rəisi Nigar Qələndərli Özbəkistan Respublikasına işgüzar səfər etmişlər.

Səfər çərçivəsində nümayəndə heyəti Daşkənd şəhərində keçirilmiş Ədalət Akademiyasının açılış mərasimində iştirak etmişdir.

Tədbir Özbəkistan Respublikasının rəhbər şəxsləri, beynəlxalq təşkilatların, eləcə də bir sıra ölkələrin hüquq-mühafizə orqanlarını təmsil edən nümayəndələrin iştirakı ilə baş tutmuşdur.

Açılış mərasimində ədalət sistemində aparılan islahatlar, hakim və prokuror korpusunun peşəkarlığının artırılması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, hüquq təhsili və ixtisasartırma sahəsində müasir yanaşmaların tətbiqi kimi məsələlər müzakirə olunmuşdur.

Səfər zamanı nümayəndə heyəti Özbəkistan Respublikasının Ali Məhkəməsində və Hüquq-Mühafizə Akademiyasında olmuş, bu qurumların fəaliyyəti, həyata keçirilən islahatlar və qarşılıqlı əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparmışdır.

Nümayəndə heyəti həmçinin Ali Məhkəmə Şurası və Ədalət Akademiyasının təşkilatçılığı ilə keçirilmiş "Yeni Özbəkistanda yüksək ixtisaslı hakimlər korpusunun formalaşdırılması: islahatların səmərəliliyi və inkişaf perspektivləri" mövzusunda beynəlxalq konfransda iştirak etmiş və geniş məruzə ilə çıxış etmişdir.

Səfər çərçivəsində aparılmış görüşlər və çıxışlar Azərbaycan və Özbəkistan arasında hüquq-mühafizə, elmi-tədris və kadr hazırlığı sahəsində əməkdaşlığın daha da möhkəmlənməsinə, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsinə mühüm töhfə vermişdir.

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Özbəkistan Respublikasının Ədalət Akademiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb



2025-ci il oktyabrın 2-də Daşkənd şəhərində Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi ilə Özbəkistan Respublikasının Ədalət Akademiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Bu sənəd elmi-tədqiqat fəaliyyətinin inkişafı, tədrisin təşkili və təkmilləşdirilməsi, hüquqi biliklərin artırılması və beynəlxalq təcrübə mübadiləsi sahələrində tərəflərin qarşılıqlı əməkdaşlığını nəzərdə tutur.

Memorandum çərçivəsində birgə elmi layihələrin hazırlanması və həyata keçirilməsi, müqayisəli hüquqi tədqiqatların aparılması, tədris-metodiki materialların işlənməsi, seminar və konfransların təşkili, həmçinin innovativ yanaşmaların tətbiqi üzrə əməkdaşlıq planlaşdırılır.

Tədbirdə Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin rəisi Fazil Həsənəliyev, rəis müavini Səbuhi Şahverdiyev və şöbə rəisi Nigar Qələndərli iştirak ediblər.

Görüşdə Özbəkistan Respublikasının Ədalət Akademiyasının fəaliyyəti ilə yaxından tanış edilib, qarşılıqlı əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.



# Baş Prokurorluğun nümayəndəsi Niderlandda kibercinayətkarlıqla mübarizə ilə bağlı tədbirdə iştirak edib




Avropa İttifaqı və Avropa Şurasının birgə CyberEast+ layihəsi çərçivəsində 2025-ci il sentyabrın 29 və 30-u tarixlərində Niderland Krallığının Haaqa şəhərində İttifaqın Cinayət Ədliyyəsi üzrə Əməkdaşlıq Agentliyi (Eurojust) tərəfindən seminar keçirilib.

Sözügedən tədbirdə Baş Prokurorluğu Kriminalistika və informasiya texnologiyaları idarəsinin Kibertəhlükəsizlik şöbəsinin rəisi Aydın Verdiyev təmsil edib.

Seminarda, həmçinin, digər ölkələrin dövlət qurumlarının nümayəndələri və ekspertləri iştirak ediblər.

Seminarın əsas məqsədi Avropa Şurasının Kibercinayətkarlıq üzrə Budapeşt Konvensiyasının İkinci Əlavə Protokolunun müddəaları və mexanizmi barədə biliklərin artırılması, onun icrası prosesində, xüsusən də cinayətlərin araşdırılması və mühakimə olunmasında elektron sübutların transsərhəd mübadiləsində ortaya çıxan çətinliklər və qanunvericilikdəki qeyri-müəyyənliklərin müəyyənləşdirilməsi, eləcə də Avropa İttifaqına üzv və tərəfdaş dövlətlər tərəfindən tətbiq edilən qabaqcıl alətlər və mexanizmlərlə bağlı müsbət təcrübə mübadiləsinin aparılması olub.

Təcrübə mübadiləsi çərçivəsində Aydın Verdiyev ölkəmizdə qeyd edilən sahə üzrə həyata keçirilən islahatlar, habelə Baş Prokurorluğun fəaliyyəti barədə seminar iştirakçılarını məlumatlandırıb.



# Baş Prokurorluğun əməkdaşları beynəlxalq tədbirdə iştirak ediblər




7–9 oktyabr 2025-ci il tarixlərində Bakı şəhərində Avropa İttifaqı və Avropa Şurasının CyberEast+ birgə layihəsi çərçivəsində “Uşaqlara qarşı onlayn cinsi istismar və sui-istifadə (OCSEA) işlərinin araşdırılmasında açıq kəşfiyyat məlumatlarından (OSINT) istifadə” mövzusunda beynəlxalq tədbir keçirilib.

Tədbirin əsas məqsədi istintaq orqanlarının əməkdaşlarına uşaqlara qarşı onlayn cinsi istismar və sui-istifadə halları ilə mübarizədə açıq mənbələrdən əldə olunan kəşfiyyat məlumatlarının (OSINT) imkanları barədə geniş məlumat vermək, kibercinayətkarlıq və elektron sübutlar üzrə cinayət ədliyyəsinin təkmilləşdirilməsi, eləcə də kibermәkanda qanunun aliliyinin təmin edilməsinə dəstək göstərmək olub.

Tədbirdə Baş Prokurorluğunun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin Ekstradisiya və hüquqi yardım şöbəsinin prokuroru Murad Yusifli, Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru İlkin Qubəyli və  Kriminalistika və informasiya texnologiyaları idarəsinin Kibertəhlükəsizlik şöbəsinin prokuroru Aynur Əfəndiyeva iştirak edib.

İştirakçılar beynəlxalq təcrübə, qabaqcıl OSINT alətləri və onların istintaq proseslərində tətbiqi barədə fikir mübadiləsi aparmış, Avropa Şurası və Avropa İttifaqının ekspertlərinin təqdimatları zamanı açıq mənbələrdən məlumatların toplanması, təhlili və hüquqi baxımdan istifadəsi ilə bağlı müasir yanaşmalar barədə yeni biliklər əldə ediblər.



# Baş Prokurorluğun nümayəndəsi beynəlxalq tədbirdə iştirak edib



Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Səbuhi Alıyev 16-17 oktyabr tarixlərində Fransanın Strasburq şəhərində baş tutmuş Avropa Prokurorlarının Məşvərətçi Şurasının (CCPE) 20-ci Plenar iclasında iştirak edib.

Cinayət mühakimə sistemində prokurorluq orqanlarının mühüm rolu nəzərə alınaraq 2005-ci ildə Avropa Şurası Nazirlər Komitəsinin qərarı ilə təsis edilmiş Şura hər il prokurorluğun fəaliyyətinin müxtəlif istiqamətləri üzrə rəylər hazırlayaraq bu sahədə qabaqcıl standartların formalaşdırılmasına töhfə verir.

Avropa Şurasına üzv ölkələrin yüksək vəzifəli prokurorluq əməkdaşlarının qatıldığı cari ildəki iclas zamanı “Prokurorluq xidmətlərində müxtəliflik və inklüzivlik” mövzusunda rəy və digər tədqiqatlar müzakirə edilmiş, qurumun idarəetmə orqanlarına seçkilər keçirilib.

İrlandiya Respublikasının Dövlət Prokurorluq Xidmətinin təmsilçisi Raymond Briscoe növbəti bir il müddətinə Şuranın prezidenti seçilib.



# Baş Prokurorluğun nümayəndəsi Honqkonqda keçirilən beynəlxalq antikorrupsiya proqramında iştirak edib








2025-ci il 13–22 oktyabr tarixlərində Honqkonq, Çin Xalq Respublikasının Xüsusi İnzibati Ərazi vahidində Korrupsiyaya Qarşı Müstəqil Komissiyanın (ICAC) nəzdində fəaliyyət göstərən Honqkonq Korrupsiyaya Qarşı Beynəlxalq Akademiyası (HKIAAC) və Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC)-nin Korrupsiyaya qarşı Hüquq-Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsi (GlobE Network) tərəfindən birgə təşkil edilmiş "Dürüstlüyün gücləndirilməsi: Korrupsiyaya qarşı mübarizədə süni intellekt və texnologiyaların mənimsənilməsi" adlı Peşəkar İnkişaf Proqramı keçirilib.

Tədbirin məqsədi korrupsiyaya qarşı mübarizə sahəsində çalışan hüquq-mühafizə orqanı əməkdaşlarının bilik və bacarıqlarının artırılması, süni intellekt və müasir texnologiyalardan effektiv istifadə imkanlarının öyrənilməsi, həmçinin beynəlxalq əməkdaşlığın və təcrübə mübadiləsinin genişləndirilməsi olub.

Proqramda Azərbaycan, Bəhreyn, Benin, Botsvana, Çin (o cümlədən Honqkonq və Makao), Hindistan, Qazaxıstan, Koreya Respublikası, Madaqaskar, Malayziya, Mavritius, Monqolustan, Monteneqro, Nigeriya, Səudiyyə Ərəbistanı, Cənubi Afrika, Tailand və Zambiya kimi ölkələri təmsil edən təxminən 36 antikorrupsiya orqanı əməkdaşı iştirak edib.

Azərbaycan Respublikasını bu nüfuzlu beynəlxalq proqramda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əməliyyat təminatı şöbəsinin rəisi Rail Bayramlı təmsil edib.

İştirakçılar dürüstlük idarəçiliyi, korrupsiya araşdırmaları və innovativ texnologiyalardan istifadə sahəsində qabaqcıl təcrübə ilə tanış olaraq, süni intellektin antikorrupsiya fəaliyyətində tətbiqi, etik idarəetmə və rəqəmsal təhlükəsizlik mövzularında müzakirələr aparıblar.

10 gün davam edən proqram çərçivəsində iştirakçılar üçün mühazirələr, praktiki təlimlər və sahə ziyarətləri təşkil edilib.

Proqram çərçivəsində Rail Bayramlı Azərbaycanın korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirdiyi islahatlar, institusional və hüquqi mexanizmlər, həmçinin Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti və qabaqcıl təcrübələri barədə təqdimatla çıxış edib. O, ölkəmizdə dövlət idarəçiliyində şəffaflığın artırılması, elektron xidmətlərin tətbiqi, ictimai nəzarətin genişləndirilməsi və gənclər arasında antikorrupsiya mədəniyyətinin formalaşdırılması istiqamətində görülən işlər barədə iştirakçılara ətraflı məlumat verib.

# Avstriyanın paytaxtı Vyana şəhərində Beynəlxalq Antikorrupsiya Akademiyasının üzv dövlətlərin Assambleyasının 14-cü sessiyası keçirilib






2025-ci il 4 noyabr tarixində Birləşmiş Millətlər Təşkilatının Vyanadakı Ofisində Beynəlxalq Antikorrupsiya Akademiyasının (BAKA) Tərəflər Assambleyasının 14-cü sessiyası keçirilib.

Sessiyanın açılışında BAKA-nın dekanı və icraçı direktoru Slagjana Taseva Akademiyanın inkişaf istiqamətləri, əldə edilmiş nailiyyətlər və gələcək planlar barədə ətraflı məlumat verib.

Açılış mərasimində həmçinin 14-cü sessiyanın sədri qismində Monteneqronun Avstriyadakı səfiri Cyorce Raduloviç seçilib.

Tədbirdə ölkəmizi Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi İsfəndiyar Hacıyev və Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli təmsil ediblər.

Nümayəndələrimiz Assambleyada çıxış edərək ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində əldə etdiyi əsas nəticələr barədə məlumat təqdim ediblər.

Çıxışlarda "Elektron Prokurorluq" informasiya sistemi (EPIS) və onun cinayətkarlığa qarşı mübarizədə tətbiqi, ASAN xidmət modelinin yenilikləri, həmçinin korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı çərçivəsində prokurorluq orqanları tərəfindən həyata keçirilən maarifləndirmə tədbirləri, mövcud qanunvericilik islahatları və aktual çağırışlar barədə ətraflı məlumat verilib.

Bununla yanaşı, nümayəndə heyəti ölkəmizin ev sahibliyi etdiyi beynəlxalq tədbirlər barədə də məlumat verib. Qeyd olunub ki, COP-29 çərçivəsində keçirilmiş "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli panel müzakirələrdə, eləcə də Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və BMT-nin GlobE Şəbəkəsinin 6-cı plenar iclası zamanı qəbul edilmiş qərar və bəyanatlara toxunulub.

Təmsilçilərimiz həmçinin süni intellekt mövzusuna həsr olunmuş sessiyada da fəal iştirak edərək bu sahədə fikir mübadiləsi aparıblar.

Bundan başqa, sessiya çərçivəsində Akademiyanın gündəliyindəki məsələlər üzrə geniş fikir mübadiləsi aparılıb. İştirakçılar İdarə Heyətinə Seçkilər haqqında Qətnamə Layihəsini, 2026-cı il üçün nəzərdə tutulmuş büdcəni, BAKA-nın maliyyə dayanıqlığı haqqında Qətnamə Layihəsini, Ümumi məsələlər üzrə Qətnamə Layihəsini, eləcə də korrupsiyaya qarşı mübarizə və onun qarşısının alınması sahəsində mövcud problemləri və onların həlli yollarını müzakirə ediblər.

BAKA-nın Tərəflərin Assambleyasının 14-cü sessiyasında Azərbaycanın Avstriyadakı səfiri və BMT-nin Vyana bölməsində Daimi Nümayəndəsi Rövşən Sadıqbəyli iştirak edib.

# Baş Prokurorluğun nümayəndəsi "Geiger" işçi qrupunun iclasında iştirak edib



4–6 noyabr 2025-ci il tarixlərində Moldova Respublikasının paytaxtı Kişineu şəhərində INTERPOL-un Radioloji və Nüvə Terrorizminin Qarşısının Alınması üzrə Bölməsi (RNTPU) tərəfindən Qara dəniz və Cənubi Qafqaz regionları üzrə "Geiger" işçi qrupunun növbəti iclası keçirilib.

Azərbaycan, Belarus, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Türkiyə və Ukraynanın polis, prokurorluq, fövqəladə hallar, xüsusi xidmət və gömrük orqanlarını təmsil edən nümayəndələrin iştirak etdiyi tədbirdə Baş Prokurorluğu Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin Ekstradisiya və hüquqi yardım şöbəsinin prokuroru Murad Yusifli təmsil edib.

"Geiger" layihəsinin əsas məqsədi radioloji və nüvə terrorçuluğu təhlükələrinin qarşısının alınması istiqamətində regional və qlobal səviyyələrdə əməkdaşlığın, təcrübə və məlumat mübadiləsinin gücləndirilməsidir.

Bu məqsədlə tədbirdə iştirak edən nümayəndələr nüvə və radioloji təhlükəsizlik sahəsində öz təcrübələrini bölüşərək, milli qanunvericilikdə tətbiq olunan mexanizmlər, son dövrlərdə baş vermiş insidentlər və onlara qarşı görülmüş cavab tədbirləri barədə təqdimatlarla çıxış edib, həmçinin regional əməkdaşlığın və informasiya mübadiləsinin inkişaf etdirilməsi məsələlərini müzakirə ediblər.

Tədbir çərçivəsində nümayəndə heyətimizlə INTERPOL-un adıçəkilən layihə üzrə təşkilatçıları arasında görüş keçirilmiş, görüşdə nüvə və radioloji təhlükəsizlik sahəsində həyata keçiriləcək tədbirlərin əhəmiyyəti qeyd olunmaqla qarşılıqlı məlumat mübadiləsinin genişləndirilməsi perspektivləri müzakirə edilib.



# Baş Prokurorluğun nümayəndələri Buxarest şəhərində beynəlxalq tədbirdə iştirak edib






2025-ci il 10-12 noyabr tarixlərində Ruminiya Respublikasının Buxarest şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya regionu üzrə Anti-Korrupsiya Şəbəkəsinə üzv ölkələrin hüquq mühafizə orqanlarının 15-ci iclası keçirilib.

Birləşmiş Millətlər Təşkilatının, OECD-nin, BMT-nin və digər beynəlxalq təşkilatların, habelə xarici ölkələrin hüquq-mühafizə orqanlarının nümayəndələrinin iştirak etdiyi tədbirdə ölkəmizi Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin mühüm işlər üzrə müstəntiqləri Asiman Hacıyev və Murad Əzimov təmsil edib.

Tədbir dövründə ölkələr arasında korrupsiyaya qarşı mübarizə sahəsində qarşılıqlı əməkdaşlıq əlaqələrinin gücləndirilməsi, korrupsiya hüquqpozmalarının müəyyən edilməsində müxtəlif mənbələrin, o cümlədən analitik təhlillərin rolu, yüksək vəzifəli şəxslər tərəfindən törədilmiş korrupsiya hüquqpozmaları ilə bağlı aparılmış cinayət işlərinin istintaq metodikası, müasir praktiki yanaşmalar, korrupsiya faktlarının istintaqı zamanı xarici ölkələrlə qarşılıqlı əməkdaşlıq, əmlakın bərpası, korrupsiya, çirkli pulların yuyulması və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması cinayətləri üzrə aparılmış ən uğurlu istintaq nümunələri və digər mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.




Müzakirələr zamanı çıxış edən nümayəndələrimiz ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş islahatlar, bu sahədə ixtisaslaşmış qurumlarımızın fəaliyyəti və görülmüş işlər, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla qəbul edilmiş müvafiq qanunvericilik aktları və digər mühüm məsələlər barədə tədbir iştirakçılarını məlumatlandırıb.

Bundan başqa, tədbir zamanı iştirakçı dövlətlərin korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumlarının nümayəndələri tərəfindən istintaq təcrübələri bölüşülməklə müvafiq mövzular ilə bağlı hazırlanmış kazuslar üzrə birgə qrup işi həyata keçirilmiş, həmçinin beynəlxalq ekspertlər tərəfindən iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Baş Prokurorluğun nümayəndəsi Avropa Şurasının iclaslarında iştirak edib




Noyabrın 12-dən 14-dək Fransanın Strasburq şəhərində "Kibercinayətkarlıq haqqında" Budapeşt Konvensiyasının 33-cü plenar iclası, Şuranın "CyberEast+" layihəsinin Rəhbər Komitəsinin 3-cü iclası və "Kibercinayətkarlıq haqqında" Budapeşt Konvensiyasının İkinci əlavə protokolunun icrası ilə bağlı sənaye və xidmət təminatçıları ilə görüşü keçirilib.

Tədbirdə müxtəlif dövlətlərin prokurorluq, kibercinayətkarlıqla mübarizə və xüsusi xidmət orqanlarını təmsil edən nümayəndələrinin iştirak etdiyi bu tədbirdə Baş Prokurorluğu Kriminalistika və informasiya texnologiyaları idarəsinin şöbə rəisi Akif Məmmədyarov təmsil edib.

Tədbirlərin əsas məqsədləri şərqi tərəfdaşlıq ölkələrində kibercinayətkarlığa qarşı hüquq mühafizə sistemlərinin gücləndirilməsi, Budapeşt Konvensiyasına uyğun qanunvericilik quruluşlarının yaradılması, bu sahədə müvafiq dövlət orqanlarının (polis, məhkəmə, prokurorluq) səlahiyyətlərinin artırılması, eləcə də süni intellekt və virtual aktivlərin hüquqi tənzimlənməsi və digər əlaqədar məsələlərin müzakirəsi olub.

Qeyd olunan iclas və görüşlər çərçivəsində nümayəndəmiz sözügedən sahələrdə ölkəmizin təcrübəsi ilə bölüşüb, milli qanunvericilikdə tətbiq olunan mexanizmlər, son dövrlərdə baş vermiş insidentlər və onlara qarşı görülmüş cavab tədbirləri barədə tədbir iştirakçılarına məlumat verib.

## Baş Prokurorluğun əməkdaşları rəqəmsal kriminalistika və digər aktual mövzulara həsr edilmiş beynəlxalq tədbirdə iştirak edib



2025-ci il il noyabrın 18 və 19 tarixlərində Bakı şəhərində "CyberEast+" layihəsi çərçivəsində "İnsidentlərin və sübutların idarə edilməsi və rəqəmsal kriminalistika üçün uyğun alətlərin istifadəsi" mövzusunda beynəlxalq tədbir keçirilib.

Tədbirin əsas məqsədi kibercinayətkarlıqla mübarizə sahəsində fəaliyyət göstərən hüquqmühafizə orqanları tərəfindən rəqəmsal kriminalistika üzrə vasitə və alətlərdən istifadənin təkmilləşdirilməsi olub.

Tədbirdə Baş Prokurorluğun Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuror-metodisti Qədir Məmmədov, Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru İlkin Qulubəyli, Kriminalistika və informasiya texnologiyaları idarəsinin Kibertəhlükəsizlik şöbəsinin prokuroru Aynur Əfəndiyeva və həmin idarənin Kriminalistika şöbəsinin baş mütəxəssisi Sərdar Əliyev iştirak ediblər.

Tədbirə, həmçinin, Daxili İşlər və Ədliyyə Nazirliklərin, Dövlət Təhlükəsizliyi Xidmətinin, eləcə də Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin nümayəndələri iştirak edib.

İştirakçılar beynəlxalq təcrübə, açıq mənbələrdən məlumatların toplanması, təhlili və hüquqi baxımdan istifadəsi ilə bağlı müasir yanaşmalar barədə yeni biliklər əldə ediblər.

## Baş Prokurorluğun əməkdaşı beynəlxalq təlimdə iştirak edib




2025-ci il 18-20 noyabr tarixlərində Koreya Respublikasının paytaxtı Seul şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 4-cü Asiya-Sakit Okean Regional təlimi keçirilib.

Ümumilikdə 18 ölkədən 22 nümayəndənin qatıldığı tədbirdə Azərbaycan Respublikası Baş Prokurorluğunun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Elmir Zeynalov iştirak edib.

"Hüquq mühafizə orqanları tərəfindən süni intellekt texnologiyalarından istifadə olunması" mövzulu sessiyada təqdimatla çıxış edən Elmir Zeynalov bu sahədə beynəlxalq və milli təcrübələr, Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası, həmçinin prokurorluq orqanlarında həyata keçirilən islahatlar və Elektron Prokurorluq İnformasiya Sistemi barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Təlimdə həmçinin "Cinayətlərin istintaq olunması sahəsində əməkdaşlıq şəbəkələri", "Narkotiklər və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlıq", "Cinayət yolu ilə əldə olunmuş əmlakın bərpası sahəsində beynəlxalq əməkdaşlıq", "Xarici tərəfdaşlarla birbaşa əməkdaşlıq" və "Transmilli cinayətlərin istintaqı" mövzuları üzrə sessiyalar keçirilib, iştirakçılar arasında hər mövzu üzrə qarşılıqlı fikir mübadiləsi aparılıb.



# Elektron Prokurorluq İnformasiya Sistemi (EPİS) beynəlxalq mükafata layiq görülüb

2025-ci il 24-25 noyabr tarixlərində Niderland Krallığının Haaqa şəhərində Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsinin (EACN) 24-cü illik Peşəkar Konfransı və Baş Assambleyasının iclası keçirilib.

Tədbirdə EPAC/EACN-ə tərəfdaş olan 100-dən çox korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumların 180-dən artıq nümayəndəsi tədbirdə iştirak edib.

Konfransda ölkəmizi Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi İsfəndiyar Hacıyev və Baş İdarənin Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru Elşən Orucov təmsil edib.

Tədbirdə çıxış edən nümayəndələrimiz ölkəmizdə maliyyə cinayətlərinin istintaqı, aktivlərin qaytarılması, süni intellekt və müasir texnologiyaların tətbiqi sahəsində əldə edilmiş təcrübə barədə iştirakçıları məlumatlandırıb.








Eyni zamanda qeyd edilib ki, “Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası” rəqabətqabiliyyətli süni intellekt ekosisteminin yaradılması, süni intellekt həllərinin dövlət qurumlarının fəaliyyətində tətbiq edilməsi, milli məlumat infrastrukturunun genişləndirilməsi və bu sahədə analitik imkanların gücləndirilməsi kimi istiqamətləri özündə əks etdirir.

Bundan əlavə, nümayəndələrimiz EPAC/EACN tərəfindən təqdim olunan “Ən yaxşı antikorrupsiya təşəbbüsü” layihəsində iştirak etmiş və təqdim olunan “Elektron Prokurorluq İnformasiya Sisteminin” (EPİS) fəaliyyəti yüksək innovasiya kimi qiymətləndirilərək beynəlxalq sertifikata layiq görülüb.

Tədbirin sonunda Qurumun Baş Assambleyasının iclası çərçivəsində yeni 3 qurum təşkilatın üzvlüyünə qəbul edilmiş, Litvanın Xüsusi İstintaq Xidmətinin direktoru Linas Pernavas EPAC/EACN-nin sədri seçilib və təşkilatın növbəti illik konfransının Monteneqroda keçirilməsi qərara alınıb.

# Azərbaycan nümayəndə heyəti Özbəkistanda keçirilən beynəlxalq konfransda iştirak edib




26–29 noyabr 2025-ci il tarixlərində Özbəkistan Respublikası Baş Prokurorluğu yanında Hüquq-Mühafizə Akademiyasında "Müasir çağırışlar şəraitində hüququn aliliyinin təmin edilməsi: problemlər və həlli yolları" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.



Tədbir 34 dövlətdən 49 ekspertin iştirakı və ümumilikdə 250-dən çox xarici və beynəlxalq nümayəndənin qatılması ilə hüquq-mühafizə sahəsində qlobal əməkdaşlığın genişləndirilməsi baxımından mühüm beynəlxalq platforma kimi diqqət çəkib.



Konfransda Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndə heyəti, eləcə də Elm və Təhsil Nazirliyinin əməkdaşları iştirak edib. Azərbaycan nümayəndələri plenar iclasda və altı paralel panel sessiyasında çıxış edərək hüququn aliliyinin təmin edilməsi, transmilli cinayətkarlığa qarşı mübarizə, süni intellektin hüquqi tənzimlənməsi, kibertəhlükəsizlik, insan hüquqlarının müdafiəsi və korrupsiyaya qarşı mübarizə kimi prioritet istiqamətlər üzrə məruzələrlə çıxış edib.

Konfrans çərçivəsində Azərbaycan nümayəndə heyətinin bir sıra xarici və ixtisaslaşmış akademiyaların rəhbər və ekspert heyəti ilə ikitərəfli görüşləri keçirilib, hüquq-mühafizə, təlim-metodika, elmi tədqiqat və rəqəmsal transformasiya sahələrində gələcək əməkdaşlıq imkanları müzakirə edilib.

# Baş Prokurorluğun idarə rəisi beynəlxalq konfransda iştirak edib






2025-ci il 4 və 5 dekabr tarixlərində Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin rəisi Fazil Həsənəliyev Qazaxıstan Respublikasında səfərdə olaraq "Qanun və qayda – sabitlik və tərəqqinin əsasıdır" mövzusunda keçirilən elmi-praktiki konfransda iştirak edib.

Konfransın plenar iclasında çıxış edən Fazil Həsənəliyev "Prokurorların hazırlanmasında innovativ yanaşmalar: Azərbaycan təcrübəsi" mövzusunda məzmunlu məruzə ilə çıxış etmiş, prokurorluq orqanları üçün kadr hazırlığı sahəsində tətbiq edilən müasir modellər və yeni tədris metodikaları barədə geniş məlumat verib.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanları Akademiyasının fəaliyyəti, təşkilati strukturu, kadr hazırlığı sistemi, elmi-tədqiqat istiqamətləri və həyata keçirilən beynəlxalq layihələrlə ətraflı tanış olub. Görüşlər zamanı rəqəmsal tədris texnologiyaları, innovativ təhsil platformaları və hüquq-mühafizə orqanlarının əməkdaşları üçün nəzərdə tutulmuş ixtisasartırma proqramları xüsusi maraq doğurub.

Səfərin davamında Fazil Həsənəliyev Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm - Tədris Mərkəzində həyata keçirilən fəaliyyət barədə məlumat verib, müasir tədris formalarının inkişafı, elmi-metodik bazanın gücləndirilməsi və prokurorluq kadrlarının hazırlanması sistemində tədqiqat istiqamətlərinin genişləndirilməsi üzrə əldə olunmuş təcrübəni bölüşüb.



# Baş Prokurorluğun nümayəndəsi beynəlxalq forumda iştirak edib








Dekabrın 12-də Tacikistan Respublikasının Dövlət Maliyyə Nəzarəti və Korrupsiya ilə Mübarizə Agentliyinin təşkilatçılığı ilə Düşənbə şəhərində "Biznes sahəsində korrupsiya ilə mübarizə" mövzusunda Forum keçirilib.

Tacikistan Respublikası Baş nazirinin birinci müavininin açılışını etdiyi forumda həmin ölkənin İqtisadi İnkişaf və Ticarət naziri, eləcə də Hesablama Palatasının, Milli Bankın, Vergilər Komitəsinin və Gömrük Xidmətinin rəhbərləri çıxış ediblər.

Tədbirdə BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) və ATƏT-in nümayəndələri, həmçinin dünyanın 250-dək ölkəsindən aparıcı beynəlxalq ekspertlər iştirak ediblər.

Tədbirdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Ziya Hacıyev iştirak etmişdir.

Ziya Hacıyev "Biznes sahəsində korrupsiya ilə mübarizə üzrə beynəlxalq təcrübə və bu sahədə beynəlxalq təşkilatların rolu" adlı sessiyada "Biznes sahəsində korrupsiya ilə mübarizə: Azərbaycan təcrübəsi" mövzusunda təqdimatla çıxış edib.

Təqdimat zamanı son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin iqtisadiyyatının, o cümlədən sahibkarlığın inkişafına yönəlmiş islahatlar və sistem xarakterli addımlar barədə geniş məlumat verilib.

Qeyd edilib ki, kommersiya hüquqi şəxslərinin dövlət qeydiyyatı prosedurlarının sadələşdirilməsi, vəzifəli şəxslərlə təmasların minimuma endirilməsi və şəffaflığın artırılması məqsədilə hüquqi şəxslərin qeydiyyatının 1 gün ərzində həyata keçirilməsi və sənədlərin tam elektron formada təqdim olunması təmin edilib.

Bununla yanaşı, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin qarşısının alınması istiqamətində mövcud inzibati və cinayət-hüquqi mexanizmlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Özəl sektorda şəffaflıq standartlarının inkişafı və qanunvericiliyin beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsinin "2022–2026-cı illər üçün Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi üzrə Milli Fəaliyyət Planı"nda nəzərdə tutulduğu tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Təqdimatdan sonra tədbir iştirakçılarının sualları cavablandırılıb.

# Azərbaycan Respublikasının Baş Prokurorluğu korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təsisatların idarəetmə orqanlarında təmsilçiliyini davam etdirir



2025-ci il 13 dekabr tarixində Qətər Dövlətinin Doha şəhərində Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) 15-ci Ümumi Yığıncağı və İllik Konfransı, 14 dekabr tarixində isə BMT-nin Korrupsiyaya Qarşı Mübarizə Aparan Hüquq-Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE Şəbəkəsi) İdarəetmə Komitəsinin 11-ci iclası keçirilib.

Hər iki tədbirdə Azərbaycan Respublikasının Baş Prokurorluğunu Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin rəisi Natiq Eyvazov təmsil edib.

80-dən artıq ölkənin korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən 250-yədək ekspert, dövlət nümayəndələri və elm adamlarının iştirak etdiyi IAACA-nın “Gələcək üçün dürüstlük: İnnovasiya, əməkdaşlıq və korrupsiyaya qarşı fəaliyyət” mövzusuna həsr olunmuş İllik Konfransı çərçivəsində bu sahədə müasir texnologiyaların tətbiqi, o cümlədən süni intellekt əsaslı alətlərdən istifadə, istintaq proseslərinin rəqəmsallaşdırılması və institusional potensialın gücləndirilməsi məsələləri müzakirə olunub.

Konfrans çərçivəsində ictimai iştirakçılığın artırılması, maarifləndirmə, dürüstlük mədəniyyətinin təşviqi, eləcə də beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi əsas prioritetlər kimi vurğulanıb.

Həmçinin, antikorrupsiya qanunvericiliyində yeniliklər, BMT-nin Korrupsiya Əleyhinə Konvensiyasının icrası, məlumat analitikası, aktivlərin qaytarılması və maliyyə araşdırmalarında texnologiyanın rolu diqqət mərkəzində olub.

Konfransda müxtəlif ölkələrin təcrübələri təqdim edilib və regional əməkdaşlığın əhəmiyyəti qeyd edilib.

Təşkilatın Ümumi Yığıncağında isə qurumun institusional inkişafı və strateji istiqamətləri müzakirə olunub. Yığıncaq çərçivəsində 12 yeni anti-korrupsiya qurumunun üzvlüyə qəbulu təsdiqlənib, bununla da IAACA-nın üzvlərinin sayı bütün BMT regional qruplarını əhatə edən 192 quruma çatıb.

Toplantıda regional fəaliyyətlərə dair hesabatlar təqdim edilib, xüsusilə Afrika regionunda üzvlük, potensialın artırılması, beynəlxalq əməkdaşlıq və ictimai iştirak sahəsində görülən işlər qeyd olunub. Eyni zamanda, Braziliyanın Baş Nəzarət Orqanı və BƏƏ-nin Milli Hesabatlılıq Qurumunun üç il müddətinə İcraiyyə Komitəsinin yeni üzvləri kimi seçilməsi təsdiqlənib.

Sonda Ümumi Yığıncaqda BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə Ofisi (UNODC) və digər beynəlxalq tərəfdaşlarla əməkdaşlıq, təlim və potensialın artırılması proqramları, eləcə də IACA-nın əsas strateji prioritetləri - beynəlxalq tərəfdaşlıqların gücləndirilməsi, təcrübə mübadiləsi və üzvlərin onlayn platformalar vasitəsilə əlaqələndirilməsi bir daha vurğulanıb.

Bundan başqa, 132 ölkədən korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış 245 dövlət qurumunun üzv olduğu, İdarəetmə orqanında 15 ölkədən biri kimi Azərbaycan Respublikasının da təmsil edildiyi GlobE Şəbəkəsinin sözügedən Komitəsinin iclasında bu beynəlxalq təsisatın institusional inkişafı və gələcək



fəaliyyət istiqamətləri müzakirə olunub. İclas çərçivəsində Şəbəkə tərəfindən korrupsiyanın transmilli təzahürlərinə qarşı təqdim olunan alət və xidmətlər, o cümlədən Təhlükəsiz Kommunikasiya Platformasının fəaliyyətinin daha da təkmilləşdirilməsi üzrə məlumatlar təqdim edilib və ötən dövrdə əldə olunan nəticələr ətrafında fikir mübadiləsi aparılıb.

Toplantıda 2026-cı il üçün illik iş planı hazırlanmaqla Şəbəkənin effektivliyinin ölçülməsi üzrə təklif olunan çərçivə, törəmə orqanların səlahiyyət dairəsinə dair sənədlərin yenilənməsi, həmçinin 2026-cı ildə Vyanada keçirilməsi nəzərdə tutulan Yeddinci Plenar İclasın mövzusu və strateji məqsədləri müzakirə edilib, bu çərçivədə nümayəndəmiz tərəfindən tədbirin işinə qarşılıqlı hüquqi yardım məsələlərinin optimallaşdırılmasına dair bir sıra təkliflər irəli sürülüb.

Eyni zamanda, İdarəetmə Komitəsinin üzvləri ölkəmizin 2025-ci ilin 19–23 may tarixlərində Altıncı Plenar İclasa və İdarəetmə Komitəsinin Onuncu Görüşünə yüksək səviyyəli ev sahibliyini xatırlayaraq bu müsbət təcrübənin gələcək iclaslarda da davam etdirilməsinin vacibliyini vurğulayıb, Bakıda keçirilmiş həmin tədbirlər çərçivəsində qəbul edilmiş vacib qərar və digər sənədlərin icrası istiqamətində müzakirələr aparıblar.

İclas Şəbəkə çərçivəsində beynəlxalq əməkdaşlığın və operativ əlaqələndirmənin əhəmiyyətinin vurğulanması ilə yekunlaşıb.




## Türk Ədliyyə Təlim Şəbəkəsinə üzv ölkələrin nümayəndələri ilə Baş Prokurorluqda görüş keçirilib

"Türk dövlətlərinin dövlət hakimiyyətinin təşkili və konstitusion əsasları" mövzusunda beynəlxalq konfrans çərçivəsində 19 dekabr 2025-ci il tarixində Azərbaycan Respublikası Baş Prokurorluğunda Türk Ədliyyə Təlim Şəbəkəsinə üzv ölkələrin nümayəndələrinin iştirakı ilə görüş və tanışlıq tədbiri keçirilib.

Tədbirdə Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyə Respublikalarının ədliyyə və prokurorluq sahəsində təlim fəaliyyəti ilə məşğul olan qurumlarının nümayəndələri iştirak ediblər.

Görüş zamanı Azərbaycan Respublikası Baş prokurorunun müavini Heydər Məmmədov salamlama nitqi ilə çıxış edərək Türk dövlətləri arasında tarixi bağlara, ortaq dilə və mənəvi dəyərlərə əsaslanan əməkdaşlığın hüquq mühafizə orqanları və hüquq təhsili sahəsində əhəmiyyətini vurğulayıb. Çıxışda hüququn aliliyinin





möhkəmləndirilməsi və müasir çağırışlara uyğun peşəkar kadr hazırlığında institusional əməkdaşlığın rolu qeyd olunub.

Bildirilib ki, Türk Ədliyyə Təlim Şəbəkəsi və Türk Dövlətləri Əməkdaşlıq Şurası çərçivəsində formalaşan əməkdaşlıq prokurorluq və ədliyyə sahəsində fəaliyyət göstərən tədris və akademik qurumlar arasında sistemli əlaqələrin inkişafına töhfə verir.

Tədbir çərçivəsində fikir mübadiləsi aparılıb, əməkdaşlığın perspektiv istiqamətləri müzakirə olunub, iştirakçılar Azərbaycan Prokurorluğunun Tarixi Muzeyi ilə tanış olublar. Görüş xatirə fotoşəkillərinin çəkilməsi ilə yekunlaşıb.







## Heydər Məmmədov: Prokurorluq orqanlarında son illər müasir məzmunlu islahatlar davam etməkdədir



Bunu 2025-ci il oktyabrın 10-da jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Baş prokurorunun müavini, II dərəcəli dövlət ədliyyə müşaviri Heydər Məmmədov deyib.

O bildirib ki, bu istiqamətlərdən kadr islahatları bizim üçün müstəsna əhəmiyyətə malikdir.

"Həmin kadr islahatları, sistemli şəkildə və strateji ardıcıllıqla həyata keçirilir, və bunun təməl prinsipində müasir və yüksək nəzəri biliyə malik, istedadlı Azərbaycan gənclər dayanır.

Bu istiqamətdə, tam aşkarlıq şəraitində və şəffaf prosedurlara əsaslanan işə qəbulla bağlı müsabiqə bizim üçün vacib bir alətdir və mühüm mexanizmdir.

Heydər Məmmədov bildirib ki, bu gün 50 vakant ştat vahidi üzrə növbəti 27-ci müsabiqə həyata keçirilir:

"Bildiyiniz kimi hazırda müsabiqənin I mərhələsi, yəni test mərhələsi keçirilir. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə həyata keçirilən bu test mərhələsində, bu gün prokurorluğa qəbul olmaq istəyən 320 namizəd iştirak edir".

## Baş prokurorun müavini beynəlxalq təşkilatın direktorunu qəbul edib



Noyabrın 14-də Baş prokurorun müavini Elmar Camalov Mərkəzi Asiya Narkotik Vasitələrin, Psixotrop Maddələrin və Onların Prekursorlarının Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Regional İnformasiya Əlaqələndirmə Mərkəzinin (CARICC) direktoru Mahmud Xamidovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Elmar Camalov qonaqları səmimi salamlayaraq CARICC ilə Azərbaycanın hüquq-mühafizə orqanları arasında qarşılıqlı faydalı əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsinin zəruriliyini diqqətə çatdırıb.

Cinayətkarlığın yeni təzahürlərinin təhlükə səviyyəsindən danışan Elmar Camalov, üzv ölkələrin aidiyyəti qurumları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi, kibercinayətlər və qaçaqmalçılıqa mübarizə sahəsində bütün mümkün beynəlxalq əməkdaşlıq platformaları vasitəsilə əməkdaşlığın vacibliyini vurğulayıb və bu sahədə CARİCC-in əhəmiyyətini qeyd edib.

Elmar Camalov ölkəmizin ev sahibliyi ilə keçirilən beynəlxalq tədbirlər barədə qonaqlara məlumat verərək son dövrlərdə Azərbaycanın regional mərkəzə çevrildiyini vurğulayıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən Mahmud Xamidov Azərbaycanda keçirilən hüquqi islahatlar, o cümlədən prokurorluq orqanlarının inkişafını vurğulayıb.

Daha sonra CARİCC-in təşkilati məsələləri müzakirə olunmaqla gələcək əməkdaşlıq perspektivləri barədə söhbət aparılıb.

Görüş zamanı tərəfləri maraqlandıran digər məsələlər də müzakirə olunub.

Daha sonra qonaqlar Baş Prokurorluğun Elm-Tədris Mərkəzi, həmçinin 44 günlük Müharibəyə həsr olunmuş muzeyin fəaliyyəti ilə tanış olublar.

Sonda xatirə fotoşəkili çəkilib.







## Baş Prokurorluqda "Şahid Dindirmə Müsabiqəsi"nin təlim mərhələsi keçirilib



Gələcək hüquqşünasların prokurorluq orqanlarının fəaliyyətinə marağının artırılması və onların prokurorluq orqanlarında xidmətə cəlb olunmalarının təşviqi məqsədilə oktyabrın 13-də Baş Prokurorluqda Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının (ELSA) Bakı İctimai Birliyinin "Şahid Dindirmə Müsabiqəsi"nin təlim mərhələsi keçirilib.

Tədbirdə ölkənin aparıcı ali təhsil müəssisələrinin hüquq ixtisası üzrə təhsil alan 90-a yaxın tələbəsi iştirak edib. Təlim prosesinə Baş Prokurorluğun müxtəlif idarələrinin təcrübəli əməkdaşları cəlb olunaraq "şahid dindirmə" istintaq hərəkətinin taktiki xüsusiyyətləri, prosessual rəsmiləşdirilmə qaydaları və onun istintaq praktikasında rolu barədə iştirakçılara ətraflı məlumat verib, praktik nümunələr əsasında çıxışlar ediblər.

Sonda təlim prosesində iştirak edən Baş Prokurorluq əməkdaşlarına Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının (ELSA) Bakı İctimai Birliyi tərəfindən təşəkkürnamələr təqdim edilib.







# Baş Prokurorluqda "Şahid Dindirmə Müsabiqəsi"nin final mərhələsi keçirilib

2025-ci ilin "Konstitusiya və Suverenlik ili" çərçivəsində, Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının (ELSA) Bakı İctimai Birliyi ilə əməkdaşlıq çərçivəsində Baş Prokurorluqda "Şahid Dindirmə Müsabiqəsi" təşkil edilib.

Müsabiqə bir neçə mərhələdən ibarət olmaqla 13 oktyabr tarixində təlim mərhələsi, 22 oktyabr tarixində yarımfinal, 29 oktyabr tarixində isə final mərhələsi üzrə həyata keçirilib.

Bu təşəbbüs Konstitusiya və suverenlik dəyərlərinin hüquqşünas gənclər arasında daha dərindən mənimsənilməsi, eləcə də praktiki-peşəkar bacarıqların inkişafı məqsədini daşıyır.

Final mərhələsində iştirakçılar real istintaq situasiyalarını canlandıraraq şahid ifadələrinin əldə edilməsi, sual vermə taktikasının qurulması, prosessual davranış və hüquqi əsaslandırma sahəsində bilik və bacarıqlarını nümayiş etdirib.

Müsabiqənin qiymətləndirilməsi hakimlər qismində çıxış edən Baş Prokurorluğun əməkdaşları tərəfindən aparılıb.

Müsabiqənin yekununda qaliblər müəyyən edilib, iştirakçılara sertifikatlar və xatirə hədiyyələri təqdim olunub.








# "Konstitusiya və Dövlət Suverenliyi: Hüquqi Aspektlər və Çağırışlar" mövzusunda Baş Prokurorluq tərəfindən regional konfrans Xaçmazda keçirilib





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin ölkədə "Konstitusiya və Suverenlik İli" elan olunması ilə əlaqədar olaraq, prokurorluq orqanları tərəfindən silsilə tədbirlər həyata keçirilir.

Bu tədbirlərin davamı olaraq, oktyabrın 17-də Xaçmaz şəhərində Azərbaycan Respublikasının Baş Prokurorluğunun təşkilatçılığı ilə "Konstitusiya və Dövlət Suverenliyi: Hüquqi Aspektlər və Çağırışlar" mövzusunda regional konfrans keçirilib.

Tədbirdə dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının, media orqanlarının nümayəndələri, hüquq-mühafizə orqanlarının əməkdaşları iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Xaçmaz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, onun əziz xatirəsini ehtiramla yad ediblər. Daha sonra iştirakçılar Xaçmaz şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən guşə ilə tanış olublar.

Konfrans başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və Azərbaycanın suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi Orxan İsayev açılış nitqi ilə çıxışında konstitusiya prinsiplərinin müdafiəsində prokurorluğun funksional rolunu açıqlayıb. O bildirib ki, hüquqi dövlətin möhkəmləndirilməsi üçün qanunun aliliyinin təmin olunması və dövlət ittihamçılarının obyektiv mövqedə dayanması əsas prioritetlərdəndir.

Xaçmaz rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev çıxışında rayonda hüquqi maarifləndirmə işlərinin davamlı xarakter aldığını vurğulayıb. O, gənclərin hüquqi şüurunun artırılması və konstitusiya dəyərlərinin aşılanmasının vacibliyini qeyd edib.

Xaçmaz rayon prokuroru Rəşad Məmmədov isə çıxışında prokurorluq orqanlarının dövlət suverenliyinin qorunmasında üzərinə düşən vəzifələrdən danışıb. O bildirib ki, müasir dövrdə hüquqi çağırışlara çevik və adekvat reaksiya vermək üçün prokurorluq orqanlarının peşəkar resursları və institusional imkanları durmadan inkişaf etdirilməlidir.

Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Anar Eyvazov öz çıxışında Azərbaycan Ordusunun dövlət suverenliyinin qorunmasında oynadığı rol, informasiya təhlükəsizliyi sahəsində görülən tədbirlər və dezinformasiyalara



qarşı mübarizə mexanizmləri barədə ətraflı məlumat verib.

Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov "Konstitusiya və Suverenlik İli" çərçivəsində həyata keçirilən hüquqi maarifləndirmə tədbirləri və ictimaiyyətlə effektiv ünsiyyətin vacibliyi barədə danışıb. Kənan Zeynalov hüquqi informasiyanın cəmiyyətə düzgün və vaxtında çatdırılmasının dövlətə olan inamın möhkəmləndirilməsində önəmli rol oynadığını qeyd edib.

"Dövlət suverenliyinin və konstitusiya dəyərlərinin qorunmasında medianın rolu" mövzusunda çıxış edən ARB Günəş və ARB Şimal televiziyalarının direktoru Məhsim Məhsimov medianın hüquqi maarifləndirmə və ictimai nəzarət baxımından mühüm vasitə olduğunu qeyd edib. O, jurnalistlərin hüquqi biliklərinin artırılmasının və medianın dövlət orqanları ilə əməkdaşlığının vacibliyini vurğulayıb.

Konfransda I Qarabağ müharibəsi veteranı, Xaçmaz şəhər sakini Sabir Məmmədov da çıxış edərək, 1994-cü il aprelin 9-da Ulu Öndər Heydər Əliyevin Füzuli-Horadiz istiqamətindəki hərbi hissələrdə əsgərlərlə görüşü zamanı onunla şəxsən tanış olduğu haqda unudulmaz xatirələrini bölüşüb. Sabir Məmmədov həmin tarixi görüşlərin Azərbaycan Ordusunun döyüş ruhunun möhkəmlənməsində və torpaqlarımızın müdafiəsi uğrunda mübarizə əzminin daha da yüksəlməsində müstəsna rol oynadığını xüsusi vurğulayıb.

Tədbir çərçivəsində dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və media nümayəndələri arasında hüquqi əməkdaşlıq, ictimai nəzarət mexanizmlərinin təkmilləşdirilməsi və gənclər arasında hüquqi şüurun artırılması istiqamətində geniş fikir mübadiləsi aparılıb, konkret təkliflər səsləndirilib.

Konfransın sonunda "Xalqın adamı" adlı sənədli film nümayiş olunub və tədbir iştirakçıları ilə xatirə fotoşəkili çəkilib.





# Baş Prokurorluq tərəfindən təhsil işçiləri üçün “Antikorrupsiya davranış modelinin formalaşdırılması” mövzusunda təlim keçirilib





“Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın icrası çərçivəsində Baş Prokurorluq və Elm və Təhsil Nazirliyinin birgə əməkdaşlığı ilə 2025-ci il oktyabrın 17-də Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşları üçün “Antikorrupsiya davranış modelinin formalaşdırılması” mövzusunda təlim təşkil edilib.

Təlimdə 125 nəfər təhsil işçisi iştirak edib. Baş Prokurorluğun təcrübəli əməkdaşları tərəfindən korrupsiya hüquqpozmalarına qarşı mübarizənin əhəmiyyəti, korrupsiyanın mahiyyəti və təsirləri, şəffaf idarəçilik prinsipləri, həmçinin preventiv tədbirlərin rolu və nəticələri barədə ətraflı məlumat təqdim olunub.

Təlim interaktiv müzakirə formatında keçib, iştirakçıların çoxsaylı sualları cavablandırılıb, mövzu üzrə praktiki yanaşmalar, milli qanunvericiliyin tətbiqi xüsusiyyətləri və effektiv antikorrupsiya davranış modelləri geniş izah olunub.



## Baş Prokurorluqda mülki müdafiə üzrə tədbir keçirilmişdir





Oktyabrın 17-də "Baş Prokurorluğun 2025-ci il üçün mülki müdafiə üzrə tədbirlər planı"na müvafiq olaraq Təşkilat və icraya nəzarət idarəsi və Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili baş idarəsinin birgə təşkilatçılığı ilə Baş Prokurorluğun müvafiq idarələrinin rəis müavinlərinin iştirak etdiyi "Rəhbər heyətin mülki müdafiə məşqi"nə dair tədbir keçirilmişdir.



Tədbirdə çıxış edən Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəis müavini Rövşən Əhmədov mülki müdafiə sahəsində bilik və vərdişlərə yiyələnmənin əhəmiyyətini vurğulayaraq, prokurorluq orqanlarında bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlərdən bəhs etmişdir.

FHN-in əməkdaşları İlham Söhbətov və Əli Mirzəyev çıxış edərək tədbirin keçirilməsində əsas məqsədin Mülki müdafiə planının dəqiqləşdirilməsi və təkmilləşdirilməsi, rəhbər heyətin bacarıqlarının artırılması olduğunu qeyd etmişdirlər.

## Baş Prokurorluq tərəfindən Mərkəzi Bank işçiləri üçün maarifləndirici təlim keçirilib





"Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın icrasını təmin etmək məqsədilə 2025-ci il oktyabrın 23-də Baş Prokurorluğun əməkdaşları tərəfindən Azərbaycan Respublikasının Mərkəzi Bankının əməkdaşları üçün "Antikorrupsiya davranış modelinin formalaşdırılması" mövzusunda maarifləndirici təlim təşkil edilib.

Təlim zamanı iştirakçılara korrupsiya və vəzifə cinayətlərinə qarşı mübarizə sahəsində dövlət siyasətinin əsas istiqamətləri, bu sahədə mövcud qanunvericiliyin tətbiqi mexanizmləri, eləcə də etik davranış prinsiplərinin və şəffaf idarəetmənin əhəmiyyəti barədə ətraflı məlumat verilib.

Eyni zamanda, tədris proqramı çərçivəsində "Korrupsiya və vəzifə cinayətləri və onlara qarşı mübarizə", "Kibercinayətlərin aşkar edilməsi və istintaq metodikası", eləcə də "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə" mövzularında mühazirələr keçirilib, iştirakçılara praktiki nümunələr əsasında izahlar təqdim olunub.

## Yetkinlik yaşına çatmayanlarla psixoloji davranış qaydaları ilə bağlı Baş Prokurorluqda təlim keçirilib

Baş Prokurorluğun Elm-Tədris Mərkəzində 2025-ci il oktyabrın 27-də cinayət təqibindən kənar icraatlar üzrə fəaliyyət göstərən prokurorluq işçiləri üçün "Yetkinlik yaşına çatmayanlarla psixoloji davranış qaydaları" mövzusunda təlim keçirilmişdir.



Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin Psixologiya kafedrasının ixtisaslı alimləri və peşəkar təcrübəyə malik müəllimləri tərəfindən dinləyici qismində iştirak edən 101 nəfər prokurorluğun əməliyyat işçilərinə yetkinlik yaşına çatmayanlarda deviant davranışa səbəb olan risk faktorları və onlarla psixoloji işin prinsipləri, yetkinlik yaşına çatmayan





qanunpozanların motivlər sistemi və düzgün ifadə vermək qabiliyyətinin psixoloji tərəflərinin nəzəri və praktiki istiqamətləri barədə dinləyicilərə geniş məlumat verilib.

Həmçinin, təlimin gedişində yetkinlik yaşına çatmayan uşaqların hüquqları və onların beynəlxalq müdafiəsi, həmçinin uşaq və yeniyetmələrdə rast gəlinən davranış pozuntuları, psixoloji əlaqənin qurulması barədə dinləyiciləri maraqlandıran suallar ətrafında müzakirələr aparılıb.

## Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə ilə bağlı təlim keçirilib

Azərbaycan Respublikası Prezidentinin 2023-2025-ci illəri əhatə edən "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair Milli Fəaliyyət Planı"nın icrası çərçivəsində, 2025-ci il 28-30 oktyabr tarixlərində Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən Cinayət Məcəlləsinin 193-1-ci maddəsi üzrə ibtidai araşdırma səlahiyyəti olan qurumların əməkdaşları üçün həmin əməlin istintaqının səmərəliyinin artırılması məqsədi ilə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması əməli üzrə istintaq: sübutetmənin xüsusiyyətləri" mövzusunda üç günlük təlim keçirilib.



Təlim mövzularının tədrisi Baş Prokuror-

luğun əməkdaşları ilə bərabər, Maliyyə Monitorinqi Xidmətinin (MMX) təcrübəli əməkdaşları tərəfindən də həyata keçirilib.



Tədbir zamanı iştirakçılara cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması ilə mübarizə sahəsində həyata keçirilmiş dövlət proqramları və beynəlxalq əməkdaşlıq barədə geniş məlumat verilib.

Həmçinin, CM-nin 193-1 maddəsi ilə nəzərdə tutulmuş əməlin tövsifi aspektləri, istintaqda sübutetmə xüsusiyyətləri, maliyyə istintaqının və predikativ cinayətlər üzrə paralel maliyyə araşdırmasının aparılması qaydaları kimi vacib mövzular üzrə nəzəri və praktiki tədris keçirilib.

Tədbir, iştirakçıları maraqlandıran suallar ətrafında aparılan səmərəli müzakirələrlə başa çatıb.

## Baş Prokurorluqda Zəfər Gününün 5-ci ildönümünə həsr olunmuş tədbir keçirilib



Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunmasının 5-ci ildönümü münasibətilə 30 oktyabr 2025-ci il tarixində Baş Prokurorluğun Elm-Tədris Mərkəzində "Gənclərin gözü ilə: Zəfər, tarix, hüquq və ədalət" mövzusunda çıxış formatlı müsabiqə təşkil edilib. Tədbir 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Qələbənin mənəvi-siyasi əhəmiyyətinin gənclər arasında daha dərindən təbliği, vətənpərvərlik ruhunun gücləndirilməsi və hüquqi ədalət dəyərlərinin möhkəmləndirilməsi məqsədi daşıyırdı.

Tədbirdə 14 ali təhsil müəssisəsini təmsil edən professor-müəllim heyəti, tələbə və kursantlar, eləcə də prokurorluq əməkdaşları iştirak etmişlər. Ümumilikdə 300-ə yaxın gəncin iştirakı ilə keçirilən müsabiqə Zəfərə aparan tarixi yolun, Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sarsılmaz iradəsinin, bu mübarizədə Şanlı Azərbaycan Ordusunun rəşadətinin, eləcə də xalq-dövlət həmrəyliyinin müstəsna rolunu bir daha vurğulayıb.

Çıxışlar münsiflər heyəti tərəfindən qiymətləndirilib və müsabiqənin nəticələrinə uyğun olaraq iştirakçılara nominasiyalar təqdim olunub.





# Baş Prokurorluqda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin əməkdaşları üçün antikorrupsiya mövzusunda təlim keçirilib





2025-ci il 31 oktyabr tarixində Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyindəki qurumlarda çalışan 49 əməkdaş üçün “Antikorrupsiya davranış modelinin formalaşdırılması” mövzusunda əyani təlim təşkil edilmişdir.

Təlimdə Baş Prokurorluğun təcrübəli əməkdaşları təlimçi qismində çıxış edərək dinləyicilərə cinayət mühakimə icraatında prokurorluğun rolu və səlahiyyətləri, korrupsiya cinayətlərinin mahiyyəti, yaranma mexanizmləri və onların cəmiyyətə vurduğu sosial-mənəvi ziyan, korrupsiya hüquqpozmalarına görə nəzərdə tutulan məsuliyyət tədbirləri, eləcə də bu sahədə preventiv yanaşmaların və şəffaf idarəçilik modelinin tətbiqi barədə geniş məlumat vermişlər.

Tədbir zamanı korrupsiyaya qarşı mübarizə prosesinin yalnız hüquqi deyil, həm də etik davranış və idarəetmə mədəniyyəti ilə sıx bağlı olduğu qeyd edilmiş, dövlət qurumlarında insan resurslarının və fəaliyyət proseslərinin şəffaf, nəzarətolunan və hesabatlı şəkildə təşkili istiqamətində müasir yanaşmalar müzakirə olunmuşdur.

Dinləyicilər təqdim olunan mövzulara yüksək maraq göstərmiş, interaktiv müzakirələrdə fəal iştirak etmiş və onları maraqlandıran suallar təlimçilər tərəfindən ətraflı şəkildə cavablandırılmışdır.



# Medianın İnkişafı Agentliyinin əməkdaşları üçün antikorrupsiya mövzusunda təlim keçirilib







2025-ci il noyabrın 14-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin inzibati binasında Agentliyin əməkdaşları üçün "Antikorrupsiya davranış modelinin yaradılması və antikorrupsiya mədəniyyətinin formalaşdırılması" mövzusunda təlim keçirilib.

Tədbir "Konstitusiya və Suverenlik İli" çərçivəsində təşkil olunub və əməkdaşların antikorrupsiya sahəsində nəzəri biliklərinin artırılması, hüquqpozmalara görə məsuliyyət məsələləri barədə məlumatlılığın gücləndirilməsi, həmçinin dövlətçilik prinsiplərinə uyğun etik davranış vərdişlərinin möhkəmləndirilməsi məqsədi daşıyıb.

Təlimdə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları təlimçi qismində iştirak ediblər.

Təlim zamanı dinləyicilərə korrupsiyanın anlayışı, mahiyyəti, onun cəmiyyətə təsiri, korrupsiyaya qarşı mübarizənin zəruriliyi, o cümlədən korrupsiya ilə əlaqədar hüquqpozmalar və həmin hüquqpozmalara görə məsuliyyət tədbirləri barədə geniş məlumat verilib.

Bununla yanaşı, təlim çərçivəsində Konstitusiyanın dövlət idarəçiliyində rolu, dövlət suverenliyinin qorunmasında hüquqi prinsiplər, həmçinin milli qanunvericilik kontekstində etik davranış qaydaları və mövzu ilə bağlı digər aktual məsələlər üzrə müzakirələr aparılıb.

## Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları üçün antikorrupsiya təlimi keçirilib








17–18 noyabr 2025-ci il tarixlərində Kənd Təsərrüfatı Nazirliyinin 160 əməkdaşı üçün Baş Prokurorluğun Elm-Tədris Mərkəzində "Korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları" mövzusunda təlim keçirilib.

Baş Prokurorluğun peşəkar əməkdaşlarının təlimçi qismində iştirak etdiyi təlimdə korrupsiyanın anlayışı, hüquqi məsuliyyət, etik davranış normaları və digər aktual məsələlər geniş izah edilib.

Dinləyicilər mövzular üzrə fəal iştirak edib, praktiki məsələlərlə bağlı suallar səsləndirib və həmin suallar təlimçilər tərəfindən ətraflı şəkildə cavablandırılıb.

## Konstitusiya və Suverenlik İli çərçivəsində Gəncədə ətraf mühitin mühafizəsinə həsr olunmuş elmi-praktiki konfrans keçirilib



Konstitusiya və Suverenlik İli çərçivəsində ölkəmizdə ekoloji təhlükəsizlik, təbii sərvətlərin mühafizəsi və ətraf mühitə qarşı hüquq pozuntularının qarşısının alınması məqsədilə 2025-ci il noyabrın 21-də Gəncə şəhərində "Müasir ekoloji çağırışlar və ətraf mühitin mühafizəsi sahəsində hüquqi tənzimləmənin aktual problemləri" mövzusunda elmi-praktiki konfrans təşkil olunub.

Tədbirdən əvvəl iştirakçılar Gəncə Memorial Kompleksini ziyarət edib, şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq abidənin önünə gül dəstələri qoyub, Gəncə terroru zamanı həlak olanların ruhuna dualar oxuyublar. Ardınca konfrans nümayəndələri görkəmli dövlət xadimi Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq Ulu Öndərin xatirəsinə ehtiramlarını bildiriblər.





Gəncə Dövlət Universitetində keçirilən konfrans Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə açılıb. Daha sonra Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov tədbir iştirakçılarını salamlayıb və konfransın dövlətin ekoloji siyasəti, habelə Konstitusiya və Suverenlik İlinin prioritetləri baxımından xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini Səbuhi Şahverdiyev ekoloji təhlükəsizlik və davamlı inkişaf istiqamətində dövlət siyasətinin aktual məqamları, həmçinin müasir çağırışlar barədə çıxış edib. Mərkəzin şöbə rəisi, hüquq üzrə fəlsəfə doktoru Nigar Qələndərli Konstitusiya və Suverenlik İli çərçivəsində ətraf mühitin mühafizəsi sahəsində hüquqi tənzimləmənin əsas istiqamətlərini və ekoloji münasibətlərə konstitusion-hüquqi yanaşmalar barədə məlumat verib.

Gəncə şəhər prokurorunun müavini Nicat Şahverdiyev ekoloji hüquq pozuntularının aşkar edilməsi və cinayət təqibi tədbirlərinin təkmilləşdirilməsi üzrə görülən işləri diqqətə çatdırıb.

Elmi-praktiki konfransda çıxış edən Baş Prokurorluğun Mətbuat Xidmətinin böyük prokuroru Kənan Zeynalov Azərbaycan Prokurorluğunun COP29 və COP30 proseslərində iqlim idarəçiliyi üzrə müzakirələrdə fəal iştirak etdiyini vurğulayaraq ekoloji hüquqpozmalara qarşı mübarizənin effektivliyinin güclü kommunikasiya, media və ali təhsil müəssisələri ilə əməkdaşlıq, habelə müasir monitorinq və məlumatlandırma mexanizmlərinin inkişaf etdirilməsi ilə mümkün olduğunu qeyd edib.



Cinayət təqibindən kənar icraatlar idarəsinin böyük prokuroru Şəbnəm Məmmədova ekoloji hüquq pozuntularına dair mövcud tendensiyalar və nəzarət mexanizmlərindən söz açıb.

Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin prokuroru Tural Mürsəlov sağlam ətraf mühitdə yaşamaq hüququnun insan hüquqları sistemində xüsusi yer tutduğunu qeyd edib.

Gəncə Dövlət Universitetinin Ekologiya və təbiəti mühafizə kafedrasının müdiri, professor Sevda Əhmədova, AMEA-nın müxbir üzvü, GDU-nun Botanika kafedrasının müdiri professor Vaqif Novruzov, GDU-nun Ekologiya və təbiəti mühafizə kafedrasının müəllimi Vüsal Musayev konfrans zamanı əhəmiyyətli mövzular üzrə çıxış ediblər.

Konfrans zamanı səmərəli müzakirələr aparılıb, sonda isə xatirə fotoşəkli çəkilib.

# “Konstitusiya və Suverenlik İli” çərçivəsində Lənkəranda ətraf mühitin mühafizəsinə həsr olunmuş elmi-praktiki konfrans keçirilib







“Konstitusiya və Suverenlik İli” çərçivəsində ölkəmizdə ekoloji təhlükəsizlik, təbii sərvətlərin qorunması və ətraf mühitə qarşı hüquq pozuntularının qarşısının alınması mövzusunda maarifləndirmə və hüquqi təbliğat tədbirlərinin genişləndirilməsi məqsədilə prokurorluq orqanları tərəfindən keçirilən tədbirlərin davamı olaraq, noyabrın 21-də Lənkəran Dövlət Universitetində “Müasir ekoloji çağırışlar və ətraf mühitin mühafizəsi sahəsində hüquqi tənzimləmənin aktual problemləri” mövzusunda elmi-praktiki konfrans təşkil olunub.

Konfrans başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi iştirakçılar tərəfindən bir dəqiqəlik sükutla yad olunub.

Daha sonra çıxış edən Lənkəran Dövlət Universitetinin prorektoru Ramiz Şəmmədov tədbir iştirakçılarını salamlayaraq ekoloji təhlükəsizlik sahəsində dövlət siyasətinin dayanıqlı inkişaf strategiyasının əsas tərkib hissəsi olduğunu bildirib, “Konstitusiya və Suverenlik İli”nin hədəfləri çərçivəsində ətraf mühitin mühafizəsi üzrə hüquqi mexanizmlərin möhkəmləndirilməsi və ekoloji mədəniyyətin artırılmasının xüsusi prioritet təşkil etdiyini vurğulayıb.

Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəis müavini İsmayıl Qayıbov çıxışında qlobal və regional ekoloji çağırışlar, iqlim dəyişmələrinin yaratdığı risklər və ekoloji təhlükəsizlik sahəsində dövlətin institusional yanaşması barədə məlumat verərək ətraf mühitin qorunması sahəsində hüquqpozmalara qarşı kompleks prokuror nəzarəti mexanizmlərinin gücləndirilməsinin hazırkı mərhələdə strateji əhəmiyyət daşıdığını qeyd edib.

Cinayət təqibindən kənar icraatlar idarəsinin böyük prokuroru Namiq Əliyev ekoloji hüquq pozuntularının aşkarlanması, təqsirli şəxslərin məsuliyyətə cəlb olunması və bu prosesdə operativ məlumat mübadiləsinin əhəmiyyəti barədə çıxış edərək müasir texnoloji vasitələrdən istifadə cinayət tərkibli ekoloji pozuntuların aşkar olunmasında mühüm rol oynadığını diqqətə çatdırıb.

Elmi-praktiki konfransda çıxış edən Baş Prokurorluğun Mətbuat Xidmətinin prokuroru Əbdülsəməd Əzizli Azərbaycanın COP29 və COP30 proseslərində aktiv iştirakının ölkənin ekoloji diplomatiyasının güclənməsinə töhfə verdiyini bildirərək ekoloji hüquq pozuntularına qarşı mübarizənin effektivliyinin cəmiyyətlə səmərəli kommunikasiya, media, vətəndaş cəmiyyəti və ali təhsil müəssisələri ilə əməkdaşlığın gücləndirilməsindən keçdiyini vurğulayıb.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Elmi-tədqiqat işinin təşkili şöbəsinin prokuroru Sarıtel Əliyeva Konstitusiya və Suverenlik İli çərçivəsində ekoloji münasibətlərin konstitusion-hüquqi əsaslarından danışaraq ətraf mühitin mühafizəsi hüququnun insan hüquqlarının tərkib hissəsi kimi xüsusi yer tutduğunu və bu sahədə normativ-hüquqi islahatların davam etdirildiyini bildirib.

Konfrans zamanı geniş müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb və sonda xatirə fotoşəkli çəkilib.

# “Korrupsiyaya qarşı mübarizə üzrə maarifləndirmə” mövzusunda təlim keçirilib








"Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə əlaqədar olaraq dövlət idarəçiliyində qanunçuluğun möhkəmləndirilməsi, hüquqi maarifləndirmənin genişləndirilməsi və korrupsiyaya qarşı mübarizənin institusional əsaslarının gücləndirilməsi məqsədilə Abşeron–Xızı Regional Mədəniyyət İdarəsinin əməkdaşları üçün “Korrupsiyaya qarşı mübarizə üzrə maarifləndirmə” mövzusunda təlim təşkil olunub.

Təlim Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin və Sumqayıt şəhər prokurorluğunun əməkdaşlarının iştirakı ilə 25 noyabr 2025-ci il tarixdə həyata keçirilib.

Tədbir zamanı iştirakçılara korrupsiyanın anlayışı və mahiyyəti, onun sosial-hüquqi nəticələri, korrupsiyaya qarşı mübarizənin dövlət siyasətində prioritet istiqamətləri, korrupsiya hüquqpozmalarının növləri, həmin hüquqpozmalara görə tətbiq olunan məsuliyyət tədbirləri, mədəniyyət sahəsinə xas korrupsiya riskləri, eləcə də bu sahədə profilaktik və institusional mexanizmlər barədə geniş məlumat verilib.

Sonda iştirakçılar mövzular üzrə fikir mübadiləsi apararaq təqdim edilən mövzularla bağlı suallarını təlimçilərə ünvanlayıblar.

# “İKT sahəsində biliklərinin artırılması və rəqəmsal məkanda risklərin müəyyən edilməsi” mövzusunda təlim keçirilib

Baş Prokurorluğun Elm-Tədris Mərkəzində 2025-ci il 24-25 noyabr tarixlərində “İKT sahəsində biliklərinin artırılması və rəqəmsal məkanda risklərin müəyyən edilməsi” mövzusunda genişmiqyaslı təlim keçirilib.

Təlim Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası” çərçivəsində həyata keçirilib.

Əyani və distant formada keçirilmiş tədbirdə 40 nəfər prokurorluq əməkdaşı iştirak edib.

Təlim çərçivəsində Baş Prokurorluğun və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tərəfindən açıq mənbəli kəşfiyyat üsulları (OSİNT), Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair strategiyasının məqsədləri və prioritet istiqamətləri, kiberməkanda maddi cinayət hüquq normaları və onların beynəlxalq hüquqda tənzimlənməsi, kibercinayətkarlıqla və kibertəhdidlərə qarşı mübarizə imkanları, eləcə də kibertəhlükəsizliyin ümumi anlayışı kimi mövzular tədris edilib.

Sonda isə dəyirmi masa formatında müzakirələr aparılıb.










# Baş Prokurorluq tərəfindən Mingəçevirdə "Hüquqi Dövlət və Suverenlik: Konstitusion Yanaşma" mövzusunda regional konfrans keçirilib



Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Mingəçevir şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, onun əziz xatirəsini ehtiramla yad ediblər.

Mötəbər tədbir başlamazdan əvvəl Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması ilə əlaqədar olaraq, prokurorluq orqanları tərəfindən respublikanın müxtəlif bölgələrində silsilə tədbirlər həyata keçirilir.

Bu tədbirlərin davamı olaraq, dekabrın 23-də Mingəçevir şəhərində Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə "Hüquqi Dövlət və Suverenlik: Konstitusion Yanaşma" mövzusunda regional konfrans təşkil olunub.

Konfransda dövlət qurumlarının nümayəndələri, qeyri-hökumət təşkilatlarının təmsilçiləri, media orqanlarının nümayəndələri, hüquq-mühafizə orqanlarının əməkdaşları, elm və təhsil ictimaiyyətinin üzvləri iştirak ediblər.

Açılış hissəsində çıxış edən Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova konstitusion hüquqların təmin olunması, insan hüquq və azadlıqlarının müdafiəsi və hüquqi dövlət prinsipinin möhkəmləndirilməsində prokurorluq orqanlarının rolundan bəhs edib. O, hüquqi mexanizmlərin beynəlxalq standartlara uyğunlaşdırılmasının və institusional islahatların əhəmiyyətini vurğulayıb.

Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov çıxışında dövlət suverenliyinin möhkəmləndirilməsində mərkəzi və yerli icra hakimiyyəti orqanları arasında koordinasiyalı fəaliyyətin vacibliyinə diqqət çəkib, regionlarda hüquqi maarifləndirmə işlərinin davamlı xarakter daşıdığını bildirib.






Mingəçevir şəhər prokuroru Pərvin Quliyev çıxışında prokurorluq orqanlarının Konstitusiyanın aliliyinin təmin olunmasında, qanunun düzgün tətbiqində və dövlət maraqlarının qorunmasında üzərinə düşən vəzifələrdən danışıb.

Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Anar Eyvazov öz çıxışında Azərbaycan Ordusunun dövlət suverenliyinin təmin edilməsində oynadığı mühüm roldan, informasiya təhlükəsizliyi sahəsində görülən tədbirlərdən və dezinformasiyalara qarşı mübarizə mexanizmlərindən bəhs edib.



Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Şimal-Qərb Regional Mərkəzinin rəhbəri Pərviz Məmmədov insan hüquqlarının qorunmasının hüquqi dövlətin əsas sütunlarından biri olduğunu vurğulayaraq, vətəndaş müraciətlərinin araşdırılması, hüquqi maarifləndirmə və ictimai nəzarət mexanizmlərinin əhəmiyyətinə toxunub.



Mingəçevir Dövlət Universitetinin rektoru Anar Eminov çıxışında ali təhsil müəssisələrinin hüquqi dövlət və konstitusion dəyərlərin gənclər arasında təbliğində mühüm rol oynadığını qeyd edib, hüquq sahəsində elmi-tədqiqat işlərinin və akademik–praktik əməkdaşlığın genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

Şəhid Milli Qəhrəman Natiq Qasımovun qardaşı Nofəl Qasımov çıxış edərək, dövlət suverenliyinin şəhidlərin canı və qanı bahasına təmin edildiyini bildirib, şəhid ailələrinə və qazilərə göstərilən yüksək dövlət qayğısının bu dəyərlərə verilən önəmin bariz nümunəsi olduğunu qeyd edib, eyni zamanda bu müqəddəs irsin və suverenlik dəyərlərinin gələcək nəsillərə ötürülməsinin hər bir vətəndaşın mənəvi borcu olduğunu vurğulayıb.

Konfrans çərçivəsində dövlət qurumları, qeyri-hökumət təşkilatları və media nümayəndələri arasında hüquqi əməkdaşlığın gücləndirilməsi, ictimai nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, gənclər arasında hüquqi şüurun artırılması və konstitusion dəyərlərin təbliği istiqamətində geniş fikir mübadiləsi aparılıb, konkret təkliflər səsləndirilib. Eyni zamanda prokurorluq orqanları ilə media və qeyri-hökumət təşkilatları arasında işgüzar əlaqələrin möhkəmləndirilməsi, fəaliyyət istiqamətləri üzrə keyfiyyət və səmərəliliyin daha da artırılması, məlumat mübadiləsi zamanı mövcud qanunvericiliyin tələblərinə əməl olunmasının vacibliyi, eləcə də istintaq sirri təşkil edə biləcək məlumatların ictimailəşdirilməsinin qarşısının alınması məqsədilə jurnalistlərlə ətraflı müzakirələr aparılıb.

Sonda konfrans iştirakçıları ilə xatirə fotoşəkili çəkilib.

# Hakim vəzifəsinə təyin edilmiş prokurorluq işçiləri ilə Baş Prokurorluqda görüş keçirilib



2025-ci il dekabrın 29-da hakim vəzifəsinə qəbulla bağlı müsabiqədə uğur qazanaraq Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2025-ci il tarixli Sərəncamı ilə Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi təyin olunan Zəfər Ramazanov, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi təyin olunan Vüqar Məhərrəmov və Abşeron Rayon Məhkəməsinin hakimi təyin edilmiş Elvin Teymur-zadə Baş prokurorun birinci müavini Elçin Məmmədov tərəfindən qəbul edilib.







Tədbiri giriş sözü ilə açan Baş prokurorun birinci müavini hakim vəzifəsinə təyin edilmiş Zəfər Ramazanov, Vüqar Məhərrəmov və Elvin Teymur-zadəyə gələcək fəaliyyətlərində uğurlar arzulayaraq müasir Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın Ümummilli lideri Heydər Əliyevin milli dövlətçilik siyasətinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları nəticəsində ölkəmizdə ədalət mühakiməsinin səmərəliliyinin artırılması sahəsində işin müasir çağırışlara uyğunlaşdırıldığını, yeni reallıqlara uyğun olaraq Azərbaycan gəncliyinin hərtərəfli inkişafı istiqamətində mühüm addımlar atılmaqla bütün sferalarda onların fəal iştirakına geniş imkanlar yaradılmaqla onlara hərtərəfli diqqət və qayğı göstərildiyini, dövlət idarəetməsində yaxından iştirakının təmin edildiyini və bu istiqamətdə görülən tədbirlərin bu gün də uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Qəbul zamanı Zəfər Ramazanov, Vüqar Məhərrəmov və Elvin Teymur-zadəyə Baş prokuror Kamran Əliyev tərəfindən qüsursuz fəaliyyətlərinə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində əldə etdikləri nailiyyətlərə görə təltif olunduqları Azərbaycan Respublikası Prokurorluğunun Fəxri fərmanları təqdim edilib.

Zəfər Ramazanov, Vüqar Məhərrəmov və Elvin Teymur-zadə çıxış edərək onlara göstərilən yüksək etimada və diqqətə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, habelə prokurorluq orqanlarında formalaşmalarında və peşəkar inkişaflarında xüsusi rolu olan Baş prokuror cənab Kamran Əliyevə və prokurorluğun rəhbər heyətinə dərin minnətdarlıqlarını ifadə ediblər.



Onlar prokurorluq orqanlarında qazandıqları zəngin bilik və təcrübənin gələcək hakimlik fəaliyyətlərində qanunun aliliyinin təmin olunmasına, ədalətli və obyektiv məhkəmə qərarlarının qəbuluna mühüm töhfə verəcəyini vurğulayaraq, üzərlərinə düşən məsuliyyətin fərqində olduqlarını, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı qorunması istiqamətində bütün bilik və bacarıqlarını səfərbər edəcəklərini bildiriblər.

# Bakı Dövlət Universitetinin magistratura pilləsi üzrə təhsil alan tələbələri Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olub

2025-ci il oktyabrın 20-də Bakı Dövlət Universitetinin Magistratura təhsil pilləsinin “Transmilli cinayət hüququ "ixtisaslaşması üzrə “Transmilli cinayət-axtarış hüququ” fənni və “Cinayət hüququ və kriminologiya”ixtisaslaşması üzrə “Cinayətlərin tövsifinin nəzəri əsasları” fənni üzrə I kurs tələbələri Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olublar.





Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev ölkədə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən kompleks hüquqi və institusional tədbirlər, o cümlədən korrupsiya cinayətlərinin qarşısının alınması, profilaktik və maarifləndirici fəaliyyətlərin təşkili, ictimai nəzarət mexanizmlərinin tətbiqi, vətəndaşların hüquqi şüurunun artırılması istiqamətində görülən işlər barədə tələbələrə ətraflı məlumat verib.



İdarə rəisi, eyni zamanda Baş İdarənin əməliyyat-axtarış fəaliyyəti, onun hüquqi əsasları və praktik tətbiq mexanizmləri barədə danışıb.

Bildirilib ki, Baş İdarənin əməliyyat-axtarış fəaliyyəti korrupsiya xarakterli hüquqpozmaların aşkar edilməsi, qarşısının alınması və istintaq üçün sübutların toplanması məqsədilə həyata keçirilir. Əməliyyat-axtarış fəaliyyəti zamanı konstitusion prinsiplərə əməl edilməsi və qanunçuluğun qorunması idarənin fəaliyyətində əsas prioritetlərdəndir.



Sonda tələbələrin sualları cavablandırılıb, onlara praktiki məsələlərlə bağlı geniş məlumat verilib və hüquq mühafizə orqanlarında işləmək perspektivləri barədə fikir mübadiləsi aparılıb.

## Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən antikorrupsiya təlimi keçirilib




İqtisadi Əməkdaşlıq Təşkilatının Regional Planlaşdırma Şurasının hibrid formatda keçirilən 35-ci iclasının nəticələrinə dair növbəti antikorrupsiya təlimi cari ilin 25 noyabr tarixində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həyata keçirilib.

Tədbirdə Baş İdarənin Preventiv tədbirlər və təhqiqat idarəsinin rəisi Natiq Eyvazov açılış nitqi ilə çıxış edib, daha sonra Baş İdarənin müxtəlif struktur bölmələrini təmsil edən əməkdaşlar təlimçi qismində iştirak edərək (ingilis dilində) öz bilik və təcrübələrini iştirakçılarla bölüşüblər.

Təlimçi qismində Baş İdarənin böyük prokuroru Ziya Hacıyev, Baş İdarənin Mütəxəssis təhlilləri şöbəsinin rəis müavini Kamil Kamilli, Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokurorları Pirayə Səmədzadə-Əliyeva və Əflatun Hüseynov, Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Arzu Zeynalabdıyeva, Baş İdarənin İstintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi Asiman Hacıyev, Baş İdarənin Əməliyyat idarəsinin mühüm işlər üzrə əməliyyatçısı Orxan Qazızadə çıxış edib.

Təlimdə korrupsiyaya qarşı mübarizənin institusional əsasları, preventiv mexanizmlər, təhqiqat və istintaq prosedurları, məlumatların təhlili, əməliyyat tədbirlərinin təşkili və informasiya təminatı kimi mövzular əhatə edilmiş, praktik nümunələr və beynəlxalq təcrübəyə əsaslanan yanaşmalar təqdim edilərək, iştirakçıların sualları cavablandırılıb.

## Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində ADA Universitetinin tələbələrinin iştirakı ilə maarifləndirici görüş keçirilib



2025-ci il 29 noyabr tarixində ADA Universitetinin hüquq ixtisası üzrə təhsil alan tələbələri Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında xüsusi maarifləndirici səfərdə olub.

Gənc hüquqşünasların dövlət orqanlarının, xüsusilə də şəffaflığın təminatında mühüm rol oynayan bu qurumun fəaliyyətinə göstərdiyi maraq nəzərə alınaraq təşkil edilən tədbiri giriş nitqi ilə açan Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Hüquq mühafizə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi sektorunun müdiri, Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvü Vüsal İsayev tələbələrin peşəkar biliklərinin dərinləşdirilməsinə və gələcəyin kadr potensialının korrupsiyaya qarşı mübarizə sahəsindəki qabaqcıl təcrübələr və hüquqi mexanizmlərlə tanış edilməsinə xidmət edən bu tipli maarifləndirici tədbirlərin əhəmiyyətini yüksək qiymətləndirib.

Tədbirdə Baş İdarənin əməkdaşları tərəfindən ölkədə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən kompleks hüquqi və institusional tədbirlər, o cümlədən korrupsiya cinayətlərinin qarşısının alınması, profilaktik və maarifləndirici fəaliyyətlərin təşkili, vətəndaşların hüquqi şüurunun artırılması istiqamətində görülən işlər, Baş İdarənin strukturu, funksiyaları ilə bağlı, habelə idarə və şöbələrinin fəaliyyəti barədə geniş məlumat verilmiş, korrupsiyaya qarşı mübarizə sahəsində əməliyyat-axtarış tədbirləri və Baş İdarənin fəaliyyətinə dair təqdimat nümayiş etdirilib.

Tələbələr Baş İdarənin inzibati binasında yaradılan müasir iş şəraiti, istintaq otaqları, normativ-hüquqi

aktlarla zəngin və digər dövlət orqanlarının elektron kitabxanalarına çıxışla təmin edilmiş kitabxana, müasir proqram təminatı ilə təchiz edilmiş “161 - Qaynar xətt” əlaqə mərkəzi, "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi (İAMAS), əməliyyatların idarə edilməsi mərkəzi, vətəndaşların qəbulu otağı və kriminalistika avtomobili ilə yaxından tanış olub.

Sonda prokurorluq orqanlarının fəaliyyət istiqamətləri üzrə fikir mübadiləsi aparılaraq tələbələri maraqlandıran suallar ətraflı şəkildə cavablandırılıb.





## Azərbaycan Respublikasının Prokurorluğu tərəfindən korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi ilə bağlı maarifləndirici tədbirlər davam etdirilir

Azərbaycan Respublikasının Prokurorluğu tərəfindən korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi ilə bağlı maarifləndirici tədbirlər keçirilir.





Belə ki, cari ilin 9 dekabr tarixində “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın icrası ilə əlaqədar Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin əməkdaşları, eləcə də özəl sektor subyektləri üçün “İSO 37001:2025 - Rüşvətxorluğa qarşı idarəetmə sistemləri beynəlxalq standartının təbliği” mövzusunda təlim keçirilib.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Mütəxəssis təhlilləri şöbəsinin rəis müavini Kamil Kamillinin təlimçi qismində iştirak etdiyi tədbirdə dinləyicilərə korrupsiyanın anlayışı və onun cəmiyyətə təsiri, korrupsiyaya qarşı mübarizə sahəsində preventiv tədbirlərin rolu, bu sahədə qabaqcıl beynəlxalq təcrübə, özəl sektorda antikorrupsiya standartları, korrupsiyaya qarşı mübarizədə “İSO 37001” beynəlxalq standartının tətbiqinin əhəmiyyəti və digər aktual məsələlər tədris edilib.

Qarşılıqlı müzakirələr formatında baş tutmuş təlimin sonunda dinləyicilər tərəfindən verilmiş suallar təlimçi tərəfindən ətraflı şəkildə cavablandırılıb.

# Hərbi prokuror kursantlarla görüşüb




2025-ci il sentyabrın 26-da Anım Günü münasibətilə Hərbi Prokurorluqda Hərbi Prokurorluğun və Heydər Əliyev adına Hərbi İnstitutun rəhbərliyinin iştirakı ilə həmin təhsil müəssisəsinin kursantları ilə birlikdə tədbir keçirilib.

Əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülərək, dahi insanın parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Ardınca Hərbi Prokurorluğun nəzdində fəaliyyət göstərən "Soyqırım" memorial muzeyi ziyarət edilib.

Tədbirdən öncə mərasim iştirakçıları tarixi şəxsiyyət Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərin əziz və unudulmaz xatirələrini bir dəqiqəlik sükutla anıb, qazilərə şəfa diləyiblər.

Tədbirdə çıxış edən Baş prokurorun müavini - hərbi prokuror, ədliyyə polkovniki Bəhruz Əhmədov bildirib ki, müasir Azərbaycanın memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin müdrik siyasətini zamanın tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin dərin düşüncəsi və yorulmaz fəaliyyəti ilə xalqın müdrikliyinin və əzmkarlığının vəhdəti sayəsində dünyada baş verən neqativ proseslərə rəğmən, dövlətimiz qüdrətlənir, işğaldan azad olunmuş ərazilərimiz də daxil olmaqla regionlarımız hərtərəfli inkişaf edir.

Hərbi prokuror vurğulayıb ki, qazanılan ardıcıl uğurlara Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli və zəngin fəaliyyəti mühüm töhfələr verir.

Ölkəmizin sürətli inkişafının Silahlı Qüvvələrin qüdrətlənməsinə də rəvac verdiyini deyən Hərbi prokuror bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığının ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşıb ki, bu da hərbi uğurlarımızı şərtləndirib və nəticədə düşmənin 2020-ci il sentyabrın 27-dən başlayaraq törətdikləri növbəti təxribatlarının qarşısının alınması, eləcə də antiterror əməliyyatları zamanı gedən döyüşlərdə müdrik və qətiyyətli Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri öz gücünü, qüdrətini, hərbçilərimiz isə peşəkarlığını və yüksək döyüş hazırlığını əyani şəkildə sübut edib və zəfərlərimiz təmin olunub.

Çıxış edən digər şəxslər Vətən müharibəsindən, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə olunan tarixi qələbədən bəhs ediblər. Eyni zamanda, çıxışçılar hərbçilərə göstərilən diqqət və qayğıya görə Hərbi prokurora və prokurorluğun kollektivinə təşəkkür bildiriblər.

Sonda Hərbi prokuror Bəhruz Əhmədov təhsil göstəriciləri yüksək olan kursantlara hədiyyələr təqdim edib. Kursantlar isə minnətdarlıqlarını və görüşdən məmnunluqlarını ifadə ediblər.

## Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri hospitalları ziyarət edib



2025-ci il sentyabrın 29-da 1 oktyabr – Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü ərəfəsində Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri aidiyyati hərbi qurumların yüksək rütbəli hərbi qulluqçuları ilə birlikdə Silahlı Qüvvələrin hospitallarında müalicə olunan hərbçilərə baş çəkiblər.

Ziyarətçilər Baş Prokurorluğun, o cümlədən Hərbi prokurorluğun rəhbərliyinin salamlarını çatdırıb, müalicə olunan hərbi qulluqçuların səhhəti ilə maraqlanıb, tezliklə sağlamlıqlarına qovuşaraq xidmət yerlərinə qayıtmalarını arzulayıblar.

Ziyarət əsnasında ölkə başçısının rəhbərliyi ilə dövlətimizin əldə etdiyi uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, Vətən müharibəsində əldə olunan möhtəşəm qələbədən, eləcə də hərbçilərə göstərilən yüksək diqqət və qayğıdan bəhs edilib.

Ardınca, hərbi qulluqçulara hədiyyələr təqdim edilib.

Hospitalların kollektivi və orada müalicə olunan hərbi qulluqçular yaradılan şəraitə, həmçinin göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə ediblər.

## Hərbi Prokurorluqda milli prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümünə həsr olunmuş tədbir keçirilib



2025-ci il sentyabrın 30-da Azərbaycan Respublikası Hərbi Prokurorluğunun mərkəzi aparatında Respublika Hərbi Prokurorluğunun, Bakı Hərbi Prokurorluğunun əməkdaşlarının və prokurorluğun veteranlarının, eləcə də media nümayəndələrinin iştirakı ilə milli prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümünə həsr olunmuş mərasim keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən “Heydər Əliyev guşəsi”ndə Azərbaycan

xalqının Ümummilli Liderinin büstü önünə gül dəstələri düzərək, dünya şöhrətli şəxsiyyətin əziz və unudulmaz xatirəsinə dərin ehtiramlarını ifadə ediblər.

Mərasim iştirakçıları ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla anıb, yaralılara şəfa diləyiblər.

Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-mayoru Bəhruz Əhmədov prokurorluq əməkdaşlarını, prokurorluğun veteranlarını, o cümlədən mərasim iştirakçılarını 1 oktyabr - prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə təbrik edərək onlara xoş arzularını çatdırıb.

Bildirilib ki, Azərbaycan prokurorluq orqanları 80 il ərzində dövlətin etibarlı sütunlarından biri kimi fəaliyyət göstərsə də, prokurorluq işçilərinin peşə bayramının qeyd edilməsi ilə əlaqədar dövlət səviyyəsində heç bir təşəbbüs göstərilməyib, bununla əlaqədar hər hansı rəsmi tədbir görülməyib. Məhz Ulu Öndər Heydər Əliyevin 1998-ci il iyulun 17-də imzaladığı Sərəncamla 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı gününün təsis edilməsi tarixi ədalətin bərpa olunması ilə yanaşı, hakimiyyət orqanları arasında xüsusi yeri olan prokurorluğa dövlət səviyyəsində göstərilən qayğının ifadəsi və onun roluna rəsmi münasibətin təzahürü olub.

Həmçinin, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın firavan gələcəyinə hesablanmış mükəmməl siyasətini dövrün tələblərinə uyğun yeni müstəvidə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əldə olunmuş böyük uğurlardan və görülən müstəsna işlərdən, dövlətimizin daha da qüdrətlənməsindən, bəhs edilərək vurğulayıb ki, qazanılan uğurlara Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti misilsiz töhfələr verir.

Prokurorluğa, o cümlədən Hərbi Prokurorluğa dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan bəhs edən Bəhruz Əhmədov bunun işin səmərəliliyini şərtləndirdiyini qeyd edərək, Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun uğurlu fəaliyyətindən danışıb.

Sonda xidməti vəzifələrini nümunəvi icra etdiklərinə görə mükafatlandırılmış prokurorluq əməkdaşlarının bir qisminə Hərbi prokuror tərəfindən təltiflər, prokurorluğun bir qrup veteranlarına isə hədiyyələr təqdim olunub.



## Hərbi Prokurorluqda Zəfər gününə həsr olunmuş tədbir keçirilib



2025-ci il noyabr ayının 7-də Hərbi Prokurorluqda Silahlı Qüvvələrin müxtəlif qoşun növlərinin Vətən müharibəsinin iştirakçısı olmuş bir qrup hərbi qulluqçusunun iştirakı ilə 8 Noyabr – Zəfər Gününün 5-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

Tədbirdən əvvəl Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub, dahi liderin əziz xatirəsi ehtiramla yad edilib.

Daha sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, dövlət himni səsləndirilib.

Tədbiri açıq elan edən Azərbaycan Respublikası Baş prokurorunun müavini - Hərbi prokuror Bəhruz Əhmədov Zəfər bayramı münasibətilə xalqımızı, o cümlədən hərbi qulluqçuları və Hərbi prokurorluğun kollektivini təbrik edib, tarixi zəfərin qazanılmasında Müzəffər Ali Baş Komandan İlham Əliyevin və onun ən yaxın silahdaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın əvəzsiz rolundan, habelə döyüşlərdə hərbiçilərimizin şücaətindən danışıb.

Vurğulanıb ki, prokurorluq orqanları, o cümlədən hərbi prokurorluq əməkdaşları həmin günlərdə təkcə hüququ və ədaləti qorumaqla kifayətlənməyib, eyni zamanda vətəndaşlıq və insanlıq borcunu layiqincə yerinə yetirib, Vətən sevgisi nümayiş etdirib.

Daha sonra "Şəhidə məktub" adlı film nümayiş etdirilib.

## Hərbi Prokurorluq Daxili Qoşunlarda "Elm və innovasiyanın çağdaş hərbi gücün əsaslarından birinə çevrilməsi" mövzusunda dəyirmi masa keçirib



2025-ci il noyabrın 19-da Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Hərbi İnstitutunda Hərbi Prokurorluğun rəhbərliyinin iştirakı ilə müasir təhlükəsizlik baxışlarının yenilənməsi və hərbi sahədə elmi-innovativ yanaşmaların rolunun dərinləşdirilməsinə həsr olunmuş geniş tərkibli dəyirmi masa keçirilib.

Tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin büstünün və Şəhid abidəsinin önünə gül dəstələri qoyulub.

Azərbaycan Respublikası Baş prokurorunun müavini - Hərbi prokuror Bəhruz Əhmədov tədbirdə çıxışı zamanı günümüzdə müasir elmi-texnoloji inkişaf fonunda ölkəmizin müdafiə konsepsiyasında bilik, texnologiya və intellektual resursların tətbiqinin sevindirici hal olmasını, bu sahəyə diqqəti daha da artırmağın vacibliyini qeyd etməklə, "Elm və innovasiyanın çağdaş hərbi gücün əsaslarından birinə çevrilməsi" mövzusunda təşkil olunan tədbirin xüsusi əhəmiyyətini qeyd edib.



Çıxış zamanı Vətən Müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin uğurla tətbiq etdiyi müasir innovasiyalar və döyüş strategiyasına diqqət ayrılmaqla, son dövrlərdə aparılan müharibələrin taleyinin yalnız ənənəvi döyüş texnikalarından deyil, saniyələr ərzində qərar verə bilən süni intellekt sistemlərindən, yeni nəsil hərbi silahlardan, yüksək dəqiqlikli zərbə vasitələrindən, pilotsuz uçuş aparatlarından, kiber əməliyyatlar və rəqəmsal müşahidə texnologiyalarından asılı olmasını, bu mənada elmi nəzəri biliklərlə müasir innovasiyaların vəhdətinin zəruriliyi vurğulanıb.

Azərbaycan Respublikası Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların Komandanı, general-leytenant Şahin Məmmədov bu kimi tədbirlərin keçirilməsində Hərbi Prokurorluğun təşəbbbüsü və iştirakını müsbət qiymətləndirib, habelə tədbirin gedişində Hərbi institutun zabit və müəllim heyəti ilə PUA sistemlərinin inkişaf tendensiyaları, rəqəmsal döyüş idarəçiliyinin tətbiqi, kiber müdafiə imkanlarının genişləndirilməsi, əməliyyat məlumatlarının süni intellekt vasitəsilə emalı və risklərin qabaqcadan proqnozlaşdırılması mövzularında müzakirələr aparılıb, iştirakçıların bu istiqamətlərdə təklifləri dinlənilib.

Tədbirin sonunda təhsildə fərqlənmiş kursantlara hədiyyələr təqdim edilib.

## Hərbi Prokurorluqda Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunan tədbir keçirilib



2025-ci il dekabrın 11-də Hərbi Prokurorluqda hərbi təhsil müəssisələrinin rəhbərlərinin və kursantlarının iştirakı ilə Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunan anım tədbiri keçirilib.

Tədbirin əvvəlində Hərbi Prokurorluğun rəhbərliyi və tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub, dünya şöhrətli siyasətçinin əziz xatirəsini dərin ehtiramla yad edib.

Azərbaycan Respublikası Baş prokurorunun müavini – Hərbi prokuror Bəhruz Əhmədov çıxış edərək dövlət müstəqilliyimizin banisi, müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin öz siyasi dühası ilə xalqımızın taleyində silinməz izlər qoymasından, onun Azərbaycana rəhbərlik illərində həyatın bütün sahələrinin intibah dövrünü yaşamasından danışıb.

Dahi liderin bütün həyatını doğma xalqına həsr etməsi, bütün dövrlərdə Azərbaycanın inkişafı üçün böyük fədakarlıqlar göstərməsi, milli maraqların müdafiəsi üçün öz həyatını təhlükəyə atması xüsusi qeyd olunub. 1990-cı illərdə Azərbaycanın öz müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdiyi dövrdə xalq tərəfindən Ulu Öndər Heydər Əliyevin təkidlə hakimiyyətə dəvət edilməsi, qısa vaxtda vətəndaş müharibəsinin qarşısını alması, ölkənin suverenliyinə təhdid yaradan qanunsuz silahlı birləşmələrin ləğv olunmasını təmin etməsi, Ermənistanın Azərbaycana hərbi təcavüzünün dayandırılması və ordu quruculuğuna start verilməsi, güclü Azərbaycanın qurulması istiqamətində zəruri siyasi, hərbi, iqtisadi islahatlara başlanılması əyani misallarla tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Ulu Öndərin 1971-ci ildə sovet totalitarizminin çətinliklərinə baxmayaraq, Azərbaycan tarixində ilk dəfə Cəmşid Naxçıvanski adına hərbi liseyi yaratması, bununla da Azərbaycanın hərbi gələcəyinin əsasını qoyması, bu məktəbin məzunları və onların davamçılarının Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində müstəsna igidlik və qəhrəmanlıq nümunələri göstərməsi ayrıca vurğulanıb.

Tədbirdə iştirak edən Müdafiə Nazirliyinin Milli Müdafiə Universiteti, Dövlət Sərhəd Xidməti Akademiyası və Daxili Qoşunların Hərbi İnstitutunun rəhbər heyəti öz çıxışlarında Ulu Öndərin Azərbaycanda dövlətçiliyin əsaslarını yaratması, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesinin təməlini qoyması, onun həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın iqtisadi, hərbi və mədəni yüksəliş yolunu tutması, uğurlu xarici siyasət kursu barədə geniş məlumat verilib, ordu quruculuğu sahəsində milli siyasəti müəyyən etməsi və milli hərbi kadrların yetişdirilməsi, ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində gördüyü misilsiz xidmətləri qeyd edilib.

O da bildirilib ki, Azərbaycanın Vətən müharibəsindəki tarixi Qələbəsi ölkəmizin regional və qlobal mövqeyini daha da möhkəmləndirib, Azərbaycanı dünyada söz və nüfuz sahibinə çevirib. Bu gün azad olunmuş torpaqlarımızda geniş bərpa və quruculuq işləri aparan dövlətimiz dünyaya sülh mesajı verir, mütərrəqqi dəyərləri təbliğ edir, regional və qlobal təşəbbüsləri dəstəkləyir və həyata keçirir.

Təhsil müəssisələrinin kursantları öz çıxışlarında Ulu Öndərin əsasını qoyduğu təhsil müəssisələrində təhsil almaqdan qürur hissi keçirdiklərini bildirib, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə sədaqətlə xidmət edəcəklərinə söz veriblər.

Tədbirin sonunda "Əsrin adamı" sənədli filmi nümayiş etdirilib.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən Muxtar Respublikanın mərkəzi icra hakimiyyəti orqanlarında, ali və orta-ixtisas təhsili müəssisələrində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda tədbirlər keçirilib

Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının hüquqi və tarixi əhəmiyyəti və dövlət suverenliyimizin mahiyyətinin izah olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Naxçıvan Dövlət Universiteti ilə birlikdə Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarında, ali və orta-ixtisas təhsili müəssisələrində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda 08.10.2025-ci il tarixdə Naxçıvan Müəllimlər İnstitutunda, 15.10.2025-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Texniki Kollecində, 22.10.2025-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Tibb Kollecində, 06.11.2025-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Musiqi Kollecində, 02.12.2025-ci il tarixdə isə Naxçıvan MR Ekologiya və Təbii Sərvətlər Nazirliyində müvafiq tədbirlər keçirilib.

Tədbirlərdə Ulu Öndərin və şəhidlərin xatirəsi yad edilərək dövlət himni səslənib. Müvafiq qurumalrın rəhbərləri, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Təsisatının əməkdaşları çıxış etmiş, Naxçıvan televiziyasının hazırladığı "Dövlətin əsasları" filmi nümayiş etdirilmişdir.







## Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilakçılğı ilə "Ətraf mühitin mühafizəsinin elmi və hüquqi əsasları" mövzusunda maarifləndirici tədbirlər keçirilib





Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilakçılığı ilə Muxtar Respublikada fəaliyyət göstərən ali və ixtisaslaşdırılmış tədris müəssisələrində "Ətraf mühitin mühafizəsinin elmi və hüquqi əsasları" mövzusunda maarifləndirici tədbirlər keçirilib.

Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən 10.10.2025-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Musiqi Kollecində, 29.10.2025-ci il tarixdə Naxçıvan Dövlət Universitetində, 09.12.2025-ci il tarixdə Naxçıvan Müəllimlər İnstitutunda, 10.12.2025-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Texniki Kollecində, 16.12.2025-ci il tarixdə isə Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Tibb Kollecində müvafiq tədbirlər keçirilib.

Tədbirlərdə Prokurorluğun əməkdaşları: baş ədliyyə müşaviri Faiq Səfərov, I dərəcəli hüquqşünas Elvin Hüseynov və Naxçıvan Dövlət Universitetinin əməkdaşı, coğrafiya üzrə fəlsəfə doktoru Türkanə Əliyeva mövzu ilə bağlı çıxışlar edib, videoçarx izlənilib.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən tabe prokurorluqlarda insan hüquqlarının müdafiəsindən irəli gələn öhdəliklərin icrası sahəsində prokurorluq orqanlarının vəzifələri mövzusunda seminar keçirilib



Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə insan hüquqlarının müdafiəsindən irəli gələn öhdəliklərin icrası sahəsində prokurorluq orqanlarının üzərinə düşən vəzifələrlə bağlı 03.10.2025-ci il tarixdə Şərur, Kəngərli və Sədərək, 09.10.2025-ci il tarixdə Babək, Culfa və Ordubad, 23.10.2025-ci il tarixdə isə Şahbuz rayon və Naxçıvan şəhər prokurorluqlarında müvafiq seminar keçirilib.

Seminarda Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov qeyd edib ki, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə insan hüquqlarının müdafiəsi dövlətin ali vəzifələrindən biri kimi göstərilir. Bu kontekstdə prokurorluq orqanlarının vəzifələri həm milli qanunvericilikdən, həm də beynəlxalq öhdəliklərdən irəli gəlir. Prokurorluq orqanları Birləşmiş Millətlər Təşkiltının "İnsan Hüquqları Ümumi Bəyannamə" (1948), "Mülki və Siyasi Hüquqlar Haqqında Pakt" (1966), "İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Pakt" (1966), "İşgəncələrə qarşı Konvensiya (1984)", "Uşaq Hüquqları Konvensiyası" (1989), "Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi Konvensiyası" (1979), "Avropa İnsan Hüquqları Konvensiyası" (1950) və digər beynəlxalq sənədlərdə insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində fəaliyyətini həyata keçirir.

Sonda qeyd olundu ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə insan hüquqlarının müdafiəsindən irəli gələn öhdəliklər milli qanunverilikdə də öz əksini tam olaraq tapmışdır və bu sahəsində prokurorluq orqanlarının üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək isə hər bir prokurorluq işçisinin vəzifə borcudur.

## Noyabr ayının 7-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi Zəfər abidəsini ziyarət edib



Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsindəki tarixi Zəfərinin dördüncü ildönümü ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında böyük qürur və fəxarət hissi ilə qeyd olunur. Noyabrın 7-də "8 noyabr - Zəfər Günü" münasibətilə Naxçıvan Muxtar Respublikasının Prokurorluğun kollektivi Naxçıvan şəhərində tarixi Qələbəmizi simvolizə edən Zəfər Abidəsi önünə gül dəstələri qoyub, qəhrəman şəhidlərimizi yad edərək ehtiramlarını ifadə ediblər.



## Naxçıvan Muxtar Respublikasının tabe prokurorluqlarında "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin Etik Davranış Kodeksi"nin tələbləri öyrənilib

Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin Etik Davranış Kodeksi"nin tələblərindən irəli gələn vəzifələr ilə bağlı 10.12.2025-ci il tarixdə Şərur, Kəngərli və Sədərək rayon prokurorluqlarında, 18.12.2025-ci il tarixdə Naxçıvan şəhər, Babək və Şahbuz rayon prokurorluqlarında, 23.12.2025-ci il tarixdə isə Culfa və Ordubad rayon prokurorluqlarında seminar keçirilib.

Seminarda Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov qeyd etdi ki, Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksi prokurorluq işçiləri üçün etik davranışın qayda və prinsiplərini və onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən edir.



Kodeksin məqsədləri prokurorluq orqanlarının və prokurorluqda qulluq keçmənin nüfuzunun artırılması, vətəndaşların prokurorluq orqanlarına və prokurorluq işçilərinə etimadının yüksəldilməsi, prokurorluq orqanları və prokurorluq işçilərinin fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması, prokurorluq orqanlarında korrupsiyanın və prokurorluq işçilərinin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması, prokurorluq işçiləri tərəfindən etik davranış normalarına əməl olunmasının təmin edilməsi və prokurorluq işçilərindən gözlənilən davranış barədə vətəndaşların məlumatlandırılmasından ibarətdir.

Prokurorluq işçilərinin fəaliyyəti insanların hüquq, azadlıq və qanuni maraqlarının təmin olunmasına (qorunmasına və müdafiəsinə) xidmət etməlidir. Prokurorluq işçisi insanların hüquq və azadlıqlarını, qanuni maraqlarını pozan, onların şərəf, ləyaqət və işgüzar nüfuzunu ləkələyə biləcək qərarlara və hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir. Qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, prokurorluq işçisi xidməti vəzifələrinin icrası ilə bağlı fiziki şəxslərin şəxsi həyatı, şərəf və ləyaqəti barədə ona məlum olmuş məlumatların konfidensiallığını təmin etməlidir. Prokurorluq işçisi hüquqi şəxslərin işgüzar nüfuzuna hörmətlə yanaşmalı və onların işgüzar nüfuzunu ləkələyə biləcək hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir. Prokurorluq işçisi vəzifələrinin icrası zamanı Azərbaycan Respublikası Konstitusiyasının, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin, Azərbaycan Respublikasının qanunlarının və digər normativ hüquqi və normativ xarakterli aktlarının tələblərinə ciddi əməl etməlidir.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi Ulu Öndər Heydər Əliyevin xatirəsini yad edib





2025-ci il dekabr ayının 12-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi müasir və müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edərək önünə tər gül dəstələri qoyub, Ulu Öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

## Xaçmaz Rayon Prokurorluğunda "Açıq Qapı" günü keçirilib








2025-ci il oktyabrın 17-də Xaçmaz rayon prokurorluğunda "Açıq Qapı" günü təşkil olunub.

Tədbirdə media nümayəndələri, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və ictimai fəallar iştirak ediblər.

"Açıq Qapı" gününün keçirilməsində əsas məqsəd vətəndaşları prokurorluq orqanlarının fəaliyyəti ilə yaxından tanış etmək, hüquqi maarifləndirməni gücləndirmək və prokurorluğun şəffaf fəaliyyət prinsipini ictimaiyyətə nümayiş etdirmək olub.

Tədbirin açılışında Xaçmaz rayon prokuroru Rəşad Məmmədov çıxış edərək, bu cür təşəbbüslərin ictimai hüquqi biliklərin artırılmasına verdiyi töhfədən danışıb. O, prokurorluğun fəaliyyətində şəffaflıq, vətəndaş hüquqlarının müdafiəsi və ictimaiyyətlə açıq dialoqun prioritet istiqamətlərdən biri olduğunu vurğulayıb.

Rayon prokuroru iştirakçılara qurumun səlahiyyətləri, iş prinsipləri və gündəlik fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib, eyni zamanda qonaqların suallarını cavablandırıb.

Tədbir çərçivəsində Baş Prokurorluğun Mətbuat Xidmətinin böyük prokuroru Kənan Zeynalov da çıxış edərək, ölkə üzrə prokurorluq orqanlarının strukturu, funksiyaları və həyata keçirilən islahatlar barədə təqdimatla çıxış edib. O, bu islahatların əsas məqsədinin şəffaflıq, vətəndaş məmnunluğunun təmin olunması və hüquqi müdafiənin gücləndirilməsi olduğunu qeyd edib.

Kənan Zeynalov həmçinin, prokurorluğun ictimaiyyətlə əlaqələrinin inkişafı istiqamətində görülən işlərdən və gələcək planlardan da bəhs edib.

Tədbirdə iştirak edən digər prokurorluq əməkdaşları da öz sahələri üzrə məlumat verərək, praktik təcrübələrini iştirakçılarla bölüşüblər.

İştirakçılar hüquqi prosedurlar və prokurorluğun fəaliyyət mexanizmləri barədə onları maraqlandıran suallara cavab alıblar.

Tədbir iştirakçıları üçün film nümayiş etdirildikdən sonra prokurorluğun inzibati binası üzrə tanışlıq turu təşkil olunub və tədbir xatirə şəkli ilə yekunlaşıb.

# Xaçmazda "Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun rolu" mövzusunda seminar keçirilib







2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması ilə əlaqədar həyata keçirilən tədbirlərin davamı olaraq, 2025-ci il oktyabrın 17-də Xaçmaz rayon prokurorluğunun inzibati binasında "Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun rolu" mövzusunda seminar keçirilib.

Tədbirdə prokurorluq əməkdaşları, QHT təmsilçiləri, media nümayəndələri və hüquqşünaslar iştirak ediblər.

Seminarı açan Xaçmaz rayon prokuroru Rəşad Məmmədov, prokurorluğun dövlət suverenliyinin qorunmasında və hüquq sisteminin dayanıqlığının təminində oynadığı rolu vurğulayıb.

Daha sonra çıxış edən Baş Prokurorluğun Mətbuat Xidmətinin böyük prokuroru Kənan Zeynalov, cəmiyyətlə açıq ünsiyyətin və şəffaflığın prokurorluğun fəaliyyətində prioritet olduğunu qeyd edib.

Xaçmaz rayon prokurorunun köməkçisi Leyla Babakişiyeva, çıxışı zamanı, hüquqi maarifləndirmənin, xüsusilə də gənclər arasında hüquqi biliklərin artırılmasının önəmini vurğulayıb.

Seminar interaktiv müzakirələrlə davam edib. İştirakçılar çıxışçılara suallar ünvanlayıb və müzakirələrdə fəal iştirak ediblər.

# Prokurorluq əməkdaşları “Zəfər Günü”nün 5-ci ildönümü ilə bağlı Gəncə Memorial Kompleksini ziyarət ediblər







2025-ci il noyabrın 7-də “Zəfər Günü”nün 5-ci ildönümü münasibətilə Gəncə şəhər, Şəmkir, Samux, Göygöl, Kəlbəcər rayon prokurorluqları, eləcə də Gəncə və Şəmkir hərbi prokurorluqlarının 44 əməkdaşı Gəncə Memorial Kompleksini ziyarət ediblər.

Ziyarət zamanı prokurorluq əməkdaşları şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq abidənin önünə gül dəstələri qoyub, Gəncə terroru zamanı həlak olanların ruhuna dualar oxuyublar.

Tədbir iştirakçıları Memorial Kompleksin ekspozisiyası ilə yaxından tanış olub, burada təqdim olunan “XX əsrin əvvəli”, “Deportasiya və məcburi köçkünlük”, “Soyqırımı və kütləvi qırğınlar”, “Atəşkəs və Vətən müharibəsi dövrü”, “İtkin düşənlər, kütləvi məzarlıqlar, mina terroru” və “İşıqlı gələcəyə doğru” zallarını ziyarət ediblər.

Kompleksin əməkdaşları qonaqlara məlumat verərək bildiriblər ki, Vətən müharibəsi dövründə cəbhə xəttindən 80 kilometr aralıda yerləşən Gəncə şəhəri dəfələrlə raket hücumlarına məruz qalıb. Nəticədə 6-sı uşaq olmaqla 26 mülki şəxs həlak olub, 180-ə yaxın dinc sakin yaralanıb.

Mülki şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə Gəncə şəhərində inşa edilən Memorial Kompleksin açılışı cari ilin 27 sentyabr tarixində – Anım Günündə dövlət başçısının iştirakı ilə baş tutub.

Bu Memorial Kompleks Azərbaycanın mülki əhaliyə qarşı törədilmiş terrora cavabı, şəhidlərin əziz xatirəsinə dərin ehtiramın və gələcək nəsillərə sülhün, ədalətin əhəmiyyətini göstərən simvolik bir rəmz kimi dəyərləndirilir.

Sonda prokurorluq əməkdaşları Kompleksin qarşısında xatirə şəkli çəkdiriblər.

## Mingəçevir şəhər prokurorluğunda “Açıq Qapı” günü keçirilib








2025-ci il dekabrın 23-də Mingəçevir şəhər prokurorluğunda “Açıq Qapı” günü təşkil olunub.

Tədbirdə media nümayəndələri, qeyri-hökumət təşkilatlarının təmsilçiləri, eləcə də ictimai fəallar iştirak ediblər.

“Açıq Qapı” gününün əsas məqsədi vətəndaşların prokurorluq orqanlarının fəaliyyəti ilə yaxından tanış olmalarını təmin etmək, hüquqi maarifləndirmə işini genişləndirmək və prokurorluq orqanlarının şəffaflıq prinsiplərinə əsaslanan fəaliyyətini ictimaiyyətə təqdim etmək olub.

Tədbiri giriş sözü ilə açan Mingəçevir şəhər prokuroru Pərvin Quliyev çıxış edərək, bu cür görüşlərin hüquqi biliklərin artırılması baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib. O, prokurorluq orqanlarının fəaliyyətində vətəndaş hüquq və azadlıqlarının qorunmasının, şəffaflığın və ictimaiyyətlə açıq dialoqun əsas prioritetlərdən olduğunu vurğulayıb.

Şəhər prokuroru iştirakçılara prokurorluğun səlahiyyətləri, fəaliyyət mexanizmləri və gündəlik iş istiqamətləri barədə ətraflı məlumat verib, eyni zamanda qonaqları maraqlandıran sualları cavablandırıb.

Tədbir çərçivəsində Baş Prokurorluğun Mətbuat Xidmətinin böyük prokuroru Kənan Zeynalov da çıxış edərək, respublika üzrə prokurorluq orqanlarının strukturu, funksiyaları və son illərdə həyata keçirilən islahatlar barədə çıxış edib. O, aparılan islahatların əsas hədəfinin vətəndaş məmnunluğunun artırılması, şəffaflığın təmin edilməsi və hüquqi müdafiə mexanizmlərinin gücləndirilməsi olduğunu diqqətə çatdırıb.

Kənan Zeynalov, həmçinin prokurorluq orqanlarının media və ictimaiyyətlə əlaqələrinin inkişafı istiqamətində görülən işlərdən və bu sahədə nəzərdə tutulan gələcək planlardan bəhs edib.

Tədbirdə iştirak edən digər peşəkar prokurorluq əməkdaşları da öz fəaliyyət sahələri üzrə məlumat verərək, praktiki təcrübələrini iştirakçılarla bölüşüblər. İştirakçılar hüquqi prosedurlar və prokurorluğun iş prinsipləri ilə bağlı suallarına ətraflı cavablar alıblar.

Tədbir zamanı iştirakçılar “Elektron prokurorluq” informasiya sistemi, eləcə də prokurorluq orqanlarının istifadəsində olan müasir kriminalistik avadanlıqlarla yaxından tanış olub, onların istintaq və araşdırma proseslərində tətbiqi barədə ətraflı izahatlar alıblar.



Sonda tədbir iştirakçıları üçün maarifləndirici film nümayiş etdirilib, daha sonra prokurorluğun inzibati binası ilə tanışlıq turu təşkil olunub. “Açıq Qapı” günü xatirə şəkli çəkilməsi ilə yekunlaşıb.

Tədbirin sonunda iştirakçılarla birgə xatirə şəkli çəkilib.

# Mingəçevirdə "Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun rolu" mövzusunda seminar təşkil olunub







Ölkəmizdə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlər çərçivəsində 2025-ci il dekabrın 23-də Mingəçevir şəhər prokurorluğunun inzibati binasında "Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun rolu" mövzusunda seminar keçirilib.

Tədbirdə prokurorluq əməkdaşları ilə yanaşı, qeyri-hökumət təşkilatlarının nümayəndələri, media təmsilçiləri və ictimai fəallar iştirak ediblər.

Seminarı giriş sözü ilə açan Mingəçevir şəhər prokuroru Pərvin Quliyev, prokurorluq orqanlarının milli suverenliyin möhkəmləndirilməsi, Konstitusiya prinsiplərinin qorunması və hüquqi sabitliyin təmin olunmasında mühüm rol oynadığını vurğulayıb. O, bu istiqamətdə həyata keçirilən tədbirlərin dövlətçilik baxımından əhəmiyyətini diqqətə çatdırıb.

Daha sonra çıxış edən Baş Prokurorluğun Mətbuat Xidmətinin böyük prokuroru Kənan Zeynalov, prokurorluq orqanlarının fəaliyyətində açıqlıq, şəffaflıq və ictimaiyyətlə səmərəli ünsiyyətin əsas prioritetlərdən olduğunu qeyd edib, bu sahədə görülən işlər və həyata keçirilən islahatlar barədə məlumat verib.

Mingəçevir şəhər prokurorunun köməkçisi Cahid Qurbanlı isə çıxışında hüquqi maarifləndirmənin genişləndirilməsinin, xüsusilə gənclər arasında hüquqi biliklərin artırılmasının milli maraqların qorunması baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.

Seminar çərçivəsində, həmçinin prokurorluq orqanları ilə media və qeyri-hökumət təşkilatları arasında işgüzar əlaqələrin möhkəmləndirilməsi, fəaliyyət istiqamətləri üzrə keyfiyyət və səmərəliliyin daha da artırılması, məlumat mübadiləsi zamanı mövcud qanunvericiliyin tələblərinə riayət olunmasının vacibliyi, eləcə də istintaq sirri təşkil edə biləcək məlumatların ictimailəşdirilməsinin qarşısının alınması məqsədilə jurnalistlərlə geniş fikir mübadiləsi aparılıb.

Tədbir interaktiv formatda davam etdirilib, iştirakçılar mövzu ətrafında çıxış edərək suallar ünvanlayıb və müzakirələrdə fəal iştirak ediblər.

## Mətbuat xidmətinin məlumatları

### Azərbaycan Respublikasının Baş Prokurorluğu və Dövlət Gömrük Komitəsinin birgə məlumatı: Dərman vasitələri və tütün məmulatlarını qaçaqmalçılıq yolu ilə ölkəyə gətirmiş şəxslər və onlara şərait yaradan vəzifəli şəxslər ifşa edilib




Qaçaqmalçılıq və digər cinayətlərin törədilməsində iştirak etmiş Dövlət Gömrük Komitəsinin Biləsuvar Gömrük İdarəsinin əməkdaşları və digər şəxslərin qanunsuz əməlləri ilə bağlı həmin qurumda başlanmış cinayət işinin ibtidai istintaqı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində davam etdirilir.

İstintaqla Dövlət Gömrük Komitəsinin Biləsuvar Gömrük İdarəsinin 1-ci şöbəsinin inspektoru Vüsal Hüseynov və həmin şöbəyə təhkim olunmuş "Azərterminalkompleks" Birliyinin instruktor-kinoloqu Asif Hacımuradovun Etibar Hatəmli və İran İslam Respublikasının vətəndaşı Jafar Rezeyan ilə qabaqcadan əlbir olaraq öz qulluq mövqelərindən istifadə etməklə aralarındakı razılaşmaya uyğun sonuncunun İİR-də əldə etdiyi ümumilikdə 400 min manat dəyərində dövlət qeydiyyatından keçməyən, o cümlədən tərkibində güclü təsir edən və psixotrop maddələr olan dərman vasitələrini və aksiz markasız tütün məmulatlarını gömrük nəzarətindən kənar keçirib Azərbaycan Respublikası ərazisində aidiyyəti şəxslərə təhvil verilməsini təmin etmələrinə əsaslı şübhələr müəyyən edilib.

Toplanmış ilkin sübutlar əsasında Vüsal Hüseynov, Asif Hacımuradov, Jafar Rezeyan və Etibar Hatəmliyə müvafiq olaraq Cinayət Məcəlləsinin 200-1.2.2, 200-1.2.3 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda dərman vasitələrinin qanunsuz dövriyyəsi), 206.3.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda qaçaqmalçılıq), 213-1.2.1, 213-1.2.3 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda aksiz markası ilə markalanmalı olan malları belə marka olmadan idxal etmə), 234.4.1, 234.4.3 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda psixotrop maddələrin qanunsuz dövriyyəsi), 240.3.2 (külli miqdarda güclü təsir edən maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham elan edilib.

İstintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Vüsal Hüseynov, Asif Hacımuradov və Etibar Hatəmli barəsində məhkəmənin qərarı ilə həbs, Jafar Rezeyan barəsində isə istintaq orqanının qərarı ilə həbslə bağlı olmayan digər qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

### #SORĞUYACAVAB – Şəxsin iş yerində baş vermiş partayış nəticəsində ölməsi faktı ilə bağlı cinayət işi başlanıb




Baş Prokurorluğun Mətbuat xidmətinə daxil olmuş sorğulara cavab olaraq bildirilir ki, oktyabrın 5-i saat 12 radələrində Bərdə rayon sakini 1960-cı il təvəllüdlü Teyyub Yusifovun iş yerində ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Araşdırmalarla Teyyub Yusifovun mexanik vəzifəsində işlədiyi pendir istehsalı sexinin qazanxanasında baş vermiş partlayış nəticəsində almış olduğu xəsarətlərdən ölməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Bərdə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 162.2-ci (əmək mühafizəsi qaydalarını pozma ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

İbtidai istintaq davam etdirilir.

## Beynəlxalq axtarışa verilmiş daha 4 şəxs ölkəmizə ekstradisiya edilib




«Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında» 07.10.2002-ci il tarixli Konvensiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının vətəndaşları Alıyev Hafiz Salman oğlu, Əliyev Nəriman Elşad oğlu, Nuriyev Kazım Ağaqulu oğlu və Həsənov Emin Vasif oğlunun ekstradisiyaları haqqında Baş Prokurorluğun vəsatətləri Rusiya Federasiyasının Baş Prokurorluğu tərəfindən təmin edilib.

Həmin şəxslərin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulmuş cinayət əməllərini törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən, barələrində təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərarlar qəbul edilib və istintaqdan qaçıb gizləndiklərinə görə onlar beynəlxalq axtarışa veriliblər.

Qeyd olunan şəxslər Rusiya Federasiyasının ərazisində saxlanılaraq Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə Azərbaycana gətiriliblər.

## Baş Prokurorluqdan vətəndaş Lalə Ayvazlının müraciəti ilə bağlı açıqlama




Bəzi sosial media səhifələrində Ayvazlı Lalə Abbasəli qızının səhhətində həkim səhlənkarlığı nəticəsində problemlər yaranması barədə müraciəti üzrə Yasamal rayon prokurorluğunda qeyri-obyektiv araşdırma aparılmasına dair məlumatlar yayılıb.

Bununla bağlı bildirilir ki, vətəndaş Lalə Ayvazlı Baş Prokurorluq və Bakı şəhər prokurorluğunda rəhbər şəxslər tərəfindən dəfələrlə qəbul edilərək dinlənilib, qanunvericiliyin tələbləri ona ətraflı şəkildə izah edilib, şikayəti üzrə toplanmış yoxlama materialı Baş Prokurorluq və Bakı şəhər prokurorluğunda ətraflı öyrənilməklə, narazı olduğu bütün hallar üzrə əlavə araşdırılması üçün zəruri göstərişlər verilib.

Belə ki, Nəsimi rayon prokurorluğunda aparılmış araşdırma zamanı bir sıra zəruri prosessual hərəkətlər icra olunub, habelə komisyon məhkəmə-tibb ekspertizası təyin edilərək müvafiq rəy alınıb, 31 mart 2023-cü il tarixdə Cinayət Prosessual Məcəlləsinin 39.1.2-ci maddəsinə əsasən cinayət işinin başlanmasının rədd edilməsi haqqında qəbul edilib.

Həmin qərar L.Ayvazlının şikayəti əsasında 10 may 2023-ci il tarixdə Baş Prokurorluq tərəfindən ləğv edilib və yoxlama materialı üzrə araşdırmanın davam etdirilməsi vətəndaşın müraciətində nəzərə alınmaqla Yasamal rayon prokurorluğuna tapşırılıb.

Yasamal rayon prokurorluğunda əlavə araşdırma aparılan müddətdə material üzrə bir neçə dəfə ekspertizalar, o cümlədən təkrar komisyon məhkəmə-tibb ekspertizası, əlavə komisyon məhkəmə-tibb ekspertizaları keçirilib, L.Ayvazlının və onun şikayətçi olduğu “Kəpəz” Hospitalın həkimlərinin izahatları alınıb, habelə əməliyyat tapşırığı, eləcə də müvafiq sorğular verilərək cavablar alınıb.

Lalə Ayvazlının həm qəbullar zamanı, həm də yazılı müraciətlərində göstərdiyi xüsusatlar toplanmış sübutlar və ekspertiza rəyləri ilə öz təsdiqini tapmadığından, toplanmış material üzrə bir neçə dəfə, sonuncu dəfə isə 30 sentyabr 2025-cu il tarixdə Yasamal rayon prokurorluğunda Cinayət Prosessual Məcəlləsinin 39.1.2-ci maddəsinə əsasən cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edilib.

Bundan başqa, vətəndaş L.Ayvazlının onu əməliyyat etmiş S.Xudiyevanın plastik cərrah kimi “Badam” klinikasında qanunsuz fəaliyyət göstərməsi barədə digər müraciəti araşdırılması üçün aidiyyəti üzrə Səhiyyə Nazirliyinə göndərilib və S.Xudiyeva nazirlik tərəfindən tutduğu vəzifəsindən çıxarılıb.

**#hüquqimaarifləndirmə #insanhüquqları #uşaqhüquqlarıaylığı – Uşaqların hüquq bərabərliyi**




Bütün uşaqlar bərabər hüquqlara malikdirlər. Uşaqların, onların valideynlərinin və ya onları əvəz edən şəxslərin sosial və əmlak vəziyyətindən, sağlamlığından, irqi və milli mənsubiyyətindən, dilindən, təhsilindən, dinindən, siyasi baxışlarından, yaşayış yerindən asılı olmayaraq uşaqlar ayrı-seçkiliyə məruz qala bilməzlər.

Uşaqlar valideynlərinin və ya onları əvəz edən digər şəxslərin hərəkətlərinə görə məsuliyyət daşımır və valideynləri ilə bağlı səbəblərə görə onların hüquqlarının məhdudlaşdırılmasına yol verilmir.

Nikahda və ya nikahdankənar doğulmasından asılı olmayaraq uşaqların valideynləri barəsində eyni hüquqları vardır.

**#hüquqimaarifləndirmə – Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin II hissəsi və 71-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 211.2 və 218.3-cü maddələrini əlaqəli şəkildə şərh etmişdir**




Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 16 oktyabr 2025-ci il tarixli qərarına əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin II hissəsi, 71-ci maddəsi və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 218.3-cü maddəsinin müddəalarından irəli gələrək, həmin Məcəllənin 211.2.2–211.2.6-cı maddələrində müəyyən edilən əsaslarla cinayət işinin materiallarından başqa cinayət işi ayrıca icraata ayrıldıqda istintaq müddətinin axımı ilkin cinayət işinin başlandığı gündən hesablanır.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 211.2.1-ci maddəsi ilə nəzərdə tutulmuş əsasla ayrılmış cinayət işi üzrə ibtidai istintaq müddəti ayrılma haqqında qərar qəbul edildiyi (yeni cinayət işi başlanıldığı) gündən hesablanır.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

**Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdıran və əlavə dəyər vergisini talayan mütəşəkkil dəstə ifşa edilib**




Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq idarəsində aparılan istintaqla ölkə ərazisində həssas əhali qrupuna aid, eləcə də məhdud hüquqi bilikləri olan şəxslərin müxtəlif vasitələrlə aldadılaraq onların adlarına sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq niyyəti olmadan hüquqi və fiziki şəxslərin təsis etdirilməsi, həmin qurumlar vasitəsilə əmtəəsiz maliyyə əməliyyatlarının aparılması və digər qanunazidd hərəkətlərin törədilməsi faktları üzrə cinayət işi başlanıb.

Aparılmış istintaq tədbirləri ilə çoxsaylı şəxslərdən ibarət olan, daxilində "vəzifə bölgüsü" aparılmış və vahid mərkəzdən idarə olunan mütəşəkkil dəstə tərəfindən qeyd olunan kateqoriyadan olan 300-dən çox şəxsin aldadılaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq niyyəti olmadan onların adına ən azı 777 hüquqi şəxs və ən azı 103 fiziki şəxs qeydiyyatdan keçirilməklə, vəzifə saxtakarlığı etməklə çoxhəcmli əmtəəsiz maliyyə əməliyyatları aparılıb yalançı

sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqla, dövlətin maliyyə nəzarəti mexanizmlərini zəiflətməklə, yalançı şirkətlər vasitəsilə qeyri-qanuni gəlirləri leqallaşdırmaqla, statistik göstəriciləri saxtalaşdırmaqla ölkə iqtisadiyyatına ümumilikdə 81,5 milyon manatdan çox zərər vurulmasına, eləcə də əldə etdikləri həmin pul vəsaitlərini onların əldə edilməsinin həqiqi mənbəyinin, kimə məxsus olmasının ört-basdır edilməsi və gizlədilməsi məqsədilə konversiya etməklə, köçürtməklə, maliyyə əməliyyatları aparmaqla və digər əqdlər həyata keçirtməklə leqallaşdırılmasına, habelə dövlət büdcəsinə məxsus 8 milyon manatdan çox əlavə dəyər vergisi məbləğlərinin dələduzluqla talanmasına əsaslı şübhələr müəyyən edilib.

Həmin cinayətləri törətmiş mütəşəkkil dəstənin rəhbər üzvləri də daxil olmaqla, ümumilikdə 30 şəxs Cinayət Məcəlləsinin 178.4 (dələduzluq, xüsusilə külli miqdarda törədildikdə), 193.3.1 (xüsusilə külli miqdarda ziyan vurmaqla yalançı sahibkarlıq) , 193-1.3.1, 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma mütəşəkkil dəstə tərəfindən xeyli miqdarda törədildikdə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq onlara həmin maddələrlə ittiham elan edilib, həmin təqsirləndirilən şəxslərdən 10-nun barəsində istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri, digərləri barəsində isə həbslə bağlı olmayan digər qətimkan tədbirləri seçilib.

Bundan başqa, istintaqdan qaçıb gizlənən təqsirləndirilən şəxslərdən bəzilərinin barəsində axtarışlar elan edilib.

Hazırda ibtidai istintaq davam etdirilir.

## Vətəndaşlara bir daha bu kimi qanunsuz fəaliyyətlərdə iştirak etməmək, hər hansı maddi təklif və ya vəd qarşılığında adlarına hüquqi və ya fiziki şəxslərin təsis edilməsinə, etibarnamə verilməsinə razılıq verməmək tövsiyə olunur

Öz adlarına qeydiyyatdan keçirilən şirkətlərin və ya fərdi sahibkarlıq subyektlərinin fəaliyyəti üzrə vergi öhdəliklərinin, borcların və hüquqi məsuliyyətin məhz onların üzərində qalacağı unudulmamalıdır.

Bu cür hallara yol verilməsi nəticəsində vətəndaşların ölkədən çıxışına məhdudiyyət qoyulması, vergi və məhkəmə məsuliyyətinə cəlb olunması, eləcə də cinayət işlərində iştirakçı və ya təqsirləndirilən şəxs qismində tanınması mümkündür.

Hər bir vətəndaşdan öz şəxsiyyət məlumatlarını, "ASAN imza" mobil nömrələrini və möhürlərini digər şəxslərə təqdim etməmələri və bu barədə şübhəli hallarla rastlaşdıqda hüquq-mühafizə orqanlarına məlumat vermələri xahiş olunur.

## Mediada yayılan məlumatlar əsasında "UĞUR 777 estetik mərkəz"də yol verilən qanunsuzluqlarla bağlı araşdırma aparılıb və cinayət işi başlanıb




Bir qrup şəxs tərəfindən qanunsuz olaraq estetik əməliyyatların aparılması barədə mediada yayılan məlumat və videogörüntülər əsasında Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində araşdırma aparılıb.

Araşdırma zamanı Xəyalə İsmayılovanın adına dövlət qeydiyyatına alınan, "UĞUR 777 estetik mərkəz"in qanunsuz fəaliyyət göstərməsi, orada müvafiq standartlara riayət edilmədən tibbi prosedur adı altında müxtəlif estetik əməliyyat və kosmetoloji prosedurların icra olunması nəticəsində xəstəliklərin yayılmasına əsaslı şübhələr müəyyən edilib.

Həmçinin sözügedən mərkəzdə özlərini həkim-kosmetoloq kimi təqdim edən Xəyalə İsmayılova, Murad Bağırov, Firuzə Əliyeva, Gülbədə Abdullayeva, Zairə Salmanova və digərləri tərəfindən ayrı-ayrı şəxslərin bədən nahiyələrində icra olunan estetik cərrahi əməliyyatlar nəticəsində onların sağlamlığına ağır xəsarət yetirilməsinə əsaslı şübhələr müəyyən edilib.

Araşdırmalar nəticəsində o da aşkarlanıb ki, Xəyalə İsmayılova, Murad Bağırov, Firuzə Əliyeva, Gülbədə Abdullayeva, Zairə Salmanova və

digərlərinin müvafiq ali və ya orta ixtisas tibbi təhsili, habelə "Praktik tibb fəaliyyəti ilə məşğul olmaq hüququnu təsdiq edən sertifikasiya şəhadətnaməsi" yoxdur.

Toplanmış sübutlar əsasında Cinayət Məcəlləsinin 131.2 (ehtiyatsızlıqdan sağlamlığa ağır zərər vurma), 309.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərini aşma), 314.2-ci (ağır nəticələrə səbəb olan səhlənkarlıq) və digər maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması üçün aidiyyəti üzrə Bakı şəhəri, Nəsimi rayon prokurorluğuna göndərilib.

Eyni zamanda, Xəyalə İsmayılovanın barəsində İnzibati Xətalar Məcəlləsinin 210.1 (lisenziya olmadan özəl tibbi fəaliyyətlə məşğul olma) və 215.1-ci (sağlamlığın qorunması sahəsində şəxslərin hüquqlarının pozulması) maddələri ilə inzibati xəta haqqında işlər üzrə icraat başlanaraq baxılması üçün aidiyyəti üzrə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə göndərilib.

Baş Prokurorluq vətəndaşlara müraciət edərək, yalnız dövlət qeydiyyatından keçmiş və müvafiq lisenziyaya malik tibb müəssisələrinin xidmətlərindən istifadə edilməsini, tibbi, estetik, kosmetoloji və digər bu qəbildən olan xidmətləri göstərən şəxslərin müvafiq təhsil, eləcə də sertifikasiya şəhadətnamələrin mövcudluğunun əvvəlcədən dəqiqləşdirilməsini, belə sənədlərin olmadığı hallarda isə bu barədə dərhal Baş Prokurorluğun "961" nömrəli Çağrı Mərkəzinə və ya qurumun rəsmi sosial şəbəkə hesabları vasitəsilə məlumat verilməsini xahiş edir.

## Sabirabad Rayon Mərkəzi Xəstəxanasının vəzifəli şəxsləri barəsində cinayət işi məhkəməyə göndərilib




"Sabirabad Rayon Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsində baş verən qanunsuzluqlar, o cümlədən həmin xəstəxananın Poliklinika şöbəsinin müdiri və Həkim Məsləhət komissiyasının üzvü olmuş Əlişirin Əliyev barədə daxil olmuş şikayətlər əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işinin istintaqı yekunlaşıb.

İbtidai istintaqla Əlişir Əliyevin sözügedən vəzifədə işlədiyi müddətdə Qabil Quliyev və İntiqam Kərimovla cinayət əlaqəsinə girərək əlilliyin təyin olunmasına əsas verən hər hansı xəstəlikdən əziyyət çəkməyən və Həkim məsləhət komissiyasında faktiki olaraq müayinədən keçirilməyən ayrı-ayrı şəxslərə əlillik dərəcəsinin verilməsi məqsədilə onlar barədə TƏBİB-in "e-tabib" elektron informasiya sisteminə tibbi diaqnozlara dair bilə-bilə yalan məlumatları daxil edilib Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə göndərilməsi müqabilində külli miqdarda rüşvət almasına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Əlişirin Əliyevə Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2, 311.3.3 (təkrarən və külli miqdarda rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı), Qabil Quliyev və İntiqam Kərimova isə həmin Məcəllənin 178.1 (dələduzluq), 32.5, 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadəyə kömək etmə), 32.5, 311.3.2, 311.3.3 (təkrarən və külli miqdarda rüşvət almağa kömək etmə) və 32.5, 313-cü (vəzifə saxtakarlığına kömək etmə) maddələri ilə ittiham elan edilib, təqsirləndirilən şəxslərin yaşı və səhhətləri nəzərə alınmaqla barələrində istintaq orqanının qərarı ilə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Cinayət işi baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

## Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin birgə məlumatı – Sabunçuda 11 il əvvəl törədilmiş cinayət hadisəsinin üstü açılıb

Sabunçu rayon prokurorluğu və rayon polis idarəsinin əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilən istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində 11 il əvvəl, 2014-cü ilin noyabr ayında 1977-ci

il təvəllüdlü Hənifə Namiq Naib oğlunun qəsdən öldürülməsi müəyyən olunub.




Həyata keçirilən tədbirlərlə 1990-cı il təvəllüdlü, Azərbaycan Respublikasının vətəndaşı Cəfərov Hüseyn Gülağa oğlunun ictimai-təhlükəli əməlin qarşısının alınması üzrə ictimai borcunu yerinə yetirən Namiq Hənifəyə bıçaqla xəsarətlər yetirərək öldürməsinə əsaslı şübhələr müəyyən olunub.

Hüseyn Cəfərov dekabrın 1-də Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunub, ona həmin maddədə nəzərdə tutulan ittiham elan edilib, müstəntiqin vəsatəti ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Sabunçu Rayon Məhkəməsinin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Əvvəlki illərdən bağlı qalmış cinayətlərin açılması Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin daim diqqət mərkəzində saxlanılmaqla bu istiqamətdə işlər davam etdirilir.

**Baş Prokurorluğun Mətbuat xidməti paytaxtın Yasamal rayonunda yerləşən çoxmərtəbəli binada 3 nəfərin ölümü ilə nəticələnmiş yanğın faktı ilə əlaqədar başlanmış cinayət işi üzrə 1 nəfərin şübhəli şəxs qismində tutulmasına dair mediada yayılan məlumatları təsdiq edir**




Bununla yanaşı, media nümayəndələri və ictimaiyyətə müraciət edərək bildiririk ki, zərərçəkmiş şəxslərin hüquqları nəzərə alınmaqla, ibtidai istintaqın gedişinə dair qeyri-rəsmi mənbələrdən əldə olunan və dəqiqləşdirilməmiş həssas informasiyaların paylaşılması cəmiyyət arasında çaşqınlıq səbəb olur, eləcə də istintaqın obyektivliyinə zərər vurur.

Bütün rəsmi və təsdiqlənmiş məlumatlar qısa zamanda yalnız Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən təqdim olunacaq.

Media nümayəndələri və sosial şəbəkə istifadəçilərindən xahiş edirik ki, ibtidai istintaqla bağlı məlumat yayarkən qanunvericiliyin tələbləri rəhbər tutulmaqla, yalnız rəsmi mənbələrə istinad etsinlər, hüquqi əsası və təsdiqi olmayan informasiyaların yayılmasına yol verməsinlər.

İctimaiyyəti bir daha əmin edirik ki, cinayət işi üzrə istintaq tam, obyektiv və qanun çərçivəsində aparılır, nəticələr barədə əlavə məlumat veriləcəkdir.

**Qəsdən adam öldürməkdə şübhəli bilinən şəxs tutulub**




Dekabrın 16-da Qusar rayon sakini Diana Təyibovanın öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Araşdırma zamanı rayonun Hil kənd sakini Asif Təyibovun Diana Təyibovanı qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Qusar rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

A.Təyibov rayon prokurorluğu tərəfindən şübhəli şəxs qismində tutulub.

İbtidai istintaq davam etdirilir.

## Cinayət məsuliyyətindən azad etmə cinayətə görə dövlətin şəxsi mühakimə etməkdən və ona cəza tətbiq etməkdən imtina etməsidir

Cinayət məsuliyyətindən azad etmə institutu haqda danışarkən qeyd olunmalıdır ki, Cinayət törətmiş şəxsin dövlət məcburetmə tədbirlərinə məruz qalmalı olması cinayət qanunvericiliyinin ümumi qəbul olunmuş yanaşmasıdır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 2-ci maddəsinə görə, məcəllənin vəzifələri sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir.

Bu vəzifələri həyata keçirmək üçün Cinayət Məcəlləsi cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 3-cü maddəsinə əsasən yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır.

Həmçinin Cinayət Məcəlləsinin 7.1-ci maddəsində göstərilir ki, yalnız törətdiyi ictimai təhlükəli əmələ (hərəkət və ya hərəkətsizliyə) və onun nəticələrinə görə təqsiri müəyyən olunmuş şəxs cinayət məsuliyyətinə cəlb edilə və cəzalandırıla bilər.

Cinayət məsuliyyəti cinayət törətmiş şəxsin dövlət adından mühakimə edilməsini, təqsiri müəyyən edilmiş şəxslərə cəza və digər dövlət-məcburiyyət tədbirlərinin tətbiq edilməsini nəzərdə tutur ki, bu da ictimai münasibətlərin qorunmasında, cinayətlərin qarşısının alınmasında, cəmiyyət üzvlərinə çəkindirici təsirin göstərilməsində mühüm vasitə rolunu oynayır.

Bununla belə qanunla nəzərdə tutulan bir sıra hallarda şəxsin cinayət məsuliyyətindən azad edilməsi mümkündür. Cinayət məsuliyyətindən azad etmə təqsirləndirilən şəxsi məhkəmənin ittiham hökmündən və dövlət-məcburiyyət tədbirlərinin təsirinə məruz qalmaq vəzifəsindən azad etmək barədə səlahiyyətli dövlət orqanının rəsmi aktında ifadə edilmiş qərardır. Həmçinin cinayət məsuliyyətindən azad etmə dövlət adından mühakimə edilməməsi və barəsində ittihamedici hökm çıxarılmaması ilə əlaqədar təqsirləndirilən şəxs üçün tanınan imkandır.

Cinayət qanununun əsas institutlarından biri olan cinayət məsuliyyətindən azad etmə Məcəllənin 11-ci fəslində müəyyən edilmişdir.

Həmin fəsildə cinayət qanununun vəzifələrinin yerinə yetirilməsi baxımından dairəsi konkret göstərilmiş və ya müəyyən kateqoriya cinayətlər üzrə şəxsin cinayət törətdikdən sonrakı davranışına müvafiq olaraq qanunvericilikdə onun məsuliyyətdən azad edilməsi imkanı nəzərdə tutulmuşdur.Bu fəsldə nəzərdə tutlan maddələrdə şəxsin cinayət məsuliyyətindən azad edilməsinin mümkünlüyünü nəzərdə tutan hüquqi tənzimetmə cinayət məsuliyyətinin və cəzanın diferensiallaşdırılması, onların islahedici təsirinin gücləndirilməsi, yeni cinayətlərin törədilməsinin qarşısının alınması, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi və son nəticədə şəxsiyyətin, cəmiyyət və dövlətin cinayətkar qəsdlərdən qorunması kimi konstitusiya əhəmiyyətli məqsədlərə nail olmağa yönəlmişdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 4-cü bölməsi **"cinayət məsuliyyətindən və cəzadan azad etmədən"** bəhs edir.

Bunların hər ikisi özündə azad etmə anlayışını ehtiva etsə də bir çox xarakterik cəhətlərinə görə bir-birindən fərqlənir.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 37.4, 39.1.9, 40.2 və 41.7-ci maddələrinin şərh edilməsinə dair" 2011-ci il 15 iyul tarixli Qərarında "cinayət məsuliyyətindən və cəzadan azad etmə" anlayışlarına aydınlıq gətirərək göstərmişdir ki, nəzəriyyədə cinayət məsuliyyətindən azad etmə dedikdə, törədilmiş cinayətə görə dövlətin şəxsi mühakimə etməkdən və ona cəza tətbiq etməkdən imtina etməsi başa düşülür. Cəzadan azad etmə isə məhkum olunmuş şəxsə cəzanın tətbiq edilməməsini və yaxud cəzanın qalan hissəsini çəkməkdən azad edilməsini nəzərdə tutur. Cinayət məsuliyyətindən azad etmə və cəzadan azad etmə aşağıdakılara görə fərqlənirlər:

- cinayət mühakimə icraatının mərhələlərinə görə;
- bu cür qərar qəbul etmək səlahiyyətinə malik olan şəxslərin və orqanların dairəsinə görə.

Cinayət məsuliyyətindən azad etmə həm məhkəməyədək mərhələdə, həm də məhkəmə baxışı mərhələsində mümkündür. Cəzadan azad etmə isə yalnız məhkəmə baxışı mərhələsində mümkündür.

Cinayət məsuliyyətindən prokurorun razılığı ilə təhqiqatçı və ya müstəntiq, habelə məhkəmə azad edə bilər. Cəzadan azad etmə isə məhkəmənin müstəsna səlahiyyətidir.

Cinayət məsuliyyətindən azad etmə müvafiq olaraq cəzadan azad etməni də əhatə edir. Bu zaman cinayət

məsuliyyətindən azad etmənin ilkin anı – məhkəməyədək mərhələ, son anı – hökm elan olunanadək məhkəmə baxışı mərhələsidir. Bu mərhələdən sonra isə söhbət yalnız cəzadan azad etmədən gedə bilər.

Cinayət məsuliyyətindən azad etmə halları Cinayət Məcəlləsinin 72-75-ci maddələri ilə yanaşı, həmin Məcəllənin 20-ci (cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamaqla əlaqədar cinayət məsuliyyətindən azad etmə); 21-ci (ictimai təhlükəli əməli anlaqsız vəziyyətdə törətməklə bağlı cinayət məsuliyyətindən azad etmə); 30.2-ci (cinayət törətməkdən könüllü imtina etməklə əlaqədar cinayət məsuliyyətindən azad etmə) və 81.2-ci (amnistiya aktı ilə cinayət məsuliyyətindən azad etmə) maddələrində də nəzərdə tutulmuşdur. Cinayət-Prosessual Məcəlləsinin tələblərinə görə, bu maddələrdə sadalanan halların mövcudluğu cinayət təqibinin həyata keçirilməməsi üçün əsas ola bilər.

Cinayət Məcəlləsinin 20, 21, 75 və 81.2-ci maddələrində göstərilən hallar ümumiyyətlə cinayət təqibini istisna edir. Belə ki, Cinayət-Prosessual Məcəlləsinin 39.1.3, 39.1.4, 39.1.10 və 39.1.12-ci maddələrinin imperativ xarakterinə əsasən, yuxarıda göstərilən hallardan hər hansı biri aşkar olunduqda şəxs barəsində cinayət təqibi başlanılmır, artıq başlanmış icraat gedişində aşkar olunduqda isə cinayət təqibinə xitam verilir.

Müasir cinayət ədalət mühakiməsi sisteminin fərqləndirici xüsusiyyəti cinayət məsuliyyətindən azad etmənin həm məhkəməyədək mərhələdə, həm də məhkəmə icraatı mərhələsində mümkün olması, bununla da cinayət təqibinə xitam verilməsilə əlaqədar cinayət işlərinin sayının azalmasıdır. Həmin institutun həyata keçirilməsinin fərqli ölkələrdə müxtəlif prosedurlarının olmasına baxmayaraq, hüquqi mahiyyəti hər yerdə eyni qalır – prosessual qanunvericilikdə nəzərdə tutulmuş hallarda cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilir.

Qeyd edilməlidir ki, Cinayət Məcəlləsinin 11-ci fəslinə 2017-ci il 20 oktyabr tarixli Qanunla dəyişiklik edilənədək cinayət məsuliyyətindən azad etmə Məcəllənin 72-ci (səmimi peşmanlıqla bağlı cinayət məsuliyyətindən azad etmə), 73-cü (zərərçəkmiş şəxslə barışmaqla bağlı cinayət məsuliyyətindən azad etmə), 74-cü (şəraitin dəyişməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə) və 75-ci (müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə) maddələri ilə tənzimlənirdi və müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə istisna olmaqla, həmin maddələrlə məsuliyyətdən azad etmə yalnız ilk dəfə böyük ictimai təhlükə törətməyən (şəraitin dəyişməsi ilə bağlı, həmçinin az ağır) cinayət törətmiş şəxslərə tətbiq edilirdi.

Cinayət qanunvericiliyinə edilmiş qeyd edilən dəyişikliklərlə Cinayət Məcəlləsinin 11-ci fəslinə məsuliyyətdən azad etmənin yeni şərtlərini tənzimləyən 73-1 (mülkiyyət əleyhinə olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə), 73-2 (iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə) və 74-1-ci (narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad etmə) maddələri əlavə edilmiş, o cümlədən həmin Qanunla Məcəllənin 72, 73, 74-cü maddələrindən "ilk dəfə" sözləri çıxarılmış, 72-ci maddəsinə "Qeyd" hissəsi əlavə edilmişdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qərarlarında da göstərilmişdir ki, cinayət məsuliyyətindən azad etməni o zaman əsaslandırılmış və ədalətli hesab etmək olar ki, cinayət törətdikdən sonra təqsirləndirilən şəxsin cəza təyin edilmədən azad edilməsi şəxsin hüquq və azadlıqlarının, bütün hüquq qaydalarının cinayətkar qəsddən müdafiəsinə maneə olmur və bununla yanaşı təqsirkar şəxsin islah olunmasına, yeni cinayətlərin törədilməsinin qarşısının alınmasına yardımçı, cinayət qanunvericiliyinin vəzifələrinə isə müvafiq olur və cəzanı tətbiq etmədən də onun məqsədlərinə nail olmağa imkan verir.

**Maddə 72. Səmimi peşmanlıqla bağlı cinayət məsuliyyətindən azad etmə**

*72.1. Böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs könüllü gəlib təqsirini boynuna aldıqda, cinayətin üstünün açılmasına fəal kömək etdikdə, cinayət nəticəsində dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri başqa yolla aradan qaldırdıqda cinayət məsuliyyətindən azad edilə bilər.*

*72.2. Başqa növ cinayət törətmiş şəxs, bu Məcəllənin 72.1-ci maddəsində nəzərdə tutulmuş şərtlər mövcud olduqda, yalnız bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində bilavasitə müəyyən edilmiş hallarda cinayət məsuliyyətindən azad edilir.*

**Qeyd:**

*1. Şəxs bu Məcəllənin 72–74-1-ci maddələrində nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilir.*

*2. Bu Məcəllənin 72–73-2-ci maddələrində nəzərdə tutulan cinayət əməli iştirakçılıqla törədildiyi hallarda, zərərçəkmiş şəxsə dəymiş ziyan və bu Məcəllənin 73-1.2, 73-1.3 və 73-2.2-ci maddələrində nəzərdə tutulan dövlət büdcəsinə ödəniş cinayətin iştirakçılarının hər birinin cinayətin törədilməsində faktiki iştirakının xarakterindən və dərəcəsindən, cinayətkar məqsədə nail olunmasında belə iştirakın əhəmiyyətindən, vurulmuş zərərin həcminə və xarakterinə onun təsirindən asılı olaraq məhkəmə tərəfindən müəyyən olunmuş pay üzrə ödənilir.*

*3. Bu Məcəllənin 73-1.2, 73-1.3 və 73-2.2-ci maddələrində nəzərdə tutulmuş cinayət şəxsin iradəsindən asılı olmayan səbəblərə görə başa çatmadığı hallarda, şəxsin həmin maddələrdə nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətindən azad edilməsi məsələsinə baxılarkən, dövlət büdcəsinə ödəniş başa çatmayan*

*cinayətə görə qəsdin yönəldiyi əmlakın on faizi miqdarında müəyyən olunur.*

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72-ci maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndində göstərilmişdir ki, şəxs bu Məcəllənin 72–73-2 və 74-1-ci maddələrində nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilir. Göründüyü kimi qanunverici şəxsin cinayət məsuliyyətindən azad olunması ilə bağlı müvafiq müddəalardan cinayətin ilk dəfə törədilmiş olması tələbini çıxararaq, cinayət məsuliyyətindən azad etmənin "yalnız bir dəfə" tətbiq oluna bildiyini təsbit etmişdir.

Bu dəyişikliklərin səbəbi ondan ibarət olmuşdur ki, əvvəllər törədilmiş cinayətə görə cinayət məsuliyyətindən azad olunmuş şəxs tərəfindən yenidən eyni və ya başqa cinayətlərin törədilməsi Cinayət Məcəlləsinin 16, 17 və 18-ci maddələrinin tələblərinə əsasən nə təkrarlığı, nə cinayətlərin məcmusunu, nə də residivi yaratdığından, həmin əməllər ilk dəfə törədilmiş hesab edilməklə şəxsin təkrar-təkrar məsuliyyətdən azad edilməsini mümkün edirdi.

Qanunverici tərəfindən Cinayət Məcəlləsinin 72-ci maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndi ilə məhdudiyyətin tətbiq edilməsi, yəni şəxsin müvafiq qaydada cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilə bilməsinin müəyyənləşdirilməsi şəxsin məhdudiyyətsiz şəkildə məsuliyyətdən azad edilməsinin qarşısını alır ki, burada da məqsəd cəmiyyətdə cəzasızlıq və məsuliyyətdən yayınmağın mümkünlüyü hissinin yaranmasının qarşısını almaq, məsuliyyətdən azad etmə institutunun tətbiqi zamanı Cinayət Məcəlləsinin qarşısında duran vəzifələrə mütənasibliyi qoruyub saxlamaqdır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Qeyd" hissəsinin 1-ci bəndinin şərh olunmasına dair 28 dekabr 2022-ci il tarixli qərarında da göstərilmişdir ki, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 72-ci maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndinin məzmunu kifayət qədər aydın və birmənalı olmaqla, imperativ qaydada Məcəllənin 72–73-2 və 74-1-ci maddələri ilə nəzərdə tutulmuş əsaslar üzrə mühakimə olunmaqdan ümumilikdə yalnız bir dəfə azad edilmənin mümkünlüyünü müəyyən etmişdir.

Həmçinin göstərilməlidir ki, Cinayət Məcəlləsinin 72-ci maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndinə uyğun olaraq cinayət məsuliyyətindən azad edildikdən sonra yenidən cinayət törətmiş şəxsin könüllü gəlib təqsirini boynuna alması, cinayətin açılmasına, onun digər iştirakçılarının ifşa edilməsinə, cinayət nəticəsində əldə edilmiş əmlakın axtarışına və tapılmasına fəal kömək etməsi, zərərçəkmiş şəxslə və ya onun yaxın qohumu olan hüquqi varisi ilə barışıq əldə edilməsi, cinayət nəticəsində dəymiş ziyanın könüllü olaraq tamamilə ödənilməsi və ya aradan qaldırılması, cinayət nəticəsində dəymiş ziyanın qismən ödənilməsi və ya ziyanın azaldılması ilə nəticələnmiş digər hərəkətlərin edilməsi Cinayət Məcəlləsinin 59-cu maddəsinə müvafiq olaraq cəzanı yüngülləşdirən hallar qismində cəza təyini cəzanın növünün və həddinin seçilməsi zamanı nəzərə alına bilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 9 yanvar 2023-cü il tarixli qərarında göstərilir ki, Cinayət Məcəlləsinin 72-ci maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndinin tələbinə görə, həmin Məcəllənin 72–73-2-ci maddələrində nəzərdə tutulan cinayət əməli iştirakçılıqla törədildiyi hallarda, zərərçəkmiş şəxsə dəymiş ziyan və bu Məcəllənin 73-1.2, 73-1.3 və 73-2.2-ci maddələrində nəzərdə tutulan dövlət büdcəsinə ödəniş cinayətin iştirakçılarının hər birinin cinayətin törədilməsində faktiki iştirakının xarakterindən və dərəcəsindən, cinayətkar məqsədə nail olunmasında belə iştirakın əhəmiyyətindən, vurulmuş zərərin həcminə və xarakterinə onun təsirindən asılı olaraq məhkəmə tərəfindən müəyyən olunmuş pay üzrə ödənilir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 40.5-ci maddəsinin tələbinə görə, Cinayət Məcəlləsinin 72–73-2-ci maddələrində nəzərdə tutulmuş cinayət əməlləri iştirakçılıqla törədildiyi hallarda, həmin Məcəllənin 72-ci maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndinə əsasən zərərçəkmiş şəxsə dəymiş ziyan və dövlət büdcəsinə ödənişin iştirakçıların hər biri tərəfindən müəyyən pay üzrə ödənilməsi məhkəməyədək icraat zamanı təhqiqatçının və ya müstəntiqin prokurorla razılaşdırılmış qərarı, məhkəmə icraatı zamanı isə məhkəmənin qərarı ilə həll olunur.

Göründüyü kimi, Cinayət Məcəlləsinin 73-1.2 və 73-1.3-cü maddələri müvafiq olaraq Cinayət Məcəlləsinin 178.2, 179.2, 186.2.1. 189-1.2-1, 178.3, 178.4, 179.3, 179.4-cü maddələrində göstərilən cinayətləri törətmiş şəxslərin cinayət məsuliyyətindən azad edilməsi şərtlərini təsbit edirsə, Məcəllənin 72-ci maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndi həmin cinayətlər iştirakçılıqla törədildiyi halda bu şərtlərin nə cür tətbiq edilməli olduğunu nəzərdə tutur.

Qeyd olunan normaların təhlili onu deməyə əsas verir ki, Cinayət Məcəlləsinin 73-1.2 və 73-1.3-cü maddələrində göstərilən cinayətlər iştirakçılıqla törədildiyi halda hər bir iştirakçı vurulmuş ziyanı və dövlət büdcəsinə ödənişi Cinayət Məcəlləsinin 72-ci maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndinin tələbinə uyğun olaraq müəyyən edilən pay üzrə tamamilə ödəməlidir.

Bu o deməkdir ki, iştirakçılıqla törədilən Cinayət Məcəlləsinin 73-1.2 və 73-1.3-cü maddələrində göstərilən cinayətlər üzrə vurulmuş ziyanın və dövlət büdcəsinə ziyanın müvafiq olaraq iyirmi beş və ya əlli faizi məbləğlərində ödənişin tamamilə ödənilməsi

dedikdə, məhz hər bir iştirakçı üçün müvafiq qaydada müəyyən edilmiş payı təşkil edən məbləğin zərərçəkmiş şəxsə və dövlət büdcəsinə tamamilə ödənilməsi ehtiva olunur. Yəni paylar müəyyən edildikdən sonra cinayətin hər bir iştirakçısının üzərinə zərərçəkmiş şəxsə və dövlət büdcəsinə ödənişlərin məhz onun payına müvafiq olan hissənin edilməsi vəzifəsi düşür.

Həmçinin Cinayət Məcəlləsinin 73-1.2 və 73-1.3-cü maddələrində cinayət məsuliyyətindən azad etmənin şərtləri qismində müəyyən edilmiş hallar onu göstərir ki, cinayət məsuliyyətindən azad etmə fərdi qaydada, ictimai-təhlükəli əməli törətmiş hər bir şəxsin cinayət prosesində nümayiş etdirdiyi davranışdan asılı olaraq tətbiq edilən, Məcəllənin 72-ci maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndi, 73-1.2 və 73-1.3-cü maddələrinə uyğun müsbət davranış göstərən (yəni müəyyən edilmiş pay üzrə ziyanı və ziyanın müvafiq faizi miqdarında dövlət büdcəsinə ödənişi etməklə zərərçəkmiş şəxslə barışıq əldə edən) təqsirləndirilən şəxsi belə davranış göstərməyən təqsirləndirilən şəxslərdən fərqləndirməyə xidmət edən güzəşt institutu kimi nəzərdə tutulmuşdur.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, Cinayət Məcəlləsinin 73–73-2-ci maddələrində nəzərdə tutulan cinayət əməli iştirakçılıqla törədildiyi hallarda zərərçəkmiş şəxslə barışmış, cinayətin iştirakçılarının hər birinin cinayətin törədilməsində faktiki iştirakının xarakterindən və dərəcəsindən, cinayətkar məqsədə nail olunmasında belə iştirakın əhəmiyyətindən, vurulmuş zərərin həcminə və xarakterinə onun təsirindən asılı olaraq müəyyən olunmuş pay üzrə zərərçəkmiş şəxsə dəymiş ziyanı tamamilə ödəmiş, o cümlədən Cinayət Məcəlləsinin 73-1.2-ci maddəsində nəzərdə tutulmuş qaydada cinayət nəticəsində vurulmuş ziyana müvafiq müəyyən olunmuş payın iyirmi beş faizi, həmin Məcəllənin 73-1.3-cü maddəsində nəzərdə tutulmuş halda isə vurulmuş ziyana müvafiq payın əlli faizi miqdarında dövlət büdcəsinə ödəniş etmiş şəxs cinayət məsuliyyətindən azad edilə bilər.

Cinayət Məcəlləsinin 73-1-ci maddəsində göstərilən iştirakçılıqla törədilən cinayət əməllərinin vurduğu ziyana görə birgə məsuliyyət daşıyan bir qrup şəxs tərəfindən törədilən cinayətlərə dair işlərdə, Cinayət Məcəlləsinin 73-1-ci maddəsinin bütün tələbləri yerinə yetirilmişsə, zərərin ödənilməsi və digər ödənişlər onlardan ən azı biri tərəfindən tam şəkildə yerinə yetirildiyi halda da cinayət prosesini həyata keçirən orqan cinayətin bütün iştirakçılarına qarşı cinayət təqibinə son qoya bilər.

Cinayət məsuliyyətindən azad etmənin cinayət təqibi orqanı və ya məhkəmənin mülahizəsinə əsasən həyata keçirildiyi hallarda, şəxsin məsuliyyətdən azad olunması məsələsi həll edilərkən təqsirləndirilən şəxsin zərərçəkmiş şəxslə barışması və ona vurulmuş ziyanı ödəməsi ilə yanaşı, iş üzrə əhəmiyyət kəsb edən digər hallar, o cümlədən təqsirkarın şəxsiyyətini səciyyələndirən xüsusiyyətlər, cinayətin törədilmə şəraiti və s. nəzərə alınaraq obyektiv və əsaslandırılmış qərar qəbul edilməlidir.

**Maddə 73. Zərərçəkmiş şəxslə barışmaqla bağlı cinayət məsuliyyətindən azad etmə**

*73.1. Böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri aradan qaldırdıqda cinayət məsuliyyətindən azad edilə bilər.*

*73.2. Bu Məcəllənin 127.1, 128, 129, 130, 131.2, 133.1, 134, 141.2-1, 142.1, 142.2, 143, 156.1, 157.1 və 158.1-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.*

*73.3. Başqa növ cinayət törətmiş şəxs, bu Məcəllənin 73.1-ci maddəsində nəzərdə tutulmuş şərtlər mövcud olduqda, yalnız bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində bilavasitə müəyyən edilmiş hallarda cinayət məsuliyyətindən azad edilir.*

Konstitusiya Məhkəməsi Plenumunun 25 iyul 2022-ci il tarixli qərarında qeyd olunmuşdur ki, məhkəmənin əvvəllər də qəbul etdiyi bir sıra qərarlarında Cinayət Məcəlləsinin 73-cü maddəsi ilə bağlı açıqlamalar verilmiş, o cümlədən "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 37.4, 39.1.9, 40.2 və 41.7-ci maddələrinin şərh edilməsinə dair" 2011-ci il 15 iyul tarixli Qərarında həmin maddəyə daha geniş təfsir verilmişdir.

Qeyd edilən Qərarda Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin 73-cü maddəsində nəzərdə tutulmuş zərərçəkmiş şəxslə barışmaqla əlaqədar cinayət məsuliyyətindən azad etmə institutu ilə bağlı aşağıdakıları göstərmişdir:

– zərərçəkmiş şəxsin təqsirləndirilən şəxslə barışması nəticəsində təqsirləndirilən şəxsin cinayət məsuliyyətindən azad edilməsi ilə əlaqədar cinayət işinə xitam verilməsinin əsaslarının və şərtlərinin müəyyənləşdirilməsi cinayət hüququnda dispozitivlik prinsipinin (cinayət prosesi subyektinin özünün maddi və prosessual hüquqlarından istifadə etmək imkanının) gücləndirilməsi kimi çıxış edir;

– Cinayət Məcəlləsinin 73-cü maddəsi bütün böyük ictimai təhlükə törətməyən cinayətlərə şamil edilir;

– Cinayət Məcəlləsinin 73-cü maddəsində imperativ norma ifadə edilməmişdir. Bu maddəyə müvafiq olaraq dispozitivliyin təsiri ictimailiklə bir müstəviyə qoyula bilməz. Belə ki, aralarında barışığa gəlmiş zərərçəkmiş şəxslə təqsirləndirilən şəxsin iradələrini ifadə etmələri işə xitam verilməsinə dair qərarın qəbul edilməsinə səbəb olmur, sadəcə səlahiyyətli orqanlar

tərəfindən belə qərarın qəbul edilməsini mümkün edən şərtlərdən biri qismində çıxış edir. Qanun belə qərarın qəbul edilməsini səlahiyyətli orqanların vəzifəsi deyil, hüququ kimi müəyyən etmişdir;

– Cinayət Məcəlləsinin 73-cü maddəsinə əsasən zərərin ödənilməsi cinayət məsuliyyətindən azad edilmənin ən vacib şərtlərindən biridir.

Həmin Qərarda həmçinin qeyd edilmişdir ki, Cinayət Məcəlləsinin 73-cü maddəsi cinayət təqibinə xitam verilməsinin aşağıdakı şərtlərini müəyyən etmişdir:

– barəsində cinayət təqibi başlanmış şəxsin əməli böyük ictimai təhlükə törətməyən;

– təqsirləndirilən şəxs zərərçəkmişə dəymiş ziyanı ödəmiş və ya vurulmuş zərəri aradan qaldırmış;

– təqsirləndirilən şəxs zərərçəkmişlə barışmış olmalıdır.

Göstərilən şərtlərin hamısı mövcud olduqda, təqsirləndirilən şəxs cinayət məsuliyyətindən azad oluna bilər.

Konstitusiya Məhkəməsi Plenumunun adı çəkilən Qərarındakı Cinayət Məcəlləsinin 73-cü maddəsi ilə bağlı olan hüquqi mövqelər bütövlükdə hazırda qüvvədə olan həmin Məcəllənin 73.1-ci maddəsinə də aiddir.

Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin 73-cü maddəsinin tələblərinə və özünün bu maddə ilə bağlı əvvəlki qərarlarındakı hüquqi mövqelərinə əsaslanaraq belə nəticəyə gəlir ki, zərərçəkmiş şəxslə barışmaqla bağlı cinayət məsuliyyətindən azad etmə yalnız müəyyən şərtlər daxilində mümkündür.

Qeyd edildiyi kimi, Cinayət Məcəlləsinin 73.1-ci maddəsinin tələbləri baxımından cinayət məsuliyyətindən azad etmənin ilk şərti böyük ictimai təhlükə törətməyən cinayətin törədilməsidir.

Lakin bu zaman cinayət törətmiş şəxsi xarakterizə edən halların nəzərə alınması böyük əhəmiyyət kəsb edir. Belə ki, cinayət törətmiş şəxsin ictimai təhlükəlilik dərəcəsinin müəyyən edilməsi zamanı məhkəmə təcrübəsi, ilk növbədə, törədilmiş cinayətin xarakterindən və ağırlıq dərəcəsindən, həmçinin təqsirləndirilən şəxsin cinayəti törədənədək və törətdikdən sonrakı hərəkətlərini (şəxsiyyətini) səciyyələndirən hallardan (belə halların dairəsi müxtəlifdir) çıxış edir. Bununla yanaşı onlardan bəziləri qanunun mətnində birbaşa göstərilmiş və mütləq əhəmiyyət kəsb edir. Cinayət Məcəlləsinin 73.1-ci maddəsində belə hallar sırasında böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxsin zərərçəkmiş şəxslə barışması və ona dəymiş ziyanı ödəməsi və ya vurulmuş zərəri aradan qaldırması müəyyən olunmuşdur. Yalnız göstərilən şərtlərin yerinə yetirilməsi böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb edilmədən islah olunmasının təminatı ola bilər.

Bu səbəbdən zərərçəkmiş şəxsin təqsirləndirilən şəxslə barışmasına dair ərizəsinə baxılarkən nəinki bunun üçün qanunla nəzərdə tutulan əsasların olub-olmaması yoxlanılmalı, həmçinin törədilmiş əməlin ictimai təhlükəliliyi, təqsirləndirilənin şəxsiyyəti, cəzanı ağırlaşdıran və yüngülləşdirən hallar da daxil olmaqla konkret işin bütün halları nəzərə alınmalıdır.

Artıq göstərildiyi kimi, 20 oktyabr 2017-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Cinayət Məcəlləsinə yeni məzmunlu 73.2-ci maddə əlavə edilmişdir. Həmin maddəyə əsasən, Cinayət Məcəlləsinin 127.1, 128, 129, 130, 131.2, 133.1, 134, 142.1, 143, 156.1, 157.1 və 158.1-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.

Burada nəzərə almaq lazımdır ki, Cinayət Məcəlləsinin 73.1-ci maddəsindən fərqli olaraq həmin Məcəllənin 73.2-ci maddəsi imperativ norma olmaqla, cinayət məsuliyyətindən azad etmənin şərti kimi cinayət törətmiş şəxsin zərərçəkmiş şəxslə barışığı çərçivəsində həm dəymiş maddi zərərin əvəzinin (məsələn, oğurlanmış, zədələnmiş əmlakın qaytarılması və ya onun dəyəri miqdarında pul kompensasiyasının) ödənilməsini, həm də dəymiş mənəvi zərərin bilavasitə ödənilməsi forması olaraq müəyyən kompensasiyanın ödənilməsini nəzərdə tutur.

Cinayət Məcəlləsinin 73.1 və 73.2-ci maddələrinin mətnindən göründüyü kimi, dəymiş zərərin ödənilməsi cinayət məsuliyyətindən azad edilmənin vacib şərtlərindən biridir.

Həmin maddələrdə nəzərdə tutulmuş zərərin ödənilməsi dedikdə, zərərin əvəzinin ödənilməsi ilə yanaşı, həmçinin cinayət nəticəsində zərərçəkmiş şəxsin pozulmuş hüquqlarının və qanuni maraqlarının bərpa edilməsinə yönəlmiş sair tədbirlər başa düşülməlidir.

Cinayət ilə (cinayət nəticəsində) zərərçəkmişə fiziki, maddi və mənəvi zərər vurula bilər.

Cinayət Məcəlləsinin 73-cü maddəsinin tələblərinə əsasən zərərçəkmiş şəxslə barışıq cinayət məsuliyyətindən azad edilmənin müstəqil şərti kimi nəzərdə tutulmuşdur. Törədilmiş cinayətin ictimai təhlükəlilik dərəcəsindən asılı olaraq, cinayət törətmiş şəxsin cəzalanmalı olub-olmaması məsələsinin zərərçəkmiş şəxsin mülahizəsinə verilməsi qanunvericinin zərərçəkmiş şəxsin maraqlarına hörmətlə yanaşmasına dəlalət edir və sosial ədalətin bərpa edilməsi məqsədini daşıyır. Əgər zərərçəkmiş şəxs hesab edirsə ki, təqsirləndirilən şəxs ondan üzr istədikdə, oğurlanmış əşyanı geri qaytardıqda, sındırılmış əmlakı bərpa etdikdə, dəymiş maddi və ya mənəvi zərəri ödədikdə və s. hallarda ədalət bərpa olunar, bu halda cinayət mühakimə icraatını həyata keçirən orqanlar cinayət təqibinin aparılmasında israrlı olmamalıdır.

Tərəflərin barışması səbəbindən cinayət təqibinə xitam verilməsi ilə cinayət məsuliyyətindən azad et-

mə özünün mühüm şərti kimi cinayət törətmiş şəxs və zərərçəkmiş şəxs arasında elə bir barışıq vəziyyətini nəzərdə tutur ki, bu, münaqişənin davamından imtinaya gətirib çıxarır.

Cinayət prosesini həyata keçirən orqan Cinayət Məcəlləsinin 73-cü maddəsinin tətbiqi ilə bağlı yekun nəticəyə gələrkən zərərçəkmiş şəxsin təqsirləndirilən şəxslə barışmasına dair iradəsinin təzyiq və yaxud hədə-qorxu ilə deyil, məhz sərbəst və şüurlu şəkildə ifadə edildiyini nəzərə almalıdır.

**Maddə 73-1. Mülkiyyət əleyhinə olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə**

*73-1.1. Bu Məcəllənin 178.1, 179.1, 185.1, 186.1, 187.1, 187.2, 189-1.1 və 189-1.2-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.*

*73-1.2. Bu Məcəllənin 178.2, 179.2 186.2.1, 189-1.2-1-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş, zərərçəkmiş şəxslə barışmış və dəymiş ziyanı tamamilə ödəmiş şəxs, cinayət nəticəsində vurulmuş ziyanın iyirmi beş faizi miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.*

*73-1.3. Bu Məcəllənin 178.3, 178.4, 179.3 və 179.4-cü maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş, zərərçəkmiş şəxslə barışmış və dəymiş ziyanı tamamilə ödəmiş şəxs, cinayət nəticəsində vurulmuş ziyanın əlli faizi miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilə bilər.*

**Maddə 73-2. İqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə**

*73-2.1. Bu Məcəllənin 209 və 213-cü maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.*

*73-2.2. Bu Məcəllənin 192, 192-1, 193, 195, 195-1, 196, 197, 198, 202-2, 203, 203-1.1, 205-2, 209.2.1, 209.3, 210, 211, 212 və 213-2-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş və cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödəmiş və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxs, bundan əlavə vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.*

**Maddə 74. Şəraitin dəyişməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə**

*Şəraitin dəyişməsi nəticəsində törədilmiş əməlin və ya bu əməli törətmiş şəxsin ictimai təhlükəli olmadığı müəyyən edildikdə, ilk dəfə böyük ictimai təhlükə törətməyən cinayət və ya az ağır cinayət törətmiş şəxs cinayət məsuliyyətindən azad edilə bilər.*

Cinayət hüquq nəzəriyyəsində şəraitin dəyişməsi dedikdə, cinayət törədilən ana qədər mövcud olan vəziyyətlə müqayisədə şəxsin həyatında şəraitin ciddi surətdə dəyişməsi başa düşülür. Belə hallarda şəraitin dəyişməsi şəxsin həyatı ilə bağlı olur. Bu, cinayət törədən şəxsin yaşayış yerini dəyişməsində, ali məktəbə daxil olmasında, həqiqi hərbi xidmətə getməsində və s. ifadə oluna bilər. Bundan başqa, Şəraitin dəyişməsi bütövlükdə ölkə miqyasında, yaxud ayrı-ayrı şəhər, rayon, hətta idarə və ya müəssisənin həyatında baş verə bilən mühüm dəyişikliyi məsələn, müharibə dövründə cinayət hesab edilən əməllərin müharibənin qurtarması ilə öz ictimai təhlükəliliyini itirməsi, meşədən ağac kəsmə cinayət hesab edildiyi halda, işin istintaqı qurtarana və ya məhkəmədə işə baxılana qədər yerində su elektrik stansiyasının tikilməsi, əməyin mühafizəsi qaydalarını pozmağa görə məsuliyyətə alınmış şəxsin iş yerini dəyişməsi və əmək mühafizəsi qaydalarının möhkəmləndirilməsinə yönəldilən sair tədbirlərin həyata keçirilməsi və s. nəzərdə tutur. Belə dəyişiklik ictimai münasibətlərdə baş verən elə dəyişiklikdir ki, bunun təsiri ilə cinayət əməli öz maddi əlamətini itirir, yaxud az əhəmiyyətli olur. Əməlin, yaxud bu əməli törətmiş şəxsin və ya hər iki halda ictimai təhlükəliliyin dəyişməsi dedikdə, təkcə ölkədəki sosial və siyasi şəraitin dəyişməsi deyil, həm də bu və ya digər rayonda, ərazidə, müəssisədə, idarədə və s. konkret vəziyyətin dəyişməsi başa düşülməlidir. Şəraitin dəyişməsi siyasi, iqtisadi və sosial sahələrdə baş verən dəyişikliklərlə də bağlı ola bilər. Şəraitin dəyişməsinin nisbətən geniş miqyasda baş verməsi ictimai münasibətlər sistemində elə dəyişikliyi nəzərdə tutur ki, bunun təsiri ilə cinayət əməli öz maddi əlamətini – ictimai təhlükəliliyini itirir.

Cinayət məsuliyyətindən azad etmənin bu növü iki halda tətbiq edilə bilər.Birincisi,istintaq zamanı və ya məhkəmə işə baxan zaman şəraitin dəyişməsi nəticəsində təqsirkarın etmiş olduğu əməl öz ictimai təhlükəlilik xarakterini itirdikdə.İkincisi,istintaq zamanı və ya məhkəmədə işə baxılarkən şəraitin dəyişməsi nəticəsində şəxs daha ictimai-təhlükəli olmadıqda.

Əməlin yaxud şəxsin ictimai-təhlükəliliyini aradan qaldıran şəraitin dəyişməsi heç də bütün hallarda bu institutun tətbiqini zəruri etmir. Bunun tətbiqi istintaq, təhqiqat və məhkəmə orqanlarının vəzifəsi yox, hüququdur.

Deməli, məsuliyyətdən azad etmənin bu növünün tətbiqi üçün əsaslar: törədilmiş əməlin və ya bu əməli törətmiş şəxsin ictimai təhlükəli olmadığı müəyyən edilməli, şəxs ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş şəxs olmalı və bunlar hamısı şəraitin dəyişməsi nəticəsində baş verməlidir.

**Maddə 74-1. Narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad etmə**

*74-1.1. Bu Məcəllənin 234.1-ci maddəsində nəzərdə tutulmuş cinayəti törətmiş, əməlində başqa cinayət tərkibi olmayan və narkomaniya xəstəliyinə düçar olmuş şəxs barəsində məhkəmə tərəfindən bu xəstəliklə əlaqədar stasionar qaydada tibbi xarakterli məcburi tədbirlər tətbiq edilir. Həmin şəxsin tam sağalması nəticəsində tibbi xarakterli məcburi tədbirlər ləğv edildikdə, məhkəmə şəxsi cinayət məsuliyyətindən azad edir.*

*74-1.2. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiqindən yayınmış şəxs həmin tədbirlərin həyata keçirildiyi tibb müəssisəsinin müdiriyyətinin məlumatı əsasında bu Məcəllənin 75.1-ci maddəsində göstərilən müddət keçməmişdirsə, cinayət məsuliyyətinə cəlb edilir.*

**Maddə 75. Müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə**

*75.1. Cinayət törətdiyi gündən aşağıda müəyyən edilən müddətlər keçdikdə, şəxs cinayət məsuliyyətinə cəlb edilə bilməz:*

*75.1.1. böyük ictimai təhlükə törətməyən cinayətin törədildiyi gündən iki il keçdikdə;*

*75.1.2. az ağır cinayətin törədildiyi gündən yeddi il keçdikdə;*

*75.1.3. ağır cinayətin törədildiyi gündən on iki il keçdikdə;*

*75.1.4. xüsusilə ağır cinayətin törədildiyi gündən iyirmi il keçdikdə.*

*75.2. Müddətlər, cinayətin törədildiyi gündən ittiham hökmünün qanuni qüvvəyə mindiyi anadək hesablanır. Şəxs yeni cinayət törətdikdə, hər bir cinayətə görə müddət müstəqil hesablanır.*

*75.3. Cinayət törətmiş şəxs istintaqdan və ya məhkəmədən gizlənərsə, müddətin axımı dayanır. Bu halda müddətin axımı, həmin şəxs tutulduğu və ya könüllü gəlib təqsirini boynuna aldığı vaxtdan bərpa olunur.*

*75.4. Ömürlük azadlıqdan məhrum etmə növündə cəza nəzərdə tutulan cinayəti törətmiş şəxs barəsində müddətin tətbiq olunması məsələsi məhkəmə tərəfindən həll edilir. Məhkəmə, müddətin keçməsi ilə bağlı bu şəxsin cinayət məsuliyyətindən azad olunmasını mümkün hesab etmədikdə, həmin şəxsə ömürlük azadlıqdan məhrum etmə növündə cəza təyin edə bilməz.*

*75.5. Bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş sülh və insanlıq əleyhinə, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və müharibə cinayətləri törətmiş şəxslərə bu maddənin müddəaları tətbiq olunmur.*

Azərbaycan Respublikasının Prokurorluğu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə ünvanladığı sorğuda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 16 və 75-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, cinayət qanunvericiliyində ittiham hökmünün qanuni qüvvəyə mindiyi anadək təkrarlığı yaradan cinayətlərin hər birinə görə ayrılıqda cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdiyi halda, şəxsin cinayətin təkrar törədilməsinə görə məsuliyyətə cəlb edilməsinə dair təcrübədə müxtəlif yanaşmalar mövcuddur.

Eyni zamanda Cinayət Məcəlləsinin Xüsusi hissəsində birbaşa göstərilmiş hallarda (həmcins) cinayətlərin təkrar törədilməsi zamanı ilkin əmələ görə cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdikdə, şəxsin cinayətin təkrarlığına görə məsuliyyətə cəlb edilməsi təcrübədə çətinlik yaradır.

Belə ki, təkrarlığı yaradan ilkin cinayət böyük ictimai təhlükə törətməyən cinayət olduqda və həmin əmələ görə hökm qanuni qüvvəyə minənədək iki ildən artıq müddət keçdikdə, müddətin keçməsi ilə bağlı şəxs həmin cinayətə görə məsuliyyətdən azad edilir. Bu isə sonrakı əməlin təkrarlıq ilə tövsif edilməsinin mümkünlüyündə fikir ayrılığı yaradır.

Konstitusiya Məhkəməsi Plenumunun 15 mart 2022-ci il tarixli sorğuya uyğun olaraq qəbul etdiyi qərarında göstərilir ki, hər bir əmələ görə cinayət məsuliyyətinə cəlb etmə müddətinin müstəqil hesablanmalı olması birbaşa Cinayət Məcəlləsinin 75-ci maddəsinin tələbindən irəli gəlir. Həmin maddədə cinayətin xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən asılı olaraq konkret müddətlərin keçməsinə görə şəxsin cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuşdur. Maddədə göstərilmiş müvafiq müddətlər keçdikdə, şəxsin cinayət məsuliyyətinə cəlb edilə bilməməsi imperativ formada qeyd olunmuşdur. Nəzərə alınmalıdır ki, cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdikdə, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39-cu maddəsinin tələbinə uyğun olaraq cinayət təqibi və ya cinayət işi üzrə icraat başlanıla bilməz, başlanmış cinayət təqibinə və ya cinayət işi üzrə icraata isə xitam verilməlidir. Cinayət məsuliyyətinə cəlb etmə müddətinin keçməsi bəraətverici əsas hesab olunmayan cinayət təqibini istisna edən hallara aid olduğundan, bu əsasla cinayət təqibinə xitam verilərkən həmin Məcəllənin 41.2-ci maddəsinin tələblərinə əməl edilməlidir.

Cinayət Məcəlləsinin 75.2-ci maddəsində təsbit edilmişdir ki, müddətlər, cinayətin törədildiyi gündən ittiham hökmünün qanuni qüvvəyə mindiyi anadək hesablanır. Şəxs yeni cinayət törətdikdə, hər bir cinayətə görə müddət müstəqil hesablanır.

Maddənin məzmunundan göründüyü kimi, yeni cinayətin törədilməsi əvvəlki cinayətə görə cinayət məsuliyyətinə cəlb etmə müddətinin axımını dayandırmır

və hər bir cinayət üzrə bu müddət müstəqil hesablanır.

Qanunverici Cinayət Məcəlləsinin 75.2-ci maddəsini bütün cinayətlərin yenidən törədilməsi hallarına aid olan norma kimi nəzərdə tutmuş və Cinayət Məcəlləsinin eyni maddəsi üzrə və yaxud bu Məcəllənin Xüsusi hissəsində birbaşa göstərilmiş hallarda (həmcins) cinayətlərin yenidən törədilməsi halları üçün fərqli qayda müəyyən etməmişdir.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində əks olunan uzanan və davam edən cinayətlərlə bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 75-ci maddəsinin şərh olunmasına dair" 2006-cı il 27 dekabr tarixli Qərarında qeyd olunmuşdur ki, cinayət məsuliyyətinə cəlb etmə müddətləri hüquqi müəyyənliyin və qətiliyin təmin olunmasına, eləcə də vaxtın keçməsinə görə sübutetmə prosesinin və kifayət qədər toplanması mümkün olmayan sübutlar əsasında məhkəmələrdən qərar qəbul edilməsi tələb edildiyi halda, müdafiə olunan şəxslərin hüquqlarına zərər vura biləcək qəsdlərin qarşısının alınmasına xidmət edir.

Beləliklə, Məcəllənin 75-ci maddəsinin müddəaları onu göstərir ki, şəxs törədilmiş əmələ görə qanunla müəyyən olunmuş müddətin keçməsi səbəbindən məsuliyyətdən azad olunur və onun həmin əmələ görə məsuliyyətə cəlb edilməsi istisna olunur.

Xüsusilə qeyd edilməlidir ki, təkrarlıq cinayətlərin çoxluğunu ehtiva etdiyindən, şəxsin bu əlamət üzrə məhkum edilməsi mütləq şəkildə onun məhz iki və ya daha çox cinayətin törədilməsində təqsirli bilinməsinə əsaslanmalıdır. Şəxs eyni zamanda iki və ya daha çox eyni və ya həmcins cinayətlərin törədilməsində təqsirli bilinməlidir ki, onun əməlində cinayətlərin çoxluğunu nəzərdə tutan Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddələrinin tərkib əlamətlərinin mövcudluğunu göstərmək mümkün olsun. Məhkəmə baxışı nəticəsində təkrarlığa daxil olan iki cinayətdən birinə görə cinayət məsuliyyətinə cəlb etmə müddətinin keçməsi müəyyən edilərsə və bu səbəbdən həmin əmələ görə cinayət təqibinə xitam verilərsə, təqsirləndirilən şəxsin əməlində cinayətlərin çoxluğu mövcud olmadığından, onun əməlinin təkrarlıq əlaməti üzrə tövsif edilməsi də istisna edilir. Bu səbəbdən ikinci əmələ münasibətdə bütün hüquqi məsələlər, o cümlədən cinayət məsuliyyətinə cəlb etmə müddətinin müəyyən edilməsi ikinci əməlin təkrarən törədilən əməl kimi deyil, belə əlamətlə müşayiət olunmayan cinayət kimi həll edilməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, eyni və yaxud həmcins yeni cinayətin törədilməsi əvvəlki cinayətə görə cinayət məsuliyyətinə cəlb etmə müddətinin axımını kəsmir və bu səbəbdən cinayətlərin təkrar törədilməsi vəziyyətində də yeni cinayətin törədilməsi təkrarlığa daxil olan əvvəlki cinayətə müstəqil cinayət kimi yanaşılmasını və ümumiyyətlə təkrarlığı təşkil edən hər bir cinayətə görə cinayət məsuliyyətinə cəlb etmə müddətinin ayrı-ayrılıqda hesablanmasını istisna etmir.

Göstərilənlərə əsasən belə nəticəyə gəlinir ki, Cinayət Məcəlləsinin 16 və 75-ci maddələrinin tələblərinə, həmçinin Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı hüquqi mövqelərə görə, təkrarlıq müstəqil eyni və ya həmcins cinayətlərdən təşkil olunan cinayətlərin çoxluğu olduğundan, cinayətin törədildiyi gündən ittiham hökmünün qanuni qüvvəyə mindiyi anadək hesablanan cinayət məsuliyyətinə cəlb etmə müddəti ayrı-ayrılıqda hər bir cinayətə münasibətdə müəyyən edilməli, təkrarlığı təşkil edən cinayətlərdən birinə görə cinayət məsuliyyətinə cəlb etmə müddətinin keçməsi ilə əlaqədar şəxs cinayət məsuliyyətindən azad olunduqda, onun əməlinin cinayətlərin təkrar törədilməsi əlaməti üzrə tövsif edilməsinə və yaxud təkrarlığın Cinayət Məcəlləsinin 61.1.1-ci maddəsinə əsasən cəzanı ağırlaşdıran hal qismində nəzərə alınmasına yol verilməməlidir.

Cinayət məsuliyyətinə cəlb etmə müddətinin keçməsi ilə əlaqədar bir məsələyə də diqqət yetirilməlidir.

Belə ki, 2000-ci ilədək qüvvədə olan Cinayət Məcəlləsinin 6-cı maddəsinə əsasən əməlin cinayət olması və bunun üçün cəza verilməsi həmin əməlin törədildiyi zaman qüvvədə olan qanunla müəyyən edilir. Əməlin cinayət və cəzalanmalı olmasını aradan qaldıran, cəzanı yüngülləşdirən, yaxud cinayət etmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran qanunun geriyə qüvvəsi vardır. Əməlin cinayət və cəzalanmalı olmasını müəyyən edən, cəzanı ağırlaşdıran, yaxud cinayət etmiş şəxsin vəziyyətini başqa cür ağırlaşdıran qanunun geriyə qüvvəsi yoxdur.

2000-ci ilədək qüvvədə olan Cinayət Məcəlləsinin 44.3-cü maddəsinin tələblərinə əsasən cinayət etmiş şəxs istintaqdan və ya məhkəmədən gizlənərsə, cəlb etmə müddəti dayandırılır. Belə hallarda müddətin keçməsi həmin şəxs tutulan vaxtdan və ya könüllü gəlib təqsirini boynuna alan zamandan yenidən başlanır. Həm də, əgər cinayət edildiyi vaxtdan 15 il keçərsə və müddət yeni cinayətin edilməsi ilə kəsilməmişdirsə, şəxs cinayət məsuliyyətinə cəlb oluna bilməz.

2000-ci ilədək qüvvədə olan Cinayət Məcəlləsinin 44.4-cü maddəsinin tələblərinə əsasən ömürlük azadlıqdan məhrum etmə cəzası təyin edilə bilən şəxs barəsində cinayət məsuliyyətinə cəlb etmə müddətinin tətbiq edilməsi məsələsini məhkəmə həll edir. Hazırda qüvvədə olan Cinayət Məcəlləsinin 75.4-cü maddəsi yuxarıda qeyd olunan maddə ilə həmin hissədə eynilik təşkil edir.

Hazırda qüvvədə olan Cinayət Məcəlləsinin 10.1-ci maddəsinə əsasən əməlin (hərəkət və ya hərəkət-

sizliyin) cinayət sayılması və həmin əmələ görə cəza, bu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədildiyi zaman qüvvədə olan cinayət qanunu ilə müəyyən edilir. Törədildiyi zaman cinayət sayılmayan əmələ görə heç kəs cinayət məsuliyyətinə cəlb oluna və cəzalandırıla bilməz. Həmin Məcəlləsinin 10.3-cü maddəsinə əsasən əməlin cinayət sayılmasını və bu əmələ görə cəzanı aradan qaldıran, cəzanı yüngülləşdirən, yaxud cinayət etmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran cinayət qanununun geriyə qüvvəsi vardır, yəni həmin qanunun qüvvəyə minməsindən əvvəl müvafiq əməli (hərəkət və ya hərəkətsizliyi) törətmiş şəxslərə, habelə cəza çəkən, yaxud cəzasını çəkmiş, lakin məhkumluğu üstündən götürülməmiş və ya ödənilməmiş şəxslərə şamil edilir.

Hazırda qüvvədə olan Cinayət Məcəlləsinin 75.3-cü maddəsinə əsasən cinayət törətmiş şəxs istintaqdan və ya məhkəmədən gizlənərsə, müddətin axımı dayanır. Bu halda müddətin axımı, həmin şəxs tutulduğu və ya könüllü gəlib təqsirini boynuna aldığı vaxtdan bərpa olunur.

"Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" 02.07.2001-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə edilən dəyişikliklərdən sonra hazırda Qüvvədə olan Cinayət-Prosessual Məcəlləsinin 53.7-ci maddəsinə əsasən təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin istintaqdan və ya məhkəmədən gizlənməsi, ömürlük azadlıqdan məhrum etmə növündə cəza nəzərdə tutulan cinayətin törədilməsi, habelə sülh və insanlıq əleyhinə və müharibə cinayətləri törədilməsi halları istisna edilməklə, cinayət məsuliyyətinə cəlb etmə müddətlərinin keçməsi ilə əlaqədar cinayət törətmiş şəxslərin müəyyən edildiyi cinayət təqibi üzrə dayandırılmış icraata xitam verilir.

Qeyd olunan maddələrin müddəaları belə qənaətə gəlməyə əsas verir ki, 01.09.2000-ci ilədək, yəni hazırkı Cinayət Məcəlləsi güvvəyə minənədək cinayət törətmiş şəxs barəsində hər bir halda əməlin törədildiyi zaman qüvvədə olan cinayət qanunu tətbiq ediləcəkdir, çünki 2000-ci ilədək qüvvədə olan Cinayət Məcəlləsinin 44-cü maddəsi ilə(Cinayət məsuliyyətinə cəlb etmə müddətləri) hazırda qüvvədə olan Cinayət Məcəlləsinin 75-ci maddəsi (Müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə) müqayisə edildikdə hazırda qüvvədə olan cinayət qanunu cinayət törətmiş şəxsin vəziyyətini ağırlaşdırır.

Bu səbəbdən, 2000-ci ilədək törədilmiş cinayət əməli üzrə təqsirləndirilən şəxs qismində cəlb edilmiş şəxs 2000-ci ilədək qüvvədə olan Cinayət Məcəlləsinin 44.3-cü maddəsinin tələblərinə əsasən cinayət məsuliyyətinə cəlb oluna bilməz.

Yəni, misal olaraq 1992-ci ildə 2000-ci ilədək qüvvədə olan Cinayət Məcəlləsinin 95-ci maddəsi (hazırda qüvvədə olan Cinayət Məcəlləsinin 120.1-ci maddəsi) ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş şəxs 2000-ci ilədək qüvvədə olan Cinayət Məcəlləsinin 44.3-cü maddəsinin tələblərinə əsasən cinayətin törədildiyi vaxtdan 15 il müdddətin keçməsi səbəbi ilə cinayət məsuliyyətinə cəlb edilə bilməz.

Bundan əlavə 2000-ci ildən sonra baş vermiş cinayət hadisələri üzrə cinayət törətmiş şəxslərin müəyyən edildiyi hallarda, cinayətlərin təsnifatında mövcud dəyişikliklər cinayət qanununun zamana görə qüvvəsi nəzərə alınmaqla, hazırda qüvvədə olan Cinayət Məcəlləsinin 75.1-ci maddəsində qeyd olunmuş müddətlər keçdikdə, şəxsin istintaqdan və ya məhkəmədən gizlənməsi, ömürlük azadlıqdan məhrum etmə növündə cəza nəzərdə tutulan cinayəti törətməsi, sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətləri törətməsi istisna olmaqla, şəxs cinayət məsuliyyətinə cəlb edilə bilməz.

Yəni, misal olaraq 2004-cü ildə hazırda qüvvədə olan Cinayət Məcəlləsinin 321.1-ci maddəsində qeyd olunan cinayəti törətmiş və təqsirləndirilən şəxs qismində cəlb edilmiş, lakin xəstəliyi ilə əlaqədar olaraq icraatı dayandırılmış cinayət işi üzrə icraata hazırda qüvvədə olan Cinayət-Prosessual Məcəlləsinin 39.1.3-cü maddəsinə əsasən, yəni cinayət məsuliyyətinə cəlb etmə müddətlərinin keçməsi səbəbi ilə xitam verilməsi mümkündür.

Bunuda qeyd etmək lazımdır ki, hazırda qüvvədə olan Cinayət-Prosessual Məcəlləsinin 41.2-ci maddəsinə əsasən təhqiqatçı, müstəntiq və ya prokuror bəraətverici əsaslar olmadıqda təqsirləndirilən (şübhəli şəxsin), habelə ölmüş təqsirləndirilən (şübhəli) şəxsin və ya cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş, lakin təqsirləndirilən (şübhəli) şəxs qismində tanınanadək ölmüş şəxsin hüquqi varisinin, hüquqi varis müəyyən edilmədiyi, o cümlədən bu Məcəllənin 106-1.4-cü maddəsində nəzərdə tutulmuş hallarda müdafiəçinin, barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsinin razılığı olmadan cinayət təqibinə xitam verilməsi barədə qərar çıxara bilməz. Belə halda cinayət təqibi üzrə icraat bu Məcəllə ilə müəyyən edilmiş qaydada davam etdirilir və hökmün, məhkəmənin digər qərarının çıxarılması ilə başa çatdırılır.

Bu səbəbdən yuxarıda qeyd olunan hər iki halda, təqsirləndirilən şəxsin və ya onun hüquqi varisinin razılığı olmadıqda, həmin işlər üzrə ibtidai istintaq davam etdirilərək işin hallarından asılı olaraq baxılması üçün məhkəməyə veriləcək və ya iş üzrə icraata bəraətverici əsaslarla xitam veriləcəkdir.

**Fazil Həsənəliyev,**
**Elm-Tədris Mərkəzinin rəisi,**
**III dərəcəli dövlət ədliyyə müşaviri**

# Azərbaycan süni intellekt ideyalarına əsaslanan yeni inkişaf mərhələsinə keçid ərəfəsində

***"Azərbaycanda süni intellektin həm inkişafı, həm də həyatda, iqtisadiyyatda, texnoloji inkişafda tətbiqi bu gün reallıqdır."***

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**



Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ölkəmizin rəqəmsal iqtisadiyyata keçidinin sürətləndirilməsi, bunun üçün əlverişli infrastrukturun yaradılması və 4-cü sənaye inqilabı texnologiyalarının tətbiqi imkanlarının tədqiq olunması tədbirləri müəyyənləşdirilmişdir. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası"nda informasiya təhlükəsizliyi üzrə yarana biləcək təhdidlərin və risklərin əvvəlcədən müəyyən edilməsi, eləcə də onlara qarşı görülməli tədbirlərin proqnozlaşdırılması məqsədilə süni intellekt əsaslı həllərin işlənib hazırlanması və tətbiqinin təşkil edilməsi nəzərdə tutulur.

Bu sənəd ölkənin süni intellekt sahəsində inkişafını sürətləndirmək, rəqəmsal inkişafı dəstəkləmək və qlobal süni intellekt ekosistemində Azərbaycanın rolunu gücləndirmək məqsədi daşıyır.

Strategiyanın əsas məqsədləri sırasında qeyd edilən sahədə innovasiya və rəqəmsal inkişafın təşviqi, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, süni intellekt əsaslı məlumat idarəetməsinin təşkili, ixtisaslı kadr hazırlığı, bilik və bacarıqların genişləndirilməsi, dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi, məlumat təhlükəsizliyi və etik qaydalara əsaslanan idarəetmə mexanizmlərinin qurulması yer alır.

Süni intellektin inkişafı üçün əsas infrastruktur tədbirləri çərçivəsində yüksəksəviyyəli hesablama resurslarının qurulması, açıq məlumat bazalarının yaradılması və süni intellektin müxtəlif istiqamətlərdə, xüsusilə Təbii Dil Emalı texnologiyalarında tətbiqi nəzərdə tutulur. Məlumat keyfiyyətinin artırılması və böyük həcmli verilənlərin effektiv şəkildə emal edilməsi üçün milli məlumat strategiyasının hazırlanması planlaşdırılır.

Bununla yanaşı, süni intellekt sahəsində akademik tədqiqatlara dəstək verilməsi və ali təhsil müəssisələrində yeni tədris proqramlarının tətbiq olunması da əsas prioritetlərdəndir. Konsepsiya çərçivəsində beynəlxalq əməkdaşlıqların inkişaf etdirilməsi də nəzərdə tutulur. Strategiyaya əsasən, süni intellekt sahəsində startap ekosisteminin inkişafı üçün investisiyaların artırılması, süni intellektin kommersiyalaşdırılmasını dəstəkləyən təşəbbüslərin həyata keçirilməsi, startap və sahibkarların dəstəklənməsi, yerli və xarici investorların bu sahəyə cəlb edilməsi planlaşdırılır.

Həmçinin süni intellekt sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə dəstək mexanizmlərinin genişləndirilməsi, o cümlədən güzəştli kreditlərin verilməsi ilə bağlı tədbirlər görüləcək.

Süni intellekt texnologiyalarının etik istifadəsi və təhlükəsizliyinin təmin edilməsi strategiyanın mühüm





rindəndir. İnsanların asudə vaxtını, istehsal və digər fəaliyyət sahələrində məhsuldarlığı artırmaq və bu kimi üstünlükləri ilə həyatımızın "asanlaşdırılmasına" xidmət edən bu kimi sistemlərə üz tuturlar.

Süni intellekt (AI) — insan zəkasına bənzər şəkildə düşünə və qərar verə bilən kompüter texnologiyasıdır. Bu texnologiya maşın öyrənməsi və dərin öyrənmə kimi sahələri əhatə edir. Süni intellekt, kompüterlərin öyrənmə, anlama, problem həll etmə və yaradıcılıq kimi insan bacarıqlarını təqlid etməsini təmin edir.

Əksər insanlar "süni intellekt" deyəndə adətən ChatGPT kimi danışıq modellərini və ya şəkil, video yaradan texnologiyaları nəzərdə tutur. Bu texnologiyalar insana xas olan yazmaq, yaratmaq, analiz etmək və ya avtomobil idarə etmək kimi funksiyaları yerinə yetirə bilir. Süni intellekt çevik olması və sahib olduğu bacarıqlara görə artıq gündəlik həyatın bir hissəsinə çevrilib.

Süni intellektin müxtəlif növləri ilə bağlı daha bir maraqlı yanaşma Miçiqan Dövlət Universitetinin İnteqrativ Biologiya və Kompüter Elmləri və Mühəndisliyi dosenti olan Arend Hintzeyə məxsusdur. Onun şərhinə görə, süni intellektin dörd növü vardır:

**1. Reaktiv maşınlar:** Bu maşınların yaddaşı yoxdur, verilənləri yaddaşda saxlamaq qabiliyyətinə malik deyillər. Ona görə də onlar keçmiş təcrübələrindən öyrənə bilmir və yalnız verilən məlumatlara reaksiya verirlər. Bu tip süni intellekt sistemlərinə nümunə kimi Deep Blue qeyd oluna bilər. IBM şirkətinin yaratdığı bu superkompüter 1990-cı illərdə şahmat qrossmeysteri Harri Kasparovu məğlub etməklə məşhur olmuşdu. Deep Blue-nun şahmat bacarığı əvvəlki təcrübələrdən irəli gəlmir, o, sadəcə mövcud vəziyyəti təhlil edir, proqnozlar verir və mümkün olan ən yaxşı hərəkəti seçir.

**2. Məhdud yaddaş:** Reaktiv maşınlardan fərqli olaraq, bu süni intellekt sistemləri keçmiş təcrübələrini təhlil etmək bacarığına malikdir. Məsələn, sürücüsüz avtomobillər qısamüddətli yaddaşla işləyir. Bu yaddaşda işıqforlara, yol nişanlarına, piyadalara və döngələr kimi başqa elementlərə diqqət yetirərkən digər avtomobillərin sürəti və istiqaməti barədə məlumatlar toplanılır və sonradan ani qərarların verilməsində istifadə olunur.

**3. Ağıl (zəka) nəzəriyyəsi:** Bu tip süni intellekt sistemi hər kəsin öz inanclarına, duyğularına, fikirlərinə və gözləntilərinə sahib olduğunu və buna görə hərəkət etdiyini anlayan bir sistemdir. Hesab edirik ki, hələ belə bir sistem yaradılmayıb.

istiqamətlərindən biridir. Bu məqsədlə tənzimləyici çərçivənin yaradılması, süni intellekt alqoritmlərinin şəffaflığının təmin edilməsi, məlumat qərəzinin aradan qaldırılması və kibertəhlükəsizliyin gücləndirilməsi istiqamətində tədbirlər həyata keçiriləcək.

Eyni zamanda ictimaiyyətin süni intellekt texnologiyalarına dair məlumatlılığının artırılması və onlardan istifadənin cəmiyyət üçün faydaları barədə maarifləndirici kampaniyaların aparılması nəzərdə tutulur. Yeni strategiyanın həyata keçirilməsi Azərbaycanı süni intellekt texnologiyalarının inkişafı sahəsində regionda liderlər sırasına daxil edəcək və ölkənin rəqəmsal inkişafına mühüm töhfə verəcək. Bu strategiya, həmçinin süni intellekt ekosisteminin formalaşdırılması və ölkənin qlobal süni intellekt platformalarında aktiv iştirakını təmin etmək üçün bir yol xəritəsi kimi çıxış edəcək.

Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyev mötəbər tədbirlərdə "Elektron Prokurorluq" informasiya sisteminin bütün prokurorluq orqanlarında tətbiq olunduğu, bu sistemin həmçinin cinayət-prosessual fəaliyyətin rəqəmsal müstəviyə keçməsinə imkan verdiyi bildirilməklə müasir çağırışlara uyğun olaraq sistemin daim təkmilləşdirilməsi və mümkün fəaliyyət istiqamətləri üzrə süni intellektin tətbiq edilməsi imkanlarının nəzərdən keçirilməsi ilə bağlı göstərişlər vermişdir.

Qeyd etmək lazımdır ki, "Süni intellektə dair Milli Strategiyalar" Kanada, Çin, Danimarka, Finlandiya, İtaliya, Yaponiya, Meksika, Sinqapur, Cənubi Koreya, İsveç, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrdə də qəbul edilmişdir.

**Süni İntellekt (AI) nədir?**

Müasir cəmiyyətdə ağıllı maşınlar və texnologiya, xüsusilə də ağıllı kompüter proqramları kimi tanınan süni intellekt sistemləri dövrün aktual problemlə-

**4. Özünüdərketmə:** Bu tip süni intellekt sistemi də mövcud deyil. Bu son səviyyə şüura sahib olan hesablama cəhətdən ağıllı sistemləri əhatə edir. Onlar insanlar kimi ətraf mühiti və digər insanların hisslərini anlayarkən onların istəklərindən xəbərdar olacaqlar.

### Süni İntellekt alətləri

AI bu gün texnologiya, maliyyə, marketinq, nəqliyyat, təhsil hətta tibb daxil olmaqla bir çox sahədə istifadə olunur. Onun istifadə sahələri getdikcə genişlənir və cəmiyyətə ciddi təsir edir. Bir çox (AI) – süni intellekt alətləri günümüzdə bir çox insanın işlədiyi sahə ilə bağlı işlərini daha da asanlaşdırır. Bu alətlərlə aşağıdakılar daxildir.

- ✓ Yazı yazma alətləri: ChatGPT, Grammarly, Jasper, Rytr, Wordtune.
- ✓ Kod yazma alətləri: GitHub Copilot, Tabnine, Replit Ghostwriter, CodeWhisperer, MutableAI.
- ✓ Təqdimat hazırlamaq üçün alətlər: Beautiful.ai, SlidesAI, Gamma App, Tome App, Canva.
- ✓ SEO üçün alətlər: Frase, Surfer SEO, ClearScope, GrowthBar.
- ✓ Şəkil hazırlamaq üçün alətlər: DALL-E 2 (OpenAI), Midjourney, Stable Diffusion.
- ✓ Video hazırlamaq üçün alətlər: Kling AI, Runway ML, Synthesia, Pictory AI, InVideo, Lumen5.
- ✓ Araşdırma üçün alətlər: Elicit, Consensus, Scispace, Research Rabbit, Connected Papers.
- ✓ Kontent yaratmaq üçün alətlər: Jasper, Copy.ai, Writesonic, Anyword, Simplified.

### Süni intellekt tarixi

1950-ci ildə Alan Turing maşının ağıllı olub-olmadığını müəyyən etmək üçün bir test hazırladı. Bu test ağıllı kompüterin məlumatı analiz etmə gücünü göstərirdi. Testdən keçmiş maşınların analiz etmə gücü o dövr üçün kifayət qədər yüksək hesab olunurdu. 1957-ci ildə John McCarthy tərəfindən hazırlanmış LISP (List Processing Language – Siyahıların Emalı Dili) funksional proqramlaşdırma dili süni intellekt üçün nəzərdə tutulmuşdur. Sahə üzrə ilkin, amma güclü nəzəriyyəsi olan proqramlaşdırma dillərindən biri olan LISP, siyahı strukturu ilə əsas əməliyyatları əks etdirən çevik proqramları yaratmağa imkan verirdi. 1965-1970-ci illəri süni intellekt üçün “qaranlıq dövr” adlandırmaq olar. Bu dövrdə süni intellektə dair kəşflər onun sınaqdan keçirilməsi üçün kifayət deyildi. 1970-1975-ci illər arasında süni zəkanın inkişafında sürətlənməni sezmək mümkün idi. Xəstəlik diaqnozu kimi mövzularda inkişaf etdirilən süni intellekt sistemlərində əldə edilən müvəffəqiyyət sayəsində, bugünkü süni zəkanın təməli qurulmuşdur. 1975-1980-ci illəri əhatə edən dövrdə süni intellekt üzrə çalışan mütəxəssislər psixologiya kimi digər elm sahələri vasitəsi ilə də süni intellektdən istifadə edilə biləcəkləri fikrini irəli sürdülər. Süni intellekt 1980-ci illərdə praktiki tətbiqlə böyük layihələrdə istifadə olunmağa başladı. Növbəti illərdə isə süni intellekt real həyat problemlərinin həlli üçün istifadə edilməyə başlandı.

Bununla yanaşı, əlbəttə ki, digər məşhur alimlər də süni intellektlə bağlı fundamental fikirlər irəli sürüblər. Azərbaycanlı dünya şöhrətli alim, professor Lütfi Zadə də 1950-ci illərdə süni intellekt məsələlərinə diqqət yönəltmişdir. Süni intellekt nəzəriyyəsinə aid ilk elmi əsərlərdən biri Lütfi Zadə tərəfindən 1950-ci ildə ABŞ-ın Kolumbiya Universitetində çap olunmuşdur. Hələ Kolumbiya Universitetində təhsil alarkən o, kompüterin düşünmək qabiliyyəti ilə bağlı artıq fantastik yox, real mülahizələr irəli sürmüşdür.

Onu da qeyd etmək lazımdır ki, süni intellekt bir termin kimi 1956-cı ildə ortaya çıxmışdır. Belə ki, dünyada kompüter elminin inkişafına mühüm töhfə verən, süni intellekt nəzəriyyəsinin formalaşmasında əvəzsiz rolu olan ABŞ alimi Con Makkarti “süni intellekt” terminini ilk dəfə Dartmut Kollecinin yay seminarında səsləndirmişdir.



Süni intellektlə bağlı ideyalar keçən əsrin 50-ci illərinin ortaları və 60-70-ci illərdə o qədər də cəlbedici deyildi. Çünki onun elmi-nəzəri əsasları insanın intellektual funksiyalarını öz üzərinə götürə biləcək qədər inkişaf etməmişdi. Yeri gəlmişkən, qeyd edim ki, Lütfi Zadənin 1965-ci ildə "qeyri-səlis çoxluqlar və qeyri-səlis məntiq" nəzəriyyəsini irəli sürməsi süni intellektin inkişafında inqilabi dəyişikliyə səbəb oldu. Belə ki, Lütfi Zadənin bu nəzəriyyəsi digər ənənəvi məntiq nəzəriyyələri ilə müqayisədə daha ümumi, insan düşüncəsinə daha yaxın idi.

Hazırda inkişaf etmiş dünya dövlətlərində olduğu kimi, ölkəmizdə də yeni texnoloji reallıqlar yaranır. Bütün bunlar cəmiyyətimizin inkişafı, ölkənin iqtisadi və hərbi potensialının artırılması və təhlükəsizliyinin möhkəmləndirilməsinə xidmət edir. Ona görə də, Azərbaycan alimləri fundamental elmi-nəzəri istiqamətdə fəaliyyəti gücləndirməklə milli problemlərin həllinə də dəstək verirlər. Bu istiqamətdə aparılan araşdırmaların nəticəsi kimi, artıq ölkəmizdə rəqabətədavamlı, yüksək intellektual xüsusiyyətlərə və imkanlara malik, müxtəlif təyinatlı smart ("ağıllı") qurğular və sistemlər işlənir.

Son 22 ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizdə qlobal çağırışlar və IV Sənaye İnqilabı ilə əlaqədar atılan addımlar, "ağıllı şəhər", "ağıllı kənd", "ağıllı infrastruktur" konsepsiyalarının reallaşdırılmasına, xüsusi əhəmiyyətə malik innovativ layihələrin həyata keçirilməsinə diqqət qabaqcıl texnologiyaların tətbiqinə dövlət siyasəti çərçivəsində geniş dəstək göstərildiyini nümayiş etdirir. Qlobal texnoloji çağırışlar və transformasiyalar kontekstində dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və digər mühüm konseptual sənədlər qəbul olunmuşdur. Bütün bunlar ölkəmizdə qabaqcıl texnologiyaların, xüsusilə də, süni intellekt texnologiyalarının inkişafına böyük diqqət yetirildiyini göstərir.

Eyni zamanda İkinci Qarabağ müharibəsində Azərbaycanın istifadə etdiyi müasir silahların əksəriyyətinin süni intellekt texnologiyalarına əsaslandığını da qeyd etmək lazımdır.

## Beynəlxalq yanaşma

Süni intellekt öz-özlüyündə bir məqsəd deyil, insan rifahını yüksəltmək üçün insanlara xidmət etməli bir vasitədir. Buna nail olmaq üçün isə süni intellekt sistemlərinin etibarlılığı təmin edilməlidir ki, bu da insan hüquq və azadlıqlarına riayət edilmədən mümkün deyil. Avropa Komissiyasının Süni İntellekt üzrə Yüksək Səviyyəli İşçi Qrupu (High-Level Expert Group on Artificial Intelligence) tərəfindən hazırlanmış "Etibarlı Süni İntellekt üçün Etik Qaydalar"a [6] görə, etibarlılıq - insanların və cəmiyyətlərin süni intellekt sistemlərini inkişaf etdirməsi və istifadəsi üçün bir şərtdir. Həm bu qaydalarda, həm də onlar əsasında hazırlanan Avropa Komissiyasının 2019-cu il tarixli "İnsan yönümlü (İnsana fokuslanan) Süni İntellektə İnam Yaratmaq" (Building Trust in Human-Centric Artificial Intelligence) sənədində müəyyən olunmuşdur ki, "etibarlı süni intellektə nail olmaq üçün üç komponentin olması vacibdir ki, bunlardan biri də etik prinsiplərə riayət olunmasıdır. Etik prinsiplərə daxil olan ədalətlilik prinsipi fayda və xərclərin bərabər və ədalətli bölüşdürülməsini təmin etməyi, fərdlərin və qrupların haqsız qərəzdən, ayrı-seçkilikdən azad olmasını təmin etməyi nəzərdə tutur. Deməli, beynəlxalq-hüquqi tənzimləmələr etibarlı süni intellektin bərabərliyi pozmamasını və ayrı-seçkiliyə yol verməməsini tələb edir.

## Süni İntellektin məhkəmə sistemləri və onlarla bağlı münasibətlərdə istifadəsinə dair Avropa Etik Xartiyasının beş prinsipi

1) Fundamental hüquqlara hörmət prinsipi: süni intellektlə əlaqədar metod və xidmətlərin hazırlanması və tətbiqi işi fundamental hüquqlara uyğun gəlməlidir.
2) Ayrı-seçkiliyin yolverilməzliyi prinsipi: ayrı-ayrı şəxslər, yaxud şəxslər qrupları arasında hər hansı ayrı-seçkiliyin yaranması və ya fəallaşması hallarının qarşısı birbaşa alınmalıdır.
3) Keyfiyyət və təhlükəsizlik prinsipi: məhkəmə qərarları və məlumatının işlənməsinə gəldikdə, rəsmi mənbələr və qeyri-maddi məlumat təhlükəsiz texnoloji mühitdə, çoxşaxəli araşdırmalara istinadən istifadə edilməlidir.
4) Şəffaflıq, qərəzsizlik və ədalət prinsipi: məlumatın işlənməsi metodlarının əlçatan və anlaşıqlı olması, kənar yoxlamalara icazə verilməsi.
5) "İstifadəçi nəzarəti altında" prinsipi: göstərişlərə əsaslanan münasibətlərin qarşısının alınması, istifadəçilərin məlumatlandırılması və seçimlərinə nəzarət edə bilmələrinin təmin edilməsi.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası və Avropa Şurasının standartları ilə insan hüquqlarına, əsasən də cinayət işləri ilə bağlı proseslərdə insan hüquqlarına, lazımi zəmanətlərin verilməsi şərti ilə, Süni İntellekt hüquq sahəsinin peşəkarları tərəfindən istifadəsi ümumilikdə alqışlanır. Sadəcə olaraq, ədalət mühakiməsi sistemlərinin səmərəliliyini yüksəltmək üçün bir alət ol-




maqdan əlavə Süni İntellekt qanunun aliliyinə zəmanətləri möhkəmləndirməli, habelə ədalət mühakiməsi sisteminin fəaliyyətinin keyfiyyətini yüksəltməlidir.

Amerika Birləşmiş Ştatlarında məhkəmə sistemində süni intellektdən kifayət qədər geniş istifadə edilir, həm mülki, həm də cinayət işləri ilə bağlı proseslər üçün dövlət bu sahələrə nisbətən sadə üsulla investisiya qoyuluşlarını aparmışdır.

Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) Cinayət işləri üzrə proseslərə aid xüsusi məqamlar: cinayət əməllərinin qarşısının alınması, residivizm riski və təhlükə səviyyəsinin qiymətləndirilməsi meyarlarında sünii intellektin tətbiqi yolları təklif olunur.

Qeyd olunan sənəddəki cinayət əməllərinin harada törədilməsini müəyyən etmək üçün cinayət işi üzrə istintaq zamanı alqoritmlərin istifadəsinə dair meyarda bu tətbiqdən yalnız polis orqanları deyil, istintaqın aparılması zamanı prokurorluq orqanlarının da istifadə edə bilməsi təklif olunur. Amerika Birləşmiş Ştatlarında istifadə edilən sistemlər polis patrullarına cinayətlərin harada törədilməsi barədə real rejimdə məlumat təqdim etmək üçün istifadə olunmuşdur. Lakin bu kimi kəmiyyət yanaşması güclü “ifrat təsir” törədə bilər (Müəyyən ərazi üçün cinayət əməlini aşkara çıxarmaq şansı daha yüksək ola bilər və belə olduqda, bu, sistemin təsirini gücləndirmiş olur). Coğrafi məlumatlandırma sistemləri (GIS) və böyük həcmdə məlumatdan birlikdə istifadə edilərək cinayət işləri üzrə aparılan təhlillər prokurorlar tərəfindən daha böyük fayda ilə istifadə oluna bilər və təbii ki, avtomatlaşdırılmış təhlil buna öz böyük töhfəsini vermiş olacaq. Çirkli pulların yuyulması ilə mübarizə aparan bölmələr şübhəli maliyyə əməliyyatlarının müəyyən edilməsi üçün artıq proqnozlaşdırıcı sistemlərdən istifadə edirlər. Lakin kəmiyyət (maliyyə) məlumatı halında, qurğular daha etibarlı nəticələr verməyə qadirdir. İslahat hazırlayanlar üçün müvafiq hesabatları hazırlamaq məqsədilə tədqiqatçılar bu məlumatdan istifadə üçün daha geniş imkanlara malik olmalıdırlar.

### Prokurorluq orqanlarında Süni İntellektin tətbiqi perspektivləri

Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyev Azərbaycan Konstitusiyasının 30 illiyi münasibətilə "Бакинский рабочий" qəzetinə müsahibəsində qeyd etmişdir ki, “Süni intellekt, rəqəmsal və nano texnologiyaların imkanlarından geniş istifadə etməklə tədqiqatların aparılması, iş prosesində reallaşdırılması və bu istiqamətdə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi fəaliyyətimizin yüksək standartlar səviyyəsində təşkilinə zəmin yaradacaq.”

Hesab edirik ki, prokurorluq orqanlarında süni intellektin tətbiqi fəaliyyət istiqamətləri üzrə aşağıdakı qaydada ola bilər:

- ✓ Prokurorluq orqanlarının müraciət mərkəzlərinə daxil olan məlumatların qəbulu prosesində süni intellekt texnologiyaların tətbiqinin təmin edilməsi;
- ✓ İstintaq olunmuş cinayət işləri, məhkəmə qərarları və digər hüquqi sənədlər əsasında maşın öyrənməsi modellərinin yaradılması;
- ✓ Böyük həcmli məlumatların və ya səsin identifikasiyası, telefon-danışıq məlumatları, səs yazıları, elektron yazışmaların sürətli emalı və əlaqəli məlumatların aşkarlanması üçün Sİ alqoritmlərindən istifadə edilməsi;
- ✓ İstintaq hərəkətlərinin planlaşdırılması və prosessual nəzarətin təkmilləşdirilməsi;
- ✓ İş yükünün ədalətli bölgüsü və əməkdaşların fəaliyyətinin təhlili.

Beləliklə, yuxarıda qeyd olunanları nəzərə alaraq belə nəticəyə gələ bilərik ki, yaxın gələcəkdə Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin daha da təkmilləşdiririlməsi məqsədilə süni intellektdən istifadə olunmasının mümkünlüyünü real perspektiv hesab oluna bilər.

**Səbuhi Şahverdiyev,**
**Elm-Tədris Mərkəzinin rəis müavini**
**II dərəcəli dövlət ədliyyə müşaviri**

# Vətəndaşların ölkə ərazisindən çıxışına və girişinə qadağa qoyulması ilə bağlı hüquq tətbiqetmədə yaranan problemlər və onların həlli istiqamətləri

"Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Azərbaycan Respublikası Prezidentinin 22.04.2008-ci il tarixli 744 saylı Fərmanı ilə təsdiq edilmiş və buna uyğun olaraq Nazirlər Kabineti tərəfindən "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin istismarının təşkili Qaydalarının 6.7-ci bəndində yalnız Əsasnamə ilə səlahiyyət verilmiş dövlət orqanları tərəfindən sərhədkeçməyə məhdudiyyət qoyulması nəzərdə tutulmuşdur. Qeyd olunan Qaydaların 6.7.11-6.7.1.14-cü bəndlərində isə hansı hallarda məhdudiyyətin qoyulması əsasları göstərilmişdir.

Həmin Qaydaların 9-cü bəndinə əsasən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Xarici İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Müdafiə Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Fövqəladə Hallar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi, Azərbaycan Respublikasının Prokurorluğu, habelə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyası Sistem çərçivəsində öz səlahiyyətləri daxilində sorğular verir və müvafiq məlumatları alırlar.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 12 yanvar tarixli 5 nömrəli qərarı ilə "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlandırılmış məlumat-axtarış sistemi daxilində dövlət orqanlarının informasiya resurslarından istifadəyə buraxılış dərəcəsi təsdiq edilmişdir. Hazırda ölkəmizdə 13 dövlət orqanı tərəfindən sərhədkeçməyə məhdudiyyət qoyulur.

Bir çox hallarda heç bir hüquqi əsas olmadan Əsasnamədə nəzərdə tutulmayan şəxslərə (təqsirləndirilən şəxs qismində cəlb olunmayan şəxsin atası, anası, qardaşı, qohumları, cinayət işləri üzrə şahidlərə və s.) ölkədən çıxışına və girişinə qanunsuz olaraq məhdudiyyət qoyulur, bu isə vətəndaşların fundamental hüquqlarının pozulmasına və haqlı narazılığına səbəb olur. Hətta ilkin yoxlama materialları əsasında belə məhdudiyyət qoyulur. Şəxs barəsində qoyulmuş məhdudiyyət uzun müddət keçməsinə baxmayaraq, götürülmür (səbəb kimi təşəbbüskarın məhdudiyyətin aradan qaldırması barədə məktubunun olmaması qeyd olunur).Məhdudiyyətlər bəzi halda proporsional olmur, müddətlər konkret qeyd olunmur, səlahiyyətli orqanlar mütənasib olmayan məhdudlaşdırıcı qadağa qoyurlar. Məhkəməyədək icraat zamanı cinayət təqibi ilə bağlı səlahiyyətli şəxs tərəfindən şəxsin respublikamıza girişinə və ya çıxışına məhdudiyyət qoyulubsa, yalnız təşəbbüskar, yəni həmin şəxs məktubla bu məhdudiyyəti götürə bilər. Məhdudiyyətlə bağlı səlahiyyətli orqanın hərəkətlərindən məhkəməyə şikayət verilir, məhkəmənin məhdudiyyətin aradan qaldırılmasına dair qərarı icrasız qalır.

Beləliklə də, vətəndaşlara törədilən cinayətə, yaranmış borclarına, hərbi xidmətdən yayınmalarına və yuxarıda qeyd olunan Qaydaların tələblərinə əsasən digər səbəblərə görə ölkədən çıxışlarına məhdudiyyət qoyulur və bir çox hallarda vətəndaşların bu məhdudiyyətdən məlumatları belə olmur. Nəticədə müxtəlif dövlət orqanlarına bununla bağlı müraciətlər ünvanlanır.

Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsinin III hissəsinə əsasən qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər.

Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 9.1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının vətəndaşı (bundan sonra - vətəndaş) dövlət sərhədinin buraxılış məntəqələrindən keçərək sərbəst surətdə ölkədən getmək və ölkəyə gəlmək hüququna malikdir.

– 9.2. Vətəndaş ölkədən getmək və ölkəyə gəlmək hüququndan məhrum edilə bilməz.

– 9.3. Vətəndaşın ölkədən getmək hüququ yalnız aşağıdakı hallarda müvəqqəti məhdudlaşdırıla bilər:

– 9.3.1. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq tutulduqda və ya barəsində hər hansı qətimkan tədbiri seçildikdə - azad edilənədək, qətimkan tədbirinin müddəti bitənədək və ya qətimkan tədbiri ləğv edilənədək;

Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin II hissəsinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.

"Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın (bundan sonra – Beynəlxalq Pakt) 12-ci maddəsində göstərilmişdir ki, hər hansı bir ölkənin ərazisində qanuni surətdə olan hər kəsin həmin ölkənin hüdudlarında sərbəst şəkildə yer dəyişmək və yaşayış yeri seçmək hüququ var. Hər bir insanın, öz ölkəsi də daxil olmaqla, hər hansı bir ölkəni tərk etmək hüququ var. Yuxarıda xatırlanan hüquqlar qanunda nəzərdə tutulan, dövlət təhlükəsizliyinin, ictimai asayişin, əhalinin sağlamlığının, yaxud mənəviyyatının, yaxud başqalarının hüquq və azadlıqlarının və bu Paktda tanınan hüquqlara uyğun digər hüquqların qorunması üçün zəruri olan məhdudiyyətlərdən başqa, məhdudiyyət obyekti ola bilməz. Heç kəs özbaşına öz ölkəsinə gəlmək hüququndan məhrum edilə bilməz.

Habelə İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın 4 saylı Protokolunun 2-ci maddəsinə əsasən, qanuni əsaslarla hər hansı dövlətin ərazisində olan hər kəsin həmin ərazidə sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququ vardır. Bu hüquqların həyata keçirilməsinə milli təhlükəsizlik və ictimai asayiş maraqları naminə, ictimai qaydanı qorumaq üçün, cinayətlərin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün və ya digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olanlardan başqa, heç bir məhdudiyyət qoyula bilməz.

Konstitusiyanın 28-ci maddəsinin III hissəsində və beynəlxalq-hüquqi sənədlərdə təsbit olunmuş bu hüquqların vacibliyinə baxmayaraq, onlar mütləq deyil və məhdudlaşdırıla bilər. Konstitusiyada bu hüquqlara dair məhdudiyyətlərin hədləri dəqiq müəyyən olunmuşdur (Konstitusiyanın 71-ci maddəsinin II hissəsi və "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 3-cü maddəsi). Belə ki, onların məhdudlaşdırılması qanunçuluğun tələbinə cavab verməli, başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məqsədilə tətbiq edilməli, mütənasib olmalı və bu konstitusiya hüquqlarının mahiyyətini dəyişməməlidir.

Oxşar mövqeləri BMT-nin İnsan Hüquqları Komitəsi və İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra – Avropa Məhkəməsi) də ifadə etmişlər.

BMT-nin İnsan Hüquqları Komitəsinin Beynəlxalq Paktın 12-ci maddəsinə dair qəbul etdiyi 1999-cu il 2 noyabr tarixli 27 saylı Ümumi Xarakterli Qeydlərdə göstərilir ki, həmin maddə ilə təmin olunmuş hüquqlara aid icazə verilən məhdudiyyətlər hərəkət sərbəstliyi prinsipini sarsıtmamalıdır. Məhdudlaşdırıcı tədbirlər mütənasiblik prinsipinə uyğun gəlməlidir; onlar müdafiə funksiyalarının yerinə yetirilməsi üçün yararlı olmalıdır; arzu edilən nəticəyə gətirib çıxara bilən bütün vasitələr sırasında onlar ən az məhdudlaşdırıcı vasitə olmalı və müdafiə olunan maraqlarla mütənasib olmalıdır. Mütənasiblik prinsipinə təkcə müvafiq məhdudiyyətin nəzərdə tutulduğu qanunvericilikdə deyil, həmçinin həmin qanunvericiliyin tətbiq edilməsi prosesi çərçivəsində inzibati və məhkəmə hakimiyyəti orqanlarında da əməl olunmalıdır.

Mürsəliev və başqaları Azərbaycana qarşı 13.12.2018-ci il tarixli işində Avropa məhkəməsi qeyd edir ki, 4 saylı Protokolun 2-ci maddəsi hər kəsin verilən ərazi daxilində hərəkət azadlığı hüququna və seçdiyi, onu qəbul edən ölkəyə səyahət hüququnu nəzərdə tutan ölkədən getmək hüququna zəmanət verir *(bax: Baumann Fransaya qarşı, 33592/96, § 61, AİHM 2001V; Xlyutsov Rusiyaya qarşı, № 28975/05, § 64, 11 iyul 2013 və yuxarıda adıçəkilən Berkoviç və başqaları, § 78)*

Məhkəmə bir daha təkrar edir ki, onun "qanuna uyğunluq" ifadəsi ilə bağlı təşəkkül tapmış presedent hüququ təkcə mübahisəli tədbirin ölkədaxili qanunvericilikdə əsasının olmasını tələb etmir, həm də aidiyyəti şəxslər üçün əlçatanlıq və nəticələrin qabaqcadan bilinməsi aspektlərini nəzərə almaqla, sözügedən qanunun keyfiyyətinə istinad edir *(bax: Caksıbergenov Ukraynaya qarşı, № 12343/10, § 59, 10 fevral 2011, yuxarıda qeyd edilən De Tommaso işi, § 106).* İşin hallarına müraciət edən Məhkəmə görür ki, Hökumət cinayət mühakiməsi icraatlarında sadəcə şahid qismində çıxış edən şəxslərə qarşı ölkədən çıxış qadağasının təyin edilməsi üçün hüquqi əsas kimi ölkə qanunvericiliyinin hər hansı müddəasına istinad etməyib.

Bununla əlaqədar olaraq Məhkəmə qeyd edir ki, Azərbaycan Respublikası vətəndaşlarının ölkədən getmək hüququnu tənzimləyən Miqrasiya Məcəlləsinin müvafiq müddəaları bu hüququn müvəqqəti olaraq məhdudlaşdırıla biləcəyi halların müfəssəl siyahısını əks etdirir (bax: yuxarıda paraqraf 17). Lakin ölkə qanunvericiliyinin yuxarıda qeyd edilən müddəalarının mətnindən göründüyü kimi, Miqrasiya Məcəlləsində sadalanan halların heç biri cinayət mühakiməsi icraatında sadəcə şahid qismində çıxış edən Ərizəçilərin vəziyyətinə uyğun gəlmir. Bundan əlavə Pasportlar haqqında qanunun 17 oktyabr 2014-cü ilə qədər qüvvədə olan 1-ci maddəsinə əsasən də yalnız vətəndaş cinayət işi üzrə şübhəli və ya təqsirləndirilən şəxs qismində tanındıqda, məhkum edildikdə və ya barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edildikdə, onun ölkədən getmək hüququ müvəqqəti olaraq məhdudlaşdırıla bilər.

Məhkəmə həmçinin qeyd edir ki, istintaq orqanları Ərizəçilər üzərinə ölkədən çıxış qadağasını hər hansı

məhkəmə qərarı olmadan qoymuşlar və ölkədaxili məhkəmələr də ərizəçilərə qarşı ölkədən çıxış qadağasının təyin edilməsi üçün hüquqi əsası göstərməmiş, iddialara mahiyyəti üzrə baxmaqdan imtina etməklə kifayətlənmişlər (bax: yuxarıda paraqraf 11). Mahiyyəti üzrə baxılan yeganə işdə onlar ölkədaxili qanunvericiliyin hər hansı müddəasına istinad etmədən Ərizəçinin ölkədən çıxış hüququnun məhdudlaşdırılmasını əsaslı hesab etmişlər *(bax: yuxarıda paraqraf 12 və 14).* Müvafiq olaraq Ərizəçilərin 4 saylı Protokolun 2-ci maddəsində zəmanət verilən ölkəni tərk etmək hüququ pozulmuşdur.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Klark Qordon Morrisin (Clark Gordon Morris) şikayəti üzrə bəzi normativ hüquqi aktların Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair 26 may 2017-ci il tarixli qərarında qeyd olunmuşdur ki, hərəkət azadlığı hüququnu məhdudlaşdıran hər hansı tədbir qanuna uyğun olmalı, Konvensiyaya dair 4 saylı Protokolun 2-ci maddəsinin 3-cü bəndində qeyd edilən legitim məqsədlərdən birini güdməli, demokratik cəmiyyətdə zəruri olmalı, yəni mütənasiblik meyarına cavab verməlidir *(Battista İtaliyaya qarşı iş üzrə 2 dekabr 2014-cü il tarixli, § 37; Stamose Bolqarıstana qarşı iş üzrə 27 noyabr 2012-ci il tarixli, § 30; Bartik Rusiyaya qarşı iş üzrə 21 dekabr 2006-cı il tarixli, § 46 Qərarlar).*

Beləliklə, "İcra haqqında" Qanunun 84-1-ci maddəsində nəzərdə tutulan məhdudlaşdırıcı tədbir məhkəmə müdafiəsi konstitusiya hüququnun real həyata keçirilməsinin təminatına yönəlmişdir və bu baxımdan konstitusiya əhəmiyyətli məqsədə çatmağa xidmət etdiyi üçün məqbul sayılmalıdır.

Bununla belə, bu tədbirin qanunvericilik qaydasında nizamlanması şikayətdə qeyd edildiyi kimi, hüquqi müəyyənlik, habelə mütənasiblik konstitusiya prinsiplərinə uyğun olmalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu bir sıra qərarlarında qanunverici tərəfindən hər hansı ictimai münasibətlərin tənzimlənməsinə dair normativ hüquqi aktlar qəbul edilərkən hüquqi müəyyənlik prinsipinə riayət edilməsinin vacibliyini vurğulamışdır. Hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas aspektlərindən biri kimi çıxış edir. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün hüquq normaları birmənalı və aydın olmalıdır. Bu öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarını müdafiə edəcəyinə, hüquq tətbiqedənin hərəkətlərinin isə proqnozlaşdırıla bilən olacağına əminlik verməlidir. Bunun əksi, yəni hüquq normasının məzmununun qeyrimüəyyənliyi hüquq tətbiqetmədə məhdudiyyətsiz mülahizə üçün imkan yaratmaqla, hər bir normativ-hüquqi aktın əsasında dayanmalı olan qanunun aliliyi, qanun və məhkəmə qarşısında bərabərlik və ədalət prinsiplərinin pozulmasına gətirib çıxara bilər *("Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinin və Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 180.3-cü maddəsinin müddəalarının şərh edilməsinə dair" 22 sentyabr 2008-ci il tarixli və "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 59.1.9 və 60-cı maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 2 aprel 2012ci il tarixli Qərarlar).*

Konstitusiya Məhkəməsinin Plenumu bir daha qeyd edir ki, qanunverici tərəfindən Konstitusiyada təsbit olunmuş hər hansı hüququn həyata keçirilməsinin tənzimlənməsi zamanı hüquqi müəyyənlik prinsipinin nəzərə alınmaması həmin hüququn pozulması ilə nəticələnə bilər. Bu baxımdan borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında qaydaların qeyri-müəyyənliyi hər kəsin Azərbaycan Respublikasının ərazisindən kənara getmək konstitusiya hüququnu poza bilər.

Avropa Məhkəməsi həmçinin qeyd etmişdir ki, norma o zaman öncə görülə bilən hesab edilir ki, o, dövlət orqanları tərəfindən edilə biləcək özbaşına müdaxilələrdən qorunmaq üçün tədbirlər nəzərdə tutsun *(Böyük Palatanın De Tommaso İtaliyaya qarşı iş üzrə 23 fevral 2017-ci il tarixli, § 109 və Xlyustov Rusiyaya qarşı iş üzrə 11 iyul 2013-cü il tarixli, § 70 Qərarları).*

Məsələyə dair Avropa Məhkəməsinin mövqeyi ondan ibarətdir ki, dövlət orqanları şəxsin sərbəst hərəkət etmək hüququnu məhdudlaşdıran tədbirlərin əsaslı olub-olmadığını vaxtaşırı yoxlamadan uzun müddət ərzində tətbiq edə bilməz. Bu nəzarət, ən azından, son instansiyada məhkəmələr tərəfindən həyata keçirilməlidir. Məhkəmə nəzarətinin hədləri məhkəməyə bütün amilləri, o cümlədən məhdudlaşdırıcı tədbirin mütənasibliyinə dair amili nəzərə almaq imkanı verməlidir *(Vlasov və Benyaş Rusiyaya qarşı iş üzrə 20 sentyabr 2016-cı il tarixli Qərar, § 32).*

«Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair» Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 12 fevral 2015-ci il tarixli qərarına müvafiq olaraq hüquqi dövlətdə insan hüquqlarının məhdudlaşdırılması yalnız qanun əsasında mümkündür. İnsan hüquqlarının məhdudlaşdırılmasının qanuniliyinə, mütənasibliyinə və ədalətliliyinə nəzarəti isə məhkəmələr həyata keçirirlər.

Konstitusiyanın 60-cı maddəsinə əsasən hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəs dövlət orqanlarının, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər.

Bununla yanaşı, ayrı-ayrı konstitusiya normalarında insan hüquq və azadlıqlarının məhdudlaşdırılmasında məhkəmə nəzarətinin vacibliyi xüsusi qeyd edilir. Məsələn, Konstitusiyanın 33-cü maddəsinin II hissəsində göstərilir ki, qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra – Konvensiya) 5-ci maddəsində azadlıq və toxunulmazlıq hüququnun təminatında məhkəmə nəzarətinin vacibliyi birbaşa vurğulanmışdır.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra – Avropa Məhkəməsi) bir sıra qərarlarında məhkəmə nəzarətinin vacibliyini vurğulamışdır. Belə ki, Avropa Məhkəməsi Xudobin Rusiyaya qarşı iş üzrə 26 oktyabr 2006-cı il tarixli Qərarında bildirmişdir ki, istintaq tədbirlərinə sanksiya verən, nəticələrini öncədən görmək mümkün olan aydın prosedur mövcud olmalı, eləcə də həmin tədbirlərə lazımi qaydada nəzarət təşkil edilməlidir ki, hakimiyyət orqanlarının vicdanlı davranması və hüquqa zidd olmayan hüquq-mühafizə məqsədlərinə riayət edilməsi təmin olunsun. Eyni hüquqi mövqe Avropa Məhkəməsinin Klass və başqaları Almaniyaya qarşı iş üzrə 6 sentyabr 1978-ci il, Lüdi İsveçrəyə qarşı iş üzrə 15 iyun 1992-ci il tarixli Qərarlarında da ifadə edilmişdir.

Göründüyü kimi, ölkəmizin qanunvericilik aktlarında nəzərdə tutulan məhdudlaşdırıcı tədbirlər beynəlxalq təcrübəyə və tərəfdar çıxdığımız müqavilələrə uyğundur. Belə ki, milli təhlükəsizlik və ictimai asayiş maraqları naminə, ictimai qaydanı qorumaq üçün, cinayətlərin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün və ya digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan halda məhdudlaşdırıcı tədbirlərin həyata keçirilməsinə yol verilir. Şəxsin ölkədən çıxışına və ya girişinə qadağa qoyulması özü-özlüyündə prosessual məcburiyyət tədbiri deyil. Lakin şəxsin ölkə daxili və ölkədən çıxışı ilə bağlı hərəkət hüququna səlahiyyətli dövlət orqanı tərəfindən müdaxilə olunur. Nəzərə alınmalıdır ki, bəzi təxirəsalınmaz hallarda, şəxsin ölkədən çıxışına və ya ölkəyə girişinə səlahiyyətli orqanın özü tərəfindən məhdudiyyət qoyula bilər. Bu halda da, qeyd olunan məhudiyyətin əsaslığı və qanuniliyi məhkəmə tərəfindən yoxlanılmalıdır. (Məsələn, CPM-in 443.2.1443.2.2-cü maddələrində nəzərdə tutulduğu kimi şəxsin ölkədən çıxışına və ya girişinə qoyulmuş məhdudiyyətlə bağlı 24 saat müddətində məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat vermək; 48 saat müddətində şəxsin ölkədən çıxışına və ya girişinə məhdudiyyət qoyulması ilə əlaqədar toplanmış materialların məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim etmək). Bu kontekstdə belə nəticəyə gəlmək olur ki, cinayət işi üzrə və yuxarıda qeyd olunan Əsasnamədə nəzərdə tutulan digər hallarda şəxsin ölkədən çıxışına və ya girişinə qadağanın qoyulması məhkəmə tərəfindən həyata keçirilməlidir.Bu vətəndaşların Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsində nəzərdə tutulan hüquqlarına təminat verilməsinə xidmət etmiş olacaq.

Avropa məhkəməsinin bu qəbildən olan işlərin təhlili göstərir ki, işə baxılarkən 4 № -li Konvensiyanın 2-ci maddəsinin tələbləri o halda pozulur ki, qoyulmuş məhdudiyyət əsaslandırılmır, konkret müddətlər göstərilmir və bununla bağlı məhkəmə qərarı mövcud olmur. Avropa məhkəməsi öz qərarlarında xüsusilə vurğulayır ki, məhdudiyyətin məqsədi qanuni, zəruri və proporsional olmalı, əsaslandırılmamış halda isə insan hüquqları pozulmuş olur. Avropa məhkəməsinin bu məsələdə əsas prinsipləri qanunçuluq və məhkəmə nəzarətidir. Məhdudiyyət qanuna əsaslanmalı və istintaq orqanları tərəfindən yox, məhkəmə tərəfindən tətbiq olunmalıdır. Proporsionallıq isə, məhdudiyyətin qanuni məqsədlərə mütənasib olmasıdır. Tezlik, yəni məhdudiyyət müddətsiz yox, konkret müddət göstərilməklə tətbiq edilməli, əks hal özbaşınalığa yol açmış olur.

Məsələnin aktuallığı nəzərə alınaraq, ayrı-ayrı ölkələrin bu sahəni tənzimləyən qanunvericilik aktları nəzərdən keçirilmiş və bunların arasında Özbəkistan Respublikasının CPM-in yuxarıda qeyd olunan məsələyə kifayət qədər aydınlıq gətirən 28.2-ci fəsli diqqəti cəlb etmişdir. Qeyd olunan fəsil beynəlxalq müqavilələrə uyğun, Avropa məhkəməsinin presedenti nəzərə alınmaqla, vətəndaşların hüquq və azadlıqlarının məhkəmə təminatına xidmət edən bir mütərəqqi müddəalardır. Belə ki, həmin ölkənin CPM-in 28.2-ci fəslinin 254.7-254.11-ü maddələri ölkədən çıxan şəxslərin bu hüquqlarının hansı hallarda müvəqqəti məhdudlaşdırılması, məhdudlaşdırıcı tədbirlərin əsasları, hansı səlahiyyətli şəxs tərəfindən vəsatətin prokurora verilməsi, prokuror tərəfindən vəsatətin təmin və ya rədd edilməsi, məhkəmə tərəfindən vəsatətlərə baxılması qaydası, müddətlər, qəbul olunan məhkə-

mənin qərardadı, onun icra qaydası və həmin qərardaddan şikayət və ya protestin verilməsi müddətləri, məhdudiyyətin aradan qaldırılması əsasları öz əksini tapmışdır. Məhkəmə tərəfindən bu kimi qərardad o halda qəbul olunur ki, məhkəməyədək icraat zamanı barəsində həbs qətimkan tədbiri seçilməmiş şübhəli və ya təqsirləndirilən şəxsin Özbəkistan Respublikasını tərk edib, üzrlü səbəb olmadan təhqiqat, istintaq və ya məhkəməyə gəlməkdən boyun qaçırmasına kifayət qədər tutarlı əsaslar olsun.

Məhkəməyədək və məhkəmədən kənar icraat zamanı Konstitusiyamızın 12-ci maddəsinin I hissəsinin, 28-ci maddəsinin III hissəsinin, Miqrasiya Məcəlləsinin 9.3.1-ci maddəsinin və Nazirlər Kabineti tərəfindən "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin istismarının təşkili Qaydaları"nın 6.7-ci bəndinə əməl olunması, vətəndaşlarımızın yuxarıda qeyd olunan fundamental hüquqlarının qorunması və təmin edilməsi baxımından, ölkəmizdə aparılan geniş məhkəmə-hüquq islahatlarına uyğun olaraq, bu sahəni tənzimləyən müvafiq qanunvericilik aktlarında yuxarıda sadalanan, müasir tələblərə uzlaşan mütərəqqi normaların, o cümlədən Qaydalarda nəzərdə tutulan insan hüquqlarının məhdudlaşdırılmasının qanuniliyinə, mütənasibliyinə və ədalətliliyinə nəzarətin məhkəmələr tərəfindən tətbiqinin nəzərdə tutulması məqsədə müvafiq olardı *(Özbəkistan Respublikasının CPM-dən çıxarış əlavə olunur).*

## Глава 28.2.
## ВРЕМЕННОЕ ОГРАНИЧЕНИЕ ПРАВА НА ВЫЕЗД ИЗ РЕСПУБЛИКИ УЗБЕКИСТАН

### Статья 254.7. Цель и основания временного ограничения права на выезд из Республики Узбекистан

Временное ограничение права на выезд из Республики Узбекистан применяется в отношении подозреваемого, обвиняемого или подсудимого, если в отношении них не применена мера пресечения в виде заключения под стражу, но имеются достаточные основания полагать, что они покинув территорию Республики Узбекистан могут без уважительных причин уклониться от дознания, предварительного следствия или суда.

Вопрос о временном ограничении права на выезд из Республики Узбекистан подозреваемого или обвиняемого решается судом в порядке, установленном настоящей главой, а подсудимого — в порядке, предусмотренном статьей 423 настоящего Кодекса.

### Статья 254.8. Возбуждение ходатайства о временном ограничении права на выезд из Республики Узбекистан

Прокурор, дознаватель, следователь выносит постановление о возбуждении ходатайства о временном ограничении права на выезд из Республики Узбекистан с изложением оснований применения данной меры процессуального принуждения.

В постановлении о возбуждении ходатайства о временном ограничении права на выезд из Республики Узбекистан излагаются основания, в силу которых возникла необходимость во временном ограничении права на выезд из Республики Узбекистан. К постановлению прилагаются необходимые материалы, обосновывающие ходатайство.

Постановление дознавателя или следователя о возбуждении ходатайства о временном ограничении права на выезд из Республики Узбекистан и необходимые материалы направляются прокурору.

Прокурор, проверив обоснованность ходатайства о временном ограничении права на выезд из Республики Узбекистан, в случае согласия с ним, направляет постановления о возбуждении ходатайства о временном ограничении права на выезд из Республики Узбекистан и необходимые материалы в суд.

### Статья 254.9. Рассмотрение ходатайства о временном ограничении права на выезд из Республики Узбекистан

Ходатайство о временном ограничении права на выезд из Республики Узбекистан рассматривается единолично следственной судьей районного (городского) суда по уголовным делам, по месту производства, а в отсутствие судьи указанного суда либо при наличии обстоятельств, исключающих его участие в рассмотрении материала о временном ограничении права на выезд из Республики Узбекистан, — следственной судьей другого соответствующего суда по указанию председателя Суда Республики Каракалпакстан, областного, Ташкентского городского суда.

Ходатайство о временном ограничении права на выезд из Республики Узбекистан рассматривается в закрытом судебном заседании не позднее восьми часов с момента поступления материалов.

В судебном заседании принимают участие прокурор, подозреваемый или обвиняемый, а также защитник и законный представитель, если они участвуют в деле. При необходимости дознаватель, следователь может быть вызван в суд.

Рассмотрение ходатайства о временном ограничении права на выезд из Республики Узбекистан начинается с доклада прокурора, который обосновывает необходимость временного ограничения права подозреваемого, обвиняемого на выезд из Республики Узбекистан. Затем заслушиваются защитник, другие явившиеся в суд лица, исследуются представленные материалы. После этого судья удаляется в отдельную (совещательную) комнату для вынесения определения.

**Статья 254.10. Определение суда**

Судья, рассмотрев ходатайство о временном ограничении права на выезд из Республики Узбекистан, выносит одно из следующих определений:

1) о временном ограничении права на выезд из Республики Узбекистан;
2) об отказе во временном ограничении права на выезд из Республики Узбекистан.

В определении судьи о временном ограничении права на выезд из Республики Узбекистан указываются: сведения о подозреваемом или обвиняемом; основания временного ограничения права на выезд из Республики Узбекистан.

Определение судьи об отказе во временном ограничении права на выезд из Республики Узбекистан должно быть мотивированным.

Определение судьи о временном ограничении права на выезд из Республики Узбекистан либо об отказе во временном ограничении права на выезд из Республики Узбекистан вступает в силу с момента его оглашения. Определение судьи направляется органам внутренних дел, Пограничным войскам Службы государственной безопасности для исполнения, прокурору, дознавателю или следователю, а также подозреваемому, обвиняемому, защитнику — для сведения.

Определение судьи, предусмотренное частью первой настоящей статьи, может быть обжаловано подозреваемым или обвиняемым, их защитником и законным представителем либо опротестовано прокурором в апелляционном порядке в течение сорока восьми часов со дня его вынесения. Жалоба, протест подаются через суд, вынесший определение, который обязан в течение сорока восьми часов направить их вместе с материалами в суд апелляционной инстанции.

Подача жалобы или протеста не приостанавливает исполнение определения судьи о временном ограничении права на выезд из Республики Узбекистан.

Суд апелляционной инстанции должен рассмотреть указанные материалы с жалобой или протестом не позднее сорока восьми часов с момента их поступления.

Суд апелляционной инстанции, рассмотрев апелляционную жалобу, протест, вправе своим определением:

оставить определение судьи без изменения, а жалобу или протест — без удовлетворения; отменить определение судьи и временно ограничить право на выезд из Республики Узбекистан либо отказать во временном ограничении права на выезд из Республики Узбекистан.

В случае отказа во временном ограничении права на выезд из Республики Узбекистан повторное обращение в суд по данному вопросу допускается при возникновении новых обстоятельств, требующих временного ограничения права на выезд из Республики Узбекистан.

**Статья 254.11. Приостановление временного ограничения права на выезд из Республики Узбекистан**

Ограничение права на выезд на стадии дознания и предварительного следствия должно быть отменено в случае прекращения уголовного дела, а в судебном разбирательстве — при вынесении определения о прекращении уголовного дела либо после вступления приговора в законную силу.

Временное ограничение права на выезд из Республики Узбекистан отменяется дознавателем, следователем, прокурором или судом в случае утраты необходимости данной меры, с обязательным уведомлением суда, вынесшего определение.

Временное ограничение права на выезд за пределы Республики Узбекистан может быть отменено при возникновении уважительных причин, связанных с необходимостью участия подозреваемого, обвиняемого или подсудимого в уголовном процессе за пределами Республики Узбекистан, ухудшением состояния его здоровья, и при отсутствии возможности оказания медицинской помощи на территории Республики Узбекистан, а также со смертью его близких родственников, — соответственно, дознавателем или следователем с согласия прокурора, а также прокурором либо судом с обязательным уведомлением суда, вынесшего определение.

**Sərdar İmanov,**
**Xətai rayon prokuroru**
**Baş ədliyyə müşaviri**

# İnsan alveri qurbanlarının müdafiəsi ilə bağlı xüsusi yanaşmalar

İnsan alveri müasir dünyada insan hüquqlarının pozulması problemi kimi qəbul edilməkdədir. Dünya birliyinin insan alverinə qarşı mübarizəyə böyük diqqət ayırmasına baxmayaraq, bu gün də bu sahədə həm milli və həm də beynəlxalq xarakterli çoxsaylı hüquq pozuntularının şahidi oluruq. Qlobal miqyasda sürətlə cərəyan edən hadisələr, iqtisadi qeyri-stabillik, hərbi münaqişələr və s. insanların iş, təhlükəsiz yaşayış yeri və yaşamaq üçün vasitələr əldə etməsi məqsədilə digər ölkələrə axın etməsinə səbəb olmuş, miqrasiya prosesini gücləndirmişdir.

Azərbaycan insan alverinə qarşı mübarizənin bütün istiqamətləri - problemin qarşısının alınması, insan alveri qurbanlarının müəyyən edilməsi və onlara yardım göstərilməsi, cinayətin təqibi, bütün aidiyyəti orqan və təşkilatların səmərəli qarşılıqlı əməkdaşlığına nail olunması üzrə siyasətin formalaşmasında indiyə qədər olduqca əhəmiyyətli nəticə yönümlü addımlar atmışdır.

Müvafiq sahədə milli qanunvericilik beynəlxalq hüququn normalarına əsaslanır ki, bu da insan alveri ilə mübarizədə mükəmməl Milli İstiqamətləndirmə Mexanizminin formalaşmasına imkan verir. İnsan alverinə qarşı mübarizə sahəsində indiyə qədər bir sıra vacib qanunvericilik aktları qəbul edilmişdir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində cinayətlərin bu növü ilə mübarizəni tənzimləyən müddəalar nəzərdə tutulmuş, cinayətin potensial subyektləri hesab edilən əsasən uşaq və qadınların hüquqlarının və azadlıqlarının qorunması istiqamətində bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir. Məsələn, maddə 106 (köləlik), maddə 137 (insan orqanları və toxumalarının alqı-satqısı), maddə 144-1, (insan alveri), maddə 144-2 (məcburi əmək), maddə 171 (yetkinlik yaşına çatmayanları fahişəliyə və ya əxlaqsız əməllərə cəlb etmə), maddə 244 (əxlaqsızlıq yuvaları saxlama), maddə 316-1 (insan alverindən zərər çəkmiş şəxs haqqında məxfi məlumatları yayma).

İnsan alveri – yəni zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla, şəxsin istismar edilməsi məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsidir və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 144-1-ci maddəsi ilə normalaşdırılmış və həmin əmələ görə cəza nəzərdə tutulmuşdur.

İnsan alveri qurbanlarına yardım göstərilməsinin effektiv sistemi hər birinin öz səlahiyyətləri daxilində insan alveri qurbanlarına zamanında və keyfiyyətli yardımla təmin edən səlahiyyətli dövlət orqanları və təşkilatların şəbəkəsindən ibarətdir. Bu sistemin əsas məqsədi insanın cəmiyyətə qayıtması və həyati vacib imkanlarının bərpa edilməsidir. İnsan alveri qurbanlarına sosial və digər xidmətlərin göstərilməsi onların fərdi ehtiyaclarına əsasən həyata keçirilir. İnsan alveri qurbanlarının xeyli qisminin müvəqqəti sığınacaq kimi vacib bir yardıma ehtiyacı yaranır. Sığınacaq – bu elə bir yerdir ki, burada zorakılığın müxtəlif növlərinə, hədəyə, məcburiyyətə, istismara məruz qalmış insanların təhlükəsizliyi təmin edilir və onlara ilkin və son dərəcə vacib köməklik göstərilir.

Kölə vəziyyətinə düşmüş şəxs tamamilə başqa birinin əmlakına çevrilir. Qurbanın reinteqrasiyasının ilkin mərhələsində məkan seçiminin əsas meyarı onun təhlükəsizliyidir. Normal həyat şəraitinə qayıtması üçün zərər çəkmiş şəxsin kənardan dəstək alması və ona hörmətlə yanaşılması vacibdir. Amma çox təəssüf ki, hətta doğma və yaxınlar artıq sual verməkdən, baş vermiş hadisəyə görə zərər çəkmiş şəxsi qınamaqdan çəkinmirlər. Məhz buna görə sığınacaq insan alveri qurbanlarına yardım göstərilməsi sisteminin mühüm tərkib hissəsi hesab edilir.

İnsan alveri qurbanlarına kompleks yardım xidmətlərinin göstərilməsi üçün milli istiqamətləndirmə sisteminin formalaşdırılması mərhələsinə qədəm qoymuş ölkələr müvafiq qanunvericilik bazası və resursları da formalaşdırırlar. Hər bir ölkədə “sığınacaq” və ya “müvəqqəti sığınacaq” xidmətləri ilkin olaraq qurbanın təhlükəsizliyini və baza ehtiyaclarının ödənilməsini təmin edən müəyyən prinsiplərə və standartlara əsaslanır. Azərbaycan bu yolda müəyyən nəticələrə nail olmuşdur və “sığınacaq” və ya “müvəqqəti yaşama” xidmətləri göstərilməsinin həm dövlət, həm də qeyri-dövlət formaları mövcuddur. Qeyd edək ki, insan alverinə qarşı mübarizə üzrə Milli Koordinator kimi Daxili İşlər Nazirliyinin bu istiqamətdə qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq imkanları, həmçinin qeyri-hökumət təşkilatlarının bazasında yaranaraq regionlarda fəaliyyət göstərən sığınacaqların maliyyələşdirilməsi imkanları qanunvericilikdə müəyyən edilmişdir. Ölkənin bütün sığınacaqlarının qarşılıqlı fəaliyyəti və əməkdaşlığının təmin edilməsi insan alveri qurbanlarının Milli İstiqamətləndirmə Mexanizminin əsas şərtlərindən biridir.

Azərbaycan Respublikasının “İnsan alverinə qarşı mübarizə haqqında” 28.06.2005-ci il tarixli, 958-IIQ saylı Qanununa əsasən cinayət təqibi orqanının müraciətinə əsasən dövlət orqanları öz səlahiyyətləri daxilində, sığınacaqlar və yardım mərkəzləri isə öz funksiyaları çərçivəsində insan alveri qurbanlarına yardım göstərməlidirlər.

İnsan alveri qurbanlarının dövlət qurumlarının mütəxəssisləri tərəfindən ilkin müəyyənləşdirilməsi zamanı

zərər çəkmiş hesab edilən şəxsin müvəqqəti yerləşdirilməsi məqsədilə təcili sığınacağa ehtiyacı yarana bilər. Səlahiyyətli orqan telefonla zərər çəkmişin qalacağı potensial yeri razılaşdırır və ilkin razılaşmaya əsasən qurbanı rəsmi olaraq sığınacağa yönləndirir. Sığınacağın mütəxəssisi (rəhbər tərəfindən səlahiyyət verilmiş şəxs), zərurət olduqda isə mühafizəçinin müşayiəti ilə zərər çəkmişi sığınacağa aparır. Əgər insan alverindən zərər çəkmiş şəxs uşaqdırsa onda uşağın qanuni nümayəndələrinin məlumatlandırılmasına dair normalarının gözlənilməsi vacibdir, bir şərtlə ki, onların insan alveri ilə bağlı cinayətlə heç bir əlaqəsi ehtimalı olmasın.

Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları öz səlahiyyətləri daxilində və yerləşdikləri ölkənin qanunvericiliyinə uyğun olaraq insan alverinin qurbanı olan Azərbaycan Respublikası vətəndaşlarının hüquq və mənafelərinin müdafiəsini həyata keçirir, onların Azərbaycan Respublikasının ərazisinə qayıtmasına yardım edirlər.

İnsan alverinin qurbanı olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyətini təsdiq edən sənədlər itdikdə və ya onları insan alverçilərindən geri almaq mümkün olmadıqda, Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı ilə birlikdə belə vətəndaşları qısa müddət ərzində Azərbaycan Respublikasına qayıtmaq hüququ verən sənədlə təmin edirlər.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 123-1 maddəsində əsasən insan alverinin qurbanına bərpa və fikirləşmə müddətinin verilməsi nəzərdə tutulmuşdur.

Belə ki, törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlara baxarkən təhqiqat orqanının əməkdaşı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror insan alverinin qurbanına öz vəziyyətini bərpa etmək, cinayətkarların təsirindən yayınmaq və cinayət təqibi orqanları ilə əməkdaşlıq etmək barədə düşünülmüş qərar qəbul etmək üçün 30 gün bərpa və fikirləşmə müddətinin verilməsi barədə qərar qəbul edir.

Həmin qəbildən olan istintaqı aparılmış cinayət işlərinin statistik göstəricilərinə baxsaq görərik ki, 2024-cü il ərzində daxili işlər orqanlarında insan alveri cinayətləri üzrə 19 cinayət işi başlanılmış, 3 cinayət işi ötən ildən qalıq qalmış, əvvəlki illərdə icraatı dayandırılmış, digər orqanlardan cinayət işi daxil olmamış, bu növ cinayətlər üzrə cəmi 22 cinayət işi üzrə istintaq aparılmışdır. 14 şəxs barəsində 13 cinayət işi üzrə ittiham aktı təsdiq edilərək aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilmiş, 6 cinayət işi üzrə icraatın dayandırılması haqqında qərar qəbul edilmiş və 3 cinayət işi növbəti hesabat dövrünə qalıq qalmışdır.

2024-cü il ərzində məhkəmələrə göndərilmiş 13 iş üzrə 14 təqsirləndirilən şəxsdən 1- i kişi olmaqla, 13-ü qadın olmuşdur. Təqsirləndirilən şəxslərin hamısı Azərbaycan Respublikasının vətəndaşları olmuşlar.

Qeyd olunan müddət ərzində bu kateqoriyadan olan cinayət işləri üzrə qurbanların sayı 91 olmuş, onlardan 1-i kişi (uşaq qurban) olmaqla, 90-ı qadın olmuşdur. Onlardan 1-i kişi cinsindən olan uşaq, 12-i 18-25 yaş arası, 49-u 25-35 yaş arası, 29-u 35 yaşdan yuxarı yaşda olan şəxslərdir. Qurbanların hamısı Azərbaycan Respublikası vətəndaşlarıdır.






Gələcəkdə yuxarıda qeyd edilən qəbildən olan cinayət işlərinin istintaqı zamanı məhz həmin qanunsuz əməllər nəticəsində təqsirləndirilən şəxslər tərəfindən əldə edilmiş bütün növ gəlirlər müəyyən edilməli, əməldə eyni zamanda CM-in 194-cü maddəsinin (cinayət yolu ilə əldə edildiyini bilə-bilə əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud sərəncam vermə) tərkib əlamətlərinin olub-olmaması yoxlanılmalı, qanunvericiklə müəyyən edilmiş qaydada həmin gəlirlər və gəlirdən əldə edilmiş əmlaklar müsadirə edilməklə insan alveri qurbanlarının reablitasiyasına yönəldilməlidir.




İstintaq zamanı həmin şəxslərin əmlaklarının müəyyən edilməsi üçün Azərbaycan Respublikası Baş Prokurorluğunun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi ilə qarşılıqlı fəaliyyətin daha da artırılması və həmin idarənin imkanlarından istifadə edilməsi yuxarıda qeyd edilən məsələnin müsbət həllinə töhfə verəcəkdir.

**Müşfiq Şıxəliyev,**
**Bakı şəhər prokurorluğu Daxili İşlər Orqanlarının istintaq təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru, kiçik ədliyyə müşaviri**

# Beynəlxalq hüququn və beynəlxalq adət hüququnun “pacta sunt servanda” prinsipi

*(Beynəlxalq Qars müqaviləsinin pozulmuş şərtləri)*

Qüvvədə olan hər bir müqavilə onun tərəfləri üçün məcburidir və onlar tərəfindən vicdanla yerinə yetirilməlidir. Beynəlxalq hüququnun “Pacta sunt servanda” adlanan bu prinsipi 1969-cu il mayın 23-də Vyana şəhərində imzalanmış “Müqavilələr Hüququ haqqında Vyana Konvensiyası”nda təsbit olunmuş və göstərilmişdir ki, Tərəf müqavilənin yerinə yetirilməməsinə bəraət olaraq daxili qanunvericiliyin müddəalarına istinad edə bilməz. Konvensiyanın 26-cı maddəsində təsbit olunur ki, bağlanmış beynəlxalq müqavilələr tərəflər üçün hüquqi baxımdan məcburidir və onları yerinə yetirmək borcudur. Bu qayda isə Konvensiyanın 46-cı maddəsinə, yəni dövlətdaxili hüququn müqavilələri bağlamaq səlahiyyətinə dair müddəalarına xələl gətirmədən qüvvədədir.

**“Pacta sunt servanda”** isə latınca "müqavilələrə riayət edilməlidir" deməkdir və müqavilələrin məcburi qüvvəsini vurğulayır. Hüquq ədəbiyytalarında qeyd olunur ki, qədim dövlətlərin müqavilələrinə hörmət prinsipi, "pacta sunt servanda" (müqavilələrə riayət edilməlidir) ilkin prinsipi tətbiq edən beynəlxalq hüququn fundamental xüsusiyyətidir. Bu prinsip, dövlətlər arasında bağlanan müqavilələrə bütün tərəflərin əməl etməsini tələb edir və dövlətlərin suverenliyinin qorunması və beynəlxalq münasibətlərin sabitliyi üçün zəruridir. Müqavilələrə hörmət etmək dövlətlərin suverenliyinə hörmət edilməsinin bir formasıdır, çünki dövlətlər könüllü olaraq bu müqavilələrə daxil olurlar. Beynəlxalq sabitlik isə müqavilələrə əməl olunması beynəlxalq münasibətlərin sabitliyini təmin edir və dövlətlər arasında qarşılıqlı etimadı gücləndirir. Bu prinsip qədim dövrlərdən, o cümlədən qədim Şərq dövlətləri arasında bağlanmış müqavilələrdə də mövcud idi. Bu müqavilələr siyasi, iqtisadi və mədəni münasibətləri tənzimləyirdi. İstər beynəlxalq hüquq, istərsə də beynəlxalq adət hüququ "pacta sunt servanda" prinsipini hər dövlətin ləyaqətli hərəkət etmək prinsipi kimi özündə ehtiva edir. Tarix boyu əksər dövlətlər öz aralarında imzalanmış müqaviləni vicdanla icra etməyə çalışmışdır.

Müasir beynəlxalq hüquqda bu prinsip BMT Nizamnaməsi, 1969-cu il mayın 23-də Vyana şəhərində imzalanmış “Müqavilələr Hüququ haqqında Vyana Konvensiyası” və digər beynəlxalq hüquq normaları tərəfindən dəstəklənir. Unutmayaq ki, "Beynəlxalq adət" (və ya beynəlxalq adət hüququ) da beynəlxalq hüququn əsas mənbələrindən biridir. Bu, dövlətlərin uzun müddət ərzində davamlı, eyni qaydada həyata keçirdiyi davranışlar və həmin davranışların hüquqi məcburiyyət kimi qəbul olunması deməkdir. Beynəlxalq Ədalət Məhkəməsinin Statusunun 38-ci maddəsinə görə, beynəlxalq adət hüququ beynəlxalq hüququn əsas mənbələrindən biridir və dövlətlər üçün məcburi xarakter daşıyır. Beynəlxalq adətin əsas elementlərindən biri də, dövlətlərin bu davranışları hüquqi öhdəlik kimi qəbul etməsi, yəni bunu sadəcə adət və ya vərdiş kimi deyil, məcburi hüquq normaları kimi yerinə yetirməsidir.

Biz isə 16 oktyabr 1921-ci ildə imzalanan və bu gün də qüvvədə olan Beynəlxalq Qars müqaviləsi və onun pozulmuş şərtlərinə nəzər salacağıq.

Ulu Öndər Heydər Əliyev tərəfindən “Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında” 4 fevral 1999-cu il tarixdə imzalanan Fərmanda qeyd edilir ki, Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında 1921-ci ilin martında imzalanmış Moskva  müqaviləsində, Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 1921-ci ilin oktyabrında imzalanmış Qars müqaviləsində təsbit edildi. Naxçıvanın statusunun ilk beynəlxalq müqavilədə əks olunması həm o dövrdə, həm də Azərbaycanın indiki dövründə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi qiymətləndirilməlidir.

Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq tarixi boyu erməni silahlı quldur dəstələri İrəvan, Naxçıvan və Qarabağ bölgələrində dinc azərbaycanlı əhaliyə divan tutur, yerli azərbaycanlıların sayını süni surətdə azaltmaq üçün hər cür vasitəyə əl atırdılar. Qafqazda bolşeviklərin hakimiyyətinin bərqərar olduğu ilk günlərdən hələ 1918-ci ildə özünü mart qırğınları zamanı büruzə vermiş bolşevik-daşnak sövdələşməsi geniş vüsət aldı. Azərbaycan Xalq Cümhuriyyəti dövründəki sərhədlər alt-üst edilməyə başlandı. İlk olaraq əzəli Azərbaycan torpağı olan

Zəngəzur mahalı Ermənistan SSR-in tərkibinə qatıldı. Əslində isə ermənilərin planları daha geniş idi və onların torpaq iddialarının əsas hədəfi məhz Naxçıvan idi. Onlar Zəngəzurun Ermənistana ilhaq edilməsini bu yolda atılmış mühüm addım hesab edirdilər. Beləliklə də, Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının – Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi.

Ermənistanın həm daşnak hökuməti dövründə, həm də sovet hakimiyyəti qurulduqdan sonra Naxçıvanı Azərbaycandan ayıraraq özünə birləşdirmək üçün göstərdiyi səylər Naxçıvan əhalisinin birmənalı qəti mövqeyi sayəsində uğursuzluğa düçar oldu. Naxçıvan əhalisinin 90 faizdən çoxu 1921-ci ilin əvvəlində Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda Naxçıvan mahalının muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi.

Hələ, 2 dekabr 1920-ci ldə Türkiyə tərəfi ilə Ermənistan arasında Gümrü müqaviləsi imzalanmış, bu müqavilənin 2-ci maddəsi ilə Naxçıvanın sərhədləri belə müəyyən olunmuşdur: Kükü dağı (10282-8022)-Kamasor dağı (8160)-Qurdqulaq kəndi-Sayat dağı (7868)-Arpa çayı üzrəində 3080-Gömürlü dağı (6930)-Saray bulağı (8071), Ararat stansiyası, Araz çayı, Aşağı Qarasu töküldüyü yerdən keçən zolağın cənubundakı Naxçıvan, Şahtaxtı, Şərur bölgəsi. Bu ərazidə isə Türkiyənin himayə etdiyi yerli idarəetmə yaradılırdı.

18 mart 1921-ci ildə isə sovet Rusiyası ilə Türkiyə arasında imzalanan Moskva müqaviləsinin üçüncü maddəsinin I Əlavəsinin C bəndi Naxçıvan məsələsi haqqında idi. Müqaviləyə əsasən, Naxçıvan üçüncü dövlətə verilməməsi şərti ilə Azərbaycanın himayəsinə verilərək onun sərhədləri belə müəyyən edildi: Naxçıvan ərazisinin Araz talveqi (səth relyefinin açıq yeri) xəttinin şərqi ilə Dahnə dağı (3829)-Vəli dağ (4121)-Bağırsaq (6587)-Gömürlü dağ (6930) silsiləsi sərhədləri içərisində qalan ərazinin Gömürlü dağından (6930) başlayıb, Saraybulaq (8071)-Dəvəli (Ararat) stansiyasından keçərək, Qarasunun Araz ilə birləşdiyi yerdə sona çatan sərhəd xətti, Türkiyə, Azərbaycan və Ermənistan nümayəndələrindən ibarət komissiya tərəfindən müəyyən ediləcəkdir. Bu maddəyə I (C) saylı, "Naxçıvan ərazisi" adlı Əlavədə qeyd edilir ki, "Dəvəli (Ararat)" stansiyası - Saraybulaq dağları (8071) - Gömürlü dağı (6839. 6930. 3080)-Sayat dağı (7868)-Qurdqulaq kəndi-Həməsür dağı (8160)-hündürlük 8022-Küküdağ (10282) və keçmiş Naxçıvan qəzasının şəqr inzibati sərhədi. Bu müqavilə öz dövrü üçün Azərbaycan diplomatiyasının qələbəsi hesab olunurdu.

16 oktyabr 1921-ci ildə Rusiyanın da iştirakı ilə Türkiyə ilə Cənubi Qafqaz respublikaları olan Azərbaycan, Gürcüstan və Ermənistan arasında Beynəlxalq Qars müqaviləsi imzalandı. Behbud ağa Şahtaxtinski isə Qars müqaviləsini imzalayan Azərbaycan təmsilçisi idi. Bu müqavilənin beşinci maddəsi bilavasitə Naxçıvan ilə bağli idi. Qars müqaviləsi ilə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olması hüquqi təsdiqini tapmışdır. Müqavilənin beşinci maddəsinin 3-cü Əlavəsində Naxçıvanın sərhədləri belə müəyyən edilmişdir: Urmiya kəndi, oradan düz xətt ilə Arazdəyən stansiyasına (Təəssüf ki, ora Ermənistana daxil edilir), sonra düz xətt ilə qərbi Daşburun dağı (3142) və daha sonra suayrıcı xətt ilə şərqi Daşburun dağı (4108) və Cəhənnəm dərəsi çayından keçməklə "Rod" (Bulaq) yazısının cənubundan Bağırsaq dağı (6607 və ya 6587) suayrıcı xətti ilə və buradan keçmiş İrəvan və Şərur-Dələyəz qəzalarının inzibati sərhədləri ilə 6625 yüksəkliyindən keçərək, Gömürlü dağına (6839 və ya 6930) və daha sonra 3080 yüksəkliyi, Sayatdağ (7868), Qurdqulaq kəndi, Həməsür dağı (8160), 8022 yüksəkliyi, Küküdağ (10282) və Keçmiş Naxçıvan Qəzasının şəqr inzibati sərhədləri. Bu müqaviləni Azərbaycan hökuməti 1922-ci il martın 3-də təsdiq etmişdir. Bəli, beynəlxalq Qars müqaviləsi ilə Naxçıvanın sərhədləri belə müəyyən olunmuşdur.

"Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında" 4 fevral 1999-cu il tarixdə imzanan Fərmanda qeyd edilir ki, 1922-ci ilin dekabrında I Zaqafqaziya Sovetlər qurultayı Naxçıvan məsələsi üzrə qəbul etdiyi xüsusi qərarında Naxçıvanı muxtariyyət statusunda Azərbaycan SSR-in ayrılmaz və tərkib hissəsi olduğunu təsdiq etdi. 1923-cü il dekabrın 5-də Azərbaycan Mərkəzi İnqilab Komitəsi Naxçıvan muxtar diyarının Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi haqqında qərar qəbul edərək onun təsdiq olunmasını Zaqafqaziya Mərkəzi İnqilab Komitəsindən xahiş etdi. Zaqafqaziya Mərkəz İnqilab

Komitəsi 1924-cü il yanvarın 8-də bu qərarı təsdiq etdi. Azərbaycan SSR Mərkəzi İnqilab Komitəsinin 1924-cü il 9 fevral tarixli Dekreti ilə Naxçıvan muxtar diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi təsdiq edildi. Bu, Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyət idi.

Ermənistan Naxçıvan Muxtar Respublikasının Azərbaycanın tərkibində olmasını rəsmən qəbul etməyə məcbur olsa da, bu faktla əslində heç cür razılaşa bilmir, Naxçıvana ərazi iddialarından, onu Ermənistana birləşdirmək niyyətlərindən əl çəkmirdi. Ermənistanın hakim dairələri Moskvadakı himayədarlarının köməyi ilə Naxçıvanın bəzi torpaqlarını qoparıb öz ərazisinə birləşdirməyə nail oldular. 1929-cu ildə Zaqafqaziya Mərkəzi İnqilab Komitəsinin qərarı ilə Naxçıvanın 657 kvadrat kilometr ərazisi — Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzasının Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorçevan (Qacaran) kəndi, habelə Kilid kəndi torpaqlarının bir hissəsi Ermənistana verildi. 1930-cu ildə isə Əldərə, Ləhvaz, Astazur, Nüvədi və sair yaşayış məntəqələri Ermənistana verilmiş və həmin ərazidə Mehri rayonu yaradılmışdır. Ermənistanın Naxçıvanla bağlı ərazi iddiaları sonrakı dövrlərdə də davam etmiş və indi də o, bu çirkin niyyətlərindən əl çəkmir.

Bu torpaq itkiləri nəticəsində Naxçıvan coğrafi cəhətdən Azərbaycanın əsas hissəsindən tamamilə ayrı düşdü. Azərbaycanın yalnız kiçik bir hissəsi – Sədərək vasitəsilə Türkiyə ilə quru əlaqəsi qaldı.

Ermənilərin "Naxçıvandan başlamağa" cəsarəti çatmamalarına və onun muxtariyyət statusuna toxuna bilməmələrinə 90-cı illərin Naxçıvan hadisələri daha parlaq nümunə oldu.

Qeyd olunan Fərmanda Naxçıvanın sərhədlərini müəyyən edən beynəlxalq Qars müqaviləsinin şərtlərinin pozulması da öz əksini tapmışdır.

Bağlanmış müqavilələrə hörmət etmək hər bir dövlətin suverenliyinə hörmət edilməsinin bir formasıdır.

Bəli, sonda həmişə həqiqət və ədalət qalib gəlir. Çünki, tarix hər şeyi zamanla öz yerinə qoyur!





İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. "Müqavilələr hüququ haqqında Vyana Konvensiyası". https://e-qanun.az
2. "Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 04.02.1999-cu il tarixli Fərmanı.
3. İsmayıl Hacıyev. "Moskva və Qars beynəlxalq müqavilələri". Naxçıvan-2021.
4. İbrahim Ethem Atnur. "Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921)". Naxçıvan-2013.



**Faiq Səfərov,**
**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi,**
**baş ədliyyə müşaviri,**
**Prokurorluğun fəxri işçisi**

# Prokurorluğun cəmiyyətdə rolu

**"Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız...**

**Azərbaycan prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi mən Azərbaycan prokurorluğuna inanıram, güvənirəm və arxalanıram".**

**Heydər ƏLİYEV,**
**Ümummilli Lider**

Prokurorluğun cəmiyyətimizdəki rolunu anlamaq üçün ilk öncə onun keçdiyi tarixi yola nəzər salmaq lazımdır. Azərbaycan prokurorluğunun tarixi ümumilikdə ölkənin hüquq sisteminin formalaşması ilə bağlıdır. İlk dəfə 19-cu əsrin əvvəllərində, Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə Azərbaycan torpaqlarının və xalqının parçalanmasının əsası qoyulmuş, Azərbaycan Rusiya imperiyasının tərkibinə daxil olmuş, bundan sonra həmin dövrdə məhkəmələrin nəzdində prokuror nəzarəti sistemi təsis edilmişdir. 1862-ci ildə qəbul edilən "Prokurorluq haqqında əsas müddəalar" isə prokurorların səlahiyyətlərini müəyyən etmiş, 1868-ci ildə isə ölkədə 13 yeni məhkəmə idarəsi yaradılmışdır ki, burada müvafiq prokuror nəzarəti və istintaq sistemi fəaliyyət göstərmişdir. Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918–1920) prokurorluq orqanları artıq dövlətin hüquqi dayaq nöqtələrindən biri kimi fəaliyyətə başlamışdır. O vaxta qədər Azərbaycan milli prokurorluğa malik olmamışdır. Lakin 1920-ci ildə Müstəqil Azərbaycan dövlətçiliyi süquta yetirildikdən sonra dövlət orqanları ilə yanaşı prokurorluq və istintaq orqanları da ləğv edildi. Həmin dövrdə yenidən təşkil olunmuş hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət funksiyasının həyata keçirilməsi məqsədilə 1922-ci ildə Azərbaycan SSR-də sovet prokurorluğu fəaliyyətə başlamış, 1936-cı ildən etibarən isə prokurorluq birbaşa SSRİ Prokurorluğuna tabe olaraq müstəqil qurum kimi fəaliyyət göstərmişdir. İstər Azərbaycan Demokratik Cumhuriyyətinin, istərsə də SSRİ-nin tərkibində olduğumuz zamanlarda prokurorluq orqanları tam formalaşmamış, cəmiyyətdə öz layiqli yerini tuta bilməmişdir. Müstəqilliyimizin ilk illərində ölkədə xarici qüvvələr tərəfindən yaradılmış xaosun, anarxiyanın və özbaşınalığın nəticəsində prokurorluq orqanlarının milli müstəvidə inkişafı gecikmişdir. Azərbaycanda həmin illərdə mövcud olmuş digər dövlət orqanları kimi  prokurorluq da uzun müddət tək partiyanın, daha dəqiq desək, Kommunist Partiyasının maraqlarına xidmət edən bir orqan olmuşdur. 1920-1930-cu illərdə xüsusilə milli ziyalı təbəqəni hədəf alan kütləvi repressiyaların təşkilində və icra olunmasında digər dövlət qurumları ilə yanaşı prokurorluq orqanları da yaxından iştirak etmişdir. Qeyd olunan dövrdə dövlət orqanlarındakı əsas vəzifələrə başqa millətlərdən (əsasən erməni və rus) olan və mərkəzə tam sadiq kadrlar təyin edilirdi. Rusların mərkəzləşdirmə siyasətinin nəticəsində Azərbaycanın hüquq-mühafizə orqanlarında, o cümlədən prokurorluq orqanlarında da milli kadrlar azlıq təşkil edirdi, olanlar isə kifayət qədər təcrübəyə, yüksək hüquqi təhsilə malik deyildi.

### Heydər Əliyev və prokurorluğun inkişafında fundamental dönüş nöqtəsi

Ümummilli Lider Heydər Əliyev 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra Azərbaycan hüquq-mühafizə sistemində, həmçinin prokurorluq orqanlarının fəaliyyətlərində əsaslı dəyişikliklər baş verdi. Aparılmış kadr islahatının nəticəsində artıq prokurorluq orqanlarında milli, yüksək hüquqi təhsilə malik, peşəkar və savadlı hüquqşünaslar üstünlük təşkil edirdi. Heydər Əliyev yaxşı bilirdi ki, hüquq-mühafizə orqanlarının gücü orada çalışan kadrların peşəkarlığından asılıdır. O dövr prokurorluq orqanlarının rəhbər heyətində vəzifəsindən sui-istifadə edənlər kifayət qədər çox idi. Heydər Əliyev idarəçilikdə şəffaflığın təmin edilməsi, korrupsiya və rüşvətxorluq hallarının qarşısının alınması sahəsində sərt tədbirlər gördü, vəzifəsindən sui-istifadə edən prokurorluğun rəhbər işçi heyətinin bir çox üzvü vəzifəsindən azad edilərək cinayət məsuliyyətinə cəlb olundu. Bununla yanaşı, prokurorluq orqanlarının fəaliyyətini səmərəli təşkil etmək üçün maddi-texniki bazanın inkişafı sahəsində işlər görüldü. İslahatların nəticəsində iş şəraiti yaxşılaşdırıldı, müasir standartlara cavab verən yeni binalar tikildi və yeni texnikalarla təminat gücləndirildi. Xalqın çağırışı ilə 1993-cü ildə Prezident seçilmiş Ümummilli Lider Heydər Əliyevin bu dövrdə apardığı hüquqi islahatların əsasında müstəqil Azərbaycanın hüquq sistemində prokurorluq müasir prinsiplərə və beynəlxalq standartlara uyğunlaşdırılmaqla yenidən qurulmuşdur. İlk dəfə olaraq 12 noyabr 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında prokurorluğun cinayət mühakimə icraatındakı və məhkəmə-hüquq sistemindəki yeri, əsas funksiyaları, fəaliyyət istiqamətləri və səlahiyyətləri müəyyənləş-

mişdir. Ümummilli Liderin təşəbbüsü ilə qəbul edilmiş 1999-cu il 7 dekabr tarixli "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanunu prokurorluq orqanlarını yalnız cinayətkarlığa qarşı mübarizə aparan bir struktur kimi yox, qanunçuluğu qoruyan, insan hüquq və azadlıqlarını təmin edən bir qurum kimi formalaşdırmışdır. Heydər Əliyevin rəhbərliyi altında aparılan bu islahatların arxasında duran əsas məqsəd qanunçuluğun və qanunun aliliyinin möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, eləcə də kadrların peşəkarlıq səviyyəsinin artırılması olmuşdur. Qürurverici haldır ki, 17 iyul 1998-ci ildə məhz Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü haqqında" sərəncam imzalanıb. Həmin dövrdən başlayaraq 1 oktyabr Azərbaycan Respublikasında hər il prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd edilir. Ulu Öndərin prokurorluq sahəsinə göstərdiyi xüsusi diqqət və qayğı prokurorluq orqanlarının cəmiyyətin ictimai-siyasi həyatındakı rolunun dövlət səviyyəsindəki vacibliyinin göstəricisidir. Ümummilli Liderin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində prokurorluq orqanları demokratik dövlətin və vətəndaş cəmiyyətinin əsas sütunlarından birinə çevrilib. Heydər Əliyevin rəhbərliyi dövründə prokurorluğun fəaliyyətində əsas istiqamətlər qanunçuluğun möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının qorunması, cinayətkarlığa qarşı mübarizə, korrupsiyanın qarşısının alınması və hüquqi islahatların ardıcıl tətbiqi olub. Xüsusilə, hüquq-mühafizə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində atılan addımlar Azərbaycanın demokratik inkişaf yolunda mühüm mərhələ təşkil edib. Ümummilli Liderin təşəbbüsü ilə qəbul edilən hüquqi aktlar, prokurorluğun fəaliyyətinə dair institusional dəyişikliklər və bu sahədə hazırlanan dövlət proqramları nəticəsində prokurorluq orqanlarının müasir çağırışlara cavab verən peşəkar kadr potensialı formalaşdırılmışdır. Görkəmli siyasi xadimin qanunun aliliyi prinsipinə verdiyi xüsusi önəm prokurorluğun cəmiyyətdəki rolunun güclənməsinə, dövlət-vətəndaş münasibətlərində etimad mühitinin yaradılmasına şərait yaratmışdır. Heydər Əliyevin həyata keçirdiyi islahatlar bu gün də prokurorluq orqanlarının fəaliyyətində əsas strateji xətt kimi davam edir və müasir hüquqi dövlətin qurulmasında yol göstərən mühüm ideya mənbəyi kimi çıxış edir.

### Prokurorluq orqanları dövlətin bel sütunudur

Prokuror cəmiyyətdə ədalətin bələdçisi kimi çıxış edir. Onun əsas vəzifəsi yalnız qanunla cinayət hesab edilən əməlləri törətmiş şəxslərin ifşa olunaraq cinayət məsuliyyətinə cəlb edilməsindən ibarət deyildir. Prokurorun fəaliyyətinin mahiyyətini daha geniş mənada Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının müdafiəsi, qanunun aliliyinin təmin olunması və mövcud qanunvericiliyin ədalətli icrasına nəzarətin həyata keçirilməsi təşkil edir. Bu gün prokurorluq orqanları məhz qeyd olunmuş fəaliyyət istiqaməti çərçivəsində peşəsini şərəflə, qətiyyətlə icra etdiyindən cəmiyyətin ictimai təhlükəsizliklə bağlı qayğısı yoxdur. Prokurorluq orqanlarının digər hüquq-mühafizə orqanları ilə apardığı birgə əməkdaşlıq nəticəsində ötən əsrlə müqayisədə artıq Azərbaycanda uzun müddətdir ki, ictimai-siyasi sabitlik hökm sürməkdədir. 1990-cı illərdə Azərbaycanda cinayətkarlığın səviyyəsi pik həddə çatmışdır. Ölkədə ictimai-siyasi sabitliyin zəifliyi nəticəsində çoxsaylı cinayətkar dəstələr formalaşmış, dövlət çevrilişinə yönəlmiş cəhdlər müşahidə olunmuş və ümumilikdə hüquqi nihilizm, hərc-mərclik geniş vüsət almışdır. Digər dövlət institutları kimi, prokurorluq orqanları da siyasi təzyiqlərə məruz qaldığından qeyri-sağlam vəziyyətdə olmuş, qanun çərçivəsində öz vəzifələrini layiqincə icra edə bilməmişdir. Cinayətkarlığın səviyyəsi elə bir həddə çatmışdır ki, Azərbaycan Daxili İşlər Nazirliyinə tabe olan Xüsusi Təyinatlı Milis Dəstəsi (OMON) adlanan cinayətkar dəstə prokurorluğun binasını zəbt etmiş və dövrün baş prokurorunu əsir götürmüşdür. Bu kimi halların sayısının artması cəmiyyətdə prokurorluq sisteminə qarşı etimadı sarsıtmışdı. Lakin 1993-cü ildən etibarən cinayətkarlıqla mübarizə istiqamətində aparılan uğurlu siyasətin nəticəsində Azərbaycan prokurorluğu cinayətkar dəstələrin yaxalanmasında, onların cinayət məsuliyyətinə cəlb edilməsində və dövlət çevrilişlərinin qarşısının alınmasında fəal şəkildə iştirak etmişdir. Belə ki, prokurorluq orqanlarının Azərbaycanda dövlətçiliyin qorunub möhkəmləndirilməsində böyük payı olmuş, ölkənin ən çətin vaxtlarında ictimai-siyasi sabitliyi bərqərar edərək bugünümüzədək qorumuş və digər dövlət sahələrinin funksionallığının artırılmasına şərait yaratmışdır. Prokurorluq orqanları adıçəkilən fəaliyyət istiqamətlərindən savayı, dövlətin bütün strukturlarında qanunçuluğun təmin edilməsi və normativlərə riayət edilməsinə nəzarət edən bir institut kimi də fəaliyyət göstərməkdədir. Bu institutun dövlətin və cəmiyyətin dayaq nöqtəsi kimi formalaşıb, inkişaf etməsinin arxasında Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və onun siyasi kursunu davam etdirən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin davamlı hüquqi islahatları dayanır.

### Korrupsiyaya qarşı mübarizə davam edir

Korrupsiya istənilən cəmiyyətdə dağıdıcı təsirə malik olan gizli bir bəladır. Korrupsiya hallarının geniş xarakter alması demokratiyanın, qanunun aliliyinin əsaslarını sarsıtmaqla yanaşı, insan hüquq və azad-

lıqlarının təhrif olunmasına, dövlətin iqtisadi münasibətlərinin zəifləməsinə, bazar rəqabətinin və həyat keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Bu fenomenin dağıdıcı təsiri özünü mütəşəkkil cinayətkarlıq hallarının inkişafında, ictimai təhlükəsizliyin ciddi risk altına düşməsində və ölkədəki ictimai-siyasi sabitliyin pozulmasında göstərə bilir. Korrupsiya cinayətlərinə qarşı mübarizə bu gün prokurorluq orqanlarının əsas prioritet istiqamətlərindən biridir. Qeyd etmək lazımdır ki, Azərbaycan 2005-ci ildə BMT-nin Korrupsiyaya Qarşı Mübarizə haqqında Konvensiyasını (UNCAC) ratifikasiya etməklə, konvensiyanın tam hüquqlu tərəfinə çevrilmişdir. Bununla dövlətimiz öz üzərinə bir sıra öhdəliklər götürmüşdür. Bu öhdəliklərin ən başlıcası korrupsiyanın qarşısının alınması istiqamətində effektiv və səmərəli təcrübələr yaradıb, onları təşviq etmək öhdəliyidir. Korrupsiya cinayətlərinin cəmiyyətdəki ictimai təhlükəlilik dərəcəsini başa düşən dövlət başçısının atdığı qətiyyətli addımların nəticəsində Azərbaycanda ixtisaslaşmış, beynəlxalq standartlara cavab verən, dövlət idarəetmələrində şəffaflığı təmin edən anti-korrupsiya korpusu yaradılmışdır. Eyni zamanda BMT-nin “Korrupsiya əleyhinə” Konvensiyasından irəli gələn öhdəliklərin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2004-cü ilin 3 mart tarixli “Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə” Sərəncamı əsasında Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi yaradılmışdır. Bundan əlavə, korrupsiya cinayətlərinə qarşı çevik reaksiyanın verilməsi və vətəndaşlar tərəfindən korrupsiya hüquqpozmaları ilə bağlı daxil olmuş müraciətlərə operativ qaydada baxılması üçün Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin daxilində 161 nömrəli “Qaynar Xətt” əlaqə mərkəzi yaradılaraq fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasının Baş Prokuroru Kamran Əliyev bildirmişdir ki, ölkəmizdə korrupsiya sahəsində institusional və qanunvericilik islahatları həyata keçirilmiş, qısa müddət ərzində beynəlxalq standartlara cavab verən müasir hüquqi baza yaradılmışdır. Belə ki, 2024-cü il hesabatına əsasən Baş İdarə tərəfindən məhkəmələrə göndərilmiş 108 cinayət işi üzrə ümumilikdə 143 şəxs barəsində lazımi hüquqi tədbirlər görülmüşdür. Adı çəkilmiş işlər üzrə vurulmuş maddi ziyanın məbləği 102 milyon 400 min manat təşkil etməkdədir. İbtidai istintaq mərhələsində görülən tədbirlər nəticəsində 25 milyon 545 min manat ziyanın könüllü qaydada ödənilməsi, əlavə olaraq isə 20 milyon 760 min manat dəyərində əmlak üzərinə həbs qoyulması təmin edilmişdir. Ümumilikdə götürsək, 46 milyon 305 min manat və ya 45,2 faiz həcmində ziyanın ödənilməsi mümkün olmuşdur. İcraatına xitam verilmiş işlər üzrə isə 16 milyon 629 min manat məbləğində ziyan ödənilmiş, cinayət məsuliyyətindən azad olunmuş şəxslər tərəfindən dövlət büdcəsinə əlavə olaraq 2 milyon 68 min manat həcmində vəsait köçürülmüşdür. Azərbaycan Baş Prokurorluğu korrupsiya ilə mübarizə sahəsində beynəlxalq müstəvidə Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi (UNODC) və Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP) kimi təşkilat və qurumlarla geniş əməkdaşlıq həyata keçirməkdədir. Azərbaycan Respublikasının üzv olduğu “Korrupsiya cinayətləri ilə əlaqədar cinayət məsuliyyəti haqqında” Konvensiyanın 21-ci maddəsinə müvafiq olaraq həm milli müstəvidə digər yerli orqan və qurumlarla, həm də beynəlxalq müstəvidə aparılan əməkdaşlığın nəticəsində korrupsiya cinayətlərinə qarşı mübarizədə qanunvericiliyin təkmilləşdirilməsi, dövlət büdcəsinə vurulmuş ziyanın bərpası və cinayət işlərinin araşdırılmasında şəffaflığın və effektivliyin gücləndirilməsi istiqamətində mühüm nailiyyətlər əldə olunmuş, əldə olunmağa da davam edəcəkdir.

**“Erməni işində” ədalətin təminatı**

1988-1994-cü illərdə Azərbaycanda siyasi vəziyyətin qeyri-stabil olduğu zaman erməni hərbi birləşmələri işğal olunmuş ərazilərimizdə qondarma “Dağlıq Qarabağ Respublikası” yaratmış, beynəlxalq humanitar hüququn prinsiplərini pozaraq qanunsuz hərbi əməliyyatlar aparıb mülki əhaliyə və infrastruktura ciddi ziyan vurmuşdular. Qeyd etmək lazımdır ki, XX əsrin ən dəhşətli və faciəli səhifələrindən biri olan Xocalı soyqırımının da səbəbkarı məhz erməni separatistləridir. Minlərlə günahsız insanın amansızcasına qətlə yetirilməsi, o cümlədən bir çox azərbaycanlının öz doğma yurdlarından məcburi formada didərgin salınması ilə nəticələnən Xocalı soyqırımı yalnız Azərbaycan xalqına deyil, ümumilikdə bütün bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayətlərdən biri idi. 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatların nəticəsində Ermənistan Respublikasının silahlı qüvvələri darmadağın edilmiş, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir. Vətən Müharibəsindən sonra əsas diqqət bölgədə təhlükə mənbəyi olaraq qalmaqda davam edən separatist qüvvələrin zərərsizləşdirilməsinə yönəlmişdir. Nəhayət, 2023-cü ilin sentyabrında aparılmış lokal xarakterli anti-terror əməliyyatları nəticəsində Qarabağdakı separatçı rejim tamamilə ləğv olunmuş və həmin rejimin liderləri həbs edilmişdir. Bu mərhələdən sonra ermənilərin işinə Baş Prokurorluq rəhbərlik etmiş və proses istiqamətində bir sıra tarixi əhəmiyyət kəsb edən addımlar atılmışdır. İlk növbədə

istintaqın gedişatında erməni separatçılarının 1988-ci ildən 2024-cü ilədək törətdikləri 1389 cinayət işi bir icraatda birləşdirilmiş və həmin cinayət işinin istintaqı üzrə bir sıra mötəbər sübutlar toplanmış, şahidlərin ifadələri alınmış və tarixi arxivlər qiymətləndirilmişdir. Prokurorluq orqanları prosesi beynəlxalq konvensiyalara və milli qanunvericiliyimizə uyğun şəkildə, təqsirləndirilən şəxslərin hüquqları təmin edilməklə şəffaf formada aparmışdır. Toplanmış sübutlar əsasında 2548 epizod üzrə Ermənistan Respublikasının silahlı qüvvələri və qanunsuz şəkildə yaradılmış silahlı birləşmələrin törətdikləri cinayətlərdə ittiham olunan 15 nəfər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq olaraq 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırım), 105 (əhalini məhv etmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma), 318-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmuşdurlar. Bu proseslər başa çatdıqdan sonra, cinayət işi üzrə ittiham aktı Baş Prokurorluq tərəfindən aidiyyəti üzrə Bakı Hərbi Məhkəməsinə göndərilmişdir. Beynəlxalq ictimaiyyət uzun müddət ermənilərin Azərbaycan Respublikası və xalqına qarşı törətdikləri cinayətlərə göz yummuşdur, lakin Azərbaycanın hüquq-mühafizə orqanları açıq şəkildə xalqımıza qarşı etnik təmizləmə siyasəti aparan, soyqırımlar törədən, soydaşlarımızı dədə-baba yurdlarından didərgin salan cinayətkarların cəzasız qalmayacağını bildirmişdir. Prokurorluq sisteminin erməni işində atdığı addımlar yalnız hüquqi müstəvidən deyil, tarixi baxımdan da böyük əhəmiyyət daşıyır. Azərbaycanın hüquq sistemi beynəlxalq ictimaiyyətə sübut etdi ki, heç bir cinayət cəzasız qalmır. Prokurorluq orqanları tərəfindən atılmış bu qətiyyətli addımlar tarixi ədaləti bərpa etməklə yanaşı, cəmiyyətin hüquq-mühafizə sisteminə inamının artmasına da töhfə vermiş oldu.

Nəticə etibarilə, prokurorluq hüquqi dövlətin ən mühüm dayaqlarından biri kimi, qanunçuluğun keşiyində dayanmaqla yanaşı, cəmiyyətin demokratik dəyərlər üzərində inkişafında da vacib rol oynayır. Onun fəaliyyəti qanunvericilik, icra və məhkəmə hakimiyyətinin effektivliyini tamamlayan vacib institusional mexanizmdir. Digər tərəfdən, prokurorluğun cəmiyyətdə rolu yalnız hüquq-mühafizə funksiyası ilə məhdudlaşmır. O, həmçinin ictimai münasibətlərin sağlamlaşdırılmasına, korrupsiya və digər neqativ hallara qarşı sistemli mübarizənin təşkili, dövlət idarəçiliyində şəffaflıq və hesabatlılığın gücləndirilməsi, eləcə də hüquqi islahatların səmərəli tətbiqi istiqamətində mühüm vasitə kimi çıxış edir. Bu mənada prokurorluq həm dövlətin, həm də vətəndaş cəmiyyətinin möhkəmlənməsi üçün əvəzolunmaz funksiyaları həyata keçirən mühüm hüquqi və strateji bir institutdur. Onu da vurğulamaq vacibdir ki, prokurorlar ədalət mühakiməsinin ən vacib subyektləridir. Sadə dillə desək, onların ümdə vəzifəsi yalnız işi qazanmaq deyil, ədalətin təmin olunmasıdır. Bu gün prokurorluq orqanlarının dövlətçiliyimizin sütunlarından hesab edilən suverenliyin, müstəqilliyin, qanunçuluğun və ictimai nəzarətin qorunub saxlanılmasında əvəzedilməz rolu danılmazdır. Əminliklə demək olar ki, prokurorluq işçiləri prokurorluğun fəaliyyətinin müasir standartlara uyğunlaşdırılması, ictimai-siyasi sabitliyin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi və cinayətkarlığa qarşı mübarizə istiqamətində öz vəzifələrini məsuliyyətlə icra etməklə, ölkəmizin hüquq-mühafizə sahəsinin inkişafına davamlı dəstək göstərəcəklər.

**Cavidan BABAYEV,**
**ADA Universiteti "Hüquqşünaslıq" ixtisası,**
**III kurs tələbəsi.**
Elektron poçt ünvanı: jbabayev17857@ada.edu.az
cavidantuncay113@gmail.com
Mobil telefon nömrəsi: 050-635-88-43

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. "The Status and Role of Prosecutors: A UNODC & IAP Guide" (2014).
2. Guidelines on the Role of Prosecutors (1990, UN).
3. United Nations Convention Against Corruption (UNCAC), chapter II, article 5, chapter III, articles 37, 38, 39.
4. "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanunu.
5. Azərbaycan Respublikası Baş Prokurorluğunun rəsmi saytı.
6. "Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxana.

# Законодательство Республики Узбекистан по борьбе с экологическими правонарушениями

Некоторые основные экологические проблемы человечества были названы еще в 1972 году на первой международной экологической конференции – Конференции ООН по проблемам окружающей среды. Тогда ученые и эксперты призвали государства бережно использовать природные ресурсы Земли, ограничивать выбросы тепла и предотвращать загрязнения морей. С тех пор прошло более 50 лет, но эти вопросы не только не решены - с каждым годом они усугубляются, а их перечень растет.

Наша среда постоянно меняется, и по мере того, как наша окружающая среда меняется, так же возникает необходимость все больше осознавать экологические проблемы, которые вызывают эти изменения. К сожалению, экологические проблемы – это вредное воздействие деятельности человека на окружающую среду. Они включают загрязнение, удаление отходов, изменение климата, глобальное потепление, парниковый эффект и т.д.

На сегодняшний день различные программы охраны окружающей среды осуществляются на индивидуальном, организационном и государственном уровнях с целью установления баланса между человеком и окружающей средой.

Экологическая безопасность как составляющая национальной безопасности является непременным условием устойчивого развития и является основой сохранения природных комплексов и поддержания надлежащего качества окружающей среды.

Нарушение экологического баланса может привести к тяжелым последствиям, создать угрозу существованию самой жизни на земле. В связи с этим, возникает необходимость закрепления эффективного правового регулирования и внедрения в практику средств, обеспечивающие успешное развитие хозяйственной деятельности, которые послужат развитию и совершенствованию отношений в сфере охраны окружающей среды.

Дело в том, что в Узбекистане создана прочная законодательная система, направленная на охрану и устойчивое использование природных ресурсов, а также противодействие нарушению и загрязнению окружающей среды.

Следовательно, прочная законодательная система страны позволяет охватывать регламентации системы государственных органов, распределение функций и полномочий между ними, сохранение биологического разнообразия и обеспечение доступа к информации, применение экономических механизмов. Более того, в ряде законодательных актов введены нормы, защищающие экологические права граждан и развивающие экологическую демократию.

Несомненно, в Узбекистане в целях устойчивого развития правовых механизмов обеспечения охраны окружающей среды поэтапно осуществляются также реформы по обеспечению прав, свобод и законных интересов индивида.

Прежде всего, достижение этих целей обусловлено рядом статей Конституции Республики Узбекистан.

Так, в Преамбуле Конституции Республики Узбекистан (в новой редакции) указано, что «Единый народ Узбекистана, преисполнен решимости приумножать и оберегать для нынешнего и будущих поколений бесценные природные богатства страны и сохранять здоровую окружающую среду». А в статье 49 Конституции закреплено право каждого на благоприятную окружающую среду, достоверную информацию о ее состоянии.

При этом государство берет на себя ряд обязательств, направленных: на создание условий для осуществления общественного контроля за градостроительной деятельностью, недопущения вредного воздействия, реализацию мер по улучшению, восстановлению и охране окружающей среды, сохранению экологического равновесия, принятия мер по восстановлению экологической системы, социальному и экономическому развитию региона Приаралья в целях обеспечения экологических прав граждан.

Помимо этого, на государственные органы исполнительной власти возложены ряд обязательств, так, Кабинет Министров обеспечивает реализацию единой государственной политики в области охраны окружающей среды, сохранения природного богатства и биологического разнообразия, борьбы с изменением климата, эпидемиями, пандемиями, смягчения их последствий (ст.115). К полномочиям хокимов областей, районов, городов относится реализация мер, направленных на обеспечение экономического, социального, культурного и экологического развития территорий (ст.123).

Кроме Конституции Республики Узбекистан, в настоящее время в стране действуют более 30 законов более 200 подзаконных актов в области экологии, охраны окружающей среды и рационального использования природных ресурсов, в том числе, законы Республики Узбекистан «Об охране природы», «Об охране атмосферного воздуха», «О воде и водопользовании», «Об охране и использовании растительного мира», «Об охране и использовании животного мира», «О лесе», «Об охраняемых природных территориях», «О недрах», «Об отходах», «Об экологической экспертизе», «Об экологическом контроле», «Об использовании возобновляемых источников энергии», «О санитарно-эпидемиологическом бла-

гополучии населения», Земельный кодекс Республики Узбекистан и другие.

Безусловно, особая роль отводится ст.ст. 8,12 Закона Республики Узбекистан «Об охране природы» от 9 декабря 1992 г. В законе закрепляются положения деятельности государственного управление в сфере экологии, охраны окружающей среды, рационального использования и воспроизводства природных ресурсов.

Помимо принятого законодательства в сфере экологии, особую роль также играют государственные программы и стратегии, так, в частности, Указом Президента Республики Узбекистан была принята Стратегия «Узбекистан – 2030. В Стратегии 2030, были определены цели по расширению производства экологически чистой продукции, обеспечению экологической безопасности проживания людей, строительству и модернизации комплексов переработки бытовых отходов, укреплению их материально-технической базы, поставки населению современными объектами утилизации отходов, предотвращению экологических проблем, наносящих урон состоянию окружающей среды, здоровью и генофонду населения - в стране начался процесс интенсивного развития и совершенствования нормативно-правовой базы в сфере управления по всем направлениям хозяйствования и управления природопользованием и охраной окружающей среды. Несомненно, важную роль в этом направлении играет Указ Президента Республики Узбекистан от 21 апреля 2017 года «О совершенствовании системы государственного управления в сфере экологии и охраны окружающей среды». Настоящим Указом Государственный комитет Республики Узбекистан по охране природы преобразован в Государственный комитет по экологии и охране окружающей среды. Целью преобразования заключалось в совершенствовании государственного управления в сфере экологической безопасности и охраны окружающей среды в республике, улучшение экологической обстановки, предотвращение вредного воздействия отходов на состояние здоровья граждан, создание благоприятных условий для повышения уровня и качества жизни населения, дальнейшего совершенствования системы сбора, хранения, транспортировки, утилизации, переработки и захоронения бытовых отходов. Это подтверждается и тем, было принято другое Постановление Президентом Республики Узбекистан «О мерах по кардинальному совершенствованию и развитию системы обращения с отходами на 2017-2021 годы».

Впоследствии Президентом был подписан Указ от 28 января 2022 года «О Стратегии развития Нового Узбекистана на 2022-2026 годы», где были определены задачи, касательно предотвращения имеющихся экологических проблем, наносящих вред здоровью и генофонду населения, защиты экологии и окружающей среды и другие задачи улучшения экологического состояний городов и районов, и прежде всего, активизации сотрудничества в Центральной Азии в сфере экологии, предотвращения загрязнения окружающей среды и охраны природы.

Между тем, охрана окружающей среды требует применения действенных мер, способов и методов. Среди них особое место принадлежит правовой охране природы, т.е. защите окружающей среды от загрязнения, нерационального использования, отравления ядовитыми веществами, путем создания четко налаженного эколого-правового механизма. На самом деле, соблюдение экологических требований действующего законодательства, обусловлено знанием экологического законодательства. Поскольку, нарушение порядка и правил охраны окружающей среды возникает именно там, где имеет место незнание и несоблюдение законов. По этой причине сохранение здоровой окружающей среды во многом зависит от степени осведомленности, знания и применения на практике должностными лицами и гражданами экологического законодательства.

Одним из главных правовых механизмов обеспечения соблюдения экологических требований, являются меры уголовного и административного воздействия за их нарушение, а также взыскание ущерба в гражданском порядке.

Окружающая среда является самостоятельным объектом уголовно-правовой охраны наряду с общественной безопасностью, экономической деятельностью. Место преступлений в сфере экологии определено в Уголовном кодексе Узбекистана. Так, предусмотрена уголовная ответственность в статьях ст.ст.193, 194,195,196, 197 Уголовного кодекса.

Согласно последним статистическим данным, к сожалению, наблюдается динамика роста преступности в этой сфере. Так, если в 2022 году судами республики по уголовным делам было рассмотрено 49 уголовных дел в отношении 85 лиц (0,113% общего числа осужденных), то только в 1-половине 2023 года рассмотрено 51 уголовное дело в отношении 84 лиц (0,231%). При этом, большую часть выявленных преступлений составляет повреждение или уничтожение деревьев либо других растений, а также нарушения правил охоты и рыболовства или добычи других видов животного мира, нарушение установленного порядка или условий добычи редких и исчезающих видов животных.

Кодексом об административной ответственности Республики Узбекистан установлена ответственность на 42 вида правонарушений в сфере экологии, охраны окружающей среды и природопользования. Эти нарушения охватывают широкий спектр аспектов, связанных с устойчивым использованием природных ресурсов и охраной окружающей среды.

Между тем, стоит отметить, что законодательством Узбекистана предусмотрена не только уголовная и административная ответственность за нарушения в сфере охраны природы, но и взыскание ущерба в пяти, десяти либо двадцатикратных размерах в зависимости от ценности породы и возраста дерева, а также к примеру принудительной посадки 100 деревьев за одну срубленную, что существенно восполняет нанесенный ущерб и может предотвратить рецидив нарушений в будущем.

К примеру, судами по гражданским делам республики в 2019-2023 гг. было рассмотрено 1.754 дел, по которым определено взыскание 18.598.600.000 сум (более 1,5 млн. долларов США), судами по экономическим делам – 3.964 дел по которым определено взыскание 160.927.100.000 сум (более 13 млн. долларов США).

Между тем, следует отметить, что реформы в сфере усиления ответственности за экологические правонарушения продолжаются.

Согласно Указу Президента Республики Узбекистан от 31.05.2023 г. № УП-81, приняты решительные меры по ужесточению наказаний за экологические правонарушения. В рамках этого документа предусмотрено внесение ряд важных изменений в нормативно-правовые акты. Так,

Категоризацию экологических преступлений: Преступления, связанные с ущербом экологии и окружающей среде, уничтожением или нанесением повреждения растительному и животному миру, будут отнесены к категории тяжких преступлений.

Увеличение размера штрафов: Значительное увеличение размеров штрафов предусмотрено за нарушение требований, связанных с вырубкой ценных видов деревьев и кустарников, загрязнение или засорение вод, жестокое обращение с животными и ущерб, нанесенный животному миру и растениям, включенным в Красную Книгу Узбекистана.

Компенсационные платежи и квоты: вводятся компенсационные платежи за загрязнение окружающей природной среды и размещение отходов на территории Узбекистана. Также будет установлено законодательное регулирование квот на пользование растительным и животным миром.

Внедряется система «Общественный экологический контролер», направленная на выявление экологических правонарушений, оформление и внесение в Платформу эко контроля соответствующего акта, а также получение вознаграждения за эффективную деятельность.

Эти меры направлены на более строгое соблюдение экологических норм и охрану окружающей среды в Узбекистане, а также на создание более жестких механизмов наказания для нарушителей. Это демонстрирует серьезное стремление страны к устойчивому и ответственному использованию природных ресурсов и охране окружающей среды для будущих поколений.

Однако к числу основных причин экологических правонарушений являются низкая правовая и экологическая культура населения, отсутствие экологического образования, причем важную роль в этой сфере играют средства массовой информации. Что касается субъективных факторов экологических правонарушений, это прежде всего деформация группового и индивидуального сознания, низкий уровень правовой и экологической культуры населения, объективных факторов - экономическая незаинтересованность предприятий в природоохранной деятельности; условия жизни населения, побуждающие к экологическим правонарушениям; отсутствие или недостаток достоверной экологической информации; снижение активности контролирующих органов; снижение уровня взаимодействия правоохранительных и природоохранных органов; недостаточное организационно-административное обеспечение реализации экологического законодательства.

На наш взгляд, по борьбе с нарушением охраны окружающей среды послужила бы комплексность подхода и совместные усилия различных секторов общества трилогии: правительство-бизнес-граждане.

1. В сфере законодательства: установление и обеспечение соблюдения строгих экологических норм и стандартов, в том числе в области контроля загрязнения, охраны природных ресурсов и защиты биоразнообразия.
2. В сфере Устойчивого развития: применение концепции устойчивого развития в экономической, социальной и экологической политике. Это включает в себя использование возобновляемых источников энергии и экологически чистых технологий.
3. В сфере Образования и просвещения: повышение осведомленности населения о важности охраны окружающей среды с помощью образовательных программ и природоохранных кампаний.
4. В области утилизации отходов: развитие систем утилизации и переработки отходов и внедрение принципа безотходности.
5. В области защиты природных ресурсов: защита экосистем, лесов, водоемов и других природных ресурсов путем создания заповедников и охраняемых территорий.
6. В области международного сотрудничества: участие в международных соглашениях и программах, направленных на защиту окружающей среды и борьбу с глобальными экологическими проблемами.

**Ганибаев Каримберди Рахимбердиевич,**
**начальник отдела Высшей школы**
**судей при Высшем судейском**
**совете Республики Узбекистан**

**УДК 343.265; 343.1**
**МРНТИ 10.77.41; 10.79.47**

# СОВЕРШЕНСТВОВАНИЕ ИНСТИТУТА ПРИМИРЕНИЯ СТОРОН НА СТАДИИ ДОСУДЕБНОГО РАЗБИРАТЕЛЬСТВА В УГОЛОВНОМ ПРОЦЕССЕ КАЗАХСТАНА

**Г.Г. Нубаева, К.М. Сердалинов**
**Академия правоохранительных органов при Генеральной прокуратуре Республики Казахстан, г. Косшы, Республика Казахстан**

**Аннотация.** Статья посвящена анализу института примирения сторон в уголовном процессе Республики Казахстан на стадии досудебного расследования. В Уголовно-процессуальном кодексе Казахстана предусмотрены основания прекращения уголовного дела в отношении подозреваемых и обвиняемых, среди которых примирение сторон занимает особое место. Этот институт играет важную роль в гуманизации уголовной политики и снижении уровня репрессивности, обеспечивая права потерпевших на возмещение ущерба и сокращая нагрузку на судебную систему.

Историческое развитие примирения в Казахстане восходит к казахскому обычному праву и продолжает эволюционировать через изменения в законодательстве, начиная с Уголовного кодекса Казахской ССР 1959 года и до настоящего времени. Современное уголовное законодательство Казахстана отражает международный опыт, но сохраняет свои национальные особенности.

Встатье применен сравнительно-правовой метод, использованы статистические данные попрекращению уголовных дел за последние пять лет (2020-2024 гг.). Авторы анализируют преимущества и недостатки института примирения, предлагает пути совершенствования его правового механизма и рассматривает зарубежные модели, которые могут быть адаптированы в казахстанскую правовую систему.

Ключевые слова: прекращение уголовного дела; нереабилитирующие основания; институт (процедура) примирения; досудебное расследование; статистика; обвиняемый; потерпевший; возмещение вреда; размер ущерба; процедура примирения; медиация.

## ҚАЗАҚСТАННЫҢ ҚЫЛМЫСТЫҚ ПРОЦЕСІНДЕ СОТҚА ДЕЙІНГІ ТАЛҚЫЛАУ САТЫСЫНДА ТАРАПТАРДЫ ТАТУЛАСТЫРУ ИНСТИТУТЫН ЖЕТІЛДІРУ

**Г.Ғ. Нубаева, Қ.М. Сердалинов**
**Қазақстан Республикасы Бас прокуратурасының жанындағы Құқық қорғау органдары академиясы, Қосшы қ., Қазақстан Республикасы**

**Аннотация.** Мақала сотқа дейінгі тергеу сатысында Қазақстан Республикасының Қылмыстық процесінде тараптарды татуластыру институтын талдауға арналған. Қазақстанның қылмыстық-процестік кодексінде күдіктілер мен айыпталушыларға қатысты қылмыстық істі тоқтату негіздері көзделген, олардың арасында тараптардың татуласуы ерекше орын алады. Бұл институт қылмыстық саясатты ізгілендіруде және жәбірленушілердің өтемақы алу құқығын қамтамасыз ету және сот жүйесіне жүктемені азайту арқылы репрессивтілік деңгейін төмендетуде маңызды рөл атқарады.

Қазақстандағы татуласудың тарихи дамуы қазақтың әдеттегі құқығынан бастау алады және 1959 жылғы Қазақ КСР Қылмыстық кодексінен бастап қазіргі уақытқа дейін заңнамадағы өзгерістер арқылы дамуын жалғастыруда. Қазақстанның қазіргі заманғы қылмыстық заңнамасы халықаралық тәжірибені көрсетеді, бірақ өзінің ұлттық ерекшеліктерін сақтайды.

Мақалада салыстырмалы-құқықтық әдіс қолданылды, соңғы бес жылдағы (2020-2024 ж.) қылмыстық істерді тоқтату бойынша статистикалық деректер пайдаланылды. Авторлар татуласу институтының артықшылықтары мен кемшіліктерін талдайды, оның құқықтық механизмін жетілдіру жолдарын ұсынады және қазақстандық құқықтық жүйеге бейімделуі мүмкін шетелдік модельдерді қарастырады.

Түйінді сөздер: қылмыстық істі тоқтату; ақтамайтын негіздер; татуласу институты (рәсімі); сотқа дейінгі тергеп-тексеру; статистика; айыпталушы; жәбірленуші; зиянды өтеу; залал мөлшері; татуласу рәсімі; медиация.

# IMPROVING THE INSTITUTION OF RECONCILIATION OF THE PARTIES AT THE STAGE OF PRE-TRIAL PROCEEDINGS IN THE CRIMINAL PROCESS OF KAZAKHSTAN

**G.G. Nubaeva, K.M. Serdalinov**
**The Law Enforcement Academy under the Prosecutor General's Office of the Republic of Kazakhstan, Kosshy c., the Republic of Kazakhstan**

**Abstract.** The article is devoted to the analysis of the institution of reconciliation of the parties in the criminal process of the Republic of Kazakhstan at the stage of pre-trial investigation. The Criminal Procedure Code of Kazakhstan provides grounds for termination of criminal proceedings against suspects and accused, among which reconciliation of the parties occupies a special place. This institution plays an important role in humanizing criminal policy and reducing the level of repression, ensuring victims' rights to compensation and reducing the burden on the judicial system.

The historical development of reconciliation in Kazakhstan dates back to Kazakh customary law and continues to evolve through changes in legislation, starting with the Criminal Code of the Kazakh SSR of 1959 and up to the present. Modern criminal legislation of Kazakhstan reflects international experience, but retains its national characteristics.

The article uses a comparative legal method, using statistical data on the termination of criminal cases over the past five years (2020-2024). The author analyzes the advantages and disadvantages of the reconciliation institute, suggests ways to improve its legal mechanism, and considers foreign models that can be adapted to the Kazakh legal system.

Keywords: termination of a criminal case; non-rehabilitating grounds; institution (procedure) of reconciliation; pre-trial investigation; statistics; accused; victim; compensation for harm; amount of damage; reconciliation procedure; mediation.

**DOI: 10.52425/25187252_2025_36_129**

**Введение.** Уголовно-процессуальный кодекс (далее – УПК) предусматривает прекращение уголовного дела на стадии досудебного расследования только в отношении подозреваемых и обвиняемых (ст. ст. 35, 36 УПК). К таким основаниям относятся: акт амнистии, истечение срока давности привлечения к уголовной ответственности, состояние невменяемости, иммунитет от уголовного преследования и положение Уголовного кодекса Республики Казахстан (далее – УК) (ст. 35 ч. 1 п. 3, 4, 9, 10, 11 и 12 УПК)[1].

Одним из часто применяемых оснований прекращения уголовного дела является «примирение сторон» (п. 12 ч. 1 ст. 35 УПК), который регламентирован в статье 68 УК[2].

Актуальность темы института примирения сторон в уголовном процессе на стадии досудебного разбирательства обусловлена его значимой ролью в современной правоприменительной практике. В условиях реформирования уголовного законодательства РК наблюдается стремление к гуманизации уголовной политики, снижению уровня репрессивности и повышению эффективности механизмов разрешения конфликтов между сторонами. Институт примирения сторон позволяет не только сократить сроки рассмотрения уголовных дел, но и обеспечить права потерпевших на возмещение ущерба без длительных судебных разбирательств, а также снизить нагрузку на судебную систему. Материалы и методы. При написании данной работы применялись методы историко-правовой, сравнительно-правовой, формально-юридический и статистический анализы. Так, историко-правовой метод использовался при анализе эволюции института примиренияот казахского обычного права и законодательства Казахской ССР до современного законодательства РК. Сравнительный подход позволил выявить особенности правового регулирования института примирения сторон на досудебной стадии в уголовных процессах Казахстана, Германии, Эстонии, Литвы, Беларуси и стран с исламской правовой системой.

1 Уголовно-процессуальный кодекс Республики Казахстан: от 4 июля 2014 г. № 231-V (с изм. и доп. по сост. на 13.03.2025 г.) [Электронный ресурс] – Режим доступа: https://online.zakon.kz/Document/?doc_id=31575852&show_di=1 (дата обращения: 14.03.2025).

2 Уголовный Кодекс Республики Казахстан: от 3 июля 2014 г. № 226-V ЗРК [Электронный ресурс] – Режим доступа: https://adilet.zan.kz/rus/docs/ K1400000226 (дата обращения: 13.03.2025).

Основой для анализа послужили положения УК РК, УПК РК, нормативные постановления Верховного Суда РК, данные Комитета по правовой статистике и специальным учетам Генеральной прокуратуры РК за 2020-2024 гг., а также международные правовые акты, включая Рекомендацию № R (99) 19 Комите- та Министров Совета Европы.

В качестве источников использовались научные публикации, комментарии к законодательству, зарубежные уголовные кодексы и акты, регулирующие примирительные процедуры, включая положения о медиации и правовых последствиях прекращения дел по соглашению сторон.

*Результаты, обсуждение.* Освобождение от уголовной ответственности в связи с примирением сторон представляет собой значимый институт уголовного права, направленный на гуманизацию уголовной политики и снижение репрессивных мер. В различных правовых системах данный институт реализуется по-разному, отражая национальные особенности и правовые традиции.

Институт примирения издревле широко практиковался на территории Казахстана. Казахское обычное право стало основой для формирования современных правовых институтов, включая институт примирения сторон. Согласно обычному праву казахов, в частности «Жеті жарғы», большинство преступлений разрешались в результате выплаты виновной стороной имущественной компенсации потерпевшей стороне от преступления «кун – выкуп за убийство» и «айып – штраф за имущественный и моральный вред» [1, 65 стр.].

Историческое развитие института примирения в уголовном праве Казахстана, начинается с Уголовного кодекса КазССР 1959 года (далее – УК КазССР), где в качестве наказания, как основного, так и дополнительного предусматривалось «возложение обязанности загладить причиненный вред» (п. 9 ст. 21). Имелась также и норма детализирующая применение данной меры – статья 29-1 УК КазССР (возложение обязанности загладить причиненный вред).

Во-первых, несколько вариантов возмещения ущерба: «непосредственное устранение причиненного вреда своими силами», «возмещение материального ущерба своими средствами» и «публичное извинение перед потерпевшим или членами коллектива в форме, установленной судом».

Во-вторых, каждый вариант возмещения применялся судом индивидуально:

– «устранение причиненного вреда своими силами» назначался, с учетом характера вреда и способностью виновного непосредственно устранить указанным путем;

- при возмещении своими средствами, размер материального ущерба не должен был превышать 500 рублей (относится к незначительному ущербу).

В случае причинения материального ущерба на сумму свыше 500 рублей, возмещение ущерба производилось в порядке гражданского судопроизводства;

– обязанности публично извиниться при посягательствах на неприкосновенность или достоинство личности либо нарушение правил социалистического общежития, не причинившее материального ущерба.

В-третьих, в приговорах судов, в обязательном порядке, оговаривался срок выполнения указанных обязательств. И при его нарушении, применялось более строгое наказание, предусмотренное статьей УК (исправительные работы без лишения свободы, штраф или увольнение от должности).

Уголовно-процессуальный Кодекс КазССР 1959 года (далее – УПК КазССР) напрямую указывал основанием «за примирением потерпевшего с обвиняемым», как обстоятельство, исключающее производство по уголовному делу (в п. 6 ст. 14 УК)[3].

В Уголовном и уголовно-процессуальном законодательстве РК 1997 года институт примирения претерпел изменения, так лишился статуса «наказания» (ст. 39 УК). И упоминается в единственной норме – статья 67 УК (освобождение от уголовной ответственности в связи с примирением)[4].

В УПК понятие «примирение» осталось только в делах частно-публичного и публичного преследования и обвинения. Статья 37 УПК предусматривает обстоятельством, ис- ключающим производство по делу, «в отношении лица, подлежащего освобождению от уголовной ответственности в силу положений Уголовного кодекса Республики Казахстан», ссылаясь на статью 67 УК5[5].

3 Уголовный Кодекс Казахской ССР: от 22 июля 1959 г. (утратил силу) [Электронный ресурс] – Режим доступа: https://online.zakon.kz/Document/?doc_ id=1004273&pos=3;-102#pos=3;-102 (дата обращения: 14.03.2025).

4 Уголовный Кодекс Республики Казахстан: от 16 июля 1997 г. № 167-I (утратил силу) [Электронный ресурс] – Режим доступа: https://online.zakon.kz/ Document/?doc_id=31318311&pos=90;-50#pos=90;-50 (дата обращения: 14.03.2025).

5 Уголовно-процессуальный кодекс Республики Казахстан: от 13 дек. 1997 г. № 206 (утратил силу) [Электронный ресурс] – Режим доступа: https://adilet. zan.kz/rus/docs/Z970000206_ (дата обращения: 17.03.2025).

Диспозиция статьи 67 УК в отличие от статьи 29-1 УК КазССР расширилась, включив отдельную категорию граждан, как несовершеннолетние, на которых распространяетсяпримененииеданнойнормы, при условии для впервые совершивших тяжкое преступление, не связанное с причинением смерти или тяжкого вреда здоровью человека. А также категорией лиц, совершивших коррупционные преступления, на которых положения настоящей статьи не распространяются.

Согласно действующего Уголовного законодательства статья 68 УК имеет следующие отличительные основания:

– расширена категория лиц для впервые совершивших тяжкие преступления (несовершеннолетние; беременные женщины; женщины, имеющие малолетних детей; мужчины, воспитывающие в одиночку малолетних детей; женщины в возрасте пятидесяти восьми и свыше лет; мужчины, в возрасте шестидесяти трех и свыше лет) (ч. 2 ст. 68 УК);

– дополнена перечнем преступлений (пытки, против половой неприкосновенности или связанные с насилием в отношении несовершеннолетних и т.д.), на которые примирение не распространяется (ч. 4 ст. 68 УК)[6].

УПК 2014 года, в части обстоятельств исключающих производство по делу, полностью дублирует УК 1997 года[7].

Посравнению с УК 1959 годом последующие УК отказались от конкретизации способов примирения.

Аббревиатура форм примирения получила расшифровку в нормативном постановлении Верховного Суда РК от 21 июня 2001 года № 4 «О судебной практике по применению статьи 68 Уголовного кодекса Республики Казахстан» (далее – НП ВС № 4), где отмечено, что:

5. Заглаживание вреда может выражаться в восстановлении поврежденного имущества, возврате похищенного или предоставлении равноценного имущества, выплате денежной компенсации, приобретении лекарств, санаторно-курортных путевок, принесения извинения потерпевшему, заявителю и других формах, не запрещенных законом.

7. Примирение выражается в просьбе потерпевшего, заявителя прекратить уголовное дело, возбужденное против лица, совершившего уголовное правонарушение[8].

При всей своей положительной тенденции развитие института примирения в последних УК так и остались не решенной проблемой детализации и порядка проведения примирения, о чем и свидетельствуют показали статистических данных.

За последние пять лет статистика по прекращенным уголовным делам по нереабилитирующим основаниям на стадии досудебного расследования наблюдается стойкое и последовательное снижение:




6 Уголовный Кодекс Республики Казахстан: от 3 июля 2014 г. № 226-V ЗРК [Электронный ресурс] – Режим доступа: https://adilet.zan.kz/rus/docs/ K1400000226 (дата обращения: 13.03.2025).

7 Уголовно-процессуальный Кодекс Республики Казахстан: от 4 июля 2014 г. № 231-V ЗРК [Электронный ресурс] – Режим доступа: https://adilet.zan.kz/ rus/docs/K1400000231 (дата обращения: 17.03.2025).

8 О судебной практике по применению статьи 68 Уголовного кодекса Республики Казахстан: нормативное постановление Верховного Суда Республики Казахстан от 21 июня 2001 г. № 4 [Электронный ресурс] – Режим доступа: https://adilet.zan.kz/rus/docs/P01000004S_ (дата обращения: 26.02.2025).

По примирению сторон и возмещению ущерба потерпевшему на стадии досудеб- ного расследования по статье 68 УК статистика выглядит, с учетом общей тенденции к снижению, неоднозначно:




Скачкообразный характер кривой показателей указывает на нестабильность в применении института примирения, что свидетельствует о наличии системных проблем и потребности в совершенствовании его правового и процедурного механизмов.

По данным проблемам еще в 2006 году М.Ч. Когамов отмечал отсутствие в УПК процессуальной формы, регулирующей методы примирения сторон и восстановление прав потерпевшего, а также условия и порядок отмены постановлений о прекращении дела при невыполнении обвиняемым своих обязательств. Предлагалось выделить в УПК отдельную главу для полной регламентации этого института [2]. Что по настоящее время так и не сделано.

Отечественный институт прекращения уголовного преследования за примирением сторон на стадии досудебного расследования обладает как преимуществами, так и недостатками.

Преимущества:

1. Прекращение уголовных дел, не представляющих значительной общественной опасности и причинивших несущественный вред, позволяет органам досудебного расследования сосредоточиться на расследовании тяжких и особо тяжких преступлений.

2. Институт примирения усиливает роль потерпевшего в уголовном процессе, обеспечивая ему доступ к правосудию и возмещению ущерба (ч. 2 ст. 34 УК). Он способствует оперативному восстановлению нарушенных прав и свобод, атакже гуманному подходу к обвиняемому при заглаживании вреда (НП ВС РК № 4).

3. Прекращение уголовных дел по нереабилитирующим основаниям допускается при доказанности причастности лица к преступлению, освобождая его от уголовной ответственности и исключая дальнейшую уголовно-процессуальную деятельность.

Недостатки:

1. Обязательность судебного разбирательства всех уголовных дел гарантирует соблюдение конституционного принципа виновности, устанавливаемого исключительно судом (п. 1 ч. 3 ст. 77 Конституции УК, ч. 2 ст. 11 УПК РК)[9].

2. Диспозиция части 2 статьи 68 УК и НПВС № 4, расширяя перечень лиц, впервые совершивших тяжкие преступления, исключила некоторые категории, такие как лица с инвалидностью или имеющие на иждивении тяжело больных.

3. Заглаживание вреда (п. 5 НП ВС № 4) часто сводится к денежной компенсации, размеры которой нередко завышаются, иногда в десятки или сотни раз, тогда как органы уголовного преследования и суд не вправе их пересматривать (п. 6 НП ВС № 4).

4. Прекращение уголовных дел по примирению сторон не предусматривает реабилитации лица и возмещения ущерба, понесенного в результате уголовного преследования.

9 Конституция Республики Казахстан: принята на республиканском референдуме 30 августа 1995 г. [Электронный ресурс] – Режим доступа: https:// adilet.zan.kz/rus/docs/K950001000_ (дата обращения: 17.03.2025).

В контексте совершенствования отечественного института примирения сторон целесообразно обратиться к международному опыту, где реализуются различные модели примирительных процедур. Для сравнения представляется полезным рассмотреть примеры нестандартного подхода, применяемые в зарубежной практике.

Так, УК Литвы и Молдовы примирение сторон на стадии досудебного разбирательства вообще не рассматривается. А в УК Литвы есть одно дополнение возможность отмены решения о прекращении уголовного дела, если лицо в течение года после освобождения от ответственности совершает новое преступление или без уважительной причины не выполняет условий договоренности с потерпевшим о возмещении ущерба[10] [3, 390 стр.].

УК Эстонии пошел еще дальше, дополнив данную норму по условиям невыполнение возложенных на подозреваемого и обвиняемого обязанностей или совершение в течение 6 месяцев после прекращения производства новое умышленное преступление в отношении того же потерпевшего, где по ходатайству прокуратуры суд своим постановлением возобновляет производство по уголовному делу (ст. 203-1 УПК).

Согласно статье 203-2 УПК Эстонии процесс примирение происходит в примирительном производстве, на которое дают согласие подозреваемый или обвиняемый и потерпевший. Прокуратура или суд посылает примирителю постановление о применении примирительного производства для организации примирения. Примиритель оформляет примирение в виде письменного соглашения о примирении, которое подписывает подозреваемый или обвиняемый и потерпевший. Соглашение о примирении должно содержать порядок и условия возмещения ущерба, нанесенного преступлением, а также и иные условия (ч. 2)[11].

В странах Европы поддерживают и развивают институт примирения, процесс которого регламентирован Рекомендацией № R (99) 19 Комитета Министров государствам – членами совета Европы и посвящена медиации в уголовных делах (принята Комитетом министров 15 сентября 1999 г. на 679-й встрече представителей Комитета) (далее – Рекомендация). Согласно Рекомендации возможно применение примирения до возбуждения (начала) уголовного дела. При этом хочется отметить, что органы, осуществляющие досудебное разбирательство прямо заинтересованы в примирении и всячески этому способствуют[12]. Изучение УПКФРГ выявило нестандартные формы прекращения уголовных дел по примирению сторон на стадии судебного разбирательства. Помимо примирения и возмещения ущерба, на обвиняемого могут возлагаться дополнительные обязанности, например, выплата в благотворительный фонд или выполнение общественно полезных действий. Прекращение дела по нереабилитирующим основаниям не влечет судимости и фиксируется только в Центральном реестре прокуратуры, позволяя избежать последствий публичного процесса [4]. Однако установлены ограничения на рецидив преступления в течение одного года после осуществления процедуры примирения, в течение которого данное уголовное преследование учитывается при правоприменении [5].

В станах с исламским правом также имеется институт примирения сторон на стадии досудебного разбирательства. В УК Йемена, Судана и Шарджа предусмотрена возможность примирения сторон, при которой потерпевший вправе простить виновного как без требований о возмещении ущерба, так и на условиях выплаты компенсации.

Особенностью данных правовых систем является активное содействие органов уголовного преследования в достижении примирения и урегулировании вопросов возмещения вреда [3, 391 стр.]; [6].

10 On the Approval and Entry Into Force of the Criminal Code: Law Republic of Lithuania 26 September 2000 No VIII-1968 (As last amended on 11 February 2010 – No XI-677) Vilnius [Электронный ресурс] – Режим доступа: https://www.wipo.int/wipolex/en/legislation/details/2888 (дата обращения: 17.03.2025); Уголовный кодекс Республики Молдова: от 18 апр. 2002 г. № 985-XV (с изм. и доп. по сост. на 06.06.2024 г.) [Электронный ресурс] – Режим доступа: https:// continent-online.com/Document/?doc_id=30394923 (дата обращения: 17.03.2025).

11 Code of Criminal Procedure (consolidated text of March 3, 2014), Estonia [Электронный ресурс] – Режим доступа: https://www.wipo.int/wipolex/en/ legislation/details/1291 (дата обращения: 03.03.2025).

12 Рекомендация № r (99) 19 Комитета министров государствам – членам совета Европы, посвященная медиации в уголовных делах: принята Комитетом министров 15 сент. 1999 г. на 679-й встрече представителей Комитета [Электронный ресурс] – Режим доступа: https://nadejdaarh.ru/images/ dokuments/norm_prav_baza/%D1%80%D0%B5%D0%BA%D0%BE%D0%BC%D0%B5%D0%BD%D0%B4_%D1%81%D0%B5_%D0%BE_%D0%BC%D0B5%D0%B4%D0%B8%D0%B0%D1%86%D0%B8%D0%B8_%D0%B2_ %D1%83%D0%B3%D0%BE%D0%BB%D0%BE%D0%B2_%D0%B4%D0%B5%D0%BB%D0%B0%D1%85.pdf (дата обращения: 13.03.2025).

*Заключение.* И в заключении, развитие института примирения в Казахстане характеризуется ужесточением ограничений с каждым новым уголовным законодательством, что затрудняет его применение и развитие, как на досудебной стадии, так и в суде. Соглас- но НП ВС № 4, наличие судимости влечет запрет на повторное примирение в случае совершения умышленного преступления в течение срока давности. В отличие от Казахстана, в Республике Беларусь в судебном разбирательстве допускается повторное применение примирения, при этом вопрос решается индивидуально с учетом причин нового преступления, формы вины и иных значимых обстоятельств[13].

Применение повторного применения процедуры примирения, считаем возможным применить и в отечественном уголовном законодательстве, также исходя из личности подсудимого и обстоятельств совершенного нового преступления.

Также, целесообразно пересмотреть перечень лиц, совершивших тяжкие преступления, предусмотренный частью 2 статьи 68 УК, дополнив такими лицами, как с инвалидностью, многодетные и имеющие на иждивении тяжело больных и (или) детей с инвалидностью, наряду с уже учтенными группами.

Современные тенденции в уголовном праве характеризуются преобладанием практики возмещения имущественного ущерба в денежной форме, при этом размер компенсации зачастую определяется потерпевшим без учета принципа соразмерности причиненному вреду.

Отсутствие объективных критериев для исчисления размера ущерба создает предпосылки для злоупотребления субъективным правом и необоснованного обогащения за счет подсудимого. Не достижение соглашения о размере компенсации зачастую становится причиной отсутствия примирения сторон, что приводит к рассмотрению дела в рамках уголовного судопроизводства и вынесению обвинительных приговоров.

Назначение уголовного наказания часто становится следствием отсутствия возможности примирения сторон, что, в свою очередь, обусловлено незаинтересованностью органов уголовного преследования и суда в прекращении уголовного дела на основании института примирения (п.п. 4 и 6 НП ВС № 4). Данное обстоятельство снижает мотивацию подсудимого к добровольному возмещению имущественного ущерба, в результате чего потерпевшая сторона утрачивает возможность на получение справедливой и адекватной компенсации[14].

Для эффективного функционирования института примирения на стадии досудебного разбирательства и обеспечения соблюдения принципа соразмерности суммы возмещения причиненному вреду представляется целесообразным законодательное закрепление соответствующей процедуры, учитывая ее отсутствие в уголовно- процессуальном законодательстве РК. В этом контексте особую роль может сыграть медиация как независимый и нейтральный орган примирения, способствующий достижению справедливого соглашения между сторонами, снижению конфликта и предотвращению необоснованного уголовного преследования.

Таким образом, институт примирения в уголовном законодательстве Казахстана сталкивается с усиливающимися ограничениями, что осложняет его применение на досудебной и судебной стадиях.

Отсутствие объективных критериев для расчета компенсации приводит к злоупотреблениям и препятствует примирению. Недостаточная заинтересованность органов преследования и суда в прекращении дела снижает мотивацию к добровольному возмещению ущерба. Закрепление процедуры соразмерности компенсации и усиление роли медиации способствовали бы справедливому урегулированию споров и предотвращению необоснованного преследования.

## Список использованной литературы:

1. Қазақтың ата заңдары. Құжаттар, деректер және зерттеулер // Материалдар, құжаттар және зерттеулер. – 10 томдық. Өзгертіліп, толықтырылған 2-басылым / Бағдарлама жетекшісі: С.З. Зиманов. – Алматы: Жеті жарғы, 2004. – 632 б.

13 О практике применения судами статей 86, 88, 89 Уголовного кодекса Республики Беларусь, предусматривающих возможность освобождения лица от уголовной ответственности: постановление Пленума Верховного Суда Республики Беларусь 29 марта 2012 г. № 1 [Электронный ресурс] – Режим доступа: https://court.gov.by/ru/jurisprudence/post_plen/criminal/toco/ffd2399bf1864552.html (дата обращения: 03.03.2025).

14 О судебной практике по применению статьи 68 Уголовного кодекса Республики Казахстан: нормативное постановление Верховного Суда Республики Казахстан от 21 июня 2001 г. № 4 [Электронный ресурс] – Режим доступа: https://adilet.zan.kz/rus/docs/P01000004S_ (дата обращения: 26.02.2025).

2. Когамов, М.Ч. Примирение сторон повысить эффективность // Юридическая газета № 201 (1181). – 2006 г.
3. Додонов, В.Н. Сравнительное уголовное право: монография / В.Н. Додонов. – Общая часть; под общ. науч. ред.: Щерба С.П. – М.: Юрлитинформ, 2009. – 448 с.
4. T. Vizdoagă. Calitatea apărătorului de subiect al probatoriului (Unele aspecte de drept comparat) // Conferința științifică națională cu participare international „Integrare prin cercetare și inovare", USM, 10-11 noiembrie 2020. – Pp.176-179.
5. Roxin, C. Strafrecht / C. Roxin. – Allgemeiner Teil. Bd. 1. 4. Aufl. – Munhen, 2005. – 456 p.
6. Shah Haneef, S.S. Shariah Criminal Code of Adjudication: Distinctive Features Vis-a-Vis Modern Systems / S.S. Shah Haneef, M. Abbas Abdul Razak, H. Laluddin // Journal of Education and Social Sciences. – 2019. – Vol. 13, Issue 1. – Pp. 129-137.

**References:**

1. Қazaқtyң ata zaңdary. Құzhattar, derekter zhəne zertteuler // Materialdar, құzhattar zhəne zertteuler. – 10 tomdyқ. Өzgertilip, tolyқtyrylғan 2-basylym / Baғdarlama zhetekshisi: S.Z. Zimanov. – Almaty: Zheti zharғy, 2004. – 632 b.
2. Kogamov, M.Ch. Primirenie storon povysit' jeffektivnost' // Juridicheskaja gazeta № 201 (1181). – 2006 g.
3. Dodonov, V.N. Sravnitel'noe ugolovnoe pravo: monografija / V.N. Dodonov. – Obshhaja chast'; pod obshh. nauch. red.: Shherba S.P. – M.: Jurlitinform, 2009. – 448 s.
4. T. Vizdoagă. Calitatea apărătorului de subiect al probatoriului (Unele aspecte de drept comparat) // Conferința științifică națională cu participare international „Integrare prin cercetare și inovare", USM, 10-11 noiembrie 2020. – Pp.176-179.
5. Roxin, C. Strafrecht / C. Roxin. – Allgemeiner Teil. Bd. 1. 4. Aufl. – Munhen, 2005. – 456 p.
6. Shah Haneef, S.S. Shariah Criminal Code of Adjudication: Distinctive Features Vis-a-Vis Modern Systems / S.S. Shah Haneef, M. Abbas Abdul Razak, H. Laluddin // Journal of Education and Social Sciences. – 2019. – Vol. 13, Issue 1. – Pp. 129-137.

## АВТОРЛАР ТУРАЛЫ МӘЛІМЕТТЕР / СВЕДЕНИЯ ОБ АВТОРАХ / INFORMATION ABOUT AUTHORS

**Гүлмира Ғалымқызы Нубаева** – Қазақстан Республикасы Бас прокуратурасы жанындағы Құқық қорғау органдары академиясының Ведомствоаралық ғылыми-зерттеу институтының қылмыстық процесс проблемаларын зерттеу орталығының аға ғылыми қызметкері, заң ғылымдарының кандидаты, ORCID: https://orcid.org/0009-0000-9783-7445, e-mail: gulmira_7507@mail.ru.

**Нубаева Гульмира Галымовна** – старший научный сотрудник Центра исследования проблем уголовного процесса Межведомственного научно-исследовательского института Академии правоохранительных органов при Генеральной прокуратуре Республики Казахстан, кандидат юридических наук, ORCID: https://orcid.org/0009-0000-9783-7445, e-mail: gulmira_7507@mail.ru.

**Nubaeva Gulmira Galymovna** – Senior Researcher at the Center for the Study of Criminal Procedure Problems of the Interdepartmental Research Institute of the Law Enforcement Academy under the Prosecutor General's Office of the Republic of Kazakhstan, Candidate of Law, ORCID: https://orcid.org/0009-0000-9783-7445, e-mail: gulmira_7507@mail.ru.

**Қорғанбек Мағжанұлы Сердалинов** – Қазақстан Республикасы Бас прокуратурасы жанындағы Құқық қорғау органдары академиясының Ведомствоаралық ғылыми-зерттеу институтының құқық қорғау қызметінің проблемаларын зерттеу мен зерттеуді үйлестіру орталығының бастығы, e-mail: kurganbek7@icloud.com.

**Сердалинов Курганбек Магжанович** – начальник Центра координации исследований и изучения проблем правоохранительной деятельности Межведомственного научно- исследовательского института Академии правоохранительных органов при Генеральной прокуратуре Республики Казахстан, e-mail: kurganbek7@icloud.com.

**Serdalinov Kurganbek Magzhanovich** – Head of the Center for Coordination of Research and Study of Law Enforcement Issues of the Interdepartmental Research Institute of the Law Enforcement Academy under the Prosecutor General's Office of the Republic of Kazakhstan, e-mail: kurganbek7@icloud.com.

# Veteran prokurorluq işçisi təbrik edilib




Azərbaycan Prokurorluğunun veteranı Vəliyev Allahverdi Hüseyn oğlunun 70 illik yubileyinin tamam olması ilə əlaqədar Baş prokuror Kamran Əliyevin adından təbrik məktubu təqdim edilib.

Görüş zamanı veteran prokuror xatirələrini bölüşərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən qayğı nəticəsində prokurorluq orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, prokurorluq işçilərinin və onun veteranlarının maddi və sosial rifahının yüksəlməsini qeyd edib.

Allahverdi Vəliyev 1983-cü ildən prokurorluq orqanlarında qulluğa qəbul olunub, əvvəllər Kəlbəcər, Yevlax, Binəqədi rayon prokurorluqlarında müstəntiq və böyük müstəntiq, Baş Prokurorluqda şöbə prokuroru, şöbə rəisi, idarə prokuroru və digər vəzifələrdə işləyib.

Söhbət zamanı dövlətçilik maraqlarının keşiyində hər zaman mətinliklə duran, şərəfli inkişaf yolu keçmiş, prokurorluğun adını daim uca tutan veteranlarımızın ömür yolunun gənc nəsil prokurorluq işçiləri üçün örnək olması vurğulanıb.

## “Azərbaycan Respublikası Prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçiləri” İctimai Birliyi üzvlərinin “8 Noyabr – Zəfər Günü” ilə bağlı bəyanatı

Qanunçuluq və dövlətçilik maraqlarının keşiyində hər zaman mətinliklə duran, şərəfli inkişaf yolu keçmiş, prokurorluğun adını daim uca tutan veteranlar kimi biz – “Azərbaycan Respublikası Prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçiləri” İctimai Birliyinin üzvləri olaraq, 44 günlük Vətən müharibəsində qələbənin beşinci ildönümü – möhtəşəm Zəfər Günü bayramı ilə əlaqədar şərəf duyduğumuzu bəyan edirik.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyəti, cəsarətli qərarları və xalqımızın birliyi, şəhidlərimizin qanı, qazilərimizin fədakarlığı nəticəsində 300-ə yaxın yaşayış məntəqəsinin, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Hadrut, Suqovuşan və digər yaşayış məntəqələrinin işğaldan azad edilməsi ilə nəticələnən Vətən müharibəsinin hər günü, hər saatı bizim üçün möhtəşəm və müqəddəs olmasına baxmayaraq, həmin günlərdən biri – 8 noyabr günü Qarabağın incisi və tacı, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın işğaldan azad olunduğu gün – ən şərəfli gündür.

Azərbaycan Respublikası Prezidentinin 7 may 2021-ci il tarixli Sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş Şuşa şəhərinin qorunmasının, bərpasının, öyrənilməsinin, inkişafının və təbliğinin hüquqi və təşkilati əsaslarını müəyyən edən “Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında” Azərbaycan Respublikasının 31 may 2021-ci il tarixli qanunu qəbul edilmişdir. Həmin Qanuna əsasən, Şuşa şəhərinin inzibati sərhədləri daxilində Şuşa Şəhəri Dövlət Qoruğu yaradılmış və hüquqi tənzimləmənin sahələri müəyyənləşdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 2022-ci il tarixli Sərəncamı ilə 2022-ci il Azərbaycan Respublikasında “Şuşa İli” elan edilmişdir.

44 günlük Vətən müharibəsi 2020-ci il noyabrın 10-da Ermənistanın kapitulyasiya aktını imzalaması ilə başa çatmışdır. Döyüş meydanında qazanılan Zəfərin siyasi-diplomatik müstəvidə də təsdiq edilməsi Ağdam, Kəlbəcər və Laçın rayonlarının dinc yolla Azərbaycana qaytarılmasını təmin etmişdir.

2023-cü il sentyabrın 19-20-də Qarabağ bölgəsində 23 saat 43 dəqiqə davam edən lokal antiterror əməliyyatı ilə separatizmə son qoyuldu və ölkəmizin suverenliyi tam bərpa edildi.

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur torpaqları öz yeni, nəfis görkəmi, möhtəşəm infrastruktur layihələri, abad şəhər və kəndləri, elektrik və su xətləri, yollar, körpülər, tunellər, beynəlxalq hava limanları ilə hər birimizi qürurlandırır. Cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə və qazilərə göstərdiyi diqqət və qayğı, dövlətimizin mənəvi borcuna sadiqliyinin təcəssümüdür.

Biz, “Azərbaycan Respublikası Prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçiləri” İctimai Birliyinin üzvləri Qalib ordunun Ali Baş Komandanı Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyimizə ümidlə baxır, cənab Prezidentimiz İlham Əliyevin ölkəmizdə və bölgədə davamlı sülh, əmin-amanlıq və tərəqqini təmin edən müdrik siyasi dəst-xətini hər zaman dəstəkləyirik.

**“Azərbaycan Respublikası Prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçiləri” İctimai Birliyi**
Bakı şəhəri 7 noyabr 2025-ci il

# Prokurorluğun veteranı Hüseynxan Məmmədovun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi



***Məmmədov Hüseynxan Paşa oğlu 3 sentyabr 1948-ci ildə Yardımlı rayonunda anadan olub. 1980-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirib, həmin ildə prokurorluq orqanlarına qulluğa qəbul olunaraq Kürdəmir rayon prokurorluğunun stajoru kimi iş fəaliyyətinə başlamışdır. Sonradan müxtəlif illərdə Astara rayon prokurorluğunun müstəntiqi, Masallı rayon prokurorluğunun böyük müstəntiqi, Azərbaycan Respublikası Baş prokuroru yanında xüsusi ilə mühüm işlər üzrə müstəntiq, Baş Prokurorluğun İstintaq idarəsinin 2-ci istintaq şöbəsinin Baş prokuroru yanında xüsusi ilə mühüm işlər üzrə baş müstəntiqi, həmin idarənin xüsusi ilə mühüm işlər üzrə böyük müstəntiqi, Zərdab rayon prokuroru, Lənkəran rayon və Sumqayıt şəhər prokurorluqlarında prokuror-kriminalist vəzifələrində çalışmışdır.***

***2007-ci ildə Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Ağır cinayətlərə dair Azərbaycan Respublikası məhkəməsində dövlət ittihamını müdafiə etmişdir. Baş ədliyyə müşaviridir. 2009-cu ilin aprel ayından 2020-ci ilin sentyabr ayına qədər Azərbaycan Respublikası Ali Məhkəməsinin Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsində çalışıb. Həmin müddətdə əvvəlcə aparıcı məsləhətçi, 2010-cu il dekabrın 1-dən etibarən isə şöbə müdirinin müavini vəzifəsində çalışıb.***

***Xidməti vəzifələrini yüksək peşəkarlıqla və nümunəvi qaydada yerinə yetirdiyinə görə o, Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 1995-ci il tarixli Sərəncamı ilə "İgidliyə görə" və 22 iyun 2020-ci il tarixli Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalları ilə təltif edilib.***

**1. Hüseynxan müəllim, prokurorluqda işə başladığınız ilk günü necə xatırlayırsınız və peşəkar işçi kimi formalaşmağınızda hansı həmkarınızın rolunu qeyd etmək istərdiniz?**

**Cavab:** Hələ orta məktəbdə oxuduğum illərdən hüquqşünas olmaq mənim ən böyük arzularımdan biri idi. Həyatım boyu ədalətə, haqqın bərqərar olmasına həmişə dərin maraq göstərmişəm və bu sahədə çalışmağı özüm üçün şərəfli bir məqsəd kimi müəyyən etmişdim.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Neft və Kimya İnstitutuna daxil oldum və bir neçə il burada təhsil aldım. Lakin həyat məni fərqli bir istiqamətə yönəltdi, təhsilimi yarımçıq qoyaraq həqiqi hərbi xidmətə yollandım. Ordu sıralarından tərxis olunduqdan sonra uşaqlıq arzuma doğru yenidən addım atdım. 1974-cü ildə Azərbaycan Dövlət Universitetinin hazırlıq fakültəsinə, 1975-ci ildə isə hüquq fakültəsinə daxil olaraq, uzun illərdir arzuladığım məqsədə çatdım. Bu, mənim həyatımda dönüş nöqtəsi idi.

Prokurorluq orqanlarına qəbul olunduğum gün isə mənim üçün xüsusi və unudulmaz bir hadisədir. Həmin an həm böyük sevinc, həm də dərin məsuliyyət hissi yaşadım. Mən artıq yalnız bir hüquqşünas deyil, dövlətin və ədalətin keşiyində duran bir prokurorluq əməkdaşı idim. Kürdəmir rayon prokurorluğunda işə başlayarkən müəyyən həyat təcrübəm olsa da, peşəkar müstəntiq kimi formalaşmağımda bir sıra dəyərli həmkarlarımın rolu misilsiz olub. Xüsusi ilə rayonun prokuroru Kamal Hacıyevin, prokuror köməkçisi Sabir Cəfərovun və müstəntiq Seyfulla Əliyevin peşəkarlığı, prinsipiallığı və ədalətə sadiqliyi mənim üçün nümunə idi.

Təəssüf ki, onların hər üçü artıq aramızda yoxdur, lakin öyrətdikləri dəyərlər və qoyduqları iz bu gün də mənim peşəkar həyatımın bir parçasıdır. Bu gün də həmin insanları böyük minnətdarlıq və dərin ehtiram hissi ilə xatırlayıram. Onların ruhuna Allahdan rəhmət diləyirəm.

**2. 1981-1989-cu illərdə Astara rayon prokurorluğunun müstəntiqi kimi işləyərkən, ən yadda qalan cinayət işi haqqında danışa bilərsiniz?**

**Cavab:** Astara rayon prokurorluğunda müstəntiq vəzifəsində çalışdığım illər mənim peşəkar fəaliyyətimdə ən məsuliyyətli və eyni zamanda ən formalaşdırıcı dövrlərdən biri olub. Həmin müddətdə mən çoxsaylı, ağır, mürəkkəb və böyük həcmli bir sıra cinayət işlərinin istintaqını aparmışam. Bunlara ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə, xüsusi ilə külli miqdarda dövlət əmlakının mənimsənilməsi və israf edilməsi, eləcə də digər kateqoriyalardan olan cinayət işləri daxildir. Bu işlərin hər biri dərin hüquqi bilik, prinsipial mövqe və yüksək məsuliyyət tələb edirdi. İstintaq prosesində əsas məqsədim həmişə obyektivliyi təmin etmək, ədalətin bərqərar olunmasına nail olmaq və qanunun aliliyini qorumaq olub.

Həmin işlər arasında Astara Rayon Peşə Məktəbinin vəzifəli şəxsləri barəsində apardığım cinayət işini xüsusi ilə qeyd etmək istərdim. Belə ki, iki ildən artıq davam etmiş ibtidai istintaq zamanı iş üzrə 2000-dən çox şəxs şahid qismində dindirilmiş, çoxsaylı, müxtəlif məhkəmə ekspertizaları keçirilmiş və digər zəruri istintaq hərəkətləri yerinə yetirilmişdir. İstintaqın sonunda peşə məktəbinin 15 nəfər vəzifəli şəxsi həmin dövrdə qüvvədə olmuş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (CM) 88-1 (dövlət əmlakını xüsusi ilə külli miqdarda mənimsəmə) və 172-ci (vəzifə saxtakarlığı) maddələri



ilə müttəhim (təqsirləndirilən şəxs) qismində cəlb edilərək məhkəməyə verilmişdir. Məhkəmənin hökmü onlar ittiham olunduqları maddələrlə təqsirli bilinirək müxtəlif növ cinayət cəzalarına məhkum olunmuşlar.

Astara rayon prokurorluğunda apardığım cinayət işləri mənim üçün sadəcə bir peşə sınağı deyil, həm də təcrübə, səbr və hüquqi düşüncə məktəbi oldu. Bu dövrdə qazandığım təcrübə sonrakı illərdə apardığım istintaq və ibtidai araşdırmaya rəhbərlik etdiyim işlərdə peşəkar qərarvermə bacarığımı formalaşdırdı.

**3. 1989-1992-ci illərdə işlədiyiniz Masallı rayon prokurorluğu barədə, eləcə də həmin dövr ölkəmizdə baş vermiş siyasi dəyişikliklər haqqında xatirələrinizi bizimlə bölüşə bilərsinizmi?**

**Cavab:** Məlum olduğu kimi, 1988-ci ildən etibarən keçmiş SSRİ-nin tərkibinə daxil olan 15 müttəfiq respublikada, o cümlədən Azərbaycan Respublikasında milli azadlıq hərəkatı geniş vüsət aldı. 1991-ci ilin dekabrında Sovet İttifaqı süquta uğradı və bütün respublikalar kimi Azərbaycan da öz müstəqilliyini bərpa etdi. Lakin müstəqilliyin ilk illəri olduqca mürəkkəb və ziddiyyətli dövr kimi yadda qaldı. Belə ki, həmin dövrdə bəzi siyasi qüvvələr dövlətin suverenliyini və ərazi bütövlüyünü qoruyub saxlamaq, milli birliyi və dövlətçiliyi möhkəmləndirmək, xalqı vahid amal ətrafında birləşdirmək əvəzinə siyasi hakimiyyəti ələ keçirmək uğrunda mübarizəyə üstünlük verdilər. Bu vəziyyət nəticəsində respublikada hakimiyyətsizlik, qanunçuluğun pozulması, qanunsuz silahlı dəstələrin yaradılması, dövlət orqanlarına qarşı silahlı basqınlar, hətta vəzifəli şəxslərin girov götürülməsi kimi hallarla müşahidə olunan gərgin bir dövr yaşanırdı. Mən o illərdə Masallı rayon prokurorluğunda çalışırdım və təəssüf ki, bu cür mənfi proseslər rayon ərazisində də öz əksini tapmışdı. Xüsusi ilə cənub bölgəsində qondarma Talış-Muğan Respublikasının yaradılması vəziyyəti daha da gərginləşdirmişdi. Bütün bu çətinliklərə, təhlükəli və qeyri-sabit siyasi şəraitə baxmayaraq, hesab edirəm ki, hüquq-mühafizə orqanlarının əməkdaşları, o cümlədən prokurorluq işçiləri üzərlərinə düşən məsuliyyəti dərindən dərk edərək böyük fədakarlıqla və vicdanla xidmətlərini davam etdirirdilər. Prokurorluq əməkdaşları da həmin dövrdə qanunun aliliyini təmin etməyə, ictimai sabitliyin qorunmasına, vətəndaşların hüquq və təhlükəsizliyinin müdafiəsinə çalışırdılar. Bu, sadəcə bir xidməti vəzifə deyil, dövlətçilik və vətəndaşlıq borcu idi. Masallı rayon prokurorluğunda baş müstəntiq vəzifəsində işlədiyim dövrdə apardığım çoxsaylı cinayət işlərindən xüsusi ilə ikisini qeyd etmək istərdim.

Belə ki, 1990-cı ilin may ayında rayonun Şərəfə kənd sakininə Q.Qurbanova (adlar şərtidir) məxsus olan avtomobili idarə edən Masallı şəhər sakini Ə.Mehdiyev (adlar şərtidir) tərəfindən yol nəqliyyat hadisəsinin törədilməsi, avtomobilin sahibinin isə taleyinin məlum olmaması barədə rayon prokurorluğuna şikayət ərizəsi daxil olmuşdur. Həmin şikayətlə əlaqədar yol nəqliyyat hadisəsi faktı üzrə rayon polis şöbəsində başlanılmış cinayət işi tələb edilərək işin istintaqının davam etdirilməsi mənə tapşırıldı. İş üzrə aparılmış ibtidai istintaqla müəyyən edildi ki, hadisə baş verməmişdən əvvəl Ə.Mehdiyev Bakı şəhərində, "Kubinka" adlanan yerdə avtomobilin sahibi ilə görüşmüş və Q.Qurbanov adlı şəxsdən Masallı rayonuna aparmağı xahiş etmişdir. Yolda Ə.Mehdiyev avtomobilin sahibini balıq almaq adı ilə maşını Şirvan kanalı istiqamətində sürdürmüş, orada dəmir alətlə Q.Qurbanovun baş nahiyəsinə çoxsaylı zərbələr endirməklə qətlə yetirmiş və meyitini kanala atmış, tamah məqsədilə ələ keçirdiyi avtomobil ilə Masallı rayon ərazisində yol nəqliyyat qəzası törətmiş və hadisə yerindən qaçaraq gizlənmişdir. Aparılmış intensiv istintaq-əməliyyat tədbirləri nəticəsində Ə.Mehdiyev Bakı şəhərində tutulmuş və istintaq cəlb edilmişdir. İstintaqla həmçinin müəyyən edilmişdir ki, Ə.Mehdiyev başçılıq etdiyi mütəşəkkil dəstənin digər üzvləri ilə birlikdə ayrı-ayrı vaxtlarda Respublikanın müxtəlif ərazilərində yaşayan 7 nəfərə məxsus avtomobilləri oğurluq və quldurluq yolu ilə ələ keçirərək bütöv və ya müxtəlif hissələrə bölməklə Respublika ərazisində, birini isə Ukrayna Respublikasında satmışdır. İş üzrə aparılmış istintaqın sonunda Ə.Mehdiyev həmin vaxt qüvvədə olan CM-nin 94-cu maddəsinin müxtəlif bəndləri, eyni zamanda 143 (oğurluq) 145 (quldurluq) və 208-ci maddənin birinci hissəsi, cinayətkar dəstənin digər 4 üzvü isə həmin Məcəllənin 143 və 145-ci maddələri ilə müttəhim qismində cəlb edilərək məhkəməyə verilmişlər. Azərbaycan Respublikası Ali Məhkəməsinin hökmü ilə Ə.Mehdiyev ittiham olunduğu maddələrlə təqsirli bilinərək ən ağır cəzaya, digər müttəhimlər isə




müxtəlif müddətlərə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuşlar.

Bundan başqa 1991-ci ilin iyun ayında Masallı rayonu ərazisində çay bağında qadın cinsli şəxsin tamamilə yandırılmış (kömürləşmiş) meyiti aşkar edilmişdir. Xüsusi ilə qeyd etmək istəyirəm ki, naməlum şəxs (şəxslər) tərəfindən qətlə yetirilmiş qadının şəxsiyyəti onun qızıl dişlərini düzəldən həkim-stomatoloqun ifadəsi ilə müəyyən edilmiş və meyitin həmin rayon sakini D. Ağayevaya (adlar şərtidir) məxsus olduğu məlum olmuşdur. İstintaqla müəyyən edilmişdir ki, rayon sakini E. Mahmudov (adlar şərtidir) D. Ağayevanı evlənmək adı ilə özünün yaşadığı kəndə aparmış və üzərindəki qızıl-zinət əşyalarını ələ keçirmək məqsədilə həmkəndlisi M. Quliyevlə (adlar şərtidir) birlikdə kənd yaxınlığındakı çay bağı ərazisində onun üzərinə benzin tökərək yandırmış və onlar hadisə yerindən qaçaraq gizlənmişlər. Təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində E. Mahmudov Dəvəçidə (indiki Şabran rayonu), M. Quliyev isə Masallı rayon ərazisində aşkar edilmiş və aidiyyəti üzrə təhvil verilmişlər. Törətdikləri cinayət əməlinə görə E.Mahmudov və M. Quliyev həmin vaxt qüvvədə olan CM-nin 94-cu maddəsinin müxtəlif bəndləri ilə müttəhim qismində cəlb edilərək məhkəməyə verilmişlər. Aidiyyəti üzrə işə baxan Azərbaycan Respublikası Ali Məhkəməsinin hökmü ilə ittiham olunduqları maddələrlə təqsirli bilinən E.Mahmudov ən ağır cəzaya, M.Quliyev isə 15 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişlər.

**4. 1992-ci ildə siz Respublika Baş Prokurorluğunda iş fəaliyyətinizi davam etmisiniz. Mühüm işlər üzrə müstəntiq vəzifəsi çətin və məsuliyyətlidir, xüsusi ilə Sovet İttifaqının dağılmasından sonra Azərbaycan üçün gərgin dövrlərdə. O illər barədə ətraflı danışmağınızı xahiş edərdik.**

**Cavab:** Yuxarıda qeyd etdiyim kimi, 1990-cı illərin əvvəllərində ölkəmizdə baş verən siyasi proseslər, özbaşınalıq və hakimiyyət böhranı nəticəsində Azərbaycan Respublikası müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. 1991–1993-cü illərdə ölkəyə rəhbərlik etmiş şəxslərin səriştəsizliyi və idarəetmədə yol verilmiş ciddi səhvlər nəticəsində Ermənistan Silahlı Qüvvələri bir sıra xarici havadarlarının dəstəyi ilə ölkəmizin 20 faiz ərazisini işğal etdi, 1 milyona yaxın insan öz doğma yurd-yuvasından didərgin düşdü. Ölkə daxilində siyasi hərc-mərclik, qanunsuz silahlı birləşmələrin fəaliyyəti, hakimiyyət uğrunda mübarizə, eləcə də iqtisadi tənəzzül, işsizlik, yoxsulluq və inflyasiya cəmiyyətdə dərin böhran yaratmışdı. Dövlət idarəçiliyi faktiki iflic vəziyyətinə düşmüş, ölkə parçalanma təhlükəsi ilə qarşı-qarşıya qalmışdı. Bu çətin dövrdə xalqın israrlı tələbi ilə Ulu Öndər Heydər Əliyev Bakıya dəvət edildi və 1993-cü ilin iyununda yenidən dövlət idarəçiliyinə rəhbərlik etməyə başladı. Yalnız bundan sonra ölkədə siyasi sabitlik bərpa edildi, dövlətçiliyin əsasları möhkəmləndirildi və Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Lakin Ümummilli Lider Heydər Əliyevin qətiyyətli siyasi iradəsini və islahat xəttini bəzi qüvvələr qəbul edə bilmirdi. Bu səbəbdən onun hakimiyyətə qayıtdığı ilk illərdə ölkədə bir sıra təxribatlar və dövlət çevrilişi cəhdləri baş verdi.

Belə ki, ayrı-ayrı silahlı qruplaşmalar və birləşmələr tərəfindən 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası Baş Prokurorluğunun inzibati binası zəbt olundu, həmin ayın sonunda iki dövlət xadiminin həyatına sui-qəsd törədildi, oktyabr ayının 4-də isə Gəncə şəhərində dövlət çevrilişinə cəhd həyata keçirildi. 1995-ci ilin mart ayında yenidən hökumətə qarşı növbəti silahlı qiyam cəhdi baş verdi. Ulu Öndər bu təxribatlara qarşı qətiyyətli mövqe nümayiş etdirərək qanunun aliliyini təmin etdi və çevriliş cəhdlərinin qarşısı dövlətə sədaqətli qüvvələr tərəfindən qısa müddətdə qəti şəkildə alındı. Həmin hadisələrdə iştirak edən şəxslər cinayət məsuliyyətinə cəlb edilərək layiqli cəzalarını aldılar.

Qeyd etmək istərdim ki, 1994-cü ilin oktyabr ayında dövlət çevirilişinə cəhd cinayətinin təşkilatçılarından biri olan sabiq kənd təsərrüfatı naziri və həmin cəhddə iştirak etmiş Xanlar (indiki Göygöl) Rayon İcra Hakimiyyətinin sabiq başçısı barəsində başlanmış cinayət işlərinin istintaqını mən aparmışam. Cinayət işləri üzrə aparılmış ibtidai istintaqın sonunda nazir 01.09.2000-ci ilə qədər qüvvədə olmuş CM-nin 57 (vətənə xəyanət), 88-1 (dövlət əmlakını külli miqdarda mənimsəmə və ya israf etmə), 170 (rüşvət alma), 172 (vəzifə saxtakarlığı) və digər maddələri ilə, rayon icra başçısı isə həmin məcəllənin 57, 88-1, 172-ci maddələri müttəhim qismində cəlb edilmiş və cinayət işi baxılması üçün aidiyyəti üzrə məhkəməyə göndərilmişdir. Azərbaycan Respublikası Ali Məhkəməsinin hökmləri ilə nazir ittiham olunduğu bütün maddələrlə təqsirli bilinərək ən ağır cəzaya (sonradan azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilmiş), rayon icra başçısı isə Cinayət Məcəlləsinin 88-1 və 172-ci maddələri ilə təqsirli bilinərək 10 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişlər.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətinin ilk illərində yalnız dövlət idarəçiliyi sahəsində deyil, həm də məhkəmə-hüquq sistemində köklü islahatlar həyata keçirildi. Əsas

məqsəd qanunun aliliyini təmin etmək, ədalətli və müstəqil məhkəmə sistemini formalaşdırmaq, vətəndaşların hüquq və azadlıqlarını qorumaq idi. Bu islahatlar nəticəsində Azərbaycanda hüquqi dövlət quruculuğunun əsası qoyuldu, məhkəmə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm addımlar atıldı. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən ən mühüm hüquqi addımlardan biri 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası oldu. Bu sənəd müstəqil dövlətin əsas qanunu kimi ölkənin siyasi, hüquqi və ictimai həyatını tənzimlədi, Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət olduğunu təsbit etdi. Konstitusiya ilə insan və vətəndaş hüquq və azadlıqları dövlət tərəfindən qorunan ali dəyərlər kimi tanındı, məhkəmə hakimiyyətinin müstəqilliyi təmin edildi və hüquqi dövlət quruculuğunun möhkəm təməli qoyuldu.

İslahatların mühüm istiqamətlərindən biri də prokurorluq orqanlarının yenidən təşkili və fəaliyyətinin müasir tələblərə uyğun qurulması idi. Bu məqsədlə prokurorluğun hüquqi bazası formalaşdırıldı, orqanların müstəqilliyini, struktur quruluşunu və səlahiyyətlərini aydın şəkildə müəyyən edən bir sıra qərarlar qəbul edildi. Bu istiqamətdə ən mühüm addımlardan biri isə 1999-cu ilin 7 dekabr tarixində qəbul edilən "Prokurorluq haqqında" Qanun oldu. Həmin qanun prokurorluğun fəaliyyət prinsiplərini, strukturunu, prokurorların hüquq və vəzifələrini, eləcə də məsuliyyət mexanizmini müəyyənləşdirərək bu orqanın müasir dövlət idarəçiliyində rolunu daha da gücləndirdi.

**5. 1998-ci ildə Sizi Zərdab rayon prokuroru vəzifəsinə təyin ediblər. Üzərinizə bir rayon çərçivəsində qanunun aliliyini qorumaq kimi böyük bir məsuliyyət düşmüşdür. Bu vəzifələrin öhdəsindən necə gəlirdiniz?**

**Cavab:** 1998-ci ildə Zərdab rayon prokuroru vəzifəsinə təyin olunmağım mənim üçün həm böyük etimad, həm də məsuliyyət idi. Həmin dövrdə ölkəmizdə hüquq sisteminin yenidən qurulması, qanunçuluğun möhkəmləndirilməsi prosesi gedirdi və bu prosesin bir hissəsi olmaq mənim üçün şərəfli vəzifə idi. Bu məsuliyyətin öhdəsindən gəlmək üçün ilk növbədə rayonda qanunun aliliyini təmin etmək, vətəndaşların hüquq və azadlıqlarını qorumaq, prokurorluq orqanlarının fəaliyyətində şəffaflıq və obyektivlik prinsiplərini əsas götürürdüm. Rayon prokurorluğunda işin düzgün təşkili, kadrların peşəkarlığının artırılması və vətəndaş müraciətlərinə həssas yanaşma prioritet istiqamətlərimiz idi. Hər bir məsələyə prinsipial və ədalətli münasibət göstərməyə çalışırdım. Eyni zamanda, hüquq-mühafizə orqanları ilə sıx əməkdaşlıq şəraitində cinayətkarlığa qarşı mübarizəni gücləndirilmiş, ictimai asayişin qorunması və cəmiyyətin hüquqi maarifləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Zərdab rayon prokuroru vəzifəsində işlədiyim müddətdə də rayon ərazisində törədilmiş bəzi ağır cinayətlər üzrə ibtidai istintaqı şəxsən özüm aparmışam. Hesab edirəm ki, bu hal bilavasitə müstəntiq peşəsinə dərindən bağlı olmağımdan irəli gəlirdi. Mənim üçün əsas məqsəd təkcə qanunu tətbiq etmək deyil, həm də insanlarda ədalətə və dövlət orqanlarına inamı möhkəmləndirmək idi. Bu vəzifədə çalışdığım illərdə bütün fəaliyyətimdə Ulu Öndər Heydər Əliyevin "Qanunun aliliyi hər bir dövlətin dayağıdır" prinsipini rəhbər tutmuşam.

**6. Kriminalistika sahəsi Lənkaran rayon prokurorluğunda və Sumqayıt şəhər prokurorluğunda işlədiyiniz dövrdə Sizə maraqlı olmuşdur? Rezonanslı və fərqli hadisələr barədə bizə danışa bilərsiz?**

**Cavab:** Ümumilikdə deyə bilərəm ki, kriminalistika mənim üçün sadəcə bir yardımçı sahə deyil, ədalətin bərpasında elmi əsaslı yanaşmanın təməlidir. Prokuror üçün kriminalistika biliyi obyektiv, dəqiq və ədalətli qərarvermənin ən mühüm alətlərindən biridir. Prokurorluq fəaliyyətində hər bir işin obyektiv araşdırılması, sübutların düzgün toplanması və hadisələrin real təhlili kriminalistikanın tətbiqi ilə birbaşa əlaqəlidir. Mən bu sahəyə daim xüsusi diqqət yetirmişəm, çünki müasir kriminalistika metodlarının düzgün tətbiqi istintaqın keyfiyyətini və nəticələrinin ədalətliliyini müəyyən edir. Qeyd etmək istəyirəm ki, Lənkəran rayon və Sumqayıt şəhər prokurorluqlarında prokuror-kriminalist kimi əsas vəz istintaqda kriminalistik biliklərin tətbiqi, iz və maddi sübutların toplanması, hadisə yerinə baxışda müstəntiqlərə əməli köməklik göstərməkdən ibarət olmuşdur. Bununla yanaşı bir çox hallarda mürəkkəb və qeyri-aşkar şəraitdə törədilmiş ağır cinayətlərin istintaqı ilə də məşğul olmuşam.

Belə ki, Cəlilabad rayonunun Günəşli kəndində yaşayan azyaşlı uşağın 2005-ci ilin may ayında naməlum şəxs tərəfindən çay kənarında boğaz nahiyəsi kəsilməklə qəsdən öldürülməsi rayon ictimaiyyətində böyük rezonansa səbəb olmuşdur. Həmin faktla bağlı rayon prokurorluğunda başlanmış cinayət işi üzrə hadisə yerinə baxış keçirilməsi, maddi sübutların və izlərin götürülməsi, müxtəlif məhkəmə-tibbi və kriminalistik ekspertizaların təyin edilməsi, şahidlərin və cinayəti törətməkdə şübhəli olan şəxsin dindirilməsi kimi mühüm istintaq hərəkətlərinin yerinə yetirilməsində işin istintaqını aparan müstəntiqə praktiki köməklik göstərmişəm. Həmin cinayətin zərərçəkmiş şəxsin qohumu tərəfindən törədilməsi qısa müddət ərzində müəyyən edilmiş və işin istintaqı Cəlilabad rayon prokurorluğunda başa çatdırılmışdır.

Bundan başqa, 02.07.2006-cı il tarixində gündüz saatlarında Lənkəran şəhər sakini A.Qasımovanın (adlar şərtidir) yaşadığı evdə naməlum şəxs tərəfindən qətlə yetirilməsi də rayonda böyük rezonans doğurmuşdu. Həmin fakta görə başladığım cinayət işi üzrə tərəfimdən həyata keçirilmiş təcili istintaq hərəkətləri, o cümlədən məhkəmə-tibbi, kriminalistik-texniki ekspertizalar keçirməklə və müasir texniki vasitələrin tətbiqi ilə əldə edilmiş sübutlar nəticəsində bu cinayəti törətmiş şəxs müəyyən edildi. Məlum oldu ki, qeyd edilən xüsusilə ağır cinayəti Lənkəran rayon sakini M.Qarayev (adlar şərtidir) hadisədən bir neçə il əvvəl zərərçəkmiş şəxs tərəfindən şantaj yolu ilə cinayət məsuliyyətinə cəlb edilmiş və məhkəmənin hökmü ilə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdir. Ona görə də o,

A.Qasımovadan qisas almaq məqsədilə sonuncuya yaşadığı evdə çoxsaylı bıçaq zərbələri yetirmək, o cümlədən boğaz nahiyəsini kəsməklə xüsusi amansızlıqla öldürmüşdür. Yuxarıda göstərilənlərə əsasən cinayəti törətmiş şəxs hazırda qüvvədə olan CM-nin 120.2.4-cü (xüsusi amansızlıqla qəsdən adam öldürmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş və işə baxan Ali Məhkəmənin hökmü ilə 14 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdir.



Bundan başqa 2007-ci ilin aprel ayında Sumqayıt şəhərində yerləşən zavodlardan birinin istehsalat sexində iş vaxtı baş vermiş partlayış nəticəsində bir neçə nəfərin ölməsi də şəhərdə geniş əks-səda doğurmuşdur. Həmin faktla bağlı CM-nin 223.2-ci maddəsi ilə başlanmış cinayət işi üzrə tərəfimdən çoxsaylı istintaq hərəkətləri yerinə yetirilmiş, o cümlədən şahidlər, zərərçəkmiş şəxslər və onların hüquqi varisləri dindirilmiş, məhkəmə-tibbi və kriminalistik ekspertizalar keçirilmiş, zəruri mütəxəssis rəyləri alınmışdır. Faciəvi hadisənin baş verməsinə görə məsuliyyət daşıyan sexin 3 nəfər vəzifəli şəxsi yuxarıda qeyd edilən maddə ilə təqsirləndirilən şəxs qismində cəlb edilmişlər. İş üzrə ibtidai istintaqın yekunlaşmasına az qalmış Baş Prokurorluğun Dövət itihamının müdafiəsi üzrə idarəsinə prokuror təyin edilməyimlə əlaqədar cinayət işinin istintaqı bundan sonra Sumqayıt Şəhər Prokurorluğunda davam etdirilmiş və təqsirləndirilən şəxslər məhkəməyə verilmişlər.

**7. Bir ildən çox Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsində çalışmısınız. Prokurorluq orqanlarında uzunmüddətli fəaliyyətinizə yekun vuraraq, dövlət ittihamçısı kimi xidmətlə istintaq sahəsindəki işi müqayisə edə bilərsinizmi? Hansı istiqamətdə fəaliyyət göstərmək Sizə daha çox gəlirdi?**

**Cavab:** Bəli, mən bir ildən artıq müddətdə Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsində çalışmışam. Bu dövr mənim üçün prokurorluq fəaliyyətinin fərqli və çox məsuliyyətli bir mərhələsi idi. Əvvəlki illərdə əsasən istintaq sahəsində çalışarkən diqqət mərkəzində faktların toplanması, sübutların müəyyən edilməsi, hadisələrin təhlili və onlara hüquqi qiymət verilməsi dayanırdı. Dövlət ittihamçısı kimi fəaliyyət isə tamamilə başqa bir məsuliyyət tələb edirdi. Burada ibtidai istintaq orqanın irəli sürdüyü ittihamı məhkəmə qarşısında müdafiə etmək, ədalətin bərqərar olunması üçün hüquqi arqumentlərlə çıxış etmək, qanunun aliliyini və dövlət mövqeyini təmsil etmək əsas vəzifədir. Bu sahədə çalışmaq mənə həm ictimai məsuliyyətin, həm də hüquqi prinsipiallığın əsl mənasını dərk etməyə imkan verdi. Məhkəmə zalında dövlət adından çıxış etmək, sübutların məntiqi ardıcıllığını və hüquqi əsaslarını inandırıcı şəkildə təqdim etmək xüsusi bilik, təcrübə və mənəvi güc tələb edirdi. Mən hər iki istiqamətdə çalışmağı böyük məktəb hesab edirəm. Müqayisə üçün deyə bilərəm ki, istintaq işi daha çox hazırlıq və faktoloji analiz mərhələsi, dövlət ittihamının müdafiəsi isə həmin işin ədalət müstəvisində yekunlaşması kimi xarakterizə oluna bilər.

**8. Təcrübəli prokuror işçisi kimi gənc həmkarlarınıza hansı tövsiyələri vermək istərdiniz?**

**Cavab:** Prokurorluq orqanlarında uzun illər fəaliyyət göstərmiş bir əməkdaş kimi düşünürəm ki, bu sahədə uğurun əsası vicdan, ədalət və prinsipiallıqdır. Gənc həmkarlarıma ilk növbədə məhz bu dəyərləri peşə fəaliyyətlərinin mərkəzinə qoymağı tövsiyə edirəm. Belə ki, prokurorluq əməkdaşının fəaliyyəti yalnız hüquqi biliklərlə məhdudlaşmır, bu, eyni zamanda insan talelərinə toxunan, ədalətin təmsilçisi olmağı tələb edən bir missiyadır. Ona görə də hər bir gənc prokurorluq işçisi ilk növbədə obyektiv olmağı, emosiyadan uzaq dayanmağı və qərarlarını yalnız qanun və vicdan əsasında verməyi bacarmalıdır. İkinci vacib məqam davamlı öyrənmək və peşəkar inkişafdır.

Hüquq dinamik sahədir, qanunlar dəyişir, yeni təcrübələr formalaşır. Gənc prokurorluq əməkdaşı daim biliklərini artırmalı, müasir hüquqi təcrübə ilə ayaqlaşmalı və təcrübəli həmkarlarından öyrənməyə açıq olmalıdır. Üçüncüsü və bəlkə də ən önəmlisi insanlıq və etik dəyərlərə sadiqlikdir. Hər bir vətəndaşa hörmətlə yanaşmaq, vəzifə səlahiyyətlərini ədalətli şəkildə icra etmək, vətəndaşın dövlət orqanlarına inamını qorumaq prokurorun ən böyük borcudur. Ulu Öndər Heydər Əliyevin dediyi kimi: "Prokurorluq orqanları qanunçuluğun keşiyində duran, dövlətin ədalət simasını təmsil edən orqanlardır". Bu prinsip hər bir gənc prokuror üçün fəaliyyət meyarı olmalıdır. Nəhayət demək istəyirəm ki, prokuror olmaq sadəcə bir peşə deyil, bu, mənəvi məsuliyyət və dövlətə sədaqət andıdır. Kim bu vəzifəni vicdanla və ədalətlə yerinə yetirirsə, o, xalqın və dövlətin inamını qazanır.

**– Hüseynxan müəllim, bir daha bu maraqlı, geniş və səmimi müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk.**

Müsahibə üçün mən təşəkkür edirəm.

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 6-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17 (Cild I); 2024, № 1, maddə 13, № 4, maddələr 362, 367, № 5 (I kitab), maddə 484, № 6 (I kitab), maddə 637, № 12 (I kitab), maddə 1283; 2025, № 4 (I kitab), maddələr 308, 322, № 6, maddə 526, № 7, maddə 610, № 8, maddələr 736, 743) aşağıdakı məzmunda 67.3-cü maddə əlavə edilsin:

**"67.3.** Vəkil kassasiya instansiyası məhkəməsində özü-özünü təmsil edə bilər.".

**Maddə 2.** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4, № 4, maddələr 362, 365, 368, № 6 (I kitab), maddə 631; 2025, № 1, maddə 1, № 2, maddə 98, № 4 (I kitab), maddə 308, № 6, maddələr 529, 538, № 7, maddə 607, № 8, maddələr 736, 743) aşağıdakı məzmunda 92.3-1-ci maddə əlavə edilsin:

**"92.3-1.** Bu Məcəllənin 92.3.6-cı, 92.3.7-ci, 92.3.9 – 92.3.11-ci maddələrində nəzərdə tutulan şübhəli və ya təqsirləndirilən şəxs qismində vəkil çıxış etdikdə müdafiəçinin təmin edilməsindən imtina edə və özü-özünü təmsil edə bilər.".

**Maddə 3.** Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586 (Cild I); 2024, № 4, maddə 365, № 5 (I kitab), maddələr 489, 503, № 8, maddə 934; 2025, № 1, maddə 15, № 4 (I kitab), maddə 322, № 8, maddə 743) 81.9-cu maddəsinin birinci cümləsində "sənədi" sözü "sənədləri (vəkilin xidməti vəsiqəsi və vəkil orderi)" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 19 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 362) aşağıdakı dəyişikliklər edilsin:

**4.1.** preambulanın ikinci hissəsindən "fiziki və hüquqi şəxslərə" sözləri çıxarılsın;

**4.2.** 1-ci maddə üzrə:

**4.2.1.** adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 1. Vəkillik fəaliyyətinin əsasları və prinsipləri";**

**4.2.2.** II hissədə "aşkarlıq" sözü "şəffaflıq, insan hüquqlarına hörmət" sözləri ilə əvəz edilsin;

**4.2.3.** III hissə üzrə:

**4.2.3.1.** ikinci abzasda "qanunlarına" sözü "normativ hüquqi aktlarına" sözləri ilə əvəz edilsin;

**4.2.3.2.** üçüncü abzasda ", digər dövlət orqanları, ictimai birliklər, hər hansı müəssisə, idarə, təşkilat və vəzifəli şəxs" sözləri "və digər dövlət orqanları (qurumları), habelə fiziki, vəzifəli və hüquqi şəxslər" sözləri ilə əvəz edilsin;

**4.3.** 2-ci maddənin II hissəsinə "məcəllələri" sözündən sonra "və digər qanunları" sözləri əlavə edilsin;

**4.4.** 3-cü maddənin mətninə "şəxslərin" sözündən sonra ", habelə dövlət orqanlarının (qurumlarının)" sözləri əlavə edilsin;

**4.5.** 4-cü maddə üzrə:

**4.5.1.** I hissə aşağıdakı redaksiyada verilsin:

**"I.** Vəkillik fəaliyyəti bu Qanuna və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq yalnız vəkil tərəfindən fiziki və hüquqi şəxslərin, habelə dövlət orqanlarının (qurumlarının) hüquqlarının təmin edilməsi və müdafiəsi məqsədilə peşəkarcasına həyata keçirilən müstəqil hüquq fəaliyyətidir.";

**4.5.2.** III hissə üzrə:

**4.5.2.1.** ikinci abzasa "şəxslərin" sözündən sonra ", habelə dövlət orqanlarının (qurumlarının)" sözləri əlavə edilsin;

**4.5.2.2.** beşinci abzasa "şəxslərə" sözündən sonra ", habelə dövlət orqanlarına (qurumlarına)" sözləri əlavə edilsin;

**4.6.** 5-ci maddə üzrə:

**4.6.1.** III hissəyə "bağlanmış" sözündən sonra "yazılı" sözü əlavə edilsin;

**4.6.2.** V hissə üzrə:

**4.6.2.1.** birinci abzasın birinci cümləsində "qanunvericiliyinin" sözü "normativ hüquqi aktlarının" sözləri ilə əvəz edilsin və həmin cümləyə "uyğun" sözündən sonra "olaraq Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının (konfransının) müəyyən etdiyi qaydalara əsasən" sözləri əlavə edilsin;

**4.6.2.2.** ikinci abzasda "vəkil (vəkillər)" sözləri "vəkillər" sözü ilə əvəz edilsin və həmin abzasa "əlaqələndirən" sözündən sonra "qeyri-kommersiya" sözləri əlavə edilsin;

**4.6.3.** VI hissənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu maddənin V hissəsinin birinci abzasında müəyyən edilmiş qaydalara uyğunluğu Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı ilə təsdiqlənmiş vəkil qurumu seçilmiş təşkilati-hüquqi forma üzrə dövlət qeydiyyatından keçdikdən sonra fəaliyyətə başlayır.";

**4.7.** 6-cı maddənin III hissəsi aşağıdakı redaksiyada verilsin:

**"III.** Vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər yalnız öz fəaliyyətinin təbliği ilə bağlı vəkilliyin rəmzlərindən istifadə edə bilərlər.";

**4.8.** 7-ci maddə üzrə:

**4.8.1.** I hissə aşağıdakı redaksiyada verilsin:

**"I.** Hüquqi şəxslər və dövlət orqanları (qurumları) normativ hüquqi aktlarda müəyyən edilmiş hallarda öz peşə vəzifələrini yerinə yetirən vəkillərə yardım etməlidirlər.";

**4.8.2.** III hissənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"Vəkilin vəkillik fəaliyyətinin həyata keçirilməsi ilə bağlı ona məlum olan hallar barədə dindirilməsi qadağandır.";

**4.9.** 8-ci maddənin I, IV və V hissələri aşağıdakı redaksiyada verilsin:

**"I.** Ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə bir ildən az olmayaraq iş stajı olan və ya elmi müəssisələrdə (təşkilatlarda) və təhsil müəssisələrində hüquq sahəsində bir ildən az olmayan müddətdə fəaliyyət göstərən, Vəkillərin İxtisas Komissiyasında peşə yararlığının müəyyən edilməsi məqsədilə yazılı testdən və müsahibədən ibarət ixtisas imtahanını müvəffəqiyyətlə vermiş, müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində icbari təlimi müvəffəqiyyətlə bitirmiş Azərbaycan Respublikasının vətəndaşları bu maddənin II hissəsində göstərilən hallara zidd olmamaq şərti ilə vəkil ola bilərlər.

Azərbaycan Respublikasının vətəndaşı olan, əvvəllər vəkil və ya hakim (intizam qaydasında vəkillik və ya hakimlik fəaliyyətinə xitam verilmiş şəxslər, həmçinin Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilən qiymətləndirmə nəticəsində səlahiyyətləri uzadılmamış hakimlər istisna olmaqla) olmuş şəxslər onların müraciətləri əsasında yazılı testi vermədən, müsahibədən keçərək icbari təlimə cəlb olunmaqla həmin təlimi müvəffəqiyyətlə keçdikdən sonra vəkilliyə qəbul olunurlar. Azərbaycan Respublikasının vətəndaşı olan, əvvəllər vəkil və ya hakim (intizam qaydasında vəkillik və ya hakimlik fəaliyyətinə xitam verilmiş şəxslər, həmçinin Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilən qiymətləndirmə nəticəsində səlahiyyətləri uzadılmamış hakimlər istisna olmaqla) olmuş şəxslər yazılı test vermədən, müsahibədə iştirak etmək hüququndan yalnız bir dəfə istifadə edə bilərlər.

Hüquq elmləri doktoru elmi dərəcəsi olan şəxslər, müvafiq icra hakimiyyəti orqanı tərəfindən hüquq sahəsində fəxri ad verilmiş şəxslər, habelə əvvəllər Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi, apellyasiya və kassasiya instansiyası məhkəmələrinin sədri vəzifəsində işləmiş şəxslər onların müraciətləri əsasında yazılı testi vermədən, müsahibədə iştirak etmədən və icbari təlimə cəlb edilmədən vəkilliyə qəbul olunurlar.";

**"IV.** Vəkil dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) qəbul edildikdə onun vəkillik fəaliyyəti dövlət qulluğuna xitam verilənədək dayandırılır. Dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) qəbul edilməsi ilə əlaqədar vəkillik fəaliyyəti dayandırılmış və bundan sonra dövlət qulluğunda (dövlət qulluğunun xüsusi növündə) iki il və ya daha çox qulluq keçmiş şəxslər (hüquqşünaslıq ixtisası üzrə ali təhsil tələb edən vəzifələrdə qulluq keçən dövlət qulluqçuları istisna olmaqla) dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) xitam verildikdən sonra onların vəkillik fəaliyyətinə buraxılmalarına mane olan bu Qanunla müəyyən edilmiş hallar aşkar edilmədikdə onlar müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində icbari təlimi müvəffəqiyyətlə bitirdikdən sonra vəkillik fəaliyyəti ilə məşğul ola bilərlər.

Dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) qəbul edilməsi ilə əlaqədar vəkillik fəaliyyəti dayandırılmış və bundan sonra dövlət qulluğunda (dövlət qulluğunun xüsusi növündə) iki ildən az qulluq keçmiş şəxslər, habelə hüquqşünaslıq ixtisası üzrə ali təhsil tələb edən vəzifələrdə qulluq keçmiş dövlət qulluqçuları dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) xitam verildikdən sonra onların müraciəti olduqda və vəkillik fəaliyyətinə buraxılmalarına mane olan bu Qanunla müəyyən edilmiş hallar aşkar edilmədikdə vəkilliyə buraxılırlar.

**V.** Vəkillər Kollegiyasının üzvü olmayan şəxs tərəfindən özünə münasibətdə və ya təşkilatının adında "vəkil" sözündən və bu sözün istifadə edildiyi ifadələrdən, eyni zamanda onların başqa dillərə tərcüməsindən istifadə olunması qadağandır.";

**4.10.** 8-1-ci maddə üzrə:

**4.10.1.** I hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu Qanunun 8-ci maddəsinin II hissəsində qeyd olunan şəxslər vəkil köməkçisi ola bilməzlər.";

**4.10.2.** II hissə aşağıdakı redaksiyada verilsin:

**"II.** Vəkilin köməkçisi vəkil qurumu ilə, vəkillik fəaliyyəti fərdi qaydada həyata keçirildikdə isə vəkillə bağlanmış əmək müqaviləsinə əsasən fəaliyyət göstərir.";

**4.10.3.** III hissənin birinci cümləsinə "onun" sözündən sonra "qanuni" sözü əlavə edilsin;

**4.10.4.** aşağıdakı məzmunda V hissə əlavə edilsin:

**"V.** Vəkil köməkçisinə dair məlumatlar vəkil reyestrinin xüsusi bölməsinə daxil edilir.";

**4.11.** 9-cu maddə üzrə:

**4.11.1.** I hissənin birinci cümləsinə "olduğu" sözündən sonra "vahid" sözü əlavə edilsin;

**4.11.2.** II hissəyə "Kollegiyası" sözündən sonra "qeyri-kommersiya" sözləri əlavə edilsin;

**4.11.3.** IV hissə aşağıdakı redaksiyada verilsin:

**"IV.** Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı), Vəkillər Kollegiyasının Rəyasət Heyəti, Vəkillərin İntizam Komissiyası və Vəkillərin İxtisas

Komissiyası Vəkillər Kollegiyasının orqanlarıdır. Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə nəzərdə tutulmuş qaydada Vəkillər Kollegiyası tərəfindən regional qurumlar (mərkəzlər), hüquqi yardım mərkəzləri və tədris mərkəzləri təsis oluna bilər.";

**4.11.4.** V hissənin altıncı abzası yeddinci abzas hesab edilsin və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"dövlət hesabına göstərilən hüquqi yardıma görə haqqın (vəsaitin) vəkil qurumlarına və fərdi qaydada fəaliyyət göstərən vəkillərin bank hesablarına köçürülməsini təmin edir;";

**4.12.** 10-cu maddə üzrə:

**4.12.1.** I hissə aşağıdakı redaksiyada verilsin:

**"I.** Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının (konfransının) müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:

Vəkillər Kollegiyasının Nizamnaməsini, Vəkillərin İntizam Komissiyasının Əsasnaməsini, Vəkillərin İxtisas Komissiyasının Əsasnaməsini və Vəkillərin etik davranış qaydaları haqqında Əsasnaməni təsdiq etmək və onlarda dəyişiklik etmək;

Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədrini, sədr müavinlərini və digər üzvlərini, Vəkillərin İntizam Komissiyasının sədrini, sədr müavinini və digər üzvlərini seçmək;

Vəkillər Kollegiyasının büdcəsini, üzvlük haqqının məbləğini, vəkillərin müraciətləri əsasında onların müəyyən dövr üzrə üzvlük haqqını ödəməkdən azad edilməsi və ya müəyyən dövr üzrə üzvlük haqqının məbləğinin azaldılması qaydasını, Vəkillər Kollegiyasının regional qurumlarının (mərkəzlərinin), hüquqi yardım mərkəzlərinin, tədris mərkəzlərinin, vəkil qurumlarının və fərdi qaydada fəaliyyət göstərən vəkillərin fəaliyyətinin monitorinqinin aparılması qaydasını, vəkil orderinin və order markasının forması, hazırlanması və istifadə qaydasını, order markasına görə ödəniş məbləğini, vəkil qurumlarının yaradılması qaydasını, vəkillərin il ərzində iştirak etməli olduğu icbari tədris tədbirlərinin minimal saat sayını müəyyən etmək;

vəkilliyin rəsmi embleminin, vəkillərin xüsusi geyim formasının təsvirini və Vəkillər Kollegiyasının maliyyə-təsərrüfat hesabatını təsdiq etmək.";

**4.12.2.** aşağıdakı məzmunda I-I hissə əlavə edilsin:

**"I-I.** Vəkillər Kollegiyası üzvlərinin sayı beş yüzdən çox olarsa, Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının səlahiyyətləri Vəkillər Kollegiyası üzvlərinin konfransı tərəfindən həyata keçirilə bilər.";

**4.12.3.** III hissə aşağıdakı redaksiyada verilsin:

**"III.** Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı) üç ildə bir dəfədən az olmayaraq Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən çağırılır. Vəkillər Kollegiyası üzvlərinin növbədənkənar ümumi yığıncağı (konfransı) Vəkillər Kollegiyası üzvlərinin üçdə birinin tələbi və ya Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı əsasında çağırıla bilər. Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı) çağırıldıqda Vəkillər Kollegiyasının Rəyasət Heyəti iki ay ərzində onun təşkilini və keçirilməsini təmin edir.";

**4.13.** 11-ci maddə üzrə:

**4.13.1.** II hissə üzrə:

**4.13.1.1.** birinci cümləyə "Rəyasət" sözündən əvvəl "Vəkillər Kollegiyası" sözləri, "yığıncağında" sözündən sonra "(konfransında)" sözü əlavə edilsin;

**4.13.1.2.** üçüncü cümlə çıxarılsın;

**4.13.2.** III hissə aşağıdakı redaksiyada verilsin:

**"III.** Vəkillər Kollegiyasının Rəyasət Heyəti:

Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağını (konfransını) çağırır və onun qərarlarının icrasını təşkil edir;

Vəkillər Kollegiyasının üzvlüyünə qəbul olunma məsələsini həll edir, bu Qanunun 23-cü maddəsində nəzərdə tutulmuş qaydada vəkillik fəaliyyətinə xitam verilməsi ilə bağlı səlahiyyətləri həyata keçirir, vəkil reyestrini aparır;

dövlət hesabına göstərilən hüquqi yardıma görə haqqın (vəsaitin) ödənilməsi ilə bağlı sənədləşmə qaydasını müəyyən edir, dövlət hesabına hüquqi yardım göstərən vəkillərin növbətçilik siyahılarını təsdiq edir və aidiyyəti dövlət orqanlarına (qurumlarına) təqdim edir;

Vəkillərin İxtisas Komissiyasının vəkil üzvlərini təyin edir;

ixtisas imtahanının qaydasını və onun keçirilməsinin dövriliyini (ildə bir dəfədən az olmayaraq) müəyyən edir;

vəkillik fəaliyyətinin statistikasını aparır, təcrübəni ümumiləşdirir və vəkillik fəaliyyətinin həyata keçirilməsi məsələlərinə dair metodik tövsiyələr hazırlayır;

vəkilləri həvəsləndirmə qaydasını müəyyən edir və vəkillərin həvəsləndirilməsini həyata keçirir;

vəkillər barəsində intizam icraatı başlayır və bu Qanunun 22-ci maddəsində nəzərdə tutulmuş qaydada intizam tənbehi tətbiq edir;

vəkillər arasında qanunvericilik və məhkəmə təcrübəsi sahəsində məlumatlandırma işinin aparılmasını təşkil edir;

Vəkillər Kollegiyası Rəyasət Heyəti aparatının strukturunu, ştat cədvəlini, xərclər smetasını və işçilərin əməkhaqqını təsdiq edir;

Vəkillər Kollegiyasının regional qurumlarını (mərkəzlərini), hüquqi yardım mərkəzlərini və tədris mərkəzlərini yaradır, onların aparatlarının strukturunu, ştat cədvəlini, illik büdcəsini və işçilərin əməkhaqqını təsdiq edir;

Vəkillər Kollegiyası orqanlarının qəbul etdikləri qərarların icrasının təmin edilməsi ilə bağlı Vəkillər Kollegiyasının regional qurumlarının (mərkəzlərinin), hüquqi yardım mərkəzlərinin və tədris mərkəzlərinin, vəkil qurumlarının və fərdi qaydada fəaliyyət göstərən vəkillərin fəaliyyətinin azı üç ay müddətində monitorinqini aparır, onların nəticəsində aşkar edilmiş nöqsanların aradan qaldırılması üzrə qərarlar qəbul edir;

vəkilliyə qəbul üzrə imtahanda iştirak haqqının məbləğini müəyyən edir;

Vəkillər Kollegiyasına daxil olmuş vəsaitlərin xərc istiqamətlərini müəyyən edir;

Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının (konfransının) müəyyən etdiyi qaydalara əsasən vəkilin

müraciəti əsasında onun müəyyən dövr üzrə üzvlük haqqından azad edilməsi və ya müəyyən dövr üzrə üzvlük haqqının azaldılması barədə qərar qəbul edir;

vəkillərin fəaliyyətində "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozuntusu halını aşkar edərsə, həmin Qanuna müvafiq olaraq tədbirlər görür;

vəkilin xidməti vəsiqəsinin təsviri və nümunəsini müəyyən edir;

bu Qanun və öz Nizamnaməsində nəzərdə tutulmuş digər məsələləri həll edir.";

**4.13.3.** IV hissə üzrə:

**4.13.3.1.** birinci cümləyə "etdikdə" sözündən sonra "Vəkillər Kollegiyası" sözləri əlavə edilsin;

**4.13.3.2.** ikinci cümləyə "Rəyasət" sözündən əvvəl "Vəkillər Kollegiyası" sözləri, "qərarlar" sözündən sonra "açıq səsvermə yolu və" sözləri əlavə edilsin;

**4.13.3.3.** aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Səslər bərabər olduqda Vəkillər Kollegiyası Rəyasət Heyətinin iclasına sədrlik edənin səsi həlledicidir.";

**4.14.** 12-ci maddə üzrə:

**4.14.1.** ikinci abzasa "edir" sözündən sonra "və onun adından çıxış edir" sözləri əlavə edilsin;

**4.14.2.** üçüncü – yeddinci və doqquzuncu abzaslara "Rəyasət" sözündən əvvəl "Vəkillər Kollegiyası" sözləri əlavə edilsin;

**4.14.3.** onuncu abzas on birinci abzas hesab edilsin və aşağıdakı məzmunda onuncu abzas əlavə edilsin:

"Vəkillər Kollegiyasının regional qurumlarının (mərkəzlərinin), hüquqi yardım mərkəzlərinin və tədris mərkəzlərinin rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir;";

**4.15.** 13-cü maddə üzrə:

**4.15.1.** I hissəyə "üçün" sözündən sonra "Vəkillərin" sözü əlavə edilsin;

**4.15.2.** II hissə aşağıdakı redaksiyada verilsin:

**"II.** Vəkillərin İxtisas Komissiyası yeddi vəkil, üç hakim və üç hüquqşünas alimdən, ümumilikdə isə on üç üzvdən ibarət olmaqla fəaliyyət göstərir. Vəkillərin İxtisas Komissiyasının səlahiyyət müddəti beş ildir.";

**4.15.3.** III hissənin birinci və ikinci cümlələrinə, IV-VI hissələrə "İxtisas" sözündən əvvəl "Vəkillərin" sözü əlavə edilsin;

**4.15.4.** VII hissədə "qanunvericiliyin" sözü "normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin;

**4.15.5.** X hissəyə "İxtisas" sözündən əvvəl "Vəkillərin" sözü əlavə edilsin və həmin hissədə "Kollegiyasının Ümumi yığıncağı" sözləri "Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı)" sözləri ilə əvəz edilsin;

**4.16.** 14-cü maddə üzrə:

**4.16.1.** II hissədə "vəkillər" sözü "onlar haqqında məlumatlar" sözləri ilə, "edilirlər" sözü "edilir" sözü ilə əvəz edilsin;

**4.16.2.** III hissədə "mətninə imza edir" sözləri "mətnini imzalayır" sözləri ilə əvəz edilsin;

**4.17.** aşağıdakı məzmunda 14-1-ci maddə əlavə edilsin:

**"Maddə 14-1. Vəkilin xidməti vəsiqəsi**

**I.** Vəkil andı içmiş vəkillərə xidməti vəsiqə verilir. Xidməti vəsiqənin forması, verilməsi qaydası və etibarlılıq müddəti Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən müəyyən edilir. Vəkilin xidməti vəsiqəsi onun Vəkillər Kollegiyasına üzvlüyünü təsdiq edir. Xidməti vəsiqə Vəkillər Kollegiyasının Rəyasət Heyətinin aparatı tərəfindən hazırlanır.

**II.** Vəkil fəaliyyəti dövründə xidməti vəsiqədən istifadə edir. Xidməti vəsiqədə göstərilən məlumatlar dəyişdikdə, məlumatların səhv olduğu müəyyənləşdirildikdə, xidməti vəsiqə itirildikdə, yararsız hala düşdükdə, habelə xidməti vəsiqənin etibarlılıq müddəti qurtardıqda ona yeni xidməti vəsiqə verilir.

**III.** Vəkilin fəaliyyəti dayandırıldıqda və ya onun fəaliyyətinə xitam verildikdə xidməti vəsiqə Vəkillər Kollegiyası Rəyasət Heyətinin aparatına qaytarılır.

**IV.** Vəkilin fəaliyyətinin dayandırılması barədə qərar qəbul olunduğu gündən dayandırma müddəti bitənədək o, xidməti vəsiqəsindən istifadə etmək hüququnu itirir. Vəkilin fəaliyyətinə xitam verilməsi barədə qərar qüvvəyə mindiyi gündən etibarən xidməti vəsiqə öz qüvvəsini itirir.";

**4.18.** 15-ci maddənin II hissəsi üzrə:

**4.18.1.** ikinci və dördüncü abzaslar aşağıdakı redaksiyada verilsin:

"hüquqi yardım üçün müraciət etmiş fiziki və hüquqi şəxslərin müdafiəçisi olmaq, onların, habelə dövlət orqanlarının (qurumlarının) hüquqlarını, qanuni maraq və mənafelərini təhqiqat, istintaq, məhkəmə, digər dövlət orqanlarında (qurumlarında), yerli özünüidarəetmə orqanlarında, hüquqi şəxslərdə, o cümlədən xarici ölkələrdə və beynəlxalq təşkilatlarda müdafiə və təmsil etmək;";

"vəkillik fəaliyyətini həyata keçirməklə əlaqədar sənəd toplamaq, hüquqi yardım göstərmək üçün zəruri olan arayışları (məlumatları) və digər sənədləri dövlət orqanlarından (qurumlarından), yerli özünüidarəetmə orqanlarından, hüquqi şəxslərdən tələb etmək, onlarla tanış olmaq və həmin sənədlərin surətlərini çıxarmaq, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının alınması ilə bağlı yazılı sorğular verməк;";

**4.18.2.** beşinci abzasa "rəy" sözündən sonra "və məlumatlar" sözləri əlavə edilsin;

**4.18.3.** yeddinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"kassasiya instansiyası məhkəməsində özü-özünü təmsil etmək.";

**4.19.** aşağıdakı məzmunda 15-1-ci və 15-2-ci maddələr əlavə edilsin:

**"Maddə 15-1. Vəkil orderi**

**I.** Vəkil orderi vəkil qurumu və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən vəkilə verilən, özündə tapşırıq üzrə istintaq (təhqiqat), prokurorluq orqanında

və ya bir məhkəmə instansiyasında (işin mahiyyəti ilə əlaqəli olmayan məhkəmə aktlarından apellyasiya və kassasiya instansiyasına verilən şikayətlər üzrə məhkəmə iclasları istisna olmaqla) təmsilçilik və hüquqi yardımın göstərilməsini, hüquqi şəxslərdə təmsilçilik səlahiyyətlərinin verilməsini təsdiq edir.

**II.** Vəkil orderi dövlət hesabına göstərilən hüquqi yardıma görə təhqiqat, istintaq, prokurorluq orqanlarının və ya məhkəmənin müvafiq qərarı və ya müraciət edən şəxslə vəkil (vəkil qurumu) arasında hüquqi yardımın göstərilməsi ilə əlaqədar bağlanmış müqavilə əsasında verilir.

**III.** Dövlət hesabına göstərilən hüquqi yardıma görə verilən vəkil orderi vəkilin təmsilçilik səlahiyyətlərini müəyyən edən və vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin möhürü ilə təsdiq olunan sənəddir.

**IV.** Müqavilə əsasında verilən vəkil orderi vəkilin təmsilçilik səlahiyyətlərini müəyyən edən, vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin möhürü ilə təsdiq olunan və üzərində onun həqiqiliyini əks etdirən order markası olan sənəddir. Order markası özündə vəkil orderinin unikal seriya və nömrəsini əks etdirən xüsusi nişandır.

**V.** Vəkil orderinin və order markasının forması, hazırlanması, istifadə qaydası və order markasına görə ödənişin məbləği Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı) tərəfindən müəyyən olunur.

**Maddə 15-2. Vəkil sorğusu**

**I.** Vəkil sorğusu peşəkar hüquqi yardımın göstərilməsi üçün zəruri olan məlumatların (sənədlərin) əldə olunması məqsədilə dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, habelə qanuna uyğun olaraq fəaliyyət göstərən digər hüquqi və fiziki şəxslərə həmin şəxslərin səlahiyyət hədləri nəzərə alınmaqla vəkil tərəfindən verilən və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallarda cavablandırılmalı olan yazılı müraciətdir.

**II.** Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə başqa qayda nəzərdə tutulmadıqda vəkil sorğusu daxil olduğu gündən ən qısa müddətdə, lakin yeddi iş günündən gec olmayaraq cavablandırılmalıdır. Bu müddət ərzində sorğunun cavablandırılması mümkün olmadıqda, həmin müddət əlavə olaraq yeddi iş günü uzadıla bilər.

**III.** Vəkil tərəfindən göndərilən sorğuya onun sorğu göndərilən iş üzrə səlahiyyətli olduğunu müəyyən edən vəkil orderinin vəkil qurumunun rəhbəri və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən təsdiq olunmuş surəti əlavə olunur. Vəkil sorğusu vəkil qurumunun sorğu göndərən vəkili və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən müvafiq blankda çap və imza edilməklə, habelə vəkil qurumunun rəhbəri və fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən möhürlənməklə təsdiqlənir.";

**4.20.** 16-cı maddə üzrə:

**4.20.1.** I hissə üzrə:

**4.20.1.1.** birinci abzasda "Peşə fəaliyyətini həyata keçirərkən" sözləri "Vəkillər Kollegiyasına üzv olduğu dövrdə" sözləri ilə əvəz edilsin;

**4.20.1.2.** ikinci abzasa "tələblərini" sözündən sonra "rəhbər tutmalı və" sözləri əlavə edilsin;

**4.20.1.3.** dördüncü abzas ləğv edilsin;

**4.20.1.4.** yeddinci abzasa "vəkil" sözündən əvvəl "qanunla müəyyən edilmiş hallar istisna olmaqla" sözləri əlavə edilsin;

**4.20.1.5.** səkkizinci abzas on ikinci abzas hesab edilsin və aşağıdakı məzmunda səkkizinci – on birinci abzaslar əlavə edilsin:

"üzvlük haqqını hər ay ödəməlidir;

normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada və hallarda hüquqi yardım haqqını ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərə dövlət hesabına hüquqi yardım göstərməlidir;

il ərzində minimal icbari tədris saatlarını toplamalıdır;

Vəkillər Kollegiyası orqanlarının bu Qanuna əsasən müəyyən etdiyi qaydalara əməl etməli və həmin orqanların qəbul etdiyi qərarları icra etməlidir;";

**4.20.2.** III hissə aşağıdakı redaksiyada verilsin:

**"III.** Vəkilin mülki işlər, kommersiya mübahisələri, inzibati icraat üzrə, inzibati xətalar haqqında işlər və ya cinayət işləri üzrə icraatda müvafiq olaraq nümayəndə və müdafiəçi qismində iştirakını istisna edən hallar Azərbaycan Respublikasının prosessual qanunvericiliyi və inzibati xətalar haqqında qanunvericiliyi ilə müəyyən edilir.";

**4.20.3.** IV hissəyə "şəxslərə" sözündən sonra ", habelə dövlət orqanlarına (qurumlarına)" sözləri əlavə edilsin;

**4.21.** 16-1-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Vəkillər öz peşə hazırlığı və ixtisaslarının artırılması məqsədilə il ərzində icbari qaydada Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının (konfransının) müəyyən etdiyi müddətdən az olmamaqla müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsinin təşkil etdiyi tədris tədbirlərində və ya digər tədris tədbirlərində iştirak edirlər.";

**4.22.** 17-ci maddə üzrə:

**4.22.1.** I hissə aşağıdakı redaksiyada verilsin:

**"I.** Vəkilin peşə vəzifələrinin həyata keçirilməsi ilə əlaqədar aldığı məlumatlar, verdiyi məsləhətlər, hazırladığı hüquqi sənədlər, rəylər və arayışlar, habelə hüquqi yardım üçün müraciət faktı, hüquqi yardım haqqında bağladığı müqavilənin mətni və müqavilənin bağlanılması faktı, müraciətin mahiyyəti, vəkilin göstərdiyi hüquqi xidmətdən imtina edildikdə imtinanın əsasları vəkil sirrini təşkil edir. Vəkildən imtina edilməsi vəkil sirrinin açıqlanması üçün əsas ola bilməz. Vəkil sirri təşkil edən məlumatların vəkillərdən, vəkil köməkçisindən, vəkil qurumlarından, eləcə də vəkil kimi fəaliyyət göstərdiyi dövr üzrə fəaliyyəti dayandırılmış və ya fəaliyyətinə xitam verilmiş vəkillərdən tələb edilməsi yolverilməzdir.";

**4.22.2.** III hissədə "qanunvericiliyi" sözü "normativ hüquqi aktları" sözləri ilə əvəz edilsin;

**4.23.** 18-ci maddənin mətnində "Vəkil peşə fəaliyyətini həyata keçirərkən" sözləri "Vəkillər Kollegiyasına üzv olduğu dövrdə vəkil" sözləri ilə, "Kollegiyasının Ümumi yığıncağı tərəfindən qəbul olunmuş Vəkillərin" sözləri

“Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı) tərəfindən qəbul olunmuş Vəkillərin etik” sözləri ilə əvəz edilsin;

**4.24.** 19-cu maddə üzrə:

**4.24.1.** I hissədən “Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun vəkil (vəkillər) tərəfindən yaradılmış” sözləri çıxarılsın;

**4.24.2.** III hissənin üçüncü cümləsində “Vəkilin xidmətlərini” sözləri “Hüquqi yardım haqqını” sözləri ilə, “qanunvericiliyi” sözü “normativ hüquqi aktları” sözləri ilə əvəz edilsin;

**4.25.** 20-ci maddə üzrə:

**4.25.1.** I hissənin birinci cümləsinə “şəxslərə və” sözlərindən sonra “qanunla müəyyən edilmiş digər hallarda” sözləri əlavə edilsin və həmin cümlədə “vəkilin xidmətlərini” sözləri “hüquqi yardım haqqını” sözləri ilə əvəz edilsin;

**4.25.2.** II hissənin birinci abzasında “Vəkillər Kollegiyasının müəyyən olunmuş qaydada tərtib edilən” sözləri “vəkillərin” sözü ilə əvəz edilsin;

**4.26.** 21-ci maddə üzrə:

**4.26.1.** I hissə üzrə:

**4.26.1.1.** “tərəfindən peşə vəzifələrinin həyata keçirilməsi ilə bağlı yol verilən intizam pozuntularına dair” sözləri “barəsində verilən” sözləri ilə əvəz edilsin;

**4.26.1.2.** aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Vəkillərin İntizam Komissiyasının səlahiyyət müddəti beş ildir.”;

**4.26.2.** II hissədə “Kollegiyasının Ümumi yığıncağı” sözləri “Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı)” sözləri ilə əvəz edilsin;

**4.26.3.** aşağıdakı məzmunda III hissə əlavə edilsin:

**“III.** Barəsində intizam icraatı aparılan vəkillər intizam icraatı zamanı qanunla və Vəkillərin İntizam Komissiyasının Əsasnaməsi ilə təsbit olunan hüquq və vəzifələrə malikdirlər.”;

**4.27.** 22-ci maddə üzrə:

**4.27.1.** I hissə aşağıdakı redaksiyada verilsin:

**“I.** Vəkil tərəfindən bu Qanunun və digər normativ hüquqi aktların və Vəkillərin etik davranış qaydaları haqqında Əsasnamənin tələblərinin pozulması, habelə vəkilin il ərzində minimal icbari tədris saatlarının toplanmaması halları aşkar olunduqda, o, intizam məsuliyyətinə cəlb edilir.”;

**4.27.2.** III hissədə “altı ay” sözləri “bir il” sözləri ilə, “bir” sözü “iki” sözü ilə əvəz edilsin;

**4.27.3.** V və VI hissələr aşağıdakı redaksiyada verilsin:

**“V.** Vəkillərin İntizam Komissiyası intizam icraatının başlandığı gündən üç ay müddətində vəkilin iştirakı ilə araşdırma aparır və müvafiq rəyini Vəkillər Kollegiyasının Rəyasət Heyətinə təqdim edir. Əlavə araşdırmanın aparılmasına zərurət yaranarsa, həmin müddət üç ayadək uzadıla bilər.

**VI.** Vəkillərin İntizam Komissiyasının rəyi əsasında Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən vəkilə aşağıdakı intizam tənbehlərindən biri tətbiq edilə bilər:

xəbərdarlıq;

töhmət;

üzvlük haqqının 10 misli həcmində cərimə;

“Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində göstərilən hüquqpozmalara təkrarən yol verilməsinə və ya vəkil etikasına dair tələblərin üç dəfədən artıq pozulmasına görə pozuntunun dərəcəsindən və vəkilin peşəkarlıq səviyyəsindən, stajından, əvvəllər intizam tənbehi alıb-almamasından asılı olaraq üç aydan bir il müddətinədək vəkillik fəaliyyəti ilə məşğul olmanın dayandırılması;

vəkil adına ləkə gətirməklə vəkil peşəsinin nüfuzuna xələl gətirən hərəkətə yol verilməsinə və ya icraatında olan işlə bağlı normativ hüquqi aktların tələblərini kobud və ya mütəmadi olaraq pozmaqla təmsil etdiyi şəxsin maraqlarına ziyan vurulmasına görə Vəkillər Kollegiyasının üzvlüyündən xaric edilmə.”;

**4.27.4.** aşağıdakı məzmunda VI-I hissə əlavə edilsin:

**“VI-I.** Vəkillər barəsində intizam icraatı aparılarkən bu Qanunla yanaşı Vəkillərin etik davranış qaydaları haqqında Əsasnamənin və Vəkillərin İntizam Komissiyası haqqında Əsasnamənin tələbləri rəhbər tutulur.

Vəkilin hərəkətində pozuntu müəyyən edilmədikdə və ya icraata başlama müddəti keçdikdə intizam icraatı başlanılmır və ya başlanılmış icraata xitam verilir.”;

**4.27.5.** VII hissədən ikinci cümlə çıxarılsın;

**4.27.6.** VIII hissə ləğv edilsin;

**4.27.7.** aşağıdakı məzmunda IX hissə əlavə edilsin:

**“IX.** Vəkillər Kollegiyası Rəyasət Heyətinin intizam tənbehi barədə qərarından bir ay müddətində məhkəməyə şikayət verilə bilər.”;

**4.28.** 23-cü maddə üzrə:

**4.28.1.** I hissənin doqquzuncu abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda onuncu abzas əlavə edilsin:

“Azərbaycan Respublikasının vətəndaşlığına xitam verildikdə.”;

**4.28.2.** II hissənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Vəkilin fəaliyyətinə xitam verilməsi barədə Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarından bir ay müddətində məhkəməyə şikayət verilə bilər.”;

**4.29.** 24-cü maddənin I hissəsinin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Vəkillər Kollegiyasının vəsaiti daxil olan üzvlük haqqından, order markasına görə ödənişdən, bu Qanunun 16-cı maddəsinin II hissəsində nəzərdə tutulmuş vəsaitdən və qanunla qadağan edilməyən digər mənbələrdən formalaşır.”;

**4.30.** 25-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

“Vəkillərin pensiya təminatı “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 oktyabr 2025-ci il
№ 281-VIIQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189, № 12 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddə 1, № 2, maddələr 98, 99, № 3, maddələr 217, 221, № 4 (I kitab), maddə 322, № 5, maddə 434, № 6, maddə 538, № 7, maddələr 607, 626) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 73-2.2-ci maddədə “, 197, 198” rəqəmləri “–199” rəqəmləri ilə, “, 211, 212” rəqəmləri “–212” rəqəmləri ilə əvəz edilsin.

**2.** 193-1.1-ci maddənin sanksiyasında “dörd min manatdan səkkiz min manatadək miqdarda” sözləri “cinayətin predmetinin dəyərinin əlli faizindən yetmiş faizinədək miqdarında” sözləri ilə əvəz edilsin.

**3.** 199-cu maddə üzrə:

**3.1.** adı və 199.1-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**“Maddə 199. Rəqabəti məhdudlaşdırma**

**199.1.** Rəqabət qanunvericiliyinin pozulması, yəni qanunla yol verilən hallar istisna olmaqla rəqabəti məhdudlaşdıran üfüqi və şaquli sazişlərin bağlanması, bu cür uyğunlaşdırılmış hərəkətlərin edilməsi və ya hökmran mövqedən sui-istifadə etmə, bu əməllər xeyli miqdarda ziyan vurmaqla və ya xeyli miqdarda gəlir əldə etməklə törədildikdə –”;

**3.2.** 199.2.4-cü maddədə hər iki halda “xeyli” sözü “külli” sözü ilə əvəz edilsin;

**3.3.** 199.3.3-cü maddəyə hər iki halda “külli” sözündən əvvəl “xüsusilə” sözü əlavə edilsin;

**3.4.** “Qeyd” hissəsinin 1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

**“1.** Bu Məcəllənin 199.1-ci maddəsində “xeyli miqdar” dedikdə iki yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ, 199.2.4-cü maddəsində “külli miqdar” dedikdə beş yüz min manatdan yuxarı, lakin bir milyon manatdan artıq olmayan məbləğ, 199.3.3-cü maddəsində isə “xüsusilə külli miqdar” dedikdə bir milyon manatdan yuxarı olan məbləğ başa düşülür.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 oktyabr 2025-ci il
№ 283-VIIQD

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

### Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin I və X hissələri və 80-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1 və 12.5-ci maddələrinin əlaqəli şəkildə şərh olunmasına dair

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

**Bakı şəhəri,** **30 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Humay Əfəndiyeva, Rauf Quliyev (məruzəçi-hakim), Otari Qvaladze, Fikrət Məmmədov, İsa Nəcəfov, Rəşid Rzayev, Fərhad Tutayuk və Xanlar Vəliyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin I və X hissələri və 80-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1 və 12.5-ci maddələrinin əlaqəli şəkildə şərh olunmasına dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.Quliyevin məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun sorğusunu və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizəsini, Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyası, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən təqdim olunmuş mütəxəssis mülahizələrini, ekspertlər Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Ş.Səmədovanın, Milli Aviasiya Akademiyasının İqtisadiyyat və hüquq fakultəsinin dekanı, hüquq elmləri doktoru, professor A.Rüstəmzadənin rəylərini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 12.5-ci maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 80-ci maddəsi və Cinayət Məcəlləsinin 12.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, Cinayət Məcəlləsinin 12.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri əmələ (hərəkət və ya hərəkətsizliyə) görə, bu əməl həm Azərbaycan Respublikasının, həm də ərazisində törədildiyi xarici dövlətin qanunvericiliyinə əsasən cinayət sayılırsa və bu cinayətə görə həmin şəxslər xarici dövlətdə məhkum olunmamışlarsa, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilirlər.

Cinayət Məcəlləsinin 12.5-ci maddəsinə görə, həmin Məcəllənin 12.1-ci maddələrində nəzərdə tutulmuş şəxslərə Azərbaycan Respublikasının məhkəmələri tərəfindən təyin edilən cəza, ərazisində cinayət törədilmiş xarici dövlətin qanunu ilə nəzərdə tutulmuş cəzanın yuxarı həddindən çox ola bilməz.

Oxşar tələb 2002-ci il oktyabrın 7-də Kişinyov (Kişineu) şəhərində imzalanmış, Azərbaycan Respublikasının 2004-cü il 13 yanvar tarixli Qanunu ilə təsdiq edilmiş "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" Konvensiyanın (bundan sonra – Kişineu Konvensiyası) 91-ci maddəsinin 3-cü hissəsinin ikinci abzasında əks olunmuşdur. Həmin normaya müvafiq olaraq, şəxs törədilmiş cinayətə görə məhkum edilərkən ona təyin edilmiş cəza sorğu edən Razılığa Gələn Tərəfin qanunvericiliyində nəzərdə tutulan cəzadan sərt olmamalıdır.

Sorğuverən qeyd etmişdir ki, Cinayət Məcəlləsinin 12.1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə təyin edilən cəzanın yuxarı həddi ilə bağlı qanunvericilikdə məhdudiyyətin mövcud olduğu halda, aşağı həddin müəyyən edilməməsi təcrübədə cəzanın tətbiqi ilə bağlı fərqli yanaşmalara səbəb olur.

Belə ki, bir sıra hüquq tətbiqedənlərin qənaətinə görə, cinayət qanununun humanizm və ədalət prinsiplərinin tələblərinə uyğun olaraq xaricdə cinayət törətmiş Azərbaycan Respublikasının vətəndaşlarına və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə münasibətdə xarici dövlətin cinayət qanununun şəxsin vəziyyətini yaxşılaşdıran, daha yüngül cəza müəyyən edən normaları tətbiq edilməlidir.

Digər yanaşma isə ondan ibarətdir ki, həmin şəxslərlə bağlı Azərbaycan Respublikasının məhkəmələri tərəfindən cəza təyin edilərkən cəzanın aşağı həddi kimi həmin əmələ görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə nəzərdə tutulan cəzanın aşağı həddi tətbiq edilməlidir.

Göstərilənlərə əsasən Prokurorluq cinayət qanununun eyni qaydada tətbiqinin, hüquqi müəyyənlik prinsipinin tələblərinə əməl edilməsinin təmin edilməsi məqsədi ilə müvafiq normaların əlaqəli şəkildə şərh edilməsi üçün Konstitusiya Məhkəməsinə müraciət edilməsini zəruri hesab etmişdir.

Sorğu ilə əlaqədar Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıları qeyd edir.

Konstitusiyanın 71-ci maddəsinin I və X hissələrinə görə, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Dövlət orqanları yalnız bu Konstitusiya əsasında, qanunla müəyyən edilmiş qaydada və hüdudlarda fəaliyyət göstərə bilərlər.

Hüququn aliliyi prinsipindən irəli gələn qanunçuluq prinsipi, digər məsələlərlə yanaşı, dövlət orqanlarının qanunla müəyyən edilmiş hədlərdə hərəkət etməsini ehtiva edir. Müvafiq səlahiyyətverici əsaslar olmadan

dövlət orqanı tərəfindən edilən hər hansı bir hərəkət qanuni sayıla bilməz (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsinin I və II hissələrinin və 71-ci maddəsinin X hissəsinin tələbləri baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 156.2, 159.1, 159.3, 159.3-1, 159.8-1, 163.2 və 163.4-cü maddələrinin həmin Məcəllənin 84.5.11, 84.5.16, 151.2, 172.2, 290.5.2 və 290.5.3-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 2023-cü il 4 noyabr tarixli Qərarı).

Konstitusiyanın 80-ci maddəsinə görə, Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur.

Konstitusiyanın cinayət mühakimə icraatının əsas prinsiplərindən birini müəyyən edən 28-ci maddəsinin II hissəsinə əsasən, azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.

Göründüyü kimi, əsas insan hüquqlarından biri kimi azadlıq hüququ mütləq hüquq deyildir və yalnız qanun qüvvəli normativ hüquqi aktla müəyyən edilmiş əsaslarla və qaydada, səlahiyyətli vəzifəli şəxslər tərəfindən məhdudlaşdırıla bilər. Əks hal şəxsin azadlıq hüququnun pozulmasına səbəb olur.

Oxşar hüquqi mövqe Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 79.1-ci maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I, II və III hissələrinə, 26-cı maddəsinin II hissəsinə, 28-ci maddəsinin I hissəsinə, 147-ci maddəsinə və 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair" 2010-cu il 2 mart tarixli Qərarında ifadə olunmuşdur.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəllə) 10-cu maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının qüvvəyə minmiş və dərc edilmiş qanunu ilə müəyyən olunan əsaslardan və qaydalardan kənar heç kəsin cinayət təqibi üzrə şübhəli və ya təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilməsinə, tutulmasına, həbsə alınmasına, axtarılmasına, məcburi gətirilməsinə və digər prosessual məcburiyyət tədbirlərinə məruz qalmasına, habelə məhkum edilməsinə, cəzalandırılmasına, hüquq və azadlıqlarının digər formada məhdudlaşdırılmasına yol verilmir. Azərbaycan Respublikası Konstitusiyasının və digər qanunlarının təfsiri cinayət prosesi iştirakçılarına o halda məcburidir ki, bu təfsir Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Qərarında verilmiş olsun. Qanunun bu maddəsində göstərilən tələblərin pozulması ilə aparılan prosessual hərəkətlərin və qəbul olunmuş qərarların hüquqi qüvvəsi yoxdur.

Cinayət təqibinin həyata keçirilməsi üzrə hüquqi yardımın, o cümlədən cinayət işləri üzrə şəxsin verilməsinin (ekstradisiyanın) əsasları və qaydaları isə Cinayət Məcəlləsi ilə yanaşı müvafiq beynəlxalq hüquq normaları ilə də tənzimlənir.

Azərbaycan Respublikası cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlığın inkişafı və səmərəliliyinin artırılması məqsədi ilə "Ekstradisiya haqqında" 1957-ci il 13 dekabr tarixli Avropa Konvensiyasına, "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" 1959-cu il 20 aprel tarixli Avropa Konvensiyasına, "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 1993-cü il 22 yanvar tarixli Minsk və Kişineu Konvensiyalarına qoşulmuşdur. Beynəlxalq aktlarda şəxsin verilməsi (ekstradisiya) ilə yanaşı, sorğu edilən dövlətin ərazisində cinayət törətmiş şəxsin vətəndaşı olduğu dövlətin cinayət təqibi orqanları tərəfindən cinayət təqibinin həyata keçirilməsi üçün verilməsi vəzifəsi də göstərilmişdir.

Qeyd edilməlidir ki, Konstitusiyada və cinayət qanunvericiliyində şəxsin verilməsini məhdudlaşdıran bir sıra şərtlər mövcuddur.

Belə ki, Konstitusiyanın 53-cü maddəsinin II hissəsinə əsasən Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz.

Konstitusiyada təsbit olunmuş vətəndaşlıq hüququnun təminatından irəli gələrək Cinayət Məcəlləsinin 13.1-ci maddəsində müəyyən edilmişdir ki, xarici dövlətin ərazisində cinayət törətmiş Azərbaycan Respublikasının vətəndaşları xarici dövlətə verilə bilməz. Həmin şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi məsələsi bu Məcəllənin 12-ci maddəsinə müvafiq qaydada həll edilir.

Nəzərə alınmalıdır ki, dövlətin öz vətəndaşlarına olan müstəsna yurisdiksiyası vətəndaşlıq prinsipinə əsaslanır. Həmin prinsipdən irəli gələrək Cinayət Məcəlləsinin 12.1-ci maddəsi ilə müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri əmələ (hərəkət və ya hərəkətsizliyə) görə iki şərtin mövcud olduğu halda cinayət məsuliyyətinə cəlb edilə bilərlər:

– törədilən əməl həm Azərbaycan Respublikasının, həm də ərazisində törədildiyi xarici dövlətin qanunvericiliyinə əsasən cinayət sayıldıqda;

– cinayətə görə həmin şəxslər xarici dövlətdə məhkum olunmadıqda.

Birinci şərt ikili kriminallaşdırma (ikili cinayətkarlıq və ya məsuliyyət) qaydası kimi tanınır.

Cinayət Məcəlləsinin 12.1-ci maddəsində nəzərdə tutulan ikinci şərt isə Konstitusiyanın və cinayət qanununda təsbit edilmiş və şəxsin eyni bir cinayət əməlinə görə təkrar məhkum edilməsinin, cəzalandırılmasının qarşısını alan non bis in idem prinsipindən irəli gəlir.

Cinayət Məcəlləsinin 12.5-ci maddəsinə əsasən, bu Məcəllənin 12.1-ci maddələrində nəzərdə tutulmuş şəxslərə Azərbaycan Respublikasının məhkəmələri tərəfindən təyin edilən cəza, ərazisində cinayət törədilmiş xarici dövlətin qanunu ilə nəzərdə tutulmuş cəzanın yuxarı həddindən çox ola bilməz.

Qeyd edilməlidir ki, cinayət qanunvericiliyində Azərbaycan Respublikasının vətəndaşlarının və Azərbaycan Respublikası ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xarici ölkədə törətmiş olduqları cinayətlərə görə məhkum edilərkən cəzanın yuxarı həddinin cinayətin törədildiyi ölkənin cinayət qanunu ilə nəzərdə tutulmuş cəzanın yuxarı həddi ilə məhdudlaşdırılması cinayətə görə məsuliyyətin, cəzanın məhz əməlin ictimai münasibətlərə vurduğu zərərə, bununla da ictimai təhlükəlilik dərəcəsinə uyğun olaraq müəyyənləşdirilməsindən irəli gəlir.

Əks yanaşma, yəni şəxsin, əməlinin baş verdiyi ölkədə ictimai təhlükəlilik dərəcəsinə uyğun olaraq nəzərdə tutulmuş məsuliyyət həddindən artıq məsuliyyətə cəlb edilməsi cəzanın mahiyyət və məqsədlərinə uyğun olmazdı.

Göstərilənlərlə yanaşı, şəxsin vətəndaşı olduğu və ya vətəndaşlığı olmadan daimi yaşadığı ölkədə məhz cinayəti törətdiyi ölkədə üzləşə biləcəyi maksimum cəza həddində cəzalandırılması hüquqi müəyyənlik prinsipinin mühüm elementini təşkil edən proqnozlaşdırıla bilənlik tələbi ilə də uzlaşır.

Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin 12.1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə törədilən əmələ görə təyin edilən cəzanın aşağı həddi ilə bağlı hüquqi müəyyənlik və qanunçuluq prinsiplərinin tələbləri baxımından aşağıdakıların qeyd edilməsini vacib hesab edir.

Konstitusiya hüququnun doktrinası hüquqi müəyyənlik prinsipini Konstitusiyanın Preambulasında öz əksini tapan qanunun aliliyinin əsas elementlərindən biri kimi tanıyır. İnsan hüquqlarının həyata keçirilməsinin əsasını təşkil edən ədalət və hüquqi müəyyənlik prinsipləri qanunvericilik siyasətinin əvvəlcədən gözlənilən olmasını tələb edir. Hüquqi müəyyənlik prinsipi müvafiq hüquq münasibətlərinin iştirakçılarında öz davranışlarının nəticələrini ağlabatan hüdudlarda qabaqcadan bilməsi və özlərinin rəsmi tanınmış hüquqi statusunun, əldə edilmiş hüquqlarının dəyişilməməzliyində əminlik yaratmaqla, dövlətin hüquq siyasətinə etibarını artırır (Konstitusiya Məhkəməsi Plenumunun “Hərbi qulluqçuların pensiya təminatı haqqında” və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanunlarının bəzi müddəalarının zamana görə tətbiq edilməsi baxımından şərh edilməsinə dair” 2014-cü il 27 mart tarixli Qərarı).

Hüquq normalarının dəqiqliyi, aydınlığı, birmənalılığının ümumhüquqi meyarları həmçinin hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipindən irəli gəlir (Konstitusiyanın 25-ci maddəsinin I hissəsi).

Bu cür bərabərlik normaların bütün hüquq tətbiqedicilər tərəfindən yalnız vahid anlaşılması və şərhi nəticəsində mümkündür. Əksinə, hüquq normalarının məzmununun qeyri-müəyyənliyi hüquq tətbiqetmə prosesində hədsiz (qeyri-məhdud) mülahizələrə və özbaşınalığa gətirib çıxarar. Bununla da bərabərlik, qanunun aliliyi prinsipi pozulmuş olar. Eyni zamanda, hər bir cinayət, habelə onun törədilməsinə görə cinayət məsuliyyəti qanunda dəqiq müəyyən olunmalıdır. Hər kəs müvafiq normanın məzmunundan çıxış edərək öz hərəkətlərinin (hərəkətsizliyinin) cinayət hüquqi nəticələrini qabaqcadan görmək imkanına malik olmalıdır. Hüquq normalarının dəqiq, aydın, birmənalı müəyyən olması, hüquqtənzimetmə sistemində onların bir-birinə uyğunluğu tələbi yuxarıda qeyd olunan konstitusion prinsiplərdən irəli gəlir. (Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 221.3-cü maddəsinin şərh edilməsinə dair” 2011-ci il 20 may tarixli Qərarı).

Qanunun aliliyi konstitusiya prinsipindən irəli gələn cinayət məsuliyyətinin əsas prinsiplərindən biri olan qanunçuluq prinsipinin tələblərinə əsasən, əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza və digər cinayət-hüquqi xarakterli tədbirlər yalnız Cinayət Məcəlləsi ilə müəyyən edilir (Cinayət Məcəlləsinin 5.1-ci maddəsi).

Cinayət Məcəlləsinin 41.2-ci maddəsində göstərilir ki, cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir.

Cinayət qanunvericiliyində ədalət prinsipi və cəzanın təyin edilməsinin ümumi əsasları Cinayət Məcəlləsinin 8 və 58-ci maddələrində açıqlanmışdır.

Həmin maddələrə uyğun olaraq, cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır. Törədilmiş cinayətə görə nəzərdə tutulmuş cəzalardan daha ciddi cəza növü və ya həddi yalnız o halda təyin edilir ki, az ciddi cəza növü və ya həddi cəzanın məqsədlərini təmin edə bilmir. Cəza təyin edilərkən törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar, habelə təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınır.

Cinayət Məcəlləsinin 58.1-ci maddəsinə görə, cinayət törətməkdə təqsirli bilinən şəxsə, bu Məcəllənin Ümumi hissəsinin müddəaları nəzərə alınmaqla Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hədlərdə ədalətli cəza təyin edilir.

Göründüyü kimi, törədilmiş əmələ görə təyin edilən cəza ilə həmin əməlin ictimai təhlükəlilik dərəcəsi və xarakteri, onu törədən şəxsin şəxsiyyəti arasında gözlənilən proporsionallıq cəzanın ədalətlilik meyarı kimi çıxış edir. Odur ki, ədalətin bərpası təyin edilmiş cəzanın cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, təqsirkarın şəxsiyyətinə, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallara uyğun olduğu təqdirdə mümkündür.

Göstərilənlər Cinayət Məcəlləsinin 12.1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə Azərbaycan Respublikasının məhkəmələri tərəfindən təyin edilən cəzanın, ərazisində cinayət törədilmiş xarici dövlətin qanunu ilə nəzərdə tutulmuş cəzanın aşağı həddi ilə məhdudlaşdırılmasını mümkünsüz edir və bu məsələ məhz milli cinayət qanunvericiliyi ilə həll edilir.

Əlavə olaraq qeyd edilməlidir ki, Kişineu Konvensiyasının 99-cu maddəsinin 1-ci hissəsinə əsasən, Razılığa gələn Tərəflərdən hər biri cinayətlərin istintaqı aparılarkən və məhkəmələr tərəfindən cinayət işlərinə baxılarkən öz qanunvericiliyində nəzərdə tutulan məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran halları, hansı Razılığa gələn Tərəfin ərazisində baş verib-verməməsindən asılı olmayaraq nəzərə ala bilər.

Konstitusiya Məhkəməsinin Plenumu onun da qeyd edilməsini zəruri hesab edir ki, Cinayət Məcəlləsində cinayətə görə müəyyən edilmiş cəzadan daha yüngül cəzanın təyin edilməsinin mümkünlüyü nəzərdə tutulmuşdur.

Belə ki, Cinayət Məcəlləsinin 62-ci maddəsinə əsasən, cinayətin məqsədi və motivi, təqsirkarın cinayətin törədilməsində rolu, cinayətin törədilməsi zamanı və bundan sonra onun davranışı ilə bağlı müstəsna hallar, habelə cinayətin ictimai təhlükəliliyini əhəmiyyətli dərəcədə azaldan başqa hallar olduqda, eləcə də iştirakçılıqla törədilmiş cinayətin iştirakçısı həmin cinayətin açılmasına fəal kömək etdikdə, bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsində müəyyən edilmiş aşağı həddən də az cəza təyin edilə bilər və ya məhkəmə həmin maddədə müəyyən ediləndən daha yüngül cəza növü təyin edə bilər, yaxud təyin edilməsi məcburi olan əlavə cəzanı təyin etməyə bilər. Cəzanı yüngülləşdirən həm ayrı-ayrı hallar, həm də bu cür halların məcmusu müstəsna hal hesab edilə bilər.

Göründüyü kimi cəzanın aşağı həddinin, habelə daha yüngül cəzanın təyin edilməsi cəzanın məqsədlərinə nail olmağa imkan verdiyi və şəxsin islah olunmasına kifayət etdiyi hallarda onun tətbiqi ədalətli cəza kimi müəyyən edilmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında" 2003-cü il 25 iyun tarixli Qərarının 8-ci bəndində qeyd olunmuşdur ki, şəxsin təqsirləndirildiyi Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddəsinin sanksiyasında alternativ cəzaların olması, o cümlədən cərimə cəzasının nəzərdə tutulması həmin şəxs barəsində Cinayət Məcəlləsinin 62-ci maddəsi tətbiq edilməklə müvafiq maddənin sanksiyasında müəyyən edilmiş aşağı həddən də az cəzanın təyin edilməsinə mane olmur.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

Konstitusiyanın 71-ci maddəsinin I və X hissələrinə və 80-ci maddəsinə, qanunçuluq və hüquqi müəyyənlik prinsiplərinə, Cinayət Məcəlləsinin 5.1 və 12.5-ci maddələrinə, habelə Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən həmin Məcəllənin 12.1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə xarici ölkənin ərazisində törətdikləri cinayətə görə cəzanın aşağı həddi Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddələri ilə müəyyən edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65–67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin I və X hissələrinə və 80-ci maddəsinə, qanunçuluq və hüquqi müəyyənlik prinsiplərinə, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 5.1 və 12.5-ci maddələrinə, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən həmin Məcəllənin 12.1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə xarici ölkənin ərazisində törətdikləri cinayətə görə cəzanın aşağı həddi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddələri ilə müəyyən edilməlidir.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**3.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad Abdullayev**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

## Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin II hissəsi və 71-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 211.2 və 218.3-cü maddələrinin əlaqəli şəkildə şərh olunmasına dair

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

**Bakı şəhəri,** **16 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Humay Əfəndiyeva (məruzəçi-hakim), Rauf Quliyev, Otari Qvaladze, Fikrət Məmmədov, İsa Nəcəfov, Rəşid Rzayev, Fərhad Tutayuk və Xanlar Vəliyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin II hissəsi və 71-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 211.2 və 218.3-cü maddələrinin əlaqəli şəkildə şərh olunmasına dair konstitusiya işinə baxdı.

İş üzrə hakim H.Əfəndiyevanın məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun sorğusunu və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizəsini, Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyası, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi və Azərbaycan Respublikasının Vəkillər Kollegiyası tərəfindən təqdim olunmuş mütəxəssis mülahizələrini, ekspertlər Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının professoru, hüquq elmləri doktoru F.Abbasovanın və həmin kafedranın müəllimi, hüquq üzrə fəlsəfə doktoru L.Məmmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəllə) 211.2-ci maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 60-cı maddəsinin II hissəsi və həmin Məcəllənin 218.3-cü maddəsi ilə əlaqəli şəkildə şərh olunmasını xahiş etmişdir.

Sorğuverənin qənaətinə görə, Cinayət-Prosessual Məcəllənin 50.1, 50.3, 211.2–211.7-ci maddələrində cinayət təqibi üzrə icraatın ayrılmasının şərtləri və qaydaları müəyyən olunsa da, ayrılmış cinayət işi üzrə ibtidai istintaq müddətinin axımının başlanmasına münasibətdə qanunvericilikdə qeyri-müəyyənlik mövcuddur.

Prokurorluq hesab etmişdir ki, hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədi ilə cinayət işinin materiallarından başqa cinayət işinin ayrıca icraata ayrılması hallarında ibtidai istintaq müddətinin axımının hansı andan başlanması məsələsinə aydınlıq gətirilməsinə zərurət yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar aşağıdakıları qeyd etməyi zəruri hesab edir.

Konstitusiyanın 71-ci maddəsinin I hissəsinə əsasən, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Həmin maddənin II hissəsində göstərilir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz.

Konstitusiyanın 60-cı maddəsinin I və II hissələri ilə hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Bu hüquq əsas insan hüquq və azadlıqları sırasında olmaqla yanaşı, eyni zamanda bütün digər hüquq və azadlıqların təminatı kimi çıxış edir. Məhkəmə müdafiəsi hüququ yalnız məhkəməyə müraciət etmək imkanını deyil, həmçinin pozulmuş hüquq və azadlıqların qanunvericilikdə müəyyən edilən hədlər çərçivəsində səmərəli müdafiəsini ehtiva edən ədalət mühakiməsini də nəzərdə tutur. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın.

Pozulmuş insan hüquqlarının bərpa edilməsinin səmərəliliyinin göstəricilərindən biri ədalət mühakiməsinin vaxtında həyata keçirilməsidir. Bu baxımdan, ədalət mühakiməsi yalnız iş məhkəmə tərəfindən ağlabatan müddətdə baxılmış və həll edilmiş olduğu halda həqiqətən "ədalət" meyarlarına cavab vermiş olur.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra – Avropa Məhkəməsi) İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 5-ci (azadlıq və toxunulmazlıq hüququ) və 6-cı (ədalətli məhkəmə araşdırması hüququ) maddələrinin pozulması ilə bağlı şikayətlərə baxarkən ibtidai araşdırmanın ağlabatan müddətə aparılmasının vacibliyini xüsusilə qeyd etmişdir.

Cinayət-prosessual qanunvericilikdə müəyyən edilmiş müddətlər ədalət mühakiməsinin həyata keçirilməsində xüsusi rol oynayır. Məhz bu müddətlərdə cinayət mühakimə icraatı iştirakçılarının hüquq və vəzifələri yaranır, icra olunur və ya onlara xitam verilir.

Prosessual müddətlərin əhəmiyyəti özünü təkcə prosessual vəzifələrin icra edilməsində deyil, həmçinin cinayət prosesi orqanının həyata keçirdiyi cinayət təqibi üzrə icraatın ardıcıl və fasiləsizliyinin təmin olunmasında da göstərir. Qeyd olunmalıdır ki, cinayət prosesinin məhkəməyədək icraat və məhkəmə icraatı mərhələlərinə bölünməsi Cinayət-Prosessual Məcəllədə nəzərdə tutulmuş prosessual müddətlərin də eyni mərhələ üzrə bölgüsünə səbəb olmuşdur. Belə ki, cinayət prosesi həm məhkəmə icraatı, həm də məhkəməyədək icraat mərhələsində konkret zaman kəsiyində həyata keçirilir və bu zaman kəsiyi prosessual müddətləri ehtiva edir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 158.3-cü maddəsinin bəzi müddəalarının, 158.4 və 290.3-cü maddələrinin şərh edilməsinə dair" 2011-ci il 10 oktyabr tarixli Qərarı).

Avropa Məhkəməsinin formalaşdırdığı hüquqi mövqeyə görə "ağlabatan müddət" təkcə məhkəmə mərhələsini deyil, həmçinin ilkin istintaq mərhələsini də əhatə edir. Eyni zamanda, bu müddət cinayət işinin materialları məhkəməyə təqdim edilməmişdən əvvəl, yəni ibtidai araşdırma mərhələsindən, şəxsə ittiham elan olunduğu andan və ya azadlığın məhdudlaşdırıldığı tarixdən, hətta şəxs cinayət təqibinə məruz qaldığı andan hesablanmağa başlayır (Deweer Belçikaya qarşı iş üzrə 1980-ci il 27 fevral, Neumeister Avstriyaya qarşı iş üzrə 1968-ci il 27 iyun, Rıngisen Avstriyaya qarşı iş üzrə 1971-ci il 16 iyul il tarixli qərarlar).

Konstitusiya Məhkəməsinin Plenumu sorğuda qaldırılan məsələnin həlli üçün, ilk növbədə, Cinayət-Prosessual Məcəllənin bir-biri ilə sistemli əlaqədə olan bəzi müddəalarının təhlilini vacib hesab edir.

Cinayət-Prosessual Məcəllənin 1.2-ci maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ona yönəlmişdir ki, cinayət törətməkdə təqsiri olmayan heç kəsi cinayət prosesini həyata keçirən orqanların vəzifəli şəxslərinin və ya hakimlərin özbaşına hərəkətləri ilə qanunsuz şübhə altına almaq, ittiham və ya məhkum etmək mümkün olmasın, heç kəs qanunsuz və ya zərurət olmadan prosessual məcburiyyət tədbirlərinə, insan və vətəndaş hüquq və azadlıqlarının digər məhdudiyyətlərinə məruz qalmasın.

Cinayətləri tezliklə açmaq, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq və cinayət törətmiş şəxsləri ifşa və cinayət məsuliyyətinə cəlb etmək isə cinayət mühakimə icraatının vəzifələri sırasında müəyyən edilmişdir (Cinayət-Prosessual Məcəllənin 8.0.3 və 8.0.4-cü maddələri).

Qeyd olunmalıdır ki, həmin Məcəllənin 10–36-cı maddələrində göstərilmiş cinayət mühakimə icraatının əsas prinsipləri və şərtləri cinayət təqibinin həyata keçirilməsinin  qaydalarını müəyyən etməklə şəxsin insan və vətəndaş hüquq və azadlıqlarının qanunsuz məhdudlaşdırılması hallarından müdafiəsinə, hər bir cinayət təqibinin qanuniliyinin və əsaslılığının təmin edilməsinə xidmət edir. Cinayət prosesini həyata keçirən orqanlar üçün cinayət prosesində iştirak edən bütün şəxslərin Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarına riayət olunmasını təmin etmək əsas vəzifələri kimi müəyyən edilmişdir (Cinayət-Prosessual Məcəllənin 9.1 və 12.1-ci maddələri).

Cinayət-prosessual qanunvericiliyin təyinatına müvafiq olaraq və cinayət mühakimə icraatının vəzifələrinin icrasına nail olunması məqsədilə qanunvericilikdə cinayət təqibi üzrə icraatın birləşdirilməsi və cinayət təqibi üzrə icraatın ayrılması ilə bağlı müddəalar nəzərdə tutulmuşdur.

Cinayət-Prosessual Məcəllənin 50-ci maddəsinə əsasən, cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında baxılmasına mane olmayan və onun xarakterinə görə ayrıca baxılması mümkün olan bütün hallarda cinayət təqibi üzrə icraatın ayrılmasına yol verilir. Cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində iştirak etmiş, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan şəxs digər şəxslərlə birlikdə cinayət təqibinə məruz qalarsa, onun barəsindəki icraat ibtidai araşdırma zamanı mümkün qədər ayrıca icraata ayrılmalıdır. Cinayət təqibi üzrə icraatın ayrılması müstəntiqin, prokurorun və ya məhkəmənin qərarı ilə həyata keçirilir.

Nəzərə alınmalıdır ki, cinayət mühakimə icraatının məqsədləri yalnız cinayətdən zərərçəkmişlərin hüquqlarının müdafiəsini deyil, həmçinin cinayət təqibinə məruz qalan şəxslərin hüquq və azadlıqlarının müdafiəsini ehtiva edir. Bu baxımdan, cinayət işinin ayrıca icraata ayrılması cinayət prosesinin obyektivlik, qərəzsizlik, habelə məsuliyyətin və cəzanın fərdiləşdirilməsi kimi prinsiplərin realizəsinə xidmət edir.

Ümumiyyətlə, cinayət-prosessual qanunvericilikdə təsbit olunmuş cinayət təqibi üzrə icraatın birləşdirilməsi və ayrılması ilə bağlı münasibətləri tənzimləyən normalar iki başlıca məqsədin təmin edilməsinə istiqamətlənmişdir:

– prosessual qənaət prinsipinin gözlənilməsi;

– cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması.

Məhz bu məqsədlərdən irəli gələrək qanunverici cinayət təqibi üzrə icraatın birləşdirilə bildiyi, icraatın birləşdirilməsinin qadağan olunduğu, cinayət təqibi üzrə icraatın ayrılmasına yol verildiyi, həmçinin cinayət işinin materiallarından başqa cinayət işinin ayrıca icraata ayrılmalı olduğu halları müəyyən etmişdir.

Cinayət işinin ayrıca baxılmasının mümkünlüyü dedikdə həm ilkin, həm də ayrılmış cinayət təqibi üzrə bütün halların müəyyən edilməsi üçün istintaqın, zəruri prosessual hərəkətlərin, o cümlədən məhkəmə baxışının müstəqil surətdə həyata keçirilə bilməsi başa düşülür (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 49.4.2-ci maddəsinin həmin Məcəllənin 8.0.3, 8.0.4 və 48.1-ci maddələri və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 307-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 2023-cü il 8 may tarixli Qərarı).

Cinayət-Prosessual Məcəllənin 211.2-ci maddəsi ilə müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun öz icraatında olan cinayət işinin materiallarından başqa cinayət işini ayrıca icraata ayırması şərtləri müəyyən edilmişdir.

Həmin maddə ilə nəzərdə tutulmuş şərtlərdən biri və ya bir neçəsi mövcud olsa da, cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında araşdırılmasına maneələr olduqda başqa cinayət işi ayrıla bilməz (Cinayət-Prosessual Məcəllənin 211.3-cü maddəsi).

Beləliklə, cinayət-prosessual qanunvericiliyin tələbləri nəzərə alınmaqla cinayət təqibi üzrə icraatların ayrılması barədə qərar qəbul edilərkən cinayət işlərinin ayrılmasının səmərəliliyi meyarından çıxış edilməlidir ki, bununla da prosessual qənaət prinsipinə əməl edilməsi və cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması təmin edilmiş olsun.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142-ci maddəsinin şərh edilməsinə dair" 2020-ci il 8 yanvar tarixli Qərarında qeyd etmişdir ki, Cinayət-Prosessual Məcəllənin 50.3-cü maddəsi həmin Məcəllənin 9.1.3 və 211-ci maddələri ilə əlaqəli şəkildə cinayət işinin ayrıca icraata ayrılması barədə qərar qəbul edərkən müstəntiq, prokuror və hakimin üzərinə müvafiq hüquqi və faktiki əsasların göstərilməsi vəzifəsini qoyur. Cinayət işinin ədalətli həlli üçün bu cür qərar onun qəbul olunmasının vacibliyini təsdiq edən və iş materiallarında öz əksini tapmış konkret hallara, həmçinin maddi və prosessual hüquq normalarına əsaslanmaqla qəbul edilməlidir.

Cinayət işinin ayrıca icraata ayrılması hallarında ibtidai istintaq müddətinin axımının hansı andan başlanması ilə əlaqədar qeyd olunmalıdır ki, Cinayət-Prosessual Məcəllənin 48.1.2-ci maddəsinə əsasən, cinayət təqibi üzrə icraat təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən həmin Məcəllədə nəzərdə tutulmuş müddətlərdə elə başlanmalı və qurtarmalıdır ki, şəxslər onlara ittiham elan olunmasını, işlərinə baxılmasını və pozulmuş hüquqlarının bərpasını həddən artıq uzun müddət gözləməsinlər.

Həmin Məcəllənin 218.3-cü maddəsinə müvafiq olaraq, ibtidai istintaq müddəti cinayət işinin başlandığı gündən hesablanır, işin məhkəməyə göndərilməsi və ya icraatına xitam verilməsi haqqında qərarın çıxarıldığı gün bitir.

Göstərilməlidir ki, cinayət-prosessual qanunvericilikdə ibtidai istintaqın müddətinin axımının başlanma anı ilə bağlı yuxarıda qeyd edilən qaydadan hər hansı bir istisna nəzərə tutulmamışdır və bu qayda ibtidai istintaq müddətinin hesablanmasının zəruri olduğu bütün hallara, o cümlədən Cinayət-Prosessual Məcəllənin 211.2-ci maddəsi ilə nəzərdə tutulmuş hallara şamil olunur.

Burada nəzərə alınmalıdır ki, Cinayət-Prosessual Məcəllənin 211.2.2–211.2.6-cı maddələrində təsbit edilən şərtlərlə ayrılmış cinayət işi üzrə ibtidai istintaq, eyni bir cinayətə görə başlanmış ibtidai araşdırmanın yeni icraatda davamıdır və belə hallarda ayrılmış cinayət işi üzrə istintaq müddətinin axımının ayrılma haqqında qərar qəbul edildiyi andan hesablanması, ayrılma haqqında qərar qəbul edilənə qədər keçən müddətin ibtidai istintaq müddəti qismində qiymətləndirilməməsi ilə nəticələnəcəkdir ki, bununla həmin müddət ərzində əldə edilmiş sübutların mümkünlüyü, mötəbərliyi, qəbul edilmiş qətimkan tədbirlərinin qanuniliyi şübhə altına alınmış olar. Son nəticədə bu halda ibtidai istintaq müddətinin cinayət işinin ayrılması barədə qərar qəbul edildiyi andan hesablanması cinayət prosesi tərəflərinin (həm təqsirləndirilən (şübhəli), həm də zərərçəkmiş şəxsin) prosessual hüquqlarının pozulmasına şərait yaratmaqla cinayət-prosessual qanunvericiliyin əsas prinsiplərinin inkar edilməsinə gətirib çıxarar.

Bununla belə o da xüsusilə qeyd edilməlidir ki, Cinayət-Prosessual Məcəllənin 211.2.1-ci maddəsi ilə müəyyən edilmiş əsasla, yəni təqsirləndirilən şəxsin ittiham edildiyi cinayətlə bərabər onunla bağlı olmayan, təqsirləndirilən şəxs tərəfindən deyil, digər məlum və ya naməlum şəxslər tərəfindən təqsirləndirilən şəxsin iştirakı olmadan törədilmiş başqa cinayətin müəyyən edilməsi əsası ilə cinayət işi ayrıldıqda, cinayət işinin materiallarından başqa cinayət işinin ayrılması ilə yanaşı, yeni cinayət hadisəsinə görə cinayət işinin başlanması tələb olunur. Çünki ilkin işdəki cinayət işinin

başlanması barədə qərar tamamilə fərqli əmələ görə çıxarılmış sənəd kimi çıxış etməklə yeni cinayət təqibinin aparılmasının başlanğıcını ehtiva etmir.

Nəzərə alınmalıdır ki, Cinayət-Prosessual Məcəllənin 46, 204–210-cu maddələrinin mənasına görə, cinayət işinin başlanması üçün səbəb və əsas olduğu bütün hallarda, o cümlədən həmin Məcəllənin 211.2.1-ci maddəsində göstərilən əsasla cinayət işinin materiallarından başqa cinayət işi ayrıldıqda və cinayətin əlamətlərinə işarə edən kifayət qədər dəlillər olduqda cinayət işi başlanmalıdır.

Eyni zamanda, Cinayət-Prosessual Məcəllənin 211.2.1-ci maddəsində nəzərdə tutulmuş əsasla cinayət işi ayrıldıqda yeni cinayət işinin başlanılmaması cinayətin törədilməsində təqsirləndirilən (şübhəli) şəxslərin statusunu sual altına qoymuş olar ki, bu da onların hüquqlarının məhdudlaşdırılması ilə nəticələnə bilər.

Halbuki Konstitusiyada demokratik hüquqi dövlətin təbiətini, mahiyyətini əks etdirən və cinayət mühakimə icraatında insan və vətəndaş hüquq və azadlıqlarının təminatını nəzərdə tutan bir sıra prinsiplər təsbit edilmişdir (Konstitusiyanın 25, 28, 32, 33, 60, 61, 63, 65, 66, 67, 68, 125 və 127-ci maddələri). Bu baxımdan cinayət prosesinin digər iştirakçıları kimi təqsirləndirilən (şübhəli) şəxsin də əsas hüquqlarının təmin edilməsi mühüm əhəmiyyət kəsb etməklə, belə hüquqların həyata keçirilməsi cinayət mühakimə icraatının istənilən mərhələsində mümkün olmalıdır.

Qeyd edilməlidir ki, cinayət işinin başlanılması mərhələsi cinayət prosesinin cinayət işinin başlanılması üçün əsasların, cinayətin əlamətlərinə işarə edən dəlillərin qiymətləndirildiyi, cinayət təqibini istisna edən, cinayət təqibinin həyata keçirilməməsinə imkan verən, habelə cinayət təqibinin həyata keçirilməsinə mane olan halların və s. müəyyən edildiyi vacib mərhələsidir.

Burada yeganə istisna, Cinayət-Prosessual Məcəllənin 45.3-cü maddəsi ilə nəzərdə tutulmuş böyük ictimai təhlükə törətməyən aşkar cinayətə dair şikayət üzrə təhqiqatçının cinayət işi başlamadan sadələşdirilmiş icraat aça bilməsi halıdır. Bununla belə, Konstitusiya Məhkəməsi Plenumunun ifadə etdiyi hüquqi mövqeyə əsasən, cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxs məhkəməyədək sadələşdirilmiş icraatda da təqsirləndirilən şəxs statusuna malikdir.

Nəzərə alınmalıdır ki, məhkəməyədək sadələşdirilmiş icraat zamanı cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsin hüquqlarının təmin edilməsi, ona qarşı irəli sürülmüş ittihamın mövcudluğundan, onun təqsirliliyinin sübuta yetirilməsinə yönəlmiş müvafiq prosessual qərarların qəbul edilməsindən və xüsusən də, təxirəsalınmaz istintaq hərəkətlərinin aparılmasından irəli gəlir. Bu zaman həmin şəxsin cinayət təqibi üzrə yalnız formal prosessual vəziyyətinin deyil, həmçinin faktiki vəziyyətinin nəzərə alınması zərurəti yaranır (“Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 293.1-ci maddəsinin və 297.0.4-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair” 2011-ci il 12 yanvar tarixli Qərar).

Qeyd edilənləri nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət-Prosessual Məcəllənin 211.2.1-ci maddəsi ilə nəzərdə tutulmuş əsasla cinayət işinin materiallarından başqa cinayət işi ayrılarkən ayrılma haqqında qərarda yeni cinayət işinin başlanılması məsələsi həllini tapmalıdır.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Konstitusiyanın 60-cı maddəsinin II hissəsi, 71-ci maddəsi və Cinayət-Prosessual Məcəllənin 218.3-cü maddəsinin müddəalarından irəli gələrək, həmin Məcəllənin 211.2.2–211.2.6-cı maddələrində müəyyən edilən əsaslarla cinayət işinin materiallarından başqa cinayət işi ayrıca icraata ayrıldıqda istintaq müddətinin axımı ilkin cinayət işinin başlandığı gündən hesablanır;
- Cinayət-Prosessual Məcəllənin 211.2.1-ci maddəsi ilə nəzərdə tutulmuş əsasla ayrılmış cinayət işi üzrə ibtidai istintaq müddəti ayrılma haqqında qərar qəbul edildiyi (yeni cinayət işi başlanıldığı) gündən hesablanır.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini və “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65–67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin II hissəsi, 71-ci maddəsi və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 218.3-cü maddəsinin müddəalarından irəli gələrək, həmin Məcəllənin 211.2.2–211.2.6-cı maddələrində müəyyən edilən əsaslarla cinayət işinin materiallarından başqa cinayət işi ayrıca icraata ayrıldıqda istintaq müddətinin axımı ilkin cinayət işinin başlandığı gündən hesablanır.

**2.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 211.2.1-ci maddəsi ilə nəzərdə tutulmuş əsasla ayrılmış cinayət işi üzrə ibtidai istintaq müddəti ayrılma haqqında qərar qəbul edildiyi (yeni cinayət işi başlanıldığı) gündən hesablanır.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və “Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı”nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad Abdullayev**

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

**Azərbaycan Respublikası Konstitusiyasının 80-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.1-1, 206-1.2, 206-1.3, 263.1 və 263.1-1-ci maddələrinin həmin Məcəllənin 2.2, 5.1 və 43-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair**

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

**Bakı şəhəri, 20 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Humay Əfəndiyeva, Rauf Quliyev, Otari Qvaladze, Fikrət Məmmədov, İsa Nəcəfov (məruzəçi-hakim), Rəşid Rzayev, Fərhad Tutayuk və Xanlar Vəliyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 80-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.1-1, 206-1.2, 206-1.3, 263.1 və 263.1-1-ci maddələrinin həmin Məcəllənin 2.2, 5.1 və 43-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim İ.Nəcəfovun məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun sorğusunu və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizəsini, Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyası, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi, Azərbaycan Respublikasının Vəkillər Kollegiyası tərəfindən təqdim olunmuş mütəxəssis mülahizələrini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 206.1-1, 206-1.2, 206-1.3, 263.1 və 263.1-1-ci maddələrinin sanksiyalarında nəzərdə tutulmuş əlavə cəzaların hansı əsas cəzalara əlavə olaraq təyin edilməsi ilə bağlı həmin normaların Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 80-ci maddəsi və həmin Məcəllənin 2.2, 5.1 və 43-cü maddələri ilə əlaqəli şəkildə şərh olunmasını xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, məhkəmələr tərəfindən Cinayət Məcəlləsinin bir sıra maddələrinin sanksiyalarında təsbit olunmuş əlavə cəzaların təyin olunması ilə əlaqədar fərqli yanaşmalar mövcuddur.

Belə ki, cəza təyinində mübahisə yaradan əsas məqam Cinayət Məcəlləsinin 206.1-1, 206-1.2, 206-1.3-cü maddələrinin sanksiyasında əlavə cəza kimi nəzərdə tutulmuş cərimə cəzasının əsas cəzalardan yalnız azadlığın məhdudlaşdırılması cəzasına, yoxsa həm azadlığın məhdudlaşdırılması, həm də müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına əlavə cəza kimi təyin edilməli olması ilə bağlıdır.

Bir neçə cinayət işinə istinadən Prokurorluq qeyd etmişdir ki, həmin işlər üzrə məhkəmələrin yanaşmasına əsasən Cinayət Məcəlləsinin 206-1.2 və 206.1-1-ci maddələrinin sanksiyalarında əlavə cəza kimi təsbit olunmuş cərimə əsas cəzalardan yalnız azadlığın məhdudlaşdırılması cəzasına münasibətdə nəzərdə tutulmuşdur və digər əsas cəzaya münasibətdə tətbiq oluna bilməz.

Bununla yanaşı, mövcud məhkəmə təcrübəsində həmin maddələr üzrə təqsirləndirilən şəxslərə əlavə cəza kimi cərimə cəzasının azadlıqdan məhrum etmə əsas cəzasına əlavə olaraq təyin edilməsi hallarına da rast gəlinir.

Həmçinin Cinayət Məcəlləsinin 263.1 və 263.1-1-ci maddələri üzrə işlərlə bağlı məhkəmə təcrübəsi də göstərir ki, eynilə Cinayət Məcəlləsinin 206.1-1, 206-1.2, 206-1.3-cü maddələrində nəzərdə tutulduğu kimi, bu maddələrin sanksiyalarında da nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum etmə növündə əlavə cəza bir əsas cəzanın əvvəlində ifadə olunmasına və alternativ əsas cəzalar bir-birilə "və ya" bağlayıcısı vasitəsilə əlaqələnməsinə baxmayaraq, məhkəmələr sanksiyada nəzərdə tutulan istənilən əsas cəzaya münasibətdə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum etmə növündə əlavə cəzanı da təyin edir.

Qeyd olunanlara əsasən sorğuverən hesab etmişdir ki, Cinayət Məcəlləsinin 206.1-1, 206-1.2, 206-1.3, 263.1 və 263.1-1-ci maddələri ilə cəza təyin olunarkən hüquq tətbiqetmə prosesindəki ziddiyyətlərin aradan qaldırılması, bu istiqamətdə vahid məhkəmə təcrübəsinin formalaşdırılması, cinayət qanunu normalarının eyni qaydada tətbiqinin və hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədi ilə göstərilən normaların əlaqəli şəkildə şərh edilməsinə zərurət yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əla-

qədər aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

Konstitusiyanın 80-ci maddəsinə əsasən, Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur.

Bu maddənin tələblərindən irəli gələrək, insan hüquq və azadlıqlarının təminatı məqsədilə qanunvericilikdə cinayət, inzibati xəta və digər əməllərlə bağlı mühafizəedici hüquq normaları müəyyən edilmişdir.

Nəzərə alınmalıdır ki, Konstitusiyanın 80-ci maddəsində öz əksini tapan "qanunla müəyyən edilən" müddəası məsuliyyətə səbəb olan əməlin, o cümlədən cinayət əməlinin və onun hüquqi nəticəsi kimi cəzanın qanunda göstərilməli olması ilə yanaşı, aydın və birmənalı şəkildə müəyyən edilməli olmasını da nəzərdə tutur.

Bu həmçinin Konstitusiyanın Preambulasında öz əksini tapan qanunun aliliyinin əsas elementlərindən biri kimi hüquqi müəyyənlik və 71-ci maddəsinin X hissəsindən irəli gələn qanunçuluq prinsiplərinin tələbidir.

Hüquqi müəyyənlik prinsipinə görə hüquqi tənzimləmələr aydın, başa düşülən, tətbiq oluna bilən və obyektiv olmalı, həm şəxslər, həm də dövlət orqanları üçün heç bir tərəddüd və ya şübhəyə yer qoymamalı, şəxs hərəkətlərinin hansı hüquqi nəticəyə səbəb olacağını əvvəlcədən bilməlidir. Yalnız bu halda o, üzərinə düşən öhdəlikləri qabaqcadan görə və davranışını tənzimləyə bilər.

Cinayət Məcəlləsinin 5.1-ci maddəsində cinayət məsuliyyətinin prinsipi kimi öz əksini tapmış qanunçuluq prinsipi də cinayət və cəzanın qanuna əsaslanmasını və cinayət qanunvericiliyinin aydın və müəyyən olmasını (lex certa) tələb edir. Bu prinsip yalnız cinayət hüquq normalarının bütün hüquq tətbiqedən orqanlar tərəfindən vahid anlaşılması və şərhi nəticəsində təmin edilə bilər.

Hüquq normasının məzmununun qeyri-müəyyənliyi isə hüquq tətbiqetmədə məhdudiyyətsiz mülahizə üçün imkan yaratmaqla hər bir normativ hüquqi aktın əsasında dayanmalı olan qanunun aliliyi, qanun və məhkəmə qarşısında bərabərlik və ədalət prinsiplərinin pozulmasına gətirib çıxarır.

Bu baxımdan, cinayət hüquq normalarının sanksiyalarının hüquqi müəyyənlik prinsipinin tələblərinə cavab verməsi xüsusi əhəmiyyət daşıyır. Belə ki, cəzaların növ və hədlərini müəyyən edən sanksiyaların aydınlığı və ikimənalı olmaması məhkəmələr tərəfindən ədalətli cəza təyin edilməsinə və həmin orqanların fəaliyyətində qanunçuluq prinsipinin gözlənilməsinə imkan yaradır.

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun (bundan sonra – "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunu) 53-cü (Normativ hüquqi aktın mətninə dair irəli sürülən linqvistik tələblər) və 56-cı (Normativ hüquqi aktın mətninə dair üslub tələbləri) maddələrində göstərilən tələblər nəzərə alınmaqla sanksiyaların düzgün formalaşdırılması və bu zaman sabit texnikadan istifadə edilməsi xüsusi əhəmiyyət daşıyır. Bu həmin sanksiyaların birmənalı başa düşülməsini təmin edir və tətbiqində yarana biləcək çətinliklərin qarşısını almış olur.

Əks hal şəxsin qabaqcadan öz hüquqazidd əməlinin nəticəsini bilməsini, hüquq tətbiqedənin hərəkətlərinin proqnozlaşdırıla bilən olmasını çətinləşdirməklə yanaşı, şəxsə ədalətsiz cəzanın tətbiq olunması ilə nəticələnə bilər.

Qeyd olunmalıdır ki, Cinayət Məcəlləsinin 2.2-ci maddəsinə əsasən həmin Məcəllə cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir.

Cinayət Məcəlləsinin 41.1-ci maddəsinə görə, cəza məhkəmə hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbirdir. Cəza cinayət törətməkdə təqsirli hesab edilən şəxsə tətbiq olunur və həmin şəxs barəsində bu Məcəllə ilə müəyyən edilən məhrumiyyətlər yaradılmasından və ya onun hüquq və azadlıqlarının məhdudlaşdırılmasından ibarətdir.

Azərbaycan Respublikasının cinayət qanunvericiliyində cəzanın sistemi (növləri), təyin edilməsinin ümumi əsasları da müəyyən olunmuşdur.

Cəzanın sistemi dedikdə, bir-biri ilə qarşılıqlı əlaqədə olan, müəyyən funksiyaya malik, qanunda ağırlığına görə müəyyən edilən qaydada düzülmüş cəza növlərinin qəti siyahısı başa düşülür (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 46.2, 46.3-cü maddələrinin və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 346.1.14-cü maddəsinin şərh edilməsinə dair" 2011-ci il 14 noyabr tarixli Qərarı).

Cinayət qanunvericiliyində cəza sisteminə daxil olan cəzalar 3 qrupa bölünür (Cinayət Məcəlləsinin 43-cü maddəsi):

– əsas cəzalar (ictimai işlər, islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xarakterli hərbi hissədə saxlama, azadlığın məhdudlaşdırılması, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə);

– əlavə cəzalar (xüsusi və ya hərbi rütbədən, fəxri addan yaxud dövlət təltifindən məhrum etmə, nəqliyyat vasitələrini idarə etmə hüququndan məhrum etmə, Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma);

– həm əsas, həm də əlavə cəza qismində təyin oluna bilən (qarışıq) cəzalar (cərimə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə).

Cinayət məsuliyyətinin diferensiallaşdırılması qanunverici tərəfindən digər vasitələrlə yanaşı, həmçinin əsas cəzalarla birlikdə əlavə cəzaları da nəzərdə tutan sanksiyaların müəyyən edilməsi yolu ilə həyata keçirilir. Əlavə cəzalar müstəqil tətbiq edilməyən, yalnız əsas cəzalara qoşulan cəza növüdür. Hüquq nəzəriyyəsində əlavə cəzaların nəzərdə tutulduğu sanksiyalar kumulyativ sanksiyalar adlandırılır.

Cinayət Məcəlləsində öz əksini tapan kumulyativ sanksiyalar da iki qrupa bölünür:

– əlavə cəzanın mütləq qaydada təyin olunmasının nəzərdə tutulduğu kumulyativ sanksiyalar (140.4, 195-2, 199.2.4, 206.1, 263-1.1, 313-cü və s. maddələr);

– əlavə cəzanın fakültativ qaydada nəzərdə tutulduğu (tətbiqi məhkəmənin mülahizəsindən asılı olan) kumulyativ sanksiyalar (142.1,174, 222-1.1, 255.2, 302.1-ci və s. maddələr).

Cinayət Məcəlləsinin şərh edilməsi xahiş olunan maddələrinin sanksiyaları isə aşağıdakı qaydada müəyyən edilmişdir:

– 206.1-1-ci maddə: ... cərimə edilməklə iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə;

– 206-1.2-ci maddə: ... cərimə edilməklə iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə;

– 206-1.3-cü maddə: ... cərimə edilməklə üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə;

– 263.1-ci maddə: ... nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə beş min manatdan yeddi min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə;

– 263.1-1-ci maddə: ... nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə.

Göründüyü kimi, ilk üç maddədə cəriməni, digər maddələrdə isə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum etməni əlavə cəza kimi nəzərdə tutan qanunverici onları mütləq kumulyativ sanksiya şəklində formalaşdırmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu sorğuda qaldırılan məsələnin həlli ilə əlaqədar, göstərilən maddələrin sanksiyalarını normayaratma texnikasının xüsusiyyətləri baxımından, eləcə də cəzanın məqsədləri və təyin edilməsi əsaslarını tənzimləyən qanunvericilik normaları ilə funksional əlaqəli şəkildə təhlil olunmasını vacib hesab edir.

Qeyd olunmalıdır ki, qanunverici sanksiyaları, yəni hər bir cinayət əməlinə görə təyin oluna biləcək cəzaların növ və hədlərini o şəkildə formalaşdırır ki, onlar cəzanın məqsədləri ilə uyğunluq təşkil etsin və ədalətli cəzanın təyininə imkan yaratsın. Əsas cəzaların tətbiq edilməsinin cəzanın məqsədlərinə nail olunmasına yetərli olmayacağı halda sanksiyalarda müəyyən edilən hər bir əlavə cəza xüsusi funksiya daşıyır.

Cinayət Məcəlləsinin 41.2-ci maddəsinə əsasən cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlər törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir.

Cinayət qanunvericiliyində cəzaya münasibətdə sosial ədalətin nədən ibarət olması Cinayət Məcəlləsinin ədalət prinsipini və cəzanın təyin edilməsinin ümumi əsaslarını nəzərdə tutan 8 və 58-ci maddələrində öz əksini tapmışdır.

Törədilmiş cinayət əməli ilə onun ictimai təhlükəlilik dərəcəsi və xarakteri, eləcə də, onu törədən şəxsin şəxsiyyəti arasında mütənasiblik, həmin cinayətə görə cəza təyini zamanı ədalətlilik meyarı kimi çıxış edir. Bu baxımdan, o halda sosial ədalətin bərpası məqsədinə nail oluna bilər ki, təyin edilmiş cəza cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, təqsirkarın şəxsiyyətinə, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallara uyğun olsun və yalnız zərərçəkmiş şəxsdə deyil, bütövlükdə cəmiyyətdə ədalətin bərqərar olduğuna dair əminlik yaratsın.

Oxşar hüquqi mövqe Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 509.1-ci maddəsinin həmin Məcəllənin 520.7-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 2025-ci il 18 iyun tarixli Qərarında da öz əksini tapmışdır.

Beləliklə, cinayət törətməkdə təqsirli bilinən şəxslərə təyin olunan əsas və əlavə cəzalar vəhdətdə cəzanın yuxarıda göstərilən məqsədlərini təmin etmiş olur.

Nəzərə alınması vacibdir ki, hər bir cinayət ilə onun törədilməsinə görə tətbiq olunan cəza, eləcə də əlavə cəza arasında məqsədyönlü və əsaslı bağlılıq mövcuddur.

Belə ki, cərimə məhkəmə tərəfindən təyin edilən pul tənbehi olmaqla cinayət törətmiş şəxsin maddi məhrumiyyətlərə məruz qalması ilə nəticələnir.

Cinayət Məcəlləsinin cərimənin əlavə cəza kimi müəyyən edildiyi maddələrinin təhlilindən görünür ki, bu cəza əsasən iqtisadi fəaliyyət əleyhinə, yaxud dövlətə və ya cəmiyyətə maddi zərərin vurulması ilə nəticələnən cinayətlərin sanksiyalarında nəzərdə tutulmuşdur. Təqsirkarın üzərinə maliyyə məsuliyyətinin qoyulması həm bu növ cinayətlərin törədilməsinə münasibətdə maddi marağın aradan qaldırılmasına, həm də əsas cəzanın təsirini gücləndirməklə cəzanın fərdiləşdirilməsinə xidmət edir.

Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə cəzası isə bir qayda olaraq, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlərin sanksiyalarında öz əksini tapmışdır. Qeyd olunan cəzanın tətbiqi təqsirkarın sürücülük hüququndan müvəqqəti olaraq məhrum olunması ilə nəticələnir ki, bu da onun yüksək təhlükə mənbəyi olan nəqliyyat vasitəsindən istifadə edərək yenidən cinayət törətməsinin qarşısının alınmasına yönəlməklə, cəmiyyətin digər üzvlərinə də çəkindirici təsir göstərir.

Təhlil edilən müvafiq maddələrin sanksiyalarında əlavə cəzaların fakültativ deyil, mütləq cəza kimi nəzərdə tutulması belə nəticəyə gəlməyə əsas verir ki, həmin cinayətlərin obyektini, xarakterini, ictimai təhlükəlilik dərəcəsini və digər amilləri nəzərə alan qanunverici sanksiyanın törədilən əmələ mütənasib olması və ədalətli cəza prinsipinin tələbinə cavab verməsi üçün həmin cəzaların əsas cəzalara birləşdirilməsini zəruri hesab etmişdir.

O da nəzərə alınmalıdır ki, normayaratma texnikası baxımından sanksiyalar əsas cəzaların ağırlığına görə (az ağırdan daha ağır cəzaya doğru) sıralanması əsasında formalaşır.

Cinayət qanunvericiliyinin tələblərinə əsasən törədilmiş cinayətə görə nəzərdə tutulmuş cəzalardan daha ciddi cəza növü və ya həddi yalnız o halda təyin edilir ki, az ciddi cəza növü və ya həddi cəzanın məqsədlərini təmin edə bilmir. Cəza təyin edilərkən törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar, habelə təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınır (Cinayət Məcəlləsinin 58.1 və 58.3-cü maddələri).

Göründüyü kimi, məhkəmələr cəza təyin edərkən alternativ əsas cəzalardan daha ağırını o halda tətbiq edir ki, təqsirkarın şəxsiyyəti, cəzanı ağırlaşdıran halların mövcudluğu və s. bu cəzanın seçilməsini zəruri edir. Belə olan halda əlavə cəzaların alternativ əsas cəzalardan məhz birincisinin (yəni daha yüngülünün) önündə qeyd edilməsi əsası ilə yalnız həmin cəzaya əlavə edilə biləcəyinə dair mövqe onunla nəticələnər ki, yol hərəkət qaydalarını kobud şəkildə pozan, bu baxımdan şəxsiyyəti daha ictimai təhlükəli olduğuna görə daha ağır cəza təyin edilməli olan şəxsin nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilməsi məcburi xarakter daşımaz. Əksinə, daha yüngül ictimai təhlükəliliyi ilə xarakterizə edilən şəxslər isə belə məhrumiyyətlərə məruz qalmalı olar. Halbuki belə yanaşma, yəni əsas cəza ağırlaşdıqda əlavə cəzadan azad olunma, cəzanın məqsədləri və əlavə cəzanın məsuliyyətin fərdiləşdirilməsilə bağlı funksiyası ilə uyğunsuzluq təşkil etməklə ədalətli cəza prinsipinin tələblərinə də cavab verməmiş olardı.

Eyni mövqe Cinayət Məcəlləsinin 206.1-1, 206-1.2, 206-1.3-cü maddələrinin sanksiyalarına münasibətdə də nəzərə alınmalıdır.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu da "Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2013-cü il 15 noyabr tarixli Qərarında göstərmişdir ki, Cinayət Məcəlləsinin 263.1-ci maddəsinin tələbinə görə, nəqliyyat vasitəsini idarə etmə hüququndan məhrum etmə növündə əlavə cəza həmin maddənin sanksiyasında nəzərdə tutulmuş hər hansı əsas cəzanın (azadlıqdan məhrum etmə, islah işləri və ya cərimə cəzasının) təyin edilməsindən asılı olmayaraq tətbiq edilməlidir.

Belə yanaşma Azərbaycan dilinin qrammatik quruluşundan da irəli gəlir. Belə ki, təhlil olunan maddələrin sanksiyalarında öz əksini tapmış "cərimə edilməklə" və "nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə" ifadələri zərflik olmaqla digər cümlə üzvləri ilə deyil, birbaşa xəbərlə ("cəzalandırılır") sintaktik əlaqədədir və bu da, əsas cəzaların hansının təyin edilməsindən asılı olmayaraq əlavə cəza ilə cəzalandırılmanı zəruri edir.

Həmçinin "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən normativ hüquqi aktın mətni lakonik formada, normaların ziddiyyətli təfsirini istisna edən sadə və aydın dildə, Azərbaycan ədəbi dilinin və hüquq terminologiyasının rəsmi-işgüzar üslubuna əməl etməklə tərtib edilir (53-cü maddə). Əlavə cəzanın alternativ əsas cəzalardan yalnız birincisinin əvvəlində göstərilməsi Azərbaycan dilinin qrammatik quruluşundan irəli gəlməklə yanaşı, eyni ifadənin hər dəfə təkrarlanmasının da qarşısının alınmasına yönəlmişdir.

Eyni normayaratma texnikası ilə qurulmuş sanksiyaların müxtəlif formada başa düşülməsi və tətbiq edilməsi isə hüquqi müəyyənlik və qanunçuluq prinsiplərinin tələblərinin pozulmasına səbəb olmaqla, hüquq və azadlıqların müdafiəsinin dövlət təminatını zəiflədən ziddiyyətli hüquq tətbiqetmə təcrübəsinin yaranması ilə nəticələnə bilər.

Konstitusiya Məhkəməsinin Plenumu onu da qeyd etməyi vacib hesab edir ki, Cinayət Məcəlləsinin 62.1-ci maddəsinə əsasən, cinayətin məqsədi və motivi, təqsirkarın cinayətin törədilməsində rolu, cinayətin törədilməsi zamanı və bundan sonra onun davranışı ilə bağlı müstəsna hallar, habelə cinayətin ictimai təhlükəliliyini əhəmiyyətli dərəcədə azaldan başqa hallar olduqda, eləcə də iştirakçılıqla törədilmiş cinayətin iştirakçısı həmin cinayətin açılmasına fəal kömək etdikdə, bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsində müəyyən edilmiş aşağı həddən də az cəza təyin edilə bilər və ya məhkəmə həmin maddədə müəyyən ediləndən daha yüngül cəza növü təyin edə bilər, yaxud təyin edilməsi məcburi olan əlavə cəzanı təyin etməyə bilər. Odur ki, göstərilən əsaslar olduqda məhkəmələr Cinayət Məcəlləsinin şərh edilən maddələrinin sanksiyasında nəzərdə tutulan və təyin olunması məcburi olan əlavə cəzanı təyin etməyə bilərlər.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

– Konstitusiyanın 80-ci, Cinayət Məcəlləsinin 43 və 58-ci maddələrinə və Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən Cinayət Məcəlləsinin 206.1-1, 206-1.2, 206-1.3-cü maddələrinin sanksiyalarında göstərilən cərimə, 263.1 və 263.1-1-ci maddələrinin sanksiyalarında göstərilən nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum etmə növündə əlavə cəzalar həmin sanksiyalarda öz əksini tapmış əsas cəzalardan hər birinə əlavə olaraq təyin edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65–67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Konstitusiyasının 80-ci, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 43 və 58-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.1-1, 206-1.2, 206-1.3-cü maddələrinin sanksiyalarında göstərilən cərimə, 263.1 və 263.1-1-ci maddələrinin sanksiyalarında göstərilən nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum etmə növündə əlavə cəzalar həmin sanksiyalarda öz əksini tapmış əsas cəzalardan hər birinə əlavə olaraq təyin edilir.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**3.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad Abdullayev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 150/63**

**Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun Tədbirlər Planının təsdiq edilməsi haqqında**

**Bakı şəhəri** **20 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 sentyabr tarixli 721 nömrəli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir.

Azərbaycan Respublikasında sistemli və kompleks yanaşmanı təmin edən məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyət nəticəsində dövlət siyasətinin prioritet istiqamətlərindən olan narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri ölkəmizdə həyata keçirilən siyasi, sosial-iqtisadi və hüquqi islahatlara uyğun olaraq daha intensiv xarakter almışdır.

Belə ki, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlıqla bağlı problemlərin həlli, insanların sağlamlığının, rifahının, milli-mənəvi dəyərlərin, vətənpərvər və sağlam gəncliyin qorunub saxlanılması ümumdövlət vəzifəsi kimi müəyyən edilmişdir. Bu məqsədlə aparılan islahatlar cəmiyyətin, dövlətin və qeyri-hökumət təşkilatlarının səylərinin birləşdirilməsini, aidiyyəti dövlət orqanlarının (qurumlarının) müasir informasiya texnologiyalarının imkanlarından istifadə etməklə qarşılıqlı fəaliyyət göstərməsini, ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin müvafiq orqanları ilə əməkdaşlığın genişləndirilməsini və kompleks mübarizə tədbirləri görülməsini zəruri etmişdir.

Görülən işlərin davamlılığını təmin etmək məqsədilə hazırlanmış Dövlət Proqramının əsas məqsədi müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası sahəsində yeni üsulların tətbiqi, normativ hüquqi bazanın təkmilləşdirilməsi və digər kompleks tədbirlərin həyata keçirilməsindən ibarətdir.

Sərəncamda Azərbaycan Respublikasının Baş Prokurorluğuna Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planında nəzərdə tutulmuş bir sıra tədbirlərdə iştirak tövsiyə olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 sentyabr tarixli 721 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının icrasını təmin etmək məqsədilə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

**2.** Tədbirlər Planının icrasına nəzarət Baş prokurorun birinci müavini, müavinləri və Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə həvalə edilsin.

**3.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

*Azərbaycan Respublikası Baş prokurorunun 20.10.2025-ci il tarixli, 150/63 nömrəli əmri ilə təsdiq edilmişdir.*

**Azərbaycan Respublikası Prezidentinin 17 sentyabr 2025-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş**
**"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun**

**TƏDBİRLƏR PLANI:**

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum), fəaliyyət istiqamətlərinə uyğun olaraq | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **Təşkilati tədbirlər (DP-8.1.)** | | | | | | | |
| **1.** | Azərbaycan Respublikasına qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının daşınmasının qarşısının alınması istiqamətində əməliyyat-axtarış tədbirlərinin və profilaktik tədbirlərin gücləndirilməsi (DP-8.1.4.) | ***Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi*** | Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Hərbi Prokurorluq | mütəmadi | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasının ərazisinə daşınmasının qarşısının alınması məqsədilə müasir texnologiyaların tətbiqinin genişləndirilməsi | Müasir informasiya texnologiyalarının imkanlarından istifadə etməklə aidiyyəti dövlət orqanları (qurumları) ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində məlumat mübadiləsini artırmaqla əməliyyat-axtarış tədbirlərinin və profilaktik tədbirlərin gücləndirilməsi | Qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının ölkəyə daşınması hallarının qarşısının alınması, belə halların aşkar olunma səviyyəsinin yüksəldilməsi |
| **2.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə sahəsində | ***Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına*** | Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış | mütəmadi | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı | Beynəlxalq təcrübə tətbiq edilməklə əməkdaşların peşəkarlığının yüksəldilməsi və təcrübə mübadiləsi | Əməkdaşların peşəkarlığının yüksəldilməsi, onlar tərəfindən beynəlxalq təcrübənin mənimsənilməsinin və |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | beynəlxalq təcrübədən istifadə etməklə əməkdaşların peşəkarlığının yüksəldilməsi və təcrübə mübadiləsi məqsədilə seminarların, təlimlərin və digər tədbirlərin keçirilməsi (DP-8.1.5.) | ***nəzarət idarəsi, Elm-Tədris Mərkəzi*** | fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi | | mübarizə sahəsində beynəlxalq təcrübənin öyrənilməsi | məqsədilə seminarların, təlimlərin və digər tədbirlərin keçirilməsi | fəaliyyətlərində tətbiqinin təmin edilməsi |
| **3.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayət işləri üzrə cinayət mühakimə icraatı zamanı belə cinayətlərin törədilməsini doğuran səbəb və şəraitin öyrənilməsi, eləcə də qarşısının alınması üçün tədbirlər görülməsi (DP-8.1.11.) | ***Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi*** | Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Hərbi Prokurorluq | mütəmadi | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin törədilməsini doğuran səbəb və şəraitin öyrənilməsi | Həmin səbəb və şəraitin aradan qaldırılması üçün təkliflərin hazırlanması və zəruri tədbirlərin müəyyən edilməsi | Zəruri tədbirlər görülməsi nəticəsində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi sahəsində cinayətlərin törədilməsinə səbəb olan halların aradan qaldırılmasının təmin edilməsi, gələcəkdə baş verməsinin qarşısının alınması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **4.** | Narkotik vasitələrin və psixotrop maddələrin gizli pərakəndə satış şəbəkəsinin ifşası və bu cinayəti törədən şəxslərin vaxtında məsuliyyətə cəlb edilməsi istiqamətində təşkilati və praktiki tədbirlərin gücləndirilməsi (DP-8.1.16) | ***Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi*** | Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi | mütəmadi | Gizli pərakəndə satış şəbəkələrinin ifşası istiqamətində mübarizə üsullarının təkmilləşdirilməsi və yeni mübarizə üsullarının tətbiqi ilə bağlı təkliflərin hazırlanması | Təkmilləşdirilmiş və yeni hazırlanmış mübarizə üsullarının tətbiqinin təmin edilməsi | Hüquq mühafizə orqanları tərəfindən həyata keçirilən əməliyyat- axtarış tədbirləri nəticəsində müsbət göstəricilərin əldə edilməsi |
| **5.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi məqsədilə istifadə edilən maliyyə mexanizmlərini, ödəniş üsul və vasitələrini, satışdan əldə edilən vəsaitin yönəldildiyi əsas sahələri (aktivləri), habelə belə vəsaitlərin əsas leqallaşdırılma üsullarını müəyyənləşdirməklə risk indikatorlarının formalaşdırılması (DP-8.1.17.) | ***Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi*** | Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların | 2025–2027 | Risk indikatorlarının formalaşdırılması məqsədilə qurumlararası işçi qrupun yaradılması | Risk indikatorlarının formalaşdırılması | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi məqsədilə istifadə edilən maliyyə mexanizmlərinin, ödəniş üsul və vasitələrinin, satışdan əldə edilən vəsaitin yönəldildiyi əsas sahələrin, belə vəsaitlərin əsas leqallaşdırılma üsullarının müəyyən edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | icrasına nəzarət idarəsi, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi | | | | |
| **6.** | Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi ilə bağlı normaların tətbiqi təcrübəsinin ümumiləşdirilməsi və həmin normaların tətbiqinə nəzarətin gücləndirilməsi (DP-8.1.18.) | ***Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi*** | Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi | mütəmadi | Maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinə məsul qurumların əməkdaşlarının normativ hüquqi aktların tələbləri barədə məlumatlılıq səviyyəsinin yüksəldilməsi | Maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinin tətbiqi vəziyyətinin öyrənilməsi, ümumiləşdirilməsi, nəticələrin təhlili və müvafiq təkliflərin hazırlanması | Maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinin geniş tətbiqinə nail olunması |
| **Normativ hüquqi bazanın təkmilləşdirilməsi (DP-8.2.)** | | | | | | | |
| **7.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər verilməsi (DP-8.2.1) | ***Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi*** | Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Ədliyyə, gömrük və vergi orqanlarının | mütəmadi | Müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması | Müvafiq normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Müvafiq normativ hüquqi akt layihələrinin təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi | | | | |
| **8.** | Narkotik asılılığı olan şəxslərin narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növü və vəzifələr üzrə işə qəbulunun qarşısının alınmasından ötrü işəgötürənin məsuliyyətinin artırılması məqsədilə normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər verilməsi (DP-8.2.2) | ***Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi*** | Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd | 2025 (dekabr) | İşəgötürənin məsuliyyətinin artırılması ilə bağlı normativ hüquqi akt layihələrinin hazırlanması | Müvafiq normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Müvafiq normativ hüquqi akt layihələrinin təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Cinayət təqibindən kənar icraatlar idarəsi | | | | |
| 9. | Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsi və reabilitasiyası sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər verilməsi (DP-8.2.5) | ***Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi*** | Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət | 2025–2027 | Müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması | Müvafiq normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Müvafiq normativ hüquqi akt layihələrinin təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | idarəsi, Cinayət təqibindən kənar icraatlar idarəsi | | | | |
| **Beynəlxalq tədbirlər (DP-8.3.)** | | | | | | | |
| **10.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlığın davam etdirilməsi (DP-8.3.1.) | ***Beynəlxalq hüquqi əməkdaşlıq idarəsi*** | Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi | mütəmadi | Müvafiq sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlığın gücləndirilməsinə dair təkliflərin hazırlanması | Beynəlxalq təşkilatlarla və xarici ölkələrin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlığın gücləndirilməsinə dair hazırlanmış təkliflər əsasında zəruri tədbirlərin müəyyən edilməsi | Zəruri tədbirlərin həyata keçirilməsi nəticəsində beynəlxalq əməkdaşlıq çərçivəsində müvafiq sahədə səmərəlilik göstəricilərinin yaxşılaşması |
| **11.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın qarşısının alınmasına dair beynəlxalq konfranslarda, seminarlarda və digər tədbirlərdə prokurorluq orqanlarının | ***Beynəlxalq hüquqi əməkdaşlıq idarəsi*** | Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, | mütəmadi | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın qarşısının alınmasına dair beynəlxalq konfrans, seminar və digər tədbirlər barədə məlumatların | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın qarşısının alınmasına dair beynəlxalq konfrans, seminar və | Prokurorluq orqanları əməkdaşlarının beynəlxalq konfranslarda, seminarlarda və digər tədbirlərdə iştirakının təmin edilməsi, müvafiq sahədə beynəlxalq təcrübənin öyrənilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | əməkdaşlarının iştirakının təmin edilməsi (DP-8.3.4.) | | Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi | | toplanılması | digər tədbirlərdə iştirak edəcək prokurorluq orqanlarının əməkdaşları barədə təkliflər verilməsi | və təcrübə mübadiləsinin aparılması |
| **12.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsindən əldə edilən əmlakın leqallaşdırılmasının aşkarlanması və qarşısının alınması məqsədilə xarici ölkələrin aidiyyəti dövlət orqanları (qurumları) ilə və beynəlxalq təşkilatlarla əməkdaşlığın, məlumat və təcrübə mübadiləsinin genişləndirilməsi (DP-8.3.5.) | ***Beynəlxalq hüquqi əməkdaşlıq idarəsi*** | Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat | mütəmadi | Narkotik vasitələrin qanunsuz dövriyyəsindən əldə edilən əmlakın leqallaşdırılmasının qarşısının alınması məqsədilə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi | Beynəlxalq təcrübə əsasında məlumat mübadiləsinin genişləndirilməsi və təkliflərin hazırlanması | Müvafiq təcrübə əsasında Azərbaycan Respublikasında həyata keçiriləcək kompleks tədbirlərin müəyyən edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi | | | | |
| **Profilaktika və maarifləndirmə tədbirləri (DP-8.4.)** | | | | | | | |
| **13.** | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində normativ hüquqi aktların müddəalarının və tələblərinin əhaliyə izah edilməsi (DP-8.4.21.) | ***Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi***, ***Mətbuat xidməti*** | Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, tabe rayon (şəhər) prokurorluqları | mütəmadi | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində normativ hüquqi aktların müddəaları və tələbləri üzrə materialların hazırlanması | Müvafiq sahədə normativ hüquqi aktların müddəalarının və tələblərinin əhaliyə izah edilməsi üsullarının müəyyən edilməsi | Media subyektləri və sosial şəbəkələr vasitəsilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində normativ hüquqi aktların müddəalarının və tələblərinin əhaliyə izah edilməsi, bu sahədə məlumatlılıq və savadlılıq səviyyəsinin artırılmasının təmin edilməsi |

**Azərbaycan Respublikasının Baş Prokurorluğu**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 090/85**

**Baş Prokurorluq üzrə "Azərbaycan Respublikasının Baş Prokurorluğunun inzibati binalarında hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin yaradılması haqqında" 28 oktyabr 2022-ci il tarixli 09/22 nömrəli əmrdə dəyişiklik edilməsi barədə**

**Bakı şəhəri** **30 oktyabr 2025-ci il**

Baş Prokurorluq üzrə müvafiq əmrlərə əsasən kadr dəyişiklikləri həyata keçirildiyindən "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Baş Prokurorluq üzrə "Azərbaycan Respublikasının Baş Prokurorluğunun inzibati binalarında hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin yaradılması haqqında" 28 oktyabr 2022-ci il tarixli 09/22 nömrəli əmrin

– 1.1-ci bəndində "Fəxri Məmmədov" sözləri "Allahyar Məmmədli",

– 1.2-ci bəndində "Samir Abbasov" sözləri "Elvin Bəşirli" və "Adil Cəfərov" sözləri "Arzu İsgəndərov",

– 1.3-cü bəndində "Aynur Əfəndiyeva Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru" sözləri "Nigar Yahyazadə Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin Ekstradisiya və hüquqi yardım şöbəsinin prokuroru",

– 3-cü bəndində "Dərnəgül yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi, 3105 məhəllədə" sözləri "Süleyman Sani Axundov küçəsi 160 ünvanında" və "Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin böyük prokuroru Əli-zadə Çingiz Əlisəfa" sözləri "Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin böyük prokuroru Yaqubov Bəhlul Zəlimxan",

– 3.1-ci bəndində "Bəhlul Yaqubov Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin prokuroru" sözləri "Ramal Quliyev Kriminalistika və informasiya texnologiyaları idarəsinin böyük prokuroru" və "Elçin Hüseynsoy Kriminalistika və informasiya texnologiyaları idarəsinin Kriminalistika şöbəsinin prokuroru" sözləri "Elmar Bayramov Kriminalistika və informasiya texnologiyaları idarəsinin Kriminalistika şöbəsinin böyük prokuroru",

– 3.2-ci bəndində "Çingiz Əli-zadə Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin böyük prokuroru" sözləri "Bəhlul Yaqubov Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin böyük prokuroru",

– 4-cü bəndində "Dərnəgül yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi, 3105 məhəllədə" sözləri "Süleyman Sani Axundov küçəsi 160 ünvanında",

– 5.3-cü bəndində "Orxan Səmədov" sözləri "Eldar Məmmədov" və "Namiq Əliyev" sözləri "İsmayıl Cavadlı",

– 6.1-ci bəndində "Ceyhun Mirzəyev" sözləri "Nəzər Fərzəliyev", "Eldar Məmmədov" sözləri "Orxan Rüstəmov" və "Amin Şəkərəliyev" sözləri "Eldar Abuzərli" sözləri ilə əvəz edilsin.

**2.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına göndərilsin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 2-2-100/588-k**

**Azərbaycan Respublikası Baş prokurorunun "Azərbaycan Respublikası Baş Prokurorluğunun "İstintaq təcrübəsi" bülleteninin təsis edilməsi haqqında" 06.08.2020-ci il tarixli 11/857-k nömrəli əmrində dəyişiklik edilməsi barədə**

**Bakı şəhəri** **31 oktyabr 2025-ci il**

Baş Prokurorluq üzrə müvafiq əmrlərə əsasən kadr dəyişikliklərinin həyata keçirilməsini nəzərə alaraq, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş prokurorunun "Azərbaycan Respublikası Baş Prokurorluğunun "İstintaq təcrübəsi" bülleteninin təsis edilməsi haqqında" 06.08.2020-ci il tarixli 11/857-k nömrəli əmrində aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 2-ci bənddə "(F.Həsənəliyev)" sözləri "(M.Abbasov)" sözləri ilə;

**1.2.** 3-cü bəndin 5-ci abzasında "Fazil Həsənəliyev" sözləri "Mahir Abbasov" sözləri ilə əvəz edilsin.

**2.** Əmr elan edilməsi üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Reyestri"nə daxil edislin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 2-2-100/591-k**

**Azərbaycan Respublikası Baş prokurorunun "Azərbaycan Respublikası Baş Prokurorluğunun "Dövlət ittihamının müdafiəsi təcrübəsi" bülleteninin təsis edilməsi haqqında" 06.08.2020-ci il tarixli 11/856-k nömrəli əmrində dəyişiklik edilməsi barədə**

**Bakı şəhəri** **3 noyabr 2025-ci il**

Baş Prokurorluq üzrə müvafiq əmrlərə əsasən kadr dəyişikliklərinin həyata keçirilməsini nəzərə alaraq, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş prokurorunun "Azərbaycan Respublikası Baş Prokurorluğunun "Dövlət ittihamının müdafiəsi təcrübəsi" bülleteninin təsis edilməsi haqqında" 06.08.2020-ci il tarixli 11/856-k nömrəli əmrində aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 3-cü bəndin 9-cu abzasında "Mübariz Əhmədov" sözləri "Fazil Həsənəliyev" sözləri ilə, 11-ci abzasında "Anar Nəsibov Dövlət ittihamının müdafiəsi üzrə idarənin Kassasiya instansiyası məhkəməsində dövlət ittihamının müdafiəsi və analitik təhlil şöbəsinin rəisi-idarə rəisinin müavini" sözləri "Səfər Əhmədov Dövlət ittihamının müdafiəsi üzrə idarənin Kassasiya instansiyası məhkəməsində dövlət ittihamının müdafiəsi və analitik təhlil şöbəsinin prokuroru" sözləri ilə əvəz edilsin.

**2.** Əmr elan edilməsi üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Reyestri"nə daxil edislin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 090/95**

**"Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025-ci il tarixli Qərarının icrası ilə əlaqədar prokurorluq orqanlarının vəzifələri barədə**

**Bakı şəhəri** **22 dekabr 2025-ci il**

Müstəqil Azərbaycanın memarı və banisi Ümummilli lider Heydər Əliyev tərəfindən ölkəmizin inkişafı istiqamətində həyata keçirilmiş hər bir islahat uzun illər, o cümlədən cari günümüzdə belə öz aktuallığı qorumaqdadır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla və inamla davam etdirilən bu siyasət, nümayiş etdirilən qətiyyətli iradə və səriştə sayəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa edilmiş, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olması kimi tarixi ana şahidlik xalqımıza nəsib olmuşdur.

Daim insan hüquq və azadlıqlarının müdafiəsinə, humanizim prinsipinin tətbiqinə həssas münasibət sərgiləmiş Azərbaycan Respublikası Prezidentinin növbəti təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında 19 dekabr 2025-ci il tarixli Qərar qəbul edilmişdir.

Qeyd edilən qərarın vaxtında və dürüst icra olunmasını təmin etmək məqsədilə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini və "İşin Təşkili Qaydaları"nın 5.1-ci bəndini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini və müavinləri, Baş Prokurorluğun idarə (şöbə) rəisləri, Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası, Bakı şəhər, rayon (şəhər) və ərazi hərbi prokurorları tərəfindən Azərbaycan Respublikası Milli Məclisinin "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında 19 dekabr 2025-ci il tarixli Qərarının (bundan sonra – Qərar) təxirəsalınmadan və düzgün icra olunması təmin edilməklə, icra zamanı ortaya çıxan məsələlərin operativ həll edilməsi, prokurorluğun fəaliyyətinin digər orqanlarla, o cümlədən amnistiyanı tətbiq edən müvafiq qurumlarla əlaqələndirilməsi üçün zəruri tədbirlər görülsün.

**2.** Qərarın 1-ci hissəsi, 2.1, 2.2, 2.3, 2.4, 2.6, 2.8, 2.9, 2.10, 2.11, 2.12, 2.13-cü bəndləri və 3-cü hissəsində göstərilən məsələlər üzrə prokuror səlahiyyətləri aidiyyəti üzrə Azərbaycan Respublikası Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsi, Naxçıvan Muxtar Respublika Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar şöbəsi tərəfindən həyata keçirilsin.

**3.** Qərarın 2.5 və 2.7-ci bəndlərində göstərilən məsələlər üzrə prokuror səlahiyyətləri aidiyyəti üzrə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar şöbəsi tərəfindən həyata keçirilməklə, amnistiyanın tətbiqi zamanı qanunvericiliyin tələblərinə əməl olunması təmin edilsin.

**4.** Qərarın 5-ci hissəsində nəzərdə tutulan şəxslər barəsində amnistiyanın məhkəmələr tərəfindən tətbiqi zamanı Qərarın 29-cu hissəsinə, cinayət-prosessual qanunvericiliyin və "İşin Təşkili Qaydaları"nın tələblərinə əməl edilməklə məhkəmə baxışında Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin müvafiq dövlət ittihamçılarının iştirakı təmin edilsin.

**5.** Amnistiyanın tətbiqi məsələsinə baxılmasında iştirakı həvalə olunmuş idarə və ya şöbə prokurorları müvafiq qaydada bu əmrə əlavə edilmiş formalara uyğun olan rəyi (əlavə № 1 və 2) amnistiyanın tətbiqinə dair qərarla birlikdə təsdiq edilməsi üçün struktur qurumunun rəislərinə təqdim etsinlər. Müvafiq rəy və qərar öyrənildikdən sonra amnistiyanın tətbiq edilməsinə razılıq verilsin və ya bundan imtina edilsin.

**6.** Baş Prokurorluğun İstintaq idarəsi, Kriminalistika və informasiya texnologiyaları idarəsi, Baş Prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsi, Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası və tabe rayon, şəhər, ərazi hərbi prokurorluqları icraatlarında olan, habelə tabe rayon, şəhər prokurorları prosessual rəhbərliyi həyata keçirdikləri daxili işlər orqanlarının icraatlarında olan cinayət işləri, məhkəməyədək sadələşdirilmiş icraat və digər araşdırma materialları üzrə Qərarın 4-cü hissəsinin təxirəsalınmadan tətbiqini təmin etsinlər.

Tabe rayon, şəhər və ərazi hərbi prokurorluqları tərəfindən hər ayın sonunda Qərarın icrası barədə aidiyyəti üzrə Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsi, Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarına bu

əmrə əlavə edilmiş formaya uyğun hesabatlar (əlavə № 3) təqdim olunsun.

**7.** Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi prosessual rəhbərlik və nəzarət funksiyalarını həyata keçirdikləri müvafiq icra hakimiyyəti orqanlarının istintaq qurumları tərəfindən Qərarın 4-cü hissəsinin düzgün icrasına nəzarəti gücləndirsinlər.

**8.** Baş Prokurorluğun İstintaq idarəsi, Prokurorluqda istintaqa nəzarət idarəsi, Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Dövlət ittihamının müdafiəsi üzrə idarə, Kriminalistika və informasiya texnologiyaları idarəsi, Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsi, Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqları tərəfindən hər ayın sonunda Qərarın icra vəziyyəti təhlil olunmaqla, bu əmrə əlavə olunmuş formaya uyğun (əlavə № 3) hesabatlar Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinə göndərilsin.

**9.** Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsi tərəfindən Qərarın icra vəziyyətinin təhlili barədə tərtib olunmuş və daxil olan aylıq hesabatlar ümumiləşdirilməklə, növbəti ayın 3-dən gec olmayaraq müvafiq dövlət orqanının məlumatlandırılması üçün Azərbaycan Respublikasının Baş prokuroruna təqdim olunsun.

Amnistiyanın tətbiqinin 4 aylıq müddəti başa çatdıqdan sonra Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsi tərəfindən yekun ümumiləşdirmənin aparılmasını təmin etmək məqsədi ilə zəruri tədbirlər görülsün.

**10.** Amnistiyanın tətbiqi zamanı qəbul edilmiş qərarların qanuniliyi ilə əlaqədar aşkar edilən pozuntular, o cümlədən məhkəmələrin hökm və ya qərarlarından protestlərin verilməsi zərurəti bütün hallarda Baş prokurorun birinci müavini və ya müvafiq müavinlərinin iştirakı ilə müzakirə olunduqdan sonra prosessual hüquqların reallaşdırılması cinayət-prosessual qanunvericiliyin və Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nın tələblərinə əməl edilməklə həyata keçirilsin.

**11.** Qərarın 7.4-cü bəndinin düzgün icrası ilə əlaqədar maddi ziyanın tam ödənilməsi vəziyyəti xüsusi diqqətlə saxlanılmaqla, bu barədə Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin mövqeyi öyrənilsin.

**12.** Əcnəbilər barəsində amnistiyanın tətbiqi zamanı onların vətəndaşı olduqları xarici dövlətlərin diplomatik nümayəndəliklərinin müvafiq qaydada məlumatlandırılması üçün zəruri informasiyaların təxirəsalınmadan Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinə göndərilməsi təmin edilsin.

**13.** Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsi, Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsi və Respublika Hərbi prokurorluğu tərəfindən Qərarın icrası ilə əlaqədar ərizə və şikayətlərin, o cümlədən "Çağrı Mərkəzi", "Qaynar xətt" və "Etimad Xətti" əlaqə mərkəzlərinə daxil olan müraciətlərin nəzarətə götürülərək icrasının diqqətdə saxlanılması təmin edilsin.

**14.** Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi və Elm-Tədris Mərkəzi Mətbuat xidmətinin iştirakı ilə qəbul edilmiş Qərarın humanist mahiyyətinin təbliği üzrə maarifləndirmə işləri aparmaqla, media, televiziya, radio kanallarında, prokurorluğun dövri elmi-praktiki jurnallarında zəruri konsultativ-izahedici tədbirlər həyata keçirməklə, prokurorluq işçiləri tərəfindən Qərarın öyrənilməsi məqsədilə videoformat rejimində seminar-məşğələlər təşkil edilsin.

**15.** Anlaqlılığı istisna etməyən psixi pozuntuya görə tibbi xarakterli məcburi tədbir təyin olunmuş şəxslər barəsində amnistiya tətbiq edilərkən Qərarın 33-cü hissəsində nəzərdə tutulan tələblərə əməl olunmasına xüsusi diqqət yetirilsin.

**16.** Baş Prokurorluğun struktur qurumlarının rəhbərləri və tabe prokurorlar Qərarın 18-ci hissəsinin icrası üzrə barələrində amnistiya tətbiq olunmuş çağırışçıların və hərbi qulluqçuların müvafiq qaydada həqiqi hərbi xidmətə çağırış və hərbi xidmət məsələlərinin qanunvericiliklə müəyyən edilmiş qaydada həlli məqsədilə aidiyyəti dövlət orqanlarını vaxtında məlumatlandırmaqla, səlahiyyətləri daxilində digər zəruri tədbirlərin icrasını təmin etsinlər.

**17.** Tabe rayon, şəhər, ərazi hərbi prokurorluqlar tərəfindən amnistiya aktına əsasən cəzadan azad edilmiş məhkumların sosial adaptasiyası məqsədi ilə "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş tədbirləri həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarına səlahiyyətləri daxilində köməklik göstərilsin.

**18.** Əmrin icrasına nəzarət Baş prokurorun birinci müavini və müavinlərinə, Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə və aidiyyəti struktur qurumlarının rəhbərlərinə həvalə edilsin.

**19.** Əmr elan edilməsi və icra olunması üçün Baş Prokurorluğun aidiyyəti struktur qurumlarına və tabe prokurorlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc olunmaqla, "Prokurorluğunun Normativ Reyestri" moduluna daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

*Əlavə № 1*

**"Təsdiq edirəm"**

**Azərbaycan Respublikası Baş Prokurorluğunun**
**Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi**

**(Azərbaycan Respublikasının Hərbi və Naxçıvan Muxtar Respublikası**
**Prokurorluğunun müvafiq struktur qurumunun rəhbəri)**

________________________________

«_______» ______________2025-ci il

**RƏY**

**("Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025 Qərarın 1-3-cü hissələrinin təsiri altına düşən məhkumlara amnistiyanın tətbiq edilməsinin mümkünlüyü barədə)**

___________şəhəri ___________2021-ci il

"Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025 tarixli Qərarı (bundan sonra – Qərar) qəbul edilmişdir.

Məhkum barədə məlumat (soyadı, adı, atasının adı, təvəllüdü): ______________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________

Məhkum barəsində birinci instansiya məhkəməsi tərəfindən çıxarılmış hökm barədə məlumat (hökmün tarixi, şəxsin məhkum edildiyi CM-in müvafiq maddəsi (maddələri), təyin edilmiş qəti əsas və əlavə cəzalar):_______________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________

Məhkum barəsində apellyasiya instansiyası məhkəməsi tərəfindən qəbul edilmiş qərar barədə məlumat:_____________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________

Məhkum barəsində kassasiya (əlavə kassasiya) instansiyası məhkəməsi tərəfindən qəbul edilmiş qərar barədə məlumat:
______________________________________________________________________________

Şəxsin məhkum edildiyi cinayətlərin təsnifatı (şəxs cinayətlərin və ya hökmlərin məcmusu üzrə məhkum olunduqda törədilmiş cinayətlərin CM-nin 15-ci maddəsinə əsasən ən ağırının təsnifatı göstərilməlidir):
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________

Qeyd (məhkuma təyin edilmiş cəza dəyişdirildiyi halda bu barədə, həmçinin Azərbaycan Respublikası CM-nin 66.5 və ya 67-ci maddələrinə əsasən cəza təyin edildiyi təqdirdə, əvvəlki hökm barədə məlumatlar və hüquqi nəticələrə səbəb olan hər hansı digər hallar):_____________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________

Hökm qanuni qüvvəyə minmişdir: ____________________________________________tarixdən.

Cəzaçəkmənin başlandığı və başa çatmalı olduğu tarixlər: ____________________________________________

________________________________________________________________________________

________________________________________________________________________________

Amnistiya qərarının qüvvəyə mindiyi tarixə cəzanın çəkilməmiş hissəsi barədə məlumat: _________________

________________________________________________________________________________

________________________________________________________________________________

Əsas cəza kimi müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərin cəzası barədə məlumat (hökmlə müəyyən olunmuş cəza müddətləri, hazırda çəkilməmiş hissəsi barədə məlumat)

[bu abzas Qərarın 2.10-cu bəndinə əsasən amnistiya tətbiq edilməli olan şəxslər barəsində tərtib olunur]: ___

________________________________________________________________________________

________________________________________________________________________________

Cərimə cəzasına məhkum edilmiş şəxslərin cəzası barədə məlumat (cərimənin hökmlə müəyyən olunmuş məbləği, amnistiya qərarının qüvvəyə mindiyi tarixədək ödənilmiş hissəsi, həmin tarixdən ödənilmiş hissəsi və hazırda çəkilməmiş hissəsi barədə məlumat)

[bu abzas Qərarın 2.11-ci bəndinə əsasən amnistiya tətbiq edilməli olan şəxslər barəsində tərtib olunur]:_____

________________________________________________________________________________

________________________________________________________________________________

Böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətdiklərinə görə azadlıqdan məhrum etmə cəzasına şərti məhkum edilmiş və ya bu növ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud bu növ cəzanın çəkilməsi təxirə salınmış şəxslər barədə məlumat (cəzanın və sınaq müddətinin hökmlə müəyyən olunmuş həddi, tarixləri, cəzanın hazırda çəkilməmiş hissəsi barədə məlumat)

[bu abzas Qərarın 2.12-ci bəndinə əsasən amnistiya tətbiq edilməli olan şəxslər barəsində tərtib olunur]:_____

________________________________________________________________________________

________________________________________________________________________________

Azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaya şərti məhkum edilmiş və ya bu növ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud bu növ cəzanın çəkilməsi təxirə salınmış şəxslər barədə məlumat (cəzanın və sınaq müddətinin hökmlə müəyyən olunmuş həddi, tarixləri, cəzanın hazırda çəkilməmiş hissəsi barədə məlumat)

[bu abzas Qərarın 2.13-ci bəndinə əsasən amnistiya tətbiq edilməli olan şəxslər barəsində tərtib olunur]:___

________________________________________________________________________________

________________________________________________________________________________

Məhkum Qərarın 6-7-ci hissələrində nəzərdə tutulmuş şəxslərin dairəsinə daxil deyil.

"Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025 tarixli Qərarının ______________________________ bəndinin təsiri altına düşür.

Məhkum barəsində anlaqlılığı istisna etməyən psixi pozuntuya görə Azərbaycan Respublikası CM-nin 95.0.2 – 95.0.4-cü maddələrində nəzərdə tutulmuş tibbi xarakterli məcburi tədbirlərin, vərəm xəstəliyinə tutulması, müsbət halda həmin müalicənin başa çatması (vərəmdən müalicənin qurtarmasını təsdiq edən tibbi rəy və ya anlaqlılığı istisna etməyən psixi pozuntuya görə məcburi müalicənin ləğv edilməsi barədə məhkəmə qərarı haqqında məlumat): ________________________________________________________________________

________________________________________________________________________________

________________________________________________________________________________

Göstərilənlərə əsasən, "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025-ci il tarixli Qərarının müvafiq bəndlərinin, Baş Prokurorluq üzrə 22 dekabr 2025-ci il tarixli 09/95 nömrəli əmrin _____-cu bəndinin tələblərinə müvafiq olaraq,

**RƏYƏ GƏLİRƏM:**

Məhkum__________________________________________________________________________

(soyadı, adı, atasının adı)

barəsində "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025-ci il tarixli Qərarının _________________________________ bəndinə (bəndlərinə) əsasən amnistiyanın tətbiq edilməsi mümkün hesab edilsin.

**İdarə (şöbə) prokuroru** ______________________________

*Əlavə № 2*

**"Təsdiq edirəm"**

**Azərbaycan Respublikası Baş Prokurorluğunun**
**Dövlət ittihamının müdafiəsi idarəsinin rəisi**

**(Azərbaycan Respublikasının Hərbi və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun müvafiq struktur qurumunun rəhbəri)**

________________________________

«_______» ______________2025-ci il

**RƏY**

***("Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Qərarın 5-ci hissəsinin təsiri altına düşən cinayət törətmiş şəxslərə amnistiyanın tətbiq edilməsinin mümkünlüyü barədə)***

___________şəhəri ___________2025-ci il

"Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025-ci il tarixli Qərarı (bundan sonra – Qərar) qəbul edilmişdir.

Cinayət törətmiş şəxs barədə məlumat (soyadı, adı, atasının adı, təvəllüdü): ____________________________________
__________________________________________________________________________________________

Şəxsin təqsirləndirildiyi cinayətlərin təsnifatı (şəxs cinayətlərin və ya hökmlərin məcmusu üzrə məhkum olunduqda törədilmiş cinayətlərin CM-in 15-ci maddəsinə əsasən ən ağırının təsnifatı göstərilməlidir):
__________________________________________________________________________________________
__________________________________________________________________________________________

Cinayət törətmiş şəxsin barəsində seçilmiş qətimkan tədbiri, məhkəmənin adı, məhkəməyə verilmə tarixi, məhkəmənin hazırlıq iclasının tarixi: ____________________________________________________________
__________________________________________________________________________________________
__________________________________________________________________________________________

Cinayət törətmiş şəxs barədə birinci instansiya məhkəməsinin qanuni qüvvəyə minməmiş hökmü barədə məlumat: (təqsirləndirildiyi əməllər, CM-in müvafiq maddəsi (maddələri), cinayətlərin təsnifatı, hökmün tarixi, təyin edilmiş qəti əsas və əlavə cəzalar) ____________________________________________________________
__________________________________________________________________________________________
__________________________________________________________________________________________

Cinayət törətmiş şəxs barəsində apelyasiya instansiyası məhkəməsinin icraatında olan iş barədə məlumat:
__________________________________________________________________________________________
__________________________________________________________________________________________

Cinayət törətmiş şəxs barəsində kassasiya instansiyası məhkəməsinin icraatında olan iş barədə məlumat:
__________________________________________________________________________________________
__________________________________________________________________________________________

Qanuni qüvvəyə minməmiş ittiham hökmü üzrə əsas cəza kimi müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərin cəzası barədə məlumat (hökmlə müəyyən olunmuş cəza müddətləri, hazırda çəkilməmiş hissəsi barədə məlumat)

[bu abzas Qərarın 5.2.2-ci yarımbəndinə əsasən amnistiya tətbiq edilməli olan şəxslər barəsində tərtib olunur]:________________________________________________________________________________
__________________________________________________________________________________________

Qanuni qüvvəyə minməmiş ittiham hökmü üzrə cərimə cəzasına məhkum edilmiş şəxslərin cəzası barədə məlumat (cərimənin hökmlə müəyyən olunmuş məbləği, amnistiya qərarının qüvvəyə mindiyi tarixədək ödənilmiş hissəsi, həmin tarixdən ödənilmiş hissəsi və hazırda çəkilməmiş hissəsi barədə məlumat)

[bu abzas Qərarın 5.2.2-ci yarımbəndinə əsasən amnistiya tətbiq edilməli olan şəxslər barəsində tərtib olunur]:______________________________________________________________________________

______________________________________________________________________________

Qanuni qüvvəyə minməmiş ittiham hökmü üzrə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətdiklərinə görə azadlıqdan məhrum etmə cəzasına şərti məhkum edilmiş və ya bu növ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud bu növ cəzanın çəkilməsi təxirə salınmış şəxslər barədə məlumat (cəzanın və sınaq müddətinin hökmlə müəyyən olunmuş həddi, tarixləri, cəzanın hazırda çəkilməmiş hissəsi barədə məlumat)

[bu abzas Qərarın 5.2.2-ci yarımbəndinə əsasən amnistiya tətbiq edilməli olan şəxslər barəsində tərtib olunur]:______________________________________________________________________________

______________________________________________________________________________

Qanuni qüvvəyə minməmiş ittiham hökmü üzrə azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaya şərti məhkum edilmiş və ya bu növ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud bu növ cəzanın çəkilməsi təxirə salınmış şəxslər barədə məlumat (cəzanın və sınaq müddətinin hökmlə müəyyən olunmuş həddi, tarixləri, cəzanın hazırda çəkilməmiş hissəsi barədə məlumat)

[bu abzas Qərarın 5.2.2-ci yarımbəndinə əsasən amnistiya tətbiq edilməli olan şəxslər barəsində tərtib olunur]:______________________________________________________________________________

______________________________________________________________________________

Məhkum Qərarın 6-7-ci hissələrində nəzərdə tutulmuş şəxslərin dairəsinə daxil deyil.

"Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025-ci il tarixli Qərarının ______________________________ bəndinin təsiri altına düşür.

Məhkum barəsində anlaqlılığı istisna etməyən psixi pozuntuya görə Azərbaycan Respublikası CM-nin 95.0.2 – 95.0.4-cü maddələrində nəzərdə tutulmuş tibbi xarakterli məcburi tədbirlərin, vərəm xəstəliyinə tutulması, müsbət halda həmin müalicənin başa çatması (vərəmdən müalicənin qurtarmasını təsdiq edən tibbi rəy və ya anlaqlılığı istisna etməyən psixi pozuntuya görə məcburi müalicənin ləğv edilməsi barədə məhkəmə qərarı haqqında məlumat): ______________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

Göstərilənlərə əsasən, "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025-ci il tarixli Qərarının müvafiq bəndlərinin, Baş Prokurorluq üzrə 22 dekabr 2025-ci il tarixli 09/95 nömrəli əmrin __-cu bəndinin tələblərinə müvafiq olaraq,

**RƏYƏ GƏLİRƏM:**

Məhkum__________________________________________________________________________

(soyadı, adı, atasının adı)

barəsində "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025-ci il tarixli Qərarının ________________________________ bəndinə (bəndlərinə) əsasən amnistiyanın tətbiq edilməsi mümkün hesab edilsin.

İdarə (şöbə) prokuroru ______________________________

Şöbə rəisi ______________________________

Əlavə № 3

"Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025-ci il tarixli Qərarının__________________________________ ayı (ayları) ərzində tətbiqi ilə bağlı

***Əlavə № 3***

“Konstitusiya və Suverenlik İli” münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 19 dekabr 2025-ci il tarixli Qərarının_________________________ ayı (ayları) ərzində tətbiqi ilə bağlı

HESABAT

| Amnistiyanın bəndi | Amnistiya tətbiq olunmuş məhkumların/cinayət törətmiş şəxslərin ümumi sayı | kişilər/ qadınlar | O cümlədən yetkinlik yaşına çatmayan | Məhk. tərəfindən qərar qəbul edilib | Prok-q tərəfindən qərar qəbul edilib | DİO tərəfindən qərar qəbul edilib | ƏN tərəfindən qərar qəbul edilib | DVX tərəfindən qərar qəbul edilib | DGK tərəfindən qərar qəbul edilib | DTX tərəfindən qərar qəbul edilib | FHN tərəfindən qərar qəbul edilib | DSX tərəfindən qərar qəbul edilib | Cəza çəkmə müəssisələri/ İntizam xar.-li h\h-lər tərəfindən qərar qəbul edilib | İcra məmurları tərəfindən qərar qəbul edilib | B.i.t.t/ az ağır/ilk dəfə ağır cinayət |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1.1. | | | | | | | | | | | | | | | |
| 1.2. | | | | | | | | | | | | | | | |
| 1.3. | | | | | | | | | | | | | | | |
| 1.4. | | | | | | | | | | | | | | | |
| 1.5. | | | | | | | | | | | | | | | |
| 1.6. | | | | | | | | | | | | | | | |
| 1.7. | | | | | | | | | | | | | | | |
| 1.8. | | | | | | | | | | | | | | | |
| 1.9. | | | | | | | | | | | | | | | |
| 1.10. | | | | | | | | | | | | | | | |
| 1.11. | | | | | | | | | | | | | | | |
| 1.12. | | | | | | | | | | | | | | | |
| 1.13. | | | | | | | | | | | | | | | |
| 1.14. | | | | | | | | | | | | | | | |
| 1.15. | | | | | | | | | | | | | | | |
| 1.16. | | | | | | | | | | | | | | | |
| 1-ci hissə üzrə cəmi | | | | | | | | | | | | | | | |
| 2.1. | | | | | | | | | | | | | | | |
| 2.2. | | | | | | | | | | | | | | | |
| 2.3. | | | | | | | | | | | | | | | |
| 2.4. | | | | | | | | | | | | | | | |
| 2.5. | | | | | | | | | | | | | | | |
| 2.6. | | | | | | | | | | | | | | | |
| 2.7. | | | | | | | | | | | | | | | |
| 2,8. | | | | | | | | | | | | | | | |
| 2.9. | | | | | | | | | | | | | | | |
| 2.10. | | | | | | | | | | | | | | | |
| 2.11. | | | | | | | | | | | | | | | |
| o cümlədən cərimənin məbləği | | | | | | | | | | | | | | | |
| 2.12. | | | | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2.13 | | | | | | | | | | | | | | | |
| 2-ci hissə üzrə cəmi | | | | | | | | | | | | | | | |
| 3.1. | | | | | | | | | | | | | | | |
| 3.2. | | | | | | | | | | | | | | | |
| 3-cü hissə üzrə cəmi | | | | | | | | | | | | | | | |
| 4-ci hissə üzrə | | | | | | | | | | | | | | | |
| 5.1. | | | | | | | | | | | | | | | |
| 5.2.1 | | | | | | | | | | | | | | | |
| 5.2.2. | | | | | | | | | | | | | | | |
| 5.2.3. | | | | | | | | | | | | | | | |
| 5.3. | | | | | | | | | | | | | | | |
| 5-ci hissə üzrə cəmi: | | | | | | | | | | | | | | | |
| Ümumilikdə cəmi | | | | | | | | | | | | | | | |
| Ümumilikdə cərimənin məbləği cəmi | | | | | | | | | | | | | | | |

Məhkəmə tərəfindən qəbul edilmiş ____________________ qərardan apellyasiya protesti verilmişdir.

Amnistiya aktının tətbiq olunmaması barədə qərar qəbul edilmişdir:
– Təhqiqat və ibtidai istintaq orqanları tərəfindən _______müraciət üzrə;
– Məhkəmələr tərəfindən ___________ müraciət üzrə;
– Qərarın 19.1-19.3-cü bəndlərində nəzərdə tutulmuş orqanlar tərəfindən təqdim olunmuş amnistiyanın tətbiqinə dair __________ qərar üzrə amnistiyanın tətbiq edilməsinə razılıq verilməsindən imtina edilmişdir.

________________________________________ ________________________________________
(Hesabatı tərtib edən şəxsin vəzifəsi, imzası, adı, soyadı)

____________________
(tərtib olunma tarixi)

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**

**№ 150/64**

**Azərbaycan Respublikası Baş prokurorunun 20.12.2021-ci il tarixli 15/23 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğu orqanlarının sosial media siyasətinə dair Təlimat" da dəyişiklik edilməsi barədə**

**Bakı şəhəri** **29 dekabr 2025-ci il**

Sosial media idarəçiliyinin sürətli inkişafı və süni intellekt sistemlərinin geniş tətbiqi prokurorluq orqanlarının sosial media mühitində daha səmərəli və operativ fəaliyyəti üçün əlavə imkanlar yaradır.

Prokurorluq orqanlarının kommunikasiya sahəsində işinin səmərəliliyinin artırılması və sosial mediada sistemli fəaliyyətinin təmin olunması üçün, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş prokurorunun 20.12.2021-ci il tarixli 15/23 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğu orqanlarının sosial media siyasətinə dair Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** Təlimata aşağıdakı məzmunda 10-1-ci bənd əlavə edilsin:

**"10-1.** Sosial media idarəetməsində süni intellekt sistemlərindən istifadə imkanları

**10-1.1.** Məzmun yaradılması və optimallaşdırılması

**10-1.1.1.** Süni intellekt əsaslı məzmun generatorları vasitəsilə sosial media üçün mətnlər, posterlər və video ssenarilərin hazırlanması;

**10-1.1.2.** Paylaşım başlıqları, təsvirlər və həştəqlər üzrə təkliflərin alınması.

**10-1.2.** Vizual materialların hazırlanması

**10-1.2.1.** Dizayn alətləri və süni intellekt vasitəsilə vizual məzmun (posterlər, infoqrafikalar, sosial media kartları) yaradılması;

**10-1.2.2.** Süni intellekt əsaslı foto redaktə alətləri ilə şəkillərin ölçüsünün, keyfiyyətinin və estetik görünüşünün avtomatik tənzimlənməsi.

**10-1.3.** Monitorinq və sosial dinləmə

**10-1.3.1.** Süni intellekt alətləri ilə sosial media platformalarında qurumla bağlı paylaşımların, ictimai reaksiyaların və potensial böhran siqnallarının real vaxtda aşkar edilməsi;

**10-1.3.2.** Sentiment analiz (emosional təhlil) vasitəsilə ictimai rəyin müəyyənləşdirilməsi.

**10-1.4.** Cavablandırma və qarşılıqlı əlaqənin avtomatlaşdırılması

**10-1.4.1.** İstifadəçi suallarının təsnifatlaşdırılması və ona uyğun olaraq əvvəlcədən hazırlanmış cavablarla ilkin cavablandırılması və aidiyyəti üzrə baxılmaq üçün yönləndirilməsi.

**10-1.5.** Analitik şərhlərin və hesabatların hazırlanması

**10-1.5.1.** Süni intellekt əsaslı analitik alətlər vasitəsilə aylıq və rüblük sosial media hesabatları, onların əsasında analitik şərhlərin avtomatlaşdırılmış şəkildə hazırlanması;

**10-1.5.2.** Qarşılıqlı əlaqə səviyyəsi, izləyici artımı, məzmun göstəriciləri üzrə ətraflı təhlillərin aparılması.

**10-1.6.** Nəzarət, məsuliyyət və təhlükəsizlik

**10-1.6.1.** Məsul şəxs süni intellekt alətlərindən istifadə zamanı aparılan əməliyyatlara görə cavabdehdir;

**10-1.6.2.** Süni intellekt vasitəsilə yaradılan və emal olunan məlumatların məxfiliyi, informasiya təhlükəsizliyi və şəxsi məlumatların qorunması bu Təlimatın 9-cu bəndinə uyğun təmin edilir.";

**1.2.** Təlimatın 5-ci bəndinin birinci abzasında "Twitter" sözü "X" sözü ilə əvəz edilsin;

**1.3.** Təlimatın 10.1.7-ci yarımbəndində "nəzərə alınmalıdır." sözlərindən sonra "(əlavə № 2)" sözləri əlavə edilsin və aşağıdakı məzmunda 2 nömrəli əlavə təsdiq edilsin:

***Əlavə № 2***

**Sosial media platformaları üzrə vizualların parametrləri**
**(piksel və ratio ilə):**

| **Platforma** | **Profil Şəkli** | **Örtük şəkli** (Cover) | **Post** (Kvadrat) | **Post** (Portret) | **Post** (Hekayə Story) |
|---|---|---|---|---|---|
| **Facebook** | 1080 x 1080 (1x1) | 1500 x 500 (3x1) | 1200x 1200 (1x1) | 1080x 1350 (4x5) | 1080 x 1920 (9x16) |
| **Linkedin** | 1080 x 1080 (1x1) | 1128 x 191 (5.91x1) | 1200x 1200 (1x1) | 1080x 1350 (4x5) | 1080 x 1920 (9x16) |
| **Instagram** | 1080 x 1080 (1x1) | (cover yoxdur) | 1080 x 1080 (1x1) | 1080x 1350 (4x5) | 1080 x 1920 (9x16) |
| **X** | 1080 x 1080 (1x1) | 1500 x 500 (3x1) | 1200x 1200 (1x1) | 1080x 1350 (4x5) | 1080 x 1920 (9x16) |

**2.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**

**№ 150/65**

**Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilərək Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda dəyişikliklərin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 26 dekabr 2025-ci il tarixli 05 nömrəli qərarının icrasının təmin edilməsi barədə**

**Bakı şəhəri** **29 dekabr 2025-ci il**

Baş Prokurorluqda idarəçilik, icra və əmək intizamı, kadrlarla iş, sənəd dövriyyəsi, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkili məsələlərini, həmçinin Baş Prokurorluğun struktur qurumları və prokurorluq sisteminə daxil olan digər qurumları arasında, o cümlədən tabe prokurorluqlar ilə münasibətləri, tabe prokurorluqda işin təşkili və iş bölgüsünün əsaslarını tənzimləyən Azərbaycan Respublikası Baş Prokurorluğunun

"İşin Təşkili Qaydaları" Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilmiş və Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmişdir.

Ötən müddət ərzində qanunvericiliyə edilmiş dəyişikliklər, o cümlədən Qaydaların tətbiqi prosesində ortaya çıxan çətinliklər daha da təkmilləşdirilməsi məqsədilə Qaydalara normayaratma fəaliyyətinin mütənasiblik, sistemlilik və digər prinsiplərinə uyğun olaraq dəyişikliklər edilməsini zəruri etmişdir.

Qeyd olunanlara əsasən, Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"na dəyişikliklər edilməsi ilə əlaqədar Baş Prokurorluğun bütün struktur qurumları və tabe prokurorluqlar tərəfindən irəli sürülmüş təkliflər geniş müzakirə edilərək təkmilləşdirilmiş və hazırlanmış layihə təsdiq edilməsi üçün Baş Prokurorluğun Kollegiyasının müzakirəsinə çıxarılmışdır.

Baş Prokurorluğun 26 dekabr 2025-ci il tarixli Kollegiya iclasında Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nda dəyişikliklər təsdiq edilmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiya iclasının qərarının icrasını təmin etmək məqsədilə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10 və 11-ci maddələrini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilərək Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 26 dekabr 2025-ci il tarixli 05 qərarı ilə təsdiq edilmiş dəyişikliklər 01 yanvar 2026-cı il tarixdən qüvvəyə minsin və bütün prokurorluq orqanlarında tətbiq edilsin.

**2.** Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda təsdiq edilmiş dəyişikliklərə uyğun olaraq qısa müddət ərzində Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası prokurorluqları tərəfindən "İşin Təşkili Qaydaları"nda dəyişikliklərin hazırlanıb təsdiq olunması, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Bakı şəhər prokurorluğu tərəfindən isə müvafiq dəyişikliklərin hazırlanıb təsdiq üçün təqdim olunması təmin edilsin.

**3.** Əmrin icrasına nəzarət Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini və müavinlərinə, Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə həvalə edilsin.

**4.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**